AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

BƏXTİYAR TUNCAY

# KURQANLARDA YATAN MİFOLOJİ TƏFƏKKÜR VƏ GENETİK TARİXİMİZ

BAKI – 2018

**Bəxtiyar Tuncay. Kurqanlarda yatan mifoloji təfəkkür və genetik tariximiz.** Bakı, Elm və təhsil, 2018, -472 səh.

folklor.az

F $\frac{4603000000}{N\text{-}098\text{-}2018}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2018

# KURQANDA DƏFN İDEYASI VƏ ÜÇQATLI DÜNYA MODELİ BARƏDƏ ƏSKİ TÜRK MİFLƏRİ

İ.Arauxo kurqan mədəniyyətinin daşıyıcıları olmuş qəbilə və tayfaların dünyagörüşündən söz açaraq (Apaxyo И., 1982, s. 50) kurqanı əhatə edən daş düzümü, kurqan örtüyü və qəbir kamerasını vahid memarlıq ansamblının bir-biri ilə vəhdətdə olan elementləri adlandırır. O bu elementlərin mifoloji anlamını belə izah edir: «Dünyanın mərkəzində müqəddəs dağ durur. Yer və göy orada qarşılaşırlar. İstənilən sakral qurğu həmin dağı simvolizə edir və beləcə, «mərkəz» statusu qazanmış olur. Bu səbəbdən də işərisindən «Axis mundi» keçən sakral qurğu, yer, göy və yeraltı dünyanın qarşılaşma və birləşmə nöqtəsinə çevrilir. Beləliklə, kurqan kainatın, onun üç komponenti isə onun strukturunun mifoloji modelidir» (Герман П.В., 2001, s.15). Eyni fikrə L.Lelekovun (Лелеков Л.А., 1983, s.19; Лелеков Л.А., 1987) yazılarında da rast gəlmək mümükündür.

Bir sıra arxeoloqlar kurqan örtüyünün yeri, göyü və yeraltı dünyanı bir-birinə bağlayan dünya dağını ifadə etdiyini söyləmiş və həmin dağın izini hind-Avropa, daha dəqiq desək, hind-İran miflərində axtarmağa çalışmışlar (Лелеков Л. А., 1987). Halbuki eyni təsəvvürlərin izlərinə türk mifologiyasında da rast gəlinir və buradakı təsəvvürlər yuxarıda haqqında söz açılan təsəvvürlərlə daha çox üst-üstə düşür. AMEA Folklor İnstitutunun alimlərinin tədqiqatları göstərir ki, türk xalqlarının tapındığı ilkin təbiət varlıqlarından biri dağdır. «Göy Tanrısına yaxınlığına görə ulu əcdadın təsəvvüründə Dağ kultlaşdırılmış, insanları Yaradana bağlayan əsas vasitə sayılmışdır. Qədim türk inancına görə, Dünya Dağı üç qatdan ibarətdir: birinci qat, başı günəşə çatan, doqquz iqlimin kəsişdiyi ənginlikdə yerləşən Altundağdır; ikinci qat, yer üzündə, doqquz meşənin dərinliyində yerləşən Dəmirdağdır (mənbələrdə: Temirtav, Tömürtav); üçüncü qat isə yeraltı aləmin doqquz dənizinin birləşdiyi qaranlıq məkanda yerləşən Misdağdır.

Dəmirdağ göyün 12-ci qatına qədər yüksəlirmiş. Yerlə göyü birləşdirən Dünya Dağının zirvəsi qızıl, əyilməz hissəsi – or-

tası dəmir, ayağı – aşağısı misdən imiş» (Tanrıverdi, 2013, səh. 3-4; Həkimova, Tuncay B, 2016, s. 58).

Burada əksini tapan mifoloji təsəvvürlərdə ən maraqlı məqam dünya dağının başının altundan, yəni qızıldan, ayağının misdən olmasının qeyd edilməsidir ki, bu təsvvür kurqan mədəniyyətinin ortaya çıxdığı eneolit dövrü, yəni mis-daş dövrün ilə, eləcə də kurqanlarda qızıl əşyalara da bol-bol rast gəlinməsi hadisəsi ilə inanılmaz dərəcədə səsləşir. «Dünya dağının əyilməz hissəsinin – ortasının dəmirdən» olmasına gəlincə isə, bu sonrakı dövrün, başqa sözlə, dəmir dövrünün əlavəsi hesab edilə bilər.

Azərbaycan türklərinin folklorunda da dağ kultu ilə bağlı istənilən qədər materiala rast gəlinməkdədir. Bu özünü dağ-pir əfsanələrində (Azərbaycan etnoqrafiyası, III , 2007, səh. 339; Hacıyeva, 2001, səh. 63; Kalafat, 2006), dağlarla bağlı əfsanə və mifoloji mətnlərdə (Bəydili, 2007, s. 145; Azərbaycan Folkloru Antalogiyası, 2005, səh. 39), bayatılarada (Tanrıverdi, 2013, səh. 3-4), dastanlarda (Kitabi-Dədəd Qorqud, 1988, s. 39) və s. göstərməkdədir.

Kurqan ideyasının əsasında duran üçqatlı dünya modelinə keçmişdə öz ölülərini kurqanlarda dəfn etmiş bir sıra müasir türk xalqlarının əski mofoloji mətnlərində rast gəlmək mümkündür.

Tədqiqatçıların yazdığına görə, saxa-yakut şamanlarının inanclarına görə, yuxarı dünyada “ayıı” adlandırılan fövqəltəbii varlıqlar məskundur ki, onların da başında Ağ Ana Ürünq Ayığ Toyon durur. O, hər şeyin, o cümlədən insanın və heyvanların yaradıcısı olan Tanrının özüdür. Ayıılar Tanrının, yəni Ağ Ana Ürünq Ayığ Toyonun xidmətçiləri və yaxın köməkçiləridir. Onlar da eynən Tanrının özü kimi insanlara qut verirlər. Onların hər birinin özünəməxsus funksiyaları var. Məsələn, Cesegey ayıı atçılığın himayədarıdır və insanlara at əhliləşdirməyi, minməyi və arabaya qoşmağı, eləcə də ətindən, südündən, dərisindən istifadə etməyi o öyrətmişdir. Sügə toyon (tərcüməsi “Balta ağa”) isə ildırımların və şimşəklərin hakimidir (Ксенефонтов, 1977, с. 97). Bundan başqa bir çox saxa – yakut soylarının himayəçisi sayılan Omoqoyun, Lena çayının sahibi Acirayın (buryatlarda Ajiray) da adlarını çəkmək olar (Кулаковский, 1979, c 18; Михайлов, 1980, с. 172; Tuncay B., 2014).

Bu mifik varlıqlar Azərbaycan mifoloji mətnlərində “iyələr” və ya “əyələr” kimi tanınır və Azərbaycan türkləri də İslamdan öncə onların hamilik, sahiblik missiyasına malik olduqlarına inanmışlar. Bu inancı əks etdirən bir Azərbaycan mifi də qeydə alınmışdır (Azərbaycan mifoloji mətnləri, 1988, s. 51).

Saxa-yakutların “ayıı”, Azərbaycan türklərinin “iyə” və ya “əyə” adlandırdıqları mifik varlıqlar (ruhlar) barədə düşüncələrini dilə gətirən R. Q. Axmetyanov iye, əyə, eye anlayışının əski türkcədəki “eqe” ilə bağlı ola biləcəyi ehtimalını irəli sürmüşdür (Ахметьянов, 1981, c. 28). C.Bəydili “izi // iyə” istilahını kult hesab etmiş və bildirmişdir ki, bu kult öz kökünü təbiətdən alır: “Tanrıçılıq dünyagörüşünün ayrılmaz parçası olan və şamanizm elementlərini yaşadan pir-ocaq inanışı da təbiətdən gəlir” (Bəydili, 2003, s. 183).

Yuxarıda təqdim etdiyimiz mifik təsəvvürlərdə diqqəti çəkən ən maraqlı məqamlardan biri də Ağ Ana Ürünq Ayığ Toyonun adı ilə bağlıdır. Həmin təsəvvürlərə görə, o (ana ilahəsi) kainatın başında durur. Yəni əsas sitayiş obyektidir. Bu təsəvvür kurqanların peyda olduğu neolit-eneolit dövrünün təsəvvürləri ilə inanılmaz dərəcədə səsləşir.

Məsələ, təbii ki, təkcə ana tanrıçası ilə bitmir. Saxa yakut inanclar sistemində onun köməkçilərindən biri olan Cesegey ayıı adlı ruhun atçılığın himayədarı olduğu və insanlara at əhliləşdirməyi, minməyi və arabaya qoşmağı, eləcə də ətindən, südündən, dərisindən istifadə etməyi onun öyrətdiyi bildirilir. İlk baxışda önəmsiz kimi görünən bu məlumat ən azı tunc dövründən izlənən kurqanlarda at dəfni, kurqanlara araba və ya onun gildən modelinin qoyulması adətinin semantikasını başa düşməyə imkan verir. Eyni zamanda Soyuqbulaq kurqanlarından birindən tapılmış at başlı skipeterin ora hansı səbəbdən qoyulduğu da aydın olur.

N.A.Alekseyev yazır ki, saxa-yakutlar Ürünq Ayıı Toyona (Ağ anaya) eyni rəngdə at qurban edərdilər. Yakutların inancna görə, diri tanrıçalara göndərilən və ya qurban verilən atın ruhu qurban verildiyi həmin fövqəltəbii varlığın yurduna “köçür”və orada yaşamaqda davam edir (Алексеев, 1984, c. 29).

S.Pletnyova qıpçaqlara həsr etdiyi kitabında oğuz, qıpçaq və peçeneqlərdən bəhs edərək yazır ki, bu xalqlar ümumilikdə vahid ənənələrə sahib olmuşlar. Qohumların qarşısında duran əsas vəzifə ölən şəxsi o biri dünyada vacib olan hər şeylə, ilk növbədə at və silahla təmin etmək idi. Əsas fərq ənənənin detallarında, ölünü başı qərb və ya şərq istiqamətində dəfn etməkdə, onunla birlikdə basdırılan atın qəbrə bütöv şəkildə və ya müqəvva şəklində qoyulmasında idi… Bəzi fərqlər qəbir kamerasının və kurqan örtüyünün formasında da müşahidə edilirdi (Плетнева С.А., 1990, s. 48).

Belə aydın olur ki, kurqanların forma və quruluşu, ora qoyulan əşyalar arasındakı fərq ölən şəxsin hansı qəbiləyə məxsus olmasından qaynaqlanırmış. Bunun isə səbəbi, fikrimizcə, fərqli qəbilələrin özlərini aşağı dünyanın hansı mifik varlığı ilə sıx əlaqədə görməsindən, onu öz himayəçisi hesab etməsindən irəli gəlirdi.

L.E.Karunovskayanın şaman Mereyin dilindən qələmə aldığı materiallardan belə aydın olur ki, Altay türklərinin təsəvvürünə görə, aşağı dünyada ölmüş qohumlarn ruhları yaşayırlar. Onlar çadırlarda yaşayır, maldarlıqla məşğul olurlar (Каруновская, 1935, c. 177-178). Yeraltı dünyanın sahibi Erliyin altı oğlu var: Erke Solton, Temir xan, Jalbak Temir Dırındu (Geniş, dəmirdən beli olan), Karaş, Kakır, Köös Kara (Qara çuğuncuq) (Каруновская, 1935, c. 178-182).

Qeyd edək ki, bu adlardan yalnız ikisi A.V.Anoxinin topladığı materiallardakı adlarla üst-üstə düşür: Karaş və Temir xan. Erke Solton isə Anoxində Erliyin qızlarından birinin adıdır.

L.E.Karunovskaya eyni zamanda Altay soylarından hansılarının bu oğullardan hansını daha üstün tutduğunu və ona qurban verdiyini də müəyyənləşdirə bilmişdir. Məlum olmuşdur ki, tanqdı, aara, olüp, modor, munal və törböt soyları Erke Soltonu, todoş, qıpçaq, oocı və mundus soyları Temir xanı, todoş, qıpçaq, mundus, koojo, captı və tonqjoan soyları Jalbak Temir Dırındunu, irkit, kobolı, soyon və merkit soyları Karaşı, koojo, yetti-sarı, üs və kör saqqal soyları Köös Karanı, köbök, merkit və yetti-sarı soyları isə Kakırı öz himayəçiləri hesab etmişlər (Каруновская, 1935, c. 178-182).

Alimin bu sözlərini hər bir türk soyunun Erlikin bir və ya iki oğlunu daha əziz tutduğununu söyləyən A. V. Anoxinin məlumatları da təsdiqləməkdədir. Onun yazdıqlarına əsasən, merkitlər öz himayəçiləri kimi Karaş və Kakırı, yetti-sarılar isə Kö-ös Kara və Jalbak Temir Dırındunu hesab edirdilər.

L.E.Karunovskayanın materiallarında Erlikin oğullarından hansının aşağı dünyanın hansı yerində yaşadığı da qeyd edilmişdir. Bu qeydlərdə Erke Soltonun yerin ən aşağı-doqquzuncu qatında, Temir xanın yeddinci qatda, Karaşın beşinci, Jalbak Temir Dırındu və Köss Karanın üçüncü, Kakırın isə birinci qatlarda yaşadığı bildirilir (Каруновская, 1935, c. 178-182).

Q.Dlujnevskayanın sözlərinə görə, Sayan-Altay və Cənubi Sibirin türkdilli xalqları ölümə mövcudluğun transformasiyası, insanın yeni məkana köçü kimi baxırlar və ölümü bir son kimi görmürlər. Onlar insan öldüyü andan onun başqa dünyayadakı ehtiyaclarının ödənilməsi hazırlıqlarına başlayırlar. Onu o biri dünyada lazım olan hər şeylə təmin edirlər (Длужневская Г.В., 1996, s. 37).

Yuxarıda təqdim edilən saxa-yakutlara aid mifoloji süjetdən göründüyü kimi, Ana ilahəsinin digər köməkçisinin adı Sügə toyon, yəni "Balta ağa"dır və o, ildırımların və şimşəklərin hakimidir. Bu, kurqanlarda tez-tez rast gəlinən baltaların ora nədən qoyulması barədə müəyyən təsəvvür yaradır.

Təqdim edilən mifoloji mətndə insanlara arabanın düzəldilməsinin öyrədilməsi barədə verilən informasiya da çox maraqlıdr. Bu süjet təkərin və arabanın ilk yaradılışı barədə türk folklorunda rast gəlinən yeganə süjet deyil. İlk arabanın kimlər tərəfindən və hansı şəraitdə yaradıldığı barədə fikirlərə «Oğuzna-mə»nin həm uyğur, həm də Rəşidəddin variantlarında rast gəlmək mümkündür. Məsələn, Rəşidəddin variantında deyilir ki, «…başqa bir qəbilə isə düşməni pərən salıb xeyli qənimət (ulcay) ələ keçirdi. Lakin bu qənimətləri daşıyıb aparası yük heyvanları gəlib çatmadığından onlar arabalar (kanqlı) düzəltdilər. Ona qədər təkər yox idi, ona görə də arabanı ilk düzəldən onlar oldular. Gərək olan yükləri, qənimətləri bu arabalara yükləyib

apardılar və bu səbəbdən də Oğuz onlara – Kanqlı, yəni arabaçılar, arabası olanlar adı verdi» (Rəşədəddin, 1992, s. 9).

Arabaların guya hind-Avropa arealında yayılması və sonralar cənub – Qafqaz istiqamətində yayılması barədə A. D. Rezepkinin fikirləri ilə razılaşmayan N. Müseyibli haqlı olaraq qeyd edir ki, təkər modellərinin ən qədim nümunələrinin Balkan abidələrində aşkar edilməsi fikri doğru deyildir. Belə ki, hind-avropalıların ilk vətənindən uzaqda – Azərbaycanın Muğan bölgəsində qazılan, eneolit dövrünə aid Polutəpə yaşayış yerindən (Ахундов, 2011, s. 224-225) e.ə. V minilliyə aid təkər modeli aşkar edilmişdir (Müseyibli N., 2014, s.84-85).

Saxsıdan hazırlanmış təkər modellərinə Leylatəpə, Böyük Kəsik, Qalayeri və II Poylu yaşayış yerlərində (hamısı e.ə. IV minillik) də rast gəlinmişdir (Müseyibli N., 2014, s.85).

Sibir və Altay türklərinin mifik təsəvvürlərinə görə orta dünya, yəni yer sadəcə insanların və heyvanların yaşadıqları, bitkilərin mövcud olduğu bir məkan deyil. Burada da yixarı dünyada, yəni göylərdə olduğu kimi çox sayda ruhlar – çaylarn, göllərin, dağların və s. hami ruhları yaşamaqdadır (Алексеев, 1980). Bu fikir saxa-yakutlar üçün də xarakterikdir. Onlar inanmışlar ki, yer üzündə göylərdəki və yerin altındakı ruhlardan – abaasılardan fərqli "kiçik abaasılar" yaşayır və bəzi xəstəliklərin səbəbkarı onlardır (Кулаковский, 1979, c. 27-28; Попов, 1949, c. 255-323). Azərbaycan və Anadoluda bu varlıqlara «albastı», «al qarısı», «almas» və ya «hal anası» deyirlər.

Sibir və Altayda yaşayan digər türk xalqlarının mifologiyasında olduğu kimi, saxa-yakuut türklərinin də mifik təsəvvürlərinə görə, yerin altında aşağı dünya yerləşir. Bu dünya günəş və ayın işığının zəif saçdığı yarıqaranlq və ya qaranlıq aləm kimi təsvir edilir (Кулаковский, 1979, c.12; Эргис, 1974, c. 136), "Kətit ötügen" (geniş məşhər yeri) və ya "kedən tügəgə" (məşhər yerinin dibi) adlandırlır. Bu adlardan birincisində işlənmiş "ötügen" terminınə Orxon-Yenisey abidlərində də rast gəlinir. Bu, Selenqa və Yenisey çaylarınn mənsəbləri arasında uzanan bir dağ silsiləsinin adıdır (Потапов, 1978, c. 34). Q. U. Erqis bu faktdan çıxış edərək, belə

bir ehtimal irəli sürmüşdür ki, saxa-yakutlar nə zamansa göytürklərlə (türkütlərlə) və onların yaşadıqları Ötügen ölkəsi ilə təmasda olmuş, fəqət zamanla bu ölkə – əcdadlarının torpağı yaddaşlarından silinmiş, yalnız əfsanə və rəvayətlərdə yaşamaqda davam etmişdir. Eyni sözləri saxa-yakut rəvayətlərində "Bayxal" kimi yad edilən Baykal gölü barədə də söyləmək olar (Эргис, 1974, c. 137-138). N. A.Alekseyev isə "Ötügen" oronimininin yeraltı, aşağı dünyanın, yəni şər ruhların yaşadığı məkanın adına çevrilməsinin saxa-yakutlarla göytürklərin bir vaxtlar düşmənçilik etmiş olmaları ilə bağlı ola biləcəyini ehtimal edir (Алексеев, 1984, c. 49).

Saxa-yakutlar aşağı dünyanın şər ruhlarını da eynən yuxarı dünyanın ruhları kimi antropomorfik təsəvvür etmişlər. Onlar bu ruhları yeddi qəbiləyə bölür, başçılarını isə Arsan Duolay adlandırırlar (Слепцов, 1886, c. 120). Arsan Duolayın yeraltı xanlığın dibində, hörümçəklərin qaynaşdğı palçıq vulkanının yaxınlığında yaşadğı hesab edilir (Потапов, 1949, c. 280). Onun şəxsiyyəti barədə təsəvvürlər dumanlıdır (Tuncay B., 2014).

Aşağı dünya sakinlərinin adlarının nisbətən təkmil siyahısını V.M.İonov tərtib etmişdir: Arsan Duolay, Buor Manqalay, Luo xaan toyon (Tuncay B., 2014). Bu adlar içərisində Luo xaan (əjdaha xan-ağa) adı maraq doğurur. Belə ki, əski türk dilində "lu", "luo" əjdaha deməkdir. Əjdaha isə digər türk xalqlarının mifik təsəvvürlərinə görə göy sakinidir. Saxa-yakutların Luo xaanı isə aşağı dünyanı təmsil edir. O, eynən Buor Manqalay kimi Arsan Duolayın oğullarından biridir və yeddi qəbilədən birinə başçılıq edir (Слепцов, 1886, c. 121).

Üçqatlı dünya modelin izləri Azərbaycan folklorunda da qorunub saxlanmışdır. Folklorşünas alim R. Qafarov mövzu ilə bağlı yazır ki, «Kitabi-Dədə Qorqud»da həmin təsəvvürlərə söykənən mifik dünya modelinin tam təsvirinə rast gəlirik. «İlk olaraq onu vurğulamaq lazımdır ki, Azərbaycanda yazıya alınan Drezden nüsxəsinin on iki boylu mətnində eposun hadisələri yer üzündə üç çadırın (ağ, qırmızı, qara) dikəlməsi ilə başlayır və başı göyə toxunan bir göy çadırın qurulması ilə tamamlanır» (Qafarov R., 2010, s.31-32).

Saxa-yakutlar ölən insanların bir qisminin ruhlarının üörlərə çevrildiklərinə inanmışlar. Bu “üör”lər insanları narahat edir, onların xəstələnmələrinə, başlarına pis hadisələrin gəlmələrinə səbəbkar olurlar:

«Saxaların (yakutların) inancına görə, insanlar öldükdən sonra ölülər dünyasına köçsəlr də və başqa dünyanın sakinlrinə çevrilsələr də, ruhları geri dönüb insanların arasında yaşaya bilirlər. Bu halda onlar yalnız şər ruhlara – üörlərə çevrilirlər. Türkəçarə (otçi) Bürqesin V. M. İonov tərəfindən qeydə alınmış sözlərindən belə aydın olur ki, Ölən insanın ruhu (sür və qut) ölülər dünyasına köçdükdən sonra ruhlar ondan üörə çevrilmək istəyib-istəmədiklərini soruşurlar, cavab müsbət olduqda onu üç dəfə şəkildən şəklə salır, üörə çevirir və insanların yaşadıqları orta dünyaya qovurlar. Bu məqsədlə ona insan şəkli verir, içinə isə abaası yerləşdirirlər. Və bu abaası – üör yer üzünü ölən adamın şəklində dolaşmağa başlayır» (Tuncay B., 2014).

Üörlər insanlara yaxınlaşdqda insanlar onları görmürlər. Çünki onlar da digər ruhlar kimi görünməzdilər. Belə hesab edilirdi ki, mərhumları adları ilə çağırmaq olmaz, əks təqdirdə onlar həmin insandan əl çəkməyəcək və ona pislik edəcəkıər (Ксенефонтов, 1929, c. 9). Bu inancın izləri bir Azərbaycan nağılında (Oxxayın nağılı) da öz izlərini qorumuşdur. Həmin nağılda qəhrəman atasının bilmədən və istəmədən Oxxay adlı bəd ruhun adını çəkdiyindən onun bəd əməlləri ilə üzləşməli olur (Tuncay B., 2014).

Saxaların (yakutların) inancına görə, üörlər sırasına başıboş və axmaq adamların (dəlilərin), xüsusi amansızlıqla öldürülmüşlərin, intihar etmişlərin və cadugərlərin ruhları çevrilirlər. Dəlilər ona görə üörə çevrilirlər ki, onlar, bir qayda olaraq, qadınların şər ruhları ilə intim münasibətlərindən doğulmuşlar və bu üzdən də onların “normal ruh”a çevrilmələri mükün deyil. Qəddarlıqla öldürülənlər isə üörə könüllü surətdə çevrilirdilər ki, öz qatillərindən qisas ala bilsinlər. İntihar edənlərə gəlincə isə, bunlar sağlıqlarında bədənlərinə bəd ruhlar girən və ağılları əllərindən alınanlardır ki, onların da üördən başqa bir şeyə çevrilmsi imkan xaricindədirlər (Слепцов, 1886, c. 130; Припузов, 1884, c. 64).

Cadugərlərin ruhlarının nədən üörə çevrildiyi isə dəqiq məlum deyil. N.A.Alekseyevin fikrincə, bu ona görə baş verir ki, cadugərlər cadu etmək üçün mütləq hər hansısa bir bəd ruhla əlaqəyə girməli olurlar. Onun yazdğına görə, daim ruhlarla əlaqədə olan qüdrətli şamanlar da üör ola bilər (Tuncay B., 2014).

Rus alimləri tərəfindən toplanmış materiallardan göründüyü kimi, ayrı-ayrı soyların onqonu (totemi) olan quş və heyvanlar da təsadüfən, ehtiyatsızlıq üzündən öldürüldükdə üörlərə çevrilirlər. Eyni sözləri eybəcət buzov və dayçalar barədə də söyləmək olar (Пекарский, 1959, с. 2886).

İnsanlara ziyan vuran xırda ruhlardan və üörlərdən başqa, saxaların (yakutların) orta dünyaya aid etdikləri fövqaltəbii varlıqlar içərisində yuxarı dünya ilə orta dünya arasında var-gəl edən Vosol ağa və Mosol xanım da yer almaqdadırlar. Bu mifik varlıqlar İsəgey Ayıısıt adlı tanrıçanın mal-qaraya qut verməsinə mane olurlar. Bunun üçün onların buzdan qayrılmış xüsusi tövlə, axıl və binələri var. Onların oğlu Buos Bəsirik isə onlarn oğurladıqları mal-qaranı yenidən İsəgey Ayıısıta qaytarmaqla məşğuldur.

Orta dünyada onun öz real və mifik varlqlarından başqa, yuxarı və aşağı dünyaların sakinlərinin də tez-tez peyda olmalarına və yer üzünü tufan kimi dolaşdıqlarına inanılmşdır. Belə hesab edilirdi ki, bu tip abaasılar od saçır və onları xəstəliyin tüğyan etdiyi yerlərdə müşahidə etmək mümkündür. Bu bəd ruhlar adətən əyri-üyrü ağacların oyuqlarnda məskunlaşırlar.

Sibir və Altayda yaşayan digər türk xalqlarının mifologiyasında olduğu kimi, saxa-yakuut türklərinin də mifik təsəvvürlərinə görə, yerin altında aşağı dünya yerləşir. Bu dünya günəş və ayın işığının zəif saçdığı yarıqaranlq və ya qaranlıq aləm kimi təsvir edilir (Куликовский, 1979, с.12; Эргис, 1974, с. 136), "Kətit ötügen" (geniş məşhər yeri) və ya "kedən tügəgə" (məşhər yerinin dibi) adlandırılır. Bu adlardan birincisində işlənmiş "ötügen" termininə Orxon-Yenisey abidlərində də rast gəlinir. Bu, Selenqa və Yenisey çaylarınn mənsəbləri arasında uzanan bir dağ silsiləsinin adıdır (Потапов, 1978, с. 34). Q.U.Erqis bu faktdan çıxış edərək, belə bir ehtimal irəli sürmüşdür ki, saxa-yakutlar nə zamansa göytürklərlə

(türkütlərlə) və onların yaşadıqları Ötügen ölkəsi ilə təmasda olmuş, fəqət zamanla bu ölkə – əcdadlarının torpağı yaddaşlarından silinmiş, yalnız əfsanə və rəvayətlərdə yaşamaqda davam etmişdir. Eyni sözləri saxa-yakut rəvayətlərində "Bayxal" kimi yad edilən Baykal gölü barədə də söyləmək olar (Эргис, 1974, с. 137-138). N. A.Alekseyev isə "Ötügen" oroniminin yeraltı, aşağı dünyanın, yəni şər ruhların yaşadığı məkanın adına çevrilməsinin saxa-yakutlarla göytürklərin bir vaxtlar düşmənçilik etmiş olmaları ilə bağlı ola biləcəyini ehtimal edir (Алексеев, 1984, с. 49).

Saxa-yakutlar aşağı dünyanın şər ruhlarını da eynən yuxarı dünyanın ruhları kimi antropomorfik təsəvvür etmişlər. Onlar bu ruhları yeddi qəbiləyə bölür, başçılarını isə Arsan Duolay adlandırırlar (Слепцов, 1886, с. 120). Arsan Duolayın yeraltı xanlığın dibində, hörümçəklərin qaynaşdğı palçıq vulkanının yaxınlığında yaşadğı hesab edilir (Потапов, 1949, с. 280). Onun şəxsiyyəti barədə təsəvvürlər dumanlıdır.

Aşağı dünya sakinlərinin adlarının nisbətən təkmil siyahısını V.İonov tərtib etmişdir: Arsan Duolay, Buor Manqalay, Luo xaan toyon (АИВ АН СССР (ЛО) ф. 22, оп. 1, д.1, л. 42). Bu adlar içərisində Luo xaan (əjdaha xan-ağa) adı maraq doğurur. Beləki, əski türk dilində "lu", "luo" əjdaha deməkdir. Əjdaha isə digər türk xalqlarının mifik təsəvvürlərinə görə göy sakinidir. Saxa-yakutların Luo xaanı isə aşağı dünyanı təmsil edir. O, eynən Buor Manqalay kimi Arsan Duolayın oğullarından biridir və yeddi qəbilədən birinə başçılıq edir (Слепцов, 1886, с. 121). V. İonovun qeydlərində isə söhbət yeddi deyil, iyirmi yeddi qəbilədən gedir və onların başlarında duranlar içərisində ən məhşurlarının Luo xan (Luo xaan), Buor Tüsümel (oğlan) və Buor Manqalay (qız) olduqları bildirilir (АИВ АН СССР (ЛО) ф. 22, оп. 1, д.1, л. 46).

Q.Ksenefontovun yazdığna görə, onun dövründə saxa-yakutların mifik təsəvvürlərində yeraltı dünyanın daha bir mifik sakini – ölüm və bədbəxtlik müjdəçisi olan "Ölör-ölör luo balıqa" adlı bir başlı, iki quyruqlu balıq barədə təsəvvürlər də hələ canlı idi (Ксенефонтов, 1928, с. 11).

E.Pekarski aşağı dünyanın "Ölör ölüü luo xaan oqusa" adlı daha bir mifik varlığı barədə söz açmış və bu varlığın adını "böyük ölümcül ölüm öküzü" (большой бык смертной смерти) kimi tərcümə etmişdir (Пекарский Э.Л., 1959, т. 2, с. 1480). Bu halda "ölör ölüü" ifadəsinin hərfi tərcüməsinin doğru olduğunu qeyd edən Q.Ksenefontovun fikrincə, bu sözbirləşməsi "ölüm və bədbəxtliklərin mənbəyi" anlamına gəlir. Odur ki, "Ölör ölüü luo xaan oqusa"nın adı "Ölüm və bədbəxtliklərin mənbəyi olan öküz Luo xan" kimi tərcümə edilməlidir. Alim yazır ki, saxa-yakutların inancına görə, kəlləsinin ortasında nəhəng və tək buynuz olan bu mifik varlıq vaxtaşırı yer altından yer üzünə çıxır, inəklərin üzərinə çökərək, onlarla cinsi əlaqəyə girir və bu əlaqədən eybəcər buzovlar dünyaya gəlir. Əgər buzov erkəkdirsə sahibi, dişidirsə sahibəsi mütləq öləcəkdir (АИВ АН СССР (ЛО) ф. 22, оп. 1, д.1, л. 34).

Aşağı dünyanın A.Kulakovski tərəfindən qeydə alınmış nisbətən az əhəmiyyətli mifik obrazlardan biri də Adaqalax Ala Buuray Toyondur. Adı "ayağıyalın, çılpaq ağa" anlamına gəlir (Кулаковский, 1923, с. 26).

Bu tip ruhlardan biri də Dulurba Xara Toyondur (Алексеев, 1984, с. 50). Saxa-yakutlar vərəm və digər xəstəliklərin yayıcısı hesab edilən Aan Arbatıı Toyonu və uşaqları məhv edən Xarsa Tördönü daha dəhşətli və qorxulu aşağı dünya ruhlarndan hesab edilirdilər. Aşağı dünyanın sakinləri ümumiyyətlə bir çox xəstəliklərin törədiciləri kimi qəbul edilir, onların hər birinin yeraltı dünyada özünəməxsus sahəsinin – ulusunun və məskən yerinin olduğuna, bu ruhların ayr-ayrı qəbilələrdən ibarət olduğuna inanılırdı. Məsələn, Xarsa qəbiləsinə mənsub ruhların aşağı dünyanın şimalında məskun olduqları hesab edilir, onlardan insanlara ən yaxın məkanda yaşayanlar aşağdaklardır:

Ağzı qana bulaşmış
Xaan Badalay ağa,
Xaan Babadılaq xanım.
Oğulları Xarqıy Xara,
Qızları Xaan Xadıalama (АИВ АН СССР (ЛО)
ф. 22, оп. 1, д.1, л. 51).

Şər ruhlardan ibarət bu tip mifik soy və ailələrin sayı, yuxarıda qeyd edildiyi kimi, bəzən yeddi, bəzənsə iyirmi yeddi kimi göstərilir. Konkret olaraq bu ailəyə gəlincə, onun Bueruya Xarsa qəbiləsinə mənsub olduğu, sözügedən qəbilənin Buxara Doluo ulusunda yaşadığı, həmin ulusa çatmaq üçün şamanların yolda yeddi dəfə ayaq saxlayıb, dincəlməli olduqları söylənilir. Onların ulusuna çatmamış Bueruya Xarsa ağa və arvadı Burauya Xarsa xanımın, eləcə də oğulları Buos Baxaydaan (sonsuz Baxaydaan) və qızları Buos Bəsirikin (Sonsuz Bəsirik) yaşadıqları geniş ulus yerləşir. Buxara Doulo ulusundan sonrakı ulusun sakinləri və onların yaşadıqları məkan belə təsvir edilir:

Geniş yolları olan,
Küp ağzına oxşayan,
Çuğunu xatırladan
Üfunətli çirkabda,
Zığlı bataqlqda,
Duolan Xarsa ağa yaşamaqda.
Bir də Duolatı Xarsa xanım,
Anası Bəsirik Atax oğlanın.
Bəsirik Naarax adıdır qızının
(АИВ АН СССР (ЛО) ф. 22, оп. 1, д.1, л. 51).

Saxa-yakut miflərində təkcə yeraltı dünya sakinlərinin yer üzünü ziyarət etməsindən deyil, eyni zamanda, bəzi hallarda insanların da aşağı dünyaya səyahətləri təsvir edilir. Bu əsasən kişilərdir. Onlar aşağı dünyadakı qızlarla sevişir və bu da onların xəstələnməsinə səbəb olur. Bu vaxt özünü yetirən şaman onları yer üzünə qaytarır və onlar yalnız bundan sonra sağalıb ayağa qalxırlar (Эргис, 1974, с. 139).

Saxa-yakutların folklorunda "şimal qarıları" adlandrılan məxluqlar da aşağı dünyanın şər ruhları sırasında yad edilir. Fəqət bu, folklora müsair zamanlarda daxil olan tamam yeni elementdir. Beləki, "şimal qarıları" dedikdə, uzaq şimalda ölmüş rus qadınlarının ruhları nəzərdə tutulur (Ксенефонтов, 1929, с. 58). Elə bu səbəbdən də həmin elementi türk mifoloji sisteminin öyrənilməsi baxımından önəmli element saymaq mümkün deyil.

Altay türklərinin də mifik təsəvvürlərinə görə göyün müxtəlif qatlarında çox sayda tanrıça və ruh yaşamaqdadır. S. Tokarev tərəfindən toplanmış materiallardan göründüyü kimi, təktanrıçılığın ortaya çıxışından öncə altaylıların ən çox sitayiş etdikləri mifik varlıq Ülgen (Bay Ülgen, sonrakı mərhələlərdə Ülgen Tanrı) olmuşdur. N. Alekseeyev yazır ki, bu varlıq ilk dövrlərdə qıpçaq və todoş (tarduş) soy bə boylarının himayəçisi sayılmış, sonradan bütün Altay soy və boyları tərəfindən də əsas tanrıça kimi qəbul edilərək, ümumaltay tanrıçasına çevrilmişdir (Алексеев, 1984, c. 32). S. Tokarevin fikrincə də Ülgen ilk öncə çox qədim zamanlardan Altaya gəlib burada məskunlaşan qıpçaq və ya hansısa başqa türk soy və ya boyunun tanrıçası olmuş, ayrı-ayrı soy və boylar birləşərək, Altay türklərini meydana gətirdikdə isə bu tanrıça bütün altaylılar tərəfindən əsas tanrıça kimi qəbul edilmişdir. Alimin fikrincə bu element Altaya kənardan gəlmə elementdir (ИЯЛИ ЯФ СО АН СССР, c.145-146).

S.Tokarev eyni zamanda bir sıra digər Altay tanrıçalarının da ümumaltay panteonuna daxil olmamışdan öncə ayrı-ayrı soy və boyların əcdad ruhu və himayəçisi kimi çxış etdiyini üzə çıxara və onlardan hansının məhz hansı soy və boya aid olduğunu dəqiqləşdirə bilmişdir. Məsələn, Ülgenin oğlu olduğu hesab edilən Karşit ümumaltay panteonuna daxil edilməmişdən öncə o, Altayın cənubunda – Onquday oymağında yaşayan bir sıra türk soylarının – maymanların, todoşların, kerqillərin, çaaptıların, tonqjoanların, və ülütlərin soy babası və himayəçi ruhu olmuşdur. Altayın şimalında məskunlaşmış soylar isə ona biganə idilər. Telenqitlərin isə onun barədə heç xəbərləri belə yox idi. A.Anoxinin qeydlərindən isə belə məlum olur ki, Ülgenin digər oğlu Pırça xana isə güney soylarından yalnız çaaptılar, quzey soylarından isə yalnız komdoş və kuzenlər tapınırdılar (ИЯЛИ ЯФ СО АН СССР, c.145-146).

A.Anoxinin yazdığna görə, Ülgenin digər bir oğlu Paxtuqan (Paxtıqan) idi. Şvetsov bildirir ki, o, yəni Paxtuqan köbök və almat soylarının tanrıçası və himayəçi ruhu hesab edilirdi (Швецов, 1900, c. 75). Bu soylar isə Çuysk bölgəsində yaşayan telenqit boyuna daxil idilər (Токарев, 1947, c. 147).

S.Tokarev Onqudat oymağnda tədqiqatlar apararkən öyrənmişdir ki, Paxtıqan (Paxtuqan) tölöslərin tanrıçasıdır. Ona eyni zamanda məlumat vermişlər ki, tuba soylarından üslər də ona Tanrı kimi sitayiş etmişlər. N.Alekseyevin Borsuk Belekovdan topladığı materiallardan isə bu mifik varlığın altaylıların köbök soyunun da tanrıçası olduğu məlum olur. Onun bu məlumatı S.Şvetsovun məlumatları ilə üst-üst düşür (Алексеев, 1984, с. 32). Lakin S.Tokarev onları şübhə ilə qarşılayaraq bu məlumatların həqiqət kimi qarşılanmasının mümkün olmadığı fikrindədir (Токарев, 1947, с. 147).

S.Tokarev ondan daha öncə Ülgenin oğlanlarından Karaquş və Yajil xan haqqında materiallar toplamış A.Anoxinin məlumatını gücləndirən başqa materiallar da toplayaraq müəyyən etmişdir ki, onlara şimalda yaşayan Altay soyları tapınmışlar (Токарев, 1947, с. 147-148). Alim apardığı tədqiqatların nəticələrini ümumilşdirərək belə bir yekun fikrə gəlmişdir ki, Ülgen ümumaltay tanrıçası olsa da, onu Sayan mənşəli soylar – ırkıt və sayanlar da uca tutmuşlar (Токарев, 1947, с. 156). O yazır ki, Karşit və Ülgenin digər oğulları haqqndakı təsəvvürlər ayrı-ayrı şamanların bekar vaxtlarında, düşüncəlrə qapılarkən uydurduqları təsəvvürlərdən başqa bir şey deyildir. «Ayrı-ayrı xalqların dinlərinin tarixi əslində bir-birilərinə yad olan tanrıçıların mifoloji spekulyasiyalar yolu ilə "qohumlaşdırılması" faktları ilə doludur. Şübhəsiz ki, indiki halda da eyni vəziyyətin şahidiyik» (Токарев, 1947, с. 150-151).

L.Karunovskayanın altay-kiji boyunun tanqdı soyunun şamanı Mereydən topladığı materialları (Каруловская, 1935, с. 160) tənqid edən S.Tokarev bildirir ki, bu materiallar ziddiyyətlidir və onları bir-biri ilə əlaqələndirmək çox çətindir (Токарев, 1947, с. 144). Alimin bu mövqeyi tam başa düşüləndir, çünki şaman Merey digər şamanlardan fərqli olaraq, altaylıların aparıcı tanrıçasını Ülgen deyil, "Göqö Mönkö adazı" (Əbədi göyün atası, yaradıcısı) adlandırmşdır. Onun sözlərinə görə, bu mifik varlıq günəş şəfəqindən al rəngə boyanmış odlu dağdakı sarayında yaşayır. Bu dağ isə göyün doqquzuncu qatında yerləşir. Göqö Mönkö adazı qəzəblənəndə istədiyini günəş şüaları və ildırımla vurub öldürür. Şaman Mereyə istinad edən Karunovskaya onu bütün

işıqlı ülgenlərin başçısı adlandırmışdır (Каруловская, 1935, c. 147). S.Tokarev isə material topladığı zaman bu varlığın adına rast gəlmədiyini söyləyir (Токарев, 1947, с. 150). Lakin Şvetsovun topladığı materiallarda da Göqö Mönkö adazı haqqnda çox sayda məlumat var. Bu alim eyni zamanda, sözügedən mifik varlığa ən çox sayqı göstərən və ona tapınan Altay soylarının da adını açıqlamışdır: aara, terbet və s (Швецов, 1900, с. 75).

A.Alekseyev, haqlı olaraq, Göqö Mönkö adazını ümumtürk Gök Tenqri (Tanrı) ilə eyniləşdirir (Алексеев, 1984, 33).

Şaman Mereyin sözlərindən belə məlum olur ki, göyün doqquzuncu qatında Göqö Mönkö adazı (Gök Tenqri, Tanrı) ilə yanaşı Dalkın əəzi (odun yaradıcısı) və Ot ene (od ana) adlı tanrıçalar (ülgenlər) da yaşamaqdadırlar. Onlar dovşan dərisindən qayrılmış yurtalarda (çadırlarda) yaşayırlar (Каруловская, 1935, с.171-172). Dalkın əəzi eynən Göqö Mönkö adazı kimi istədiyini ildırımla vurub öldürmək iqtidarındadır (Каруловская, 1935, с.175).

Odlu dağdan solda, göyün üçüncü qatında bir-birindən bir az aralıda Bay Ülgen və onun övladları məskundurlar. Ülgen Göqö Mönkö adazının oğludur. Göyün ikinci qatında isə Köqö Mönkö adazının qızı Yajil kan (Yaşıl xan) yaşamaqdadır. O, ırkt, kobolı, soyon və merkit soylarının himayəçisidir (Каруловская, 1935, с. 175-176). S. Tokarevin yazdığına görə ona komdoşlar (Токарев, 1947, с. 148), S. Şvetsovun bildirdiyinə görə isə (Швецов, 1900, с. 75) həm də sayan və digər Altay soyları da sitayiş etmişlər.

Şaman Merey Köqö Mönkö adazının başqa bir oğlundan da söz açaraq onu "Bulut töözi Bura kan" adlandırmış və onun Ülgendən sağ tərəfdə yaşadığını bildirmişdir (Каруловская, 1935, с. 175). A.Anoxin onu Bay Ülgenin ikinci oğlu kimi qeyd etmişdir (Анохин, 1924, с. 12). S.Tokarevin qeydlərindən isə Uraqan adlı daha bir tanrıçanın adı məlum olur (Токарев, 1947, с. 148).

Altaylıların təsəvvürlərinə görə, yuxarı və orta dünyalardan başqa, yerin altında aşağı dünya, başqa sözlə, "axirət dünyası" yerləşir. Buranın öz sakinləri var. Bunlar bədxah ruhlar və ölmüş adamların ruhlarıdır. Altay türklərinin inancına görə, insanlar öldükdən sonra şəffaf, gözlə görünməyən ruhlara – üzütlərə

çevrilirlər. Aşağı dünya da orta dünyaya bənzəyir. Orada da yer üzündə olduğu kimi kəndlər var və üzütlər həmin kəndlərdə öz daha əvvəl ölmüş qohumları ilə birlikdə yaşayırlar. İnsanlar öldükdən sonra da öz ailə bağlarını saxlayırlar. Yəni bu dünyada kim kimin oğlu və ya qızıdırsa, o biri dünyada da həmin adamın oğlu və ya qızı kimi həyatlarn davam edirlər. Bu dünyada ər-arvad olan adamlar üzütə çevrildikdən sonra da həmin bağları eyniylə qoruyurlar (Чанчибаева, 1970, с. 90).

Altay türklərinin mifik təfəkkürünə görə, aşağı dünyada doqquz çay axır. Onlar axaraq, sonda böyük bir çaya birləşirlər. Onun adı "Toybadım"dır (Doymadım). Bu çay insanların göz yaşından əmələ gəlib. Bu çayın arxasında aşağı dünya ruhlarının başçısı Erlikin xanlığı başlayr (Анохин, 1924, с. 3). Belə hesab edilirdi ki, Erlik Ülgenin böyük qardaşıdır və onunla birlikdə dünyanın yaradılmasında iştirak edib. İnsanların bədənini Erlik yaradıb, onlara can və ruh (qut) verən isə Ülgendir (Анохин, 1924, с. 3).

Verbitskinin topladığı materiallardan belə aydın olur ki, Erlik və Ülgen bir-biri ilə sıx əlaqədə olan varlqlardır və insanları birlikdə mühakimə edirlər (Вербицкий, 1893, с. 41). Belə ki, süjetlərin birində uzun müddətdən bəri qurbanlıq ala bilməyən Ülgen qurban verməkdən imtina edən adamı cəzalandırmaq qərarına gəlir, fəqət cəzalandırmaq onun missiyasına daxil olmadığından Erlikə müraciət edir. Erlik isə qarşılığında ondan ikiqat qurban alır və yalnız bundan sonra həmin adamın canını alaraq, onu öz qaranlıq dünyasına aparır (Вербицкий, 1893, с. 44).

Şamanlar öz alqış və ovsunlarında Erliyi atletik bədən quruluşuna malik qoca kişi kimi vəsf edirlər. Onun göz-qaşı hiss kimi qara rəngdədir, iki yerə bölünən saqqalı dizinə qədər çatır. Azı dişlərini xatırladan bığlar burmadır və qulağının arxasına qədər uzanr. Buynuzları ağac köklərini xatırladır. Saçları buruq-buruqdur. O, bir versiyaya görə qara palçıqdan tikilmiş sarayda, digər iki versiyaya əsasən isə qara dəmirdən qayrılmış çəpərləri olan sarayda yaşayır. Bu saray Toybadım çayının sahilində yerləşir. Erlik bəzən avarları olmayan qara qayıqda, bəzən "kəlkə" (kəlçə) adlanan mifik heyvanın, bəzənsə keçəl öküzün belində gəzir (Алексеев, 1984, с. 53).

Erliyin yeməyi qanlı insan əti, içdiyi şey isə insan ciyərinin qanıdır. Onun yemək – içmək vaxtı günəş şəfəqinin hər yeri al rəngə boyadığı vaxta təsadüf edir. Miflərin birində deyilir ki, Erlik əvvəllər ağ atda gəzərmiş. O bu atı Tanrıya onun tərəfindən qorunan bir bahadırın canını almaq müqabilində qurban verir, fəqət Tanrı onu aldadır, atının əvəzinə isə ona qara kəl qaytarır. Kələ də tərsinə minməsini əmr edir. O da indi bu kəldə, üzərində tərsinə oturaraq, gəzməyə məcburdur (Анохин, 1924, c.3-4, 19).

Altay türkləri hesab ediridlər ki, qəzəbli Erlik onlardan qurbanlar tələb edir, ona qurban verilmədikdə qəzəblənir və xalqın üzərinə müxtəlif bədbəxtlik və xəstəliklər göndərir. Qurban verməyənlərin ruhunu alan bu bədxah ruh onları öz nökərlərinə çevirir və insanlara pislik etmək üçün yer üzünə göndərir. Altay türkləri inanırdılar ki, qurban verildiyi halda Erlik nəinki insanelara toxunmur, əksinə, hətta övladlarına onları şər ruhlarından qorumağı tapşırır. Altaylılar öz dualarında onu insanların yaradıcısı və atası adlandırırdılar. Ona "Erlik ada" (Erlik ata) deyə müraciət edirdilər (Анохин, 1924, c. 1-3).

Altay türklərinin inanclarına görə, Erliyin, bir varianta görə yeddi, digər varianta görə isə doqquz oğlu var. A. Anoxin hər iki variantı və Erliyin oğlanlarının bu variantlarda çəkilən adlarını dərc etdirmişdir. Variantlardan birincisinə görə, Erliyin oğlanları aşağıdakılardır:

1. Taş biləktü Bay Maattır (Daş biləkli Bəy Bahadır);
2. Karaş;
3. Dəs biləktü Kerey Kaan (Mis biləkli Gəray Xan);
4. Uçar Kaan;
5. Yaabaşı Kaan;
6. Kömür Kaan;
7. Şəədəy Kaan (Анохин, 1924, c. 4).

İkinci siyahıda Uçar Kaan və Şəədəy Kaanın adlarına rast gəlinmir. Onları əvəzinə Padış bay, Şinqay – Xay, Padış – Kerey və Temir – Xan adları göstərilir (Анохин, 1924, c. 4-5).

A.Anoxin bu fərqin səbəbini ayrı-ayrı şamanların Erliyin bu və ya digər oğlunu fərqli adlarla adlandırmasında görür. Elə bu

səbəbdən də onların dəqiq xarakteristikasını vermək çox çətindir (Анохин, 1924, с. 4). Müxtəlif mifik süjetlərdə onlar antropomorfik, dəmir başlı, qara rəngli təsvir edilir bə bildirilir ki, onların hər biri öz xanlıqlarını – ailini (aulunu) idarə edirlər. Bu xanlıqların arasında çox sayda kiçik çay və göllər yerləşir və onlarda müxtəlif bədheybət məxluqlar yaşayır (Анохин, 1924, с. 4, 7).

Belə hesab olunur ki, zərurət yarandığı hallarda Erlik oğullarını insanlar arasında münasibətləri tənzimləmək və qayda-qanun yaratmaq üçün yer üzünə göndərir. Bu halda onlar insanların qoruyucuları kimi çıxış edirlər (Анохин, 1924, с. 7). Onlar eyni zamanda, pis niyyətlə ailə (aula) daxil olan adamları ovlayır və onları qır tiyanlarına atırlar (Алексеев, 1984, с. 54). Altaylılar inanırdılar ki, hər bir ailin keşiyini Erliyin bir oğlu çəkir. Onlar bu oğullara hörmətlə yanaşsalar da, onların qəzəbindən qorxurlar. Eyni zamanda, Erliyin oğulları şamanların köməkçiləri hesab edilirlər (Анохин, 1924, с. 7).

Altay türklərinin mifik təsəvvürlərinə görə, Erliyin bir neçə qızı var. Bir versiyaya görə, onların sayı ikidir, adları isə Səgis köstüü Kiştey ene (Səkkiz gözlü Kiştey ana) və Erke Soltondur. Digər versiyaya görə isə onların sayı doqquzdur (Анохин, 1924, с. 8). Dua və ovsunlarda onlar son dərəcə eybəcər və utanmaz kimi vəsf edilirlər:

Dizləri qapaqsız, ayaqları dalğalanan,
Tumansız gəzib, arxaları açıq olan,
Sifətləri qır kimi qapqara olan,
Pırtlaşıq saçları qapqara olan
Beş hörükləri vardır,
Onların həyası yox, utanmazdır.
Amları yerdəki çatlara bənzər,
Döşləri qoşa təpəyə bənzər.
Arxaları böyükdür, hərəkətdən titrəyir,
Gəzəndə döşləri sağa-sola yellənir.
Bu doqquz çirkin qız Erliyin qızlarıdır.
(Анохин, 1924, с. 9).

Bu qızlar həmişə bir yerdə olur, işsiz-gücsüz gəzir, avaralanır, əylənir və oynayırlar. Şamanlar iş başında ikən, qızların

yanından ötəndə onları yoldan çıxarmağa və öz yataqlarına çəkməyə çalışırlar. Şamanları inandırmağa çalışırlar ki, onlara yardım edən ruhlar – töösləг özlərinə xidmət etməli, verilən qurbanlar da bu qızlara çatmalıdır. Qızların hiyləsinə uyan və onlara inanan şamanlar dərhal Erliyin qəzəbinə gəlir və onun tərəfindən ölümlə cəzalandırılırlar.

Bu və digər məlumatlar A.V.Anoxin və V.M.Verbitskinin topladığı materiallarda əks olunub. L.E.Karunovskayanın altaylıların ən böyük boylarından (soy birləşmələrindən) altay-kijilərin nümayəndəsi olan şaman Mereyə istinadaən topladığı materiallardakı məlumatlar isə onlardan bir qədər fərqlənir. Səbəb isə odur ki, ayrı-ayrı Altay soyları mövzuya bir qədər fərqli yanaşmış, hər soy və ya boy öz əcdad ruhlarını daha üstün tutmuşlar (Алексеев, 1984, с. 55).

Şaman Mereyin təsvirinə görə, aşağı dünyada nə günəş var, nə də ay. Orada çox sayda dağlar, insanların göz yaşları və qanlarından yaranmış göllər, üstü lillə örtülü bataqlıqlar, bir də böyük bir qara göl var. Bu gölün üzərindən at qılından olan körpü vasitəsilə keçmək olar. Körpü Erliyin ikinci oğlu Temir xanın torpaqlarına aparır. Aşağı dünyada ölmüş qohumlarn ruhları yaşayırlar. Onlar çadırlarda yaşayır, maldarlıqla məşğul olurlar (Каруловская, 1935, с. 177-178).

Şaman Mereyə görə, Erlikin altı oğlu var. O onların adların aşağıdakı kimi çəkmişdir:

1. Erke Solton
2. Temir xan
3. Jalbak Temir Dırındu (Geniş, dəmir beli olan)
4. Karaş
5. Kakır
6. Köös Kara (Qara çuğuncuq) (Каруловская, 1935, с. 178-182).

Qeyd edək ki, bu adlardan yalnız ikisi A.Anoxinin topladığı materiallardakı adlarla üst-üstə düşür: Karaş və Temir xan. Erke Solton isə Anoxində Erliyin qızlarından birinin adıdır. L.Karunovskaya eyni zamanda Altay soylarından hansılarının bu oğul-

lardan hansını daha üstün tutduğunu və ona qurban verdiyini də müəyyənləşdirə bilmişdir. Məlum olmuşdur ki, tanqdı, aara, olüp, modor, munal və törböt soyları Erke Soltonu, todoş, qıpçaq, oocı və mundus soyları Temir xanı, todoş, qıpçaq, mundus, koojo, captı və tonqjoan soyları Jalbak Temir Dırındunu, irkit, kobolı, soyon və merkit soyları Karaşı, koojo, yetti-sarı, üs və kör saqqal soyları Köös Karanı, köbök, merkit və yetti-sarı soyları isə Kakırı öz himayəçiləri hesab etmişlər (Каруловская, 1935, с. 178-182).

Alimin bu sözlərini hər bir türk soyunun Erlikin bir və ya iki oğlunu daha əziz tutduğununu söyləyən A.V.Anoxinin məlumatları da təsdiqləməkdədir. Onun yazdıqlarına əsasən, merkitlər öz himayəçiləri kimi Karaş və Kakırı, yetti-sarılar isə Köös Kara və Jalbak Temir Dırındunu hesab edirdilər. L.Karunovskayanın materiallarında Erlikin oğullarından hansının aşağı dünyanın hansı yerində yaşadığı da qeyd edilmişdir. Bu qeydlərdə Erke Soltonun yerin ən aşağı-doqquzuncu qatında, Temir xanın yeddinci qatda, Karaşın beşinci, Jalbak Temir Dırındu və Köss Karanın üçüncü, Kakırın isə birinci qatlarda yaşadığı bildirilir (Каруловская, 1935, с. 178-182). Alimin qeydə aldığı bir alqışda isə onların xarici görkəmləri təsvir edilir:

Karas qırmancına bənzərsiniz,
Boy-buxununuz şam ağacı kimi!
Qanlı gözləriniz var,
Qarğa tək qaradır mindiyiniz atlar!
Qan çəkib gözlriniz,
Qapqara kürklər geyibsiniz!
Ən böyüyünüz Karas ruh,
Qaranlıq dünyada yaşayırsınız!
Karas kimi yeddi qalada qalırsız,
Altı qatlı çəpəri düzəldilib çuğundan!
Qanadlı doqquz qara atda göyə uçursunuz,
Onlara qara dəmirdən qoşqular qoşursunuz,
Onlara qara dəmirdən arabalar qoşursuz!
Qara qılıncına söykənib,
Qara tiyəsinə dirənib,

Qara-qara fikirlər edirsən!
Papağında – qara kalbanda
Dolaşır qara – qara ruhların,
Qara qarğadır sənin elçin, yalmacın!
Qara samur dərisindəndir yatağın sənin,
Taeltoy – alqışlanan ey qara ruh!
(Каруловская, 1935, с. 181).

Altay türkləri də eynən saxa-yakut türkləri kimi hesab edirdilər ki, ruhlar təkcə yuxarı və aşağı dünyalarda yox, həm də orta dünyada məskundurlar. Yəni orta dünyanın da öz ruhları var. Yer üzündəki mal-qaranın artıb-çoxalması və insanların rifah halı onlardan asılıdır. Bu qüdrətli ruhlar insanları şər ruhlarından qorumaq iqtidarındadırlar (Анохин, 1924, с. 141).

XlX əsrin sonları – XX əsrin əvvəllərində Altayda toplanmış folklor materiallarından belə aydın olur ki, altaylıların inanclarına görə, yerin, dağın, meşənin, çayın, suyun və c. də öz ruhları var və onlarla yalnız şamanlar əlaqə yarada və təmas saxlaya bilirlər. Onları isə insanlar içindən Abukan, Adıkan, Calmenkü, Çaptiqan, Kara-Kaya, Üyman, Bubarqan kimi dağların ruhları seçirlər (ФИЭ ФТ СССР (ЛО), ф. 11, оп. 1, д.101, л. 29, об.-30). Şamanlar qamlama (göydən qut alma və şaman olma) vaxtı kömək üçün yerli ruhlara, yəni orta dünyanın ruhlarına – odun ağasına, eşik ağasına, məhəllə ağasına və s. müraciət edirdilər. Öz mistik səyahətləri zamanı isə bütün bu ruhlar üçün “ziyafətlər” təşkil edirdilər. Digər şamanlarla “mübarizə” zaman isə öz dağlarının və göllərinin ruhlarını-ağalarını yardıma çağırırdılar. Məsələn, altay – kijilərdən qeydə alınmş mifik rəvayətlərin birində düşmənlərindən qaçaraq Teles gölünün sahibi olan ruha sığınan və onun yanında gizlənən bir şamandan söhbət açılır (Алексеев, 1984, 67).

A.Anoxinin bildirdiyinə görə, Altay şamanizmi ölülər kultu ilə sıx bağlı olmuşdur. Onlar inanırdılar ki, insanın ruhu – sünə ölümdən sonra bədəndən ayrılr və “sünəiznin üzüdə” adlanan şəffaf buxara və ya sadəcə üzütə çevrilir. Həyatla vidalaşdıqdan sonra onlar altaylıların “paşka der” (başqa yer) dedikləri başqa dünyaya köçürlər. Orada onları Erliyin nümayəndəsi – aldaçı (ölüm ruhu) qarşı-

layır. Aldaçı daha öncə ölmüş insanın, yeni ölənin qohumlarından birinin ruhudur (Анохин, 1924, c. 21). Sünə və aldaçı 40 gün bir yerdə, ölənin çadırının yaxınlığında qalırlar. 40 günün tamamında aldaçı yenidən aşağı dünyaya qayıdır. Əgər o qayıtmaq istəmirsə, o zaman ölənin qohumları şamana müraciət edir, şaman da onu öz dünyasına qaytmağa məcbur edir (Анохин, 1924, c. 20-21).

A.Anoxinin qeydə aldığı miflərdə ziddiyyətlər də az deyil. Bu mifoloji süjetlərin birindən belə məlum olur ki, ölən bütün adamların ruhu mütləq aşağı dünyaya köçməlidir (Анохин, 1924, c. 261-267). Başqa bir materialın məntiqindən isə belə çıxır ki, ölən adamın ruhu orta dünyada qalır və bu dünyanın nemətlərindən faydalanır. Aşağı dünyaya isə yalnız pis adamların ruhları köçür və onlar orada Erliyin xidmətçilərinə çevrilirlər (Анохин, 1924, c. 21).

Altaylılar onları ölmüş qohumlarının ruhlarının qoruduqlarna inanırlar. Şübhəsiz ki, bu ruhlar içərisində onları bəd ruhlardan qorumaq iqtidarında olan ən "qüdrətli"lərinə üstünlük verilir, onlara tapınılır və qurbanlar verilirdi. Altaylılar onların gil, daş və ya ağacdan kiçik fiqurlarını hazırlayır və onlara xristianlar ikonalara sitayiş etdikləri kimi sitayiş edirdilər. Fiqurların sayı ayrı-ayrı evlərdə bəzən yüzü keçirdi. Evin bir tərəfinə ərin ölmüş qohumlarını, digər tərəfinə isə arvadın qohumlarnı simvolizə edən fiqurlar düzülərmiş. Beləcə, hər ailə iki nəslin ruhlarna sitayiş edərmiş. Bu ruhlar körmös adlanırdı (Анохин, 1924, c. 23). Lakin onların içində elələrinə rast gəlinirdi ki, onlara bütöv soy və böylar hörmətlə yanaşardılar. Bunlar böyük ruhlar – ulu körmöslər hesab edilərdilər. Kiçiklərin isə xüsusi adı yox idi. Yalnız ana tərəfdən olan taydalar, kan adalar və ata tərəfdən olan ozoqı adalar (keçmiş atalar) istisnadır.

Altay-kiji və mayma-kiji soyları ulu körmöslərdən Kürmüşü, tubalar Ülgenin yeddinci oğlu hesab edilən Kanımı daha üstün tuturdular (Анохин, 1924, c. 20-21). Onların inancına görə Ülgen Dayıkı insanlara qut vermək və onları qorumaq məqsədilən yer üzünə göndərmişdir. Bu üzdən də onun fiquruna bütün evlərdə rast gəlinirdi (Анохин, 1924, c. 12).

Altay boylarından altay – kijilərin inanclar sistemi L. Karunovskaya tərəfindən çox ətraflı tədqiq edilmişdir. Onun xahişi

ilə şaman Kondrati Tanaşev üç dünyann müfssəl sxemini cızmışdır. Şamanın çəkdiyi planın tam mrkəzində Ak Tojon Altay Sını dağı yerləşir. Burada Der-Su ölmüş ovçularn ruhları ilə görüşür. Bu ruhların hər biri orta dünyanın, yəni yer üzünün bir sahəsinin ağasıdır. Qeyd edək ki, burada haqqında söhbət gedən Der-Sunun adına Orxon-Yenisey abidələrində və manixey mətlərində "Yer-Su" şəklində rast gəlinir.

Kondrati Tanaşevin çəkdiyi dağın tam başında sehirli Süd gölü təsvir edilib. Şamanlar yuxarı dünyaya qalxmamışdan öncə bu göldə yuyunub təmizlənirlər. Elə oradaca, yəni dağın tam başında Altın Bürlü Bay terek (altun qabıqlı qovaq) ağacı bitir. O, yerlə göyün tam ortasında yerləşir və orta dünya ilə yuxarı dünyanı bir-birinə bağlayır. Belə ki, onun gövdəsi və alt budaqları orta dünyada, üst budaqları isə yuxarı dünyadadr. Bu ağac şamanlar üçün Ülgenin və Gök Mönkönün yaşadıqları yuxarı dünyaya keçməkdə nərdivan rolunu oynayır. Der-Sunun (Yer-Sunun) yaşadığı yerdə daha bir göl də var. Bu, Qırmızı göldür. Həmin gölün sahibi "Ker-balık" adlanan balıqdır. Bu balıq Der-Sunun ölkəsindəki bütün dağları öz çiynində saxlayır. Balığın qarnında insan və heyvan rüşeymləri var. O, öz nəfəsi ilə bu rüşüymləri Der-Suya ötürür, o da öz növbəsində onlara can və ruh verir.

Ker-balıkın gölünün arxasında Daka-Budak adlı dağ zirvəsi ucalır. Onun torpağı və daşları qrmızı rəngdədir. Bu zirvənin yamacında Der-Sunun qızları öz çadırlarında yaşayırlar (Карупловская, 1935, c. 161-163). Onlardan başqa burada şaman qadın Merkit Qam və şaman Qam Mürküt Toroy da yaşayırlar, bunlardan birincisi bir sıra xəstəliklərin yayıcısı hesab edilirdi (Карупловская, 1935, c. 164).

Altay türkləri orta dünyada da bəzi fövqaltəbii məxluqların yaşadıqlarına inanmışlar. Bunlardan Aara ləqəbli Kamaqas Qam adlı ruh da insanlar arasında xəstəliklər yaymaqla məşğul imiş və çox təhlükəli hesab edilirmiş. O, uca və qarlı bir dağ zirvəsində yaşayırmş. O zirvədən yerə soyuq, dondurucu külək şəklində enərmiş. Bu ruha bütün altay-kiji soyları sitayiş edərmişlər.

Altay-kiji boyuna daxil olan bütün soyların tapındıqları digər bir mifik varlıq zirvədə yaşayan Soyon Qam (şaman) idi. O, hamilə qadınların yeni doğulan körpələri təhdid və təqib edirdi.

Bundan başqa yalnız ayrı-ayrı soylar tərəfindən qurban verilən ruhlar da qeydə alınmışdır. Bunlardan İrtış yüksəkliklərində, Taylan Karaqay adlı yerdə yaşayan Kalpas Qama yalnız mundus, ooçı, todoş və irkit soyları, Abaqanda yaşayan Monqusay Qama köbök, monol və almat soyları, Abı xanın xidmətçisi Soloqoya isə köbök, almat, tölös, keje və saal soyları təzim edirdilər. Bu ruhların da hər biri müəyyən xəstəliklərin yayıcısı sayılırdı (Каруловская, 1935, с. 168-170).

Surbay Qam adlı şamanın ruhu çay və göllərdə yaşayırdı. O, ooçı soyunun şamanı olmuşdu və çoxdan suda boğulmuşdu. Həmin soydan olan başqa Tarkan Qam və Emegen Çalu kimi şamanların ruhları da orta dünyada sakindirlər (Каруловская, 1935, с. 162, 167, 172).

Sibirdə yaşayan digər türk xalqlarının da orta dünya barədə təsəvvürləri saxa-yakut və Altay türklərinin təsəvvürlərindən çox az şeylə fərqlənir. Məsələn, teleutların inanclarına görə, burada 27 qrup ruhlar yaşamaqdadır. Bu qruplar bir-birindən aralı yaşayrlar. Onların bir qismi insanları şər ruhların hücumlarından qoruyurlar. Teleutlar evlərinin qarşısında daha üstün tutduqları Temir kan, Erkəy kan, Orto kan, Kurqay kan və Ces kanın şərəfinə beş qayın ağac əkərdilər. Bu əkililər birlikdə sam və ya çal adlanırdı və mərasimlərin keçirilməsi üçün nəzərdə tutulurdu (Дыренкова, 1949, с. 125). Sibirin türk xalqlarından telenqitlər də inanrdılar ki, insanlar öləndən sonra ruha çevrilirlər. Onlar ölümdən sonra da qohumları ilə əlaqələrini kəsmirlər. Onlar pislik və ya yaxşılıq edə bilərlər. Odur ki, onları razı salmaq və qurban vermək lazımdır. Bu səbəbdən də telenqitlər hər il öz ilxılarının ən yaxşı atlarını ruhların şərəfinə qurban kəsərdilər (Калачаев, 1896, с 483).

Kumandıların animistik təsəvvürlərinə görə, hər bir yerdə, dağda, çayda, göldə və s. fövqaltəbii mifik varlıqlar yaşamaqdadırlar. Yəni hər bir golün, çayn, dağın, meşənin, ağacın, heyvanların öz ağaları var. Bu ruhlar insanlara yaxşılıq və ya pislik et-

diklərinə görə iki yerə bölünürlər. Söoka örö kumandı soyuna görə, pislik edən bəd ruhlar bunlardıır: Çalbaş aza, Kaal aza və Nqanıs saylıq aza. Altına kumandı soyuna görə isə Öön nqaqıs aza və Çajılday aza şər ruhlar hesab edilir. Şabat soyu isə bu sıraya Öndırlıq azanı, söok çeley soyu isə Kurtıyaq, Örökön və Ok neqil azanı daxil edirlər (Сатлаев, 1974, с. 151).

F.Satlayevin yazdığına görə, bir çox soyun himayəçi ruhu şər ruhlar hesab edilərmiş. Lakin alim onların hansı soylara aid olduğunu bildirməmiş, sadəcə adlarının çəkməklə yetinmişdir: Çör Teqri aza, Töbönö aza, Kortı nqaqıs aza, Şorat aza, Küdertiş aza və s. Kumandılar inanırdılar ki, əgər bu ruhlardan hər hansı biri kiminsə bostanında məskunlaşarsa, həmin adamın ailə üzvləri bir-birinin ardınca öləcəklər (Сатлаев, 1974, с. 151).

Bənzər baxışlar sistemi xakas türklərinə də xas olub. Onlar da dağların, çayların, göllərin və s. öz ruhları olduğuna inanmışlar. Bundan başqa onlarda at kultu da çox geniş inkişaf edib (Алексеев, 1984, с. 73).

Saqay türkləri də elə hesab edirdilər ki, ölən adamların ruhlarının bir qismi orta dünyada qalır. Onlar da eynən yuxarı dünyanın sakinləri kimi insanların rifah halını yaxşılaşdırmaq və ya ona ziyan vurmaq iqtidarndadırlar. Saqayların himayəçi ruhlarından biri olan Salıq bu xalqın mifoloji təsəvvürlərində çox sayda cins atların sahibi kimi təsəvvür edilirdi. Özünə sayqısızlıq hiss etdiyi halda insanları qarın ağrısına mübtəla etmək gücündə olduğuna inanılırdı. Hesab edilirdi ki, kürən atlardan ibarət böyük bir ilxıya sahib olan bu ruh uryanxayların torpaqlarının arxasında yaşayır (Катанов, 1907, с. 595).

Saqay mifologiyasına görə, ölən insan və heyvanların ruhları orta dünyanı tərk etmirlər. N. Katanov yazır: «Od ruhu bütün canlıları qızdırır və böyüdür. Bu ruh həmin canlı varlığı tərk edən kimi o ölür. Bədəni torpağa tapşırılır, ruhu isə yer üzündə dolaşan ruhlar aləminə qatılır» (Катанов, 1907, с. 28).

Alim bildirir ki, saqay türkləri insanların talelərinə təsir etmək iqtidarnda olan bu ruhların yer üzündə külək kimi bir yandan o biri yana şütüdüklərinə inanırdılar Maraqlıdır ki, ruhlardan qorxan

saqaylar qəbristanlıqlardan qətiyyən çəkinmirdilər. Məsələn, saqaylardan biri N.Katanova bildirmişdi ki, əgər insan qəbrin üstündə yatarsa, onun başına heç bir iş gəlməz (Катанов, 1907, с. 558).

Kaçinlərin də təsəvvürləri saqay türklərinin baxışlarından az şeylə fərqlənmişdir. Kaçin türkləri orta dünyanın mifik varlıqları içərisində Karataq (Qaradağ) adlandırdıqları dağın eyniadlı ruhuna daha çox sayqıyla yanaşardılar. Karataqın doqquz oğul və yeddi qızının insanların fəaliyyətlrini daim nəzarət altında saxladıqlarına inanırdılar. Karataqın, yəni Qaradağın özünə gəlincə, o, Karasın dağ silsiləsinə daxil olan dağlardan biridir (Потапов, 1981, с. 128-129).

Kaçinlərin təsvvürlərinə görə orta dünyada dağların, göllərin, çaylarn və s. ruhlarndan başqa insanlara müxtəlif xəstəliklər gətirən çox sayda başqa ruhlar da mövcuddur. Bu xalqın şamanları onları bədii cəhətdən çox maraqlı təsvir etmişlər. Məsələn göz xəstəliklərinin səbəbkarı olan qırmızı lentli ruh belə təsvir edilmişdir:

Sən, ey cürəbəcür adları olan və yüksəkliklərdə yaşayan!
Sən, ey yer kürəsinin yüksək yerlərində məskun olan!
Sən bu yerlərə at çapan uryanxaylarn torpağından buyurmusan,
Sən, ey solaxay xan, hədəfdən yayınmırsan, quşu gözündən vurursan!
Yüyəni qırmızı ipəkdən olan qırmızı-kürən atda gəzib çapırsan,
Atının qabağında vurulmuş quş, arxasında ovlanmış heyvan aparırsan!
İç inəyimin yağlı ağ südündən, gözlərimə toxunma,
Qırx quş soyunun ölkəsindən gəldiyimiz zamandan,
Sənə qurban verir, ağzını, mədəni doydururuq,
Bizdən yan gəz, ey qrmızı lentli xan!

(Катанов, 1907, с. 568).

Kaçinlər orta dünyanın ruhları içərisində taxıl zəmilərinin ruhuna – ağasına da xüsusi münasibət bəsləyir, onun Xatay torpaqlarından gəldiyinə inanırdılar. Onun da öncəki ruh kimi gözlərə ziyan vurduğunu sanırdılar. Bundan başqa ,quşların ağası kimi qəbul edilən ruhun da orta dünyada yaşadığını hesab edirdilər (Катанов, 1907, с. 569-570).

Bu xalqın mifik təsəvvürlərinə görə orta dünyanın ruhları müəyyən bir yerdə yaşasalar da yerlərini dəyişə və köçə də bilərlər. Məsələn, miflərin birində ər evinə gəlin köçən qızla birlikdə onun mənsub olduğu soyun hami ruhunun da onunla birlikdə köçdüyündən söz açılır (Катанов, 1907, c. 492). Belə hesab edilirdi ki, həm yuxarı həm də aşağı dünyanın ruhları da zaman-zaman orta dünyaya keçirlər. Onlar əsasən axşam və ya gecə gəlirlər, ilk xoruzun banlaması ilə isə orta dünyanı tərk edirlər. Amma onları adi gözlə görmək imkan xaricindədir. Lakin əgər onlar istərsə, insana müəyyən bir heyvan, daha çox ilan formasında görünə bilirlər (Островских, 1895, c. 341).

Orta dünya barədəki təsəvvürləri Altay və Sibirin digər türk xalqlarından, demək olar ki, heç nə ilə fərqlənməyən koyballar müxtəlif xəstəliklərdən qoruna bilmək üçün, bu xəstəlikləri törətdiyinə inandıqları ruhları bir – birilərindən fərqləndikləri kimi, onlar üçün kəsdikləri atları da bir-birindən rənglərinə görə fərqləndirirdilər. Məsələn ailəni baş ağrısı və göz xəstəliklərindən qorumaq üçün "ızık" adlandırdıqları kürən at kəsərdilər. Boz və qəhvəyi rəngli atlar isə müqabil olaraq sinə xəstəliklərindən və qarın ağrısından qorunmaq üçün qurban verilirdi (Катанов, 1907, c. 290). Koyballar bu xəstəlikləri törədən ruhların orta dünyada yaşadıqlarına inanır, onların başçsının 18 taskılın (daşlı təpənin) arxasında məskun olduğunu hesab edirdilər. Onların torpaqlarında Altun göl yerləşir, bu gölə qızıl bulaq axır, onun yanında qızıldan dirək ucalır. Bu ruhların hər birinin öz qoruyucuları və köpəkləri var. Onların həyatı insanlarn həyatından qətiyyən fərqlənmir (Алексеев, 1984, c. 76).

Şor türkləri hesab edirdilər ki, insanların ruhlarını dağ və su ruhları oğurlaya bilərlər. Lakin bu halda söhbət eynən saqay miflərində olduğu kimi, dağın qadın sahibəsinin kişi ruhlarını ovlamasından gedir ki, bunda da məqsəd onu özünə ər etmək istəməsidir. Şorların mifik təsəvvürlərinə görə, sular donduqda göllərin, çayların sahibələrini gözlə görmək olur. Onlar qara, buynuzlu heyvana bənzəyirlər, üzə çıxır və kişilərin ruhlarını ovlamağa çalışırlar. Ovladıqları ruhları dağ ətəklərində əsir edirlər. Bu baş verməsin deyə, müxtəlif ovsunlar mövcuddur ki,

bunlardan biri də içində su olan fincanın yerə çırpılıb sındırılmasdır. Bu halda su ruhları insanı rahat buraxır (Дыренкова, 1940, с. 257). Şorların təsəvvüründə orta dünyada sakin olan bir neçə ruh daha böyük hesab edilirdilər. Bunlardan birincisi və ən böyüyü Camqıraktu Cajızın sayılırdı. Ondan sonra üç ən böyük nəslin himayəçi ruhları gəlirdi: Sarı Çalıq tezi, Tooçı san və Kanım tezi. Bunlardan birinci və üçüncüsü ovçuluqla bağlı idilər və ovçularn himayəçisi hessab edilirdilər (ФИЭ АН СССР (ЛО), ф. 11, оп. 1, д.101, л. 22).

Tıvalıların baxşları da Altay və Sibirin digər türk xalqlarının baxışlarından çox az şeylə fərqlənir. Onlar da hər bir yerin öz himayəçi ruhu olduğuna, ruhların bir qisminin orta dünyada yaşadığına inanmışlar (Дьяконова, 1981 б, с. 143). F. Konun topladığı materiallara əsasən, orta dünyanın ruhları sırasına Kaybın-ku və Puk ruhları daxildirlər. Kaybın-ku ruhları xəstələrə ağrı vermək və onların huşlarnı itirməsinə səbəb olmaqla məşğuldurlar. Puk adlandırılan ruhlara gəlincə, onların bir neçə növünün olduğuna inanılırdı. Onların bir qisminin insan bədənində məskunlaşdıqları və ondan kənarda yaşamadıqları hesab edilirdi (Кон, 1934, с. 23). Tıvalıların inancına görə, əgər bir ailədə bütün ailə üzvləri ard-arda ölürlərsə, bu, pukların işidir. Digər puklar isə ətrafda yaşayrlar. Onlar bayquş kimi səs çxarır, bəzənsə quzu kimi mələyirlər. Əgər itlər aramsız olaraq hürüşürsə, bu o deməkdir ki, puklar yaxındadırlar (Вчерашняя, 1955, с. 45).

Tıva türkləri orta dünyanın mifik varlıqlarından danışarkən Albıs və Şulbusun da adını xüsusi çəkirlər. Onlar Albısı su pərisi kimi təsəvvür etmiş, onun ərinin və qızının olduğuna, keçi kimi çığırdığına və istədikdə göyə qalxa bildiyinə inanırdılar. Təpəsində sadəcə bir gözü və kiçicik burnu olduğuna inanılan Şulbusa gəlincə, o mağarada yaşayır. Şulbuslar erkək və dişi olmaqla iki yerə bölünürlər. Albıs və şulbuslarn öhdəsindən ancaq bacarqlı və təcrübəli şamanlar gələ bilirlər (Катанов, 1907, с. 31).

Teleutların animistik baxışları barədə geniş məlumatverən N.Dırenkovanın qeydlərindən belə məlum olur ki, teleut şamanları aşağıdakı kimi sıralamışlar:

1. Göyün yeddinci qatında yaşayan Ay ata;
2. Göyün beşinci qatında yaşayan Gün ana;
3. Poqoş ana;
4. Göyün üçüncü qatnda yaşayan Kayrakan;
5. Göylərin yaradıcısı, göyün dördüncü qatnda məskunlaşmış Dayuççı Tenqere;
6. Göyün yeddinci qatnda yaşayan Mergen ana;
7. Göyün səkkizinci qatında yaşayan, Çaqır-Kan adlandırılan Bura ana;
8. Göyün doqquzuncu qatında yaşayan Abayoş ata;
9. Göyün doqquzuncu qatnda yaşayan Kızıqan ata;
10. Göyün onuncu qatnda yaşayan Tumat ata;
11. Göyün on birinci qatında yaşayan üçdişli Xan-Kayrakan ata;
12. Göyün on ikinci qatında oturan Qara Samur ata;
13. Havanı dəyişmək, yağış yağdırmaq iqtidarında olan, göyün on ikinci qatında oturan Yada ata;
14. Göyün on üçüncü qatında oturan Eksey-Meksey ata;
15. Xan Mustaydan ayrılan və göyün on dördüncü qatında yaşayan iki bakirə qız;
16. Göyün on beşinci qatında yaşayan təmiz, bakirə qızlar;
17. Göyün on altıncı qatında oturan Bay Ülgen ana (Дыренкова, 1949, c. 138-145).

N.Dırenkovanın yazdığına görə, teleut şamanları öz alqış və ovcunlarnda 12 göy sakininə müraciət etsələr də, nədənsə həmişə faktiki olaraq, 16 mifik varlığın adını çəkmişlər. Maraqlıdır ki, teleutların miflərində və şaman ovsunlarında Bay Ülgen qadın kimi təsəvvür edilir və ana adlandırılır. Dualarda Gün, Kayrakan, Dayuççı, Mergrn və Bura obrazları da ana kimi təqdim edilir. Ümumiyyətlə "ana" epiteti xeyirxah ruhlar üçün işlənir. Bunlardan Dayuççı şamanla Ülgen arasındakı vasitəçidir. Bura ana isə A.Anoxinin topladığı materiallarda kişi kimi təqdim edilir və Ülgenin oğulları sırasında göstərilir. L.Karunovskayanın şaman Mereydən topladığı materiallarda isə o, Bura kan adı ilə Göqö Mönkönün oğullarından biri kimi çıxış edir. Bundan başqa, şaman Merey onun insan ruhlarının yaradıcısı olduğunu söyləmişdir. N.Dırenkovanın

yazdığına görə, Bura kan eyni zamanda, teleut soylarından birinin mifik əcdadı hesab edilir (Алексеев, 1984, c. 34).

Maraqlıdır ki, N.Dırenkovanın informatoru olmuş şaman yuxarı dünyann bir çox üzvlərini öz əcdadları adlandırmışdır: Abayoş ata, Kazıqan ata, Tumat ata, Xan Kayrakan, Qara Samur, Yada ata, Eksey-Meksey və Totoy. Bunlardan sonuncusuna mundus və tölös soyları ildırım və yağış tanrıçası kimi sitayiş edirdilər (Вербицкий, 1893, c. 136-137).

A.Anoxinin qeydlərindən məlum olur ki, teleut boyuna daxil olan soylardan munduslar xəstənin qarnında qərar tutmuş bədxah ruhu "Ay Tatay!" çığıraraq qovurmuş (Анохин, 1929, c. 254). Yəni onlar ildırım tanrıçasınn adını çəkməklə aşağı dünyadan gəlmiş şər ruhları qova biləcəklərinə inanırmşlar. Bu inanc teleutların miflərində də öz əksini tapıb. Həmin miflərdə yuxarı dünya ruhlarının orta dünyaya enməsi yer üzünə qalxmış aşağı dünya ruhlarının qaçmasına səbəb olur (Алексеев, 1980 б, c. 82-83, 86).

N.Dırenkovanın qeydə aldığı yuxarı dünya sakinləri içərisində ikisi diqqəti xüsusi cəlb edir. Bunlardan biri Qara Samur atadır ki, N.Alekseyevanın fikrincə, bu obraz totemçiliyin qalığıdır (Алексеев, 1984, c. 35). Digəri isə yağış yağdırmaq üçün istifadə edilən yada daşının yaradıcısı hesab edilən Yada atadır.

Teleutların animistik təsəvvürləri barədə son dərəcə qiymətli materialların toplanmasında A.Anoxinin fəaliyyəti gerçəkdən də misilsizdir. Onun topladığı materiallardan belə aydın olur ki, Bay Ülgendən başqa digər ülgenlər də mövcud olmuşdur. Məlum olur ki, insanların qutunun yaradıcısı Ülgen olsa da, onları insanlara paylayan yaradcı ana rolunda çıxış edən Enem Dayuççidir (Dayuççi anam). Bu mifik varlığın göyün dördüncü qatında oturduğuna inanılmışdır. İnsanların sürlərinin alınmasına da o cavabdehdir. Bunun nəticəsində isə ölüm baş verir. Bu isə o deməkdir ki, o, eyni zamanda, həm də ölüm mələyidir. O, kimin həyatının sona yetməli olduğu qərarını öz kitabına yazır (Анохин, 1929, c. 253, 260).

Teleutlar övladı olmayanların Enem Dayuççi tərəfindən qutdan məhrum edildiklərinə inanırdılar. Odur ki, qut almaq üçün başqa ülgen və ruhlara müraciət edirdilər. Bu məqsədlə da-

ha çox isə Ada (ata) və Doo-Kap adlı mifik varlıqlara yalvarır, onlara qurbanlar verirdilər (ААН СССР, ф. 202, оп. 1, д.20, л. 5). Əgər bu mərasimdən sonra uşaq dünyaya gələrdisə, bu, sözügedən ruhların hədiyyəsi kimi qəbul edilərdi (ААН СССР, ф. 202, оп. 1, д.20, л. 6).

Telutların inanclarına görə, Ülgenin qızları digər yuxarı dünya sakinlərinə nisbətən insanlara qarşı daha mehribandırlar. Onlar qorxu keçirən adamın köməyinə gəlməkdə heç vaxt gecikmirlər. İnsanlar onlara yardım üçün dua edər-etməz, dərhal göyün on dördüncü qatından yerə enirlər (Анохин, 1929, с. 253, 256).

Bütün bu faktlar bir daha sübut edir ki, teleutların yuxarı dünya barədə təsəvvürləri digər Altay soy və boylarının təsəvvürlərindən az şeylə fərqlənmişdir.

Eyni sözləri telenqitlər haqqında da söyləmək olar.

Altay türklərinin üçüncü cənub qrupuna daxil olan telenqitlər yuxarı dünyanın bütün sakinləri içərisində Kudayı daha üstün tuturdular. Belə hesab edilirdi ki, Kudayın iki sifəti var; Ülgenə xas xeyir sifəti və Erlikə xas şər sifəti. Onun bu iki sifəti daim bir-biri ilə mübarizədədir və ölümlə həyat bu mübarizənin nəticəsidir (Калачаев, 1896, с. 48). Telenqitlərdən toplanmış bir alqışda Ülgenə müraciətlə belə deyilir:

Ey qüdrətli atamız Ülgen!
Öz sirli papağında üç rəngli lent
Gəzdirirsən sən.
Sənin sarayına üç nərdivan aparır,
Minmək üçün atı yaratdın, Ülgen, sən!
Mənim mal-qaramı yaradan da sənsən,
Uzun hörüklü qadını da yaratdın sən.
Dünyada barışı yaradan da sənsən,
Bizi xəstəlikdən qoruyursan sən.
Güllənin yetmədiyi yerdən,
Səsin çatmadığı yerdən,
Dünyanı təhlükəsiz yerdə yaratdın,
İnsanlara qutu da sən çatdırdın (Калачаев, 1896, с. 484).

Bu mətndən göründüyü kimi, telenqitlər Ülgenə ilahi əcdad kimi yanaşmış, onun insanları və heyvanları yaratdığına və insanları qoruduğuna inanmışlar.

Altay türklərinin şimal boylarından olan kumandılar inanmışlar ki, yuxarı dünyanın sakinləri ayrı-ayrı türk soy və boylarının əcdad ruhlarıdır. Onları töös adlandırırdılar. Tööslərin ən böyüyü üç guşəli müqəddəs papaq geyən Bay Ülgendir (Сатлаев, 1974, с. 147). Kumandılar onu mis boyunluqlu geyimdə, ağ buludların arasında oturmuş vəziyyətdə təsvir edir və onun elə bu vəziyyətdə də hər şeyi və hər kəsi idarə və mühakimə etdiyinə inanırdılar. İnanca görə, insanlara şamanlıq istedadını bəxş edən də, onları bu missiya üçün seçən də məhz odur. Belə hesab edilirdi ki, onun hüzuruna qalxan şaman hər birində müxtəlif ruhların yaşadığı yeddi mərtəbə keçməli olur (АГАИ, ф. АМ, д.216, л. 120-122, 126, 127).

Kumandı soylarından Ülgenə tapınanlar çeley, çadıber və kalar soyları idi (Сатлаев, 1974, с. 147). Köklü kumandı soyları eyni zamanda Bay Ülgenin oğul və qızlarını da əziz tuturdular. Kumandıların inancına görə Ülgenin yeddi və ya doqquz oğlu, bir o qədər də qızı olmuşdur. Onun böyük oğlunun adı Karçi kayın kestirbes kayır köstü Solta-kan (Əyri – üyrü qayın ağacını kəsməyi yasaq edən gözü qəzəbli Solta xan) idi. O, örö kumandı və tastar soylarının himayəçisi hesab edilirdi. Çoot soyu isə Salu kanı ilahiləşdirmişdi. Altınça kumandı soyu öz növbəsində Nqanqmıraktıq Çajı kanı (Yağış göndərərən Çajı xan), soolıq soyu Ezir pulut allatıq Aba Yajını (Lopa-lopa buludlarda oturmuş Aba Yajın), tabıska soyu Paqdıq kanı, örö şabat və altına şabat soyları Külbiş biy və Suza kanı daha üstün tutmuşlar. Adı çəkilənlərdən başqa Bay Ülgenin oğulları sırasında meşələrin hakimi Kanım Biy və və Kayır Kirqis Biyin də adları çəkilməkdədir. A. Anoxinin dərc edilməmiş materiallarına görə, orta dünyanın müqəddəslərindən hesab edilən Kanım Biyə kumandılardan başqa tuba və çelkan boyları da tapınmışlar (АИЭ АН СССР (ЛО), ф. 11, оп. 1, в.101, л. 29. об. 30). Kirqis Biyə gəlincə, F.Satlayev onun adını çəksə də, xarakteristikasını qeyd etməmişdir (Сатлаев, 1974, с. 147-148).

Bay Ülgenin kumandılar tərəfindən sevilən qızlarından yalnız Üç çiçektiq Çayım kanın (Üç çiçəkli Çayım xan) adı məlumdur. O, toon soyunun himayəçisi hesab edilirdi (Сатлаев, 1974, c. 147-148).

Kumandıların inanclarına görə, yuxarı dünyanın sakinlərindən biri də şamana göylərə yüksəlişi zaman yardımçı olan Kıday kandır (Сатлаев, 1974, c. 157). Maraqlıdır ki, kumandılardan toplanan miflərdən birində şamanın Ülgenin qızlarından biri ilə evlənməsi barədə süjet də var. Bu süjetdə böyük şaman Kamenekin Bay Ülgenin qızlarından birini qaçırması və onunla birlikdə yerə enməsi təsvir edilir. Burada onlar evlənirlər. Qızının bəni-adəmdən hamilə qaldığını görən Bay Ülgen bərk qəzəblənir və qızını üç dəfə vurur. Nəticədə o, üç oğlan doğur. Bunlardan birincisi Keley pəltək, ikincisi Koço həddən artıq nəhəng, üçüncüsü Kurultay isə axsaq doğulur. Bunlardan üçüncüsü Ülgenin əmri ilə kumandıların içərisindən onlar üçün dəmirçilər və şamanlar seçir (АГАИ, ф. АМ, д.216, л. 125-126, 176). N.Alekseyevin fikrincə, bu süjet mif yaradıcılığının ən son mərhələsinə aiddir (Алексеев, 1984, c. 37-38).

Altay türklərinin şimal boylarından olan tubaların orta dünya ilə bağl təsəvvürləri barədə məlumat daha azdır. S. Tokarevin fikrincə, bu etnik qrupa dar çərçivəli soy ruhlarına inam daha çox xarakterikdir. Bu boya daxil olan soylardan komdoşlar Yajil xan və Pırça xanı, kuzen soyu Pırça xan və Kirqis xanı, üs soyu Paxtuqan və Uraqanı, tiber və türgeş soyları Aba Yayiki daha üstün tuturdular (Токарев, 1947, c. 157). A. Anoxinin qeydlərinə əsasən, Yajil xan, Pırça xan (Burça xan), Paxtuqan Ülgenin oğullarıdır (Токарев, 1947, c. 148).

N.Alekseyev Kirqis xanın adının "qırğız" etnonimi il bağlı olduğu ehtimalını irəli sürmüşdür (Алексеев, 1984, c. 38).

Altay türklərinin şimal boylarından olan çelekanların inanc sistemi barədə məlumat tubalarınkından da azdır. V. Dioseqi və F.Satlayevin yazdıqlarına görə çelkanlar Sulay kanı daha əziz tutmuşlar (АГАИ, ф. АМ, д. 216, c. 136).

Sibir türklərinin köklü etnik qruplarndan olan xakaslara gəlincə, bütün xakas boyları dünyanın, insanların və heyvanların

yaradıcısı kimi Kuday xana tapınırdılar. O yuxarı dünyann işıqlı varlıqlarının başçısı hesab edilirdi (Островских, 1895, с. 336). Bu işıqlı varlqlar isə öz dünyalarında dinc oturmur, tez-tez orta dünyaya enir, insanların işlərinə qarışır, onların və heyvanlarının qutlarını oğurlayırdılar (Архив ХНИИЯЛИ, ф. 545, оп. 1, д.20, л. 44). Xakasların inanc sistemini tədqiq etmiş alimlər, çox təəssüf ki, onların nə göydəki mövqelərini, nə də xarakteristikalarını qeydə almamışlar. Bu baxımdan Kuday xan da istisna deyil. Onun dünyanı və Erliki yaratdıqdan sonra gördüyü işlər və Erliklə düşmənə çevrilməsi barədə miflər də dövrümüzədək gəlib çıxmamışdır. Maraqlıdır ki, bu məsələdə P. Ostrovskixin informatoru olmuş müəllim M.Raykov (kaçin soyundan idi) xakaslarda təktanrıçılıqla bağlı hər hansı bir təfəkkür və təsəvvürün olduğunu bütünlüklə inkar etmişdir (Островских, 1895, с. 336). Lakin bu fikri təsdiq edəcək heç bir başqa tutarlı mənbə yoxdur. Odur ki, bu mövzuda dəqiq bir söz söyləmək çox çətindir.

Qeyd etmək lazımdr ki, N.Katanov və P.Ostrovskix Xakasiyaya XlX əsrin sonlarında səyahət etmişdilər və o vaxt bu türk xalqı artıq xristianlığı qəbul etmişdi və əski inanclarını, demək olar ki, unutmuşdu. Bununla belə onların arasında günəş, ay və ulduzlarla bağlı bəzi kosmoqonik miflər hələ də yaşamaqda idi. Xakaslar bu göy cisimlərini ilahiləşdirilmişdilər və onların insanların həyatına təsir etmək gücündə olduqlarına inanırdılar (Архив ХНИИЯЛИ, ф. 545, оп. 1, д.20, л. 44).

Xakasların aparıcı soylarından olan kaçinlərə (kaçanlara) gəlincə, onlar arasında onqonçuluq daha yayğın olmuşdur. Onlar quşların hamisi olan ruha inanmış, yuxarı dünya sakinlərini də quş kimi təsəvvür etmişlər. Bu səbəbdən də kaçin şamanlarına aid əldə olan ovsun və alqışlarda sohbət 40 quş nəslindən gedir (Катанов, 1907, с. 569-570).

Əldə olan azsaylı materiallardan belə aydın olur ki, xakaslar da xristian olmamışdan öncə digər türk soyları kimi əcdad ruhlarına (töösləгə) sitayiş etmiş, onların ayrı – ayrı soyları himayə etdiklərinə, insanları güdərək onların qutlarını zəbt etdiklərinə inanmışlar (Архив ХНИИЯЛИ, ф. 545, оп. 1, д.20, л. 61). Belə

ruhlardan biri də, çox güman ki, kaçinlərin "göy (boz) atların hamisi" adlandırdıqları tanrıça olmuşdur. Ona həsr edilmiş bir alqışda belə deyilirdi:

Sütül, dırnaqları daşa dəyməyən boz ata minib çapırsan!
Sən qara heyvanların, mal qaranın himayədarısan!
Bura oyrat və qırğızların ölkəsindən gəlmisən,
Ağ və mavi çələnglərlə bürünüb, bəzənmisən!
Abakan yüksəkliklərindəki qarlı dağları gəzirsən,
Altun yarpaqlı qayın ağacının kölgəsində dincəlirsən!
Ayaqların ağappaq buludlara çatır,
Ağ və mavi çələnglərin ardınca dalğalanır.
Atan Arkaydır, anansa Purkan,
İçdiyin ağ süd daha ağdır qardan.
Evin, yaşadığın kənd pambq buludlar üstündə tapmış qərar,
Var orada ay işığından bərq vuran altun, qızıl qayalar.
Günəşdən bərq vuran gümüşü qayalar da var,
Günəşin altında gümüş ulduz, ayın altında qızıl şəfəq parlar.
Onlara müraciət edib yalvarıram mən,
Altun yarpaqlı qayından yan keçirsən sən!

(Катанов, 1907, с. 572-573).

Kaçinlərin yuxarı dünya sakinlərindən hesab etdikləri mifik varlıqlardan biri də "xozan töös"dür. "Xozan töös" xakas türkcəsində "dovşan əcdad", "dovşan dədə" anlamlarına gəlir. Ona həsr edilmiş bir alqış da qeydə alınmışdır:

Ağ Tanrı tərəfindən yaradıldın sən,
Ağappaq bir dovşan oldun sən!
Xumar rəngli dayçan altı yaşnda.
Hilala bənzər ağ, qırmızı donda,
Aydın səmaları gəzirsən sən,
Ağappaq dağ zirvəsində durursan sən!
Ağ qayın ağaçı altda kölgələnirsən,
Ağ buludlar üstündə evə sahibsən.
Yaşadığn kənd də buludlar qoynundadır,
Aydan altda yerləşən altı ulduzun altındadır.
Ağ muncuqlar kimi qoy düzülsün sapa,

O üç ulduz ki, Günəşdən altda!
Mavi sapa düzülün sıra-sıra,
Kəndlərinin sayı sığmr hesaba.
Aydın səmaları gəzirsən sən,
Ağappaq dağ zirvəsində durursan sən!
(Катанов, 1907, с. 492-493).

K.Pataçakovun yazdığna görə, bu mifik varlığa kaçin boyuna daxil olan türküt və xasxa soyları tapınmışlar. Qadınlar da uşaq sahibi olmaq üçün ona yalvarmışlar (Архив ХНИИЯЛИ, ф. 545, оп. 1, д.20, л. 59). Belə çıxır ki, kaçinlr qutu verənin təkcə Kuday olmadığına, bunu əcdad ruhlarından da almağın mümkün olduğuna inanmışlar. Bu fakt altaylıların Dayıkdan qut istəmələrini xatırladır. Yeri gəlmişkən qeyd edək ki, ağ dovşan dərisi Altayda Dayıkın ikonoqrafik təsviri kimi qəbul edilirdi (Алексеев, 1984, с. 40).

Kaçinlərin inanclarına görə, şamanların köməkçilri qismində çıxış edən ruhlar da yuxarı dünya sakinləridirlər. Onlar şaman təbillərinin üz tərəfində təsvir edilirdilər. Bunlar bir ququ quşu, iki qartal, at üzərində oturmuş insan formalı ruh və iki ağ quş idilər. Ququ quşu şamana vəcdə gələrək, yuxarı dünyanın dağ, çay və göllərini təsvir edərkən kömək edir, onun sirrli-sehrli vergisini gücləndirirdi. Əgər təbildə bu quşun təsviri yox idisə, bu o anlama gəlirdi ki, onun sahibi yuxarı dünya sakinlərinə dua edə və onlardan nə isə istəyə bilməz.

Qartallar şamana öskürək xəstəliyinə tutulmuş adamları sağaltmaqda yardımçı olurdular. İki ağ quş isə göz xəstəliyin tutulmuşlara şəfa verməkdə yardım edirdilər. At üzərində oturmuş ruh isə xəstəliyin mənbəyini tapmada şamanın köməkçisi kimi çıxış edirdi (Катанов, 1907, с. 570-580).

Bütün bunlardan başqa təbilin üz tərəfində kaçinlər günəşin, ayın, doqquz ulduzun – böyük ayı bürcünə daxil olan yeddi ulduzun, gecə və sübh tezdən peyda olan iki ən parlaq ulduzun şəklini, eləcə də qoşa qayın ağaçının rəsmini də çəkirdilər. Ağaclardan birinin yanında təbilin sahibi olan şaman təsvir edilərdi. Bu təsvirdə şaman ayaq üstə, əlində mərasim zamanı istifadə ediyi əski parçalarnı tutmuş vəziyyətdə olurdu (Катанов, 1907, с. 579).

N.Katanovun saqay tüklərindən topladığı materiallar da böyük maraq doğurur. Bu tədqiqatçnn məlumatlandırıcılarından (informatorlarından) birinin bildirdiyinə görə, saqaylar Kudayı bütün varlıqların yaradıcısı saymaqla yanaşı, bir çox miflərdən də göründüyü kimi, onun iblislə, yəni Erlik ilə bilavasitə özünün mübarizə apardığına inanmışlar. Belə ki, eposlarda Tanrı Kuday Erliyi şamanların, nağıllarda isə bahadırların vasitəçiliyi ilə təqib edir. Erliyi təqib edən Tanrı onu odlu oxlar və şimşəklə vurmağa çalışır. Erlik isə onlardan qorunmaq üçün gah ağacların, gah mal-qaranın, gah da insanların arxasında gizlənir. Nəticədə isə Tanrının oxları və şimşəyi ağaclara dəyir. Bu zərbələrə tuş gələn ağacların böyüməsi və inkişafı dayanır. Saqay miflərində Kuday öz iradəsini yazılı formada bildirir. Bunun üçün o, ya kağız vərəqdən, ya da məktubdan istifadə edir. Bəzi miflərdə isə Tanrı buludların üzərində oturaraq, oradan bahadırların aşağı dünyanın bədxah ruhları ilə mübarizəsini seyr edir (Катанов, 1907, с. 217-218).

N. Katanovun topladığı materiallardan belə məlum olur ki, saqaylar Kudaya xallı atları qurban kəsirmişlər (Катанов, 1907, с. 597). Bu xalqın inanclarına görə, yuxarı dünyada Kudaydan başqa qara atlara sahib olan digər bir mifik varlq da yaşamaqdadır. Saqaylar ona aşağıdakı dua ilə müraciət edirdilər:

Nəmli buludları özünə döşək etmisən,
Ağ, yumşaq buludlara dirsəklənirsən!
Xalqlar başçsı bahadır Kaplaya bənzəyirsən,
On minlərin ağası bahadır Tüpleyə bənzəyirsən!
Gəzib dolaşırsan sən ən seçmə qara atda,
Əlindən düşməyir qayın ağcından olan çomağın da!
İpək yunlu çəpiş qurban edirik sənə,
Bir atın çəkə bilməyəcəyi çəllək veririk sənə!

(Катанов, 1907, с. 555).

Saqay mifologiyasında göy sakinlərindən biri kimi Kuba adlı bir ilahədən də söz edilməkdədir. Ona həsr edilən ovsun-duada isə belə deyilir:

Sən, ey bakirə Kuba,
Doqquz ərdən daha güclü doğulmusan sən!

Gümüş sırğalarını taxıb,
Xalqınla birlikdə aya gedirsən sən!
Ağ, yorğa atda gəzib-dolaşırsan,
Özünü qayın ağacından çomaqla qoruyursan!
Ey başı daim ağ ağamız, atamız Çalbart dağı,
Yaşıl meşə donunun misilsizdir yaraşığı!
Vətənin sarı uryanxaylar ölkəsi,
Qurbanın kəsilmiş heyvanın ən böyük tikəsi!
(Катанов, 1907, c. 555).

N.Катанов koybal türklərinin folkloruna dair də bir neçə maraqlı material dərc etdirmişdir. Bunlar əsasən yerli türklərin “ızık” adlandırdıqları əcdad ruhlara həsr edilmiş ovsun və alqışlardır. Koyballarын mifik təsəvvürlərinə ızıklar bir-birilərindən sahib olduqları atların rənglərinə görə fərqləndirilir. Ovsun-duaların birində deyilir:

Atmayan və hədəfdən yayınmayan ey solaxay ağa,
Döşəyin olan nəmişli ağ buludlar bənzəyir dağa!
Masmavi göylərə çatan başın kölgəlik yerdədir,
Ağ göylərdə ağ bulud, Solban (Çolpan, Venra) zirvədə, dikdədir!
Ey sarı-qırmızı rənglərə boyanmış ayğır at,
Tükləri yorğa ayğırımın tükünə bənzəyən at!
Sarı göldür susuzluğunu yatızdırdığın yer,
Göy altında çapanda tirəyir bütün göy-yer!
Doqquz zirvələri aşan,
Doqquz barmağı olan! (Катанов, 1907, c. 252).

Qızıl türklərinə gəlincə, onların mifləri dövrümüzədək yetişməmişdir. Yalnız o məlumdur ki, onlar yuxarı dünya sakinlərindən Kudaya üstünlük vermişlər (Алексеев, 1984, c. 42). Onlardan fərqli olaraq, şor türkləri Ülgenə tapnırdılar. İ.Xlopina şorlardan Ülgen və Erliklə bağlı bir neçə mif toplaya bilmişdir (Хлопина, 1978, c. 71-73). Bu miflər, demək olar ki, bütünlüklə altaylıların və xakas türklərinin yaradılışla bağlı mifləri ilə üst-üstə düşür. Bu miflərdən belə məlum olur ki, Ülgenin yaşadığı yuxarı dünya doqquz qat göydən ibarətdir ki, bunlardan birincisi “Koşka” adlanır. Bu qatın

mərkəzində onun sahibi Samçi oturur. Onun eynən insanlarda olan evə bənzr evi, arvadı və uşaqları var (Хлопина, 1978, с. 70). Göyün elə həmin qatında Ülgenin ağ-boz rəngli, "Ağbozat" adlı atının qamçısı – şimşək yerləşir. Ülgen atını qamçlayanda şimşək çaxır (Хлопина, 1978, с. 71-73). Göyün ikinci və beşinci qatlarında göy qurşağının ayrı-ayrı hissələri – göy, qırmzı, boz və mavi qurşaqları yerləşir. Altıncı qat "Qırmızı göy" adlanırdı. Orada qırmzı rəngli qadınlar yaşayır, fəqət onlar haqqında bir şey məlum deyil.

Yeddinci göydə ay və ulduzlar, səkkizinci göydə isə günəş yerləşir. Ülgen doqquzuncu qatda oturur. Ora daim işıqlı və istidir. Oradakı otlar heç vaxt qurumur, gül və çiçəklər solmur. Heyvanların isə sayı-hasabı yoxdur. Ülgenə yönələn ovsun-dualarda onda rifah və bolluq istənilir. O da istədiyin bunları göydən endirir (Хлопина, 1978, с. 71-73).

Şorların inanclarına görə, şamanları Ülgenin özü seçir. Onları nişanlayır və onlara əlamətlər verir. Bu əlamətlər "artıq sümük", əl və ya ayağın barmağında böyük düyüncük, qulağın aşağı hissəsində deşik və çuxurcuq və s. ola bilər (Хлопина, 1978, с. 77). Ülgenin icazəsi olmadan şaman təbilə sahib ola bilməz. Bu barədə icazəsini o, Puqas dağının ruhu vasitəsilə çatdırır (Хлопина, 1978, с. 81).

Ülgenin yanına səyahət edən şaman öncə doqquz dağ aşmalı və onların hər birinin ruhuna qurbanlar verməlidir. Həmin dağlar bunlardır: Mras-su, Üst Kobıray, Azır, Kiçik Gelen-Tayqe, Uluq göllü, Sarıq-taype, Şaüçak və s. Şamanın yolu Altın göldən və Altın Mergen dağ silsiləsindən keçir. O. Göyə Şakçak dağından yüksəlir. Bu Ülgenin xanlığına aparan yolun üzərindəki son dağdır (Хлопина, 1978, с. 85, 87).

A.Anoxinin yazdığına görə, şorlar Ülgen və Erliyin eyni gücə, qüdrətə və hakimiyyətə sahib olduqlarına inanmışlar (АИЭ АН СССР (ЛО), ф. 11, д.101, л. 4). İ. Xlopin isə bildirir ki, şorların Ülgenə qurban verməsi eynən altaylıların mərasimlərini xatırladır (Хлопина, 1978, с. 89).

İnama görə, Ülgen onun yanına merac edən şamanlara bəzi mənbələrdə "Bura", digər mənbələrdə isə "Büraq" adlandırılan doqquz mifik at göndərirdi. Bu atlarla yalnız Ülgenin yanına get-

mək mümkün idi. Daha doğrusu, onlar yalnız bu məqsəd üçün nəzərdə tutulurdu. A.Anoxin, eyni zamanda, yuxarı dünyanın digər sakinlərinin də adlarını qeydə almışdır. Bunlar Damqıraktu Dajızı kan, Sarı Çalıq Töös, Tooçi xan və Kanım töös idilər (АИЭ АН СССР (ЛО), ф. 11, д.101, л. 22, 41-42). Bunlardan birincisinə aşağı kumandı soyları da sitayiş edir, onu Ülgenin oğullarından biri hesab edirdilər ki, bu barədə yuxarıda məlumat vermişik. Sarı Çalıq töös kumandılarda "Şalıq" adı altında yad edilir və ovçuluq tanrıçası kimi qəbul edilir. Kumandılar Kanım töösü isə meşənin sahibi hesab etmişlər (Сатлаев, 1974, с. 147-148).

Şorlar Ülgenin oğlunu "Şor Teqri" (Şorların Tanrısı) adlandırırdılar. O, şor şamanlarının əsas köməkçisi hesab edilirdi (АИЭ АН СССР (ЛО), ф. 11, д.101, л. 43-44). Bəzi şaman ovsun-dualarından isə belə məlum olur ki, şamanların göyün hər bir qatnda bir köməkçisi varmış. Bunlardan aşağı qatlarda olanlar zəif, yuxarı qatlarda olanlar isə güclü köməkçilər hesab edilirdilər. N. P. Dırenkovanın topladığı materiallardan belə aydın olur ki, Ülgen şamanlara təkcə təbil verməklə yetinməmiş, eyni zamanda, hansı şamanın neçə təbilə sahib olmalı olduğunu, onlardan neçə müddət istifadə edə biləcəyini də müəyyənləşdirmişdir (АИЭ АН СССР (ЛО), ф. 11, д.101, л. 8, 16).

N.Katanovun tıvalılardan topladığı variantlarda göylərin sayı fərqlidir. Onun məlumatlandırıcılarından (informator) biri bu sayı 33, digəri isə 99 kimi göstərmişdir (Катанов, 1907, с. 16, 31). Tuva türklərinin inanclarına görə, yuxarı dünyada Burxan (Tanrı) yaşayr. O hər şeyin yaradıcısı və sahibidir. İnsanların övladları və mal-dövləti ondan qaynaqlanır (Катанов, 1907, с. 47).

Tıva türkləri ölən yaxşı adamım ruhunun 49 günə Burxanın dərgahına yüksəldiyinə inanırdılar. Orada o yenidən doğulmalıdırsa, yerdə yeni doğulan bir uşağın bədəninə göndərilir, ölməlidirsə, ölür (Катанов, 1907, с. 15). Burxan orta dünyanı daim nəzarəti altında saxlayır və insanları onlara pislik etmək üçün aşağı dünyanın yer üzünə qalxmış bədxah ruhlardan ildırım və şimşək çaxdırmaqla qoruyur (Катанов, 1907, с. 31).

Q.Potanin qeydlərindən isə tıvalıların göylərdə yaşayan ildırımlar və şimşəklər tanrıçasına da sitayiş etdikləri məlum olur. Onun topladığı materiallarda bu mifik varlıq Kuday-Kayrakan və ya Ulu Kayrakan adlanır (Потанин, 1883, с. 186). Buradakı "Kuday" termini Altay-xakas miflərində yuxarı dünyanın başçısı kimi çıxış edən Kudayın adının eynisidir. Maraqlıdır ki, tıvalılar şimşəyin mənşəyini təkcə yuxarı dünyanın başçısı ilə bağlamamışlar. Eyni zamanda hesab etmişlər ki, uçan və uçarkən quyruğunu bərk- bərk yelləyən əjdaha da ildırım saçır. Göy gurultusu onun qışqırığından yaranır. Bu əjdaha saçdığı şimşəklə insanları və heyvanları öldürür. Amma o insan və heyvanları öldürür ki, onlar ona göydə lazımdırlar. Onun oxu insan ürəyinə bənzəyir (Катанов, 1907, с. 31, 82).

Əjdaha haqqında məlumatlara V. Dyakonovanın da qeydlərində rast gəlinir. Onun topladığı materiallarda tıvalılar həmin əjdahaya "Luu" deyirdilər (Дьяконова, 1976, с. 287).

Tıvalıların inanclarna görə, qüdrət sahibi olan şamanlar öz vergilərini göydən alır. Şaman "xəstəliyinə" isə üzərlərinə göy qurşağı düşdükdə tutulurlar (Кон, 1934, с. 24; Дьяконова, 1981 б, с. 133). Bu isə o zaman baş verir ki, insan Oran əəzi (kainatın sahibi) ilə təmasda olur (Дьяконова, 1981 б, с. 133). Tuva şamanları iddia edirdilər ki, onlara yuxarı dünyaya qalxmağa göy qurşağının sahibləri yardımçı olurlar (Дьяконова, 1981 б, с. 147).

Şamanların kömkçilərindən biri də Ak Əərən (ağ ərən) idi. Şamanlar bu mifik varlığa böyük hörmətlə yanaşır və yuxarı dünya sakinləri ilə onun vasitəsilə əlaqə saxlayırdılar. Onun rəsmi Tıva və Altay şamanlarının əsas simvollarından biri hesab edilirdi (Дьяконова,1981 а, с. 143). N. Alekseyevin fikrincə, Ak Əərən altaylıların Dayıkı ilə eyni şey olmuşdur (Алексеев, 1984, с. 45). V. Dyakonovanın topladığ materiallardan şamanların daha bir köməkçisinin də adı məlum olur. Bu, Kırqız Ərəndir (Дьяконова, 1981 б, с. 147).

Teleutların da inanclarna görə, aşağı dünyanın sahibi Erlikdir. Onlar bu mifik varlığı "Adam" (mənim atam) da adlandrır və ona böyük hörmətlə yanaşırdılar. Onun "çin der"də (gerçək yer), "tenqer tezi"nin (göyün yerə dirəndiyi məkan) arxasında

yaşadığına inanmışlar. A.Anoxinin topladığı materiallardan belə aydın olur ki, teleut türkləri üç dünya – yuxarı, orta və aşağı dünya arasında heç bir ziddiyyət və əkslik görməmişlər. Belə hesab etmişlər ki, orta dünyanın tam kənarından 19 xanın – 9 göyün və 8 yer altının xanlarına yollar ayrılır. Onlar Dayuççidən qut almadıqda, övlad istəyi ilə məhz Erlikə müraciət edirdilər. Elə bu üzdən də ona “ada” (ata) və ya “adam” (atam) deyə müraciət edər, onu özlərinin ulu babalarından biri hesab edərdilər (ААН СССР (ЛО), ф. 202, оп. 1, д.20, л. 6; Анохин, 1929, с. 266). Eyni materiallarda aşağı dünyanın daha üç sakininin də adlarına rast gəlinir. Bunlar Arbıs xan, Aldıs xan və Kundus xan adlı ruhlardır (Анохин, 1929, с. 262-263, 266-267).

Telenqitlərin aşağı dünya və onun sahibi haqqında təsəvvürləri digər türk xalqlarının təsəvvürlərindən, demək olar ki, heç nə ilə fərqlənməmişdir. Deyilənləri Erlikə yönəlik aşağıdakı ovsun-dua mətni də təsdiqləməkdədir:

İnsanları tilovu ilə ovlayan ey qəzəbli ruh,
Sən dolmuş camları boşaltmağı sevirsən.
Üzun hiss kimi qapqaradır sənin,
Qara saçların didik-didikdir.
Boyun çox-çox nəhəngdir.
Öz dəhşət saçan yolunla irəli gedirsən,
Bunu yalnız ay işığında edirsən.
Əllərini tutub saxlaya bilməz kimsə,
Ən güclü bahadır ayağını tərpədə bilməz yerindən.
Gözlərin dünyaya kölgə salır,
Dişlərin daraq kimi irəli çıxır.
Sümüklərinlə dəriləri aşılamaq olar,
Ovurlarndan dəmir kimi gurultulu səs çxar.
Hər şeyi sən görürsən,
Hər şeyi sən bilirsən (Калачев, 1896, с. 484).

Kumandılar da Erliyi aşağı dünyanın sahibi hesab edirdilər. Lakin onunla birlikdə Kaqır xanı da eyni səviyyədə tuturdular. Sonuncunun insanların taleyini müəyyən etdiyinə inanır, Erliyə qarşı çıxaraq, ona orta dünyanın sakinlərinə – insan və heyvanlara

pislik etməsinə mane olduğunu söyləyirdilər (Сатлаев, 1974, с. 150; АГАИ, ф. АМ, оп. 1, д216, л. 31). Kumandılardan toplanmış bəzi miflərdə Kuday (Ülgen), Erlik və Kaqır xan qardaş kimi təqdim olunurlar. Həmin materiallara görə, Ülgen insanları yalnız bir halda, ona hörmətsizlik etdikləri halda cəzalandrmaq qərarna gəlir, bu qərara gələr-gəlməz, qərarını Kaqır xana bildirir, o da qərarı yerinə yetirməyi Erliyə tapşırır (Сатлаев, 1974, с. 150).

Artıq qeyd etdiyimiz kimi, altaylılar və altay – kijilər Kaqır kanı Erliyin oğlu olduğunu, yerin birinci qatında yaşadığını hesab edirdilər. Bu baxımdan kumandıların təsəvvürləri bir qədər fərqlidir. Onlar eyni zamanda hesab edirdilər ki, yerin altında Erlik və Kaqır xandan başqa Tüşülü aza adlı daha bir ruh da yaşayır (Сатлаев, 1974, с. 150).

F.Satlayevin topladığı miflərin birində ilk şamanla Erliyin savaşından söz açılır. Bu mifdə Erliyin öncələr orta dünyada yaşadığı, ağına-bozuna baxmadan, yəni Ülgenin qəzəbinə gələn və gəlməyən, bütün insanları ard-arda yediyi, beləcə insan soyunun tükənmək üzrə olduğu, bunu görən şamanın bu hala son qoymaq məqsədi ilə Erliyi öldürmək qərarına gəldiyi bildirilir. O, Erlik üzərində qələbə qazansa da onun od kimi alışıb-yanan gözlərini çıxara bilmir. Bu səbəbdən də deyir: "Yaxşı, indi aşağı dünyaya en və orada qal, amma Ülgenin qəzəbinə gəlməyən insanları yemə! Bundan sonra qamlar (şamanlar) yanına gələcək və hər üç qapından sənə qurbanlar verəcəklər" (АГАИ, ф. АМ, оп. 1, д216, л. 134-135).

Əslində, Mandı Şirənin Erliylə savaşndan bəhs edən mifin fərqli bir variantı olan bu mifdə baş qəhrəman rolunda Mandı Şirə deyil, şaman çıxış edir. Məqsəd isə şamanların qüdrətini diqqətə çatdırmaq, onlara olan inamı gücləndirmək idi.

Xakas türklərinə gəlincə, onların aşağı dünya barədəki təsəvvürlərinin bütünlüklə altaylılarn inancları il üst-üstə düşdüyünü nəzərə alaraq, təkrarçılığa yol verməmək məqsədi ilə birbaşa kaçinlərin üzərinə keçməyi məqsədəuyğun hesab edirik.

Kaçinlərin miflərində Erlik dünyanın yaradılışında iştirak edən personajlardandır. Kuday Tanrı ona insanları yeməyə icazə vermişdir (Катанов, 1907, с.526-527). Kaçin şamanlarının təbil-

lərində əksər hallarda aşağı dünya və onun mifik varlqları ilə bağlı təsvirlər yer alırdı. Antropomorf formada (insan şəklində) təsəvvür edilən bu varlıqların həmin təbillərin sahibləri ilə təmasa girdiyinə və onlara yardım etdiyinə inanılırdı. N. F. Katanovun təsvir etdiyi təbillərin birində qızdırma xəstəliyinə tutulan xəstələrə yardım edən, 7 qara atda oturmuş 7 qara antropomorf ruh, dağa qalxaraq qonur atların sahibinə qurban verilən zaman insanlara yardımçı olan 7 bakirə qız və çadırırn içində, içi dolu kisələrin yanında durmuş üç insan şəkli çəkilmişdi. Bu 3 nəfər şamanın ruhlara müraciəti zamanı onun köməkçiləri qismində çıxış edirdilər. Təbildə eyni zamanda qurd, it, 2 qurbağa, durna balığı və ayı təsvirləri də vardı. Bunlardan birincisi şamanı başqa dünyalara səyahət edərkən müşayiət edir və qoruyur, ikincisi isə həmişə onun yanında olur . Ayı çadırın keşiyini çəkir. Qurbağalara isə kiminsə əli və ya ayağı ağrayanda müraciət edilir. Eyni rolu təbildə rəsm edilmiş ilan da oynayır. Təsvirdəki sığıra gəlincə, o, insanların atlarını himayə edir (Катанов, 1907, c. 580).

Saqay türklərinin miflərində də yeraltı dünya digər türk soy və boylarının miflərindəki təsvirlərdən, demək olar ki, heç nə ilə fərqlənmir. Fəqət bu miflərdə verilən təsvir daha rəngarəng və zəngindir. Onlardan birində deyilir: «Yeraltı xanlıqda doqquz bahadır yaşayır. Bunlar erlik-xanlardır. Onlar qırx guşəli evdə yaşayırlar. Bu erlik-xanların öz başçıları da var. Evin qarşısında böyük bir kol var. Atları bu kola bağlayırlar. Günahkar insanlar həmin evin doqquz ayrı guşəsində öz cəzalarını alırlar» (Катанов, 1907, c. 219-220).

Mifdən də göründüyü kimi, saqaylar aşağı dünyanın bütün sakinlərini “erlik” adlandırmışlar. Erlik xan isə onların başçsı hesab edilirdi. Saqayların təsəvvürlərinə görə, aşağı dünyanın ruhları Kuday xanın əmrinə tabedirlər və onun iradəsinə uyğun olaraq günahkar adamları təqib edir, tutur, öz dünyalarına aparır və orada cəzalandırırlar. Saqay miflərinin birində aşağı dünyanın 17 qatı olduğu və Erlik xanın da bu qatlardan birində yaşadığı bildirilir (Катанов, 1907, c. 216; 1897, c. 26).

Saqaylar Erliyə həm də “Ada” (ata) demişlər. O, şamanların təbillərinin ölçülərini müəyyən edir, ona yardımçı töösləər (ruhlar) verir. Bu töösləri isə həmin şamanın mənsub olduğu soyun ölmüş üzvlərindən, başqa sözlə, şamanın bir vaxtlar onun özü kimi şaman olmuş babalarının ruhları içərisindən seçir (АИЭ АН ССР (ЛО), ф. К – V, оп. 1, д.475, л. 7-8). Maraqlıdır ki, bu töösləər həm qara, həm də ağ töösləər ola bilərdilər (АИЭ АН ССР (ЛО), ф. К – V, оп. 1, д.475, л. 7). O da maraqlıdır ki, saqaylar da, eynən saxa-yakutlar kimi, insanın aşağı dünyaya səyahət edə biləcəyinə inanmışlar. Bu N. Katanovun topladığı miflərin məzmunlarından görünmkdədir (Катанов, 1907, с. 276-279).

Koybal türklərinin də aşağı dünya haqqında təsəvvürləri, güman ki, çox zəngin olmuşdur. Lakin bu barədə əldə bircə dənə də olsun mif yoxdur. Tədqiqatçılar onların yeraltı dünyann sakinləri haqındakı əski təsəvvürlərini əldə olan bir şaman təbilinin üzərindəki rəsmlər əsasnda rekonstruksiya etməyə çalışmışlar. Bu təbildə müqəddəs qayın ağacı, insan cildli dağ ruhu, uçan qara quşlar və s. təsvir edilmişdir (Катанов, 1897, əlavəyə bax).

Şor türklərinin təsəvvürlərinə gəlincə, bu təsəvvürlər də xakas və altaylıların analoji təsəvvürlərindən fərqlənmir. Bu xalqdan toplanmış miflər içərisində Ülgen və Erlik haqqında miflər əksəriyyət təşkil edir ki, onlar da süjet xəttlərinə və hətta əsas detallarına görə xakas və Altay mifləri ilə üst-üstə düşür. Belə ki, şorların inanclarına görə, Ülgen və Erlik güc, qüdrət və hakimiyyət baxımından bir-birilərinə bərabərdirlər. Bu bərabərdəyərlilik özünü kainatın idarəsində və insanların taleyinə müdaxilədə göstərir. Fəqət insanlara münasibətləri fərqlidir. Ülgen xeyir, Erlik isə şər işlər görür (АИЭ АН ССР (ЛО), ф. 11, оп. 1, д.101, л. 4). Hərçənd ki, A. Anoxinin fikrincə, onların birinin bütünlüklə xeyirxah, digərinin isə bütünlüklə bədxah kimi qələmə verilməsi bir o qədər də doğru deyil. Şorlar Erliyin yer altından yer üzünə, insanlara çox sayda yardımçı göndərdiyinə və bu ruhların insanlarla yanaşı yaşadıqlarına inanırdılar və hesab edirdilər ki, Erlik qəzəbləndikdə bu ruhlar yer üzündə müxtəlif xəstəliklər yayırlar. Erlik razı salındıqda isə həmin ruhlar geri çağı-

rılır və elə həmin an da xəstəliklər bitir, xəstələr sağalır. Erlik aşağı dünyanın cənub tərəflərində yaşayır (АИЭ АН ССР (ЛО), ф. 3, оп. 2, д.61, л. 4, 8, 12).

Əldə olan materiallardan belə məlum olur ki, Ülgen və Erlik bir-biriləri ilə sıx bağlı olan və çox zaman fəaliyyətlərini əlaqələndirən tanrıçalardır. Erliyin 7 oğlu var. A. Anoxinun topladığı materiallara əsasən, onların adları belədir:

1. Karakuş
2. Karı xan
3. Karlık xan
4. Çinıs xan
5. Çildıs xan
6. Çezi xan
7. Kırqıs xan (başqa variantda Kebül xan).

Onların rəsmləri şaman təbillərinin üzərinə çəkilirdi. Bu isə o deməkdir ki, onlar şamanın köməkçiləri hesab edilirdilər (АИЭ АН ССР (ЛО), ф. 11, оп. 1, д.101, л. 10).

Erliyin oğullarının siyahısının şor variantını Altay variantı ilə müqayisə etdikdə onların qətiyyən üst-üstə düşmədiyi diqqət çəkir. Bu ondan qaynaqlanır ki, həmin türk xalqlarını təşkil edən soylar fərqli soylardır. İşin ən maraqlı tərəfi isə budur ki, Altayın cənub boyları Karaquşu Ülgenin oğullarından biri hesab etmişlər. Kırqıs xana gəlincə isə, o, kumandıların Ülgenin oğullarından biri hesab etdikləri Kayır Kirqis biylə üst-üstə düşür.

A.Anoxinun topladığı materiallardan belə məlum olur ki, şorlar Erliyi heç də aşağı dünyanın yeganə və şəriksiz hakimi saymamışlar. Onlar orada üç əcdad ruhun məskun olduğunu və onlardan hər birinin də bir ruhlar qəbiləsinin başında durduğunu düşünürdülər. Birinci qəbilənin başında duranın Tuşkun (Tüşkün) olduğu hesab edilirdi. İnanca görə, onun sarayının keşiyini üç qara köpək çəkirmiş. Erlik ikinci qəbilənin başçısı sayılırdı ki, onu da altı qara it qoruyurdu. Üçüncü qəbiləyə Kaqır xan başçılıq edirdi. Onun sarayının keşiyini isə doqquz eyni rəngli köpək çəkirdi (АИЭ АН ССР (ЛО), ф. 11, оп. 1, д.101, л. 27).

Yuxarıda qeyd etdiyimiz kimi, Kaqır kan, Altay-kijilərin miflərində Erliyin oğlu kimi çıxış edirdi. O, köbök, mürküt və yetti-sarı söylarının himayəçisi sayılırdı. Kumandılar isə Ülgen, Erlik və Kaqır xanı qardaş saymışlar. Eyni zamanda, kumandı miflərində yeraltı səltənətin sakinləri kimi Erlik və Kaqır xanla yanaşı Tüşülü adlı bir ruhun da adı çəkilir ki, bu ruhla şorların Tuşkunu (Tüşkünü), çox güman ki, eyni mifik varlıqdır. Maraqlıdır ki, A. Anoxinin topladığı başqa bir mifdə Erlik və Kaqır xan orta dünyanın ruhları kimi qələmə verilir. Həmin materiallarda Camqıraktu Cacızı və Kanım adlı iki ruhun da adı keçir (АИЭ АН ССР (ЛО), ф. 11, оп. 1, д.101, л. 27).

Dini dünyagörüşləri buddizmin güclü təsirinə məruz qalmış tıvalıların "ölümdən sonrakı həyat" barədəki təsəvvürləri bütünlüklə bu dinin ehkamlarına uyğun gəlsə də, toplanmış bəzi folklor materialları onların əski inanclarının qalqları barədə də müəyyən təsəvvür yaradır. Həmin materiallardan belə aydın olur ki, Tıva türkləri də aşağı dünyanın sahibi rolunda Erliyi görmüşlər. Fəqət onlar bu adla, yəni "erlik" adı ilə həm də yerin 18 qatının hər birinin başçsını adlandırmaqdaydılar. N.F.Katmanovun topladığı materialların məzmunundan çxan məntiqə görə, aşağı dünyaya yalnız qəddar və pis adamların ruhları köçür və orada əzab-əziyyətə məruz qalırlar (Катанов, 1907, с. 16).

V.Dyakonovanın topladığı materiallardan tuvalıların buddizmə qədərki əski mifik təsəvvürləri barədə nisbətən daha dolğun və ətraflı məlumat almaq mümkündür. Onun materiallarna görə, Tuva şamanları aşağı dünyanın "Erlik oranı" və "Aza oranı" adlanan iki hissədən ibarət olduğuna inanmışlar. Belə hesab etmişlər ki, Erlik oranda Erlik və erliklər, Aza oranda isə azalar (şeytanlar) sakindirlər. Onlar arsında daim mübarizə gedir. Aza oran bədxah ruhların məskənidir və oradan insanların üzərinə 999 növ xəstəlik ixrac edilir. Erlik oranın sakinləri isə daim bədxah ruhlara mane olmağa və insanlara yardım etməyə çalışırlar. Onlar həm status, həm də qüvvət baxımından azalardan daha üstündürlər. Bəzən Erliyin "ordusu" öz missiyasını layiqincə yetirmir. Bu zaman Erlik xan erlikləri cəzalandırır (Дьяконова, 1981 б, с. 162).

Əsasında mifoloji təsəvvürlərin yatdığı kurqanda dəfn adətinin fəlsəfəsi ilə bağlı daha bir maraqlı məsələyə diqqət yetirmək yerinə düşər. Azərbayca-Fransa birgə ekspedisiyasının Soyuqbulaqda qazdığı 4 №-li kurqanın (2006) çiy kərpicdən hörülmüş divarlara sahib kamerasının döşəməsində ağac kömürü, ağac dirək fraqmenti aşkar edilmişdir (Лионне Б…, 2002, s. 54). Eyni hala N. Müseyiblinin tədqiq etdiyi 12 №-li kurqanda (2005) da rast gəlinmişdir. Burada, 50 sm dərinlikdə yanaraq kömürləşən budaqların qövsvari kül yığınına rast gəlinmişdir. N. Müseyiblinin yazdığına görə, külün olduğu yerdə gil tərkibli torpağın yanaraq qızamış parçalarına rast gəlinib ki, bu da odun məhz bu hissədə yandırıldığına dəlalət edir.

Maraqlıdır ki, 70 sm dərinlikdə qəbir kamerasının hər küncündə bir ədəd şaquli istiqamətdə basdırılan, diametri 4-5 sm olan ağacların yanmış budaqlarının külə çevrilmiş qalıqları aşkar edilmişdir. Burada da bu qalıqlarla yanaşı yanaraq qızarmış torpaq qalıqları var idi (Müseyibli N., 2014, s. 23-24).

Burada odla təmizləmə və təmizlənmə adətinin izlərini görürük. Bu adətin orta əsrlərə qədər davam etdiyini söyləyə bilərik. Belə ki, XIII əsrdə tatarların dəfn adətlərini müşahidə etmiş Gilyom de Rubrukun yazdıqlarından belə məlum olur ki, tatarlar qəbrin üzərində torpaqdan təpə qurur, öz zənginləri üçün isə piramidalar tikirdilər. Dəfn mərasimindən sonra isə təmizlənmə mərasimi icra olunurdu. İki böyük tonqal qalanır və dəfndə iştirak edənlər onların arasından keçirdilər (Путешествие к татарам.., 1825, s. 22).

Çuvaş türklərinin odun müxtəlif xəstəliklərdən qoruma gücünə sahib olduğuna inandıqlarını yazan V.K.Maqnitski bildirir ki, «ondan müxtəlif insan və heyvanları xəstəliklərdən qurtarmaq vasitəsi kimi istifadə edirdilər. Əski türklər "diri odun", yəni başqa od və məşəl vasitəsi ilə əldə edilməyən, təbii yolla – sürtünmə vasitəsilə alınan odun daha böyük gücə sahib olduğu qənaətində idilər. Odur ki, xəstəliyə düçar olan adam və heyvanı sağaltmaq üçün "diri od"dan istifadə edilərdi. Bunun üçün kənddəki bütün ocaq və məşəllər söndürülər, bundan sonra çölün ortasına palıd kötüyü gətirir, onu başqa ağacla tüstülənənə qədər

sürtər və nəhayət, “diri od” əldə edərdilər. Dərhal ocaq qalayar, onun üzərində yumurta qaynadar və bu ocaqdan bütün evlərə yanar od aparılardı. Daha sonra isə iki böyük ocaq qalanar, kəndin bütün əhalisi və mal-qara bu ocaqların arasından keçirilərdi ki, xəstəliklərdən uzaq olsunlar» (Магницкий, 1881, s. 136).

Bənzər inancın Azərbaycanda da geniş yayıldığı məlumdur. Belə ki, Azərbaycanda “oddan ailəni, eləcə də evi şər qüvvələrdən qorumaq üçün də istifadə edirdilər. Bu məqsədlə ilin son çərşənbəsində ağacların budaqlarını yandırar və otaqları tüstüyə verərdilər” (Azərbaycan etnoqrafiyası, III , 2007, s. 345). Eləcə də “toy günü gəlini iki yanan şamla müşayiət edər, üç dəfə ocağın başına dolandırar və onu odun qoruyucu qüvvəsinə tapşırardılar. Yeni doğulmuş uşağın köynəyini oda tutar, sonra geyindirərdilər. Qədim inanclara görə, axşam vaxtı evdən od çıxarmaq, kimsəyə od vermək olmazdı, əks halda xeyir-bərəkət çəkilə bilərdi. Hələ qədimdən Azərbaycanda camaat yığışıb gənc ailə üçün ev tikər və ilk vaxtlar onların, od istisna olmaqla, lazımi ehtiyaclarını təmin edərdilər. Gənclər isə özləri çaxmaq daşı tapıb, od yandırmalı idilər. Bu insanların xoşbəxtliyi öz əli ilə qazanmasının, ailənin möhkəmliyi üçün vacib şərt olduğuna işarədir. Belə ki, ocağın külünü təzə ay doğanda çıxarıb xəlvət yerə tökərdilər. Odun üstündən keçməzdilər. Ocağın közünü iti əşyalarla qarışdırmazdılar. Yaşlı nəslin bəzi nümayəndələri indiyədək "od sahibinin" insanı müxtəlif bəlalarla, xəstəliklərlə, xüsusilə də ev rahatlığını pozan bədbəxtliklərlə cəzalandıra biləcəyinə inanırlar” (Azərbaycan etnoqrafiyası, III , 2007, səh. 345).

Azərbaycanın bir sıra bölgələrində müalicə məqsədi ilə istifadə edilən ardıc ağacı həmişə yaşıllığına görə müqəddəs sayılıb. Onu qırmaq günah hesab edilirdi. «Analoji olaraq altaylarda “artış” adlanan bu ağacın müalicəvi xüsusiyyətləri ilə bərabər, tüstüsündən evlərdən, insan və heyvanlardan bəd ruhları qovmaq üçün istifadə edilir. Azərbaycan türklərində olduğu kimi, Sibir və Altay türkləri də hesab edirlər ki, bəd ruhlar, pis niyyətli adamlar tikanlı bitkilərdən qorxurlar» (Həkimova N. Tuncay B., 2016, s. 14).

Azərbaycanda və Anadoluda bəzi xəstəliklərin müalicəsi, xüsusən də qorxunun götürülməsi zamanı ardıcdan və tüstüvermədən istifadə edilər və xüsusi ovsun oxunardı (Nəğmələr, inanclar.., 1986, səh. 121).

Maraqlıdır ki, Azərbaycanın ilk tunc dövrünə aid kurqanlarının bəzisindən «aşkar edilən ağac qalıqları əsasında, onların möhkəm və uzunömürlü ardıc ağacı növü oldugu müəyyənləşdirilmişdir» (Cəlilov B. M., 2013, s. 84).

**Türklərə məxsus Y-xromosomlar və kurqan abidələri yazı öncəsi türk tarixinin öyrənilməsinin ən əsas qaynaqları kimi**

Elmi ədəbiyyatda fərqli məktəblər tərəfindən «DNT geneologiya» və ya «Genetik geneologiya» adlandırılan elm sahəsi əslində geneologiya elminin bir istiqaməti kimi yaranıb. Hazırda onu müstəqil elm sahəsi kimi nəzərdən keçirənlər daha çoxdur. Bu sahə və ya istiqamət ənənvi geneoloji metodlarla yanaşı DNT analizlərinin nəticələrindən istifadə etməklə, insanların və ya insan topluluqlarının qədim əcdadlarını və yaxın qohumlarını müəyyənləşdirməklə məşğuldur. Bu zaman irsiyyəti təmin və təyin edən Y və X xromosomlarının tədqiqinə diqqət yetirilir. Amma ulu əcdadların üzə çıxarılması və nəsil ağacının rekonstruksiyası məqsədilə daha çox Y-xromosomların tədqiqi əsas götürülür.

Niyə məhz Y-xromosomlar?

Məlum olduğu kimi irsiyyətin müəyyən edilməsinin əsasını təşkil edən və tərkibi dezoksoribonuklein turşusundan (DNT) ibarət olan cinsi xromosomlar iki tipə bölünürlər: Y və X xromosomları. Hər adamda iki xromosom var. Bunlardan biri ona atasından, digəri isə anasından keçir. Qadınlar həm atadan, həm də anadan X – xromosomunu qəbul edir və bu üzdən də onlarda eyni tipli iki X – xromosomu (XX) olur. Kişilər isə analarından X, atalarından isə Y- xromosomunu qəbul edir və iki fərqli tipli xromosoma (XY) sahib olurlar.

Y-xromosomu atadan oğula keçdiyi və minillər ərzində dəyişmədiyi üçün nəsil ağacını yalnız onun vasitəsilə izləmək mükündür. X-xromosomu əsasında isə bunu etmək mümkün deyil. Çünki X-xromosomu anadan keçdiyi kimi atadan da keçə bilir və

bu zaman qarışıqlıq əmələ gəlir və şəcərə ağacını dəqiq rekonstruksiya etmək mümkün olmur. Bununla belə, ana xromosomlarında olan mitoxondriayalar də qədim əcdadlar haqqında müəyyən məlumat əldə etməyə imkan verir. Məsələn, İran ərazisində, daha doğrusu İranın, Cənubi Azərbaycan da daxil olmaqla, şimal-qərb hissəsində mixondrial haploqrupların təyini üzərində aparan tədqiqatlar nəticəsində bu bölgənin əhalisinin son 7-8 min ildə heç bir genetik dəyişikliyə məruz qalmadığı və həmin əhalidə «ari izi»nə rast gəlinmədiyi müəyyən edilmişdir. Yəni ərazidə 7-8 min ildir ki, eyni xalq, başqa sözlə Azərbaycan türkləri yaşayır.

Bununla belə, bu xalqın ayrı-ayrı fərdlərinin və ya nəsillərinin ümumi əcdadlarını mitoxondriyalar əsasında dəqiq müəyyən etmək mümkün deyil. Y-xromosomların tədqiqi isə istənilən adama özünün nəsil şəcərəsi və ulu əcdadı haqqında dəqiq məlumat əldə etməyə, ətrafdakı adamlarla qohumluq dərəcəsini öyrənməyə imkan verir. Odur ki, hər hansı bir etnosun genetik tarixinin öyrənilməsində Y-xromosomlar əvəzsiz informasiya mənbəyidir.

Sevimli oxucularımıza təqdim etdiyimiz «Kurqanlarda yatan möhtəşəm tarix» adlı bu kitabımızda Avrasiyanın geniş ərazilərinə yayılmış olan və eneolit dövründən XIII-XIV əsrlərə qədər uzanan uzun bir dövrü əhatə edən çoxsaylı kurqanlardan tapılmış skeletlərdən əldə edilmiş DNT nümunələrinin analizlərinin nəticələri təhlil edilir, yer-yer mitoxondrial haploqruplardan söhbət açılsa da, əsasən Y-xromosomlar əsasında kurqan mədəniyyətini yaradan və arxeoloqlar arasında «kurqan etnosu» kimi tanınan etnosun – yəni qədim türklərin şəcərəsi və miqrasiya marşrutları barədə məlumat verilir. Eləcə də bu etnosun eneolit dövründən Tatarların, yəni Çingiz xanın dövrünə qədər yaratdıqları zəngin mədəniyyətlər gözlər önünə sərilir.

Türklərin, dünyəvi dinləri – xristianlıq və İslamı qəbul etməmişdən öncə minillər boyu əski dini-mifoloji təsəvvürlərini davam etdirdikləri, ölülərini xristian və ya müsəlman adətlərinə uyğun olaraq dəfn etməyə başlamamışdan öncə əski dini-mifoloji görüşlərinin qaydalarına uyğun olaraq kurqanlarda dəfn etdikləri məlumdur. Qədim türk dilində, eləcə də çağdaş türk ləhcə və şivələrində «qur-

ğu», «qala» anlamlarını verən «kurqan» terminin başqa xalqların dilinə türklərdən keçmişdir. Bu kəlmə VIII əsrə aid qədim türk yazılı mənbələrində də işlənmişdir (Айдаров, 1971, с. 301, 362).

İtaliyalı alim M.Alinei haqlı olaraq bildirir ki, məzarların üzərində kurqan ucaltmaq adəti tarixən türklərə məxsus olmuşdur. Bu dəfn ənənəsi tarix səhnəsinə çıxdığı gündən orta əsrlərin sonlarınadək türk xalqlarının ən əsas etno-mədəni özəlliklərindən biri idi (Mario Alinei. Paleolythic…).

İtaliyalı alimin fikrini təsdiq edən N. Müseyibli Dağıstanda xəzərlərə aid Çir-Yurt kurqanlarını (Плетнова, 1986, 27), Mozdok yaxınlığındakı qıpçaq kurqanlarını (Федоров, Федоров, 1978, с. 224; Романова, 2013, с. 179) misal çəkərək yazır ki, «bütün Avrasiya çöllərində yaşamış türkdilli xalqların bir çoxu orta əsrlərdə də kurqanlarda dəfnləri icra edir və bu qəbirləri də «kurqan» adlandırırdılar» (Müseyibli N., 2014, s. 88-89). F. Ağasıoğlunun sözlərinə görə, slavyanlar ayrı-ayrı bölgələrdəki kurqanları bəzən ayrı-ayrı türk xalqlarının adı ilə adlandırmışlar. Məsələn, «Zaporojye-Dneprepetrovsk bölgələrində bu kurqanlara kazak, Xersonda tatar, Krımda türk qəbri deyilir. Xerson vilayətinin Aşağı Seroqoz qəsəbəsindəsə hündürlüyü 20 metr olan bir möhtəşəm skif kurqanı Oğuz kurqanı adlanır» (Ağasıoğlu F., 2013, s. 15).

Avropa və rus arxeoloqlarının bir qismi hələ də bu fikirdədirlər ki, eneolit və tunc dövrünə aid kurqanların və ümumiyyətlə kurqan mədəniyyətinin yaradıcıları hind-avropalılar olmuşlar. Onların belə düşünməsi həmin mədəniyyətin birbaşa varisləri olan iskit, sak, sarmat və alanları irandilli hesab etmələri ilə bağlıdır. Məlum olduğu kimi, Q. Bonqard-Levin, E. Qrantovski, (Бонгард-Левин Г. М., 1973; Бонгард-Левин Г. М., Грантовский Э. А., 1974), İ. Dyakonov (Дьяконов И. М., 1967; Дьяконов И. М., 2012), M. Dandamayev, V. Lukonin (Дандамаев М. А., Луконин В. Г., 1980), V. Abayev (Абаев В. И., 1962), D. Rayevski (Раевский Д. С., 1980; Раевский Д. С., 1985; Раевский Д. С., 2006) və s. bu kimi tanınmış iranşünas və hindşünas alimlər əsərlərində yanlış olaraq iskit, sak, sarmat və alanlardan irandilli kimi bəhs etmiş, bu zaman hunların, xəzərlərin, bulqar-

ların, savirlərin, qıpçaqların və s. türk xalqlarının da eyni ənənənin daşıyıcısı olduğunu gözardı etmişlər.

Türkoloqların böyük əksəriyyəti, eləcə də tarixçi alimlərin bir qismi (Юсифов Ю.Б., 1988, s. 181-182; Kothe H., 1967, s. 23; Бернштам., 1946, s. 112; Мухаммед Гасанхан Э'тимад ус-Салтана., 1875, s. 28; Ахинжанов М.Б., 1957, s.104; Гинзбург В., 1956; Гейбуллаев Г., с. 49-59, 154-189; Доватур А.И., Каллистов Л.П., Шишова И.Л., 1982, с. 171; Петров К.И., 1975, s. 124; Ямпольский З.И., 1970; Голубовсикй П.В., 1888, s. 143-144; Трощанский В., 1911, s. 8) isə kimer, skif və sakların türk olduğu fikrindədirlər və onların da özlərinə görə çox sayda arqument və sübutları var. Bütün bu dəlillər, yəni kimer, iskit və sakların hunlar və qədim türklərlə eyni etnosun nümayəndələri olduğunu təsdiqləyən tarixi mənbələr O.C.Mənxen-Helfenin «Hunların dünyası» kitabında cəmlənmişdir (Otto Mänchen-Helfen.,1978).

Genetiklərin əldə etdikləri nəticə iranşünaslarla türkoloqlar arasında iki əsrə yaxındır ki, davam edən bu mübahisəyə son qoymuş və sözügedən xalqların türk olduqlarını birmənalı şəkildə təsdiq etmişdir.

Rusiya Elmlər Akademiyasının Sibir şöbəsinin Genetik Sitologiya İnstitutunun və Samara Dövlət Sosial-Pedaqoqika Universitetinin aparıcı alimlərinin Almaniya, ABŞ, Fransa və başqa ölkələrdən olan həmkarları ilə birlikdə Avrasiyanın müxtəlif bölgələrinə səpələnmiş müxtəlif skif kurqanlarından aşkar edilmiş skeletlər və onlardan götürülmüş DNT nümunələri üzərində apardıqları antropoloji və hərtərəfli genetik analizlər nəticəsində skiflərin etnik mənşəyinə aydınlıq gətirilmişdir (Поздняков Д. Скифы…).

Tədqiqatların nəticələri aşağıdakı alimlərin rəyi ilə dərc edilmişdir:

Almaniyadakı Maynts Universitetinin və Bioloji Təkamül İnstitunun əməkdaşları Martina Unterländer, Zuzana Hofmanová, Melanie Groß, Christian Sell, Jens Blöcher, Karola Kirsanow, Sandra Wilde, Adam Powell, Benjamin Rieger və Joachim Burger.

Fransadakı Paris Milli Ekoloji Antropologiya, Təbiət tarixi muzeyinin əməkdaşları Friso Palstra, Myriam Georges və Evelyne Heyer.

ABŞ-dakı Boston Tibb Məktəbinin Genetika departamentinin əməkdaşları Iosif Lazaridis, Nadin Rohland və David Reich.

Rusiya Elmlər Akademiyasının Sibir şöbəsinin Genetik Sitologiya İnstitutunun əməkdaşları Aleksandr Filipenko, Dmitri Pozdnyakov, Vyaçeslav İ. Molodin.

Berlin Azad Universitetinin Tarix və Mədəniyyət departamentinin əməkdaşları Elke Kaiser və Wolfram Schier.

Samara İctimai Elmlər və Təhsil Universitetinin əməkdaşı Aleksandr Xoxlov.

Cenevrə Birləşmiş Antropologiya Universitetinin Genetika və Təkamül departamentinin əməkdaşı Mathias Currat.

Qazaxıstandakı Astana Arxeologiya İnstitutunun əməkdaşı Zaynulla Samaşev və s. (Joachim Burger, 2017).

Tədqiqata Qara dəniz sahillərindən Altaya qədər uzanan geniş ərazidəki fərqli kurqanlardan tapılmış 96 skeletdən götürülmüş nümunələr cəlb edilmiş və nəticədə məlum olmuşdur ki, hansı bölgədə yaşamasından asılı olmayaraq, skifləri təkcə mədəniyyət birliyi deyil, həm də qan bağları birləşdirmişdir. Eyni zamanda məlum olmuşdur ki, skiflərlə hazırda skif kurqanlarının yayıldığı geniş ərazilərdə yaşayan türk xalqlarının genləri eynidir, yəni bugünkü türk xalqları skiflərin birbaşa variesləridirlər. Üstəlik də skiflərin özləri Avrasiya ərazisində mövcud olmuş daha qədm mədəniyyətlərin birbaşa genetik davamçılarıdır (Поздняков Д. Скифы…).

Yuxarıda adı çəkilən alimlər qrupunun tədqiqata cəlb etdikləri materialların bir qismi Avrasiya çöllərinin qərb hissəsində yerləşən kurqanlardan, daha dəqiq desək, Şimali Qafqaz (e.ə. VIII-VI əsrlər, erkən iskit çağı), Volqa-Don hövzəsi (e.ə. III əsr) və Cənub Qərbi Ural (e.ə. VI-V əslər, erkən sarmat çağı) bölgələrində yerləşən kurqanlardan götürülmüşdür. Avrasiya düzənliklərinin şərq hissəsindəki kurqanlar sırasından isə araşdırmalar aparmaq üçün Şərqi Qazaxıstanda (e.ə. IX-VII əsrlər), Tuvada (e.ə. VII-VI əsrlər) və Minisuinskdə (V əsr) yerləşən bəzi kurqanlar seçilmişdir.

Şərq skiflərinə aid materialların analizi zamanı alimlər erkən və sonrakı dövr skifləri arsında əlaqəni müəyyənləşdirə bilmək üçün «approximate Bayesian computation (ABC)» metodundan istifadə etmişlər. Bu metod əsasında aparılan analizlərin nəticəsində məlum olmuşdur ki, onlar bir-birinin sələf-xələfidirlər və iki fərqli əhali qrupunu təmsil etmirlər, yəni eyni ərazidə əsrlərlə yaşamaqda davam etmiş vahid xalqdırlar (Генетики и антропологи.., 2017).

Şərq və Qərb skiflərinin yaşadıqları ərazilər arasındakı məsafənin min kilometrlərlə ölçülməsinə baxmayaraq bütün skiflərin ata xətti ilə genetik cəhəddən yekcins (R1a) olmasından çıxış edən tədqiqatçılar aradakı fərqin əhəmiyyətsiz dərəcəsdə cüzi olmasını ($F_{ST}$=0.01733) əsas götürərək, onların ana xətti ilə də eyni xalqdan törəyib-törəmədiyini araşdırmaq üçün «ABC» modelindən istifadə etmək qərarına gəlmiş, nəticədə skiflərin genlərində sonradan qarışaraq birləşən iki əhali qrupunun iştirak etdiyini təsbit etmişlər. Görünür, elə bu səbəbdəndir ki, Qərb skifləri antropoloji cəhətdən bütünlüklə avropoid irqinə mənsub olduqları və onlarda monqoloidlik əlamətlərinə rast gəlinmədiyi halda, Şərq iskitlərində, azacıq da olsa, monqoloid irqin təsiri özünü göstərməkdədir. Bu, skiflərin başqa xalqlardan qız almağa məhdudiyyət qoymaması üzündən baş vermişdir (Joachim Burger, 2017).

Maraqlıdır ki, skiflərdə aşkar edilən mitoxondrial haloqruplar bu günün özündə də həm Şərqi (HV, N1, J, T, U, K, W, I, X), həm də Qərbi (A, C, D, F, G, M, Y, Z). Avrasiyanın hazırki yerli əhalisi arasında dominantlıq təşkil edir. Alimlər qrupu tam genomlu SNP markerləri üzrə PCA analizləri aparmış, bu zaman 8 skif genomunu, eləcə də 167 daha qədim və 777 müasir genomu əsas götürmüş və məlum olmuşdur ki, e.ə. I minillikdə Uralda, Qazaxıstanda və Qara dəniz sahillərində yaşamış skiflər öz aralarında genetik bağlarla sıx bağlı olmaqla yanaşı, bu gün həmin ərazilərdə yaşayan türklərin ulu babalarıdırlar, özləri isə həmin ərazilərin son tunc dövrü əhalisinin, onlar vasitəsilə isə Mərkəzi Avropanın eneolit və tunc dövrləri qəbilələrinin, o cümlədən çuxur və kərtmə mədəniyyətlərini, eləcə də Samara

mədəniyyətini yaratmış qəbilələrin birbaşa varisləridirlər (Генетики и антропологи.., 2017).

Beləliklə, alimlərin gəldikləri son nəticəyə görə, skiflər Avropanın ən qədim mədəniyyətlərindən biri olan çuxur mədəniyyətinin birbaşa genetik varisləridirlər. Bu isə o deməkdir ki, iskitlər və onların nəvə-nəticələri olan türklər Altay deyil, Avropa mənşəlidirlər.

Bu nəticəyə təkcə yuxarıda adları qeyd edilən alimlər gəlməyiblər və onların rəyi və dəstəyi ilə Yoaxim Bürgerin qələmə aldığı elmi məqalə də (Joachim Burger, 2017) son dövrlərdə bu mövzuda dərc edilmiş yeganə sanballı məqalə deyil. Bu sırada «Scientific reports» jurnalında dərc edilmiş «Diverse origin of mitochondrial lineages in Iron Age Black Sea Scythians» (Anna Juras and so on., 2017) adlı məqaləni də xüsusi qeyd etmək lazımdır. Onun əsas müəllifləri Adam Mitskeviç adına Poznan Universitetinin Antropologiya İnstitunun əməkdaşları olsa da, bu məqalədə də beynəlxalq alimlər qrupunun tədqiqatlarının nəticələri əks olunmuşdur.

Məqaləni qələmə alan alimlər Şimali Qara dəniz bölgəsindən əldə edilmiş 19 tam sekvenləşdirilmiş qədim genomun analizləri əsasında iskitlərin ana xətti ilə mənşəyini, eəcə də Qara dəniz iskitlərinin digər bölgələrdə yaşamış iskitlərlə əlaqəsini müəyyənləşdirməyi qarşıya məqsəd qoymuşlar. Tədqiqatlara cəlb edilmiş nümunələr Aşağı Dnestr, Aşağı və Orta Don və Krımdan götürülmüşdür. Ümumilikdə, 21-i Moldovadan, 8-i Ukraynadan olmaqla, 29 nümunə öyrənilmişdir. Onlardan 6-sının (31.6%) U5 (U5a2a1, U5a1a1, U5a1a2b, U5a2b, U5a1b, U5b2a1a2), 2-sinin (10.5%) J (J1c2 и J2b1a6) haploqrupuna aid olduğu müəyyənləşdirilmişdir. N1b1a, W3a, T2b, A, D4j2, F1b, M10a1a1 və H8c haploqruplarının hər birinə isə sadəcə bir nümunədə rast gəlinmişdir.

Müəlliflər müxtəlif qruplar arasındakı genetik məsafəni (Fst) hesablayaraq belə nəticəyə gəlmişlər ki, Qara dəniz skifləri öz mənşəyinə görə, çuxur və kərtmə mədəniyyətləri ilə bağlıdırlar (Anna Juras and so on., 2017).

Yeri gəlmişkən qeyd edək ki, arxeoloji ədəbiyyatda həm cuxur, həm də kərtmə mədəniyyətin daşıyıcıları, eləcə də onların varisləri olan skiflər hindavropalı və ya irandilli kimi qeyd olunur,

bir sıra hallarda isə «arilər» adlandırılırlar. Lakin genetiklərin ortaya qoyduğu nəticələr arxeoloqların dilçilərə istinadən irəli sürdükləri bu yanlış iddianı darmadağın etmiş və bütün bu mədəniyyətləri yaradan xalqın türklər olduğunu ortaya qoymuşdur. Bütün bu mədəniyyətləri skiflərlə, eləcə də onların birbaşa varisləri olan çağdaş türklərlə ata xətti ilə nəsildən nəslə keçən R1 (R1a və R1b) haploqrupu və ölülərini kurqanlarda dəfn etmək ənənəsi bağlayır. Ana xəttiylə, yəni mitoxondrial haloqruplara görə də onların eyni mədəniyyətlərlə bağlı olduğu öz təsdiqini tapır.

Qeyd edək ki, bu nəticəyə aşağıdakı alimlər imza atmışlar:

Adam Mitskeviç adına Poznan Universitetimdən Anna Juras, Edvard Ehler, Sylwia Łukasik, Marta Krenz-Niedbała, Miroslawa Dabert, Maciej Chyleński və Janusz Piontek.

Stokholm Universitetindən Maja Krzewińska və Anders Götherström. Grand Valley Dövlət Universitetindən Alexey G. Nikitin. Praqa Universitetindən Edvard Ehler.

Taras Şevçenko adına Tiraspol Universitetindən Vitaly Sinika.

Ukrayna Elmlər Akademiyasından Svetlana Ivanova (Anna Juras and so on., 2017).

Sibirin türk xalqlarının genetik yapısının O. A. Balaqanskaya və digər tanınmış genetiklər tərəfindən hərtərəfli araşdırması sonucunda ortaya çıxan mənzərə də arxeoloq və tarixçilərin ortaya qoyduqları bir sıra fikirlərə yenidən baxmaq lazım olduğunu göstərir (Балаганская О.А., Балановская Е.В., Лавряшина М.Б., Исакова Ж.Т., Сабитов Ж.М., Фролова С.А., Романов А.Г., Дибирова Х.Д., Кузнецова М.А., Захарова Т.А., Pitchappan R., Урасин В.М., Балаганский А.Г., Баранова Е.Г., Балановский О.П., 2011, с. 12-22).

Bu alimlərin gəldiyi qənaətə görə, Qərbi Avrasiya substratının (R1a1a) 4000 il öncə Sibirdə peyda olmasından sonra keçən dövr ərzində onun tədricən yerli substratlar - Q, eləcə də N1c1 və N1 (xN1c1) tərəfindən sıxışdırılması müşahidə edilməkdədir. Hazırda Q substratı Sibirdə orta hesabla 32%, Altay və xakas türklərində isə 18 % təşkil edir. N1c1 və N1(xN1c1) substratı isə bölgənin müxtəlif xalqlarında 2-89 % arasında dəyişir. Türk xalqlarında onun

göstəricisi keçən 4000 il ərzində 17-18 faizə çatıb. Nəticədə bu xalqlarda monqoloidlik əlamətləri artmağa başlayıb (Балаганская О.А., Балановская Е.В., Лавряшина М.Б., Исакова Ж.Т., Сабитов Ж.М., Фролова С.А., Романов А.Г., Дибирова Х.Д., Кузнецова М.А., Захарова Т.А., Pitchappan R., Урасин В.М., Балаганский А.Г., Баранова Е.Г., Балановский О.П., 2011, с. 12-22).

Beləliklə, Mərkəzi Asiyadan Şərqi Türküstan və Balkanlara, Volqadan Hindiquşa qədər uzanan geniş ərazilərdə yaşayan xalqların böyük əksəriyyəti bu gün türk dilinin müxtəlif ləhcə və şivələrində danışırlar. Bu ərazi tunc dövründə kərtmə və Andronovo mədəniyyətlərinin, dəmir dövründə isə iskit, sak, sarmat və hunların yaşadıqları ərazi ilə üst-üstə düşür və həmin xalqlar da eynən sözügedən mədəniyyətlərin daşıyıcıları kimi R1a1 və müəyyən qədər R1b haploqrupuna sahibdirlər.

Çağdaş arxeoloq və tarixçilərin çoxu irandilli osetinləri skif və sakların, eləcə də sarmatların törəmələri olan alanların nəsli hesab edirlər. Bu qənaət hazırda sözügedən geniş ərazilərin hakiminə çevrilmiş Rusiyanın imperialist məqsədlərinə və geosiyasi hədəflərinə xidmət edir. Bu hədəflər içərisində Avrasiyanın geniş çöllərinin qədim Türk yurdu olmasının inkarını zəruri edir. Elə bu səbəbdən də skif, sak, sarmat və alanlar irandilli elan edilir, onların tək varisi kimi isə osetinlər göstərirlir. Böyük Tatar Dövlətinin qurucusu Çingiz xan vəhşi monqol və işğalçı kimi qələmə verilir.

Osetinləri alanların nəsli hesab etmək olarmı?

Geneteka elmi bu suala birmənalı şəkildə «yox» deyir. Həm skif və sakların, həm də sarmat və alanların R1a haploqrupuna sahib olduqları elm tərəfindən artıq təsbit edilmişdir və əgər osetinlər gerçəkdən də onların birbaşa varisləridirsə, o zaman onların da genetik yapısının əsasını R1a haploqrupu təşkil etməlidir. Lakin A.Klyosovun qeyd etdiyi kimi, osetinlərdə - nə diqorlarda, nə də ironlarda R1a haploqrupuna, demək olar ki, rast gəlinməyib. Onların genlərində G2a haploqrupu dominantlıq təşkil edir. Diqorlarda bu göstərici 2/3, ironlarda isə 3/4-dür. Yəni osetinlərin diqor boyunun hər üç nəfərindən ikisi, iron boyunun hər dörd nəfərindən üçü sözügedən haploqrupun daşıyıcısıdır (Клёсов, А.А., 2012, с. 1511-1525).

Odur ki, osetinləri alanların, demək həm də skif, sak və sarmatların varisləri hesab etmək səhvdir, qeyri-elmidir və bu iddianın arxasında müstəsna olaraq siyasi və geosiyasi motivlər yatır.

Məlumat üçün bildirək ki, osetinlərin sahib olduqları G2a1a1-P18 Y-xromosomu Gürcüstan ərazisində geniş yayılıb və gürcülərin hər üç nəfərindən biri bu haploqrupun daşıyıcısıdır. Görünür, onlar osetin atadan və gürcü anadan törəyən, anaın dilində danışaraq gürcüləşən osetinlərdir. Belə hesab edilir ki, bu haploqrup 3025 il öncə əsas G2 xəttindən ayrılıb və Qafqaza kənardan gəlib, yəni Qafqaz G2 haploqrupunun vətəni deyil. A. Klyosovun fikrincə, həmin haploqrupun təmsilçiləri, təqribən 4500-4000 il öncə Avropada baş vermiş kütləvi qətliamlardan qaçan, uzun müddət sərgərdan dolaşdıqdan sonra Qafqaza pənah gətirənlərin nəsilləridirlər. (Клёсов, А. А., 2012, с. 1511-1525).

Alan qəbirlərindən çıxan skeletlərin DNT analizləri sübut edir ki, onlar da skif, sak və sarmatlar kimi R1a haploqrupunun daşıyıcıları olublar. Osetinlər içərisində bu haploqrupun təmsilçiləri 0,5-0,8 % təşkil edir. Həmin haploqrup inquşlarda 7, İnquşetiyada yaşayan çeçenlərdə isə 8 % təşkil edir. Qaraçaylı və balkarlarda isə bu göstərici 36 faizə çatır. Bu isə o deməkdir ki, alanların, deməli, həm də iskit, sak və sarmatların Şimali Qafqazdakı əsas kötükcələri qaraçay və balkar türkləridir. Çeçen və inquşlarda G2 haploqrupuna rast gəlinməsə də, qaraçay və balkarlarda bu göstərici 30 faizdən bir qədər çoxdur. Bu isə o deməkdir ki, qarşılıqlı nigahlar osetinlərlə qaraçay və balkarlar arasında daha intensiv xarakter daşıyıb (Клёсов, А. А., 2012, с. 1511-1525).

Rusiya ərazisində aparılan tədqiqatlar tatar və başqırdların da eynən qaraçay və balkarlar kimi skiflərin nəsilləri olduğunu göstərməkdədir. Tatarlarda eynən xəzərlərdə olduğu kimi R1a-Z93 və R1a-Z280 haploqrupları dominantlıq təşkil edir və bu fakt sözügedən türk xalqının köklərinin Qərbi Avrasiya ilə bağlılığına işarə edir. Tatarlar, eləcə də çuvaş türkləri üçün xeyli miqdarda fin-uqor xalqları üçün xarakterik olan N2 və N3 haploqrupları da xarakterikdir ki, bu da keçmişdə regionda baş vermiş qarşılıqlı nigahların nəticəsidir. Elə bu səbəbdəndir ki, mari, mordva, komi

və udmurtlar kimi fin-uqor xalqlarında da çox sayda R1a daşıyıcısı müəyyən edilmişdir (Галогруппы татар, башкир…).

Tatar və başqırdlarda kifayət qədər R1b3 haploqrupu da müşahidə edilib. Tatarlarda bu 15, başqırdlarda isə 43 % təşkil edir. R1b haploqrupunun da eynən qohum R1a haploqrupu kimi Yaxın Şərqdə formalaşdığı, oradan Avropaya və daha sonra Avrasiyanın geniş ərazilərinə yayıldığı hesab edilir. R1a ruslar üçün də xarakterik olan haploqruplardandır ki, bu da ruslar içərisində xristianlığı qəbul etmiş və slavyanlaşmış türk mənşəlilərin həddən artıq çox olduğundan xəbər verir (Галогруппы татар, башкир…).

Yazılı mənbələrdə alanların adına b. e. I əsrdən, yəni onların ilk dəfə Azov dənizi ilə Qafqaz dağları arasındakı ərazilərdə peyda olduqları vaxtdan etibarən təsadüf edilir (Перевалов С. М., 2015, с. 220-221).

Alanların bir hissəsinin IV əsrdə xalqların böyük köçündə iştirak etdiyi, İtaliya və İspaniyaya, oradan da Şimali Afrikaya qədər gedib çıxdıqları məlumdur (Аланы, 1969-1978). Çingiz xanın tarix səsnəsinə çıxması ilə (XIII) tarix səhnəsini tərk edən alanlar Qafqaz xalqlarının içində ərimişlər (Герасимов М.М., 1994, с. 51-62).

Antropoloq alimlərin alan qəbirlərindən çıxan skeletlərin kəllələri üzərində apardıqları tədqiqatlar nəticəsində isə məlum olmuşdur ki, onlar uzun kəllə quruluşuna və ensiz sifətə sahib olmuşlar ki, bu da girdəbaş və enlisifət osetinlərin antropoloji quruluşundan əsaslı surətdə fərqlənir. Bu tip antropoloji göstəricilər daha çox qaraçay və balkarlar üçün xarakterikdir (Герасимов М. М., 1994, с. 51-62).

Maraqlıdır ki, genetik tədqiqatlar xəzərlərin etnogenetik nəsil zəncirində skiflərlə müasir türk xalqları, xüsusən də qaraçaylılar və balkarlar, eləcə də tatarlar və başqırdlar arasında birləşdirici halqa olduğunu göstərir.

Xəzər dövləti güclü olduğu dönəmlərdə onun hüdudları batıda Azov dənizi, Krım yarımadası və Dnepr çayına, quzeydə Kiyev və Kazan şəhərlərinə, doğuda Volqa çayının doğu sahillərinə, güneydə Dağıstan və Qafqaz dağlarına qədər uzanırdı. Uzun müddət Azərbaycan da Xəzər dövlətinin tərkibində olmuş, hətta onun siya-

si, iqtisadi və mədəni mərkəzi rolunda çıxış etmişdir. Xəzərlərin hərbi potensialı o qədər güclü və qüvvətli idi ki, onlar bilavasitə tabeliklərində olmayan xalqlardan da bac alırdılar. Hətta Bizans və Sasanilər də Xəzər Xaqanlığına vaxtaşırı xərac vermişlər. Təsadüfi deyil ki, Xəzər tarixini tədqiq edən S.S.Boquş hələ keçən əsrin əvvəllərində yazmışdır: «Xəzərlərin hökmranlığı bir neçə əsr Kaspi və Qara Dənizdən Baltik dənizinə qədər duyulmuşdur».

Akademik B. Dorn Təbərinin verdiyi məlumatlara istinadən yazır: «İslamdan öncə Xəzər Dərbəndi ifadəsi Azərbaycanın güneyində Rey ilə İrak arasındakı şəhəri bildirir» (Tuncay B., 2012).

Kaşğarlı Mahmudun xəritəsindən belə görünür ki, Xəzər Dərbəndi bütün Güney və Quzey Qafqazı əhatə etmişdir. Xəzər xaqanı İosifin məktubundan isə belə anlaşılır ki, Ərdəbil də, yəni Güney Azərbaycan da bir müddət bu dövlətin tərkibində olub. Bu məlumat xəzərlərlə Ərdəbil ətrafında döyüşdüklərini bildirən erkən ərəb mənbələri tərəfindən də təsdiqlənir.

Təbəriyə görə, xəzərlərlə vuruşan Xosrov Ənuşirəvan onlardan 10 minini Azərbaycanda yerləşdirdi. VI əsrin ikinci yarısındakı olaylardan bəhs edən əl-Bəlazuri Ənuşirəvanın (531-579) vaxtındaxəzər axınının Dinəvərə qədər uzandığını, Cürzan və Arranın (Albaniyanın) bu dönəmdə xəzərlərin əlində olduğunu söyləyərək, bu şahın xəzərlərlə qohumluq əlaqəsi qurduğunu bildirməkdədir (Tuncay B., 2012).

Hazırda xəzərlərin genetik mənsubiyyəti məsələsi alimlərin ciddi tədqiqat istiqamətlərinən birinə çevrilib və bu işdə hamıdan daha çox yəhudi alimləri səy göstərirlər. Onlar bu xalqın genlərində yəhudi izi tapmaqda çox maraqlıdırlar (Израильский генетик.., 2012; Eran Elhaik, 2012).

Tarix elminin iki yüz ildən çox siyasətçilərin əlində alətə çevrildiyi və ondan gələcəyə yönəlik geosiyasi hədəflərin həyata keçirilməsi üçün təbliğati material kimi istifadə edildiyi məlumdur. Hazırda bəzi yəhudi qruplar «Xəzər layihəsi» adlanan yeni bir geosiyasi layihə üzərində çalışırlar. Bu layihəyə görə Ukraynanın cənub-şərqində, ilk mərhələdə Luqansk və Donetsk vilayətlərində «Böyük Yəhudi-Xəzər dövləti», yəni «İkinci İsrail»

qurulmalı, sonrakı mərhələdə onun sərhədləri Krım yarımadası və Şimali Qafqaz ərazilərini də içinə alacaq bir şəkildə genişləndirilməlidir. Hazırda Ukrayna və Rusiya arasında yaşanan gərginlik, Krımın işğalı, Luqansk və Donetsk vilayətlərində gedən qanlı döyüşlər bu mənfur planın mühüm tərkib hissəsidir (Эдуард Ходос, 2006; Грачева Т. В., 2009; Проект новая Хазария.., 2016; Проект Хазария.., 2014).

Yəhudi dairələrin həyata keçirməkdə olduqları bu böyük geosiyasi layihənin mühüm tərkib hissələrindən biri də xəzərlərin yəhudi geninin daşıyıcıları olduqlarını «sübut etmək» idi. Bu səbəbdən də xəzər kurqanlarından tapılan skeletlərin DNT analiz testlərinin keçirilməsi vacib məsələ kimi qarşıda dururdu və tədqiqatların aparılması üçün yetərincə maddi resurs da ayrılmışdı. Lakin aparılan tədqiqatlar istənilən nəticəni vermədi. Xəzər genomlarında, zərrə qədər də olsa, yəhudi izinə rast gəlinmədi (Генетики: Ашкеназы.., 2014).

Bəs, xəzərlərin yəhudi olması barədə fərziyyə haradan doğub?

Məlum olduğu kimi bu xalqın elmdə qəbul edilmiş olan siyasi tarixi 650-965-ci illəri əhatə edən kiçik bir dövrlə məhdudlaşır. Bu dövr haqqında və ümumiyyətlə, xəzərlər haqqında indiyə qədər müxtəlif dillərdə çox sayda ədəbiyyat dərc edilsə də, nəşr edilmiş kitablar içərisində M. Artomonovun rus dilində qələmə aldığı «Xəzərlərin tarixi» (Артамонов М. И., 1962) və A. Köstlerin ingiliscə yazdığı «The Khazar Empire and its Heritage. Last Century Media» (Koestler A., 2001) adlı fundamental əsərini xüsusi qeyd etmək lazımdır. Bunlardan ikincisində müəyyən mübahisəli məqamlar olsa da, müəllif qarşıya qoyduğu məsələyə M.Artomonovdan fərqli olaraq, tam obyektiv və qərəzsiz yanaşma sərgiləməyə çalışmışdır. M.Artomonovun kitabına ön söz yazan və həmin yazısında A.Köstnerin kitabını başdan ayağa təhlil edən L.Qumilyov müəllifin bəzi mübahisəli fikirlərini tənqid atəşinə tutur və sonda da onun gəldiyi nəticənin, yəni xəzərlərin türk mənşəli xalq olduğu fikrinin önündə sual işarəsi qoyur və bununla da bir növ bu fikiri sual altına almağa, eynən M.Artomonov kimi xəzərlərin yəhudilərlə əlaqəsini xüsusi

qabartmağa çalışır (Артамонов М.И., 1962). Görünür, sovet dövründə sözügedən mövzu ilə məşğul olan alimlər qarşısında belə bir vəzifə qoyulmuşdu. Bununla belə, yazılan bütün əsərlərdə xəzərlərin türk olduğu mütləq qeyd olunur və bu məsələdə alimlər arasında qətiyyən fikir ayrılığı yoxdur.

Xəzərləri siyasi məqsədlə «türklükdən uzaqlaşdırmaq» və «yəhudiləşdirmək» istiqamətində aparılan siyasəti və onun hədəflərini təhlil etmək bu monoqrafiyanın məqsədləri dışında olduğundan onun üzərində durmaq fikrimiz yoxdur. Sadəcə onu qeyd edək ki, hazırda «Böyük Yəhudi-Xəzər dövləti» layihəsini həyata keçirməkdə olan bəzi yəhudi dairələrin maliyyələşdirdiyi testlər xəzərlərin R1a–Z93 haploqrupunun daşıyıcısı olan qədim türk soylarından biri olduğunu göstərmişdir. Bu genin daşıyıcılarına Cənubi Sibirdən Qara dəniz sahillərinə qədər yayılan və türk ləhcə və şivələrində danışan bir çox xalqlar arasında, o cümlədən qaraçaylılar, balkarlar, tatarlar, başqırdlar, eləcə də digər iskit dairəsi xalqlarının varisləri arasında sıx-sıx rast gəlinir (Клесов А, 2016, c. 913-922).

Qeyd etmək lazımdır ki, qazıntı halnda tapılan sözügedən haploqrup xəzər kurqanlarından əldə edilmiş bir neçə skelet qalıqları üzərində aparılmış DNT analizləri nəticəsində aşkar edilmişdir.

Hazırda elmə çox sayda, daha dəqiq desək, bir neçə yüz xəzər kurqanı məlumdur ki, onlar haqqında bəzi dəyərli məlumatları O. İvik və V. Klyuçnikovun «Xəzərlər» (Ивик О., Ключников В. Хазары) adlı kitabından əldə etmək mümkündür. Eyni sözləri L. Kleyn və başqalarının birlikdə qələmə aldıqları «İskit dövrünə aid katakomba və Saltov kurqanı» adlı əsər haqqında da söyləmək olar (Клейн Л.С. И др., 1972). Bu müəlliflərin hər biri xəzər kurqanlarının qazıntılarında bilavasitə iştirak etmişlər və təbii ki, bu barədə hər kəsdən daha çox məlumata sahibdirlər.

Sırf xəzərlərə aid kurqanların müəyyənləşdirilməsində, digər kurqanlardan fərqləndirilməsində M. Artamonovun rolu çox böyükdür və onun haqqında məlumat verdiyi Saltov kurqanı qazılmış ilk xəzər kurqanlarından biri hesab edilir. Ümumilikdə isə

Saltov mədəniyyəti, o cümlədən eyni dövrə aid yaşayış məskəni xəzərələrə (VIII-X əsrlər) aid edilir.

Aşağı Don hövzəsinin xəndəkli kurqanlarının tədqiqində və onların xəzərlərə aid olduğunun təsbit edilməsində A. Semyonovun xidmətlərini də xüsusi qeyd etmək lazımdır. Bu kurqanlar VII-IX əsrlərə aid edilir.

Xəzər kurqanlarını digər kurqanlardan fərqləndirən əsas cəhətlər bunlardır:

- Sözügedən kurqanların qəbir kameralarının ətrafında kvadrat formasında xəndək qazılıb;
- Bu kurqanlarda ölülər tək dəfn edilib;
- Onların paralellərinə Orta Asiyada aşkar edilmiş türk kurqanlarında da rast gəlinib (Плетнева С.А., 1999).

Beləliklə, orta əsrlərə aid xəndəkli kurqanlar xəzərlərə aid edilir və məhz həmin kurqanlardan əldə edilmiş gen nümunələri də xəzərlərin etnik göstəricisi hesab edilir. Onlara aid edilən mədəniyyət də «Saltov-Mayats mədəniyyəti» adlandırılır.

Üzərlərində genetik analizlər aparılmış xəzərlərə aid iki sümük nümunəsi iki fərqli xəndəkli kurqandan tapılmış skeletlərdən götürülmüşdür. Bu məzar abidələrinin hər ikisi barədə yazı dərc edilmişdir və bu yazılarda dəfn edilənlərin antropoloji tipinə də toxunulmuşdur. Kurqanlardan biri Kuteynikov II, digəri Talovıy II məzarlığında yerləşir. Bu məzarlıqlar Rostov vilayətinin cənub-qərbində, Don çayının sol sahilində, Don və Manıç çayları arasındakı ərazidə aşkar ediliblər. Hər iki sümük nümunəsinin analizi dəfn edilənlərin R1a–Z93 haploqrupunun daşıyıcısı olduğunu üzə çıxarmışdır. Ümumilikdə isə aparılan tədqiqatlar nəticəsində xəzərlərin ümumi əcdaddan gələn iki nəsldən ibarət olduqlarını üzə çıxmışdır ki, sözügedən haploqrupu onlardan sadəcə biri daşımışdır. Bu haploqrup genetik sıralamada 1251 indeksi altında qeyd edilir. Digər nəsil isə 1986 indeksi ilə qeyd edilmiş R1a–Z280 haploqrupunun daşıyıcısı olub (Elhaik E., Tatarinova T.V., Klyosov A.A., Graur D., 2014, p. 18-37).

Görünür, bu halda söhbət tarixi mənbələrdə «ağ xəzərlər» və «qara xəzərlər» kimi tanınan iki xəzər soyundan getməlidir. Ge-

netiklərin apardıqları hesablamalara görə, bu iki soyun ümumi əcdadı 2750-3590 il əvvəl, başqa sözlə, e. ə. II-I minilliklərdə yaşamışdır. Belə hesab edilir ki, R1a–Z93 kök nəsil olmuş, R1a–Z280 isə ondan ayrılmışdır, yəni onun fərqli bir qolu olmuşdur. Çünki R1a–Z93 daha qədimdir və kərtmə mədəniyyətini yaradan xalq da onun daşıyısı olmuşdur. Bu nəslin ən azı 5000 il yaşı olduğu, onun təqribən 8075 il öncə tarix səhnəsinə çıxan daha qədim nəsildən ayrıldığı hesab edilir (Клесов А, 2016, c. 913-922). Bu haploqrupa Potapov, Sintaşta, Andronovo, Karasuk mədəniyyətlərinin yaradıcılarının genlərində də rast gəlinib.

Beləliklə, türklərin yazı öncəsi tarixini öyrənmək üçün əlimizdə iki çox önəmli mənbə var: R1a və R1b Y-xromosomları və kurqanlar. Bu ikisi Avrasiyanın bir çox mədəniyyətlərində paralel çıxış edirlər. Bu baxımdan aşağıdakı qədim mədəniyyətləri qeyd etmək lazımdır:

E.ə. V-IV minilliklərə aid Xvalınsk mədəniyyəti (Клейн Л.С., 2007, c. 94-95; Mallory J. P., 1997; Marija Gimbutas, 1991).

E.ə. IV-II minilliklərə aid çuxur və ya daraqlanmış keramika mədəniyyəti (Lehti Saag et al., 2017).

E.ə. IV-II minillikləri əhatə edən Döyüş baltaları və ya qaytan keramikası mədəniyyəti (Древняя ДНК; Haak W., Lazaridis İ., Patterson N., Rohland N. and so on; Brandit G, 2013, 257-261).

E.ə. IV minilliyin ortalarından III minilliyin sonunadək mövcud olmuş Kür-Araz mədəniyyəti (Iosif Lazaradis et al., 2016).

E.ə. III minilliyin sonları-e.ə. II minilliyin əvvəlləri Sintaşta mədəniyyəti (Morten E., 2015, p. 167–172; John Novembre, 2015, p. 164–165; Зданович Д. Г., Куприянова Е. В., 2010).

E.ə. XVIII – b.e. II əsrlərinə aid Tarim (Tarim mumiyaları) mədəniyyəti (Kim K., Brenner Ch, et al., 2010).

E.ə. XVI-XII əsrlərə aid kərtmə mədəniyyət (Клейн Л.С., 2007).

E.ə. XVI-IX əsrləri əhatə edən Andronovo mədəniyyəti (Киселёв С. В., 1949; Bryant E., 2002).

E.ə. XIII-IX əsrlər Mejovsk mədəniyyəti (Сальников К. В., 1967; Косарев М.Ф., 1981).

E.ə. II minilliyə aid Potapov mədəniyyəti (Васильев И. Б., Кузнецов П. Ф., Семёнова А. П., 1994; Кузнецов П. Ф., Семёнова А. П., 2000, с. 122-152).

E.ə. II minilliyin sonu-I minilliyin başlarına aid Karasuk mədəniyyəti (Восточно-азиатская.., 2006; Карасукская культура.., 2008; Новгородова Э. А., 1970).

E.ə. VIII-IV əsrləri əhatə edən iskit-sak mədəniyyəti (F. X. et al., 2004).

E.ə. VIII-III əsrlərə aid «Taqar» mədəniyyəti (Готлиб А. И., Зубков В. С., Поселянин А. И., Худяков Ю. С., 2003; Киселёв С. В., 1949; Членова Н. Л., 1967; Теплоухова С. А., 1929, с. 41-62).

E.ə. VI-III əsrlərə aid Pazırık mədəniyyəti (Радлов В. В., 1895; Степанова Н. Ф., 1986, с. 79-81; Каммарт Л., Хюле В. В., Буржуа И., Миккельсен Я. Х., 1998, с. 229-239).

E.ə. III – b.e. V əsrlərini əhatə edən hun mədəniyyəti (Kim K., Brenner Ch, et al., 2010).

E.ə. II-b. e. V əsrlərini əhatə edən Taştık mədəniyyəti (Кызласов Л. Р., 1964; Кызласов Л. Р., 1980).

I-XIII əsrləri əhatə edən Alan mədəniyyəti (Zgusta L., 1955; Афанасьев Г.Е., Вень Ш., Тун С., Ван Л., Вэй Л., Добровольская М.В., Коробов Д.С., Решетова И.К., Ли Х., 2015, с.146-153).

VIII-X əsrlərə aid Xəzər mədəniyyəti (Афанасьев Г. Е., 2014, с. 407; Афанасьев Г. Е., Ван Л., Вень Ш., Вэй Л., Добровольская М. В., Коробов Д. С., Решетова И. К., Ли Х., Тун С., 2015, с. 9).

IX-XI əsrlərə aid Oğuz mədəniyyəti (Матюшко И. В., 2014, с. 620-625).

X1-XIII əsrləri əhatə edən qıpçaq mədəniyyəti (Костюков В. П., 1997).

Bundan başqa Leylatəpə, Maykop, Kür-Araz, Trialeti, Xocalı-Gədəbəy və s. kimi qədim kurqan mədəniyyətləri də məlumdur ki, onların bəzilərindən aşkar edilmiş skeletlərin DNT analizləri aparılmasa da, türklərə aid olduğu şübhə doğurmur.

## Neolit inqilabı və Türk tarixinin başlanğıc nöqtəsi: Çatal-Höyük mədəniyyəti

Dünya tarixinin ən maraqlı səhifələrindən biri və bəlkə də, birincisi elm aləmində «Neolit inqilabı» və ya «neolitizasiya» adı ilə məşhur olan dövrdür ki, məhz həmin dövrdə bəşəriyyət bəsit yığıcılıq təsərrüfatına əsaslanan iqtisadiyyatdan daha modern təsərrüfat növünə, əsasında istehsalat dayanan iqtisadiyyata keçmiş, həmin dövrdə əkinçilik ortaya çıxmış, heyvanların əhliləşdirilməsi baş vermişdir. İnsanlar kənd təsərrüfatı məhsulları, buğda, arpa, noxud, ət, süd, dəri, yun, iplik, parça, xalça, qab və s. istehsal etməyə başlamışlar. Belə hesab edilir ki, mezolitdən (orta daş) neolitə (yeni daş dövrü) keçid ən azı 10 min il əvvəl Yaxın Şərqdə baş vermişdir (Anil K. Gupta, 2004).

«Neolit inqilabı» anlayışını elmə 1923-cü ildə G. Çayld gətirmişdir. Onun yazdığına görə neolit dövrünün xarakterik xüsusiyyəti təkcə istehsalçı təsərrüfat növünə keçməkdən ibarət olmayıb. Bu dövr üçün ən əsas xarakterik xüsusiyyətlərdən biri insanların mağaraları tərk edərək evlər tikməyə başlaması, öz təsərrüfat sahələrinin yaxınlığında şəhərlər və qəsəbələr salmasıdır (Чайлд Г., 1956). Elmə məlum olan ən qədim iki şəhər – İerixon (Иерихон…) və Çatal-Höyük (Hodder İ., 2014) məhz həmin dövrün abidələridir. Bunlardan birincisi Fələstin ərazisində peyda olmuş və bu gün də mövcudluğunu davam etdirir. İkincisi isə Türkiyədə - Konya düzənliyində aşkar edilmiş, xarabaları arxeoloqlar tərəfindən üzə çıxarılmışdır. Hər iki şəhərin e.ə. VIII minillikdə ortaya çıxdığı hesab edilir.

Adı çəkilən bu iki şəhər-mədəniyyətlərindən Çatal-Höyük bizim üçün daha böyük önəm daşıyır. Çünki bu mədəniyyətin neolit və eneolit dövrünə aid mədəni təbəqələrindən tapılan 800-ə yaxın skeletdən DNT nümunələri götürülüb və məlum olub ki, şəhər əhalisinin daşıdıqları genomlar içərisində R1b və R1a haploqrupları dominantlıq təşəkil edirdi. Analizə göndərilmiş sümük nümunələrinin 24 faizi R1b, 14 faizi isə R1a haploqrupunun daşıyıcısı olub. Digər nümunələr çox çürüdüyündən onların

hansı haploqrupa aid olduğunu müəyyən etmək mümkün olmayıb (Çataloluk O., 2012, s. 24-28; Hodder İ., 2014).

Bu fakt bizə «Neolit inqilabı»nın müəlliflərinin R1b və R1a haploqrupunun daşıyıcıları olan türklərin ulu babalarının olduqlarını söyləməyə əsas verir. Doğrudur, Çatal-Höyüklülərin içərisində az nisbətlərdə başqa haploqruplara sahib insan qalıqlarına da rast gəlinib və onların 1 faizi Qafqaz mənşəli J haploqrupuna sahib olub. Lakin onların heç birinin izinə sonrakı minilliklərdə bütün Avrasiyanı əhatə edən neolit və eneolit «inqilablar zənciri»ndə rast gəmirik. Yalnız J haploqrupunun sahiblərinin R1a və R1b-lilərlə birlikdə miqrasiya etdiyinin şahidi oluruq. Hazırda J (J2 və J1) haploqrupu Türkiyədə dominanta çevrilib və bu Y-xromosomu daşıyanlar say baxımından R1a və R1b-liləri, yəni təmiz türk soyluları keçib.

Anadolu və Qafqazdan türklərlə birlikdə Avropa, Ərəbistan yarımadası və Afrikanın şimalına, eləcə də şərqə - Türküstana doğru hərəkət edən J-lilər öz izlərini uyğur və özbəklərin genofonduna da önəmli dərəcədə həkk etdirə biliblər.

Araşdırmalar nəticəsində uyğur türklərinin 34 %-inin J2, 22,1 %-inin R1a və 17,6 %-inin R1b Y-DNT haploqruplarına sahib olduqları məlum olub (Yali Xue, Tatiana Zerjal, Weidong Bao, Suling Zhu, Qunfang Shu, Jiujin Xu, Ruofu Du, Songbin Fu, Pu Li, Matthew E. Hurles, Huanming Yang, and Chris Tyler-Smith, 2006, p. 2431-2439). Anadolu türklərində ise bu göstəricilər müqabil olaraq belədir: 24 % J, 7.5 % R1a ve 16 % R1b (Distribution of European.., 2012).

| Türk xalqları | R1b | R1 a | I | C | O | J | N | T | L |
|---|---|---|---|---|---|---|---|---|---|
| Türkiyə türkləri | 16.1 | 6.9 | 5.1 | — | — | 24.0 | 3.8 | 2.5 | 4.2 |
| Altaylar (Quzey) | 6.0 | 38.0 | 0.0 | — | — | 2.0 | 10.0 | — | — |
| Altaylar (Güney) | 1.0 | 53.1 | 2.1 | — | — | 4.2 | 11.5 | — | — |
| Qazax | 5.6 | 3.7 | 0.0 | 66.7 | 9.0 | 0.0 | 1.9 | 0.0 | — |

| Türk xalqları | R1b | R1 a | I | C | O | J | N | T | L |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Qırğız** | 1.9 | 63.5 | 1.9 | — | — | 4.9 | 2.4 | — | 0.0 |
| **Uyğur** | 17.6 | 22.1 | 0.0 | — | — | 34.0 | 6.0 | 0.0 | 4.4 |
| **Özbək** | 9.8 | 25.1 | 2.2 | — | — | 21.4 | 0.0 | — | 3.0 |
| **Türkmənis-tan türk-mənləri** | 36.7 | 6.7 | 0.0 | — | — | 23.8 | 9.5 | — | 0.0 |
| **Tatar** | 8.7 | 34.1 | 4.0 | — | — | — | 23.0 | — | — |
| **Yakut** | — | — | — | — | — | — | 80.0 | — | — |

Qeyd etmək lazımdır ki, J genomuna Gürcüstan ərazisindəki Satsurbliya paleolit mağarasında və Kotias Klde mezolit dövrünə aid karst mağarasında yaşamış adamların qalıqlarında rast gəlinib. Bunlardan birincisi 13132-13138 il, ikincisi isə 9529-9895 il öncə yaşamışlar (Y Chromosome Consortium, 2002). Hazırda bu haploqrup Nax-Dağıstan dillərində danışan xalqlarda dominantlıq təşkil edir və ümumiyyətlə Şimali Qafqazda G haploqrupundan sonra ikinci yerdədir. Amma Qafqaza kənardan gəlmə olan G-dən fərqli olaraq, J DNT xromosomu yerli haploqrupdur. Onun daşıyıcıları, çox güman ki, 15 min il öncə də indi danışdıqları dildə, daha doğrusu Nax-Dağıstan dillərinin nax (çeçen və inquş) və Dağıstan dillərinə parçalanmamış olduğu dövrün vahid əcdad dilində danışırdılar. Əlbəttə, bu bir ehtimaldır, onu sübut etmək üçün əldə yeganə dəlil odur ki, sözügedən haploqrup Nax-Dağıstan xalqlarından çeçenlərdə və inquşlarda təqribən 80 %, dağıstanlılarda (ləzgilərdə, kubaçinlərdə, darginlərdə, tabasaranlarda, laklarda və s.) 60-70 % təşkil edir, amma deyilən fikrin əksini sübut etmək üçün heç bir əks dəlil tapmaq da mümkün deyil.

Beləliklə, dünyanın ilk şəhəri və mədəniyyət mərkəzi hesab edilən Çatal-Höyükün ərsəyə gəlməsində və deməli, həm də Neolit inqilabının baş verməsində türklərin ulu babaları ilə yanaşı Nax-Dağıstan xalqlarının da əcdadları müəyyən qədər iştirak etmişlər.

Çatal-Höyükükün arxeoloqlar tərəfindən üzə çıxarılmış ən qədim təbəqəsi e.ə. 7400-cü illərə təsadüf edir. Sakinlərin şəhəri

tunc dövründən əvvəl, təqribən e.ə. 5600 il öncə ekoloji problemlər üzündən tərk etdiyi hesab edilir.

Şəhərin qazıntılarına 1958-ci ilin 10 noyabrında başlanmışdır. Qazıntıları ilk dövrdə Britaniya Arxeologiya İnstitutunun üç əməkdaşı – Devid Frenç, Alan Holl və Ceyms Mellart aparmışlar.

Hər şey Konya yaxınlığında çatalı (çəngəli) xatırladan iki höyükün (təpənin) arxeoloqların diqqətini çəkməsindən, ilkin kəşfiyyat işləri zamanı keramika qırıqları və obsidana rast gəlməsindən və təpələrin altında unikal bir neolit məskəninin gizləndiyinin anlaşılmasından sonra başlandı (Balter Michael., 2005, p.127).

1961-ci ilə qədər arvadı ilə birlikdə Hacılar-təpənin qazıntılarında iştirak edən C. Mellart oradakı işlərini tamamladıqdan sonra Çatal-Höyükün qazıntılarına başlamış və bu işə 1965-ci ilə qədər bilavasitə özü rəhbərlik etmişdir (Kleiner Fred S., 2006, p.12–14). O, arxeoloji işlərlə məşğul olduğu dövrdə onunla birlikdə Danimarka Milli Muzeyinin əməkdaşı, paleobotanik Hans Halbaerk də paralel tədqiqatlar aparırdı. Danimarkalı alim burada mədəni buğda, arpa və noxud qalıqları taparaq tədqiq etmiş və Çatal-Höyükün dünyanın ilk əkinçilik mərkəzlərindən biri olduğunu təsdiq etmişdir (Hans Helbaek, 1964, p. 121–123).

Arxeoloji qazıntılar nəticəsində məlum oldu ki, Çatal-Höyüklülər mis əldə etməyi öyrənən və bununla da eneolit inqilabına imza atan ilk pionelərdən olmuşlar.

Belə hesab edilir ki, Azərbaycanda və ümumilikdə Qafqazda Mezolit dövrü Neolit dövrü ilə e.ə. VII-VI minilliklərdə, yəni Anadoludan bir qədər gec əvəz olunmuşdur. Hazırda tədqiqatçılar Neolit dövrünü iki mərhələyə bölürlər: keramikasız Neolit və keramikalı Neolit. Neolit dövrünə aid maddi-mədəniyyət nümunələrinə Damcılı mağarasında, Qobustan abidələrində (Ovçular zağası, Anazağa, Firuz, Böyükdağ), Naxçıvan Kültəpəsində, Xanlar, Qaraköpəktəpə, Yanıqtəpə, Hacı Firuz, Şomutəpə, Töyrətəpə və digər abidələrdə rastlanmışdır. Abidələrin tədqiqi bu dövrdə insanların açıq düşərgələrdə məskən saldığını, oturaq həyat keçirdiyini göstərir (Baxşəliyev V. B. 2007, s. 30).

Qafqazda, o cümlədən Azərbaycanda Eneolit dövrünə keçid də Anadolu ilə müqayisədə bir qədər gec baş vermişdir. Bu, e.ə. VI-IV minillikləri əhatə edir. Bu dövrdə mis emalının və metalişləmənin əsası qoyulmuşdur. Azərbaycanın mis yataqları ilə zəngin olması və bu ərazidə mis külçəsinə rastlanması mis emalının erkən meydana gəlməsi və inkişafı üçün şərait yaratmışdır. Eneolit dövründə iqtisadiyyatın inkişafı əhali artımına səbəb olmuş, yaşayış üçün əlverişli olan yeni ərazilər məskunlaşdırılmışdir (Baxşəliyev V. B. 2007, s. 32).

Bütün bu deyilənləri nəzərə alaraq, biz türkün arxeoloji və genetik tədqiqatlarla tam dəqiq təsbit edilmiş və izlənə bilən genetik tarixini, eləcə də mədəniyyət tarixini məhz Çatal-Höyükdən başlamaq lazım olduğu qənaətindəyik.

Çatal-Höyüklülər ölülərini kurqanlarda basdırmırdılar və belə hesab edilir ki, kurqanda dəfn adəti eneolit dövründə peyda olub. Amma əldə olan bəzi məlumatlar sözügedən adətin artıq neolit dövründə cücərməyə başladığını və bunun Azərbaycan ərazisində baş verdiyini ciddi şəkildə ehtimal etməyə əsas verir. Bu barədə sonra danışacağıq.

Əldə olan məlumatlar xalçaçılıq sənətinin artıq neolit – eneolit dövrlərində formalaşdığını sübut etməkdədir. J. Mellart Anadolu ərazisində yerləşən Çatal - Höyük abidəsində qazıntılar apararkən kömürləşmiş xalça qalıqlarına rast gəlmiş və həmin xalçanın üzərindəki naxışların qorunub saxlanmamasından böyük təəssüf hissi keçirmişdi. Lakin qazıntıların sonrakı mərhələsində o, son eneolit dövrünə aid yaşayış binasının divarında xalça naxışlarını xatırladan naxışlara rast gəlmiş, bu naxışların bu günə qədər Anadoluda toxunmaqda olan türk xalçalarının naxışları ilə tam eyni olduğunu görüb təəccüblənmişdi (Yengi Ögə, 2016, s. 106-113).

Çatal-Höyükdə çox sayda qadın və kişi heykəllərinə rast gəlinib. Belə hesab edilir ki, onlara büt kimi sitayiş edilirmiş. Heykəllər arasında qadın heykəllərinə daha çox rast gəlinməsi və onların xüsusi düzəldilmiş evlərdə toplanması arxeoloqları belə bir qənaətə gətirmişdir ki, Çatal-Höyükdə ana kultu mövcud olmuş, həmin evlər isə ibadət otaqları rolunu oynamışdır.

Hələ 1960-cı illlərdə 40 belə «ibadət evi» qazılaraq aşkar edilmişdir. Buradan tapılan «ilahələr» əsasən üç vəziyyətdə təsvir olunur. Bunlardan bir qismi gənc qadın, digərləri insan və ya öküz doğan orta yaşlarda olan qadın, başqa bir qismi isə bəzən yırtıcı quş tərəfindən müşaiyət edilən, bəzənsə tək olan qoca qarı şəklində təsvir edilirdi (James Mellaart, 1967, p. 181).

Kişi «tanrı»lar bəzən uşaq, bəzən yeniyetmə (ilahənin sevgilisi) bəzənsə saqqallı kişi şəklində düzəldilirdi. Saqqallı kişilər bir sıra hallarda hansısa mifoloji heyvanın və ya öküzün belində oturulmuş vəziyyətdə olurdu.

Ana ilhəsinin barelyefləri bəzən iki metrə çatır və aslanların arasında oturmuş vəziyyətdə təsvir olunurdu. Bəzən müxtəlif simvolların birləşdirildiyi, məsələn, qadın döşü ilə öküz buynuzunun birlikdə təsvir edildiyi də maşahidə edilmişdir (James Mellaart, 1967, p.181).

E.ə. 6200-ci ilə aid edilən bir «ibadətxana»da öküz başlarının və onların da arxasında insan ayaqlı qrifonlar tərəfindən hücuma məruz qalan insan başlarının barelyeflərinə rast gəlinmidir.

Çox sayda «ibadətxana»nın aşkarlanmasına rəğmən, mütəxəssislərin fikrincə, Çatal-Höyük cəmiyyətində sosial bərabərsizliyin mövcudluğunu iddia etmək üçün heç bir əsas yoxdur. Gəlinən ümumi qərar belədir ki, sözügedən cəmiyyətdə nə anaxanlıq (matriarxat), nə də ataxanlıq (patriarxat) mövcud olmamışdır. Qadınlarla kişilərin statusu da eyni idi (A Global .., 1991, p.9-13; Christine Fielder and Chris King, 2004; Michael Balter, 2005, c.127).

Alimlərin bəzisi qadın heykəllərinin ümumiyyətlə sitayiş obyekti olmadığını, hansısa başqa funksiya daşıdığını ehtimal edirlər (Hodder I., 2005). Amma bunun əksini düşünənlər daha çoxdur. C. Mellartdan başqa M. Gimbutas da Çatal-Höyükdən çıxan kök qadın heykəllərinin ana ilahəsi olduğu fikrini söyləmiş və öz fikrində daha da irəli gedərək, Çatal-Höyük mədəniyyətində anaxanlığın hakim olduğunu iddia etmişdir. M. Balter də onun fikrinə şərik çıxmışdır (Michael Balter., 2005).

Yuxarıda qeyd edildiyi kimi, Çatal-Höyükdə insan və öküz doğan ana ilahə obrazlarına da rast gəlinmişdir. Maraqlıdır ki,

bunlardan birincisi türk mifologiyasındakı Umay ana obrazına, digəri isə Ay kağan obrazına uyğun gəlməkdədir.

Öküz doğan ilahə obrazının izlərinə zamanla bir qədər dəyişmiş formada «Oğuznamə»də rast gəlirik. Maraqlıdır ki, Tolstov, Bernştam və Bekmıradov kimi tanınmış türkoloq alimlər oğuzların ən qədim zamanlarda öküzə totem munasibəti bəslədiklərini söyləmişlər. Bu alimlər bu halda «Oğuznamə»də yer alan aşağıdakı sözlərə və «Oğuzun anqağusu» kimi təsvir edilən öküz rəsminə istinad etmişlər: «Olsun dedilər. Onun anqağusu budur».

Daha sonra öküz şəklində təqdim edilən Oğuzun doğuşu təsvir olunur:

«Yenə günlərin bir günü Ay kağanın gözləri yarıdı, bir oğlu oldu. Bu oğlanın üzü göy idi. Ağzı atəş kimi qırmızı, gözləri ala, saçları, qaşları qara idi. Gözəllikdə mələkdən də gözəl idi...» (Bayat, 1993, s. 124).

Alimlərin bir çoxu bu fikirdədir ki, ana ilahəsinə baş Tanrı kimi sitayişin kökləri Paleolitə qədər uzanır. Bəziləri bu inancın qaynağını ana bətnini xatırladan mağaralarla, su stixiyası ilə, bitkilər aləmi ilə (Горшунова О.В., 2008, с.71-82), başqa biriləri astral obyektlərlə (Горшунова О.В., 2001. с.219-231) bağlamağa çalışırlar. Alimlər onu müxtəlif xalqların mifologiyasında rast gəlinən Anahid, Geya, Afrodita və s. bu kimi qadın ilahə obrazları ilə müqayisə etmişlər. Lakin müqayisəyə çəkilən ilahələrin heç biri öz panteonunda ən başda, yəni baş Tanrı məqamında durmur. Bu hala sədəcə Ağ Ana (Ana yaradıcı) ilə bağlı türk mifik mətnlərində rast gəlinir:

«Ana yaradıcı artıq bir dünya yaratmağa qərara almışdı. Amma nə ilə yarada idi, əlində bir şey yox idi. Buna görə qırmzı boyunlu balıqcılla bir çöl ördəyini yanına çağırdı və onlara dedi:

- Tez dənizin dibinə dalın və mənə bir az torpaq gətirin!

Quşlar dənizin dibinə daldılar, az sonra çöl ördəyi dimdiyində bir parça çamurla suyun üzündə göründü. Amma balıqcıl orada yox idi. Yaradıcı "bu balıqcıl harada qaldı" deyə düşünərkən, o da suyun üzünə çıxdı. Amma ağzında nə çamur, nədə başqa bir şey vardı. Yaradıcı soruşdu:

- Hanı sənin torpağın?

Balıqcıl boynunu bükdü və cavab verdi:

- Dənizin dibində mən torpaq tapmadım. Onun üçün də torpaq gətirmədim.

Yaradıcı bunu eşitdikdə çox hirsləndi və belə dedi:

- Ey hiyləgər quş! Mən sənə çöl ördəyindən daha qısa və daha az qüvvətli bir dimdikmi vermişdim? Bu olan şeydir? Səninki onunkindən həm qüvvətli, həm də uzundur, necə olur ki, çöl ördəyi dənizin dibindən çamur tapır, sən tapmrsan? Mən səni cəzalandıracağam və sən yer üzündə yaşamayacaqsan. Gəz, uç, nə istəyirsən elə, amma dənizin üstündə elə. Cum dənizə, yiyəcəyini orada axtar. Orada yat, orada qalx. Nə edəcəksənsə, orada et, amma yer üzünə gəlmə!

Ana yaradıcı çöl ördəyinin gətirdiyi çamurla dunyanı yaratdı. Çamuru əlinə aldı, dənizin üstünə qoydu. Nə cür oldusa, palçıq dənizin dibinə batmadı. Nə dalğalar, nə də külək onu yerindən tərpədə bilmdi. Eyni ilə bir adacıq kimi dənizin ortasında dayanb qaldı. Az sonra da böyüməyə başladı. Elə böyüdü, elə böyüdü ki, bugünkü dünya oldu» (Ögəl, 2006, səh. 445).

Başqa bir süjet isə belədir:

«Bir Ağ Ana var idi, yaşardı su içində,
Göründü su üzündə, Ülgenə belə dedi:
"Yaratmaq istəyirsən sən də bir şeylər, Ülgen,
Yaradan olmaq üçün bu qutsal sözü öyrən.
De ki, mən etdim, oldu. Başqa bir şey söyləmə,
Hələ yaradan ikən "etdim, olmadı!" demə!"
Ağ Ana bunu dedi, qeyb oldu, çıxıb getdi,
Dənizə dalıb getdi, bilinməz hara getdi»
(Ögəl, 2006, səh. 228-229).

Daha bir süjet:

«Böyük Ağ yaradan Ürünğ Ayığ Toyon lap əvvəldən böyük dənizin üzərində yüksəklərdə dayanıb-durarkən suyun üstündə üzən bir köpük gördü. Tanrı durdu və köpükdən soruşdu:

- Sən kimsən?

Köpük Tanrıya baxıb dedi:

- Mən bir şeytanam, lap suyun dibindəki yerdə yaşayıram.

Tanrı şeytana üz tutub soruşdu:

-Bilmirəm, sözün doğrudurmu? Suyun altında yer varmı? Elədirsə, o yerdən mənə bir parça torpaq gətir! – dedi.

Şeytan dənizə daldı, xeyli vaxt keçdikdən sonra şeytan göründü. Əlində bir az torpaq var idi. Tanrı qara torpağı ondan aldı, əlində tutub, baxdı, torpağı təqdis etdi və suya atdı. Sonra şeytan düşündü ki, Bu Tanrını necə suda batırım, boğulsun. Lakin elə bu vaxt torpaq böyüyüb, ətrafa yayılmağa başladı. O sərtləşdi, bərkidi. Dənizin böyük bir hissəsi həmin torpaqla doldu» (Ögəl, 2006, səh. 443).

Daha bir variant: «Bir zamanlar yalnız Tanrı Qara xan və su vardı. Qara xandan başqa görən və sudan başqa görünən yox idi. Ağ ana göründü. O, Qara xana "yarat" deyib yenidən suya daldı. Bunu eşidən Qara xan bir kişi yaratdı. Qara xanla kişi intəhasız suyun üstü ilə iki qara qaz kimi uçurdular. Lakin halından məmnun olmayan kişi, Qara xandan daha yüksəkdə uçmaq istəyirdi. Onun istədiyini bilən Qara xan kişidən uçmaq qabiliyyətini aldı. Kişi dibsiz suya yuvarlandı. Elədiyindən peşiman olub Tanrı Qara xandan bağışlanmasını xahiş etdi…» (Cəfərov, 2004, səh 13).

«Ər Soqotox» dastanının O. Böhtlinq tərəfindən toplanmış variantında Ağ Ana da eynən Umay kimi ağacla bağlı təqdim edilir:

«...Günəşə üz tutub, üç dəfə salam verdi. "Xaqan ağac"ın qarşısına çatan kimi diz çökdü və ağaca belə dedi:

-Mənim ağac Xaqanım! Ey müqəddəs ruh! Ey ulu xatun! Mənim yurdumun ruhu! Mən bir yetimdn başqa bir şey deyildim. Sən götürdün, məni böyütdün.Mən kiçik bir uşaq ikən, sən məni böyük bir adam etdin... Gəl mənim nə olacağımı, gələcəyimi də bildir. Mən nə edəcəyəm? Mən bundan sonra necə yaşayacağam? Ey ulu ana!..

İgid bunları söylədikdən sonra birdən göy üzü tutulmuş, buludlar yığılmış və göy müdhiş bir şəkildə gurlamağa başlamışdr. Az sonra iri-iri damlalı yağış yağmağa başlamış və ətrafı sellər basmışdır. Göydən ağ bir bulud uçmuş və bu buluddan da yerə ildırımlar enmişdir. Yer – göy titrəmiş, çaylar daşmş, dənizlər çalxalanmışdır. Az sonra ağ saçlı Ana Tanrı görünmüşdür. Ya-

vaş – yavaş ağacın kökündən çölə çıxmş və oğlanın qarşısında durmuşdur» (Ögəl, 2006, səh. 120).

Yuxarıda qeyd edildiyi kimi, Çatal-Höyükdə Ağ Ana ilə yanaşı sitayiş obyektlərindən olan kişi «tanrı»lar bəzən uşaq, bəzən yeniyetmə (ilahənin sevgilisi) bəzənsə saqqallı kişi şəklində düzəldilirdi. Saqqallı kişilər bir sıra hallarda hansısa mifoloji heyvanın və ya öküzün belində oturulmuş vəziyyətdə olurdu (James Mellaart, 1967, p.181).

Maraqlıdır ki, sonuncuların təsviri türk mifologiyasında aşağı ölülər dünyasının sahibi olan Erliyin təsvirləri ilə üst-üstə düşür. Belə ki, şamanlar öz alqış və ovsunlarında Erliyi atletik bədən quruluşuna malik qoca kişi kimi vəsf edirlər. Onun gözqaşı hiss kimi qara rəngdədir, iki yerə bölünən saqqalı dizinə qədər çatır. Azı dişlərini xatırladan bığlar burmadır və qulağının arxasına qədər uzanr. Buynuzları ağac köklərini xatırladır. Saçları buruq-buruqdur. O, bir versiyaya görə qara palçıqdan tikilmiş sarayda, digər iki versiyaya əsasən isə qara dəmirdən qayrılmış çəpərləri olan sarayda yaşayır. Bu saray Toybadım çayının sahilində yerləşir. Erlik bəzən avarları olmayan qara qayıqda, bəzən "kəlkə" (kəlçə) adlanan mifik heyvanın, bəzənsə keçəl öküzün belində gəzir (Алексеев, 1984, c. 53).

Çatal-Höyükdə kəsilmiş insan başları yeyən yırtıcı quş şəkillərinə də tez-tez rast gəlinir. Bunun nə anlama gəldiyini bilməsək də, bu günə qədər dilimizdə işlənən «filankəsin başını yemək» ifadəsi, çox güman ki, həmin dövrün yadigarıdır.

## «Kurqan etnosu» və kurqan nəzəriyyəsi

Tanınmış rus genetiki O. Balaqanskaya başda olmaqla bir qrup tanınmış rus aliminin birlikdə qələmə aldıqları «Altay, Sayan, Tyan-Şan və Pamirin türkdilli əhalisinin Y-xromosomunun polimorfizmi Qərbi və Şərqi Avrasiyanın genofondlarının qarşılıqlı əlaqəsi kontekstində» adlı məqaləsində yazırlar ki, R1a1a haploqrupu tədqiqata cəlb edilmiş bütün populyasiyalarda, yəni əhali qruplarında 4-61 % arasında müşahidə edilməkdədir. Bu hal, çox güman ki, sözügedən ərazidə iskit-sarmat dövründə və daha öncəki dövrlərdə üstünlük təşkil etmiş paleoavropa substratı-

nı markerləşdirir. R1b1b2(269) variantı isə bunun əksinə olaraq öyrənilən populyasiyalarda çox nadir hallarda rast gəlinir (1%) və orta hesabla polimorfizm həddinə çatmır (Балаганская О.А., Балановская Е.В., Лавряшина М.Б., Исакова Ж.Т., Сабитов Ж.М., Фролова С.А., Романов А.Г., Дибирова Х.Д., Кузнецова М.А., Захарова Т.А., Pitchappan R., Урасин В.М., Балаганский А.Г., Баранова Е.Г., Балановский О.П.,2011, с. 12-22).

Alimlər yuxarıda söylənilənlərdən çıxış edərək aşağıdakı nəticələrə gəliblər:

- Altay, Sayan, Tyan-Şan və Pamirin türkdilli əhaləsində (toplam 1101 nəfər) üç əsas gen axını istiqaməti aşkar edilmişdir: (R1a1a haploqrupu ilə markerləşən) Qərbi Avrasiya, Şərqi Avrasiya (C, D, O haploqrupları) və Şimali Avrasiya (N1b, N1c1 və Q) genləri.

- Tədqiqata cəlb edilmiş türkdilli əhali qruplarının genofondunun formalaşmasında əsas tendensiya özünü Qərbi Avrasiya (paleoyevropoid) komponentinin Şərqi Avrasiya (monqoloid) komponenti ilə əvəz olunması şəkilində göstərir. Monqoloid təsir özünü baryer rolunu oynayan dağlıq zonalara nisbətən çöl və çöllə həmsərhədd zonalarda daha çox büruzə verir. Onların genlərində protoural və paleoasiya komponentlərinin izləri də qorunub saxlanılmışdır.

- Öyrənilən türkdilli populyasiyalar genetik sahədə üç klasterdə birləşir: Altay-Sayan, çöl və bu ikisi arasında keçid olan Pamir – Tyan-Şan. Y-xrosomun hər iki (SNP və STR) markeləri üzrə xakaslarla qırğızların daha sıx etnogenetik bağlarının olduğu, şorların Qərbi Avrasiya, qazaxların isə Şərqi Avrasiya komponentinə daha yaxın olduğu müəyyən edilib.

- Nisbətən tez-tez müşahidə edilən haploqruplar (N1b, N1c1, P1a1a, R1b1b1, Q, D) STR-haplotiplərin klasterləri müəyyənləşdirilib. Onlar əsasında Cənubi Sibir və Orta Asiya xalqlarının genofondunun nisbətən cavan (təqribən 4000 il) olduğu aşkar edilib (Балаганская О.А., Балановская Е.В., Лавряшина М.Б., Исакова Ж.Т., Сабитов Ж.М., Фролова С.А., Романов А.Г., Дибирова Х.Д., Кузнецова М.А., Захарова Т.А., Pitc-

happan R., Урасин В.М., Балаганский А.Г., Баранова Е.Г., Балановский О.П.,2011, c. 12-22).

O. Balaqanskaya və həmkarlarının gəldikləri bu nəticəyə istinad edən Q. Hümbətov yazır ki, ilk türklərin Sibirə 4000 il əvvəl gəldiyi təsdiq edilir ki, bu da ilk «andronovoluların» (Andronovo mədəniyyətinin daşıyıcılarının) həmin regionda peyda olması dövrü ilə üst-üstə düşür və arxeoloqların gəldiyi nəticəni təsdiq edir (Гумбатов Г., 2015).

Beləliklə, genetika elmi ilk türklərin Altay, Sayan, Pamir və Tyan-Şana 4000 il bundan əvvəl qərbdən, daha dəqiq desək, Qərbi Avrasiyadan gəldiklərini bildirir. Bu isə o deməkdir ki, türklərin Altay mənşəli olduqları və bu ərazidən bütün Avrasiya ərazilərinə yayıldıqları fikri öz təsdiqini tapmır. Yəni Altay Nəzəriyyəsini uyduranlar onu siyasi və geosiyasi məqsədlərlə uydurmuşlar və bu nəzəriyyənin heç bir elmi əsası yoxdur.

Genetiklərin Avrasiya ərazisinə yayılmış və müxtəlif minilliklərə aid çoxsaylı kurqanlardan aşkar edilmiş skeletlərdən götürdükləri DNT nümunələri əsasında onların, demək olar ki, hamısının R1a və R1b haploqruplarının daşıyıcısı olduğu və həmin genlərin Qərbi Avrasiyanın eneolit dövrü qədim əhalisi ilə bağlı olduğu üzə çıxmışdır.

Tərkibinə Rusiyanın Y.Balanovskaya, O.Balaqansakaya, L.Damba, X.Dibirova, A.Aqocanyan, Y.Boqunov, M.Jabagin, J.İsakova, M.Lavryaşina və O.Balanovskiy kimi aparıcı genetiklərinin daxil olduğu genetiklər qrupunun apardıqları tədqiqatlar nəticəsində gəldikləri nəticə də çox maraqlıdır. Onlar birlikdə qələmə aldıqları «Altay-Sayan, Tyan-Şan və Pamirin türkdilli dağ və çöl əhalisinin genofonduna təbii şəraitin təsiri» adlı məqalədə sözügedən bölgələrinin türk əhalisi arasında uzun illərdən bəri apardıqları tədqiqatların nəticələrinə nöqtə qoyaraq yazırlar ki, Altay-Sayan, Tyan-Şan və Pamirin türkdilli əhalisinin genofondundakı Y-xromosom markeləri əsasında genlərin üç axını müəyyən edilib. «R1a1a hamloqrupu ilə markerləşdirilən Qərbi Avrasiya geni tədqiata cəlb edilmiş bütün türk xalqlarında (yakutlardan başqa) dominantlıq təşkil edir (orta hesabla 45 %). Bu haploqrup

şorlarda 60%, tubalar və altay-kijilərdə 50% təşkil edir. Digər tədqiq edilmiş türk xalqarında isə bu göstərici 24-57 % faiz arasında dəyişir. R1b1b-ə isə çox nadir hallarda rast gəlinir və o, 1% -i keçmir (Балаганская О.А., Балановская Е.В., Лавряшина М.Б., Исакова Ж.Т., Сабитов Ж.М., Фролова С.А., Романов А.Г., Дибирова Х.Д., Кузнецова М.А., Захарова Т.А., Pitchappan R., Урасин В.М., Балаганский А.Г., Баранова Е.Г., Балановский О.П.,2011, с. 12-22; Балаганская О.А., Балановский О.П., Лавряшина М.Б., Кузнецова М.А., Романов А.Г., Дибирова Х.Д., Фролова С.А., Захарова Т.А., Баранова Е.Е., Сабитов Ж., Нимадава П., Балановская Е.В., 2011, с. 25-39).

Dünyanın ən tanınmış genetiklərindən hesab edilən amerikalı mütəxəssis P. Anderhill dünyanın 32 aparıcı genetiki ilə birlikdə qələmə aldığı bir məqaləsində bildirir ki, fileocoğrafi məlumatlar tədqiqatçıları belə bir fikrə gətirib ki, R1a-M420 haloqrupunun ilkin diverfikasiya epizodları təqribən 5800 il öncə İranın bilavasitə yaxınlığında, Qərbi Azərbaycan vilayətində və Şərq Anadoluda baş verib. Tədqiqata cəlb edilmiş R1a-M420 (xSRY10831.2) xromosom barədə məlumatların 18-i İranın Qərbi Azərbaycan vilayətindən, 3-ü isə Şərqi Anadoludan əldə edilmişdir. Müşahidə edilən R1a1-SRY10831.2 (xM417 / Page7) altı xromosomdan beşi də analoji olaraq məhz İran Azərbaycanında üzə çıxarılıb (Underhill, P.A.; Myres, Natalie M; Rootsi, Siiri; Metspalu, Mait; Zhivotovsky, Lev A; King, Roy J; Lin, Alice A; Chow, Cheryl-Emiliane T; et al., 2009, p. 479–484).

Alimin sözlərinə görə, regionda R1a haloqrupunun bazal xətlərinin müxtəlifliyi və zənginliyi bu genin Yaxın Şərq mənşəli olduğuna şübhə yeri qoymur və onun doğuş yeri kimi İranın şimal-qərbini gözdən keçirməyə imkan verir (Underhill, Peter A., 2015, p.124-131).

ABŞ və Avropa alimlərinin bu sahədəki araşdırmalarını dərindən təhlil edən Q. Hümbətovun yazdığına görə, son illərdə qədim və çağdaş türk xalqlarının genofondunu araşdıran çox sayda tədqiqat əsəri yazılmışdır. Tədqiqatçılar 2012 ildə Cənubi

Azərbaycan sakinlərində R1a (SRY10831.2) relikt haploqrupunu, eləcə də daha qədim R1a-M420 əcdad genini tapmışlar.

«R1a haploqrupunun daşıyıcısı olan protürklər e.ə. X minillikdən etibarən Cənubi Qafqazda yaşamışlar. P. Anderhill və digərlərinin tədqiqatlarına əsasən deyə bilərik ki, təqribən 6000-5500 il əvvəl R1a (M420)>(M198), (M417) > (SRY10831.2) haploqrupunun daşıyıcıları olan qədim türklərin bir qismi yeni otlaq yerləri axtararaq, Qafqazdan keçməklə Avrasiya düzənliklərinə hərəkət etmişlər - R1a (SRY10831.2) > (Z93). Qədim türklərin başqa bir hissəsi isə (çağdaş cənubi azərbaycanlılar) əski yurd yerlərində qalıblar.

Məlum olduğu kimi, R1a haploqrupu türk etnosunun və kurqan mədəniyyətinin yayılma markeri kimi tanınır. Bu haploqrupun yüksək tezliklərinə bütün türk xalqlarında və onların tarixi qonşularında rast gəlinir. Türklər 5000 ildir ki, həmin xalqlarla təmas halındadır.

Beləliklə, ehtimal etmək olar ki, R1a haploqrupunun daşıyıcısı olan çağdaş kişilərin böyük əksəriyyəti protürklərin xələfləridir və onların əcdadları Cənubi Azərbaycandan çıxmışlar» (Гумбатов Г., 2015)

Avropada neolit mədəniyyəti, şübhəsiz ki, Anadoluda və Yaxın Şərqdə ilk dəfə peyda olan neolitdən asılı olmayaraq, yəni müstəqil şəkildə yaranmışdır və bunu qətiyyətlə söyləmək olar, amma enolit dövrü haqqında bunu söyləmək çətindir və hətta mümkün də deyil. Arxeoloqlar, bir qayda olaraq, eneolit mədəniyyətinin Avropa və Qafqaza ayaq açmasını Anadoludan və ona həmsərhəd olan Güney Azərbaycandan köçüb gələn miqrantlarla bağlayırlar. Genetiklərin tədqiqatları sayəsində həmin köçmənlərin R1a və R1b Y-xromosomlarının daşıyıcıları olduqları, bir müddət sonra kurqanda dəfn ənənəsinin də məhz onların içərisində yarandığı məlum olmuşdur.

Kurqanda dəfn adətinin ilk dəfə hansı ərazidə yarandığı uzun müddət mübahisələr mövzusu olsa da, elmə məlum kurqanların radiokarbon üsulu ilə yaşının müəyyənləşməsindən sonra bu məsələyə müəyyən qədər aydınlıq gətirilmişdir.

Tədqiqatlar nəticəsində eneolit mədəniyyətininin kurqanaqədərki və ondan sonrakı sərhəddinə aydınlıq gətirməyi bacaran alimlərin səyləri nəticəsində bu yeniliyin ilk dəfə harada yarandığı və Avrasiyanın geniş çöllərinə haradan, hansı marşrutlar üzrə və nə zaman yayıldığını müəyyən etmək, qismən də olsa, mümkün olmuşdur. Xüsusən də Şimali Qafqaz və Volqa-Don bölgəsində aparılan tədqiqatlar bu baxımdan çox faydalı olmuşlar. Bu istiqamətdə A.İessen (Иессен, 1941), A.Kruqlov, Б.Piotrocski, Q.Podqayetski (Круглов, Пиотровский, Подгаецкий, 1941), Y Krupnov (Крупнов, 1950; 1957), O.Miloradoviç (Милорадович, 1956), R.Munçayev (Мунчаев, 1961), M.Romanovskaya (Романовская, 1982), E.Şarafutdinova (Шарафутдинова,1983), Y.Şatalin (Шаталин, 1982; 1984), N.Qicarati (Гиджрати, 1986), C.Kornevski, A.Naqler (Кореневский, Наглер, 1987), V.Derjavin (Державин, 1989, 1991), V.Trifonov (Трифонов, 1991), A.Neçitaylo (Нечитайло, 1979; 1996; 1999; 2003; 2004), Y.Rassamakin (Рассамакин, 1993;1997; Rassamakin, 2004; Рассамакин, 2009), B.Qovertitsa (Govedariča, 2004), Kotova (Котова, 2004; 2006; 2010) və başqalarının əməyini xüsusi qiymətləndirmək lazımdır.

Bu sıraya Cənubi Qafqazın eneolit mədəniyyətinin və erkən kurqanlarının araşdırılmasında böyük əmək sərf etmiş İ.Nərimanov (Нариманов И.Г., 1987), T.Dostiyev (Dostiyev və b., 1990, s. 26), N.Müseyibli (Müseyibli N., 2014), T.Axundov (Ахундов Т.И., 2009), B.Lionnet (Лионне Б. и др., 2002), Z.Maxaradze (Махарадзе З., 2015) F. Muradyan (Muradyan F., 2014) və s. alimlərin də adını xüsusi qeyd etmək lazımdır.

Erkən kurqanların doğuş yeri məsələsinin elmi problem kimi ortaya çıxmasında Nalçik nekropolonun kəşfinin böyük rolu olmuşdur. Bu məzarlığın kəşfindən və tədqiqindən sonra elmi ədəbiyyatda belə bir fikir hakim olmuşdu ki, ilk kurqanlar Şərqi Avropada, daha dəqiq desək, Şimali Qafqazda, Volqa və Don çayları arasındakı düzənliklərdə peyda olmuşdur (Круглов, Пиотровский, Подгаецкий, 1941, с. 68–69). Amma çox keçmədi ki, Xvalinsk mədəniyyəti üzə çıxarıldı və bu fikir öz aktuallığını müvəqqəti olaraq itirdi (Васильев, 1981, с. 39).

1950-ci illərdə Qroznı şəhəri yaxınlığından tapılan, içərisində oxra və çaxmaqdaşından düzəldilmiş lövhəyə rast gəlinən bir məzar Şimali Qafqaz variantının yenidən gündəmə gəlməsinə (Милорадович, 1956) və kurqan mövzusuna marağın artmasına səbəb oldu (Мунчаев, 1982, c, 130, 131). Bundan sonra Kalmıkiya və Moldovadakı kurqan tipli məzarlardan skipetrlər tapıldı və sonrakı araşdırmalar İ. Sinitsin və U. Erdniyevin Volqa-Don düzənliyində, Arxar I məzarlığında eneolit dövrünə aid gerçək kurqanların izinə rast gəlməsi ilə nəticələndi (Синицын, Эрдниев, 1966, c. 166, 167). Daha sonra Moldovada – Kaynarıda (1969) və Suvorovo kəndi yaxınlığında (1972) elmi ədəbiyyatda haqqında «kurqan materialları» kimi söz açılan (Алексеева, 1976) arxeoloji materiallar aşkarlandı ki, bu da V.Danilenko və M.Şmaqliyə eneolit dövrünün qədim atçıları barədə fərziyyə irəli sürməyə əsas vermişdir (Даниленко, Шмаглий, 1972). Beləcə, erkən kurqanların cuxur mədəniyyəti ilə bağlılığı barədə fikirlər doğmağa başladı və bu işdə əsas rolu N. Merpert oynadı. O, Berejnovki I tipli kurqanların dünyanın ilk kurqanları olduğunu elan etmişdir (Мерперт, 1974, c. 132).

N.Merpertdən sonra erkən kurqanlar ideyasını daha da inkişaf etdirən İ. Vasilyev həmin kurqanların siyahısını tərtib etmiş və ora Arxar məzarlığındakı 27 və Berejnovka yaxınlığındakı 5 №-li kurqanları ən qədim kurqanlar kimi daxil etmişdir. O bu kurqanların genezisini Xvalinsk mədəniyyəti ilə əlaqələndirməyə çalışırdı (Васильев, 1981, c. 43). Merpertin fikrincə isə, cuxur mədəniyyəti Xvalinsk və Maykop mədəniyyətləri arasında xüsusi bir keçid olmuş və Maykop mədəniyyətindən öncə gəlmişdir (Мерперт, 1974, c. 79).

Sonrakı dövrlərdə oxralanmış məzarların və daş skipterlərin tapılması alimlərə cuxur mədəniyyətinin qərb sərhələrini Dunay çayı və Karpat dağıarına qədər uzatmağa, Rumıniya, Macarıstan və Bolqarıstan ərazilərini də həmin mədəni areala daxil etməyə imkan verdi. Eneolit dövrünə aid edilən bu mədəni areal öz əksini N. Merpertin cızdığı xəritədə tapmışdır.

1992-ci ildə İ. Dremov və A. Yudin Volqa hövzəsinin Berejnovka tipli kurqanları barədə ilk hesabatlarını təqdim etdilər.

Onların hesabatlarında bu kurqanlar eneolit dövrü kurqanları kimi qeyd edilmişdir (Дремов, Юдин, 1992). Həmin dövrdən keçən illər ərzində sözügedən bölgədən aşkar edilmiş eneolit dövrü kurqanlarının sayı hesabatda qeyd edilən kurqan sayını çox-çox geridə qoymuşdur.

Bütün bu kəşflər M. Gimbutası özünün məşhur kurqan nəzəriyyəsini yaratmağa sövq etdi. O, kurqan mədəniyyətində qədim hindavropalıların izini axtarırdı. Daha doğrusu, buna əmin idi. O, həm də «kurqan etnosu» (Kurgan people) ideyasının, yəni ölülərini kurqanlarda dəfn edənlərin eyni etnosun nümayəndələri olduğu ideyasının banisidr. Genetika elmi onun bu fikrini bütünlüklə təsdiq etsə də, aparılan DNT analizləri bu etnosun hindavropalılar deyil, türklər olduğunu ortaya qoymuşdur.

M. Gimbutas alimlər içərisində kurqan fenomeninə hindavropalı hesab etdiyi eneolit dövrü əhalisinin şərqdən qərbə, Volqaboyu düzənliklərindən Dunay hövzəsinə, daha sonra isə Skandinaviya və Britaniyaya qədər köç marşrutlarının üzə çıxarılması vasitəsi kimi baxır və öz nəzəriyyəsini də bunun üzərində qururdu (Gimbutas, 1977; 1991; 1994; 1997).

Onun nəzəriyyəsinə görə, dörd əsas miqrasiya dalğası olmuşdur ki, bunlardan birincisi Dnepr-Volqa bölgəsini əhatə edir və bu dalğa e.ə. IV minilliyin ilk yarısında baş vermişdir. Alimin fikrincə, Samara və Seroqlazovo mədəniyyətlərinə Volqa hövzəsi mədəniyyətinin tərkib hissəsi kimi baxılmalıdır.

E.ə. IV minilliyin ikinci yarısında baş verən, Orta Dnestr və Maykop mədəniyyətlərini əhatə edən ikinci dalğa üçün daş kromlexlər, ikitəkərli arabalar, antopomorf daş heykəllər xarakterik olub.

Cuxur mədəniyyəti üçüncü dalğaya aid edilir və bu köçün e.ə.III minilliyin birinci yarısında baş verdiyi güman edilir. M. Gimbutasa görə, sözügedən dalğa Ural dağları ilə Rumıniya arasındakı bütün çöl zonasını içinə alır. Daha sonra Kukuteni (Tripolye) mərhələsi gəlir. Bu mərhələdə Volqa hövzəsindən Dnepr hövzəsinə miqrasiya baş vermişdir. Həmin köçün izlərinə Vinça və Lendel mədəniyyətlərində rast gəlinir.

E.ə. 3000-2800-ci illəri əhatə etdiyi düşünülən sonuncu dalğa zamanı çuxur mədəniyyəti çöl zonasının sərhədlərini aşmış, Rumıniya, Bolqarıstan və Macarıstana qədər yayılmışdır (Gimbutas, 1997).

M.Gimbutasın bu fikirləri N.Merpert (Мерперт Н.Я., 1976, s. 109), V.Danilenko (O'Shea, J., Milner, C.M., 2002, s.33, 40, 81), S.İvanova, V.Petrenko, N.Vetcinnikova (Иванова С.В., Петренко В.Г., 2005, s.125), V.Derqacev (Дергачев В.А., 2000, с. 188-236) kimi alimlər tərəfindən dəstəklənmişdir. Lakin onu tənqid edənlər də az olmamışdır. Bu baxımdan İ.Vasilyevin (Васильев И. Б., 2003, s. 63) və F.Kolun (Kohl Philip L., 2007, s. 51-52; Kohl Philip L., 2007, s. 140-141) adları ön sırada çəkilməlidir.

## Türklərin Avropada qurduqları ilk mədəniyyət – Xvalınsk mədəniyyəti (e.ə. V-IV minilliklər)

Türklərin ulu babalarının, yəni R1b və R1a Y-xromosomlarının daşıyıcılarının eneolit dövründə Avropada qurduqları ilk mədəniyyət kimi hələlik e.ə. V-IV minilliklərə aid Xavalınsk mədəniyyətini gözdən keçirmək daha doğru olar. Hərçənd ki, bir sıra mütəxəssislər bu mədəniyyəti Samara mədəniyyətinin davamı və varisi sayırlar (Клейн Л.С., 2007, с. 94-95). Onların fikrincə, kurqanın prototipi hesab ediləcək dəfn adəti məhz Samara mədəniyyəti dövründə peyda olub. Lakin Samara «kurqan»larının klassik anlamda hələ kurqan olmadığını, eləcə də əlimizdə bu mədəniyyətin daşıyıcılarının gen analizlərinin nəticələrinin olmamasını əldə əsas tutaraq biz bu məsələni gələcək tədqiqatçılar üçün açıq buraxmağa və türklərin hunlara qədərki tarixinin Çatal-Höyükdən sonrakı mərhələsi kimi məhz Xvalınsk mədəniyyətini gözdən keçirməyə qərar verdik. Çünki «Xvalınsklı»ların ölülərini kurqanlarda basdırdığı və bu kurqanlardan əldə edilən sümüklərin DNT analizlərinin nəticələri məlumdur və bu da bizə Xvalınsk mədəniyyətindən Türk tarixinin Çatal-Höyükdən sonrakı ikinci böyük mərhələsi və mədəniyyəti kimi danışmağa imkan verir.

Sözügedən mədəniyyət öz adını ilk nümunələrinin tapıldığı şəhərin adından – Rusiyanın Saratov vilayərində, Volqa çayının sağ sahilində yeləşən Xvalınsk şəhərindən almışdır. Arxeoloqlar

onun izlərinə şərqdə Ural çayına, qərbdə Azov dənizinin şimal sahillərinə qədər uzana geniş ərazidə rast gəlmişlər. Sonrakı dövrlərə aid Çuxur mədəniyyəti və Qazaxıstan ərazisində aşkar edilmiş Botay mədəniyyəti Xvalinsk mədəniyyətinin birbaşa davamı və varisi hesab edilir (Клейн Л. С., 2007, с. 95).

«Xvalınskli»ların misdən müxtəlif əşyalar düzəltməkdə, başqa sözlə metallurgiya sahəsində usta olduqları məlumdur. Onların əsas məşğuliyyət sahəsi heyvandarlıq və atçılıq idi. Ovçuluq və balıq ovu da geniş yayılmışdı.

Artıq qeyd etdiyimiz kimi, Xvalinsk mədəniyyətini quranlar ölülərini kurqanlarda basdırırdılar. Sözügedən mədəniyyətə aid məzarlıqlar içərisində Xvalinsk şəhəri yaxınlığında aşkar edilmiş 30 x 26 m ölçülü məzarlıq arxeoloqların üzə çıxardıqları ilk bu tip abidədir. Bu məzarlıqda 158 skeletə rast gəlinmişdir ki, onların böyük əksəriyyəti tək dəfn edilmişdir, 2-5 nəfərin kollektiv şəkildə dəfn edildiyi bir neçə məzara da rast gəlinmişdir. 12 qəbrin üzərində kiçik kurqan aşkar edilmişdir. Bu kurqanların örtükləri daş yığınından ibarət idi. Qəbirlərin bəzisində eynən Samara mədəniyyətində olduğu kimi at, qoyun və qaramal sümüklərinə rast gəlinmişdir.

Nalçik şəhəri yaxınlığındakı məzarlıqda 121 məzara rast gəlinmişdir. Burada da dəf edilənlər eynən Xvalinsk məzarlığında olduğu kimi arxaları üstə basdırılmış, ayaqları dizdən bükülmüşdü. Qeyd edək ki, arxası üstə basdırmaq adəti R1b Y-xromosomunu daşıyanlar, böyrü üstə (qadınlar sol, kişilər sağ böyrü üstə), bükülü vəziyyətdə basdırmaq adəti isə R1a haploqrupunun daşıyıcıları üçün xarakterik olmuşdur. Bunlardan birincilərin bugünkü varisləri içərisində oğuz türkcəsində, ikincilərin varisləri içərisində isə qıpçaq-bulqar türkcəsində danışanlar əksəriyyət təşkil edir.

Nalçik məzarlığında ölülərin üzərinə oxra səpilməsi, qəbirlərin qurulmasında sal daşlardan istifadə edilməsi halına tez-tez rast gəlinir. Bundan başqa, bütün məzarlıq kurqan örtüyü ilə örtülmüşdü.

Qəbirlərdən çıxan əşyalar əsasında arxeoloqlarda belə bir fikir formalaşmışdır ki, «Xvalınsklı»lar arasında təbəqələşmə mövcud olmuşdur. Nisbətən sonrakı dövrlərə aid qəbirlərdən çıxan arxeoloji materiallar təbəqələşmənin dərinləşdiyi, qəbilə

başçısı institutunun formalaşdı barədə fikir söyləməyə əsas verir (Васильев И. Б., Кузнецов П. Ф., Семёнова А. П., 1994).

Xvalınsk kurqanlarının öyrənilməsi baxımından Samara, Orenburq və Saratov məzarlıqlarının böyük önəmi var. Eyni sözləri Xvalınsk I, Xvalınck II məzarlıqları, eləcə də Krivoluç məzarı barədə də söyləmək olar ki, bu barədə sonra söhbət açacağıq.

Xvalınsk kurqanlarından çıxan skeletlərdən götürülən DNT nümunələrinin analizləri çox maraqlı nəticələr vermişdir. Aparılan genetik tədqiqatlar nəticəsində burada da eynən Çatal-Höyükdə olduğu kimi R1b və R1a Y-xromosomlarının dominantlıq təşkil etdiyi məlum olmuşdur. Eyni zamanda Q1a Y-xromosomuna da rast gəlinmişdir ki (İain Mathieson, et al.), bu da türklərin Anadolu (R1b) və Güney Azərbaycandan (R1a) Avropaya köçündən əvvəl həmin ərazidə yaşamış əhalinin kimlər olduğunu anlamağa yardım edir.

Qeyd etmək lazımdır ki, Q haploqrupuna Sibir və Amerikanın köklü xalqalrında, eləcə də Avropa xalqlarından macarlarda (2 %), slovaklarda (5 %), yəhudi aşkenazlarda (5 %), Cənubi İsveçrədə (5 %) rast gəlinib. Fransız Alplarında, Cənubi Siciliyada, Serbiya, Ukraina və Polşada, Rusiyanın Tver vilayətində də eyni haploqrupun izləri (6,1 %) bugünədək qalır (Гаплогруппа Q (Y-ДНК)).

Q haploqrupunun Q1a-M3 haplotipinin təqribən 15 min il öncə Amerikada ortaya çıxdığı, daha doğrusu mezolit dövrünə aid bir skeletdən aşkar edildiyi məlumdur, və bu haplotipin hələ mezolit dövründə sürətlə hər iki Ameriakaya və Avrasiyaya yayıldığı hesab edilir (Poznik, et al., 2016).

Avrasiyada bu genə ən çox Sibirin azsaylı xalqlarında – ketlərdə (95 %) və selkuplarda (70 %) rast gəlinib. Bu isə o deməkdir ki, həmin haploqrupun daşıyıcılarının danışdığı dil bu xalqların dillərinə yaxın olub. Dilçi alimlər bu dilləri şərti olaraq «Yenisey dilləri» adlandırırlar. Bu haploqrupun Q1a3a (M3) variantı Amerikanın aborigenləri üçün daha çox xarakterikdir.

İşin ən maraqlı tərəfi isə budur ki, eyni haploqrup Qaraqalpakıstan türkmənlərində (73 %), İran türkmənlərində (43 %) və Əfqanıstan türkmənlərində (34%) dominantlıq təşkil edir. Türkmənistanda isə ona çox nadir hallarda rast gəlinir (Poznik, et al.,

2016). Fikrimizcə, Qarakalpakıstan, İran və Əfqanıstan türkmənlərində bu haploqrupa P1b və R1a ilə birlikdə rast gəlinməsi sözügedən etnik qrupu genetik baxımdan Xvalınsk mədəniyyətinin birbaşa varisi hesab etməyə, eyni zamahda «Xvalınsklı»ların da türkmən, daha doğrusu protooğuz türkcəsində danışdıqlarını düşünməyə əsas verir.

Nəzərə alsaq ki, Xvalınsk mədəniyyətinin qurulmasında türklərlə birlikdə iştirak edən Q1a haploqrupunun daşıyıcıları eynən R1a və R1b haploqruplarının daşıyıcıları kimi ölülərini kurqanlarda basdıqmağa başlamışdılar, deməli, türklərin dinini və dilini qəbul etmiş və zamanla türkləşmişdilər. Amma bu, sadəcə Xvalınsk mədəni arealında yaşayan, Q1a Y-xromosuna sahib olan sadəcə bir və ya bir neçə qəbiləyə aiddir.

Türkləşmiş həmin qəbilə və ya qəbilələr sonrakı minilliklərdə hunların tərkibində Avropadan Çinə miqrasiya etmişlər. Təsadüfi deyil ki, Şimali Çindəki Pengyang məzarlığından tapılmış dörd hun skeletinin dördündə də Q1a1a1-M120 haplotipinə rast gəlinmişdir (M. Rasmussen et al., 2014, p. 225-229).

Qeyd etmək lazımdır ki, Q haploqrupunun təmsilçiləri hələ mezolit dövründə Avropaya çatmışdılar . Bunu Latviyadakı Zveynieki mezolit düşərgəsindən əldə edilmiş Q1a2 haploqrupu sübut edir (İain Mathieson, et al., 2017).

Şübhəsiz ki, Xvalınsk mədəniyyəti sadəcə qəbir abidələri əsasında öyrənilməmişdir. Alimlər bu mədəniyyətə aid bir neçə yaşayış məskəni də üzə çıxarmışlar. Bu baxımdan İvanovsk və Turqanik, Samara vilayətindəki Qundorovsk, Həştərxan vilayətindəki Kara-Xuduk, Kairşak VI, Kombakte, Tay-Tübe, Şimali Bukey (Severnıy Bukey), Manqışlak yarımadasındakı Manqışlak, Volqoqrad vilayətində, Torqun çayı yaxınlığındakı Kumıska (Васильев И. Б., Кузнецов П. Ф., Семёнова А. П., 1994) və s. qədim yaşayış yerlərini misal çəkmək olar.

Bölgədəki sonradan rusca adlandırımış toponimləri nəzərə almasaq, yaşayış yerlərinin tapıldığı ərazilərin adlarının hamısının türkcə olması da çox şeydən xəbər və Xvalınsk mədəniyyətində hindavropalıların izlərini axtaranların işlərini çətinləşdirir.

**Cənubi Qafqazın erkən kurqanları və «Kür-Araz eneoliti»**

Çatal-Höyük əhalisinin genetik yapısında dominantlıq edən R1b (24 faizi) və R1a (14 faiz) haploqrupları ilə yanaşı, 1 faiz nisbətində də olsa, J (J2 və J1) haploqrupuna rast gəlinməsi (Hodder İ., 2014), eyni zamanda J (J2 və J1) haploqruplarının Qafqaz mənşəli olması və onun Qafqazda ən azı 15 minillik tarixinin olması (Y Chromosome Consortium, 2002) Çatal-Höyük mədəniyyətinin qurulmasında birbaşa iştirak etmiş etnosların ən azı bir qisminin Konya düzənliyinə Qafqazdan köç etdiyini söyləməyə əsas verir. Burada ortaya bir çıxır: Şimali Azərbaycan türklərində dominantlıq təşkil edən R1b və R1a haploqrupları da Konya düzənliyinə Qafqazdan köçmüş ola bilməzdimi?

Bu suala hələlik birmənalı şəkildə cavam vermək çox çətindir. Çünki Şimali Azərbaycandan hələlik əldə edilmiş ən qədim R1b Y-xromosom nümunəsi e.ə. IV minilliyin sondan III minilliyin sonuna qədər uzanan bir dövrə, başqa sözlə, Kür-Araz mədəniyyəti dövrünə aiddir (Iosif Lazaradis et al., 2016). Bu isə Çatal-Höyük dövründən ən azı 5000 il sonra deməkdir. Hələlik əldə olan genetik məlumatlar ilk türk köçünün Qafqazdan Anadoluya deyil, Anadoludan Qafqaza olduğunu söyləməyə əsas verir. Lakin türklərin Şimali Azərbaycan ərazisində ən azı Neolit dövründən yaşadığını söyləmək üçün də müəyyən əsaslar vardır. Çünki Azərbaycanda hələlik dünyada ilk kurqanı hesab edə biləcəyimiz bir neolit dövrü kurqanı qeydə alınmışdır. Doğrudur, hazırda həmin kurqan arxeoloq Hidayət Cəfərovun kobud səhvi üzündən elmi ədəbiyyatda ilk tunc dövrünə aid edilir, amma fakt faktlığında qalır.

Söhbət hündürlüyü 1,5 m, diametri 24 m olan 119 № - li Xankəndi kurqanından gedir. Y. Hümmelin fikrincə, burada müxtəlif dövrləri – son tunc, erkən tunc və neolit dövrlərini əhatə edən üç təbəqəli dəfn hadisəsi baş vermişdir. Yəni sözügedən kurqanda ilk dəfn neolit dövründə icra edilmişdir (Гуммель Я. И., 1948, с. 15-19, рис. 6).

H. Cəfərov onun səhv etdiyini düşünərək, bu fikirlə razılaşmır və bildirir ki, Y. Hümmelin üst təbəqə zənn etdiyi ən üst təbəqə tunc dövrünün «sallama» qəbiridir, neolit dövrünə aid ol-

duğunu düşündüyü skelet isə əslində ilk tunc dövrünün kollektiv dəfn mərasimi ilə bağlıdır. Sadəcə olaraq kollektiv dəfn olunmuş ölü sümüklərinin bir qismi kütləvi dəfn olunanlardan bir qədər dərinə düşmüşdür (Cəfərov H., 2000, s. 30). Fəqət alim yerin necə yarıldığını və skeletlərin hamısının deyil, sadəcə birinin neolit təbəqəsinə hansı yolla düşdüyünü izah etmir. Üstəlik də neolit təbəqəsi o zaman «neolit təbəqəsi» hesab edilir ki, oradan neolit dövrünə aid mədəni təbəqə aşkar edilsin. Y. Hümmel kimi peşakar mütəxəssis bu cür kobud səhvə yol verə bilməzdi.

İşin ən maraqlı tərəfi isə budur ki, H. Cəfərovun yazdığına görə, qəbirdən (II təbəqə) 22 ədəd əzilmiş gil qab tapılmışdır ki, onların toxuma karkas üzərində hazırlandığı məlum olmuşdur (Cəfərov H., 2000, s. 30-31). Toxuma karkas üzərində hazırlanmış qablar isə ilk tunc dövrü üçün yox, məhz neolit və erkən eneolit dövrləri üçün xarakterikdir.

Məlumat üçün bildirək ki, 119 № - li Xankəndi kurqanında qəbir çalasına rast gəlinməyib. Buradakı skeletlər diametri 4.5 metr olan dairəvi səth uzərində aşkar edilib. Kutləvi dəfnin icra edildiyi meydançanın girişini 1.45 x 1.0 x 0.3 metr ölçülü boyuk daş plitə qapamışdı. Kurqanın Hümmel tərəfindən çəkilmiş planında ştrixlənən dağılmamış hissəsində 36 skeletə rast gəlinmişdir. Onlar müxtəlif vəziyyətlərdə idilər. Dəfn meydancası təbəqəsi büsbütün götürüldükdən sonra ondan aşağıdakı təbəqədə neolit dövrünə aid daha qədim mədəni təbəqə aşkar edilmişdir (Гуммель Я. И., 1948, s. 15, 17, 19).

Arxeoloqlarımızın bu kimi səhvləri az deyil. Bu baxımdan eneolit dövrünə aid olduğu və Soyuqbulaq kurqanlarından daha qədim olduğu radiokarbon analizləri ilə tam təsbit edilən Üçtəpə kurqanları da deyilənlərə ən gözəl misaldır. Arxeoloji ədəbiyyatda onlardan ilk tunc dövrü abidələri kimi söhbət açılır. Halbuki aparılmış analizlərin nəticələri bu kurqanların Soyuqbulaq kurqanlarından daha qədim olduğunu ortaya qoymaqdadır.

Üçtəpə kurqanlarından əldə edilmiş kömür qalıqları əsasında aparılmış radiokarbon analizlərin nəticələrinə görə, kurqanlardan biri e.ə.3932-3363, digəri isə 3680-2925 illərə aiddir (Ko-

реневский С.Н., 2012, s.105). Bu fakt Kür-Araz mədəniyyətinin təşəkkül tarixini bir neçə əsr qədimləşdirməyə imkan verir.

Son illərin tədqiqatları Cənubi Qafqaz ərazisində Kür-Araz mədəniyyətinin indiyə qədər düşünüldüyündən daha qədim olduğunu söyləməyə əsas verir. Belə ki, 2007-2011-ci illərdə Qərbi Azərbaycanın Aknaliç kəndi (Armavir rayonu) yaxınlığında tədqiq edilmiş 5 və 6 №-li kurqanlardan əldə edilmiş materialların radiokarbon analizi göstərmişdir ki, onlardan biri e.ə. 3,633–3,355, digəri isə e.ə. 3,627–3,104-cü illərə aiddir (Muradyan F., 2014, s. 348).

**Radiocarbon date of the sample from the Kurgan N5.**
**Sample Radiocarbon Age (BP) δ13C (‰)**
**LTL13060A 5377 ± 50 -19.1 ± 0.7**

Erməni alimlərin gəldikləri son və yekdil qərar budur ki, bu kurqanlar orta eneolit dövrünə aiddir və Kür-Araz mədəniyyətinin tipik abidəsidir. Hərçənd ki, bəzi analizlər e.ə. 4,340–4,050 illər tarixini göstərməkdədir (Muradyan F., 2014, s. 347).

Beləliklə, Kür-Araz mədəniyyətinin orta eneolit dövründə təşəkkül tapdığını qeyd etməyin, Seyidli (Dostiyev və b., 1990, s. 25), Soyuqbulaq (Мусеибли Н., 2007, с. 65-69) və Kavitsxevi (Makharadze Z., 2007. p. 33-54; Makharadze Z., 2008. p. 152-160) kurqanlarını da bu mədəniyyətə daxil etməyin daha doğru olacağını düşünürük.

Məlum olduğu kimi, Cənubi Qafqazda hələ kurqan mədəniyyəti peyda olmamışdan öncə Güney Qafqazda ölüləri, eynən Çatalhöyükdə olduğu kimi, yaşayış yerlərinin döşəmələrinin altında və ya evlərin həyətlərində basdırardılar. Ölülər əksər hallarda «tək və bükülü vəziyyətdə basdırılmışdır, ancaq az da olsa, kollektiv dəfn adətinə rast gəlmək mümkündür. I Kültəpədə olduğu kimi, Babadərviş və Əliköməktəpə abidələrində də qəbirlərdən oxra tapılmışdır» (Göyüşov, 1986, s. 30). B. Kuftin hələ 1944-cü ildə həmin dövrə aid maddi mədəniyyət nümunələrini xüsusi qrupda birləşdirərək, onlardan «Kür-Araz eneoliti» kimi söz açmışdır (Куфтин Б.А., 1944). Fikrimizcə, o tamamilə haqlı idi.

Bu fakt bizə türklərin ən azı orta eneolitdən etibarən Qafqaz ərazisində yaşadıqlarını söyləməyə əsas verir. Lakin bu R1a və

R1b haploqruplarının Qafqazdan Konya düzənliyinə köç etdiyini iddia etməyə əsas vermir.

## Azərbaycan türklərinin genetik yapısı və Leylatəpə mədəniyyətinin Şərqi Anadolu ilə bağlılığı

Qafqaz türklərinin genetik yapısının öyrənilməsi işində bir çox alimlərin böyük xidmətləri olmuşdur. Onların apardıqları autosm DNT və klassik markerlər (Bulayeva et al., 2004, 2006; Почешхова, 2008; Боготова, 2009; Caciagli et al., 2009; Литвинов и др., 2008;); mitoxodrial DNT markerləri (Бермишева и др., 2003, 2004; Nasidze et al., 2003; Nasidze et al., 2004; Почешхова Э.А., 2008; Кутуев, 2009); Y-xromosomlar (Nasidze et al., 2003; Nasidze et al., 2004; Underhill et al, 2010; Bulayeva et al., 2006; Caciagli et al., 2009; Mirabal et al., 2009; Боготова, 2009; Кутуев и др., 2010) istiqamətində tədqiqatlar türklərin Qafqazdakı yazıya qədərki və yazı sonrası genetik tarixini və miqrasiyalarını öyrənmək baxımından çox böyük önəm daşıyır.

Azərbaycan Respublikasında sistemli və əsaslı genetik analizlər aparılmadığından bizim genetik yapımız haqqında məlumatları Rusiya alimlərinin Dağıstan (Dərbənd) azərbaycanlıları üzərində apardıqları tədqiqatlardan öyrənmiş oluruq. Həmin tədqiqatlardan belə məlum olur ki, bu gün də Azərbaycan türklərinin genetik yapısında, Kür-Araz mədəniyyəti və «Kür-Araz eneoliti» dövründə olduğu (Iosif Lazaradis et al) kimi, R1b Y-xromosomu aparıcı yer tutur.

Qafqazın 6 türk xalqının – azərbaycanlıların, balkarların, qaraçaylıların, qaranoqayların, qumuqların və noqayların Y-xromosom markerlərinin (N=870) genişləndirilmiş vahid panel (58 SNP və 17 STR) üzrə təhlilini verən R. A. Saxalyaxo genetiklər arasında R1b-M343 haploqrupunun 18 nəsil budağını ilk dəfə təsnif etmiş və göstərmişdir ki, qaranoqaylarda müşahidə edilən R1b1a1-M73 variantı mənşə etibarı ilə Asiyanın geniş çölləri ilə bağlıdır və Qafqaza Asiya çöllərindən gəlmişdir. Alimin yazdığına görə, osetinlərin və Abxaz-Adıq qrupu xalqlarının (abxazlar, abazalar, adıqlar, çərkəzlər, kabardalılar və şapsuqlar) genetik yapısında dominantlıq təşkil edən G2a-P15 haploqrupuna sa-

dəcə qaraçay və balkarlarda rast gəlinir. Digər dörd türk xalqında həmin haploqrup müşahidə edilmir və ya da olduqca önəmsiz dərəcədədir (Схаляхо Р. А., 2013, с. 4). Bu isə qaraçay və balkarların digər türklərdən fərqli olaraq, adı çəkilən qonşu xalqlarla iç-içə yaşamasından, əsirlərlə qız verib-almasından qaynaqlanır. Azərbaycan və qumuq türklərində isə R1b və R1a haploqrupları ilə yanaşı önəmli ölçüdə Nax-Dağıstan xalqları (çeçen, inquş, ləzgi, dargin, lak, tabasaran və s.) üçün xarakterik olan J1-M267 və J2a-M172 haploqrupları da maşahidə edilir. Noqaylarda və qaranoqaylarda, digər dörd türk xalqında rast gəlinməyən N1-LLY22 və C-M130 haploqrupu da qeydə alınıb ki, bu da onların yerli olmadığını, Qafqaza Şərqi Avrasiya çöllərindən gəldiyini təsdiq edir (Схаляхо Р. А., 2013, с. 4).

Qaraçay və balkarların genetik kodları onların Çuxur mədəniyyəti – Döyüş baltaları mədəniyyəti – Kərtmə mədəniyyət – İskit, sak, sarmat və alan mədəniyyəti – xəzər mədəniyyəti xətti ilə Qərbi Avrasiyanın eneolit mədəniyyətinin birbaşa varisləri olduqlarını və ən azı həmin dövrdən, yəni eneolit dövründən Şimali Qafqazda yaşadıqlarını sübut edir və bu nəticə heç bir şübhə doğurmur.

Eyni sözləri genetik baxımdan «Kür-Araz eneoliti»nin birbaşa genetik varisləri (Iosif Lazaradis et al) olan Azərbaycan türkləri üçün də söyləmək mükündür. Biz də bu ərazilərdə ən azı eneolit dövründən məskunuq. Arxeoloqlara inansaq, babalrımız bu ərazilərə «Kür-Araz eneoliti» dövründə Şimali Mesopatamiyadan, başqa sözlə, Şərqi Anadoludan köç etmişlər. Onların fikrincə, elm aləmində «Leylatəpə mədəniyyəti» adı ilə tanınan mədəniyyət bilavasitə həmin köçün nəticəsində peyda olmuşdur.

Onların bu fikri genetiklərin fikri ilə üst-üstə düşür. Belə ki, tədqiqatlar göstərir ki, Azərbaycan və qumuq türklərində dominant olan R1b haploqrupunun R1b1a2a-L23 və R1b1a2-M269 variantları (haplotipləri) Ön Asiya (Şərqi Anadolu) mənşəlidir. Qaranoqaylarda müşahidə edilən R1b1a1-M73 haplotipi isə Azərbaycan və qumuq türklərində dominantlıq təşkil edən R1b1a2a-L23 və R1b1a2- M269 haplotiplərindən fərqli olaraq, Ön Asiya mənşəli deyil, Şərqi Avrasiya mənşəlidir (Схаляхо Р. А., 2013, с. 13-15).

Qafqaz arxeologiyasının ən mühüm elmi problemlərindən birinin xalkolit (eneolit) dövrünə aid Leylatəpə mədəniyyətinin tədqiqi olduğunu bildirən N.Müseyibli yazır ki, İ.Nərimanov tərəfindən Qarabağda eyni adlı yaşayış məskəninin qazıntısı nəticəsində XX əsrin 80-ci illərində müəyyən edilmiş Leylatəpə arxeoloji mədəniyyəti (Нариманов И.Г., 1985, 271-272), son illərə qədər demək olar ki, yalnız bir abidə əsasında məlum idi. «Son illər ərzində Azərbaycan ərazisində bu mədəniyyətə aid çoxsaylı abidlər aşkara çıxarılmış və qazıntılar aparılmışdır. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin çəkilişi ilə əlaqədar aparılan arxeoloji qazıntı işlərini xüsusilə qeyd etməl lazımdır. Bu layihə çərçivəsində aparılan çöl tədqiqatları zamanı 2004-2005-ci illərdə Azərbaycanın qərb bölgəsində I Böyük Kəsik, I Poylu, II Poylu, Ağılıdərə kimi yaşayış yerləri, Cənubi Qafqaz arxeologiyası üçün ilk dəfə olaraq eneolit dövrünə aid Soyuqbulaq kurqanları aşkar edilərək qazıntı işləri aparılmışdır» (Müseyibli N., 2011, s. 22).

Alimin yazdığına görə, Azərbaycanın qərb bölgəsində Leylatəpə mədəniyyətinə aid çoxsaylı abidələrin aşkar olunması son eneolit dövründə - e.ə. IV minilliyin I yarısında daha geniş arealda intensiv şəkildə yayıldığını göstərir. «Digər tərəfdən, həm qazıntıların aparıldığı, həm ilkin kəşfiyyat işlərinin aparıldığı abidələrin… keramika məmulatının əsas xüsusiyyətləri bu abidələrin və bütövlükdə Leylatəpə mədəniyyətinin bir tərəfdən Ön Asiya, digər tərəfdən isə Şimali Qafqazın Maykop mədəniyyəti ilə bağlı olduğunu sübut edir. Saxsı qabların tipoloji olaraq ən yaxın paralelləri Şərqi Anadolu – Şimali Mesopatamiya bölgələrindəki Arslantəpə, Təpə Qavra, Tel Xəznə və s. abidələrindən məlumdur. Maykop mədəniyyətinin erkən mərhələsinə aid demək olara ki, bütün abidələrdən belə qablar, o cümlədən üzərində «dulusçu işarələri» (damğalar – B. T.) olan qablar (Кореневский С. Н., 1999, 7-23; Мунчаев Р. М., 1975) aşkar edilmişdir (Müseyibli N., 2011, s. 25-26).

Arxeoloqların əksəriyyəti bu fikirdədir ki, Leylatəpə mədəniyyəti öz köləri etibarı ilə Übeyd və erkən Uruk mədəniyyəti ilə bağlıdır. Q. Qoşqarlının sözlərinə görə, Böyük Kəsik 1, Böyük

Kəsik 2, Poylu 1, Poylu 2 və Ağılı Dərədən üzə çıxmış mədəni təbəqələr Übeyd və erkən Uruk mədəniyyətindən məlum olan mədəni təbəqələrlə bənzərlik təşkil edir (Гошгарлы, 2005, с. 74).

T.Axundov və X.Alməmmədov da eyni fikirdədirlər. Onlar yazırlar ki, IV minilliyin ikinci rübündə və ortalarında Şimali Mesopatamiyadan Güney Qafqaza gələn Uruk ənənələrinin daşıyıcıları əvvəlcə Leylatəpə mədəniyyətinin formalaşmasına təkan vermiş, bundan sonra Şimali Qafqaza miqrasiya edərək orada Maykop mədəniyyətinin əsasını qoymuşlar (Ахундов, Алмамедов, 2009, с. 33-34).

F.Quliyev isə qeyd edir ki, Böyük Kəsik qəsəbəsində tapılan saxsı qab qalığı ilə Uruk keramikası arasındakı eynilik mədəni əlaqələrdən xəbər verir (Гулиев, 2005, с. 82).

Arxeoloqların gəldiyi bu nəticə genetiklərin gəldikləri nəticələrlə bütünlüklə üst-üstə düşür və maraqlıdır ki, dilçi və folklorçu alimlərin gəldikləri nəticələr də onların fikirlərini təsdiqləyir.

Dövrümüzədək ilk Uruk hökmdarı Bilqamıs (// Qilqamısın) haqqında qədim bir şumer dastanı gəlib çatmışdır. Orada təsvir edilən bəzi adət və ənənələrin bugünə qədər Azərbaycan xalqı arasında yaşamaqda olması adamı heyrətə gətirməyə bilmir. Məsələn, Azərbaycanda, eləcə də digər türk ölkələrində bir kəsi yola salarkən arxasınca su atmaq adəti yaşamaqdadır. Belə hesab olunur ki, yolçunun arxasınca su atmaq yolun uğurlu olmasına kömək edir. Şumer ədəbiyyatının şah əsəri olan "Bilqamıs" dastanında eyni adət və inancın izlərinə rast gəlinmişdir:

Sabunlu köklər ilə bədənini yudu o.
Öz qamətinə layiq gözəl paltar geydi o.
Sinəsinə yaraşan boyunbağı da asdı
Belinə qurşaq vurub, başına tac qoydu o.
İgidlərin ardınca bir cam təmiz su atdı.
Pillələrlə çıxıb o evin damına qalxdı

(Bilqamıs dastanı, 1985, s. 32).

Başqa bir misala baxaq. Folklorşünas alim B. Abdullayevin yazdığına görə, qədim zamanlarda ölənin yaxın adamları saçlarını yolub onun üstünə qoyarmışlar. Saçın insanın həyatını, ömrü-

nü təmin edən, hətta öləndən sonra onu dirildən vasitələrdən olması barədə miflər var (Vəliyev, 1985, s. 112).

Eyni mövzuya toxunan Ə.Haqverdiyev isə yazır ki, qədim Azərbaycanda ölən qəhrəmanlar üçün ağlamaq bir adət olmuşdur. «Həmin günü camaat bir yerə toplaşardı. Bu toplaşmaya "yuq" deyirdilər. Toplananlar üçün qonaqlıq düzələrdi, xüsusi dəvət olunmuş yuğçular isə ikisimli qopuz çalıb, oynayardılar. Yuğçu əvvəlcə qəhrəmanın igidliyindən danışıb, onu tərifləyirdi. Sonra isə qəmli havaya keçib şanlı qəhrəman üçün ağı deyərdi. Toplaşanlar da hönkür-hönkür ağlayardı... Ölünü ağlamaq, cənazəsi üstündə saç yolmaq adət halını almışdı» (Haqverdiyev, l957, s. 392).

Maraqlıdır ki, eyni adətin izlərinə «Bilqamıs dastanı»nda da rast gəlirik:

O kəslər ağlayar ki, qədim adamlar kimi
səninlə öyünərdi,
O kəslər ağlayar ki, sənə öz süfrəsində
bir vaxt çörək verərdi.
Ayağına ətir-yağ çəkən kəniz ağlayar,
Sənə şərab içirən qulun göz yaşı axar,
Canına zeytun sürtən yava qadın ağlayar.
Sənin məsləhətinlə özünə arvad tapıb,
Nigah otağına ilk qədəm basan ağlayar.
Qardaşların ağlayar, bacı kimi hay salar,
Yaslara batar tamam, nalə çəkib saç yolar! (Bilqamıs dastanı, 1985, s. 64). R. Göyüşov yazır ki, daşdan və gildən düzəldilən insan fiqurları eneolit dövrünün ən maraqlı abidələridir (Göyüşov, 1986, s. 31).

Şübhəsiz ki, eneolit və tunc dövrlərinə aid ən maraqlı mərasimlərdən biri də müxtəlif insan fiqurları ilə bağlı olmuşdur. «Bilqamıs dastanı»nın məzmunundan belə görünür ki, eneolit dövrü sakinləri, eləcə də sonrakı tunc dövründə şumerlər bu gil heykəlləri günəş tanrısı Utuya (akkad variantında Şamaşa) qurban verərmişlər:

Bilqamıs özü gildən bir heykəlcik düzəltdi.
Sonra taxtadan böyük bir masa da çıxartdı.

Əqiqdən qayrılmış qabı balla doldurdu.
Lacivərddən düzəlmiş qabı yağla doldurdu.
Masanı bəzəyərək Utu üçün apardı
(Bilqamıs dastanı, 1985, s. 66).

Günəş tanrısı Utunun adı Azərbaycan folklorunda bu yaxın zamanlara qədər "Qodu" şəklində yaşamışdır. Bilqamıs Utuya bal, yağ kimi yeməli şeylər apardığı kimi, Azərbaycanda da Qodu üçün xəmiraşı bişirilməliymyş. Qeydə alınmış "Qodu-Qodu" nəğmələri içərisində bal və yağın xatırlanması da xüsusi maraq doğurmaqdadır:

Qoduya qaymaq gərək,
Qablara yaymaq gərək,
Qodu gün çıxarmasa,
Gözlərin oymaq gərək.
Yağ verin yağlamağa,
Bal verin ballamağa,
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa
(Nəğmələr,inanclar,alqışlar, B.,1986, s. 47).

5 min il öncə Günəş tanrısı Utuya bal və yağ qurbanlığı verən Bilqamıs bu mərasim zamanı gildən heykəl düzəltdiyi kimi, Azərbaycan türkləri də XX əsrin ortalarınadək "Bal verin ballamağa, yağ verin yağlamağa"-deyərək "Qodu-Qodu" mərasimi keçirərkən, müqəvva düzəldərmişlər.

Burada daha iki maraqlı paraleldən də söz açmaq yerinə düşər. Qədim şumer mənbələrində yazılanlara görə, Şumer dövlətinin ilk hökmdarı Etana olmuşdur. Qədim şumerlər onunla bağlı bir dastan da qoşmuşdular və bu dastanın süjeti Azərbaycanda çox məşhur olan Məlikməmməd nağılının süjeti ilə ağlasığmaz dərəcədə üst-üstə düşür. «Dastanda əbədi həyat çiçəyini tapmaq qərarına gələn Etana şah tanrıların məsləhəti ilə yola çıxır və bir quyuya düşür. O orada balaları qartal tərəfindən yeyilmiş ilanın həmin qartalla döyüşünün şahidi olur və ilanı öldürür. Etana qartalın belinə minib göyə qalxır. Göyə qalxanda Etana ilə qartal arasında dialoq baş verir. Quş

qəhrəmana yerə baxmağı və onun nəyə oxşadığını təsvir etməyi təklif edir. Etana yeri öncə xəlbirlə, sonra çörəklə müqayisə edir.

Dastanın yazıldığı gil lövhə qırıq olduğundan onun ardı məlum deyil. Lakin elə bu qədər də söhbətin "Məlikməmmədin" şumer variantından, daha dəqiq desək, prototipindən getdiyinə heç bir şübhə oyatmır. Beləki, bizim qəhrəman da əbədi həyat çiçəyi axtaran Etana kimi, cavanlaşdırıcı almanın dalınca gedir. O da quyuya düşür. O da əjdaha ilə zümrüd quşunun konfliktinin şahidi olur.O da əjdahanı öldürür və quşun belində uçur. Ona da quş yerə baxmağı və nə gördüyünü söyləməyi təklif edir. Məlikməmməd də eynən Etananın verdiyi cavabı verir (Tuncay B., 2013, s. 55).

Bir çox Şərq xalqlarının, ilk növbədə də türk xalqlarının hər il mart ayında sevə-sevə keçirdikləri Novruz bayramının təşəkkülü ilə bağlı ilk yazılı mənbələr 5 min il öncəyə aid şumer mətnləridir ki, bu mətnlərdən eyni bayramı martın 21–də şumerlərin də qeyd eməkdə olduqları və bu bayramın məhsuldarlıq və cobanlar tanrısı Dumuzu şərəfinə keçirildiyi məlum olur. «Şumerlər həmin bayramı eyni tanrının adı ilə Dumuzu bay-ramı adlandırırdılar. Bununla bağlı ayrıca bir mifik süjrt də var idi və həmin süjet barədə Lipin və Belov birgə qələmə aldıqları "Gil kitabələr" adlı kitablarında məlumat verməkdədirlər. Süjetin qısa məzmunu belədir: Yeraltı ölülər dünyasının hakimi Ereşkiqal məhsuldarlıq və çobanlar tanrısı Dumuzunu öz qaranlıq dünyasında əsir edir. Bu səbəbdən də yer üzündə bütün çiçəklər solur, ağacların yarpaqları tökülür. Sevgi tanrısı İninni Dumuzunu xilas etmək üçün yeraltı dünya-ya enir, 7qapı keçir və uzun sərgüzəştlərdən sonra Dumuzunu əsirlikdən xilas edir. Bu martın 21-də baş verir. Həmin gün ağaclar yenidən çiçək açır, təbiət oyanır» (Tuncay B., 2013, s. 71).

Beləliklə, folklorçu alimlərin üzə çıxartdıqları paralellər arxeoloqların və genetiklərin gəldikləri nəticənin düzlüyünü təsdiq etməklə yanaşı, erkən kurqanda dəfn ənənələrinə malik tayfaların mədəni mənsubiyyəti və əlaqələrinə işıq salmaqda önəmli ip ucu verir.

Fikrimizcə, həmin tayfaların mədəni mənsubiyyətinin və əlaqələrinin aydınlaşdırılmasında dilçi alimlərin ortaya qoyduqları dil paralellərinin də əhəmiyyəti bundan az deyildir.

Maraqlıdır ki, alimlərin bəziləri şumer dilini türk dili saymış və bu gün də saymaqda davam edirlər. Məlumat üçün bildirək ki, şumer və türk dillərinin qohumluğu müddəasını ilk dəfə irəli sürənlər görkəmli dilçi alimlər Hommel və Qroznı olmuşlar. Sonralar bu fikir Ə.Cavad, N.Boratav və başqaları tərəfindən daha da inkişaf etdirilmişdir. Bu iş sonrakı dövrlərdə də davam edirilmişdir və bu sahədə görkəmli Azərbaycan dilçisi A.Məmmədov və tanınmış qazax alimi A.Amanjolov, məşhur qazax şairi O.Süleymenov, qaraçay-balkar alimi Miziyev, türkiyəli tədqiqatçı O.N.Tuna və başqalarının əməyini xüsusi qeyd etmək lazımdır.

Ə.Cavad, N.Boratav və M.Miziyev bir çox şumer-türk sözlərinin qarşılıqlı müqayisəsini vermiş və bu dillərin genetik qohum olduqları versiyasını müdafiə etmişlər. O. N. Tuna şumer və türk dillərinin tarixi əlaqəsinə həsr etdiyi əsərində 170-ə qədər şumer kəlməsini türk kəlməsi ilə tutuşdurmuş və linqvistik qanunauyğunluqlar əsasında şumer-türk leksik uyğunluqlarını müəyyən etmişdir. Alim fonetik səs əvəzlənməsi prinsipinə istinad edərək belə nəticəyə gəlmişdir ki, şumer dilində həm qərbi, həm də şərqi türk ləhcə və şivələrinin ünsürlərinə rast gəlinir (Tuncay B., 2013, s. 55-56).

Tanınmış dilçi alim A. Məmmədov yazır ki, şumer dili ilə türk dillərinin tarixi əlaqəsinin mahiyyətini daha aydın duymaq üçün ilk növbədə bu dilləri müqayisə etmək və onları yaxınlaşdıran fonetik, leksik və qrammatik eyniyyətlər bir tərəfdən Şumer dilinin genetik mənşəyini daha obyektiv şəkildə öyrənməyə şərait yaradırsa, digər tərəfdən də türk dillərinə məxsus sözlərin tərkibində daşlaşmış bəzi köklərin arxetiplərini bərpa etməyə tutarlı əsas verir (Məmmədov A, 1989, s. 5).

A.Məmmədov özünün "Şumer-Türk leksik paralelləri" adlı məqaləsində dillərin yaxınlıq səviyyəsini müəyyənləşdirməkdə leksik qatın əvəzsiz rol oynadığını nəzərə alaraq, şumer dili ilə türk dillərinin genetik bağlılığını sübut edən 120 leksik paraleli misal gətirmişdir (Məmmədov A, 1989, s. 5-6).

Şumer-türk paralellərinin və bu paralellər əsasında mədəni əlaqələrinin üzə çıxarılması sahəsində professor Tofiq Hacıyevin

əməyi də yüksək qiymətləndirilməlidir. O, istər fonetika, istər leksika, istər morfologiya və istərsə də sintaktik quruluş baxımından böyük maraq doğuran paralelləri üzə çıxarmağı bacarmışdır (Hacıyev T, 1976, s. 22-23).

## Çuxur (e.ə. IV-III) və Kür-Araz mədəniyyətilərini (e.ə. IV-III minilliklər) quranların genetik analizi onların eyni xalq – protooğuz-qıpçaqlar olduğundan xəbər verir

Türklərin R1b Y-xromosomlarının daşıyıcısı olan hissəsinin, yəni protooğuzların Avropada qurduqları daha bir möhtəşəm mədəniyyət e.ə. 3600-2300-cü illəri əhatə edən, başqa sözlə, son eneolit – ilk tunc dövrlərinə aid olan Çuxur mədəniyyətidir. Bu mədəniyyəti Xavalınsk mədəniyyətininin davamı və birbaşa varisi hesab edirlər. Belə hesab etmək üçün ən əsas arqument hər iki mədəniyyətin eyni coğrafi ərazidə (Cənubi Uraldan Dnesyr çayına və şimali Qafqaza qədər uzanan ərazilərdə) peyda olması, ölülərin kurqanlarda arxası üstə basdırılması, onların üzərinə oxra səpilməsi və R1b haploqrupunun dominant olmasıdır. L. Kleyn 1975-ci ildə bu mədəniyyətin qərb qanadını ayrıca qrup kimi gözdən keçirməyi daha məqsədəuyğun saymış (Клейн Л. С., 1975, с. 297-304), daha sonra onun bu fikrini digər arxeoloqlar da qəbul etmiş və Cuxur mədəniyyətinin qərb qanadını «Bucaq mədəniyyəti» adlandırmağa başlamışlar (Иванова С. В., 2012, с. 18-47).

Cuxur mədəniyyətinin daşıyıcılarının ölülərini kurqanaltı cuxurlarda (qəbir kameralarında) basdırırdılar. Sözügedən mədəniyyət də adını məhz buradan almaqdadır (Мерперт Н. Я., 1974).

«Çuxurçu»lar əsasən yarımköçəri heyvandarlıq və əkinçiliklə məşğul olurdular. Əkinçilikdə əsasən sümükdən (heyvan buynuzlarından) hazırlanmış toxadan istifadə edir, daha çox böyük çay sahillərində saldıqları kənd və kiçik şəhərlərdə yaşayırdılar. Arabanın nə olduğunu bilir və ondan istifadə edirdilər. Şərqi Avropada ən qədim arabalar bu mədəniyyətə və e.ə. III minilliyə aid edilən kurqanlardan tapılmışdır. Bu baxımdan Dneprdə, Odessa vilayətinin Yasski kəndi yaxınlığındakı «Keşikçi təpəsi» (Storojevaya moqila) kurqanını və Orenburq vilayətindəki Şumayev məzarlığını misal çəkmək olar.

Cuxur mədəniyyətinin daşıyıcıları metal əşyalar düzəltmək üçün lazım olan xammalı Qafqazdan əldə edirdilər (Кульбака В., Качур В., 2000).

Sözügedən mədəniyyətinin xarakterik xüsusiyyətləri ölülərin kurqanaltı sərdabələrdə basdırması, meyitlərin qəbrə arxası üstə, dizləri bükülmüş vəziyyətdə qoyulması, üzərlərinə oxra səpilməsi və kollektiv dəfn adətinin ortaya çıxmasıdır. Kurqanlarda çox adam dəfn edilir və əksər hallarda bu müxtəlif vaxtlarda baş verirdi. İnsan sümükləri ilə birlikdə kurqanlarda qoyun, keçi, qaramal, at və qaban sümüklərinə də rast gəlinir. Əsas xarakterik xüsusiyyətlərdən biri də ölülərin arabalarda dəfn edilməsidir. Dunay və Manıç çayları arasındakı düzənlikdə kurqanlardan 160 araba, təkər və ya onların gildən düzəldilmiş modeli tapılmışdır. Bunlardan ən qədimi e.ə. 3200 – cü ilə aid edilir (Кульбака В., Качур В., 2000).

Dördtəkərli arabalar Moldovanın cənub qərbində, Yalpux çayı sahilindəki və Aşağı Dnestr sahillərindəki Mayaki kəndi yaxınlığındakı kurqanlardan, eləcə də İnqulets çayı sahilində, Sofiyevka kəndi yaxınlığında və İnqul adlı yerdəki kurqanlardan aşkar edilmişdir. İkitəkərli arabaların qalıqlarına isə Dnepr şəhəri yaxınlığındakı «Keşikçi təpəsi» (Storojevaya moqila), Kaxovka yaxınlığındakı Pervokonstantinovka və Akkermandakı kurqanlarda rast gəlinmişdir.

Rostov yaxınlığındakı cuxur qəbirdən, Gerasimovka I məzarlığındakı 7 №-li kurqandan, Ural ətəklərindəki Şumayevo II-dən araba təkəri tapılmışdır. Şumayevo OK II/2-dən isə üç təkər əldə edilmişdir. Bir çox qəbirlərdən isə araba və ya təkərin gil modelləri çıxmışdır (Моргунова Н. Л., 2014).

Maraqlıdır ki, yuxarıda Cuxur mədəniyyətinin xarakterik xüsusiyyətləri kimi qeyd edilən əlamətlərin hamısı Cənubi Qafqazın ilk tunc dövrü mədəniyyəti üçün də xarakterikdir və bu da bizə Çuxur mədəniyyətini nüvəsini Kür-Araz mədəniyyəti təşkil edən böyük bir mədəni arealın şimal perifiriyası kimi gözdən keçirməyə imkan verir.

M. Poulmarch L Pecqueur və B. Cəlilovla birlikdə qələmə aldığı bir məqaləsində Kur-Araz mədəniyyəti üçün xarakterik olan

dəfn ənəsindən söhbət açarkən, sözügedən mədəniyyət üçün 5 dəfn abidəsi formasını qeyd edir və bu sıraya daş qutuları, müxtəlif formalı sərdabə tiplərini, nalşəkilli sərdabələri, topaşəkilli daş qalaqları və klassik kurqanları aid edir (Poulmarc'h M. with Pecqueur L. and Jalilov B., 2014, p. 232). Bütün bu formalarana eynilə Çuxur mədəniyyəti, eləcə də ondan öncə həmin ərazidə mövcud olmuş Xvalınsk mədəniyyəti abidələrində də rast gəlinir.

Burada Xvalınsk mədəniyyəti üçün xarakterik olan bir xüsusiyyəti, qəbilə başçılarının qəbirlərindən at başı formasında olan daş skipeterlərin çıxması faktını qeyd etməliyik ki, bənzər skipeter «Kür-Araz eneoliti» dövrünə aid Soyuqbulaq kurqanlarının birindən də çıxmışdır (Лионне Б., Алмамедов К., Буке Л. и др., s. 48-61).

Bənzər skipeter Azərbaycanın ilk tunc dövrünə aid Telmankənd kurqanından da əldə edilmişdir. Üstəlik də bu skipeterin tapıldığı 1№-li Telmankənd kurqanından iki araba təkəri modeli də çıxmışdır (Махмудов Ф.Р., 2008, s.38-40). Maraqlıdır ki, bənzər skipeterlər Çuxur mədəniyyətinin ilk mərhələləri üçün də xarakterik idi.

Rus və Avropa alimləri Cənub-Şərqi Avropanın kurqanlarının tarixini qədimləşdirməyə çalışsalar da, orada da ən qədim klassik kurqanların tarixi «Kür-Araz eneoliti» dövrü kurqanlarının tarixi qədərdir. Yəni həm Qafqazlardan şimalda, həm də cənubda kurqanlarda dəfn adəti təqribən eyni dövdə ortaya çıxıb və onların peyda olması eneolit dövründə Anadolu (P1b) və Cənubi Azərbaycandan (R1a) köçən, öncə Cənubi, daha sonra isə Şimali Qafqazda məskunlaşan və oradan da şərqdə Cənubi Ural, qərbdə Dunay və Karpatlara qədər geniş ərazilərə yayılan qədim türk qəbilələri ilə bağlı olmuşdur. Köçə səbəb isə, çox güman ki, həddən artıq çoxalan at ilxıları üçün yeni otlaqlar və cu mənbələri tapmaq olub. İlxılar əsasən qəbilə başçılarına məxsus olurdu və at başı formalı skipeterlər də onların hakimiyyət, başqa sözlə bəylik (// baylıq) rəmzi idi. Fikrimizcə, burada at kultunun izlərini axtarmaq hələlik yersizdir və bu kult əsasən İlk tunc dövrünün sonları və orta tuncun əvvəllərində peyda olmuşdur ki, bu barədə sırası çatdıqda söhbət açacağıq.

## Eneolit dövrünə aid Soyuqbulaq kurqanlarının radiokarbon analizlərinin nəticələri (N. Müseyibli)

İlk tunc dövründən etibarən köçü asanlaşdıran səbəblərdən biri də arabanın kəşfi idi. Bu barədə F. Ağasıoğlu özünün «9 Bitik» kitabının hələ dərc olunmamış, fəqət istifadə edə bilməmiz üçün böyük lütf göstərərək, bizə təqdim etdiyi IV cildində (IV Bitik, s. 198-203) maraqlı məlumatlar verməkdədir. Onun icazəsi ilə kitabın həmin hissəsini olduğu kimi və bütünlüklə öz kitabımıza daxil etməyi lazım bildik:

«…İlk təkər və arabanın m.ö. IV minildə Urmu-Van gölləri arasında yaranıb III-II minillərdəsə buradan dünyanın digər bölgələrinə yayıldığını yazan uzmanlar (V.G.Childe, T.S.Piggott, Y.A.Şer və b.) o çağda arabanın icadını bəşəriyət üçün böyük texniki tərəqqi sayır, XX əsrdə ilk uzay uçağının verdiyi effekt kimi dəyərləndirirlər.

Türklərin 2 təkərli (kanqlı) və 4 təkərli (kölüngü) arabaları onları daha uzaq yerlərə köç etməsinə imkan yaratdı. Keçə örtülü arabalar isə gələnəksəl olaraq Avrasiya çöllərində saqa-hun-göytürk bolarının etnoqrafiyasında irsi davamlıq kimi sərgiləndi. Minillər boyunca təkmilləşmə aşamaları ilə araba və təkərin müxtəlif türləri yaranmış, arabanın ayrı-ayrı hissələrini bildirən təkər, boyunduruq, ok, okluq, dingil//tingil (araba oxu), arış, gərmə, tilkicə, bağırcaq, aykırı, milməcər (qurdağzı), yağıldırak kimi onlarla söz ortaya çıxmışdır.

İlk təkərlərin hazırlanması üçün lazım olan bərk ağac növü və metal Azərbaycanda bol idi, Azərbaycanın əksər bölgələrində Kür-Araz kulturu və orta tunc dövrünə aid basırıqlarda (kurqanlarda - B. T.) xeyli cəng arabası, təkər-araba modelli fiqurlar, hətta bütöv araba tapılmışdır. Dəclə-Urmu arası bölgələrdə Təpə-Qavra, Hasanlu, Xəzər hövzəsində Telmankənd kurqanı, Təpə-Hisar, Qazaxda Baba-Dərviş, Dağıstanda Vəlikənd, Çemikənd, Naxçıvanda Kültəpə, İrəvan mahalında Lori-qala, Şenqavit, Arıc, Ördəkli və basırıqlarında təkər fiqurlarına rast gəlmək olur. Borçalıda isə bütöv araba tapılmışdır.

Təkər və arabanın ilk dəfə türk boyları tərəfindən yaranması inamı türk eposlarında orta əsrlərəcən davam etmişdir. «Oğuznamə»də deyilir ki, ona qədər təkər yox idi, arabanı ilk düzəldən onlar oldular. Gərək olan yükləri, qənimətləri bu arabalara yükləyib apardılar və bu səbəbdən Oğuz onlara «kanqlı», yəni «arabaçılar», «arabası olanlar» adını verdi.

Göründüyü kimi, uzmanlara görə arabanın 6 minil öncə Urmu-Van arasında yaranması baxışı Oğuzxanın arabaçı boya verdiyi adın Ön Asiya xalqlarının dilində əks olunması ilə örtüşür. Belə ki, akad dilində «xulikanu», «xulukannum», hurri dilində «hulikanni», het yazısında isə «xuliganni» şəklində işlənib yüngül arabanı bildirən sözlərin tərkibidəki «kan//kann» çox güman ki, «kañ//kanq» (araba) ilə bağlıdır, çünki akad dilində xulu «yol» sözü ilə başlanan bu söz (xulu-kanni) «yol arbası» deyiminə uyğun gəlir.

Türklərin quzey və doğu yönlərə köçü də Ön Asiyadakı araba türlərinin o istiqamətlərə aparılması çağı ilə təsdiq olunur. Araba gələnəyinin doğu miqrasiyası Koreyanın quzey-batı bölgəsinə qədər gedib çıxmışdır. Çin yazıları üzrə məşhur alim V. Eberharda görə, Çinə at bəsləmə gələnəyilə bərabər Ön Asiya tipli savaş arabasını da aparan türklər idi. Savaş arabasından başqa, Orta Asiya tipli hündür təkərli araba (kao-ch'ê) növü də Çinə türklərlə keçmişdir. Çin qaynaqları «göytürklərin keçə (örtülü) arabaları var» - deyə, «otaqlı araba» adlanan keçə örtüklü (ch'ê-chang) arabalardan da bəhs etmişlər. Yunanca qaynaqlar eyni görkəmli arabaların qonar-köçər saqa boylarında da olması, belə örtülü ev-arabalarda qadın və uşaqların barınması haqqında bilgilər verir.

İ.M.Dyakonov yazır ki, Avropadan çıxıb Orta Asiya üzərindən İran yaylasına gələn arilər atla deyil, piyada gəlmiş və ilk dəfə savaş arabasını da burada görmüşdülər. Atın və cəng arabasının Hindistana gətirilməsini ari (hind) tayfaları ilə bağlayanların iddiasının doğru olmadığını burada m.ö. 2000 illərə aid Xallur qazıntısnda tapılan yerli cəng arabası, at və at sümükləri aydın göstərdi. Misirdə isə m.ö. XX-XIX əsrlərdə hələ savaş arabaları yox idi, belə arabalar buralarda yalnız hiksosların yürüşündə görünməyə başlayır.

Bəzi yazarlar «araba» sözünü ərəb və ya yunan dilindən alınma sayır, ancaq bu dillərdə onun etimoloji yozumunu verə bilmirlər. Bir sıra tanınmış dilçilərsə (N.K.Dmitriyev, G.Dörfer və b.) ərəblərlə heç bir kontaktı olmayan çuvaş və başqa türk dillərində işlənən araba sözünü türkmənşəli sayır. Belə ki, finuqor, monqol və tunqus-mancur dillərinə türk dillərindən keçən araba sözü ərəb dilinə də keçmişdir. Rus dilinə yükdaşıma və araba ilə bağlı çoxlu türk sözləri keçmişdir, belə ki, «navyuçivat» (yükləmək) deyimindəki «vyuk» (yük) sözündən tutmuş, «arba» (araba), «teleqa» sözlərinə qədər «kibita//kibitka» (üstü qapalı kəbit) və «tabor» (arabalarla dövrələmə qurğu) kimi onlarla söz və belə etnoqrafik sözlər əsasında yaranan xeyli deyimlər vardır. Örnəyin, daşımaqla bağlı «taşıt», «taskat», «taçka», «taçanka» və s. Anadolunun Kaniş şəhərində asur tacirlərinin yazısında «daşımaq» sözü «taşşiatum» kimi verilir. Dörd minil öncəyə (m.ö. XX əsrə) aid bu sözün rus dilində də «taşit» (ташить) şəklində işlənməsinin bir yozumu var, o da hər iki dildə «daşı-« (taşıt) sözünün müxtəlif çağlarda türklərdən alınmasıdır».

Çuxur mədəniyyətində müşahidə etdiyimiz kurqanlara araba yerləşdirmək adəti Cənubi Qafqazın ilk tunc dövrü kurqanlarında da müşahidə edilməkdədir. Bu baxımdan Alazan sahilinin sol sahilində yerləşən 3 №-li Ananauri kurqanını misal çəkmək olar bu kurqandan iki ədəd 4 təkərli araba tapılmışdır (Махарадзе З., 2015, с. 110-111). 5 №-li Qaracəmirli kurqanının kamerasında isə araba qoşqusu qaydası ilə arabaya aid tunc detallar düzülmüşdü (Гусейнова М. А., Алиев И. Н., 2008, s. 113-114).

Kurqana araba və ya onun hər hansı bir detalının, ya da ki modelinin yerləşdirilməsi adətinin qeydə alındığı ən əski kurqanlardan biri də 1 №-li Telmankənd kurqanıdır. Bu abidənin qəbir kamerasında iki araba təkəri modeli aşkar edilib (Махмудов Ф. Р., 2008, s. 38-40).

Bu yenilik sonrakı dövrlərdə Cənubi Qafqazın orta tunc abidələrində, eləcə də Sintaşta, Kərtmə, Andronovo kimi mədəniyyətlərdə davam edir, daha sonrakı dövrlərdə öz davamını iskit, sak, o cümlədən Pazırık kurqanlarında tapır. Orta əsrlərdə isə bu ənənəni qıpçaq və oğuzlar davam etdirirlər. Deyilənlərə Gürcüs-

tanın cənubunda, Trialeti yaylasında yerləşən və e.ə. II minilliyin 2-ci yarısına aid edilən (Куфтин Б. А., 1941, s. 2) kurqanların bir neçəsindən araba tapılmasını, eləcə də. 1956-cı ildə A. Mnasakyan tərəfindən Göyçə gölü yaxınlığında, Ördəkli (Lçaşen) adlı məntəqədə aşkar edilən və e.ə. III-I minilliklərə aid olduqları məlum olan kurqanlarda da iki və dördçarxlı arabalara rast gəlməsini (Мнацаканян А. О., 1960) misal çəkə bilərik.

Çuxur mədəniyyətinin daşıyıcılarının DNT analizləri də onların Şimala Cənubdan, Ön Asiyadan köçdüklərini söyləməyə əsas verir. Son illərdə aparılmış tədqiqatlar nəticəsində onlarda H, H15b1, U5, T2, T1, T1a1, U4, K, W, N1a, J, U2, X, R0a1 mitoxondrial (ana xətti) haploqruplarını üzə çıxarmışdır. Lakin bizi maraqlandıran təkcə ata xətti, yəni mitoxondrial haploqruplar yox, həm də ata xətti, başqa sözlə qadınlarda olmayan, atadan oğula keçən Y-xromosomlardır. Rostov vilayətindəki Ulan IV məzarlığından tapılmış 11 skeletin DNT analizləri onların hamısında R1a haploqrupunu aşkar etmişdir. Onlardan 8-inin R1a12a2, 1-inin R1ba2 M269, bir nəfərinin R1b1a2a-L23 və bir nəfərinin də R1b1a-P297 haplotipinə sahib olduğu məlum olmuşdur (Haak W. et al., 2015; Morten E. Allentoft, et al., 2015; İain Mathieson, et al., 2017).

Bu isə o deməkdir Çuxur mədəniyyətini yaradanlar əsasən Kür-Araz mədəniyyətinin daşıyıcıları olan gəlmələrlə daha öncəki Xvalınsk mədəniyyətinin daşıyıcısı olan yerlilərdən törəmişlər. Bu fikri antropoloqlar da təsdiq edirlər. Onların yazdığına görə, «Cuxurlu»ların önəmli hissəsi eynən «Kür-Arazlı»lar və «Maykoplu»lar kimi dolixokran kəllə quruluşuna sahib idilər (Восточные славяне…).

### Döyüş baltaları və ya qaytan keramikası mədəniyyəti (e.ə. 3200-2300-cü illər): Protoqıpçaq-bulqarlar protooğuzlardan niyə ayrılıb Qərbi Avropaya köç etdilər?

Türklərin Avropada əsasını qoyduqları daha bir mədəniyyət eneolit dövrünün sonları - tunc dövrünün əvvəllərini əhatə edir və elmi ədəbiyyatda «Döyüş baltaları mədəniyyəti» və ya «Qay-

tan keramikası mədəniyyəti» adı ilə tanınır. Bu iki fərqli ad bu mədəniyyətə xas iki xarakterik xüsusiyyətdən qaynaqlanır:

1. Kurqanlarda, böyrü üstə basdırılan ölülərin yanına daş və ya metal balta qoyular, bəzənsə balta meyitlərin əlinə verilərdi.

2. Bu mədəniyyətə xas keramikada ən çox istifadə edilən bəzək növü qaytan şəklində idi.

Şərqdə Çuxur mədəniyyəti ilə həmsərhədd olan bu mədəniyyət Orta, Şimali və Qərbi Avropanın geniş ərazilərini əhatə etmiş, sonrakı dövrlərdə törəmə mədəniyyətlər şəklində cənuba doğru yayılmışdır. Aparılan genetik analizlər sayəsində Döyüş baltaları mədəniyyətinin əsasını bir neçə əsr öncə Yaxın Şərqdən (Cənubi Azərbaycan və Şərqi Anadoludan) gələn, Xvalınsk mədəniyyətinin qurulmasında protooğuzlarla (R1b) birlikdə iştirak edən protoqıpçaq-bulqar mənşəli (R1a) tayfalarla (79 %) Avropanın qədim daş dövrü qəbilələrinin (21%) birlikdə qurduqları məlum olmuşdur (Haak W. et al., 2015; İain Mathieson, et al., 2017; Morten E. Allentoft, et al., 2015).

Sözügedən mədəniyyətin daşıyıcılarının bir qismi əkinçilik və oturaq maldarlıqla məşğul olur və kiçik kəndlərdə yaşayırdılar. Sənətkarlıq, xüsusən də dulusçuluq, toxuculuq, metallurgiya inkişaf etmişdi. Bununla belə, əhalinin böyük hissəsi yarımköçəri və köçəri həyat tərzi sürüdü. Qoyunçuluqla məşğul olan əhali yaylaq-qışlaq həyat tərzi keçirir, at bəsləməklə məşğul olanlar üçünsə daha çox köçərilik xarakterik idi.

Ölülər böyrü üstə, bükülü vəziyyətdə basdırılardı. Kişilər təqribən 1 m dərinliyində qazılan çuxur qəbirlərə sağ, qadınlar isə sol böyrü üstə qoyulardı. Meyitlərin üzü, bir qayda olaraq, cənub istiqamətinə yönləndirilirdi. Qəbirlərin üzərində çox da hündür olmayan kurqanlar qurulurdu. Bəzənsə kurqan örtüyü olmazdı (Кренке Н. А., Ершов И. Н., Лазукин А. В., Войцик А. А., Раева В. А., Рожанская Н. И., 2013, с. 14-29).

Almaniya və İsveçrə ərazisindəki qəbirlərdən əldə edilmiş skeletlərdən götürülmüş DNT nümunələri üzərində aparılan analizlər Döyüş baltaları mədəniyyəti qəbilələrinin HV, H, I, J, K, T, U, W, X mitoxondrial (ana xətti) haploqrupunun daşıyıcısı ol-

duqlarını (Русакова E., 2016) üzə çıxarmışdır ki, bu da həmin mədəniyyəti Xvalınsk və Cuxur mədəniyyətləri ilə qohum mədəniyyətlər sırasına daxil etməyə imkan verir.

DNT Y-xromosomların (ata nəsli) müəyyənləşdirilməsi istiqamətində aparılmış analizlər nəticəsində mədəniyyətin yayıldığı ərazilərin əksər hissəsində yaşayan qədim əhalinin böyük qisminin R1a1 haploqrupunun daşıyıcısı olduğu müəyyən edilmişdir. Bu nəticəyə Esperştedtdən tapılmış 1 (Esperstedt, № I0104) (Haak W. et al., 2015) və Eylaudan (Eulau) üzə çıxmış (İain Mathieson, et al., 2017) 2 skeletdən götürülmüş DNT nümunələrinin analizi sonucunda gəlinmişdir. Polşadakı Leki Male yaxınlığındakı məzardan götürülmüş nümunənin analizi də eyni nəticəni vermişdir. Həmin ərazidə, e.ə. 2286-2048-ci illər arasında yaşamış insanın skeleti üzərində aparılmış tədqiqatlar onun da R1a (R1a1a1-M417) haploqrupuna sahib olduğunu ortaya qoymuşdur (Morten E. Allentoft, et al., 2015).

Estoniyanın iki müxtəlif yerindən (Ardu и Kunila) əldə edilmiş 4 qədim insan qalığının üçünün R1a-Z645, birinin isə R1a1a1-Z283 haploqrupunun daşıyıcısı olduğu məlum olmuşdur (Lehti Saag et al, 2017; Alissa Mittnik et al, 2017).

Maraqlıdır ki, Çuxur mədəniyyəti təmsilçilərinin hamısından R1b haploqrupu çıxdığı, R1a-nın izinə rast gəlinmədiyi kimi, Döyüş baltaları mədəniyyəti təmsilçilərinin də hamısının R1a haploqrupuna sahib olduğu və bu ərazidə R1b-yə rast gəlinmədiyi müşahidə edilmişdir.

Bu isə o deməkdir ki, Xvalınsk mədəniyyəti dövründə protooğuzlarla (R1b) bir yerdə yaşayan, Avropaya da Cənubi Qafqazdan onlarla bir yerdə köç edən protoqıpçaq-bulqarlar hansısa səbəbdən, təqribən e.ə. 3200-cü illərdə əski yurd yerini tərk edərək Qərbə üz tutmuşdularr. Əski yurd yerində qalan protooğuzlar Cuxur, Qərbə köç edən protoqıpçaq-bulqarlar isə Döyüş baltaları mədəniyyətlərinin əsasını qoymuşlar. Bu mədəniyyətlərin hər ikisini Xvalınsk mədəniyyətinin varisi hesab etmək olar. Hərçənd ki, Cuxur mədəniyyətinin formalaşmasında Cənubi Qafqazdan Şimala köç edən Kür-Arazlılar da önəmli rol oynamışlar. Protoqıp-

çaq-bulqarların əski yurd yerlərini tərk etməsinə səbəb, bəlkə də, Cənubi Qafqazdan yeni protooğuz axınının olması səbəb olmuşdur.

Burada bir maraqlı məqama xüsusi diqqət etmək lazımdır. E.ə. 3200-ci illərdə R1a və P1b-lilər təkcə ərazicə bir-birilərindən ayrılmamış, eyni zamanda, fərqli kultlara sitayiş etməyə başlamışlar. Bu, birincilərin kurqanlara araba, araba təkəri və ya da onların modelini, ikincilərin isə daş baltalar qoymağa başlaması şəklində özünü göstərmişdir.

Bu nə deməkdir?

Qoyulan sualın cavabını tapmağa bizə əski türk mifologiyası yardımçı ola bilər. Məsələ burasındadır ki, neolit və eneolit dövrlərində həm R1a-lılar, həm də R1b-lilər üçün əsas tapınaq obyekti rolunda bir növ birləşdirici funksiyanı yerinə yetirən Ana ilahə (Ağ Ana Ürünq Ayığ Toyon) çıxış edirdi (Ксенефонтов, 1977, с. 97). Eneolit dövrünün sonlarına yaxın bu kult tədricən öz əhəmiyyətini itirməyə başlamış və görünür, tunc dövründən etibarən onun köməkçiləri rolunda çıxış edən əyələr (ayılar) daha üstün vəziyyətə gəlmişlər.

Əldə olan məlumata görə, kurqanların forma və quruluşu, ora qoyulan əşyalar arasındakı fərqlər ölən şəxsin hansı qəbiləyə məxsus olmasından qaynaqlanırmış. Bunun isə səbəbi, fikrimizcə, fərqli qəbilələrin özlərini hansı əyə ilə sıx əlaqədə görməsindən, onu öz himayəçisi hesab etməsindən irəli gəlirdi (Капуновская, 1935, с. 178-182).

Belə görünür ki, təqribən tunc dövründən etibarən, yəni Ağ ana kultu öz əhəmiyyətini itirdikdən sonra protooğuzlar onun köməkçilərindən biri olan Cesegey ayıını (Cesegey əyəni) özlərinə himayəçi ruh seçmişdilər. Belə hesab edilirdi ki, bu əyə atçılığın himayədarıdır və insanlara at əhliləşdirməyi, minməyi və arabaya qoşmağı, eləcə də ətindən, südündən, dərisindən istifsdə etməyi o öyrətmişdir (Ксенефонтов, 1977, с. 97). Protooğuz qəbilə başçılarının (bəylərin) hakimiyyət rəmzi rolunda at başlı skipeterlərin çıxış etməsi, onların qəbirlərinə bu əşyanın, eləcə də arabaların və ya da araba təkərlərinin qoyulmasının səbəbini yalnız bununla izah etmək mümkündür. Protoqıpçaq-bulqalar isə, belə görünür ki,

özlərinə himayəçi ruh qismində Ağ ananın başqa bir köməkçisini - Sügə toyonu (tərcüməsi "Balta ağa") seçmişdilər. Əsas simvolu balta olan bu əyənin ildırımların və şimşəklərin hakimi olduğuna inanılırdı (Ксенефонтов, 1977, c. 97). Fikrimizcə, Döyüş baltaları mədəniyyətinin xarakterik xüsusiyyətlərindən biri olan daş və ya metal baltaların kurqanlara qoyulması adəti belə yarana bilərdi.

Əlbəttə, Ceseqey ayıı kultunun atın əhliləşdirilməsindən, Sügə toyon kultunun da «sügə» (bu söz rus dilinə «sekira» formasında keçib) tipli xüsusi balta növünün icadından öncə ortaya çıxdığını düşünmək qeyri-ciddi olardı. Qədim türklərdə ayıların (əyələrin) böyük əksəriyyətinin əcdad kultu ilə bağlı olduğunu, yəni ölən əcdadların ruhunun fetişləşdirildiyini nəzərə alsaq, həm Ceseqeyin, həm də Sügənin real şəxslər olduğunu, onlardan birincisinin tarixdə ilk dəfə atı əhliləşdirdiyini, digərinin isə ilk döyüş baltaları hazırladığını böyük ehtimalla düşünmək olar.

Maraqlıdır ki, bu yolla gedərək, yəni Türk mifologiyasındakı əyələr sistemini dərindən öyrənərək, tarixdə bu və ya digər kəşfə və icada imza atmış real şəxsiyyətlərin adlarını və bu şəxsiyyətlərin hansı Türk soy və ya boyundan olduğunu çətinlik çəkmədən aydınlaşdırmaq olar. Qədim türklər bu məlumatları əfsanələşdirərək, mifoloji dona bürüyərək nəsildən nəslə ötürmüşlər və dövrümüzədək gəlib yetişən həmin süjetlərin böyük bir hissəsi XIX-XX əsrlərdə folklorşünas və etnoqraflar tərəfindən qeydə alınmışdır.

Arxeoloqlar aşağıdakı mədəniyyətləri Döyüş baltaları mədəniyyətinin davamı və birbaşa varisi hesab edirlər:

1. Untets mədəniyyəti (e.ə. 2300-e.ə. 1600-cü illər). Mərkəzi Avropada mövcud olmuşdur. Onun lokal variantlarına Adelberq və Ştraubinqdə, eləcə də Macarıstanda rast gəlinmişdir (Племена Европы и Азии).

2. Nordik (Şimali) Tunc mədəniyyəti (e.ə. 1700-e.ə. 500-ci illər). Danimarkanı və Skandinaviya yarımadasının cənubunu və qərbini əhatə etmişdir (Demakopoulou K., 1999).

3. Stjijov mədəniyyəti (e.ə. II minillik). Ukrayna və Polşa ərazisini əhatə etmişdir (Седов В. В., 2002).

4. Sosnitsk mədəniyyəti (e.ə. II minillik). Rusiyanın Cerniqov, Kursk və Bryansk vilayətlərində mövcud olmuşdur (Седов В. В., 1999, с. 273).

5. Kurqan məzarları mədəniyyəti (e.ə. 1600-e.ə. 1200-ci illər). Bavariya və Vürtemberq istisna olmaqla, Untets mədəniyyətinin yayıldığı ərazilərdə onun davamı kimi mövcud olmuşdur. (Burada bir məsələyə xüsus diqqət yetirmək və bu mədəniyyəti IV-VI əsrlərdə Yaponiya ərazisində mövcud olmuş eyni adlı mədəniyyətlə qarışıq salmamaq lazımdır. Maraqlıdır ki, kurqanlar Yaponiyaya da gedib çıxmışdır və oradakı kurqanları hun və göytürklərlə bağlayırlar) (Barbara Ann Kipfer, 2000).

6. Yastorf mədəniyyəti (e.ə. 600-e.ə. 300-cü illər) Danimarka və Almaniya ərazilərində mövcud olmuşdur. Bu mədəniyyəti Nordik Tunc mədəniyyətinin fərqli variantı hesab edirlər (Седов В. В., 2002).

7. Tşinetsk mədəniyyəti (e.ə.XIX-XI əsrlər). İzlərinə Polşa, Ukrayna, Belorus və Rusiya ərazisində rast gəlinmişdir (Gardawski A., 1959, s. 7-189).

8. Lebedovsk mədəniyyəti (e.ə. XI-VIII əsrlər). Ukraynanın Çerniqovsk və Sumsk vilayətlərini əhatə edib. Bu mədəniyyətin Sosnitsk mədəniyyətindən törədiyi və onun davamı olduğu hesab edilir (Жаров Г. В. Жарова Т. Н.).

9. Məzar küpləri mədəniyyəti (e.ə. 1300-750-ci illər). Polşa və Almaniyadan İspaniyaya qədər geniş bir ərazidə yayılmışdır. Bu mədəniyyətin təmsilçiləri ölüləri yandırar və kulünü küpdə basdırardılar. İlk dövrlərdə məzarın üstü kurqan örtüyü ilə örtülsə də, sonrakı dövrlərdə kurqan adəti bütünlüklə tərk edilmişdir. Bu onu göstərir ki, həmin dövrdə həmin ərazilərdə yaşayan türklər dinlərini dəyişmiş və yerlilərin adət-ənənəsini və dilini qəbul etmişlər. Fikrimizcə, türk genli hinavropalıların tarixinin başlanğıcı bu mədəniyyətlə bağlı ola bilər (Fokkens Harry, 1997, pp. 360-373).

10. Pşevorsk mədəniyyəti (e.ə. II-b.e. IV əsrlər). Polşa ərazisində mövcud olmuşdur (Седов В. В., 2002).

11. Miloqradsk mədəniyyəti (e.ə. VI-I əsrlər). Qomel vilayətinidə mövcud olmuşdur (Лошенков М. И., 2011).

12. Yuxnovsk mədəniyyəti (e.ə. V- b.ə. II əsrlər). Ukraynanın Çerniqovsk, Rusiyanın Bryansk, Kursk və Orlov vilayətlərini əhatə etmişdir (Moopa X. A., c. 25).

13. Viplan mədəniyyəti (e.ə. XI-VII əsrlər). İtaliyanın şimalını və mərkəzini əhatə etmişdir (Гордон Чайлд, 2010 г).

14. Halştat mədəniyyəti (e.ə. IX-IV əsrlər) Mərkəzi Avropa və Balkanları əhatə edirdi (Megav J. V. S., 2005, p. 65-74).

15. Velbar mədəniyyəti (II-V əsrlər). Polşanın şimalını və Belorusun cənub-qərbini əhatə etmişdir (Juras Anna) və s.

Beləliklə, e.ə. 3200-ci illərdə, protoqıpçaq-bulqarların Avropanın şərqindən qitənin mərkəzinə, qərb və şimal hissələrinə kütləvi axını baş vermiş, onlar zamanla cənuba da yayılaraq öz genlərini bütün Avropa ərazisinə yaymış, özləri isə tədricən yerli xalqların içində ərimişlər. Nəticədə türklərə məxsus R1a Y-xromosomu avropalıların genetik yapısında önəmli yerə sahib olmuşdur. Bu işi sonrakı dövrlərdə hunlar davam etdirmişlər.

Genetiklərin molekulyar hesablamalarına görə, R1a və R1b Y-xromosomlarının ümumi əcdadı hesab edilən R1 haploqrupu təqribən 22 800 il öncə Asiyada, böyük ehtimalla Ön Asiyada peyda olmuş və bir neçə dalğa şəklində bütün Avrasiyaya yayılmışdır (Корниенко И. В., Водолажский Д. И., 2013).

Alimlərin fikrincə, təqribən e.ə. III minillikdə ən önəmli dalğa baş vermiş və onun başlanğıc nöqtəsi Qara dənizin şimal sahilləri olmuşdur. R1a haploqrupuna ən çox hazırda Monqolustanda yaşayan və artıq monqol dilində danışan, fəqət XX əsrin otalarına qədər türkcə danışdığı məlum olan xotənlərdə (80 %) və qırğız türklərində (63 %) rast gəlinib.

Təqribən 4-4,5 min il öncə R1a1a1b2-Z93 haplotipinin «partlayış»ı baş vermişdir. Bu Y-xromosomun arxeoloji qalıqları daha çox iskit və xəzər kurqanlarından tapılmış skeletlər üçün xarakterikdir. Hazırki təmsilçiləri qaraçay və balkarlar, eləcə də tatar və başqırdlardır (Peter A. Underhill, G. David Poznik, Ornella Semino, Levon Yepiskoposyan, Oleg Balanovsky, Elza K. Khusnutdinova, Jacques Chiaroni, Toomas Kivisild et al., 2015, p.124–131).

## Soyuqbulaq, Üçtəpə və Telmankənd kurqanları etnik tariximizin aynası kimi

E.ə. IV minillikdə Azərbaycan ərazisində peya olan və radiokarbon analizləri nəticəsində bölgənin ən qədim kurqanları kimi qəbul edilən dəfn abidələri 11 №-li (2005) Soyuqbulaq kurqanı (e.ə. 3930-3760-cı illər), Üçtəpə kurqanı (e.ə. 3932-3363-ci illər), 8 №-li (2005) Soyuqbulaq kurqanı (e.ə. 3790-3710-cı illər), eləcə də 14 (2005, e.ə. 3700-3640-cı illər) və 9 №-li Soyuqbulaq (2005, e.ə. 3650-3639-cu illər) kurqanlarıdır. Digər Soyuqbulaq kurqanları e.ə. IV minilliyin ortalarına aiddir.

Bu və ümumiyyətlə e.ə. IV minilliyə aid olan kurqanlardan mövzumuz baxımından bizim üçün ən önəmliləri Üçtəpə, 1 №-li (2006) Soyuqbulaq və 1 №-li Telmankənd kurqanlarıdır. Həmin kurqanların hər birindən at başlı skipeter tapılmışdır ki, bu da həmin kurqanlarda dəfn edilmiş şəxslərin qəbilə başçısı, başqa sözlə bəy (bəlkə də xan) olduğunu, qəbiləyə məxsus at ilxısının onun nəzratinədə olduğunu göstərir.

Üçtəpə və 1 №-li Telmankənd kurqanlarının önəmi isə ondadır ki, onlarda daş baltalara rast gəlinib ki, bu da Sügə toyon (Balta ağa), deməli, həm də Ceseqey ayıı kultlarının artıq e.ə. IV minillikdə formalaşmağa başladığını, Ağ ana kultunun öz önəmini itirmisinin də təqribən eyni dövrdə baş verdiyini söyləməyə əsas verir. Bundan başqa, Döyüş baltaları mədəniyyətinin köklərinin Cənubi Qafqaza uzandığını söyləyə bilərik. Üstəlik də 1 №-li Telmankənd kurqanında dəfn edilmiş mərhumun sağ böyrü üzərində, bükülü vəziyyətdə uzadılmış olması bu kurqanın R1a Y-xromosomunu daşıyan protoqıpçaq-bulqarlara aid olduğundan xəbər verir.

Konik formalı bu kurqan Bakı-Astara şosse yolunun yaxınlığında aşkar edilmişdir. Onun örtüyünün hündürlüyü 2.3 m, diametri 14 m, daş kromlexinin diametri isə 6.9 m. idi. Kurqan örtüyü müxtəlif ölçülü daşlardan qurulmuşdu. Qəbir kamerası kurqanın mərkəzində, örtüyün altında, 1 m dərinlikdə qazılmışdı, uzunluğu 1 m, eni isə 0.7 m idi, Kamera ölçülərinə görə cox da böyük olmayan daşlarla əhatə edilmişdi. Burada rast gəlinmiş insan qalıqları güclü cürüntü və aşınmaya məruz qaldığından

onun basdırılma vəziyyətini müəyyənləşdirmək mümkün olmayıb. Onun sağ böyrü üstə, bükülü vəziyyətdə basdırıldığı ehtimal edilir. Fikrimizcə bu ehtimal doğru deyil. Qəbirdən at başlı skipeterin çıxması orada basdırılanın R1b Y-xromosomunun daşıyıcısı, yəni protooğuz olma ehtimalını artırır. Protooğuzlar isə ölülərini arxası üstə basdırardılar.

Qəbir kamerasında 2 ədəd 27 və 15,5 sm uzunluqlu nizə ucluqları, at başlı skipeter, iki araba təkəri modeli və iki balta aşkar edilib. Nizə ucluqlarının Ön Asiya-Qafqaz tipli olduğu hesab edilir (Махмудов Ф. Р., 2008, s. 38-40).

2 №-li Telmankənd kurqanı 1 №-li kurqandan 1 km cənubda, Bakı-Astara şosse yolunun kənarında, Drankeş adlı yerdə aşkar edilib. Hündürlüyü 2 m, diametri 11 m olan və təpəsində cuxur olduğu müəyyən edilən bu kurqanın daş kromlexinin diametri 6.9 m kimi qeydə alınıb. Dördbucaqlı formalı dəfn kamerasının ölçüləri isə 3.5 x 2.4 x 1.2 idi. Kamera böyük ölçülü sal və çay daşlarından qurulmuşdu. Burada insan qalıqlarına, eləcə də talan edilmiş olması səbəbindən heç bir arxeoloji mədəniyyət nümunəsinə rast gəlinməyib. F.Mahmudovun yazdığına görə, sözügedən kurqanlar örtük və kromlexlərinin ölçüləri baxımından Xankəndi, Xacıncay, Gəncəcay, Oğuz, Qobustan və Qəbələ kurqanlarının bənzəridir. Bu tip kurqanlar Lənkəran və Masallı ərazilərində də qeydə alınıblar (Махмудов Ф. Р., 2008, s. 40 – 43).

Tədqiqatcılar bu kurqanların e.ə. III minilliyin ikinci yarısına aid edirlər, amma nə qədər ki, radiokarbon analizi aparılmayıb, bu tarix şübhəli olaraq qalacaq.

Burada mövzudan bir qədər kənara çıxaraq qeyd etmək lazımdır ki, Azərbaycanın təbii coğrafi şəraiti ilə əlaqədar minilliklər boyu ata böyük ehtiyac olmuş, at həm də ən qiymətli xalq nəqliyyatı vasitəsi sayılmışdır (Şirinli S., 2014, s. 68). Cəlilabad rayonu ərazisində Eneolit dövrünə aid Əliköməktəpəsində aparılan qazıntılar nəticəsində əldə edilən osteoloji qalıqlar atçılığın son eneolit-erkən tunc dövründə Azərbaycanda təşəkkül tapdığını söyləməyə imkan verir. Təsadüfi deyil ki, qazıntılar zamanı iki növ əhliləşmiş at sümüyü tapılmışdır (Azərbaycan Etnoqrafi-

yası, I cild, s.178). Bu tapıntı, eləcə də artıq erkən tunc dövründən etibarən qayaüstü təsvirlərdə at və atlı təsvirlərinin meydana çıxması Cənubi Qafqazın ərazisinin ən qədim at əhliləşdirilmə ocaqlarından biri kimi çıxış etdiyini söyləməyə əsas yaradır (Azərbaycan Etnoqrafiyası, I cild, s.67-68).

Təkcə Qobustanda deyil, Gəmiqayada üzə çıxarılmış ev heyvanlarının rəsmləri arasında at da vardır. Onlar bir qayda olaraq minik və ya qoşqu vasitəsi kimi diqqətə catdırılmışdır (İmanov E., 2014, s. 51-52).

Kurqanlarda qəbilə və ya tayfa başçılarının qəbirlərinə skipeter qoyulması adətinə orta tunc dövrünə aid 2 №-li Daşlıçökək kurqanında da rast gəlinmişdir. Buradan tapılan skipeter (əsa başlığı) içərisində ağ ləkələr olan bozumtul rəngdə mərmər cinsli daşdan düzəldilmişdir. Forması armudvariyə yaxındır. Ortasında şaquli deşik açılmışdır.

C. Rüstəmov və F. Muradovanın yazdıqlarına görə, 2 №-li Daşlıçökək kurqanından tapılmış daş əsa başının (skipeterin) analogiyalarına hələ eneolit dövrü abidələrdə rast gəlinsə də, onların ən yaxın analoqlarına yenə də e.ə. III minilliyin sonuna aid abidələrdə təsadüf olunur. Bunlar daha çox 1 N-li Xacbulaq kurqanından, 119-125 N-li Xankəndi kurqanlarından, 2 saylı və 4 saylı Xaçınçay kurqanlarından (Гуммель Я. И., 1948, s. 19-2, ş. 8, 9, 10; Кушнарева К. Х., 1959, s. 168-169, ş. 1-2 ), Qobustan kurqanlarından və «Dairə yaşayış yeri»ndən və Şəkidən məlumdur (Rüstəmov C., Muradova F., 2014, s. 31). At başlı skipeterlərə Orta Avropanın son tunc və dəmir dövrlərinə aid məzarlıqlarında da çox tez-tez rast gəlinir (Werner, 1961).

Lakin ayrı-ayrı kurqanlardan başqa heyvan təsvirli skipeterlər də tapılmışdır ki, bu da eyni dini-ideoloji baxışlar sistemi çərçivəsinə daxil olan tamam başqa kultlardan xəbər verir. Məsələn,Trialetinin dağıdılmış kurqanlar ərazisindən yerli sakinlər tərəfindən tapılmış öküz başlı skipeter deyilənlərə ən gözəl misal ola bilər. Orta tunc dövrünə aid skipeterdəki öküz başı öküz kultundan xəbər verir (Нариманашвили Г., 2005, c. 141-142).

Bənzər skipeterə 1 №-li Dovşanlı kurqanında da rast gəlinmişdir (Cəfərov H., 2002, s. 72-73).

İ.Avşarova yazır ki, Cənubi Qafqaz, o cümlədən Azərbaycan ərazisindən tapılan maddi mədəniyyət abidələri üzərində təsvir edilən heyvan rəsmləri və zoomorf elementlər qədim mifologiyada xüsusi yerə sahibdirlər və bu, təbii ki, bu, heyvanat aləminin ibtidai insanların həyatlarında oynadığı rolla bağlıdır. Təsadüfi deyil ki, bəzi heyvanlar qədim tayfa və qəbilələrin totemi kimi çıxış etmişlər.

Qəbilə və ya tayfa başçısının dəfn edildiyi kurqanlara zoomorf başlıqlı, o cümlədən at başlı skipeterlərin qoyulması adəti skiföncəsi və skif dövrü kurqanlarında da davam etmişdir. Həmin dövrün (e.ə. IX-VII əsrlər) skipeterlərinin ətraflı təsvir və şərhini ilk dəfə ukraynalı skifşünas V. İlinskaya vermişdir. O, 1965-ci ildə nəşr etdirdiyi «Skiföncəsi və skif dövrü kult əsa başlıqları» adlı əsərində Kislovodsk (Turşsu) mebel fabrikinin ərazisindən tapılan tunc balta formalı skipeterin başındakı yırtıcı heyvan fiqurunu Orta Avropadan tapılmış, İ. Verner tərəfindən təsnif edilmiş at başlı skipeterlərlə tutuşdurmuş, onların xarakteristikasını vermişdir (Ильинская, 1965; Werner, 1961). Eyni zamanda V. Erlix Fars məzarlığından tapıımış yırtıcı quş başlı skipeterləri eyni kontekstdən təhlil edərək bütün bu skipeterlərin ümumi bir ənənənin davamı kimi gözdən keçirmişdir (Эрлих, 1990. C. 247-250). Doğrudur, o, yanlış olaraq, quş başlı skipeterləri son tunc və dəmir dövrü at başlı skipeterlərlə müqayisə edərək, birincilərin daha qədim olduğunu söyləyir (Эрлих В. Р., 2005), amma bu məsələnin mahiyyətini dəyişmir.

Yenidən mövzuya qayıdaraq qeyd edək ki, elmi ədəbiyyata "Üçtəpə kurqanları" kimi daxil edilmiş üç kurqan da Ağcabədi rayonunun Salmanbəyli kəndi yaxınlığında aşkar edilmişdir. Əzəmətli görkəmləri ilə diqqət çəkən bu kurqanlardan nisbətən daha kiçik olanının (3 №-li Üçtəpə kurqanı) diametri 130 m, hündürlüyü isə 13 m-dən artıq olub. 1960-cı ildə abidənin tədqiqinə başçılıq etmiş A. İessen azərbaycanlı həmkarı Q. İsmayılzadə ilə birlikdə torpaq örtüyünü götürdükdən sonra onun altında diametri 25 m, hündürlüyü isə 2 m-ə yaxın olan daş yığını aşkar etmişdilər.

Cənub-qərb, şimal-şərq istiqamətli qəbir kamerası bu onun altında qazılmışdı, uzunsov-oval formaya sahib idi. Kameranın uzunluğu 13,89-14, 30 m, eni 2.20-2.6 m arasında, dərinliyi isə 2.60 m kimi qeydə alınmışdır. Onun kənarı, eynən Borsunlu kurqanlarında olduğu kimi bir cərgə çay daşı ilə əhatələnmişdi. Kameranın üst örtüyü iki qat cərgə halında uzadılmış müxtəlif ölçülü ağaclardan qurulmuşdu. Ağacları uzunluğu 24 m-ə catırdı.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, 3 №-li Üçtəpə kurqanı hələ qədim dovrlərdə talan olunmuşdur. Talandan sonra isə burada yanğın baş vermişdir. Alimlər hesab edirlər ki, bu, təsadüfən baş vermişdi. Maraqlıdır ki, VII əsrinin 30-cu illərində kurqanın örtüyündə küyül açılmış və kurqanda sallama yolla varlı bir xəzər sərkərdəsi basdırılmışdır.

Üçtəpə kurqanlarının bəzi materiallarının Maykop keramikası ilə uyğun olduğunu yazan R. Muncayev abidəni e.ə. III minilliyin axırlarına aid etmiş (Мунчаев Р. М.,1982, s. 31-32) və bu fikir bugünə qədər Azərbaycan arxeologiyasında hakim mövqeyə çevrilmişdir. Halbuki kurqandan götürülmüş komur qalıqlarının radiokarbon analizləri kurqanın e.ə. 3932-3363 əsrlərə aid olduğunu göstərir (Кореневский С. Н., 2012, s. 105). Fikrimizcə, içində skeletə rast gəlinməyən bu abidənin tarixinin yenidən müəyyənləşdirilməsinə ehtiyac var.

1 №-li Üçtəpə kurqanı da 3 №-li kurqan kimi konik formada idi. Onun hündürlüyü 13,1-13, 2 m, diametri isə 132 m-ə çatırdı. Qazıntılar nəticəsində məlum oldu ki, örtüyün təqribən 1,5 m-i torpaq altında qalmışdır və qurulduğu an əslində abidənin hündürlüyü 14,75-14,8 m olubmuş.

Kurqanın torpaq qatı götürüldükdən sonra onun aldında diametri 26 m, hündürlüyü 2 m olan meydança formalı daş yığını aşkar edilmişdir. Uzunsov düzbucaqlı formasında olan qəbir kamerası onun altında yerləşirdi və şimal-şərq – cənub-qərb istiqamətli idi. Kameranın uzunluğu 14,3 m, eni 2,2-2,7 m, dərinliyi isə 2,6 m idi. Kameranın üstü, eynən 3 №-li kurqanda olduğu kimi, iki qatlı cərgə şəklində ağacla örtülmüşdü. Aşağıdakı ağaclar kameranı əhatə edən daşların və onların üzərinə döşənmiş qa-

mışların üzərində qurulmuşdu. Ağacların uzunluğu 7,5-8 m-ə çatırdı. Kənardakı ağaclar istisna olunmaqla, örtük, demək olar ki, bütünlüklə yanmışdı.

Kameranın dibinə bol şəkildə oxra səpilmiş, içinə yanmış ağaclar və ağacların üzünə yığılmış daşlar dolmuşdu. Qəbrə qoyulmuş saxsı qablar daşların içəri dolması zamanı çilik-çilik olmuşdu. Keramika qırıqları nəticəsində onların özündə Leylatəpə ənənəsini daşıdığı məlum oldu (Иессен, 1965). Qəbirdən at başlı skipeterin çıxması, eləcə də orada bol oxraya rast gəlinməsi orada basdırılan və hansısa səbəbdənsə yoxa çıxan meyidin R1b Y-xromosomunun daşıyıcısı, yəni protooğuz olma ehtimalını artırır. Görünür, burada sadəcə talan yox, düşmən qəbilə başçısının qəbrinin bilincli şəkildə dağıdılması halı ilə üz-üzəyik. Ola bilsin ki, bu halda skelet kurqanın talanından və təhqir edilməsindən sonra qəbilə başçısının adamları tərəfindən götürülərək başqa yerdə basdırılmışdır.

N. Müseyibli Üçtəpə kurqanlarının mədəni mənsubiyyəti barədə dolğun məlumatın olmadığını bildirərək haqlı olaraq qeyd edir ki, bunu dəqiqləşdirmək üçün həmin kurqanlardan daha biri müasir elmi üsullarla yenidən qazılmalıdır. «Yalnız bundan sonra Üçtəpə kurqanları barədə diskussiyalar öz həllini tapa bilər. Əgər nəzərə alsaq ki, Azərbaycanda bu tip nəhəng kurqanlar artıq çoxlu sayda məlumdur, o zaman onlardan birinin qazılması ilə mühüm elmi məsələlərdən birini həll etmək mümkündür» (Müseyibli N. Ə., 2014, s. 10).

Alim daha sonra yazır ki, Astara rayonunda F. Mahmudovun XX əsrin 60-cı illərində qazılmış Telmankənd kurqanları barədə bəhs etmək lazımdır. «Qazıntının müəllifi tədqiq etdiyi iki kurqanı erkən tunc dövrünə aid etmişdir. Lakin bəzi nəşrlərdə Telmankənd kurqanları Leylatəpə mədəniyyətinə aid edilmişdir» (Müseyibli N. Ə., 2014, s. 10).

Mövzumuz baxımından ən maraqlı kurqanlardan biri də 1 №-li (2006) Soyuqbulaq kurqanıdır. Onun örtüyü qazıntı dövründə ərazidəki digər kurqanlara nisbətən yaxşı qalmışdı və bu üzdən də nisbətən böyük idi. Onun diametri şimal-cənub istiqa-

mətində 16 m-ə, şərq-qərb istiqamətində isə 17 m-ə çatırdı. Hündürlüyü isə ərazinin mailílik dərəcəsindən asılı olaraq, 0,55-0,75 m arasında dəyişirdi.

Daşdan tökülmüş kurqan örtüyünün aşağı hissəsi daha böyük daşlardan və daha sıx qurulmuşdu. Kurqan örtüyü götürüldükdən sonra kromlex aşkar edildi. O, daş və qaya parçalarından qurulmuşdu. Eni təqribən 1,1 m, daxili diametri 11 m idi.

Qəbir kamerası daş düzümündən ibarət meydançanın altında, 1.5 dərinliyində qazılmışdı. Ölçüləri 2,5 x 3,5 m. idi. Kameranın aşağı hissəsi çiy kərpiclərdən hörülmüş divarla əhatələnmişdi. Kərpiclər 30-50 x 25 x 9 sm ölçülsündə idilər. Hörgünün üstünə gil qarşıqlı çınqıldan ibarət suvaq vurulmuşdu.

Qəbirdə insan skeleti və ya sümük aşkar edilməyib. Oradan sadəcə 25 sm uzunluqlu at başlı skipeter və mis xəncər çıxıb (Лионне Б…, 2002, s. 51-52).

Qeyd etmək lazımdır ki, bu kurqan 2006-cı ildə B. Lionnet və T Axundovun başçılıq etdikləri beynəlxalq Azərbaycan-Fransa müştərək arxeoloji ekspedisiya tərəfindən Soyuqbulaq nekropolunda qazılmış 9 kurqandan (№№ 1, 2, 3A, 3B, 3C, 3D, 4, 5, 6) birincisidir. Ekspedisiyanın tədqiq etdiyi kurqanlar kromlexlərlə əhatələnmiş kameralara sahib idilər. Kameralar düzbucaqlı formada idilər və iri çay daşlarından qurulmuşdu.

Azərbaycan-Fransa birgə ekspedisiyasına daxil olan arxeoloqlar tərəfindən dəqiq plan və təsvirləri cızılan bu kurqanlar eyni quruluşa malik idilər. Kameraların küncləri 4 coğrafi cəhət istiqamətinə yönləndirilmiş vəziyyətdə qurulmuşdu. B. Lionnetin yazdığına görə, sözügedən dəfn abidələrini bir-birindən fərqləndirən əsas xüsusiyyətlərindən biri onların bəzisinin qəbir çalalarına sahib olması, digərlərinin isə olması idi. Belə ki, bu kurqanlardan sadəcə 1, 3 C və 4 №-li kurqanların 1-1,5 m dərinlikdə qazılmış qəbir çalaları olub (Lyonnet B…, 2008, s. 28).

Azərbaycanın və ümumilikdə Cənubi Qafqazın eneolit və erkən tunc dövrü kurqanlarını təkcə at başlı skipeterlər deyil, həm də bu abidələrin böyük əksəriyyətində kurqanaltı qəbir çalalarının (çuxurların) olması Cuxur mədəniyyətinin əsasını Cə-

nubi Qafqazdan köçənlərin qoyduğunu göstərir. Söhbət Leylatəpə və Kür-Araz mədəniyyətlərinin daşıyıcılarından gedir.

Qeyd etmək lazımdır ki, arxeoloqlar Soyuqbulaq kurqanlarının qəbir kameralarını, materiküstü (yerüstü) qurulmuş qəbir kameraları (2005 № 3, 11, 18; 2006 № 2, 3A, 3B, 3D, 5, 6) və materikdə qazılmış qəbirlər olmaqla, iki tipə bölürlər. Materikdə qazılmış qəbir kameralarını da struktur özəlliklərinə görə iki yerə ayırırlar:

1) ciy kərpicdən qurulanlar;

2) adi torpaq qəbirlər;

3) çay daşları düzümü ilə əhatələnmiş qəbir kameraları;

4) döşəməsi küllə qatışıq zolaq və ya xəndəklə əhatələnmiş qəbir kameraları (Müseyibli N. Ə., 2014, s. 42 - 43).

Eyni bölgü Xvalınsk, Çuxur və Döyüş baltaları mədəniyyətlərinə aid kurqanlar üçün də keçərlidir.

Söhbət hər hansı bir ərazinin və ya ölkənin tarixindən gedirsə, bu halda həmin ərazidə mövcud olmuş bütün mədəniyyətlər, hansı etnosa aid olduğundan asılı olmayaraq, xronoloji ardıcıllıqla öyrənilir və təqdim edilir. Bu baxımdan Azərbaycan tarixi də istisna deyil. Azərbaycan tarixi paleolit dövründən başlayır və həmin dövr özündə Quruçay mədəniyyətini, Azəx, Damçılı və s. mağara düşərgələrini əhatə edir, Qobustan qayaüstü təsvirlərinin ortaya çıxdığı mezolit dövrünə qədər davam edir. Sonra ardıcıllıqla mezolit, neolit və eneolit dövrü mədəniyyətləri gəlir.

Etnosların tarixi isə dövlət sərhəddlərini tanımır, çox zaman iki və daha çox ölkənin ərazisini əhatə edir və hər şeydən əvvəl genetik analizlərin və bu analizlərlə tam sübut edilmiş mədəniyyət formalarının araşdırılması və təsviri ilə müşaiyət olunur. Məsələyə sırf bu kontekstdən yanaşdıqda Azərbaycan türklərinin və ya da türklərin Azərbaycandakı tarixinin hələlik tam sübut edilə bilən tarixi Soyuqbulaq və Üçtəpə kurqanları ilə başlayır.

Arxeoloq P.Qasımov haqlı olaraq yazır ki, müəyyən fərqli yanaşmalara baxmayaraq artıq elmdə qəbul edilən ümumi fikirə görə, Şimali Azərbaycanda erkən kurqanlar e.ə. IV minilliyin I yarısında peyda olurlar. «Radiokarbon analizlərinə görə dövrü müəyyənləşdirilmiş bu çeşiddən olan abidələr sırasında ilk növ-

bədə Soyuqbulaq xalkolit (eneolit - B. T) kurqanlarını göstərmək lazımdır…

Azərbaycan arxeologiyasına müstəqillik dövrundə dünya üzrə ciddi maraq doğurmuş abidənin məhz son xalkolitə aid Soyuqbulaq kurqan tipli qəbir abidələri olduğunu desək yanılmarıq. Soyuqbulaq kurqan nekropolu 2004-2005-ci illərdə… Azərbaycan Respublikasının Ağstafa rayonu ərazisində, Soyuqbulaq kəndindən 1 km şimalda, Kəcvəli kəndindən 1,5 km şərqdə 265 – 278 m mütləq hündürlukdə… Ərazi Kur cayından solda, Kur cayının şimal sahili boyunca uzanan Qarayazı çölünün şimal sərhədində, Ceyrançöl alçaq dağ silsiləsinin qərb və cənubda düzənliklə qovuşduğu bir sahədir. Antropogen səbəblərdən örtükləri pozulmuş 35 abidənin diametrləri 5 – 10 metrə catırdı. Onların çay daşından örtükləri zəif sezilirdi» (Qasımov P., 2017).

Bu kurqanların doqquzu, yuxarıda qeyd edildiyi kimi, 2006-cı ildə B. Lionnet və T Axundovun başçılıq etdikləri beynəlxalq Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiya tərəfindən tədqiq edilmişdir (Лионне Б…, 2002). Onlardan bir il öncə, yəni 2005-ci ildə N. Müseyiblinin başçılıq etdiyi ekspedisiya 18 (1-18 №-li kurqanlar), 2007-ci ildə isə daha 3 (19-21№-li kurqanlar) dəfn abidəsində qazıntılar aparmışdır (Müseyibli N. Ə., 2014).

## «Kür-Araz eneoliti» və Kür-Araz mədəniyyətini protooğuz-qıpçaqlar və protoqıpçaq-bulqarlar birlikdə yaradıblar: Erkən kurqanlar bunun sübutu və etnik kimliyimizin genetik pasportudur

Qərbi Azərbaycanda tədqiq edilən və radiokarbon analizlərinin nəticələrinə görə e.ə. 3700-cü illərə (e.ə. IV minillik) aid edilən 5 və 6 №-li Sərdarabad (Aknaliç) (Muradyan F., 2014, s. 339-369), eləcə də e.ə. 2619-2465-ci illərə, yəni e.ə. III minilliyə aid olduğu radiokarbon analizləri ilə təsbit edilən Alagöz (Talin) və Əmirxeyir (1991-ci ildə adı dəyişilərək Kalavan qoyulub) kurqanlarını etnik kimliyimizin DNT analizləri ilə tam təsdiqlənmiş pasportu adlandırsaq, qətiyyən səhv etmərik. Bu kurqanlardan tapılmış sümük qalıqlarının DNT analizi onların R1b və

R1a haploqrupunun daşıyıcısı (İain Mathieson, et al., 2016), yəni türk olduqlarını ortaya qoymuşdur.

Şübhəsiz ki, bunlardan daha qədim olması baxımından Sərdarabaddan (Armavir rayonunun Alkaniç kəndindən) tapılan 5 və 6 №-li kurqanlar daha böyük önəm daşıyır. Lakin ilk tunc dövrünə aid Alagöz (Talin) və Əmirxeyir (Kalavan) kurqanları onlardan az önəm daşımır.

Qeyd edək ki, əldə edilən nəticələr təkcə bu kurqanlarla sınırlı deyil. Orta tunc dövrünə (e.ə. II minillik) aid Adyaman (hazırki adı Getaşen-Nerkin) və Qafan yaxınlığındakı son tunc dövrünə aid kurqanlaran (Пиотровский Б. Б., 1949) əldə edilmiş nümunələrin DNT analizləri də eyni nəticəni vermiş və onlardan da R1b Y-xromosomu tapılmışdır (Morten E., 2015).

Əldə edilən bu nəticələr Güney Qafqaz ərazisindəki orta eneolit və tunc mədəniyyətlərinin eyni xalq tərəfindən yarandığını və bölgədə qırılmayan, davamlı vahid bir etnik mədəniyyətin mövcud olduğunu sübut edir. Lakin çox təəssüflər olsun ki, bənzər araşdırmalar Azərbaycanda aparılmayıb və biz qədim kurqanlarımızda dəfn edilmiş meyitlərin etnik mənsubiyyətini, daha doğrusu, protoqıpçaq-bulqar (R1a) və ya protooğuz (R1b) olduğunu onun qəbirə qoyulma vəziyyətinə əsasən müəyyən etmək məcburiyyətindəyik. Meyit arxası üstə oturmuş vəziyyətdə, yəni dizləri bükülmüş vəziyyətdə uzadılıbsa o, protooğuz (və ya protooğuz-qıpçaq), böyrü üstə uzadılıbsa, protoqıpçaq-bulqar mənşəlidir. Sol böyrü üstədirsə qadın, sağ böyrü üstədirsə kişidir. Eyni sözlər, təbii ki, Soyuqbulaq kurqanları üçün də keçərlidir.

Soyuqbulaq kurqanlarının əksəriyyətindən tapılan skeletlər həddən artıq çürüdüyü, aşınmaya məruz qaldığı və anatomik vəziyyəti pozulduğu üçün onların vəziyyətini müəyyən etmək mümkün olmamışdır.

Soyuqbulaq kurqanlarında dəfn etmə adətlərindən söhbət açan N. Müseyiblinin yazdıqlarından belə aydın olur ki, bir neçə qəbirdə (№ 1, 9, 10, 15) insan sümüklərinin üstü nazik gil qatı ilə suvanmışdır. «Yalnız bir qəbirdə (№ 9) oxra aşkar edilmişdir.

Ölülərin üstünə oxra səpilməsi Maykop mədəniyyətində geniş yayılmışdır (Корневский, 2004, c. 19)…

Soyuqbulaqda qazılmış kurqanlardan yalnız bir neçəsində (№ 5, 20, 21) anatomik baxımdan tam skelet aşkar edilmişdir. Bu kurqanlarda meyitlər sağ və ya sol böyrü üstə bükülü vəziyyətdə dəfn edilmişlər (Müseyibli N. Ə., 2014, s. 47). Bu o deməkdir ki, həmin kurqanlarda dəfn edilənlər protoqıpçaq-bulqar olmuş və R1a Y-xromosomunu daşımışdır. 9 №-li kurqandakı skeletin vəziyyətini müəyyən etmək mümkün olmasa da, qəbirdən oxra çıxması orada basdırılanın protooğuz (protooğuz-qıpçaq), yəni R1b haploqrupunun daşıyıcısı olmasını ehtimal etməyə əsas verir. Amma dəqiq cavabı yalnız DNT analizləri aparıldıqdan sonra bilmək olar. Əgər analizlər aparılarsa və ehtimalımız özünü doğruldarsa, bu o demək olacaq ki, eneolit dövründə Azərbaycanda protooğuz-qıpçaq və proto qıpçaq-bulqarlar, eynən Xvalınsk mədəniyyəti dövründə olduğu kimi, bir yerdə yaşamışlar. Bu birgəyaşayış ilk, orta və son tunc dövrlərində də davam edib.

Azərbaycan ərazisindən tapılan, «Kür-Araz eneoliti» dövrünə aidliyi elmi ədəbiyyatda heç bir şübhə doğurmayan daha bir kurqan Xaçmaz rayonu ərazisində, Seyidli kəndi yaxınlığında, 1990-cı ildə T. Dostiyevin rəhbərlik etdiyi «Müşkir» ekspedisiyası tərəfindən tədqiq edilən Seyidli kurqanıdır. «Bir qədər oval planlı kurqanın diametri 32 m, hündürlüyü 2 m-dən artıq olmuşdur. Onun torpaq örtüyünün mərkəzi çökmüşdür. Kurqan örtüyü qazılarkən onun maraqlı struktura malik olduğu müəyyən edilmişdir.

Qəbir kamerasının üzərində 1 m qalınlığında, 4,5 m enində xırda çay daşları-çınqıl təbəqədən dairəvi zolaq salınmışdır. Çınqıl zolağın cənubunda eni 1.2 m, qalınlığı 40 sm olan çay daşları yığını aşkar edilmişdir. Burada daşlar üst-üstə 10 sıra düzülmüşdür» (Dostiyev və b. 1990, s. 25).

Arxeoloqların təsvirindən belə anlaşılır ki, sözügedən kurqanın örtüyündə iki sallama qəbir aşkar edilmişdir. «Kurqanın əsas qəbir kamerası mərkəzdə yerləşmişdi. Kamera düzbucaqlı formalı olub uzunluğu şərq-qərb istiqamətində 4,3 m, eni şimal-cənub istiqamətdə 2,7 m olmuşdur. Qəbir kamerası çınqıl qatın-

da qazılmışdır. 1 m dərinlikdən sonra qəbir kamerasında qazıntı yalnız qərb tərəfdə 2,7 x 1,3 m ölçüdə davam etdirilmişdir. Həmin hissədə dərinlik aşkar edilmişdir. Cənub-şərq küncdə oturmuş insan fiqurunu xatırladan iri çay daşı qoyulmuşdur. Kameranın şərq tərəfi bir növ səki formasında qalmışdır. Onun üzərində saxsı qab parçaları səpələnmiş halda aşkar edilmişdir. Belə bir vəziyyət qazıntı müəlliflərinə qəbrin qarət edilməsi qənaətinə gəlməyə əsas vermişdir» (Müseyibli N. Ə., 2014, s. 6-7).

P.Qasımovun yazdığına görə, qəbir kamerasından tapılmış keramika məmulatı qazıntı müəllifləri tərəfindən iki qrupa ayrılıb: kobud və zərif saxsı qablar. «N. Müseyibliyə görə, Seyidli kurqanından aşkar edilmiş qablar "bardaq" deyil, kuzə tipli olmuşlar (Müseyibli N. Ə., Ağalarzadə A. M., 2013, s. 6-7). Beləliklə, Seyidli kurqanının Leylatəpə mədəniyyətinə aid edilməsi üçün taksonomik əlamət kimi kurqanın əsas dəfnindən aşkar edilmiş keramikadır» (Qasımov P., 2017, s. 17).

Alim bildirir ki, «Seyidli kurqanı və Soyuqbulaq kurqanlarının konstruktiv xüsusiyyətləri, dəfn inventarı, dəfn olunmuşların skeletlərinin istiqamətlənməsi və b. xüsusiyyətlər əsasında Se Girdan (İran), Arslan təpə (Turkiyə) və Maykop kurqanları (Rusiya) arasında oxşarlıq izlənilməkdədir. Bunu N. Museyibli (Müseyibli N. Ə., 2014, s. 41-42), B. Lyonet, X. Alməmmədov, B. Cəlilov (Lyonnet B., Akhundov T., Almamedov K., Bouguet L., Jelilov B., Huseynov F., Loute S., Makharadze Z. and Reynard S., 2008, s. 48-61), S.N. Korenevski (Корневский, 2004, s. 103-104) qeyd edirlər» (Qasımov P., 2017, s. 17).

Maraqlıdır ki, Seyidli kurqanı eneolit dövrünə aid olsa da, onu tədqiq edən arxeoloqlar abidənin dövrünü yanlış olaraq e.ə. III minillik kimi göstərmişlər (Dostiyev və b., 1990, s. 26). «Yalnız Soyuqbulaq kurqanlarının… aşkar edilərək qazılmasından sonra Cənubi Qafqazdakı belə kurqanlar eneolit dövrünə aid edilmişdir (Müseyibli N.Ə., 2014, s. 7). Eyni sözləri Üçtəpə, Telmankənd, Küdürlü və Dübəndi kurqanlarına, eləcə də Gürcüstandakı Kavitsxevi kurqanına da aid etmək lazımdır. Təsadüfi deyil ki, T.Axundov və V.Mahmudova belə də hərəkət etmiş, bir-

likdə qələmə aldıqları «Cənubi Qafqaz IV minillikdə Qafqaz - Ön Asiya etnomədəni proseslərində» adlı çox dəyərli əsərdə Üçtəpə, Telmankənd, Küdürlü və Dübəndi kurqanlarını eneolit dövrü kurqanları kimi təqdim etmişlər (Ахундов Т., Махмудова В., 2008). Qeyd edək ki, bu kitaba rəyi dünyada kurqanlar üzrə ən tanınmış mütəxəssislərdən biri hesab edilən S.Kornevski vermişdir.

Şübhəsiz ki, etnik tariximizi öyrənmək baxımından bu kurqanların hər biri çox böyük elmi əhəmiyyətə malikdir. Genetik tariximizi öyrənmək baxımından isə Qərbi Azərbaycandakı 5 və 6 №-li Sərdarabad (Aknaliç // Talin) (Muradyan F., 2014, s. 339-369), Əmirxeyir, Adyaman və Qafan kurqanları isə əvəzsizdir. Çünki həmin kurqanlardan əldə edilmiş DNT nümubələrinin analizlərinin nəticələri məlumdur (İain Mathieson, et al., 2016). Bu isə təkzibedilməz fakt deməkdir.

Bunlardan ən cavanları Adyaman və Qafan kurqanlarıdır.

Göyçə gölünün cənub-şərqində yerləşən, 1991-ci ildə adı ermənilər tərəfindən «Getaşen-Nerkin» kimi dəyişdirilən Adyaman kəndinin ərazisində aşkar edilərək qazılan Adyaman (Getaşen-Nerkin) kurqanı e.ə. II minilliyə aid edilir. Hələ 1908-ci ildə tədqiq edilmiş bu kurqan strukturuna və dəfn adətinə görə Ördəkli (Lçaşen), Muxan və Trialeti kurqanlarını xatırladır. Burada da ölü öküzə qoşulmuş arabada dəfn edilib. Kurqandan çox sayda tunc əşya tapılıb (Пиотровский Б. Б., 1949).

E.ə. II minilliyin sonlarına aid Qafan kurqanlarından (Artsvanik və Tandzaver) da çox sayda tunc bəzək əşyası tapılıb (Хникян О., 1973, с. 238; Хникян О., 1975, с. 241).

Sərdarabad kurqanları eyni adlı rayonun Aknaliç kəndinin şimal tərəfində aşkar edilmişdir. Burada altı kurqan üzə çıxarılmış və onların qazıntısı 2007 və 2011-ci illərdə Ermənistan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji ekspedisiyası tərəfindən aparılmışdır. F.Muradyanın başçılıq etdiyi alimlər qrupunun çalışmaları sonucunda kurqanlardan ikisinin – 5 və 6 №-li kurqanların eneolit, digər dördünün isə (1-4 №-li kurqanlar) son tunc və dəmir dövrlərinə aid olduğu müəyyən edilmişdir.

5 və 6 №-li kurqanların Azərbaycandakı Üçtəpə, Soyuqbulaq, Telmankənd, 1 və 2 №-li Küdürlü, Dübəndi, Seyidli, eləcə də Gürcüstandakı Kavitsxevi, Şimali Qafqazdakı Kişpek kurqanları (Иессен А.А., 1965; Chechenov 1987; Makharadze 2007; Лионне Б., Алмамедов К., Буке Л., Курсье А., Джелилов Б., Хусейнов Ф., Лут С., Махарадзе З., Рейнард С., 2002; Lionnet 2008; Махмудов Ф.Р., Баку, 2008; Ахундов Т., Махмудова В., 2008; Мунчаев Р.М., 1982; Кореневский С.Н., 2012; Museyibli 2013; 2014) ilə ümumi özəlliklərə sahib olduğunu qeyd edən ekspedisiya üzvləri ən başda bu kurqanların da e.ə. IV minilliyə aid ola biləcəyini düşünmüş və onların bu zənni özünü bütünlüklə doğrultmuşdur. Belə ki, aparılmış radiokarbaon analizlərinin nəticəsində kurqanların e.ə. 3700-ci illərə aid olduğu təsdiqlənmişdir (Muradyan F., 2014, s. 347).

Örtük hissəsi dairəvi formda olan və təqribən eyni ölçülü kobud bazalt daşlarından qurulan 5 №-li kurqanın diametri şərq-qərb istiqamətində 11m, şimal-cənub istiqamətində 11,5 m, maksimal hündürlüyü isə 1,1 m idi. Kurqan örtüyü götürüldükdən sonra onun altında qara rəngli tuf parçasına rast gəlinib. Örtüyün təmizlənməsi zamanı üst qatlarında son tunc, aşağı qatlarında isə erkən tunc və son eneolit dövrlərinə aid keramika qalıqları aşkar edilib.

Oval formalı əsas qəbir kamerası kurqanın mərkəzindən bir qədər şimalda yerləşirdi. İçi qamış və daşlarla dolmuşdu. Şimal-cənub – qərb-şərq istiqamətli kameranın uzunluğu 1,43 m, eni 0,93 m, dərinliyi isə 0, 75 m idi. Kamera təmizlənərkən oradan saman, keramika və obsidan qırıqları tapılmışdır. Skelet kameranın döşəməsində sağ böyrü üstə, bükülü vəziyyətdə idi. Başının altına daş parçası qoyulmuşdi.

Əsas kameradan bir qədər aralıda olan ikinci kamerada skeleteə rast gəlinməyib. Orada sadəcə sınmış bir küp var idi (Muradyan F., 2014, s. 339-341).

Strukturu və ölçüləri baxımından 5 №-li kurqandan, demək olar ki, heç nə ilə fərqlənməyən 6 №-li kurqanın da iki kamerası olub. Bunlardan birində skelet sağ böyrü üstə, bükülü vəziyyət-

də, digərində isə arxası üstə basdırılmışdı (Muradyan F., 2014, s. 341-342).

Eyni kurqanda həm böyrü, həm də arxası üstə basdırılmış skeletlərə rast gəlinməsi ilk dövrlərdən etibarən protooğuz-qəpçaqlarla protoqıpçaq-bulqarların bir yerdə yaşadıqlarından xəbər verməkdədir və bu hal VII əsrə qədər, yəni İslama qədər, başqa sözlə, vahid Azərbaycan xalqının formalaşması başa çatana qədər belə davam etmiş, yalnız xristian qıpçaqlar (albanlar) bu prosesdən kənarda qalmış, XVIII əsrə qədər müsəlman Azərbaycan türkləri ilə birlikdə yaşasa da, XIX əsrdə sonra erməniləşmişlər (haylaşmışlar). Elə bu səbəbdən də hazırda ermənilərin (hayların) genetik yapısında R1b 28 % təşkil edir, Zəngəzur və Qarabağ erməniləri (hayları) içərisində isə bu göstərici 40 %-dən də çoxdur.

Maraqlıdır ki, bu gün bir vaxtlar İslamı qəbul edib türklüyünü qoruyan və Azərbaycan xalqının tərkib hissəsinə çevrilən və xristian qalaraq erməniləşən eyni nəslin nümayəndələri də məlumdur. Bu baxımdan Məliakaslanov və Məlikaslanyanları, Məlikyeqanov və Məlikyeqanyanları və s. misal çəkmək olar.

Aşağıda təqdim edilən sənəd Marneulidə (Gürcüstan) yaşayan bir nəfər Azərbaycan türkünün ən yaxın qohumlarını tapmaq məqsədi ilə verdiyi gen analizinin cavabıdır. Analizlər onun ən yaxın qohumunun bir nəfər erməni, daha doğru erməniləşmiş alban olduğunu göstərmişdir.

**Eyni alban nəslinin İslamı qəbul edərək türklüyünü qoruyan və Azərbaycan xalqının tərkib hissəsinə çevrilən nümayəndəsi ilə xristianlığını qoruyan və erməniləşən (haylaşan) iki nümayəndəsinin genetik qohumluğunu təsdiq edən sənəd**

Beləliklə, 5 və 6 №-li Sərdarabad (Aknaliç) kurqanları türklərin Cənubi Qafqazda ən azı e.ə. 3700 il öncə, yəni 5700 il bundan əvvəl yaşadıqlarının olduqca önəmli genetik pasportudur.

Küdürlü və Dübəndi kurqanlarının eneolit dövrünə aid etməyin doğru olub-olmamasından asılı olmayaraq, qeyd etməliyik ki, Güney Qafqaz ərazisindən e.ə. IV minilliyə aid çox sayda kurqan aşkar edilib ki, onlardan bir qisminin dəqiq yaşı aparılmış radiokarbon analizləri nəticəsində müəyyən edilmişdir. Bu da bizə er-

kən tunc mədəniyyətinin, başqa sözlə, Kür-Araz mədəniyyətinin başlanğıc dövrünü dəqiq müəyyən etməyə imkan verir.

Bu barədə söhbətə keçməmişdən öncə Cənubi Qafqazda mövcud olmuş daha bir eneolit abidəsi – Gürcüstan ərazisindən tapılmış Kavtisxevi kurqanı barədə bir iki söz deməyə ehtiyac var.

Tiflisdən 45 km şimal-qərbdə yerləşən Kavtisxevi kurqanı 1995 və 1998-ci illərdə Z.Maxaredze tərəfindən qazılmışdır. Öncə sözügedən abidəni ilk tunc dövrünə aid edən arxeoloq Soyuqbulaq kurqanlarının aşkarlanmasından sonra səhvini başa düşmüş və kurqanın eneolit dövrünə aid olduğunu bəyan etmişdir.

Kurqanın üst örtüyü önəmli ölçüdə zədəli olsa da, onun ölçülərini müəyyən etmək mükün olmuşdur. Z.Maxaradzenin yazdığına görə, onun hündürlüyü 1,5 m, diametri 25 m olub. Örtüyün aldında materikdə qurulmuş 1 m hündürlüklü, 4,4 m x 45 m ölçülü qəbir kamerasında skeletə rast gəlinməyib. Döşəməsinə gil qatı çəkilmiş kameranın şərq küncündə sadəcə bir saxsı qabın üst hissəsi aşkar edilib (Makharadze, 2007, p. 123).

Dəqiq yaşı radiokarbon üsulu ilə müəyyənləşdirilmiş və IV minilliyə aid olduğu heç bir şübhə oyatmayan, Kür-Araz mədəniyyətinə abidə olduğu təsbit edilən Uzun Rəmə, 1 №-li Şadılı və Menteştəpə kurqanları mövzumuz baxımından daha böyük önəm kəsb edir. Onların ilk ikisi B. Cəlilovun başçılıq etdiyi Göygöl-Goranboy arxeoloji ekspedisiya tərəfindən tədqiq edilmişdir.

Kürəkçayın sağ sahilində, Goranboy rayonunun Şadılı kəndi ərazisində aşkar edilmiş Şadılı kurqanı 2011-ci ildə qazılmışdır. B. Cəlilovun yazdığına görə, sözügedən kurqanın örtük hissəsinin diametri 11 m, hündürlüyü isə 1 m, 1,4 m dərinlikdə qazılmış qəbir kamerasının uzunluğu 5.5 m, eni isə 4.5 m idi. O, eni 1,4 metr, uzunluğu 2,5 m, hündürlüyü isə 1.2 m olan dromosa sahib olub. Alim bildirir ki, sərdabə formalı qəbir kamerasının örtüyünün bir hissəsi açılmış və oradan od vurularaq içərisi alova qərq edilmişdir. Giriş hissənin açıq saxlanılması səbəbindən dromos tərfdən daxil olan hava axını odu daha da gücləndirmiş və alov qərb divarında açılan hissədən çölə sovrulmuşdur (Cəlilov B. M., 2012, s. 146-152).

Goranboy rayonunun Qaradağlı kəndi ərazisində yerləşən Uzun Rəmə kurqanı da eyni ekspedisiya tərəfindən 2012-ci ildə tədqiq edilib. Onun örtüyünün diametri 17 m, hündürlüyü isə 1.2 metr olub. Kurqanın üst örtüyünü 2-3 cərgə şəklində yan-yana düzülmüş çay daşları - kromlex əhatə edirdir. Kamerasının ölçüləri 5,5 m x 6,5 m x 1,7 m idi. Ona bitişən dromos 1,3 m x 2,4 m x 1,6-1,4 m ölçüsündə olub. Sərdabə tipli qəbir kamerası bütünlüklə dolduqdan sonra ona od vurularaq yandırılmışdır (Cəlilov B. M., 2012, s. 128-134).

P.Qasımovun yazdığına görə, Şadılı və Uzun Rəmə kurqanlarından əldə edilmiş kül və kömürün radiokarbon analizi onların e.ə. IV minilliyin II yarısına, başqa sözlə, e.ə. XXXIII – XXXII əsrlərə aid olduğunu göstərmişdir. Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiyasının 2008-2015-ci illərdə Tovuz rayonunun Aşağı Eyyublu kəndi ərazisindəki Menteştəpə məzarlığında apardığı tədqiqatlar nəticəsində iki qədim kurqan aşkarlanmışdır ki, onlardan birincisi də e.ə. IV minilliyin ikinci yarısına aid edilir (Qasımov P, 2017, 27-28).

Şübhəsiz ki, Cənubi Qafqazda aşkar edilmiş Kür-Araz mədəniyyəti kurqanları yalnız yuxarıda adları çəkilən abidələrdən ibarət deyil. Bura III minilliyə aid çox sayda kurqan da daxildir ki, onların əksəriyyətindən çıxan materialların radiokarbon analizi aparılmadığından yaşları təqribən, sadəcə keramika nümunələrinə, dəfn adətlərinə və kurqanların struktur özəlliklərinə görə müəyyənləşdirilmişdir. Bu sırada araşdırılma tarixinin daha əvvəlki illərə aid olması baxımından Mil-Qarabağ kurqanlarını xatırlatmaq, fikrimizcə, daha məqsədəuyğundur.

**Xaçınçay kurqanları.** Xaçınçayın sağ sahilində, Dovşanlı kəndi yaxınlığında aşkar edilib. Bu abidələri 1879-cu ildə E. Resler aşkar etmiş və elə həmin il də onlardan beşini tədqiq etmişdir (ДАК.1897, листы 208-216; ОАК за 1897, с. 149-255).

H. Cəfərovun yazdığına görə, kurqanların əsasən yayğın dairəvi formada olan örtükləri çay daşlarından və qum qarışığından ibarət olub. Onların diametrləri 10 m-lə 20-25 m, hündürlükləri isə 1,25m-lə 2,5 m arasında dəyişir (Cəfərov H., 2000, s. 29).

B. Piatrovski Xaçınçay kurqanlarını erkən tunc dövrünə aid etmişdir (Пиотровский Б.Б., 1949) və onun bu fikrini sonrakı tədqiqatçılar da təsdiq etmişlər (Кушнарева К., 1954, с. 165-179).

Bu kurqanlar üçün həm inqumasiya, yəni ölünün olduğu kimi basdırılması (№ 1, 2, 3), həm də kremasiya, yəni ölüyandırma (№ 4, 5) adətləri xarakterik idi.

1 №-li kurqanın örtük hissəsində, eynən e.ə. 2900-cu ilə aid olduğu radiokarbon analizləri ilə təsdiqlənmiş Arslantəpə (Türkiyə) kurqanında olduğu kimi, üzü şərq istiqamətində oturdulmuş vəziyyətdə dəfn edilmiş 4 skelet üzə çıxarılmışdır. Bundan başqa kurqanda heç bir arxeoloji materiala rast gəlinməmişdir (ДАК, 1897 г., с. 157).

2 №-li kurqanın qəbir kamerası dördkünc formada idi. Burada ölü arxası üstdə (R1b) dəfn olunmuşdur (Cəfərov H., 2000, s. 29). 3№-li kurqandakı qəbirdə də arxası üstə uzadılmış iki skelet (R1b) aşkar edilib (ДАК, 1897 г., с. 157).

4 №-li kurqanda yanmış insan, at, bison və qunduz sümükləri tapılıb (Cəfərov H., 2000, s. 29).

5 №-li kurqanda skeletə rast gəlinməyib (ДАК, 1897 г., с. 157).

**Xankəndi kurqanları**. Yevlax-Şuşa yolunun kənarında aşkar ediliblər. Bu kurqanlar ilk dəfə Y. Hümmel tərəfindən tədqiq edilmiş və alim bu kurqanları ilk tunc dövrünə aid etmişdir (Гуммель Я. И., 1938, с. 82-88).

Xankəndi kurqanları əsasən eyni tipdədirlər, kiçik ölçülərə sahibdirlər, örtükləri müxtəlif ölçülü çay daşı və gilli torpaqdan ibarət olublar. Onlardan yalnız dördü (№ 103, 119, 125 və nömrəsiz kurqan) qazılıb. 103 №-li kurqanda qazıntı işləri 1938, digərlərində isə 1939-cu ildə aparılmışdır.

Y. Hümmelin təsvirinə görə, 103 №-li kurqanın daş örtüyü dairəvi plana sahib idi. Onun diametri 15 m, hündürlüyü isə 1,5 m olub. Kurqanın qəbir kamerası dairəvi formada və 4, 5 m diametrində idi. Kamera 1,5 m dərinlikdə qazılmışdı. Kameranın şərq tərfində 1,5 m enliyində giriş yolu var idi, qəbir kamerasının və giriş döşəməsinin divarları 0,2 m enində və 0,5 m dərin-

likdə xəndəklə əhatələnmişdi. Xəndək xırda çınqıl daşları və gil-lə doldurulmuşdu. Burada 48 nəfərin müxtəlif vəziyyətlərdə dəfn olunduğu aşkar edilib. Onlardan 12-si oturdulmuş, 14-ü sağ, 15-i sol böyrü üstə, bükülü vəziyyətdə (R1a), 5-i isə arxası üstə uzadılmışdı (P1b) (Гуммель Я. И., 1938, с. 82-88). Bu isə o deməkdir ki, həmin dövrdə protooğuz-qıpçaqlaral qıpçaq-bul-qarlar iç-içə yaşayır, hətta eyni kurqanlarda belə dəfn edilirdilər.

119 №-li kurqan barədə daha öncə məlumat verdiyimizdən onun üzərində xüsusi durmaq fikrimiz yoxdur. Sadəcə qeyd edək ki, onun hündürlüyü 1,5 m, diametri isə 24 m olub, təpəsi çuxur şəklində qurulduğundan zamanla dağılmışdır. Xatırladaq ki, Y. Hümmelin fikrincə, üç təbəqəli dəfn olunmanın gerçəkləş-diyi bu kurqandakı ilk dəfn neolit dövründə icra edilmişdir (Гуммель Я. И., 1948, с. 15-19, рис. 6). Bu məsələ etnik tarixi-miz baxımından o qədər önəmlidir ki, fikrimizcə, alimlərimiz nəsələnin üzərinə bir də qayıtmalıdırlar.

125 №- li kurqan həcmcə kicik olub və orada da üçtəbəqəli dəfn müşahidə edilib. Burada ilk tunc dövrunə aid kollektiv dəfn olduğu müəyyən edilsə də, orada yalnız bükülü vəziyyətdə, sol yanı üstə uzadılmış (R1a) bir insan skeleti aşkarlanmışdır. Onun baş və ayaq tərəfilərində keçi skeletləri üzə çıxıb (Гуммель Я. И., 1948, с. 20, рис. 8, № 2, 6, 10).

Nömrəsiz kurqanda əvvəlkilərdən fərqli olaraq, kremasiya adəti qeydə alınmışdır. Bu kurqan düzgün olmayan dairəvi planlı örtüyə sahib idi. Örtüyün diametri 10 m, hündürlüyü isə 2 m olub. Onun qəbir kamerası da, eynən örtüyü kimi, düzgün olmayan dairəvi formada və 3.5 m diametrdə idi. Kameranın giriş yolu da olub. Burada, aşkar edilmiş insan kəllələrinin sayı əsasında, 48 meyidin dəfn edildiyi hesab edilir (Cəfərov H., 2000, s. 31).

**Borsunlu kurqanları**. Tərtər rayonu ərazisində, Borsunlu nekropolunda aşkar ediliblər. Nekropol Borsunlu kəndi ətrafında, İncəcayın orta axarlarından tapılıb. Kurqanların bir hissəsi 1984-cü ildə kiçik fasilələrlə, 1981-1987-ci illərdə isə sistemli şəkildə H. F. Cəfərov tərəfindən tədqiq edilmişdir (Джафаров Г. Ф., 1983, с. 421; Джафаров Г. Ф., 1986, с. 56-61; Cəfərov H., 1985,

s. 79-88). Onların torpaq və xırda çınqıl qatışığından, bəzi hallarda isə çınqıl və çay daşlarından qurulmuş kromlexləri var idi. Kromlexlərin bir qismi bir, digər qismi isə iki cərgə təşkil edirdi.

H. Cəfərovun müşahidələrinə görə, qruplar halnda aşkar edilən bu kurqanların ən maraqlı cəhətlərindən biri o idi ki, qruplarda bir və ya iki böyük ölçülü kurqanı kiçik və orta həcmli kurqanlar əhatələyirdi. «Təbii ki, mərkəzdə yerləşmiş böyük kurqanlar tayfanın varlı üzvləri, onun ətrafındakı kurqanlar isə sıravi üzvlər üçün etibarlıdır. Kurqan qruplarına İncəçayın həm sol sahil (Qara su, Ağ qaya, Məlikli dərəsi, Gön dərə, Qara yol, Acı dərə, Arxaşan dərəsi, Mil dərəsi, Arpa dərəsi, Çəmənlik), həm də sağ sahil zonasında (Göllər, Səlbi dərəsi, Qazaxlar, Sulu dağ, Narlı dərə, Şorsu və s.) mövcuddur» (Cəfərov H., 2000, s. 32-33).

Borsunlu nekropolunda tədqiq edilmiş 30-dan çox kurqanın yalnız beşinin ilk tunc dövrünə aid olduğu müəyyən edilib. Bu kurqanlardan ilki, yəni 7 №-li kurqan 1981-ci ildə qazılıb. Onun, hündürlüyü 1 m, diametri 12 m olan örtüyü çay daşlarından, çınqıldan və torpaqdan ibarət idi. Qəbir kamerası kurqanın mərkəzində, yer səthindən 1,4 m dərinlikdə qazılmışdı. Uzunsov düzbucaqlı formaya və 3,5 x 2,5 x1,4 m ölçülərə sahib idi. Orada 19 ölünün dəfn olunması müəyyən edilmişdir. Onlar üç təbəqə şəklində dəfn edilmişdilər. Birinci təbəqədə sağ böyrü üstə bükülü vəziyyətdə dəfn olunmuş (R1a) bir skelet, 50 sm dərinlikdə yerləşən ikinci qatda 8 skelet, ondan da 50 sm aşağıdakı üçüncü təbəqədə 10 skelet aşkar edilib. «Ölülərin hədsiz sıx dəfn olunması, habelə gəc qatının tərkibinə daxil olan duzun dağıdıcı təsirindən, nəhayət qəbrə doldurulmuş daşların ağırlığından insan sümükləri parçalanmış və çürümüş, beləliklə, ölülərin anatomik quruluşunu bərpa etməyi çətinləşdirmişdir» (Cəfərov H., 2000, s. 33).

9 №-li kurqan 1983-cü ildə qazılmışdır. Diametri 14 m, hündürlüyü 1 m idi. Düzgün dairəvi quruluşa sahib örtüyü daş və gəc təbəqəsindən tökülmüş, ətəyi kromlexlə əhatə olunmuşdu. Qəbir kamerası örtüyün 0, 6 m dərinliyində, mərkəzdə aşkar edilib. Onun ölçüləri 3m x 2m x 1,4m idi. Buradakı ölü sağ böyrü üstə, bükülü vəziyyətdə uzadılmışdı (R1a) (Cəfərov H., 2000, s. 33-34).

Eyni ildə tədqiq edilmiş 12 №-li kurqanın örtüyü qara torpaq və böyük ölçülü daşlardan ibarət idi, 22 m diametrə və 2m hündürlüyə sahib idi. Ətrafı 2-3 cərgə kromlexlə əhatələnmişdi. Qərb-şərq istiqamətli qəbir kamerasının ölçüləri 6m x 5,5m x 1,5m idi və ona şərqdən 2,2m x 2m x 1m ölçülü giriş yolu bitişirdi. «Qəbrin müxtəlif hissələrində ölüyandırma (kremasiya) adəti ilə dəfn olinmuş beş insan skeletinin qalıqları tapılmışdır. Qalıqlar odun təsirindən yanıb kömürləşmiş kəllə və lülə sümüklərinin kiçik fraqmentlərindən ibarətdir. Görünür ölüyandırma mərasimi qəbir kamerasının içərisində icra olunmuşdur. Buna qəbir çalasının bütün dərinliyi boyu izlənilmiş qalın kül qalığı, qəbirə doldurulmuş daşların və kameranın divarının yanğın təsirindən qızarmış qırmızı rəng alması da sübut edir. Kremasiya üçün yanacaq kimi istifadə olunmuş ağac qol-budaqları axıradək yandığından kömür parçalarına təsadüf edilməmişdir». Kurqanda sallma qəbrə də rast gəlinib. Bu qəbir e.ə. XV əsrə aiddir (Cəfərov H., 2000, s. 34-35).

20 №-li kurqan da 1983-cü ildə tədqiq edilmişdir. Onun hündürlüyü 1,5 m, diametri 18 m olub, örtüyünün üst hissəsini daşlar, aşağı hissəsini isə boz rəngli gəc təşkil edib. Örtüyün aşağı qatında bükülü vəziyyətdə uzadılmış (R1a) uşaq skeletinin qalıqlarına rast gəlinib.

Kurqanın qərb-şərq istiqamətli, 3m x 1,7m x 1,4m ölçüyə sahib qəbir kamerasında heç bir qəbir avadanlığı tapılmayıb (Cəfərov H., 2000, s. 35).

26 №-li kurqanın hündürlüyü 0,6 m, diametri 8 m olub. Onun örtüyü qaratorpaq və gəc qarışığından ibarət idi. H. Cəfərovun yazdığına görə, düzbucaqlı quruluşlu, qərb-şərq istiqamətli qəbir kamerası (2,0 x 1,8 x 6m) kurqan örtüyünün altında, mərkəzi hissədə yerləşmişdir. «Qəbrin divarı gəc məhlulu ilə bərkidilmiş və əlavə olaraq çay daşları ilə «üzlənmişdir». Xatırladaq ki, 7 saylı Borsunlu kurqan qəbrinin divarı da bu üsulla bərkidilmişdir».

Alim yazır ki, kameranın döşəməsi yastı çay daşları ilə döşənmiş və burada sağ yanı üstdə (R1a), başı qərb istiqamətində, çox bükülü vəziyyətdə olan ölü dəfn olunmuşdur. «Qəbir avadanlığı ölünün kəlləsi yaxınlığında qoyulmuş qırmızı rəngli, düz

və geniş ağızlı camdan ibarətdir. Qabın tək qulpu lentvaridir. Oturacağı qalın, dar və yastıdır. Cam bütün əlamətləri ilə (rəngi, hazırlanma texnologiyası, qulpunun quruluşu və s.) tunc dövrünün erkən mərhələsi materiallarının xüsusiyyətlərini təkrar edir» (Cəfərov H., 2000, s. 35).

## Kültəpə, Babadərviş, yoxsa Leylatəpə: keramika etno-mədəni birliyin göstəricisi ola bilərmi?

Bu gün arxeoloqlarımızın kobud səhvi üzündən Cənubi və Şimali Qafqazın erkən kurqanları bütün dünyaya yanlış olaraq, «Leylatəpə mədəniyyəti» adı altında tanıdılmış və bu adlandırmaya səbəb isə Leylatəpə tipli yaşayış məskənlərindən tapılmış keramika nümunələri ilə erkən kurqanlardan aşkar edilən keramikanın bənəzərliyi olmuşdur. Bənzərlik dedikdə, ilk növbədə saxsı qabların hazırlanma texnologiyası, forması, materialı və bəzək elementləri nəzərdə tutulur. Lakin bu və ya digər məişət əşyasının hazırlanma texnologiyası etno-mədəni birliyin göstəricisi ola bilməz, olsa-olsa, müxtəlif etno-mədəni sistemlər arasındakı mədəni-texnoloji əlaqələrin, qarşılıqlı təsirlərin göstəricisi ola bilər.

Leylatəpə tipli yaşayış məntəqələrindən məlum olan dəfn adətləri ilə kurqanda dəfn adətləri arasındakı əsaslı fərqlər bu iki mədəniyyət arasında hansısa genetik bağın olması məsələsini böyük sual işarəsi altında qoyur? Əlbəttə, son sözü genetik analizlər deyəcək. Hələlik isə bir şeyi tam dəqiqliklə söyləmək olar: Soyuqbulaq kurqanları başda olmaqla Qafqazın erkən kurqanlarını Leylatəpə mədəniyyətinə aid etmək böyük səhvdir.

N.Müseyibli özününü «Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətləri» adlı kitabının elə giriş hissəsində göstərir ki, Cənubi Qafqazın erkən əkincilik dövrü mədəniyyətlərinin tarixi başlıca olaraq yaşayış məskənlərinin arxeoloji qazıntıları əsasında oyrənilmiş, qazıntılar nəticəsində, eyni zamanda yaşayış yerlərində həmin dovrə aid torpaq qəbirləri də aşkar edilmişdir (Həbibullayev 1959). Onun sözlərinə görə, sonrakı illərdə torpaq qəbirləri Qarabağın və Muğanın neolit və eneolit mərhələlərinə aid yaşayış məskənlərində tədqiq edilmişdir (Нари-

манов 1987; Mahmudov 1984). «Gəncə – Qazax bolgəsinin erkən əkincilik mədəniyyətinin e.ə. IV minilliyə qədərki mərhələlərinə aid abidələri üçün belə qəbirlər səciyyəvi deyildir. Bununla yanaşı Babadərviş yaşayış yerində iki torpaq qəbirin tədqiq edildiyi barədə məlumatlar vardır (İsmayılov, Əliyev 1972).

İ.Nərimanov tərəfindən Qarabağda eneolit dovrunə aid Leylatəpə yaşayış yerində aparılan qazıntılar nəticəsində Leylatəpə mədəniyyətinin kəşf edilməsi ilə Cənubi Qafqazın arxeologiya elmində yeni bir istiqamətin əsası qoyulmuşdur (Нариманов 1985). Eyni zamanda Leylatəpə yaşayış məskənində saxsı qablarda körpə uşaq qəbirləri aşkar edilmişdir. Ön Asiyanın neolit və xalkolit dövru abidələri üçün səciyyəvi olan belə qəbirlər bütövlükdə Qafqaz üçün yeni qəbir tipi idi» (Müseyibli N., 2014, s. 4).

Beləliklə, N. Müseyibli Leylatəpə mədəniyyətinin Qafqaza kənardan gəldiyini və özü ilə tamam fərqli dəfn adəti gətirdiyini etiraf edir. Söhbət saxsı qablarda dəfn adətindən gedir. Bilavasitə Leylatəpədən 4 (Алиев, Нариманов 2001, с. 17-18), Çinartəpədən 1(Алиев, Нариманов 2001, с. 22), Gürcüstandakı Berkldeebidə 1 (Глонти, Джавахишвили 1987, с. 85), I Böyük Kəsikdə 6, I Poyluda 1, II Poyluda 4, Soyuqbulaq kurqan çölündə 3, Qalayeridə 9 (Müseyibli N., 2014, s. 56-65) belə qəbir aşkar edilmişdir.

Maraqlıdır ki, küpdə basdırılanlar yanı üstə, bükülü vəziyyətdə olublar. Kurqanlarda da eyni pozada basdırılma adətinə rast gəlinir. Lakin küp qəbirlərin kurqan qəbirlərinin praobrazı olmadığı məlumdur. Çünki bu iki qəbir tipi minillər boyu yanaşı yaşamışlar. Amma bənzər pozada, eləcə də arxası üstə dəfn adətilərnin icra edildiyi torpaq qəbirləri kurqanda dəfn adətinin praobrazı hesab etmək olar. Bunu təkcə meyitlərin torpaqda qazılmış çalalarda basdırılması sübut etmir, həm də qəbirlərə oxra səpilməsi də sübut edir. Bu baxımdan Naxçıvan Kültəpəsinin kurqanaqədərki eneolit dövrü qəbirlərini misal çəkmək olar. Həmin qəbirlər barədə İ. Aşurova və Q. Pirquliyevə yazırlar ki, təkcə Azərbaycan ərazisində - I Kültəpənin eneolit dövrü təbəqəsində 85 qəbir açılmışdır. Buradan çıxan skeletlər ölülərin bükülü vəziyyətdə və ya böyrü, yaxud da arxası üstə, müxtəlif istiqamət-

lərdə dəfn edildiyini göstərir. «Bəzi skeletlərin üzərinə qırmızı oxra səpilmişdir. Qəbirlərin bəzilərindən it skeleti, bir qism qəbirlərindən gil qablar, cürbəcür muncuqlar və dəvəgözü daşından əşyalar tapılmışdır. Belə qəbirlər Babadərviş və digər abidələrdə də üzə çıxarılmışdır. Azərbaycan ərazisində öyrənilmiş eneolit dövrü abidələrinin çoxunda qəbirlər bilavasitə yaşayış məskənlərində qazılmışdır. Bu adət Yaxın və Orta Şərqin bir çox ölkələrində uzun müddət qalmışdır. Belə qəbirlər, bir qayda olaraq, yaşayış yerlərinin mədəni təbəqəsində və yaxud xam torpaqda qazılırdı» (Avşarova İ. N., Pirquliyeva Q. Ə., 2010 s. 61).

Kültəpə abidəsinin üzərində xüsusi durmağımızın əsas səbəbi bir yandan onun yerləşdiyi Naxçıvan ərazisinin Ön Asiyanın qədim mədəniyyət mərkəzlərinə yaxınlığı, həm də oradakı qəbirlərin nisbətən yaxşı öyrənilmiş olmasıdır.

II Poyluda həm küp, həm də torpaq qəbirlərdə dəfn adətinə rast gəlinməsi gəlmələrlə yerlilər arasında heç bir problemin yaşanmamasından, onların bir-biri ilə yanaşı, hətta iç-içə yaşamasından və öz dəfn adətlərini azad şəkildə icra etməsindən xəbər verir. N.Müseyibli həmin ərazidən tapılmış torpaq qəbirləri belə təsvir etmişdir:

«**1 №-li torpaq qəbiri** 6-cı kvadratın şərq hissəsində aşkar edilmişdir. Qəbir kamerasının üst əlamətləri 85 sm dərinlikdən başlayaraq izlənilirdi. Qəbir kamerasının alt 20 sm-i materikdə qazılmışdır. Demək olar ki, dairəvi formalı qəbir kamerası 2 x 1,9 m ölçüsündə olmuşdur. Qəbirdə yaşlı kişi dəfn edilmişdir. Meyit arxası üstdə, şimali-şərq – cənubi-qərb istiqamətində uzadılmışdır. Onun alt çənəsi üst çənədən ayrılaraq boğazının üstünə düşmüşdür. Azacıq yanlara meylli qolları dirsəkdən kəskin bukulmuş, əlləri çiyinlərinə qoyulmuşdur. Ayaqları dizdən bükülü olub sağ tərəfə yönəlmişdir.

Qəbir kamerasının bütün səviyyələrində eneolit dövrünə aid saxsı qab fraqmentləri aşkar edilmişdir. Lakin həmin materiallar buraya düşünülmüş şəkildə, dəfn ayini ilə əlaqədar qoyulmamışdır. Qəbir kamerasının qazılması, meyitin oraya uzadılmasından sonra isə yenidən doldurulması zamanı mədəni təbəqədəki saxsı

qab fraqmentləri də torpaqla qarışıq qəbir çalasına tökülmüşdür. Qəbirə aid heç bir avadanlıq aşkar edilmişdir.

**2 №-li qəbir** 11-ci kvadratın şərq tərəfində aşkar edilmişdir. Qəbir kamerasının əlamətləri 80 sm dərinlikdən başlayaraq izlənilirdi. Qəbirin döşəməsi 150 sm dərinlikdə materik üzərində yerləşmişdi. Oval formalı qəbir kamerasının ölçüləri şərq-qərb istiqamətində 140 sm, şimal-cənub istiqamətində isə 110 sm olmuşdur.

Qəbirdə dəfn edilmiş kişi meyiti başı qərbə olmaqla arxası üstə uzadılıb. Qolları dirsəkdən qatlanmış, əlləri qurşaq hissəyə qoyulmuşdur. Sağa yönəlmiş və dizdən qatlanmış, ayaqları sıx bükülü vəziyyətdədir. Skeletin yalnız alt çənəsi öz yerində aşkar edilmişdir. Üst çənə və kəllə sümüyü skeletlə birgə aşkar edilməmişdir

Dəfn zamanı qəbir kamerasına torpaqla qarışıq düşmüş keramika fraqmentlərindən əlavə, məqsədyönlü şəkildə, dəfn ayininin icrası ilə əlaqədar olaraq qəbirə bəzi əşyalar qoyulmuşdur. Belə ki, meyitin sol çiyninin üstündə işlənmə izləri olan uzunsov çay daşı qoyulmuşdur. Həmin çay daşı ilə təxminən eyni ölçüdə heyvan sümüyü skeletin sağ çiyini üzərində tapılmışdır. Sağ çiyini yanında həm də obsidian parçası aşkar edilmişdir. Sol qolunun altında 41 sm uzunluğunda, üzərində işlənmə izləri olan çay daşı qoyulmuşdur. Həmin daşla bilək sümüyü arasında bir tərəfi dişəklənmiş obsidian qəlpəsi aşkar edilmişdir. Sağ dirsəyindən aşağıda isə 9 x 6,5 sm ölçüdə çay daşı qoyulmuşdur. Skeletin çanaq sümüyündən arxada iri buynuzlu heyvanın çənə sümüyü aşkar edilmişdir.

Skeletin sol qolunun altında aşkar edilmiş uzunsov çay daşının uzunluğu 41 sm, eni 8-9 sm, qalınlığı isə 6 sm-dir. Daşın səthi hamardır. Orta hissəyə yaxın yerdə kənarlardan sürtülmüş, sanki ona fiqur forması verilməsinə cəhd göstərilmişdir. Nisbətən nazik sonluğuna yaxın yerdə hər iki kənarda döymə-sürtmə üsulu ilə hamarlama işi aparılıb. Belə işlənmələrdən sonra bu daş çox ehtimal ki, antropomorf fiqur ideyasının daşıyıcısı kimi qəbirə qoyulmuşdur.

Skeletin sol çiyini üstündə aşkar edilmiş nazik, kvadrat kəsikli uzun çay daşının iki üzü işlənmə nəticəsində sürtülərək hamarlanmışdır. Bir sonluğa doğru nazikləşir.

Digər nazik, uzunsov çay daşının səthi sürtülmə nəticəsində hamarlanmışdır» (Müseyibli N., 2014, s. 65-67).

Beləliklə, əgər I Kültəpənin eneolit təbəqəsində həm böyrü üstə, bükülü vəziyyətdə (R1a), həm də arxası üstə (R1b) basdırılanlara rast gəliriksə, II Poyludakı torpaq qəbirlərində basdırılan hər iki meyitin arxası üstə dəfn edildiyini (R1b) görürük. Bu isə bizə kurqan mədəniyyətinin daşıyıcılarının etno-mədəni baxımdan Leylatəpə mədəniyyəti ilə deyil, Ön Asiyanın (Anadolu və Cənubi Azərbaycan) və Cənubi Qafqazın, o cümlədən Azərbaycanın yerli neolit-eneolit əhalisi ilə bağlamağın daha doğru olacağını söyləməyə əsas verir.

Keramikaya və ümumiyyətlə maddi-mədəniyyətə gəlincə isə, bu faktoru etno-mədəni birliyin göstəricisi hesab etmək olmaz. Deyilənlərə ən gözəl sübut Qərbi Azərbaycanda, Arpaçay sahilində yerləşən adı ermənilər tərəfindən bütün dünyaya «Areni-I mədəniyyəti» kimi tanıdılan eneolit-ilk tunc dövrünə aid Arpa mağarısının sakinlərinin mədəniyyətini göstərmək olar.

Dərələyəzdə, Keşişkənddən 12 km cənub-şərqdə, Arpaçay vadisindəki Arpa (Araeni) kəndinin yaxınlığında yerləşən, sahəsi 400 м² olan Arpa (Areni 1) mağarasında 2007-ci ildən günümüzə qədər davam edən arxeoloji tədqiqatlar burada V-IV minilliklərdə yaşayış olduğunu, mağara sakinlərinin maddi mədəniyyət baxımından Kür-Araz mədəniyyətinin daşıyıcılarından, demək olar ki, fərqlənmədiyini üzə çıxarmışdır. Erməni, yəhudi, fransız və irland alimlərin birgə araşdırmaları nəticəsində mağaradan 11-16 yaşlarında olduğu zənn edilən üç qızın kəllə sümüyünə rast gəlinmişdir (Кореневский С., 2010; Smith A., Bagoyan T., Gabrielyan I., Pinhasi R. & Gasparyan B., 2014, s. 233-260; Stapleton L., Margaryan L., Areshian G., Pinhasi R. & Gasparyan B., 2014, s. 219-232). Həmin kəllə sümüklərinin DNT analizləri nəticəsində onların L1a haplotipinin daşıyıcısı olduğu məlum olmuşdur (İain Mathieson, et al., 2016).

Mütəxəssislər qazıntı şəkildə tapılan ən qədim variantının Qafqazdan əldə edilməsinə rəğmən, L haploqrupunu Hindistan mənşəli hesab edirlər. Genetika sahəsində tanınmış mütəxəssis Senqupta di-

gər alimlərlə birlikdə apardığı tədqiqatlar sonucunda bu haploqrupun üç törəmə variantını üzə çıxarmışlar: L1-M76, L2-M317 və L3-M357. Bu tiplərin hər üçünə İranda və Pakistanda, L1-ə isə Hindistanda rast gəlinmişdir. Belə bir fərziyyə irəli sürülmüşdür ki, bu haploqrupun sahibləri dravid dillərində danışmışlar. Avropada daha çox L2-M317 haplotipinə rast gəlinir.Bu haplotipə Cənubi Asiyada nadir hallarda rast gəlinir (Sengupta S. et al., 2006, p. 202-221).

Hazırda L-ə Hindistanın müxtəlif bölgələrində 7-15 % arasında rast gəlinir (Basu et al., 2003; Cordaux et al., 2004; Sengupta et al., 2006; Thamseem et al., 2006). Pakistanın cənub-qərbində, Bəlucistanda bu gəstərici 28 %-ə çatır. Hindistan qəbilələrində isə həmin göstərici çox aşağıdır və təqribən 5,6-7 % təşkil edir (Cordaux et al. 2004, Sengupta et al. 2006, Thamseem et al. 2006) ki, bu da həmin haploqrupun bu bölgənin paleolit dövrü əhalisi üçün xarakterik olmadığını düşünməyə əsas verir. Bütün bunlarla yanaşı onu da qeyd etməliyiik ki, daha öncəki tədqiqatçılar, məsələn, Uells və başqaları (Wells et al. 2001), Hindistanın cənubunda L haploqrupunun daşıyıcılarının 50 % təşkil etdiyini yazmışlar.

L3 haplotipinə daha çox Pakistanda buriş və pəştular, eləcədə Hind çayı vadisi əhalisi içərisində rast gəlinir. L1a və L1c bəluclarda üstünlük təşkil edir (24%). Draviddilli braqueylərdə isə eyni haplotiplər cəmi 8% təşkil edir (Julie di Cristofaro et al. 2013). L3 Pakistanın şimal-qərbində, Əfqanıstanda və İranda yaşayan, dil və mədəniyyətcə talışlara daha çox yaxın olan qalaşlarda da kifayət qədərdir (təqribən 23 %). Bununla belə, talışlarda həmin haplotipə rast gəlinməyib. Pakistanda yaşayan atəşpərəst parslarda (tatlarda) L haploqrupu 18 %-dir (Qamar R., Qasim Ayub, Aisha Mohyuddin, Agnar Helgason, Kehkashan Mazhar, Atika Mansoor, Tatiana Zerjal, Chris Tyler-Smith, and S.Qasim Mehdi, 2002, p.1107-1124).

Fikrimizcə, hindavropalıların və arilərin kökünü prototürk mənşəli R1a və R1b-də axtaran avropalılar nəzərlərini L haploqrupu üzərində cəmləşdirsəydilər, daha doğru addım atmış olardılar. Çünki bu haploqrupun daşıyıcılarına başqa dillərdə danışan xalqlarda da rast gəlinməsinə rəğmən, onlar hindirandillilərə nisbətdə əhəmiyyətsiz dərəcədə azdırlar. Beləələri içərisində hazırda Livan və

İsraildə yaşayan və ərəb dilində danışan druzları göstərmək lazımdır. Druzların təqribən 5 % - ində L-M20 haplotipimə rast gəlinib. Ermənistanda L1a təqribən 1 % civarında, Türkiyədə 4 % (əsasən kürdlər arasında yayğındır), Gürcüstanda isə 6 % təşkil edir.

Beləliklə, faktlar iki və daha çox müxtəlif etnosun eyni maddi mədəniyyətə və texnologiyaya sahib ola biləcəyini, bu eyniliyin, o cümlədən keramika istehsalındakı bənzərliyin etno-mədəni birliyin əlaməti kimi götürməyin doğru olmayacağını göstərir. Odur ki, «Kür-Araz eneoliti» kurqanlarını «Leylatəpə mədəniyyəti» adı altında təqdim etmək, fikrimizcə, səhvdir. Amma ola bilsin ki, gələcəkdə küp qəbirlərində dəfn olunmuş skeletlərdən də DNT analizləri götürülsün və onların da R1a haploqrupunun daşıyıcısı olduğu üzə çıxsın. Hələlik belə analizlər aparılmayıb, aparılıbsa, bizə məlum deyil. Əgər küp qəbirlərindən də eyni nəticə çıxarsa, bu o demək olacaq ki, biz ölülərini iki fərqli şəkildə basdıran, yəni iki fərqli dinə və yaxud eyni dinin iki fərqli qoluna sitayiş edən vahid etnosun nümayəndələri ilə üz-üzəyik.

Əldə olan məlumatlara görə, «Yaxın Şərq mədəniyyətlərinin periferiyasında, bu mədəniyyətlərə Balkanlardan daha yaxın məsafədə yerləşən Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Yaxın Şərqlə sıx bağlı olan neolit və eneolit dövrünə aid I Kültəpə tipli abidələrində saxsı qablarda dəfnlərə rast gəlinmir. Eyni zamanda orta Kür hövzəsinin e.ə. VII-VI minilliklərə aid neolit dövrü Şomutəpə mədəniyyəti abidələrində də nə torpaq qəbirlər, nə də saxsı qab qəbirləri aşkar edilməmişdir. Bu fakt qeyd edilən dövrdə Ön Asiyadan Cənubi Qafqaza miqrasiyaların və ya müəyyən insan qruplarının lokal köçünün baş vermədiyini göstərir» (Müseyibli N., 2014, s. 68).

V.Baxşəliyevin yazdığına görə, Cənubi Qafqazda küpdə ən qədim qəbir Naxçıvandakı Ovçulartəpə yaşayış yerinin e.ə. V min. sonlarına aid təbəqəsində aşkar edilmişdir (Baxşəliyev və b. 2011, s. 329).

N.Müseyibli qeyd edir ki, Cənubi Qafqazın digər belə qəbirlərindən fərqli olaraq Ön Asiya mənşəli bu qəbirdə avadanlıq – son eneolit dövrü üçün nadir tapıntılar olan 3 ədəd metal balta

aşkar edilmişdir. «Onlardan biri Leçinkay (Şimali Qafqaz) tiplidir» (Müseyibli N., 2014, s. 68).

Alim bildirir ki, Yaxın Şərqin neolit və eneolit dövrü yaşayış məskənlərinin əksəriyyətində körpə uşaqların gil qablarda dəfn edilməsi adəti mövcud olmuşdur. «Ubeyd mədəniyyətinə, o cümlədən onun lokal variantı olan və Mesopotamiyanın şimal əraziləri-ni əhatə etmiş Şimali Ubeyd mədəniyyətinə aid yaşayış məskənlərinə məxsus, yaşlı insanların dəfn edildiyi ayrıca nekropollar mövcud olmuşdur. Bununla yanaşı körpə uşaqların meyitləri küplərdə, evlərin döşəməsi altında dəfn edilirdi (Массон 1989, c. 87). Şərqi Türkiyədəki Dəyirmantəpə qədim yaşayış məskəninin Ubeyd mədəniyyəti təbəqəsində də körpə uşaqların dəfn edildiyi saxsı qablardan ibarət qəbirlər aşkar edilmişdir. Burada həmin qəbirlər – saxsı qablar həm evlərin döşəməsi altında – materikdə qazılmış çalalara, həm də evlərin divarlarına qoyulmuşdur. Belə qəbirlər Yaxın Şərqin xalkolit dövrünə (e.ə. V min. ikinci yarısı – IV min.) aid əksər abidələrində aşkar edilmişdir» (Müseyibli N., 2014, s. 67-68).

Maraqlıdır ki, N. Müseyibli istər ölülərini küpdə, istərsə də kurqanda dəfn edən topluluqların dəfn adətləri arasında bəzi paralellər görür və yazır ki, Leylatəpə mədəniyyətinin haqqında bəhs edilən qəbirlərinin istiqamətində şimal, qərb və şimali-qərb əsas götürülmüşdür. «Maraqlıdır ki, Soyuqbulaqda aşkar edilmiş gil qablardan ibarət qəbirlərin və kurqanaltı qəbirlərin istiqaməti də şimali-qərb – cənubi-şərq, şimal-cənub istiqamətlidirlər. Bütün bunlar Leylatəpə mədəniyyəti tayfalarının dəfn adətlərində istiqamətin seçilməsi məsələsində (şimali-qərb) müəyyən qaydaların mövcudluğunu göstərir. Çox güman ki, şimali-qərb dəfn mərasimi üçün müəyyən edilmiş istiqamət olmuşdur. Bəzi hallarda qəbirlərin və ya skeletlərin şimal və ya qərb istiqaməti şimali-qərb istiqamətindən təsadüfi yayınma olub düşünülmüş, məqsədyönlü şəkildə icra edilməmişdir (Müseyibli 2006, s. 13).

Alimin fikrincə, bu fakt Leylatəpə və Maykop mədəniyyətləri arasında genetik bağlılığı göstərən daha bir sübutdur. Bununla belə, o, Leylatəpə mədəniyyəti üçün xarakterik olan küp qəbirlərə Maykop mədəniyyətində rast gəlinmədiyini də etiraf

edir və bildirir ki, mənşə etibarilə Leylatəpə mədəniyyətinə bağlı olan Maykop mədəniyyətində gil qablarda körpə uşaqların dəfnlərindən ibarət qəbirlər aşkar edilməmişdir. «Görünür, bu adət Şimali Qafqaza yayılmadan Leylatəpə mədəniyyəti arealında sıradan çıxmışdır. Ola bilsin ki, bu həm də Maykop mədəniyyətinin yaşayış yerlərinin zəif öyrənilməsi ilə bağlıdır və gələcəkdə belə qəbirlərin bu mədəniyyətin abidələrində aşkar ediləcəyi istisna deyildir» (Müseyibli N., 2014, s. 69).

## Şumer və Misirin hakimləri: Araslantəpədə aparılan qazıntılar prototürklərin dövlətçilik ənənələrinin əsasının Kür-Araz mədəniyyəti dövründə qoyulduğunu təsdiq edir

Mütəxəssislər Eneolit dövründə Qafqaza Yaxın Şərqdən miqrasiya edən Ubeyd mədəniyyəti təmsilçilərindən söz açarkən onların gəldikləri ərazilər sırasında Türkiyədəki Arslantəpənin də adını xüsusi çəkirlər (Андреева М.В., 1977; Черных Е.Н., 2009, s. 212, 219). Məsələn, 18 №-li Soyuqbulaq kurqanında aşkar edilmiş «Coba bowl» tipli kasadan söz açan N.Müseyibli onun paralellərinin Şərqi Anadolu-Şimali Mesopotamiyanın Uruka qədərki xalkolit abidələrindən – Arslantəpə, Oylum Höyük (Helwing 2012, p. 2012), Hammam at Türkman (Akkermans 1988, p. 312-313) və s. abidələrdən məlum olduğunu diqqətə çatdırır (Müseyibli N. 2014, s. 45). Ümumiyyətlə, «Kür-Araz eneoliti»nin, eləcə də Kür-Araz mədəniyyətinin etno-mədəni bağlarının dəqiqləşdirilməsində Malatyada yerləşən Arslantəpədə aparılmış qazıntılar nəticəsində aşkar edilmiş arxeoloji materialların böyük rolu olmuşdur. Bu materialların A. Palmeri tərəfindən dərcindən sonra (Palmiery A, 1973) eneolit və ilk tunc dövrlərində Şərqi Anadolu-Qafqaz etnomədəni birliyi barədə fikirlər ortaya çıxmışdır.



**Arslantəpədən tapılmış silindrik möhürün (e.ə. IV minilliyin sonları) basma əksi**

Qazıntılarına hələ 1933-cü ildən başlanılan Arslantəpədə öncə hetlər (hithitlər) dövrünə aid üst mədəni təbəqələrindən biri öyrənilmiş, sonrakı illərdə L. Laportyenin rəhbərlk etdiyi bir fransız heyət (Laporte L., 1933, s. 119-254; Laporte L., 1934, s. 257-285; Laporte L., 1939, s. 43-56) buranın e.ə. V minillikdə məskunlaşdığını, şəhərdə həyatın kəsintiyə uğramadan b.e. XI əsrinə qədər davam etdiyini təsbit etmişdir (Palmieri, 1981, s. 101-119).

1960-cı illərdən etibarən başlanılan işi italyan arxeoloqlar davam etdirmişlər. Qazıntıları bundan sonra Romanın La Sapienza Universitetindən olan arxeoloqlar qrupu aparmışdır. Qrupa 1970-ci illərə qədər A. Palmieri (Palmieri, 1981, s. 101-119), ondan sonra isə M. Frangipane başçılıq etmişlər (Burney C., 1993, s. 311-317; Frangipane M., 1997).

Belə hesab edilir ki, son Uruk dövrü ilə eyni dövrə təsadüf edən dövrdə, yəni e.ə. 3400-3200-cü illərdə burada geniş yanğınlar olmuşdur. Həmin dövrdən etibarən yaşayış məskəni Qafqazdan gələn yarımköçəri tayfaların hakimiyyəti altına keçmiş və bura əvvəlkindən xeyli böyük bir şəhərə çevrilmişdir (Palmieri, 1981, s. 101-119). M.Frangipanenin yazdığına görə, sözügedən yarımköçərilər Kür-Araz mədəniyyətinin daşıyıcıları idilər (Frangipane M., 2014, p. 169 -182).

Aparılan arxeoloji tədqiqatlar nəticəsində Arslantəpədə e.ə. 3600-3500-ci illərə aid bir məbədin qalıqlarına, eləcə də e.ə. 3300-3000-ci illərə aid saray kompleksinə rast gəlinmişdir. Buradan xeyli miqdarda möhür, mis, gümüş və qızıldan hazırlanmış müxtəlif təyinatlı əşyalar tapılmışdır. Bütün bunllar arxeoloqlara həmin dövrdə Arslantəpənin önəmli bir siyasi, dini və mədəni mərkəzə çevrildiyini söyləməyə əsas vermişdir (Burney C., 1993, s. 311-317).

Şübhəsiz ki, bütün bu tapıntılar içərisində 2015-ci ildə Arslantəpə sarayından üzə çıxan, e.ə. IVminilliyin sonlarına aid edilən kərpicdən hörülmüş hökmdar taxtı daha böyük önəm daşıyır. Maraqlıdır ki, taxtın arxasında, divarda iki pəncərəyə, daha doğ-

rusu onların qalıqlarına rast gəlinib ki, bu da çox maraqlı tapıntılardan biri hesab edilir (Frangipane M., 2014, p. 169 -182).

Mövzumuz baxımından ən maraqlı tapıntı isə Sarayın yaxınlığında aşkar edilən, e.ə. 2900-cü ilə aid olan kurqandır. Alimlər onun hökmdarlardan birinin məzarı olduğu fikrindədirlər. Maraqlıdır ki, kurqanın qəbir kamerasının daş örtüyü üzərində oturdulmuş vəziyyətdə dəfn edilmiş dörd gənç yaşlarında insan skeletinə də rast gəlinmişdir ki, onların qurban edildikləri sanılır (Palmieri, 1981, s. 101-119).

Ərazidə uzun illərdən bəri arxeoloji qazıntılar aparmış arxeoloqların dediklərdən belə aydın olur ki, Arslantəpəyə təqribən e.ə. 3400-cü illərdə Güney Qafqazdan gələn Kür-Araz mədəniyyəti (R1b) daşıyıcıları hakim olmuş, təqribən e.ə. 3300-cü ildə burada dövlət qurulmuş və hökmdar sarayı mövcud olmuşdur. Sarayda oturan hökmdarlar kurqanlarda dəfn edilərdi və dövrümüzədək e.ə. 2900-cu illərə aid belə kurqanlardan, yəni hökmdar kurqanlarından biri gəlib çıxmışdır. Bu isə o deməkdir ki, artıq ən azı e.ə. 3300-3200-ci illərdə burada bir prototürk dövləti mövcud idi. Daha doğrusu bu şəhər bütün «Kür-Arazlı»ların bir növ paytaxtı, mədəni və siyasi mərkəzi idi.

Əldə olan məlumatlar bu mədəniyyətin yaranmasında protooğuzların birbaşa iştirak etdiyini söyləməyə tam əsas verir. Bunu təkcə genetik tədqiqatların nəticələri deyil, həm də Kür-Araz mədəniyyəti dövrünə aid qayaüstü rəsmlər içərisində aşakar edilən oğuz damğaları sübut edir.

Ənənəyə görə oğuzlar 24 tayfaya bölünürlər. Yalnız Mahmud Kaşğari onların sayını 22 göstərir. Ancaq o da bu siyahıya 2 xalac tayfasn əlavə edərək sayı ənənvi 24-ə çatdırır. "Qorqud Kitabı"nda da 24 rəqəmi təkrarlanır. Müasir Orta Asiya türkmənləri də 24 tayfaya bölünürlr. Ancaq onların adları çox dəyişmişdir. Qədim adları yalnz 4 tayfa (Salır, Əmirli, Çaudar, Karqın) saxlamışdır. Maraqlıdır ki, Türkmənistanda yaşayan türkmənlərdən fərqli olaraq, Ön Asiya türkmənlərinin etnik tərkibi genoloji cəhətdən klassik şəklinə (M.Kaşqarlı variantı) uyğun gəlir" (Koroğlu, 1999, s. 15-16).

S.P.Tolstov və ona istinad edən X.Koroğlu Səlcuqluların Azərbaycan və Ön Asiyaya köçündən öncə də türkmənlərin, yəni oğuzların yaşadığını etiraf etmişlər (Толстов, 1938, s. 80; Koroğlu, 1999, s. 14-15). Şübhəsiz ki, bunlar «Kür-Araz eneolitini» və Kür-Araz mədəniyyətini quran, damarlarında R1b Y-xromosomunu daşıyan (İain Mathieson, et al., 2016) ən qədim oğuzların nəsilləridir. Onlar hələ Kür-Araz mədəniyyəti dövründə öz damğalarını qayaların üzərinə həkk etmişlər və bunun da sayəsində biz Kür-Araz mədəniyyətinin, o cümlədən e.ə. 3300-3200-cü illərdə təməlləri Arslantəpədə atılan ilk dövlətimizin (Frangipane M.,2002) məhz hansı protooğuz, eləcə də protoqıpçaq boy və soyları tərəfindən qurulduğunu çətinlik çəkmədən müəyyənləşdirə bilirik.

Professor Cəfər Cəfərovun yazdığına görə, türk soy və boylarının ən qədim düşərgələrini, ata-baba yurdlarını, onların doğma vətənlərini, habelə mövcud olmuş ünvanlarını müəyyənləşdirmək üçün həmin tamğaların müstəsna əhəmiyyəti vardır. Tamğa və işarələr, bir sıra başqa xalqlarda olduğu kimi, türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin də etnogenezində iştirak etmiş soy və soybirləşmələrinin qədim yazı nümunələri kimi qiymətlidir. Azərbaycanın bir sıra rayonlarından tapılmış və 10-12 min əvvələ və daha sonrakı dövrlərə aid edilən müxtəlif işarə və tamğalar haqqında Cəfər Cəfərov və Əbülfəz Hüseyni kimi tədqiqatçılar fikir söyləmiş, Əbülfəz Hüseyni Gəmiqaya təsvirləri, Cəfər Cəfərov Qobustan petroqlifləri içərisindən üzə çıxartdıqları, Firəngiz Muradova isə Şirvan zonasında tapdığı tamğalardan söhbət açmışlar (Cəfərov, 1987, s. 29-36).

Mövzumuz baxımınadan e.ə. III minilliyə aid edilən, İranın şimal-qərbində yerləşən Timərə (Teymərə) qayalıqlarında rast gəlinən oğuz boylarına məxsus damğaların (Naserfərd M., 2016) müstəsna əhəmiyyəti var. Bu damğalar protooğuzların bu ərazilərin ən qədim avtoxton sahibləri olduğunun, buralarda ən azı Erkən Tunc dövründən məskun olduqlarının və dünya sivilizasiyasında önəmli mərhəllərdən biri olan Kür-Araz mədəniyyətinin yaradıcıları qismində çıxış etdiklərinin təkzibedilmz sübutudur.

M.Frangipane e.ə. IV minilliyin ikinci yarısında «Kür-Arazlı»ların, yəni protooğuz-qıpçaqların Arslantəpədə qurduqları dövləti (Frangipane M.,2002) şəhər dövləti adlandırır. Amma, bu dövləti quranların folklor yaddaşında həmin dövlətin nüfuz dairəsi çox günişdir və Avropaya (Çuxur, Döyüş baltaları və Maykop mədəniyyətləri) qədər uzanır: «Bayandır xan padşahlığı dövründə İranı, Turanı, Rumu, Şamı, Misiri, Əfrənci (Avropanı), Xətayı, Qıpçaq çöllərini aldı. Beçenek onun kiçik qardaşı idi. Bayandır xan onu Sayramda öz nümayəndəsi təyin etdi. Özü qışlamağa Qarabağa, yaylamağa Göyçə gölünə getdi» (Koroğlu, 1999, s. 66).

Mətndə Göyçə gölünün adının çəkilməsi, buraların protooğuzların yaylaq yerinin olmasının qeyd edilməsi çox maraqlıdır. Bu sözlər Qərbi Azərbaycandan tapılmış ilk tunc dövrünə, yəni Kür-Araz mədəniyyəti dövrünə aid kurqanlarla da öz təsdiqini tapır. Bu baxımdan qazıntıları 1985-1991-ci illərdə gerçəkləşdirilmiş 7, 10, 11, 12 №-li Alagöz (Talin) kurqanlarını misal çəkə bilərik. Bu abidələr Talin şəhəri yaxınlığında, Alagöz dağının ətəklərində aşkar edilmişlər. Onlar IV minilliyin sonu-III minilliyin əvvəllərinə aid edilirlər.

Alagöz (Talin) abidələrindən 7 №-li kurqanın üst örtüyü daşdan olub, hündürlüyü 0,8 m, diametri isə 13 m kimi qeydə alınıb. Kurqan örtüyünün aldından çıxan və kromlexlə əhatələnən daş düzümüün altında aşkar edilən 2,3 x 1,2 x 1,4 ölçülü qəbir kamerasının divarları bazalt daş pilitələrdən qurulmuşdu. Düzbucaqlı formada olan cənub-şərq – şimal-qərb istiqamətli kameranın küncləri oval şəkildə idi. O, dromosa sahib idi və onu dromosdan daş pilitə ayrırdı.

Kamerada, dromosa yaxın tərəfdə insan skeleti və xırdabuyunuzlu heyvana aid on ədəd sümük qalığı aşkar edilib.

Hündürlüyü bir metr olan 10 №-li Alagöz (Talin) kurqanının örtüyü daşlardan qurulmuşdu və sanki, iki hissədən ibarət idi. Bunlardan kiçik hissənin diametri 11 m, örtüyün ümumi diametri isə 25 m idi.

Kurqan örtüyünün altında daş yığınına rast gəlinib. O, iki cərgə kromlexlə əhatələnmişdi. Kromlexin diametri 7,5 m idi. Qəbir

kamerası daş yığımının altında, qərb tərəfdə aşkar edilib. Cənub-qərb – şimal-şərq istiqamətli kamera 2,1 x 2 x 1 m ölçüsündə idi. Burada skeletə rast gəlinməyib, sadəcə keramika fraqmentləri, tunc bəzək əşyaları və pastadan hazırlanmış muncuqlar tapılıb.

7 №-li Alagöz (Talin) kurqanına tam bitişik olan 11 №-li Alagöz (Talin) kurqanının da örtüyü digərləri kimi daşlardan qurulmuşdu. Hündürlüyü 1,5 m, diametri isə 20 m idi. Onun 2,1 x 2,4 x 1,5 m ölçülü, cənub-şərq - şimal-qərb istiqamətli qəbir kamerasında 5 insan skeleti aşkar edilib. Kameraya bitişik dromosun ölçüləri 6,2 x 0,6 x 0,6 m olub.

Daşdan qurulmuş örtüyü iki hissəli olan 12 №-li Alagöz (Talin) kurqanının hündürlüyü 1 m və 1,5 m, diametri isə 16 m və 23 m kimi qeyd edilib. Bu kurqan mürəkkəb struktura sahib idi və bu səbəbdən də məzarlıqdakı digər kurqanlarından fərqlənirdi. Onun cənub-qərb – şimal şərq istiqamətli qəbir kamerası yer səthində qurulmuşdu. Xüsusi dəhliz onu şimal-şərq tərəfdən «T» hərfini xatırladan formaya sahib xüsusi daş konstruksiya ilə möhkəmləndirilmiş dromosla birləşdirirdi.

Kameranın düz yanında, meydança formalı qurbangah inşa edilmişdi. Meydançanın hündürlüyü 1 m, sahəsi 4,8 x 10 m idi. Onun üzərində iki dairəvi çala vardı. Qurbangahdan bir qədər aralı ikinci bənzər meydançaya da rast gəlinib. İkinci meydançanın sahəsi 5,9 x 9 m olub.

Kamerada aşkarlanan insan skeleti həddən artıq çox çürümüş və aşınmaya məruz qalmışdı. Onun yanında saxsı fraqmentləri və bir ədəd möhür aşkar edilib (Avetisyan P., Muradyan F., Sargsyan G., 2006, p. 161-164).

Yeri gəlmişkən qeyd edək ki, bu kurqanlardan tapılan sümük qalıqlarının da DNT analizləri keçirilib və onların da R1b və R1a haploqruplarının daşıyıcısı olduğu üzə çıxıb (İain Mathieson, et al., 2016).

Qərbi Azərbaycanda aşkar edilmiş ilk tunc dövrü kurqanlarından söz düşmüşkən, P. Carkovskinin rəhbərliyi altında 1896-cı ildə tədqiq olunmuş iki kurqanı da unutmamaq lazımdır. Söhbət İrəvan yaxınlığındakı Zənçiqala şəhərində aşkar edilən, bö-

yük ölçüləri ilə seçilən, sonrakı illərdə tədqiqi E. Resler tərəfindən davam etdirilən kurqanlardan gedir. İçlərində skeletə rast gəlinməyən bu kurqanlardan boyalı saxsı qab nümunələri, bir ədəd gil qab və bir ədəd daş sancaq çıxıb (Avşarova İ. N., Pirquliyeva Q. Ə., 2010, s. 62-63).

Gürcüstan kurqanları da Qərbi Azərbaycandakı həmdövr abidələrdən geri qalmır. Onlara da əsasən qədim köç yolları yaxınlığında rast gəlinib.

Maraqlıdır ki, Xll əsrdə qələmə alınmış müəllifi bilinməyən bir gürcü mənbəsində yazılmışdır: «Qışı türklər...Tiflislə Bərdə arasında keçirirlər... Yazda isə onlar Somxet və Ararat (Ağrı) dağlarına qalxırlar» (Tuncay B., 2012 a., s. 102).

Bu kiçik yazıda Azərbaycan türklərinin tərəkəmə hissəsinin Kür-Araz mədəniyyəti dövründən XX əsrin sonlarına qədər mövcudluğunu qoruyan və minilliklər ərzində dəyişməyən yaylaq-qışlaq marşrutlarından biri təsvir edilmişdir. Həmin marşrutların əsasının ən azı Kür-Araz mədəniyyəti dövründə qoyulduğunu Gürcüstan ərazisindən tapılmış ilk tunc dövrü kurqanları da sübut etməkdədir. Bu baxımdan Gürcüstan Milli Muzeyinin arxeologiya qrupunun 2012-ci ildə tədqiq etdiyi 3 №-li Ananauri kurqanı deyilənlərə ən gözəl misaldır. Alazan çayının sol sahilində yerləşən bu kurqanın diametri 100 m, hündürlüyü 12 m-dir. Z. Maxaradzenin yazdığına görə, kurqanın örtüyü gildən ibarət idi, üst sahəsi daş düzümü ilə bərkidilmişdi.

E.ə. XXIV-XXII əsrlərə aid olan bu kurqanın örtüyünün altında, onun mərkəzi hissəsində iki cərgə palıd tirlərdən qurulmuş 25 x 15 m genişliyində meydançaya rast gəlinmişdir. Meydançanın üzərinə 0,2 m qalınlığında yonqar tökülmüş, onun üstünə isə bol şəkildə oxra səpilmişdi. 2,2 m dərinlikdə qazılmış qəbir kamerası meydançanın altında aşkar edilmişdir. Meydança onun üst örtüyü rolunu oynayır və kameranın döşəməsində quraşdırılmış üç ağac tir üzərində qərar tapmışdı. Bu tirlər sütun kimi çıxış edirdi. Yonulmuş ağaclardan konstruksiya edilmiş qəbir kamerası 9,5 x 6 m ölçülərində idi.

Divarları və döşəməsi bütünlüklə ağacdan olan kameranın qədim zamanlarda qarət edildiyi məlumdur. Buna rəğmən, orada bir çox maraqlı arxeoloji materiala rast gəlinib. Bunlar iki dörd təkərli arabadan, ağacdan düzəldilmiş taxtdan, müxtəlif saxsı və taxta qablardan, qiymətli daşlardan və qızıldan düzəldilmiş bəzək əşyalarından, kəhrəba boyunbağıdan ibarət idi. Kamerada qızılla üzlənmiş ox ucluqları da aşkar edilib. Onlar dəvəgözü və çaxmaq daşından hazırlanmışdılar (Махарадзе З., 2015, с. 110-111).

Gürcüstan ərazisində qeydə alınmış Kür-Araz mədəniyyəti dövrünə aid digər kurqan da Matkopi kurqanıdır. Onun örtüyü inşaat işləri zamanı dağıdılmışdı, bu üzdən də onun ölçüləri barədə heç bir məlumat yoxdur. Burada da mərkəzi hissədə iki cərgə palıd tirdən düzüımüş meydança, onun altıbda isə 4-5 m dərinlikdə qazılmış qəbir kamerası aşkar edilmişdir. Kameranın ağac örtüyünü döşəmədə quraşdırılmış ağac tirlər saxlayırdı. Bu kurqanın da kamerası yonulmuş ağaclardan düzəldilmişdi. Onun döşəməsinin sahəsi 45-50 kv. m təşkil edirdi. Kameranın divarları da, döşəməsi də ağacdan qurulmuşdu. Onun ayrıca giriş qapısı və qapıya çöldən uzanan yolu vardı. Kurqandan heç nə tapılmamışdır (Sherazadishvili Z., 2009, p. 90).

Bu sırada Bedeni vadisindəki daha iki kurqanı da misal çəkmək olar. E.ə. III minilliyin sonlarına aid edilən, ərazidəki digər çoxsaylı kurqanlardan öz böyük ölçüləri ilə fərqlənən bu kurqanlardan biri elmi ədəbiyyatda «Böyük Tsnori kurqanı», digəri isə «Kiçik Tsnori kurqanı» adları ilə məşhurdur.

Kiçik Tsnori kurqanının örtüyü dağıdıldığından onun ölçüləri haqqında məlumat yoxdur. Amma dəqiq məlmdur ki, o, nisbətən kiçik idi. Onun kanerası 8 m dərinlikdə qazılmışdı, döşəməsinin sahəsi 8 x 14 m olub. Burada da dörd təkərli araba aşkar edilmişdir. Kurqanda qızıl və gümüş bəzək əşyaslarına da rast gəlinib (Гобеджишвили Г.Ф., 1981, с. 6; Дедабришвили Ш.Ш., 1979, с. 19).

Qərbi Azərbaycan və Gürcüstanda çox sayda kurqanın olmasına rəğmən, onların sayı Cənubi Qafqazın şərqində, yəni Azərbaycan Respublikası ərazisində daha çoxdur ki, bu da bir vaxtlar K.Kuşnaryovanın təəccübünə səbəb olmuş və o, Kür-

Araz kurqan mədəniyyətinin şərq arealında bu qədər geniş yayılmasının səbəblərinin dəqiq müəyyən etməyin çətin olduğunu yazmış və bildirmişdi ki, bilinən yeganə şey odur ki, Cənub-Şərqi Qafqazda kurqanda dəfn ənənəsi eneolit dövründən gec yaranmamışdır (Кушнарева К. Х.,1993, s. 60).

Kurqanlara əsasən yayalaq-qışlaq, yəni köç yolları üzərində, əsasən qışlaq yerlərinə yaxın ərazilərdə rast gəlindiyi sübuta ehtiyacı olmayan aksiomadır. Təsadüfi deyil ki, kurqan abidələrinin böyük əksəriyyətinin erkən maldarlığın inkişafı ilə əlaqələndirən C. Çernikov yazır ki, onlar daha çox qışlaqlara yaxn yerlərdə - dağətəyi zonalarda və çay sahillərində ucaldılmışdır. O bildirir ki, kurqanlara açıq çöllərdə və yaylaq yerlərində, demək olar ki, rast gəlinmir (Черников С. С., 1951).

Kür-Araz dövrünə aid kurqanlara Azərbaycan respublikasının demək olar ki, bütün bölgələrində rast gəlinir. Bu baxımdın Talış-Muğan zonası da istisna deyil. Bu zonanın kurqanlarından bəhs edən F.Mahmudovun sözlərinə görə, bölgədə tək dəfnli məzarların üzərində gözəgəlimli kurqan örtüyün quraşdırılması və dəfn inventarındakı zənginlik e.ə. III minilliyin ortasında bu ərazidə tayfa elitasının varlığından xəbər verir. «Oxşar kurqanlar Lənkəran və Masallı rayonlarında da var» (Махмудов Ф., 2008, с. 42).

Bənzər kurqanlara bölgənin hər tərəfində rast gəliməsi təsadüfi deyil. Çünki bu bölgə də ən azı Kür-Araz dövründən etibarən əsas köç yollarından birinin yerləşdiyi bölgələrdən olub və bu hal bu gün də beləcə davam edir.

Eyni sözləri respublikanın şimal-şərq və şərq bölgələri haqqında da söyləmək mümkündür. Bu bölgədə də Kür-Araz mədəniyyəti dövrünə aid bir neçə önəmli kurqan aşkar edilmişdir. Bu sırada Q. Qoşqarlının rəhbərlik etdiyi arxeoloji ekspedisiyanın 2009-cu ildə Xızı rayonu ərazisində aşkarladığı 20-dən çox kurqanı misal çəkmək olar. «Sitalçay kurqanları» kimi tanınan bu kurqanlarda qazıntı işləri 2011-ci ildə aparılmış və tədqiqatlar nəticəsində onlardan üçünün (1, 2 və 5 №-li Sitalçay kurqanları) məlum olmuşdur.

Sözügedən dəfn abidələrindən 1№-li Sitalçay kurqanının diametri şimaldan cənuba 13,1 m, qərbdən şərqə 15,5 m, hündürlüyü

isə 0,53 m olub. Kurqanın örtüyü daş qarışıq torpaqdan quraşdırılmışdı. onun mərkəzində, 0,55 m dərinlikdə qəbir qazılmışdı. Qəbir kamerasının döşəməsinə nazik lay daşlar döşənmişdi. Daşlar içəridə qalanmış ocağın təsirindən kövrək hala düşmüşdü. Döşəmədə aşkar edilmiş kül qatı burada ocaq qalandığından xəbər verir.

2 №-li Sitalçay kurqanının diametri 8,5 m, hündürlüyü isə 0,25-0,30 m-ə yaxın olub. Daş pilitələrdən inşa edilmiş qəbir kamerasının uzunluğu 1,85 m, eni 1,5 m, dərinliyi isə 0,8 m idi. Kamerada 25-30 sm qalınlığında torpaq və kül qatına rast gəlinib. Heç bir avadanlıq aşkar edilməyib.

Diametri isə 9 m olan kromlexlə əhatələnmiş 5 №-li Sitalçay kurqanının öz diametri 22 m, hündürlüyü 0,80 m olub. Örtüyü daş qarışıq torpaqdan ibarət idi. Örtüyünün mərkəzi hissəsində qəbir kamerası aşkar edilmişdir. Kameranın üstü iri sal daşlarla örtülmüşdü. Bu daşlara 0,40 m dərinlikdə rast gəlinmişdir. Onlar hələ qədim zamanlarda qəbir qarət edilərkən yerindən oynadılmışd.

Dərinliyi 0,70 m, uzunluğu 1,65 m, eni isə 0,80-85 m olan kameranın şimal-şərq hissəsində insana məxsus olduğu düşünülən sümük fraqmentləri tapılmışdır. Onlar həddən artıq cürümüşdülər.

6 №-li Sitalçay kurqanının dağılmış örtüyünün diametri 7,5 m, kromlexin diametri isə 3,7 m idi. Hündürlüyü məlun deyil. Kurqanın qəbir kamerası nazik lay daşlarla döşənmişdi. Kamerada 40 cm diametrində kül qatı aşkar edilib. Uzunluğu 2,1 m, eni isə 1,55m olan qəbirdə arxeoloji material tapılmayıb (Qoşqarlı Q. O., Əsədov V. A., Babayev T. D., 2012, s. 139-145).

Kür-Araz mədəniyyətinin və ilk dövlətimizin qurulmasında iştirak etmiş protooğuz-qıpçaq soy və boylarının adlarını e.ə. III minilliyə aid qayaüstü təsvirlərdəki soy və boy damğalarından öyrəndiyimiz kimi, eyni mədəniyyətin qurulmasında bilavasitə iştirak etmiş digər prototürk soy və boylarının adını da eyni dövrə, eləcə də e.ə. II minilliyə aid mixi kitabələrdən öyrənə bilərik.

Bu boylardan adına mixi mənbələrdə ilk rast gəlinənlərdən biri də suvar // subar boyudur. F. Ağasıoğlu haqlı olaraq yazır ki, ən qədim subarlar haqqındakı məlumatlara görə, onlar e. ə. lV-ll minilliklərdə İkiçayarası adlanan ərazilərdə, Fəratla Dəclə arasında

yaşayırmışlar «İkiçayarasına gələn samilər Akkad şəhəri ətrafında güclənib subarları daha yuxarılara sıxışdırdılar. Akkadlı Sarqonun (e. ə. XXlV əsr) yuxarı subar bölgələrinə hücum etməsi barədə yazılar qalmışdır. Sarqonun yaratdığı sami Akkad dövləti Şumer ölkəsini də ələ keçirmişdi… E. ə. ll minilliyin əvvəllərində subar torpaqlarına assurların (aşşurların – B.T.) ekspansiyası gücləndi. Bu vaxt İkiçayarasının yuxarı bölgələrinə sıxışdırılan subarlar quzey-doğudan da yeni hurri axınları ilə qarşılaşdı. Beləliklə, aşağıdan sami asur tayfalarının, yuxarıdan qafqazdilli huri tayfalarının arasında qalan subarlar üç qola ayrıldı: batı, orta və doğu qollar. Batı subar boyları 38-ci parallel boyunca batıya çəkilib digər xalqların içində əridi, həmin parallel boyunca doğuya çəkilənlər Urmu hövzəsində yerləşdi, daha sonra xeyli hissəsi Sibir və Türküstan tərəflərə miqrasiya etdi» (Ağasıoğlu, 2005, 155-156).

Alimlərin yazdığına görə «subar» (Subur, Subartu) adının e.ə. təqribən 2200-cü illərdə Dəclə ilə Balıx çayları arasında qalan bütün Messopatamiyada işlədilməsi, sonrakı dövrlərdə huri dilim «Subar dili» kimi adlandırılması, e.ə. II minillikdə adları «Subartu» olan erkən dövrlər hurilərinin gerçəkdə Quzey Messopatamiyada yaşadığının ortaya qoyulması, hurilərin subarlarla eyniləşdirilməsinə səbəb olmuşdur. Ancaq nə ədəbi, nə də etnik anlamda bu eyniləşdirmənin heç bir dəlili tapılmamışdır (Veenhof K. R.,1982, s 147-160; Esma Öz, 2005, s. 40).

Subarların (suvarların) bugünkü birbaşa varislərinin çuvaş türkləri olduğu məlumdur. Maraqlıdır ki, çuvaşların ulu babalarının Ön Asiya mənşəli olmaları, bir müddət hurilərin basqısı altında yaşamaları onların mənəvi dünyasında dərin izlər buraxmışdır. Maraqlıdır ki, bu gün çuvaşlar arasında yayğın olan şəxs adlarının bir qismi qafqazdilli hurri adlarını təkrarlayan teomorf adlardır. Məsələn:

Savuşka (çuv.) – Şavuşka (hurrilərin məhsuldarlıq və qələbə ilahəsi);

Tilə (çuv.) – Tilla (Hurrilərin şimşək tanrısı Tessobanın dana şəklində təsvir edilən oğlu);

Urey (çuv.) – Urey (Misir-hurri qoruyucu ruhu. İlan kimi təsvir edilir);

Şamakka (çuv.) – Şemike (Hurrilərdə günəş tanrısı) və s (Мадуров, 2004, s. 4).

Tanınmış çuvaş etnoqrafi D. Madurov "Çuvaşların ənənəvi dekorotiv sənəti və bayramları" adlı monoqrafiyasında (Мадуров, 2004, s. 4-5) bildirir ki, çuvaşların mədəniyyətində Ön Asiyanın qədim əkinçi xalqların tanrılarının izləri görünməkdədir. Məsələn;

Tura // Tora (çuv.) – Tora (qədim Misir), Tara (hind).

Amatura (Messopatamiya) – Ama Tura (çuv.) – tanrıların anası.

Si Duru (Messopatamiyada tanrıların sahibəsi) – Si Turri (çuv. tanrıların üzərində olan).

Turtur (Mes. Tanrı Dumuzinin anası) – Tur Tur (çuv. Tanrılar tanrısı) (Дмитриев, 1997, c. 137).

Ereşkiqal (Messopatamiya. Ölüm dünyasının sahibi) – Esrel (çuv. Ölüm tanrısı).

Tiamat (Messopatamiya. Yeraltı dünyanın şər ruhlarından biri) – Xəyamat (çuv. Yeraltı dünyanın şər ruhlarından biri).

Apsu (Messopatamiya. Yeraltı şirinsulu okean) – Ap su (çuv. Şirin su).

Soxmet (Misir, yandırıcı günəş və müharibə tanrıçası, tanrı Ptaxın qızı) – Sexmet (çuv. Müharibə tanrıçası. Çuvaş mifologiyasında Messopatamiya ikonoqrafiyasına uyğun olaraq, aslan bədənli, qız başlı varlıq kimi təsvir edilir) (Мадуров, 2004, s. 4).

Bu uyğunluq sistem təşkil etdiyindən onu qətiyyən təsadüf saymaq mümkün deyil. Üstəlik də qədim mixi yazılar çuvaş türklərinin əcdadları hesab edilən suvarların Ön Asiyada, daha dəqiq desək, Messopatamiyada, yəni İkiçayarasında yaşamış olduqlarından soraq verir.

Bu sırada adı mixi kitabələrdə turukku // turuk kimi çəkilən boyun da adını xüsusi vurğulamalıyıq. Bəzi mütəxəssislər bu boyun da hurilərlə bağlı olduğunu iddia etmişlər (Veenhof K. R., 2001, s. 99).

Türklərin adının Şərqi Anadolu və Azərbaycan sakinləri kimi hələ eradan əvvəlki Akkad və Aşşur mixi yazılarında "turuk-

ku" kimi qeyd edildiyini ilk dəfə təsbit edən tanınmış alim Z. Yampolski olmuşdur. O, türklərin mənşəyi və ilk ata yurdu barədə o vaxta qədər rus - sovet tarixşünaslığında mövcud olan rəsmi baxışlara qarşı çıxaraq bildirmişdi ki, akkad mənbələri "türk" etnoniminin qeydə alındığı ən qədim yazılı mənbələrdir (Tahirzadə, 1991, s. 62-64). E. ə. birinci minilliyə aid Urartu mixi yazılarında da eyni xalqın adı, eyni ərazinin sakinləri kimi qeyd edilmişdir. Urartu mənbələrində həmin xalqın adı "turuxi" kimi çəkilir. Firidun Ağasıoğlunun fikrincə, Aşşur mənbəlrində rast gəlinən "turukku" etnonimi "türk"etnik adının aşşur dilindəki səsləniş və yazılış formasıdır (Ağasıoğlu, 2005, s. 39).

İlk dəfə Z.Yampolski tərəfindən söylənilən bu fikrə sonralar Ə.Hüseyni, C.Cəfərov, M.H.Tantəkin, Y.Yusifov, Q.Qeybullayev, T.Hacıyev, M.İsmayıl, F.Ağasıoğlu, N.Xudiyev və s. kimi Azərbaycan alimləri də şərik çıxmışlar.Y.Yusifovun yazdığına görə, "türk" adına erkən orta əsrlərə aid hind qaynaqlarında turukka", Xotən mətnlərində "trruki", Tibet mənbələrində "druq" və "druqu" formasında rast gəlmək mümkündür (Azərbaycan tarixi, 1994, s. 78).

Turuklar barəsində ilk məlumatlara e.ə. XlV yüzilliyə aid Aşşur mənbələrində rast gəlindiyini, daha sonra isə "turux" (və ya turuxi) adı ilə Urartu mənbələrində məlumat verildiyini vurğulayan M. İsmayıl da onların alimlər tərəfindən türklərlə eyniləşdirildiyini söyləməkdədir (İsmayıl, 1955, s. 7).

Y. Yusifovun yazdığına görə, eramızdan əvvəl 1l minilliyin əvvəlində Urmiya gölü hövzəsində yaşayan türklərin aktiv siyasətə qoşulması başlayır. Onlar Zaqroş dağlarını aşaraq İkiçayarasına daxil olurdular. Türklər Aşağı Zab çayının yuxarı axarında yerləşən Raniyə düzənliyinə çıxır və burada yaşayan hürrilərlə ünsiyyətə girirdilər. Ümumiyyətlə, onlar bu ərazi uğrunda mübarizə aparırdılar və bununla da İkiçayarasının şimalında yaranmış Aşşur dövlətinin sərhədlərində təhlükə yaradırdılar.

Aşşur mixi yazılarından belə məlum olur ki, aşşur hökmdarı l Şamşi-Adad türklərə qarşı hərbi yürüş təşkil edir, lakin bu tayfaların müdaxiləsinin qarşısını ala bilmir. Türklər aşşurların nəzarəti altında olan Şuşarra vilayətini ələ keçirirlər. Aşşur hökm-

darı l İşme-Daqan baş verənləri cöx maraqlı təsvir etmişdir: «O ki qaldı Şuşarra olkəsinə, siz mənə yazırsınız ki, bu ölkə həyacan içindədir və biz onu saxlaya bilmirik. Qoy qasid sizə vəziyyəti izah etsin. Turukkulu Lidaya və bu ölkədə onunla birlikdə olan turukkilər rəqabət aparırdılar və iki yaşayış məntəqəsini dağıtmışdılar. Mən oraya əlavə qoşun gətirdim, onlar dağlara çəkildilər. Mən əhalidən soruşdum və bu qərara gəldim ki, bu ölkə nəzarətə alına bilməz» (Azərbaycan tarixi, 1994, s. 73, 74).

Təbii ki, mixi yazılardaki "turukku", "turuxi", "turuk" adlarını "türk" enonimi ilə eyniləşdirən alimlərimiz haqlıdırlar. Biz də bu fikirdəyik ki, adlarına ilk dəfə eradan əvvəl lll minilliyə aid akkad və aşşur mixi yazılarında "turuku" kimi və eradan əvvəl l minilliyə aid Urartu mənbələrində "truxi" kimi rast gəlinən və haqlarında Azərbaycan və Şərqi Anadolu ərazisinin sakinləri kimi söz açılan bu xalq sonrakı dövrlərdə, Vl-Vlll əsrlərdə böyük xaqanlıq qurmuş və bu xaqanlığın mərkəzi indiki Monqolustan ərazisi olmuşdur. Boz qurdla bağlı əldə olan etnoqonik miflərin təhlili göytürklərin Mərkəzi Asiyaya, o cümlədən Monqolustan ərazisinə Ön Asiya və Qafqazdan gəldiklərini, türklərin ilkin ata yurdunun Azərbaycan və Şərqi Anadolu ərazisi olduğunu söyləməyə tam əsas verir.

Qədim Çin mənbələrində Orxon-Yenisey abidələrini yaratmış türk xalqının mənşəyi barədə türklərin öz dilindən bəzi əfsanələr qeydə alınmışdır və onlardan biri bu xalqın Qərbdən - Xəzər dənizinin qərb sahillərindən gəldiklərini bildirməkdədir (Heyət, 1993, s. 72).

Böyük Türk Xaqanlığının əsasını qoyan göytüklərin mənşəyi ilə bağlı qədim Çin mənbələrində qeydə alınmış birinci rəvayətdə deyilir ki, hunlarla eyni soydan olan göytürklər hun yurdunun şimalındakı Su (So) ölkəsindən çıxmışlar. Başbuğlarının, yəni sərkərdələrinin adı Kapan Pu idi və onun 16 qardaşı vardı. Bunlardan birinin anası boz qurd idi. Bu gənc yellərə və yağışlara hökm edərdi.

Göytüklərin düşmənləri bir həmlə ilə qardaşları aradan apardılar, Bu fəlakətdən yalnız bir gənc qurtuldu. Bu gəncin iki arvadı vardı. Biri yaz tanrısının, digəri qış tanrısının qızı idi. Onun bu arvadlardan iki oğlu oldu və xalq böyük oğlu özünə xa-

qan seçdi. O, Türk adını aldı. Onun 10 arvadı vardı və bu arvadlardan türk xalqı törədi (Heyət, 1993, s. 72; Гумилев, 2002, c. 26-27): Göytürklər qədim Xsiunq-Nunun (hunların, xəzərlərin) soylarından yaranmışlar və onların bir qoludurlar. Özləri isə A-şin-na adlı bir ailədən törəmişlər. (Sonradan çoxalaraq) ayrı oymaqlar halında yaşamağa başladılar.

Daha sonra Lin (Alan, Alaniya) adlanan bir məmləkət tərəfindən məğlub edildilər. (Məğlubiyyətdən sonra göytürklər) bu məmləkət tərəfindən bütünlüklə öldürüldülər.

(Tamamilə qırılan) göytürklər içində yalnız on yaşlı bir uşaq qalmışdı. (Lin məmləkətinin) əsgərləri uşağın çox kiçik olduğunu görüb (ona yazıqları gəlmiş və) öldürməmişdilər. Uşağın təkcə ayaqlarını kəsmiş, özünü də bir bataqlıq içindəki otların arasına tullayıb getmişdilər.

(Bu zaman) uşağın yanında bir dişi qurd peyda oldu və ona ət verərək bəslədi. Uşaq bu minvalla böyüdükdən sonra da dişi qurdla ər-arvadlıq etməyə başladı. Qurd da bu yolla ondan hamilə qaldı.

(Göytürkləri məğlub edən və hamısını qılıncdan keçirən Lin məmləkətinin) kralı bu uşağın hələ də yaşadığını eşitdi və əsgərlərini onu öldürməyə göndərdi. Uşağı öldürməyə gələn əsgərlər qurdla uşağı yan-yana gördülər. Əsgərlər qurdu öldürmək istədilər, amma qurd (onları görən kimi) tez qaçdı və Kao-ç-anq (Kuşan) məmləkətinin şimalındakı dağa getdi. Bu dağda dərin bir mağara, mağaranın içində isə böyük bir ovalıq var idi. Çevrəsi də bir neçə yüz mildən artıq deyildi. Dörd yanı sıldırım qayalarla əhatə olunmuşdu. Qurd qaçaraq bu mağaranın içinə girdi və orada on uşaq doğdu.

Vaxt keçdikcə bu on uşaq böyüdü və bayırdan qızlar gətirərək, onlarla evləndilər. Beləliklə evləndikləri qızlar hamilə qaldılar və bunların hər birindən bir soy törədi. A-şi-na ailəsi də bu on boydan biridir.

Onların oğulları və nəvələri çoxaldılar və yavaş-yavaş yüz ailə halına gəldilər. Ju-julara tabe oldular. Altay ətəklərində yerləşdilər. Bundan sonra da Ju-juan dövlətinin dəmirçiləri oldular... (Ögəl, 2006, s. 36).

İikinci rəvayətdə isə deyilir ki, türkləin ilk atası Qərb dənizinin, yəni Xəzər dənizinin qərb sahillərində yaşayırdı. Bunun xalqı hunların bir bölümü idi və Asina (aşina) adlanırdı. Bu xalq qonşu xalqlardan biri tərəfindən məhv edilir. Bunlardan yalnız bir oğlan uşağı sağ qalır. Bir dişi qurd həmin uşağı tapıb ona qulluq edir, onu böyüdür və onunla evlənir. Oğlandan hamilə qalan qurd dənizin şərq tərəfinə keçirir və orada 10 oğlan uşağı doğur. Bu oğullardan Göytürk (Türküt) xalqı törəyir:

Türklərin genezisi ilə bağlı ikinci rəvayətin məzmunu belədir:

Bəziləri belə deyirlər: Bir rəvayətə görə göytürklərin ilk ataları Xsi-hai, yəni Qərb dənizinin (Xəzərin) sahillərində yaşayırdılar. Onların qadınları, kişiləri (uşaqları ilə birlikdə), böyüklü-kiçikli hamısı birlikdə Lin (Alan, Alaniya) adlı bir məmləkət tərəfindən məhv edilmişlər. (Türklərin hamısını qırdıqları halda) yalnız bir uşağa rəhm etmiş, onu öldürməkdən vaz keçmişlər. Bununla belə, onun da qollarını və qıçlarını kəsərək, özünü Böyük bataqlığın içindəki otların arasına atmışdılar. Bu vaxt dişi bir qurd peyda olmuş və ona hər gün ət və yemək gətirmişdir. Uşaq da bunları yeyərək özünə gəlmiş və ölməmişdi. (az bir vaxtdan sonra) uşaqla qurd ər-arvad kimi yaşamağa başlamış və qurd uşaqdan hamilə olmuşdu.

(Türklərin əski düşməni olan Lin dövlətinin hökmdarı uşağın sağ qaldığını eşitdikdə) tez adamlarını göndərərək həm uşağı, həm də qurdu öldürməyi əmr etmişdir. Əsgərlər qurdu öldürməyə gəldikləri zaman qurd bundan xəbərdar olmuş və qaçmışdı. Çünki qurdun müqəddəs ruhlarla (əyələrlə) əlaqəsi vardı (və daha öncə onlar vasitəsilə düşmənlərin gəldiklərini xəbər tutmuşdu).

Buradan qaçan qurd Qərb dənizinin şərqindəki bir dağa getmişdi. Bu da Kao-ç-anqın (Kuşanın) şimal-şərqində yerləşirdi. Bu dağın altında isə çox dərin mağara var idi. (Qurd buraya gəlincə) dərhalhəmin mağaranın içinə girmişdi. Bu mağaranın arxasında böyük bir ovalıq var idi. Bu ovalıq başdan-başa ot və çaylarla örtülü idi. Ovalığın çevrəsi isə təqribən 200 mildən artıq idi.

Qurd burada on oğlan uşağı doğmuşdu. (Göytürk dövlətini quran) A-si-na ("Tövrat"da və "Albaniya tarixi"ndə Askenaz) ailəsi bu uşaqlardan birinin soyundan törəmişdir (Ögəl, 2006, s. 38).

Qeyd edək ki, məşhur fransız alimi, Çin mənbələri və coğradiyası üzrə tanınmış mütəxəssis J. Dögin Çin mənbələrindəki “Xsi-hai” dənizinin (Qərb dənizinin) Xəzər dənizi olduğunu təsdiqləməkdədir (Tahirzadə, 1991, 68).

Çin mənbələrində türk xalqının mənşəyi ilə bağlı qeydə alınmış bu iki rəvayətdə iki məqam diqqəti xüsusi cəlb edir. 1-ci məqam türklərin ulu babalarının Xəzərin qərbində, yəni Azərbaycanda yaşamış olması faktıdır ki, bu faktı eradan əvvəl lll-ll minilliklərə aid akkad və aşşur mənbələri, eləcə də eradan əvvəl l minilliyə aid Urartu mənbələri təsdiqləyir.

İkinci məqam maraqlı və son dərəcə önəmli məqam türklərin Su adlı bir ölkədən çıxmış olması faktıdır. Mövzumuz baxımından bu fakt o qədər böyük əhəmiyyət daşıyır ki, onun üzərində bir qədər ətraflı durmaq lazımdır.

Su ölkəsi harada yerləşmişdir?

Bu sualın cavabını da mixi kitabələrdə tapırıq. Məsələ burasındadır ki, eradan əvvəlki lll-ll minlliklərə aid mixi yazılarda Azərbaycan ərazisində yaşamış kuti, lulu, subar, kuman və turuk, yəni türk xalqları ilə yanaşı su xalqından da söz açılmaqda və Su ölkəsinin adı çəkilməkdədir.

Mixi yazıların gözəl bilicicisi, mərhum alimimiz Yusif Yusifovun yazdığına görə, qədim qaynaqlarda "Su ölkəsinə mənsub lullu" ifadəsi işlənməkdədir:

«Bəzi hallarda Aratta ölkəsinin adı "Su ölkəsi" mixi işarələri ilə göstərilmişdir. Deməli, Aratta... və Su ölkəsi Urmiya gölü hövzəsində mövcud olmuş geniş bir ərazinin müxtəlif adları olmuşdur. Sular da turukku və lullu tayfa birləşməsinə daxil idilər» (Azərbaycan tarixi, 1994, s. 81).

Mixi yazılardan göründüyü kimi, göytürklərin öz əski vətənləri saydıqları, qədim Çin mənbələrində haqqında söz açılan və Xəzər dənizindən qərbdə yerləşdiyi vurğulanan Su ölkəsi Azərbaycan ərazisində mövcud olmuş ən qədim dövlətin – Aratta dövlətinin başqa bir adıdır.

Mövzu ilə bağlı Lev Qumilyov yazır ki, əfsanə türklərin mənşəyini yerli So (Su) nəsli və yenə də dişi qurdla bağlayır.

«So (Su) qəbiləsinin bütün üzvləri öz axmaqlıqları üzündən... məhv olurlar. Yalnız dişi qurdun dörd nəvəsi sağ qalır. Onlardan birincisi qu quşuna çevrilib Güney Altayda Abu və Qyan çayları hövzəsində.., üçüncü və dördüncüsü isə Güney Altaydakı Çus çayında məskunlaşdılar. Bu əfsanəni şərh edən N. A. Aristov əfsanədəki "So" nu Altayın quzeyindəki Biye çayı sahillərində yaşayan kumandinlərin (kumanların) So nəsli ilə tutuşduraraq, birinci nəvəni lebedinlərlə - ku kijilərlə (ku kişiləri, ku adamları) ... eyniləşdirmişdir." (Гумилев, 2002, c. 26-27).

Maraqlıdır ki, "Su" (So) adına ilk dəfə mixi yazılarda rast gəlindiyi kimi, "ku" və "kuman" etnonimlərinə və "Altay" toponiminə də (Urartu mənbələrində Arattanın adı Alateye kimi çəkilir) ilk dəfə eyni mənbələrdə rastlanmış və onların hamısından Azərbaycan və Ön Asiya (Şərqi Anadolu) etnonim və toponimləri kimi söz açılmışdır (Azərbaycan tarixi, 1994, s. 80).

Qədim mixi yazılarda (e.ə.Xlll-Xll) "ku" və "kumen" (kuman) etnonimlərinin də adı çəkilməkdədir (Azərbaycan tarixi, 1994, s. 83). "Ku" etnonimi ilə bağlı hesab edilir ki, bu, türk (prototürk) tayfalarından birinin adı olmuş və bu ad qədim türklər arasında geniş yayılmış qu quşu (qaz) totemi ilə əlaqədardır (Гумилев, 2002, c. 26-27). İ. Dron qeyd edir ki, qu quşu (qaz) kultu qədim zamanlarda türk və monqol xalqları arasında geniş yayılıbmış. O bildirir ki, qədim türk əfsanələrində hun xaqanının qardaşı oğlu qu quşuna çevrilmiş və yeni bir türk soyunun əsasını qoymuşdur. Həmin türk qəbiləsi "ku" adlanmışdır. Məsələn, Tuva türklərinin toci qoluna bağlı qəbilələrdən biri kezek-kuular (qu quşları) özünü bu soydan hesab edir. Tədqiqatçının yazdığına görə, Sayan-Altay ərazisində yaşayan bir çox türk xalqlarında - tuvalılarda, xakaslarda, teleutlarda, kumandlilərdə qu quşu (qaz) haqqında totemik-mifik təsəvvürlər bu günə qədər yaşamaqdadır.

Türkoloqların bir qismi kuman etnoniminin də adının "qu" (ku) totemindən yarandığını irəli sürməkdədirlər. Məsələn, V. Q. Rodionov qədim çuvaş mənbələrinə əsaslanaraq "ku" və "kuman" etnonimlərini eyniləşdirir. İ. Dorn və O. Süleymenov da eyni fikri dəstəkləmişlər (Süleymenov, 1993, s. 94-96).

## İlk tunc (Kür-Araz) dövrü prototürklərinin mənəvi mədəniyyəti

Kür-Araz mədəniyyəti abidələrinin əsasən yaşayış yerləri və qəbirlərdən ibarət olduğunu diqqətə çatdıran V. Baxşəliyevin yazdığına görə, Bu abidələrin müəyyən lokal xüsusiyyətlərinin olmasını nəzərə alaraq onları regionlar üzrə araşdırmaq məqsədəuyğundur. «Erkən Tunc dövrü abidələri arasında çoxtəbəqəli yaşayış yerləri ilə xarakterizə olunan Naxçıvan-Urmiya qrupunun abidələri xüsusi yer tutur. Naxçıvanda Kür-Araz mədəniyyətinə aid I Kültəpə, II Kültəpə, Ovçulartəpəsi, Maxta Kültəpəsi, Xalac, Ərəbyengicə, Şortəpə kimi qədim yaşayış yerləri aşkar olunmuşdur. Bu abidələrdən I Kültəpə və II Kültəpədə geniş miqyaslı arxeoloji qazıntılar aparılmış, digərləri isə yalnız kəşfiyyat xarakterli tədqiqatlarla öyrənilmişdir» (Baxşəliyev V., 1960, s. 62)

Urmiya gölünün şərqində yerləşən Yanıqtəpə abidəsinin daha yaxşı öyrənildiyini diqqətə çatdıran alim yazır ki, bu abidənin təsərrüfat-məişət komplekslərində Kür-Araz mədəniyyətinin əsas əlamətləri aydın şəkildə izlənmişdir. «Yanıqtəpə yaşayış yeri qədim dövrdə ardıcıl olaraq yaranan üç təpədən ibarət olmuş, zaman keçdikcə onlar bir təpə halında birləşmişdir. Onun hündürlüyü 16,5 m, diametri 300 m-dən artıqdır. Yaşayış yerində Neolit, Eneolit və İlk Tunc dövrünə aid təbəqələrə rast gəlinmişdir. Kür-Araz mədəniyyətinə aid təbəqə abidənin ən üst qatında yerləşmişdir. Lakin Eneolit təbəqəsi ilə Kür-Araz təbəqəsinin bir-birinə münasibəti stratiqrafik baxımdan həll edilməmişdir. Belə ki, qazıntı zamanı heç yerdə Kür-Araz təbəqəsinin Eneolit təbəqəsini örtdüyü müəyyənləşdirilməmişdir» (Baxşəliyev V., 1960, s. 73-74).

Qobustan abidələrindən söz açan V. Baxşəliyev qeyd edir ki, Qobustanda aşkar olunan Kür-Araz mədəniyyəti abidələrini iki qrupa ayırmaq olar. «Birinci qrup abidələr qayaaltı sığınacaqlarla təmsil edilib (Anazağa, Çardaqzağa, Firuz-1). Anazağa yaşayış yeri Qobustan qoruğu binası yaxınlığında, Böyükdaş dağının üst hissəsində yerləşir. Qazıntılar zamanı burada üç mədəni təbəqə aşkar olunmuşdur. Alt təbəqələr daş dövrünə, ən üstdə olan 1m qalınlığındakı təbəqə isə Tunc dövrünə aiddir. Burada İlk Tunc

dövrünə aid ayrıca təbəqəyə rast gəlinməmişdir. Kür-Araz mədəniyyətinə aid maddi-mədəniyyət qalıqları, yalnız müxtəlif mərhələləri əhatə edən, qarışıq təbəqələrdən əldə edilmişdir. Tapıntılar qara və şabalıdı rəngli cilalı qab parçalarından, daş alətlər, gil təkər modeli və başqa əşyalardan ibarətdir. Çardaqzağa yaşayış yeri Anazağadan 200-250 m cənubda, Böyükdaş dağında yerləşir. Qazıntılar zamanı müəyyən edilmişdir ki, burada mədəni təbəqənin qalınlığı 30-40 sm-dir. Təbəqə çox yerdə yuyulub qarışmışdır. Mədəni təbəqədə, başlıca olaraq İlk Tunc dövrünə aid keramika, obsidian və çaxmaq daşından hazırlanmış əmək alətləri aşkar olunmuşdur. Sığınacağın divarlarında aşkar olunan qayaüstü təsvirlərin də bu dövrə aid olduğunu demək olar. Firuz-1 sığınacağı Kiçikdaş dağının şərq ətəyində yerləşir. Sığınacaqda Daş və Tunc dövrlərinə aid mədəni təbəqəyə rast gəlinmişdir. Tunc dövrünə aid edilən mədəni təbəqə iki qata ayrılmışdır. Üst qatdan Tunc dövrünün son mərhələsinə, alt qatdan isə İlk Tunc dövrünə aid maddi-mədəniyyət qalıqları aşkar edilmişdir. Gilinin tərkibinə və hazırlanma texnologiyasına görə fərqlənən gil qab parçalarının üzəri cilalanmışdır. Onların bəzisinin yarımşar formalı qulpu olmuşdur. İkinci qrupa ətrafı möhkəmləndirilmiş Dairə və təbii cəhətdən müdafiə olunan mövqedə salınmış Böyükdaş yaşayış yerləri daxildir. Dairə yaşayış yeri Böyükdaş dağının aşağı şimalında yerləşir. Ətrafı iri həcmli yonulmamış daşlardan hörülmüş divarla əhatə edilmişdir. Sahəsi 200 m2 olan yaşayış yerinin 1/3 hissəsi qazıntılarla öyrənilmişdir. Divar boyunca aparılan qazıntılar abidənin tam planını ortaya çıxarmağa imkan vermişdir. Yaşayış yerini əhatə edən müdafiə divarı içəridə dikinə, o biri tərəfdən isə yastısına qoyulmuş daşlarla tikilmişdir. Müəyyənləşdirilmişdir ki, mədəni təbəqə yalnız divar boyu yığılmışdır. Təbəqənin qalınlığı 30-40 sm-dir. Yaşayış yerinin şərq hissəsində yaşayış binalarına aid tikinti qalıqları aşkar olunmuşdur. Lakin onlar yaxşı qalmadığından, ümumi planlarını müəyyən etmək mümkün olmamışdır. Tədqiqat zamanı gil qab parçaları, əmək alətləri, ocaq yerləri aşkar edilmişdir. Abidənin cənub hissəsinin tədqiqi zamanı tikinti qalıqları, ocaq qurğusu, gil qab parçaları və daş alətlər aşkar olun-

muşdur. Şimal-şərq tərəfdə, divar boyu daş döşənmiş sahə, divar qalıqları və dairəvi formalı ocaq aşkar olunmuşdur.

Ocağın ətrafından gil qab və iri manqal parçaları da tapılmışdır. Maddimədəniyyət qalıqlarına əsasən demək olar ki, abidədə yaşayış başlıca olaraq müdafiə divarı boyunca olmuşdur. Onun mərkəzi hissəsindən, ehtimal ki, ictimai məqsədlər üçün istifadə edilmişdir» (Baxşəliyev V., 1960, s. 91-92).

V.Baxşəliyev bildirir ki, Qobustanda İlk Tunc dövrünün sonuna aid edilən qəbir abidələri kurqan tiplidir.

«Kurqanlar daş və torpaq örtüklüdür. Onların hündürlüyü 0,5-1,1, diametri 4,5-11m- dir. Daş örtüyün altında, bir cərgə daşlardan düzülmüş kromlexlər aşkar olunmuşdur. Bəzi kurqanların örtüyü dağıdıldığından, kromlexə aid daş düzümləri aydın seçilir. Kurqanlar xarici görünüşcə bənzər olsalar da, qəbir tiplərinə görə xəndəksiz, xəndəkli və daş qutu olmaqla, üç yerə bölünür. Xəndəksiz kurqanlar başlıca olaraq Orta və Son Tunc dövrlərinə aiddir. Tədqiqatçı F.M.Muradova tərəfindən İlk Tunc dövrünə aid edilən 5 №-li xəndəkli kurqan kromlexlə əhatə edilmişdir. Kromlexin mərkəzində yerləşən dördkünc formalı qəbir kamerasının yanları kiçik həcmli əhəng daşları ilə əhatə olunmuş, üstü iri sal daşlarla örtülmüşdür. Qəbir qarət edildiyindən, skeletə rast gəlinməmişdir. Aşkar edilən keramika məmulatı e.ə. III minilliyin sonu üçün xarakterik olmuşdur. İlk Tunc dövrünə aid edilən 3 №- li kurqanın hündürlüyü 1,1 m, diametri 11 m-dir. Kurqanın mərkəzində əhəng daşlarından qurulmuş daş qutu tipli qəbir aşkar olunmuşdur. Bu abidənin qərb divarı və örtük daşı saxlanmamışdır. Ola bilsin ki, qəbir kurqanın qarət edilməsi zamanı dağıdılmışdır. Onun qərb tərəfində, örtük daşları arasında hər iki tərəfdən yonularaq, insan şəklinə salınmış əhəng daşına rast gəlinmişdir. Daş heykəlin hündürlüyü 1,4 metrdir» (Baxşəliyev V., 1960, s. 93).

Beləliklə, III minillikdə Cənubi Qafqazda, daha dəqiq desək, Azərbaycanda daha bir innovasiya, kurqanlara balbal qoyulması ənənəsii ortaya çıxmışdır ki, bir neçə min il sonra eyni hal iskit, xəzər, oğuz və qıpçaq kurqanlarında da müşahidə edilmişdir. Ktesi və Siciliyalı Diodor kimi antik yunana müəlliflərinin yazdıqların-

dan belə məlum olur ki, iskit qəbilələrindən biri özlərinin qadın hökmdarı Zarına (Sarıana) üçün geniş özül üzərində qurulan kurqanda onun böyük heykəlini qoymuşdular (Массон, 1953, s. 27).

Bənzər hal Abşeron ərazisində yerləşən, e.ə. III-II minilliyə aid edilən kurqanlar üçün də xarakterikdir. Əsasını kromlex təşkil edən Dübəndi kurqanının kromlexinin daş hörməsində qurban kamerası tikilmişdir ki, onun da bir tərəfi antropomorf stela görkəmindədir.

Abşeron ərazisində də e.ə. III-II minilliyə aid bir neçə kurqan aşkar edilib. Bu kurqanlardan biri "Dübəndi kurqanı"dır. Həmin kurqanın əsasını kromlex təşkil edir. Dəfn kamerası kurqanın mərkəzindədir. O cənub-qərb - şimal-şərq xətti üzrə istiqamətlənib, dörd həcmli daş piltədən təşkil olunub.. Qurbangahın özündə saxsı qablar, qoyun sümükləri, daş alətlər və kül aşkar olunmuşdur. Burada dəfn mərasimindən sonra xüsusi ayin icra olunmuşdur. Kurqanın konstruksiyasında antropomorf stelanın çoxluğu qədim Abşeron sakinlərinin dini təsəvvürlərinin mövcudluğunu sübuta yetirir (Rüstəmov C., 1994).

Türkan kurqanında da daş heykələ rast gəlinib. E.ə. III minilliyin I yarısına aid edilən Abşeron kurqanları yalnız dəfn abidələri deyil, eləcə də qədim Azərbaycan tayfalarının maddi və mənəvi mədəniyyətlərinin öyrənilməsi üçün zəngin mənbədir. Bu cür kurqanlardan biri də "Türkan kurqanı"dır. Kurqanın hündürlüyü 60 sm, diametri 9 metrdir. Təpə qumlu və daşlıdır, əsas konstruksiya bir cərgədə halqaşəkilli daş hörmədən ibarətdir. Mərkəzdə dörd daş piltədən ibarət və tində quraşdırılmış kamera yerləşir (şaquli). Antropomorf heykəlin hündürlüyü 240 sm, əsası düzbucaqlıdır, eni 80 sm, üz tərəfi qərbə istiqamətlənib. Başı, boynu və sinəsi seçilir. Həmçinin bel nahiyəsində dördkünc formalı deşik vardır. Kurqan e.ə. III minilliyə aid edilir (Rüstəmov C., 1994).

Boz rəngli məsaməli tuf daşından hazırlanmış balbal (daşbaba) qalığına Həsənsu kurqanında da rast gəlinmişdir (Müseyibli N., Ağalarzadə A., 2013, s. 5).

N.İ.Veselovski 1915-ci ildə qələmə aldığı «Daşbabalar və ya balballar sorununun çağdaş durumu» adlı yazısında bildirir

ki, daşbabaların mənasını və yaranma səbəbini tapmağa cəhd edən ayrı-ayrı sahə mütəxəssislərinin saysız araşdırmaları olsa da, rus arxeologiyasında daşbabalar (kamennıe babı) problemi qədər qaranlıq və dolaşıq bir məsələyə çətin ki rast gəlmək olar (Веселовский, 1915, s. 3).

Bir çox arxeoloqlar Avrasiyanın geniş çöllərinə yayılan, e.ə. III minillikdən XII-XIII əsrlərə qədər uzanan bir dövrü əhatə edən kurqanlarda rast gəlinən daş heykəllərin, yəni daşbabaların daha qədim olanlarını irandillilərə, sonrakı dövrlərə aid olanlarını isə türklərə aid edirlər. Şərqdəki daşbaba ənənəsini monqollarla bağlamağa cəhd edənlər də tapılır. Halbuki, L. R. Kızlasovun özünün «İnsanları əks etdirən qədim türk daş heykəllərinin təyinatı barədə» adlı məqaləsində haqlı olaraq yazdığı kimi, monqollarda qəbirüstü abidələrə daş heykəl qoyulması barədə heç bir sənəd-sübut yoxdur (Кызласов, 1964, s. 32).

Menhir ənənəsi hələ kurqanların tarix səhnəsinə çıxmamışdan daha qədim zamanlardan dünyanın bir çox bölgəsində, o cümlədən Ön Asiya, Qafqaz, İspaniya, Fransa, Böyük Britaniya, Quzey Afrika, Amerika və Sibirin cənub-qərb bölgələrinə yayılmışdır. Arxeoloqların Mesopatamiyanın şimal-qərbində aşkar etdikləri Göbəklitəpə məbədinin məşhur Stounhenc abidəsindən 7 min il öncə qurulduğu bildirilir (Schmidt K. 2006).

Cənubi Qafqazda ən qədim menhirlərdən biri Zəngəzurda tapılan və xalq arasında «qoşundaş» adlandırılan məbəddir. Qoşundaş məbədinin yaşı əvvəllər e.ə. V minilliyə aid edilsə də, son dönəmlərdə karbon analizlərinə görə onun tarixi e.ə. 7500-ə qədər qədimə çəkilmişdir. Bu tarixsə həmin bölgədə yaranan Kür-Araz mədəniyyətindən 4 min il daha qədimdir. Xakaslar xalq arasında daşa çevrilmiş döyüşçülər mifinə köklənən «qoşundaş» tipli mengirlərə «savaş daşı» anlamında «çaatas» deyirlər (Кызласов, 1980, s. 108).

XIII yüzildə Plano Karpini və Vilhelm de Rubruk kimi bəlli səyyahlar da türk ellərində gördükləri daşbaba gələnəyindən bəhs etmişlər. Roma papasının 1253-də doğuya elçi kimi göndərdiyi V. Rubruk qıpçaq yurdlarında gördüklərini yazaraq qeyd

edir ki, kumanlar (qıpçaqlar) ölülərinin məzarına ət və qımız qoyur, məzarın üstündə ev sayılan bir təpə qurub üzərinə də üzü doğuya olan və əlindəki kasanı göbəyi üzərində tutmuş bir insan heykəli dikəldirlər, zənginlərin məzarında belə təpələr böyük piramidanı xatırladır. Eyni durumu təsvir edən P. Karpini də vurğulayır ki, hər dəfə bir heyvan kəsəndə bu heykəllərin payını gətirib onun qarşısına qoyurlar (Ağasıoğlu, s. 2013, 10).

F.Ağasıoğlunun yazdığına görə, daşbabaların toplanıb siyahıya alınması XIX əsrdən başlansa da, onların sistemli şəkildə tədqiqi XX əsrin əvvəllərindən başlanır və bugünəcən davam edir. Təkcə Don ilə Dnepr cayları arasında 330-dan artıq daşbaba və başqa dikilidaşlar qeydə alınmışdır (Ağasıoğlu, s. 2013, 11).

Tədqiqatçıların bir çoxu ilk daşbabaların tarix səhnəsinə çıxmasını menhirlərlə bağlayırlar. Tunc dövrü abidələrindən söz açan sənətşünas alim N. Rzayev yazır ki, dağ və dağətəyi zonalarda rast gəlinən, hündürlüyü təqribən 1 metr və daha çox olan və şaquli şəkildə yerə basdırılan bu abidələrə ancaq qəbiristanlıqlarda təsadüf edilir. «Arxeoloqlar müəyyən etmişlər ki, menhirlər Tunc dövründən sonra öz əhəmiyyətini itirmişdir. Qədim qəbristanlıqlarda cərgələrlə düzülmüş bu şaquli, yonulmamış daşlar ölülər kultu ilə əlaqədar olmuşdur. Belə güman edilir ki, hər daş ölən adamı təmsil edərək onu bu dünyada əbədi yaşadacaqmış. Göründüyü kimi, menhirlər ilk insan heykəlləridir, xatirə səciyyəvi abidələrdir. Maraqlıdır ki, tədqiqatçılar belə daşlar arasında, ibtidai şəkildə olsa da, kişi və qadın heykəllərinə rast gəlmişlər» (Azərbaycan incəsənəti, 1977, s. 12).

Üzərində baş heykəlləri olan daşlar ilk baş daşlarıdır və daşbabalar, eləcədə dilimizdəki "başdaşı" ifadəsi həmin daşlarla bağlıdır. Bu daşlardan və ümumiyyətlə ölənin qəbri üzərinə daş heykəl qoyulması ənənəsindən bəhs edən ilk yazılı mənbə şumerlərin Uruk hökmdarı Bilqamısa həsr etdikləri eyniadlı dastandır:

Misgərlər, dəmirçilər, daşyonanlar gəlirdi,
Heykəltaraşlar gəlir, daş qoyanlar gəlirdi.
- Dostum, sənə mən elə başdaşı düzəldəcəm,
Beləsini heç kəs dostuna düzəltməyib.

Saçı laciverd, altı daşdan hörüləcək,
Üzü əhəngdən, özü altundan yonulacaq
(Bilqamıs dastanı, 1985, s. 65).

N.Rzayevin fikrincə, menhirlərin Azərbaycanda dəmir dövründə yaradılmış insan heykəlləri ilə müəyyən bağlılığı vardır. «Belə heykəllər döyüşçülərin qəbri üstünə qoyularmış. Menhirlərdə olduğu kimi, bu heykəllər də ölmüş döyüşçünün özünü təmsil edirdi. Göründüyü kimi, menhirlər ilə qədim türk heykəllərinin ideoloji əsası eynidir. Hər ikisi animistik təsəvvürə-ölümdən sonrakı əbədi həyat fəlsəfəsinə əsaslanır» (Azərbaycan incəsənəti, 1977, s. 12).

Sənətşünas alim R. Əfəndi yazır ki, Azərbaycanın daş plastika sənəti nümunələri içərisində daş insan fiqurları önəmli yer tutur. «Şamaxı və Ağdam şəhərləri ətrafında tapılmış bu monumental plastik sənət nümunələri alimlərin böyük marağına səbəb olmuşdur. Şamaxının Dərə Xınıslı və Dağ Kolanlı yaxınlığından tapılmış heykəllər üslub etibarilə bir-birinə bənzəsə də, ayrı-ayrı vəziyyətdə və ölçüdə düzəldilmiş müxtəlif tipli kişi fiqurlarını təsvir edir. Şamaxıdan tapılmış fiqurların ən böyüyünün hündürlüyü 2,23 metr, ən kiçiyinin isə 1,35 metrdir.

1946-cı ildə Dərə Xınıslı kəndində tapılmış daş heykəl xüsusilə maraqlıdır. Yerli əhəng daşından yonulub düzəldilmiş bu heykəl ucaboylu, naməlum bir şəxsi təsvir edir. Həmin fiqur bu ərazidə aşkar edilmiş bir neçə başqa heykəl kimi başsızdır. Baş yerinin formasından məlum olur ki, fiqurun başı sonralar hansısa səbəbdən sındırılmışdır. Fiqurun əllərinin vəziyyəti də bu ərazidə tapılan əksər heykəllərdə olduğu kimidir. Onların əksəriyyətində sol əl ürək, sağ əl isə bel tərəfdə təsvir edilmişdir.

Fiqurun bədənində geyim olduğunu bildirən xətlərin izləri görünür. Kürəyin yuxarı hissəsində bu ərazidən tapılan digər heykəllərdə olduğu kim dalğavari xətlər vardır ki. bu da təsvir olunan şəxsin uzun saç saxladığını göstərir.

Tarixi mənbələrdən belə aydın olur ki. türk xalqları islamdan öncə hər bir igidin məzarı üstə insan fiqurlu heykəllər qoyardılar. İlk orta əsrlərə aid "Veyşu"adlı Çin mənbəsindən, eləcə də Əl-Bələzuri və Əl Xarəzmi kimi müsəlman tarixçilərin əsər-

lərindən göründüyü kimi, bu tipli heykəllər müqəddəs sayılır və onlara sitayiş edilirdi» (Əfəndiyev, 1980, s. 10-12).

## Kür-Araz mədəniyyətinin daha bir yadigarı – Se Girdan kurqanları (e.ə. III minillik)

Kür-Araz mədəniyyətinin dövrümüzədək ulaşmış daha bir yadigarı Se Girdan (e.ə. III minillik) kurqanlarıdır. Bu kurqanların aşkar edilərək elm aləminə tanıdılması Aurel Ştaynın adı ilə bağlıdır. Şərqi Türküstan və Cənubi Azərbaycanda parlaq tapıntıları ilə Türk tarixinə misilsiz töhfələr vermiş bu böyük alim 1930-cu illərdə Cənubi Azərbaycanda tədqiqatlar aparırdı. 25 avqust 1936-cı il tarixində o, Uşnu vadisində yerləşən Dumanca-Təpədə (Dinxa-Təpədə) apardığı qazıntı işlərini tamamladıqdan sonra diqqətini Gadar çayından 3 km şərq tərəfdə gözə dəyən, yerli xalq arasında «Üç təpə», farslar arasında isə «Se Girdan» (Üç pəhlivan) adı ilə tanınan təpələrə yönəltdi. Bu təpələr bir-birindən azca aralı olmaqla, bir xətt üzərində düzülmüşdülər və konusvari formaya sahib idilər. A. Ştayn onların kurqan ola biləcəyini hiss etmişdi. Apardığı kəşfiyyat işləri onun bu fikrini təsdiqlədi. Lakin ona həmin kurqanlarda qazıntı işləri aparmaq qismət olmadı. Alim sadəcə kurqanları qeydə aldı və öz hesabatında onlardan da bəhs etdi (Sir Aurel Stein, 1940, p. 336-377).

1966-cı ilin yayında Həsənlu layihəsi çərçivəsində Dumanca-Təpədə (Dinxa-Təpədə) qazıntılar aparan bir neçə arxeoloq Ştaynın qeydlərini əsas tutaraq, Se Girdanın ətrafında da kəşfiyyat işləri aparmağa qərar verdilər və məlum oldu ki, ərazidəki kurqanların sayı əslində 3 yox, 9-dur. 1968-ci ildə isə daha 2 kurqan qeydə alındı və beləcə onların sayı 11-ə çatdı (Jyson, Jr., 1967, p. 136; Agha Z. Rahmatian, 1968).

Dumança-Təpənin təxminən 5 kilometr uzaqlığında olan kurqanlar oradan çox aydın görünə bilinirdi. Onlar vadinin şərq sərhədini təşkil edən dağətəyində, dəniz səviyyəsindən təqribən 1 km yüksəklikdə yerləşirdilər. Yaxınlıqda qədim Urartu şəhərlərindən birinin xarabalıqları vardı. Yerli xalq o əraziyə Qalagah deyirdi. Bir qədər kənarda isə Çeşməgöl kəndi yerləşirdi.

Kurqanlarda qazıntı işlərinə rəhbərlik etmiş O. Muskarellanın yazdığına görə, tədqiqatlara 1968-ci ildə başlanılmışdır. Həmin il kurqanlardan dördünün ölçüləri dəqiqləşdirilmiş, qazıntı aparılacaq sahələr müəyyənləşdirilmişdir: «Kurqanlar latın əlifbasının hərfləri ilə (A-K) adlandırıldı və tədqiqatlara başlanıldı. Qazıntılar üçün ilk olaraq 600 kv m-lik düzbucaqlı formalı sahə seçilmişdi. Burada yer alan İ kurqanı H kurqanından 750 m şimalda, K kurqanı isə İ kurqanından 1 km aralıda yerləşirdi. Onu digər kurqanlardan müasir avtomobil yolu ayırırdı. İlkin araşdırmalar üçün böyük, orta və kiçik ölçülü üç kurqan seçilmişdi. II (D) və III (A) kurqanlarında iki məzar aşkar edilərək qeyd edildi. I (C) kurqanda qazıntını təxirə salmaq qərara alındı» (Muscarella O. W., 1971, p. 5-6).

Alimin sözlərindən belə aydın olur ki, qazıntı işləri üçün eskavatorlar kirayələnmişdi. Lakin hər üç kurqanın ətrafının noxud sahələri ilə əhatələnmiş olması eskavatorların işini çətinləşdirirdi.

O. Muskarella kurqanların təsvirini belə vermişdir:

**I Kurqan**. Bu dəfn abidəsi Se Girdan kurqanlarından ən böyüyüdür. Onun hündürlüyü 8.5 m olub, diametri isə 60-65 m-ə çatırdı. Kurqan örtüyünün yuxarı hissəsi çınqıl və torpaqdan, bir qədər aşağı hissəsi isə iri çay daşları və gildən qurulmuşdu. Müəyyən bir nöqtədən sonra gilin rəngi dəyişirdi. Bu onu göstərirdi ki, örtüyün tökülməısində istifadə edilmiş gil iki fərqli mənbədən götürülmüşdür. Örtüyün qat-qat düzəldildiyi müşahidə edilirdi.

Arxeoloqlar bir neçə kəşfiyyat xəndəyi qazımaqla örtüyün altında daş düzümü olduğunu müəyyən etmişlər. Qəbir kamerasını isə tapa bilməmişdilər. Bununla belə, onlar II və III kurqanlarda əldə etdikləri nəticələr əsasında onun da qəbir kamerasının olduğunu, kurqanın mərkəzindən bir qədər kənarda ola biləcəyini qeyd ediblər (Muscarella O. W., 1971, p. 7-13).

**II Kurqan**. Bu kurqan da 1968-ci ildə qazılmışdır. Se Girdan kurqanlarından ən kiçiyi olan bu abidənin hündürlüyü 0.47 m, diametri isə təxminən 14 m idi. Arxeoloqlar onu kvadratlara bölmüş, bunlardan cənub-qərb tərəfdəki hissə qazıntılara başlamaq üçün münasib görülmüşdü.

Örtüyü çınqıldan və boz-qəhvəyi rəngli torpaq qarışığından ibarət olan II kurqanın örtüyü götürüldükdən sonra 10 cm qalınlığında, 30 sm diametrində kül və kömür qalığına və aypara şəkilli daş yığınına rast gəlinmişdir. Daş yığınının altında bəzi boşluqlar aşkar edilmişdir ki, onlardan daha böyüyünün səliqə ilə düzülmüş daşlardan qurulan qəbir kamerası olduğu müəyyən edilmişdir. Kamera 78.5 sm dərinlikdə qazılmışdı.

Kamera qədimdə talan edildiyindən içində heç nəyə rast gəlinməmişdir (Muscarella O. W., 1971, p. 13-16).

**III Kurqan**. Eyni ildə qazılmış III kurqanın hündürlüyü 3 m, diametri isə təxminən 35 m idi. Kurqanın vahid kompleks təşkil edən örtüyü çınqıl və gildən tökülmüşdü və çox möhkəm idi. Bu da qazmaçıların işini çətinləşdirirdi. O da kvadratlara bölünmüş və qazıntıya cənub-şərq hissədən başlamaq qərara alınmışdı.

Kurqan örtüyünü altında, təqribən 50 sm dərinlikdə 5.75-6 m enində daş yığınına rast gəlinmişdir. Daşların bir qismi sürüşmə nəticəsində yerindən oynayaraq ətrafa səpələnsə də, burada hər hansı bir talandan söhbət gedə bilməzdi.

1 m dərinlikdə qazılmış qəbir kamerası daş parçalarından qurulmuş, döşəməsinə çınqıl döşənmişdi. Önun ağac örtüyü çürüdüyündən içəri daşlarla dolmuşdu. Kamera daşlardan təmizləndikdən sonra burada böyrü üstə, bükülü vəziyyətdə dəfn edilmiş skeletə rast gəlinmişdir. Onun anatomik vəziyyəti pozulmamış, üstünə bol oxra səpilmişdi.

Kamerada rast gəlinən arxeoloji materiallar skeletin baş tərəfinin qərb və şimal-qərb tərəfində aşkar edilib. Bunlar aşağıdakılardan ibarətdir:

1. Uzunluğu 37 sm, diametri 3.2 sm olan aslan başlı daş skipeter.

2. Parçalanmış gümüş bəzəkli su qabı. Metaldan olan hissələr yaxşı qorunmuşdur.

3. Uzunluğu 12.8 sm, ən enli hissəsi 1.8 sm olan tunc bıçaq.

4. Uzunluğu I3.4 sm, eni 5.1-3.5 sm olan tunc bıçaq.

5. İki ədəd uzun gümüş çubuq. Çubuqlar parçalanmış vəziyyətdə idilər.

6. Çox sayda qızıl, daş və pasta muncuq (Muscarella O. W., 1971, p. 16-21).

Maraqlıdır ki, O.Muskarella Se Girdan kurqanlarının səhvən erkən dəmir dövrünə (e.ə. VII-VI əsrlər) aid etmişdir (Muscarella 1971, p. 30). O, sonralar, daha dəqiq desək, 2003-cü ildə çap edilmiş bir məqaləsində səhv etdiyini etiraf etmişdir. Bu etirafa səbəb Fransa arxeoloqu Jan Desayın 1973-cü ildə dərc etdirdiyi bir məqalə səbəb olmuşdu. Jan Desay Se Girdan kurqanlarının xronologiyasının düzgün müəyyən edilmədiyini diqqətə çatdıraraq, onların Şimali Qafqazın erkən tunc dövrü kurqanları ilə mədəni və xronoloji baxımdan bağlı olduğunu qeyd etmişdir (Deshayes 1973, p. 176-178; Muscarella 2003, p. 117-118).

N.Müseyiblinin yazdığına görə, rus «elmi ədəbiyyatında Se Girdan kurqanlarının O. Muskarella tərəfindən düzgün müəyyən edilməməsi və onların daha qədim dövrə – Maykop mədəniyyəti dövrünə aid olması barədə ilk fikri A.D.Rezepkin irəli sürmüşdür (Резепкин 1989, c. 16-17). Sonrakı nəşrlərdə də Se Girdan kurqanlarının Maykop tipli olması barədə ətraflı şərhlər verilmişdir. Belə bir nəticəyə gəlmək üçün həmin kurqanlardan aşkar edilmiş arxeoloji materiallar, xüsusilə də Leçinkay (Şimali Qafqaz) tipli metal baltalar əsas götürülmüşdür (Трифонов 2000). V.A.Trifonov Se Girdan kurqanlarının yaranmasını Urmiyaətrafı ərazilərdə və Cənubi Qafqazda Kür-Araz mədəniyyətinin meydana çıxmasından əvvəlki dövrə aid edir. O, bu kurqanların yaranmasını Şimali Mesopotamiya təsirinin şimala yayılması və "Uruk kolonizasiyası" ilə bağlı olduğunu yazır. Onun fikrincə bu kurqanlar Şimali Mesopotamiya periferiyasında son Uruk dövründə eyni mənşəli mədəniyyətlər blokuna aid qruplardan birini təmsil edə bilər (Трифонов 2000, c. 262). V.A.Trifonov əvvəlcə Se Girdan kurqanlarını Maykop tipli hesab edir (Трифонов 2000, c. 260), sonra isə belə bir nəticəyə gəlir ki, Se Girdan kurqanlarını Qafqazdan "Maykop" əhalisinin müəyyən qrupunun Urmiyaətrafı ərazilərə və ya əks istiqamətə miqrasiyası ilə bağlamaq haqqında qərar vermək tezdir. Müəllif bu kurqanları e.ə. IV minilliyin ikinci yarısına aid etmişdir» (Müseyibli, 2014, s. 79).

## Prototürklərin Şimali Qafqazda qurduqları daha bir möhtəşəm mədəniyyət-Maykop mədəniyyəti

Prototürklərin ilk tunc dövründə yaratdıqları möhtəşəm mədəniyyətlərdən biri də Maykop mədəniyyətidir. Şimali Qafqazın dağ ətəklərini və çay vadilərini əhatə etmiş bu mədəniyyət öz adını 1897-ci N. Veselovski tərəfindən aşkar və tədqiq edilmiş Böyük Maykop kurqanından almaqdadır. Onun əsas yayılma arealı Taman yarımadasından Çeçenistana qədər olan ərazini əhatə edir (Шишлина Н. И., 2002, с. 164-173).

Əvvəllər Novosvobodnaya mədəniyyəti də bu mədəniyyətə daxil edilirdi. Hazırda onları iki ayrı mədəniyyət kimi gözdən keçirmək daha uyğun sayılır.

Tarix elminə sözügedən mədəniyyət, yuxarıda qeyd edildiyi kimi, Böyük Maykop kurqanının açılmasından sonra məlum olmuşdur. 1910-cu ildə daha 7-8 abidə öyrənilmiş, bundan sonra Maykop mədəniyyəti son eneolit-ilk tunc dövrlərinə aid edilmiş, bununla da mədəniyyətə böyük maraq yaranmışdır. Sonradan tədqiq edilmiş bütün kurqan abidələri «Böyük Kuban kurqanları» adı altında birləşdirilmişdir (Иессен А.А., 1950). 1951-ci ildə Y.Krupnov ilk dəfə «Maykop mədəniyyəti» adını işlətmiş və həmin dövrdən etibarən bu ad elmdə möhkəmlənmişdir (Крупнов Е.И., 1951, с. 47).

1957-ci ilə qədər sadəcə kurqanlar barədə mövcud məlumatları əhatə edən bu ümumiləşdirici adın daşıdığı məzmun A.Stolyarov və A.Formozovun , eləcə də P.Ditlerin apardıqları arxeoloji qazıntılar nəticəsində daha da genişləndi və eyni zamanda, həm də eneolit-ilk tunc dövrü yaşayış məskənlərinə də şamil edilməyə başladı (Формозов А.А., 1965, с. 64-158).

1982-ci ildə yenidən kurqanların tədqiqinə start verildi və bu dəfə bu işlə A.Rezepkin məşğul olmağa başladı. Onun tədqiqatları sayəsində Maykop kurqanları haqqındakı biliklər daha da genişləndi. Onun ən maraqlı tapıntısı isə üzərində yonma naxışlar olan daş pilitə olmuşdur. Kurqanların altında eyni mədəniyyətə aid daha qədim dövrlərə aid yaşayış məskəninin tapılması isə sözün əsl mənasında sensasiya idi (Резепкин А.Д., 2008, с. 156-176). Qeyd edək ki bənzər hadisə ilə Türkiyədəki Alacahöyükdə qazıntı apar-

mış arxeoloqlar da üzləşmişdilər. Onlar da qazıdıqları hökmdar kurqanlarının altında daha qədim dövrlərə, yəni neolit-eneolit dövrlərinə aid qatlar aşkar etmiş və həmin ərazinin sözügedən dövrlərdən etibarən böyük yaşayış məskəni və şəhər olduğu üzə çıxmışdır.

«Maykoplu»lar ölülərini bir qayda olaraq kurqanlarda dəfn edirdilər. Ölülər qəbir kanerasına böyrü üstə, – əsasən sağ böyrü üstə, – bükülmüş vəziyyətdə qoyulardı. Qəbrə bol-bol oxra səpilərdi. Əksər kurqanlar tək dəfnli olsalar da, bəzən 2 ilə 5 nəfər arasında şəxsin bir yerdə basdırıldığı kollektiv dəfnlərə də rast gəlinir. Bir çox hallarda qəbirlərə ölü ilə birlikdə heyvanlar da qoyulardı (Кореневский С.Н.„ 2004, с. 15-21, 150-168; Трифонов В.А., Крайнева А.А., Зайцева Г.И., Плихт Х., Богомолов А.А., Бурова Н.Д., Семенцов А.А., Ришко С.А., 2013, с. 37-38).

Maykop kurqanlarından ən kiçiklərinin hündürlüyü təqribən 1m, böyüklərininki isə 6-12 m-dir. Üzərində kurqan örtyü olmayan qəbirlərə də rast gəlinib ki, onların mənşəyi barədə hələ ki vahid fikir yoxdur.

Kurqan örtükləri içərisində həm daşdan, həm də torpaqdan olanlara rast gəlinir. Onlar adətən girdə və konik formada olsalar da, üst hissəsi hamarlanmış və yastılanmış örtüklərə də rast gəlinir. Aypara formalı örtüklər də qeydə alınmışdır. Kurqan örtüklərinin altında bir qayda olaraq daş yığımına rast gəlinir və bu daş yığınları əksər hallarda aypara formasında olur. Yerdə çala şəklində qazılmış qəbir kameraları onların altında yerləşir. Lakin materikdə qurulmuş kameralar da az deyil. Meyitlərin xüsusi düzəldilmiş meydançalar qoyulduğu kurqanlara da rast gəlinir.

Qəbir kameralarının örtüyü adətən kərtilmiş ağacdan düzəldilirdi.

Bəzi kurqanların kamerası meqalitik quruluşa sahib olur və yanı üstə qoyulmuş daş pilitələrdən ibarət olurdu. Onların içərisində uşaqların dəfn edildiyi kiçik kameralara rast gəlindiyi kimi, nəhənglərinə də rast gəlinmişdir ki, bu tip abidələrə Kişpek və Nalçik kurqanlarını misal çəkmək olar (Кореневский С.Н.,2004, с.15-21).

Maykop kurqanlarından əldə edilən DNT nümunələrinin analizləri aparılsa da, bu zaman əsas çalışmalar sadəcə mitoxondrial

(ana xətti) haploqrupların üzə çıxarılması istiqamətində olmuş, ata xəttinin, yəni Y-xromosomların tədqiqi diqqətdən kənarda qalmışdır. Bununla belə, kurqanlarda ölülərin yanı üstə, bükülmüş vəziyyətdə dəfn edilməsi onların R1a haploqrupunun daşıyıcıları, yəni protoqıpçaq-bulqar olduqlarından xəbər verməkdədir.

Üç skeletdən götürülmüş DNT nümunələri əsasında aparılan genetik tədqiqatlar «Maykoplu»larda U (U8b1a2), M (M52) və N (N1b1) mitoxondrial haploqrupunu üzə çıxarmışdır. Bəzən Maykop mədəniyyətinin tərkim hissəsi, bir çox hallarsa isə müstəqil mədəniyyət kimi gözdən keçirilən Novosvobodnaya mədəniyyəti təmsilçilərində isə T (T2b) və V (V7) mitoxondrial haploqrupları aşkar edilmişdir (Недолужко А., 2016; Sokolov A.S., Nedoluzhko A.V., et al., 2016).

Antropoloji tədqiqatlar «Maykoplu» ların cənubi avropoid irqinin Aralıq dənizi tipinə aid olduqlarını ortaya qoymuşdur (Кореневский С. Н.,, 2004, с. 15-21).

Maykop mədəniyyətinin daşıyıcılarının təsərrüfat həyatının əsasını həyətyanı heyvandarlıq və toxa əkinçiliyi təşkil edirdi. Yarımköçəri həyat tərzi mənimsənilmişdi. Heyvandarlıq təsərrüfatının təməlində iri və xırda buynuzlu heyvanların, qismən də donuz və atların bəslənilməsi dururdu. Toxuculuq və dulusçuluq da inkişaf etmişdi. Çox güman ki, ticarət də yüksək səviyyədə olub. Belə ki, Maykopda istehsal edilən gümüş məmulatları uzun müddət Qafqazdan Altaya qədər geniş ərazilərdə çox qiymətləndirilib. Eyni zamanda Əfqanıstandan firuzə və lacivərd idxal edilirdi.

Bəzi kurqanlardan tapılmış dörd təkərli araba modelləri nəqliyyatın əsasını öküzə və ata qoşulmuş arabalar təşkil etdiyini söyləməyə əsas verir.

«Maykoplu»ların evləri sadə konstruksiyaya sahib idi. Taxta dirəklər, gillə suvanmış toxunma divarlar geniş yayılmışdı. Yaşayış məskənləri çox vaxt dağətəyi zonalarda, çətin keçilən yerlərdə salınır və daş divarlarla əhatə olunurdu. Görünür, düşmənlərdən müdafiə olmaq ehtiyacı vardı. Düşmənlər isə çox güman ki, dolmen mədəniyyətinin daşıyıcıları idi. Elə bu mədəniyyətin daşıyıcıları da sonda Maykop mədəniyyətinə son vermiş

və onların yaşadıqları ərazilərin sahibinə çevrilmişdilər. Fikrimizcə, bunlar G haploqrupunun daşıyıcıları olan Abxaz-Adıq və osetin xalqlarının əcdadları olub. Lakin bu, sadəcə bir ehtimaldır.

Ən inkişaf etmiş sahələrdən biri də metallurgiya idi. Ümumiyyətlə, Maykop mədəniyyəti tunc, qızıl və gümüşdən hazırlanmış məişət və bəzək əşyaları ilə çox məşhurdur. Onların demək olar ki, hamısı kurqanlardan tapılmışdır. Bu əşyalar Don çayının sağ sahilindən tutmuş Güney Azərbaycana, Güney Azərbaycandan tutmuş Anadolu və Suriyaya qədər geniş yayılmış əşyaların analoqudur. Lakin onlar haradansa idxal edilməmişlər. Aradakı bənzərlik Kür-Araz mədəniyyəti dövründə sözügedən əraziləri əhatə edən vahid bədii zövq, texnologiya və üslubun mövcudluğundan xəbər verir.

«Maykoplu»ların öz metal yataqları var idi və sözügedən əşyalar bilavasitə Şimali Qafqazda hazırlanırdı. Odur ki, onlar bu baxımdan nə Yaxın Şərq, nə də Cənubi Qafqazdan asılı deyildilər. Tunc məmulatının böyük əksəriyyəti mis-arsen və mis-arsen-nikel qarışıqlı idi. Əşyaların üzünə bəzən gümüş təbəqəsi çəkilir, bəzənsə onlar ümumiyyətlə mis və gümüş qarışığından hazırlanırdı.

Əmək alətləri içərisində daha çox müxtəlif növ baltalar, bizlər, kəsici və deşici alətlərə rast gəlinib. Baltaların içərisində döyüş baltaları da var. Əldə olan baltalar daha çox dəfn mərasimləri üçün nəzərdə tutulduğundan kiçik ölçülü olurdu (Мунчаев Р., 1973). Dəfn inventarı içərisində bu alətlərə rast gəlinməsi Sügə Toyon kultunun önəmli rola sahib olmasından xəbər verir.

Zəngin insanlara xas olan kurqanlarda aşkar edilmiş bəzək əşyaları əsasən qızıl və gümüşdən düzəldilmiş əşyalardır. Onların analoquna təkcə Mesopatamiyada deyil, eləcə də Misir və Troyada da rast gəlinmişdir (Мунчаев Р., 1973).

Maykop kurqanları içərisində ən məşhuru **Böyük Maykop kurqanı**dır ki, artıq qeyd etdiyimiz kimi, 1897-ci ildə N. Veselovski tərəfindən aşkar və tədqiq edilmişdir. Əsas tapıntıları hazırda Ermitajda saxlanılan bu dəfn abidəsinin tapıldığı yer Maykop şəhərinin hazırki Kurqannıy (Kurqanlı) və Podqornıy (Dağətəyi) küçələrinin kəsişdiyi yerdir.

Erkən tunc dövrünə aid olan bu kurqanın gildən tökülmüş örtüyünü hündürlüyü 10.65 m, diametri isə 100 m-ə yaxın olub.

Kurqanın qəbir kamerası əhəng daşlarından ibarət kromlexlə əhatələnmişdi. Onun uzunluğu 5.33 m, eni 3.73 m, dərinliyi isə 1,42 m idi. Forması başı olmayan öküz dərisini xatırladırdı. Kamera Şimal – Şimal-Şərqdən Cənub – Cənub-Qərbə istiqamətlənmiş, divarları ağacdan qurulmuş, künclərdə ağac dirəklər quraşdırılmışdı. Bu dirəklər kameranın 2 qat ağac tirlərdən ibarət örtüyünü saxlamağa xidmət edirdi. Yuxarıdakı qatı təşkil edən tirlər çox uzun idi və kameranın sərhədlərindən kənara çıxırdı. Qəbir kamerasının dibinə iki qat çınqıl döşənmişdi. Ağac arakəsmələr onu üç qeyri-bərabər hissəyə ayırırdı ki, onların hər biri ayrıca bir məzar rolunu oynayırdı (Отчёт Н.И.Веселовского.., 1896).

Əsas məzar olan **1 №-li qəbir** hansısa çox zəngin bir şəxsə aid idi. Bu şəxsin qəbilə başçısı – bəy (bay) və ya xan olduğu hesab edilir. Onun hökmdar ola biləcəyi barədə fikirlər də var. Fəqət qazıntılar nəticəsində ətrafda saray qalıqlarına rast gəlinməməsi bu fikri çox da inandırıcı etmir. Lakin fakt budur ki, meyitin başının altında hökmdar tacının hissələri olduğu ehtimal edilən iki qızıl lent, təyinatı məlum olmayan 5 qızıl sağanaq və qızıl sırğalar aşkar edilib.

Çox güman ki, Böyük Maykop kurqanında dəfn edilmiş şəxs yerli xan olmuş və Arslantəpədə oturan hökmdara – xaqana tabe olmuşdur. Bu, sadəcə bir ehtimaldır və nə qədər doğru olduğunu gələcək tədqiqatlar göstərəcək. Amma Maykopun və Arslantəpənin ayrıca müstəqil xanlıqlar ola biləcəkləri də istisna edilməməlidir.

Bu ehtimallardan hansının doğru olub-olmamasından asılı olmayaraq, bir şey şübhəsizdir ki, artıq erkən tunc dövründə prototürklər dövlətə və ya bir neçə dövlətə sahib idilər.

Qəbirdəki skelet böyrü üstə, bükülü vəziyyətdə idi. Baş tərəfi Cənub – Cənub-Şərq tərəfə istiqamətlənmişdi. Üstünə bol oxra səpilmişdi. Meyitin üstündən də altından da çox sayda qızıl lövhələr tapılmışdır. Bunlardan 37-si böyük, 31-i kiçik ölçülü aslan, 19-u kiçik öküz, 10-u beş ləçəkli çiçək, 38-i isə halqa idi. Onların dəfn edilmiş şəxsin geyiminə və ya bürünüldüyü bürüncəyə tikilmiş olduğu ehtimal edilir.

Qəbirdən çox sayda və müxtəlif ölçüdə biser, firuzə və qızıldan muncuq, eləcə də bir neçə qızıl düymə də aşkar edilmişdir.

Skeletin sağ tərəfində gümüşdən tam hamar şəkildə hazırlanmış 8 borucuq formalı dəstəkli əsa vardı. Onların uzunluğu 103 sm idi. Onlardan dördünün bir tərəfi qızıldan idi. O biri tərəfləri isə spiral şəkilli naxışla bəzədilmişdi. Çubuqların dördünün meyitə tərəf olan uclarına ayaqları yuxarı vəziyyətdə olan iri öküz fiqurları bərkidilmişdi. Bütünlüklə gümüşdən olan çubuqların başındakı öküzlər gümüşdən, bir tərəfi qızıldan olan çubuqların başındakı öküz fiqurları isə qızıldan idi. Onların yanında 3 yarımsferik formalı gümüş qalpaq (papaq) vardı.

Meyidin dizinə yaxın hissədə isə çaxmaqdaşından hazırlanmış 12 ox ucluğu və 17 mikrolit siqmenti tapılmışdır (Чернопицкий М. П., 1987, с. 33-40).

Qəbrin şərq divarı tərəfində 17 qab düzülmüşdü. Onlardan ikisi qızıldan, biri isə boğaz hissəsi və qapağı qızıldan, gövdəsi isə daşdan idi. Digər 14 qab gümüşdən idilər. Onlardan son ikisindən birincisinin tutacaqları, yəni qulaqcıq formalı qulpları, digərinin isə gövdəsindəki sağanaq qızıldan hazırlanmışdı.

Qəbrin cənub-şərq küncündə qabarıq formalı məhəgdaşı və daha bir kiçik ölçülü, qızl işləməli məhəgdaşı, daş balta və 9 tunc əşya vardı. Tunc əşyalar 1 ədəd yastı bıçaqdan (xəncərdən), 2 ədəd paz şəkilli baltadan, uzunluğu 10,2 sm olan naməlum alətdən, 1 ədəd girdə kollu kərkidən, 1 ədəd girdə kollu ax-kərkidən, daha 1 fərqli təyinatlı baltadan, 1 ədəd saplaqsız bıçaqdan, 2 paz formalı balta-bitdən, və 1 ədəd bizdən ibarət idi.

Qərb küncdə 8 eyni tipli saxsı qab vardı.

Qəbrin hər tərəfinə gümüş üzlük fraqmentləri və gümüş mismarlar səpələnmişdi.

**2 №-li qəbir**. Şərq kamerada qadın olduğu ehtimal edilən, yanı üstə, bükülü vəziyyətdə uzadılmış skelet aşkar edilmişdir. Onun üzərinə də oxra səpələnmişdi. Amma oxra çox seyrək idi. Onun baş tərəfindən muncuqlu qalın qızıl üzüklər, əl tərfində müxtəlif materiallardan, o cümlədən qızıldan düzəldilmiş muncuqlar aşkar edilmişdir. Qəbrin şərq divarı boyunca müxtəlif mis qablar – cam,

badya, kuzə və iki qazan düzülmüşdü. Burada da çox sayda gümüş üzlük fraqmentləri və gümüş mismarlara rast gəlinmişdir.

**3 №-li qəbir**. Qərb kamerasında dəfn edilənin də qadın olduğu ehtimal edilir. O da yanı üstündə, bükülü vəziyyətdə dəfn edilmişdi. Üzərinə seyrək oxra səpələnmişdi. Burada çox sayda muncuğa, o cümlədən qızıl muncuğa rast gəlinmişdir. Məzarın şimal-qərb küncünə böyük çini qab qoyulmuşdu. Burada da gümüş üzlük fraqmentləri vardı (Отчёт Н.И.Веселовского.., 1896).

N.Veselovskinin fikrincə, əsas qəbirdən tapılan 9 dəstəkli əsa skipeter idi və hakimiyyət rəmzi rolunda çıxış edirdi. B. Farmakovski isə onların məzar örtüyünü saxlayan dirəklər olduğunu ehtimal etmişdir. Biz də o N.Veselovski kimi o fikirdəyik ki bu əsalar skipeter idilər və fikrimizcəi, onlar xana tabe olan doqquz bəyliyə işarə edirdi. 12 oxa gəlincə isə, onların xanın 12 oğluna və onlardan törəyən nəsillərə işarə etdiyi fikrindəyik.

## Maykopdan Alacahöyükə mədəniyyət köçü: Prototürklərin dövlətçilik tarixinin daha bir unudulmuş səhifəsi

Türkiyənin ən məşhur arxeoloji abidələrindən biri də Çorum şəhəri yaxınlığında yerləşən Alacahöyük qədim yaşayış məskəni və məzarlığıdır. Burada eneolit dövründən tutmuş hetlər (hititlər) dövrünə (e.ə. XIV əsr) qədər davamlı yaşayış yeri olmuşdur. Hələ 1835-ci ildə V. Hamilton tərəfindən kəşf edilmiş bu abidə kompleksinin hetlərəqədərki mədəni təbəqələrinin yerləşdiyi ərazi hetlərin qədim paytaxtı Hattuşanın xarabələrindən şimal-şərqdə yerləşər (Gorny Ronald L., 1997, pp. 549-557). Oradakı kurqanın qazıntısı zamanı ilk tunc dövrünə aid 13 xan (kral) məzarına və eyni dövrə aid şəhərə rast gəlinmişdir. Belə hesab edilir ki, şəhər Anadolunun avtoxton əhalisi olan hattlara (hattilərə) məxsus olmuşdur (Popko Maciej., 2000, pp. 445-448).

Ərazidə ilk qazıntıları 1907-ci ildə yunan əsilli Osmanlı arxeoloqu Teodor Makridi bəy aparmış (Theodor Makrid Bey, 1908), 1910-cu ildə isə alman arxeoloqlar orada, e.ə. III minilliyə aid xan (kral) məzarlarını və e.ə. II minilliyə aid qədim het şəhərinin qalıqlarını aşkar etmişlər. Buradakı kurqanları Maykop kurqanları ilə müqayisə edən T.Brays yazır ki, Alacahöyükdəki məzarların sahib-

ləri bura Rusiyadan (Şimali Qafqazdan) köçən Maykop kurqanları mədəniyyətinin daşıyıcıları olmuşlar (Trevor Bryce., 2013, p. 21).

Alacahöyükdə qazıntılar bir də 1935-ci ildə türk arxeoloqlara Rəmzi Oğuz Arık və Hamit Koşay (Remzi Oguz Arik, 1937), 1936-cı ildən 1983-cü ilə qədər isə Hamit Koşay və Mahmut Akok tərəfindən davam etdirilmişdir (Hamit Z.Koşay and Mahmut Akok, 1947, pp. 152–157) Qazıntılar nəticəsində hetlərəqədərki təbəqədən, o cümlədən xan kurqanlarından çox sayda qiymətli material tapılmışdır ki, onlardan ən qədimləri e.ə. IV minilliyə aid edilir. Məzarlardan isə metal qablar, zərgərlik məmulatı, silah və təyinatı məlum olmayan, fəqət mütəxəssislər tərəfindən «günəş diskləri» adlandırılan abstrakt sənət əsərləri tapılmışdır. Bu əsərlərin böyük əksəriyyəti hazırda Ankaradakı Anadolu Mədəniyyətləri Muzeyində nümayiş etdirilir. Bu zəngin mədəniyyətə het işğallarının son qyduğu və qədim şəhərin onların işğalı nəticəsində dağıntılara məruz qaldığı məlumdur (Woolley Leonard, 1961).

Hazırda abidənin qazıntıları Aykut Çınaroğlu tərəfindən davam etdirilir.

İlk tunc və het (hitit) dövrlərində zəngin sənət və inanc mərkəzlərindən biri olmuş Alacahöyükdə 4 mədəni təbəqə aşkar edilmişdir. Bunlardan ən qədimi eneolit dövrünə, daha dəqiq desək, e.ə. V minilliyə aiddir. Bu təbəqələrin təmsil etdiyi mədəniyyətlər üst üstə qalanaraq zamanla təpə halına gəlmişdir ki, bu təpənin bir qismi xan (kral) məzarlarının kurqan örtüyü ilə vahid şəkil almışdı. Abidə kompleksinin indiyə qədər qazılmış hissəsi ümumilikdə 277 m x 310 m ölçüsünə sahib bir ərazini əhatə edir. Onun ən üst və nisbətən «cavan» mədəni təbəqələri Friqiya və Hellen (qədim yunan) dövrlərinə aiddir (Çorum fotoqraf galerileri).

Q. Kavtaradzenin yazdığına görə, e.ə. III minilliyin ikinci yarısında Mərkəzi Anadolu və Şimali Qafqazın (Maykop mədəniyyəti) mədəniyyətlərinin xarakterik özəlliklərindən biri də «çar məzarları»nın (xan kurqanlarının) peyda olmasıdır ki, bu da ibtidai icma quruluşunun dağılmasından xəbər verir. Alim haqlı olaraq bildirir ki, Alacahöyük mədəniyyətinə xas «çar məzarla-

rı»nın Şimali Qafqazın maldar tayfalarının kurqan məzarları ilə bənzərliyi, bu məzarların əvvəlki dövrlərə aid məzarlardan, eləcə də ətraf bölgələrin abidələrindən fərqlənməsi «çar məzarları» mədəniyyətinin bölgəyə Şimali Qafqazdan gəldiyini söyləməyə əsas verir (Кавтарадзе Г. Л., 1975).

Q.Kavtaradze «Gürcüstanın eneolit və tunc dövrlərinin xronologiyasına dair» adlı başqa bir əsərində Alacahöyük mədəniyyətini Kür-Araz mədəniyyəti çərçivəsində dəyərləndirərək göstərir ki, e.ə. IV minilliyin ikinci və III minilliyin birinci yarılarında Ön Asiyaya da yayılan Kür-Araz mədəniyyətinin yerli variantlarına Anadolu, Qərbi İran, Suriya və Fələstin ərazilərində də rast gəlinmişdir. Bu mədəniyyət Şərqi Anadoluya özünün inkişaf mərhələsində hakim ola bilərdi. Belə görünür ki, Kür-Araz mədəniyyətinin daşıyıcıları Anadoluya xronoloji baxımından iki dalğa halında nüfuz etmişlər.

Alimin sözlərinə görə, erkən Kür-Araz mədəniyyətinin Anadoludakı izlərinə Ərzurumdakı Karaz, Gözəlova, Taşkun Mevkiyi, Təpəcik, Sakgöl və s. məntəqələrdə rast gəlinmişdir. Bu mədəniyyətin Anadoluda əsaslı şəkildə möhkəmlənməsi ikinci dalğa zamanı baş vermişdir.

Q.Kavtaradze deyilənlərə Alacahöyükdə tapılmış Kür-Araz keramikasını misal çəkir və buna əsaslanaraq yazır ki, Alacahöyükdəki xan kurqanlarının yaşını e.ə. III minilliyin I yarısına aid etmək lazımdır (Кавтарадзе Г.Л., 1983).

Beləliklə, Alacahöyük mədəniyyətini Maykop mədəniyyətinin yerli variantı hesab etmək olar. Burada tapılmış xan kurqanları isə e.ə. III minilliyin ikinci yarısında mövcud olmuş dövlətçilik ənənələrindən xəbər verir.

Qeyd edək ki, Arslantəpədəki hökmdar məzarından fərqli olaraq Alacahöyükdəki xan kurqanlarında ölülər eynən Böyük Maykop kurqanında olduğu kimi sağ böyrləri üstə basdırılmışdılar ki, bu da onların R1a haploqrupunun daşıyıcıları, yəni protoqıpçaq-bulqar olduqlarını söyləməyə imkan verir.

Məlumat üçün bildirək ki, hetlər həm Alacahöyükdə, həm də Arslantəpədə prototürk mədəniyyətini məhv etmiş, fəqət təqribən e.ə. I minillikdə kumanlar Arslantəpəni, qaşqaylar (kaşka-

lar) isə Alacahöyükü het işğalından azad etmiş və türk hakimiyyətini bərpa etmişdilər.

## Türk mədəniyyəti tarixində Trialeti (Borçalı) mədəniyyətinin yeri və rolu

Türklərin orta tunc dövründə, daha dəqiq desək, e.ə. II minillikdə Cənubi Qafqazda qurduqları ən önəmli mədəniyyətlərdən biri də Trialeti (Borçalı) mədəniyyətidir. Bu mədəniyyətin izlərinə ilk dəfə XX əsrin 30-cu illərində Tsalki yaylasında rast gəlinmiş və onu kəşf edən B. Kuftin bu mədəniyyəti «Böyük Trialeti kurqanlarının parlaq mədəniyyəti» deyə vəsf etmişdir. Sözügedən mədəniyyət hazırda Cənubi Qafqazın mərkəzi, şərqi və cənubunu, eləcə də Araz çayının sağ sahilinin müəyyən hissələrini əhatə edir (Кушнарева, 1993, c. 100-101).

Adını Gürcüstanın eyni adlı bölgəsinin adından alan, ən parlaq abidələri məhz bu bölgədə aşkar edilən bu mədəniyyətə xas kurqanların əksəriyyətini «sadə inventarlı toplu qəbirlər təşkil edir. Burada ölülər gil meydançaların üzərində dəfn edilib, üzərində ağır daşlardan kurqanlar ucaldılmışdır. Kurqanların bəzilərində 8 m dərinliyi və sahəsi 8 x14 m olan qəbir kameraları vardır. Kameranın döşəməsi qamışla döşənib, divarlarına daş pilitələr quraşdırılmışdı. Kameraya aparan yolda xüsusi dəhlizlər inşa edilirdi ki, bu dəhlizlə meyidi daşıyan araba və onunla birlikdə dəfndə istifadə olunacaq əşyalar aparılırdı. Dəfn mərasimləri təntənəli surətdə qeyd olunurdu. Kurqanların birindən tamamilə ağacdan hazırlanmış dörd təkərli araba aşkar olunmuşdu. Dövrünə görə kameraya ölü ilə bərabər öldürülmüş heyvanlar (öküz, donuz), metal əşyalar, tunc silah, mis qazan, gümüş və qızıl bəzək əşyaları da qoyurdular. Həmçinin abidədən əldə olunan qiymətli daşlarla bəzədilmiş fiqurlu kubok tipli qablar da maraqlıdır. Kuboklar bütöv gümüş parçasından yonulmuş və üzərində iki haşiyə ilə bəzədilmiş müxtəlif təsvirlər həkk olunmuşdur. Birinci üst haşiyə zolağında əllərində fincan tutmuş, uzun əba geyinmiş (xiton) və iki canavar quyruqlu məxluqun birbirinin ardınca getməsi ayini təsvir olunmuşdur. Ayin icraçıları ağaca doğru yönəlmişlər. Ağacın altında qurbangah qarşısında qurulmuş taxtda eyni görünüşlü antrozoomorf məxluq əyləşmişlər. Təsvirin

aşağı haşiyə zolağında bir-birini təkrarlayan iki ceyran təsviri də vardır. Bu mədəniyyətə aid gümüş düymələrin qızılı başlıqları, iri qızıl muncuqlar, boyunbağılar, heyvanların qızıldan tökmə fiqurları nəfis tərtibata malikdirlər. Kurqanda ehtimal ki, varlı şəxs dəfn olunmuşdur. Ümumilikdə, bu mədəniyyət tuncdan hazırlanmış əyri uclu xəncərlər, üçkünc başlıqlı nizələrlə səciyyələnir. Dövrə aid silahların hazırlanması zərgər dəqiqliyi ilə yerinə yetirilmişdir. Gil qablar arasında qara rəngli boya ilə işlənmiş parlaq ornamentə malik boyalı küplər qırmızımtıl rəngi ilə seçilir.

Onların üzərini bəzəyən qara naxışlar, aşağıya yönəlmiş üçbucaqlarla ziq-zaq formasında həkk olunmuşdur. Küplərin üzərində, həmçinin quş təsvirləri, spiralvari xətlər və naxış ünsürlərinə də təsadüf olunur (Avşarova İ.N., Pirquliyeva Q.Ə., 2010, s. 73-74).

Trialeti Kiçik Qafqazın şimal-şərq tərəfində, dəniz səviyyəsindən 1500-1900 m yüksəklikdə yerləşir. Bu bölgə üçün rəngarəng relyef, o cümlədən hündür dağ hövzə və silsilələri, vulkanik konuslar, vadilər, dərələr və s. xarakterikdir.

Hazırda Trialeti kurqanlarının bir qismi Tslki su anbarının altında qalıb. Onları vaxtı ilə tədqiq etmiş B.Kuftin həmin abidələri orta tunc dövrünə aid etmiş və e.ə. II minilliyin abidələri kimi dəyərləndirmişdir (Куфтин, 1941, стр. 99). Amma bu tarixləndirmə günümüzədək mübahisələr mövzusu olaraq qalır. Onun tərəfdarları olduğu kimi, əleyhdarları da az deyil. Əleyydarları içərisində kurqanları e.ə. III minilliyin ikinci yarısına aid edənlər olduğu kimi (Кавтарадзе, 1983, с. 116-136; Кавтарадзе, 1987, с. 16; Кушнарева, Рысин, 2001, с. 109), II minilliyin sonlarına aid edənlər də var.

2000-ci illərin əvvəllərində Tsalki su anbarının su səviyyəsinin aşağı düşməsi nəticəsində vaxtilə qazıntıları B. Kuftin tərəfindən aparılmış 1, 2, 4-9 və 15-17 №-li kurqanlar, eləcə də qazılmamış 47 №-li kurqan yenidən gün işığına çıxmış və bu da arxeoloqlara həmin kurqanlarda yenidən tədqiqat işləri aparmağa imkan vermişdir. Tədqiqatların nəticələri də çox ürəkaçan olmuşdur (Нариманишвили, 2002; Narimanishvili, 2004).

İlk dəfə tədqiqata cəlb edilən 47 №-li kurqan Böyük Təpə I kurqanından 500 m qərbdə yerləşirdi. Daş örtüyünə sahib kur-

qana şərq tərəfdən araba yolu birləşirdi. Yolu su yuduğundan çox bərbad vəziyyətdə idi. Yolun hər iki tərəfi bazalt daşlarla möhkəmləndirilmişdi. Kurqanın örtüyünün hündürlüyü 1.2-1.5 m-ə, diametri isə 60 m-ə çatırdı. Kurqanın tam yanında dördbucaqlı bir tikilinin izləri, eləcə də müxtəlif dövrlərə aid daş qutu qəbirləri aydın seçilirdi.

Tədqiqatlar nəticəsində məlum oldu ki, digər kurqanlara da birləşən araba yolları nisbətən salamat qalmışdır. Onlar haqqında arxeoloji ədəbiyyatda xeyli məlumata rast gəlmək olar (Куфтин, 1941; Куфтин, 1948; Жоржикашвили, Гогадзе, 1974).

Bu məlumatlardan belə aydın olur ki, 3 №-li kurqan oval formalı (18-24 m) olub. Onun da örtüyü daşdan idi və şər tərəfdən ona uzunluğu 7 m, eni isə 5 m olan dəhliz birləşirdi. Sonradan onun 41 m uzunluğunda araba yolu olduğu məlum oldu (Жоржикашвили, Гогадзе, 1974, стр. 15, таб. 9-3).

6 №-li kurqanın hündürlüyü 1, 5 m çatırdı. Düzgün dairəvi formada idi və 55 m diametrində idi (Жоржикашвили, Гогадзе, 1974, стр. 16-17, таб. 9-7). Ona da uzunluğu 160 m, eni isə 6 m olan araba yolu birləşirdi.

Hündürlüyü 1,5 m, diametri isə 40 m olan 8 №-li kurqanın da forması düzgün dairə şəklində idi (Куфтин 1941, таб. LXV; Жоржикашвили, Гогадзе, 1974, стр. 18-19, таб. 7-1). Ona bitişən yolun uzunluğu 210 m, eni isə 5 m olub.

15 №-li kurqanın özünəməxsus forması vardı. Onun örtüyü küncləri oval şəklində olan dübucaqlı formaya sahib idi (Куфтин, 1941, стр. 80; Жоржикашвили, Гогадзе, 1974, стр. 20). Qazıntılardan sonra o, dairəvi şəkil almışdır.

Kurqanın mərkəzi meydançası şərq tərəfdən yüngülcə maili idi və görünür bu, dromosoun çökməsinin nəticəsində baş vermişdir. Digər tərəflər isə bir qədər hündür idi. Çuxur üstündəki örtüyün hündürlüyü 1.5-2 m-ə çatırdı (Куфтин, 1941, стр. 81-83, таб. LXIVLXVI, LXXII; Жоржикашвили, Гогадзе, 1974, стр. 20, таб. 7-3,4). Hazırda kurqanın şərq tərəfi mütənasib şəkildə maililik nümayiş etdirir ki, bu səbəbdən də yolla kurqan arasındakı əlaqəni izləmək mümkün deyil. Bununla belə, 245 m

uzunluğunda, 5 m enində olan yolun şərq tərfdən kurqana doğru, daha doğrusu onun dromosuna tərəf uzandığını görməmək mümkün deyil. Suyun təxribedici təsiri özünü əməlli-başlı göstərib. Hazırda kurqanın hündürlüyü 1.5 m-dir (Куфтин, 1941, стр. 79, 83, таб. LX, LXVII, LXVIII).

17 №-li kurqanın girdə formalı örtüyünün hündürlüyü 1,5 m idi.Ona şərq tərəfdən uzunluğu 116 m, eni isə 4.5 m olan araba yolu birləşirdi (Нариманащвили Г., 2006, с. 97-98).

Əslində Trialeti mədəniyyətinə Kür-Araz mədəniyyətinin son fazası kimi də baxmaq olardı. Lakin arxeoloji ədəbiyyatda Kür-Araz mədəniyyətinə sadəcə ilk tunc dövrünü aid eirlər və belə olduğu üçün də, Trialeti mədəniyyəti, eləcə də onunla sıx əlaqədə olan Axalkələk, Ördəkli (Lçaşen), Təzəkənd və s. kurqanlar, təbii ki, Kür-Araz mədəniyyətindən sonrakı dövr abidələri kimi gözdən keçirilir.

**Sintaşta mədəniyyətini (e.ə. III-II minilliklər) yaradanlar R1a (R1a1a1b2a2 –Z2124 və R1a1a1b2a2 –Z2123) Y-xromosomuna sahib idilər, yəni qıpçaq-bulqar idilər**

Genetik tədqiqatların nəticələrinə görə türklərin tarix səhnəsinə e.ə. XV minillikdə, yəni 17000 il əvvəl çıxdığını və bütün ilk elmi kəşflərin banisi və yayıcısı olduğunu söyləyən doktor Alan Autram bu kəşflər içərisində ilk yazının kəşfini, keçədən ilk dəfə istifadəni, ilk metal, o cümlədən dəmir alətlərin düzəldilməsini, atın əhliləşdirilməsini və minilməsini, at südündən qımız hazırlanmasını, ölülərin ilk dəfə xüsusi qəbirlərdə dəfn edilməsini, ilk sikkələrin basılmasını, pambıqdan paltar hazırlanmasını qeyd edir (Çataloluk O., 2013).

Bu iddiaların həqiqəti nə qədər əks etdirib-etdimədiyini araşdırmaq qarşıya qoyduğumuz məqsədlər içində olmasa da, bir şey dəqiq aydındır ki, Avropanın və bütövlükdə Avrasiyanın ən qədim mədəniyyətləri bilavasitə türklərlə bağlıdır və bu mədəniyyətlər içərisində Sintaşta mədəniyyətinin də özünəməxsus yeri var.

Genetik tədqiqatların nəticələrinə görə türklərin tarix səhnəsinə e.ə. XV minillikdə, yəni 17000 il əvvəl çıxdığını və bütün ilk elmi kəşflərin banisi və yayıcısı olduğunu söyləyən doktor

Alan Autram bu kəşflər içərisində ilk yazının kəşfini, keçədən ilk dəfə istifadəni, ilk metal, o cümlədən dəmir alətlərin düzəldilməsini, atın əhliləşdirilməsini və minilməsini, at südündən qımız hazırlanmasını, ölülərin ilk dəfə xüsusi qəbirlərdə dəfn edilməsini, ilk sikkələrin basılmasını, pambıqdan paltar hazırlanmasını qeyd edir (Çataloluk O., 2013).

Bu iddiaların həqiqəti nə qədər əks etdirib-etdimədiyini araşdırmaq qarşıya qoyduğumuz məqsədlər içində olmasa da, bir şey dəqiq aydındır ki, Avropanın və bütövlükdə Avrasiyanın ən qədim mədəniyyətləri bilavasitə türklərlə bağlıdır və bu mədəniyyətlər içərisində Sintaşta mədəniyyətinin də özünəməxsus yeri var.

Cənubi və Cənub-Şərqi Ural ərazilərini əahatə edən, e.ə. III-II minilliklərə aid edilən və adını Tobol çayının sol qolu olan Sintaşta çayı sahilindəki eyniadlı yaşayış məntəqəsindən alan Sintaşta mədəniyyətini bəzən Andronova mədəniyyətinin tərkib hissəsi hesab edirlər. İndiyə qədər Ural və Tobol çayları arasındakı ərazidə bu mədəniyyətə aid edilən 22 müdafiə sistemli irili-xırdalı yaşayış məskəni aşkar edilmişdir ki, bunlardan Arkaim, Bersuat, Daş Ambar (Kamennıy Ambar), Kuysak, Ustye, Çöllü (Stepnoye), Qızıl (Kizilskoye), Alandskoye, Sintaşta II və s. ən məşhurlarıdır. Nisbətən kiçik ərazidən bu qədər çox şəhər və qəsəbənin tapılması Sintaştanı dünyaya «Şəhərlər ölkəsi» kimi məşhurlaşdırmışdır.

Bu sırada Arkaimin adını xüsusi çəkmək lazımdır (Аркаим, 2005).

Arkaim 1987-ci ildə S.Botalov və V.Mosinanın başçılıq etdikləri, tərkibinə bir qrup tələbənin və məktəblinin daxil olduğu Ural-Qazaxıstan arxeoloji ekspedisiyası tərəfindən aşkar edilmişdir. Abidənin aşkar edilməsində A.Ezril və A.Voronkov adlı məktəblilərin tapdıqları bəzi maraqlı materialların müstəsna xidməti olmuşdur (Епимахов А.В., Семьян И., 2017).

Sözügedən arxeoloji abidə adını yaxınlıqda yüksələn Arkaim dağından almışdır. «Arkaim» əski türk dilində «silsilə», «onurğa sütunu», «sütun» kimi mənalar verir (Зданович Г.Б., 1996, с. 124).

Abidənin geniş qazıntılarına Q. Zdanoviçin rəhbərliyi altında 1991-ci ildə start verilmiş və 8 min $m^2$ ərazi tədqiq edilmişdir. Məlum olmuşdur ki, bu, yaxşı müdafiə sisteminə malik kiçik şəhərdir.

2016-cı ildə Q. Zdanoviç başqa bir arxeoloji ekspedisiyanın başında qazıntıları yenidən davam etdirmiş, Böyük Sintaşta kurqanının ətrafını tədqiq edərkən Sintaşta VI məzarlığını üzə çıxarmışdır. Qazıntılar 2017-ci ildə də davam etmişdir (Археологическая экспедиция 2017).

Abidə müdafə sistemi olan şəhərdən, iki nekropoldan və heyvanlar üçün nəzərdə tutulmuş iki böyük ahılın qalıqlarından ibarətdir. İki qala divarı ilə əhatə olunan qala-şəhər girdə formaya sahibdir. Onun diametri təqribən 170 m-ə çatır. İnsanlar burada yaşayır, heyvanları isə şəhərdən kənardakı ahıllarda saxlayırdılar.

Şəhərin eləcə də evlərin divarları gillə möhkəmləndirilmiş və suvanmış ağac tirlərindən və çiy kərpiçdən qurulmuşdur. Bəzi evlərdə saxsı qablar bişirilən kürələrə, eləcə də metal külçələrininin əridildiyi xüsusi sobalara rast gəlinmişdir.

Şəhərin mərkəzində meydan yerləşirdi. Şəhəri əhatə edən müdafiə divarları arasında dairəvi yol gedirdi və meydanı bu yolla iki küçə birləşdirirdi. Şəhər özünün kanalizasiya sisteminə də sahib idi (Зданович Г.Б., 1996).

Qazıntılar zamanı aşkar edilmiş insan kəllələri əsasında onların avropoid olduqları məlum olmuşdur (Аркаим, 2005).

E.ə. III-II minilliklərə aid edilən Arkaim yanğın nəticəsində məhv olmuşdur.

Hazırda Rusiyanın Çelyabinsk və Orenburq vilayətlərində, eləcə də Başqırdıstanın cənub-şərqində və Qazaxıstanın şimalında çox sayda Arkaim tipli şəhər və qəsəbə tapılıb. Onların əksəriyyəti orta tunc dövrünə aiddirlər və birlikdə «Şəhərlər ölkəsi» kompleksini təşkil edirlər.

«Şəhərlər ölkəsi» yaşayış məskənlərinin əsas xüsusiyyətləri bir neçə qatdan ibarət müdafiə divarlarına, girdə plana və mərkəzi meydana sahib olmalarıdır. Bu məskənlərin evlərində ocaq yerlərinə, buxardanlara (kaminlərə), su quyularına, metal əritmə sobalarına sıx-sıx rast gəlinir.

«Sintaştalı»lar ölülərini, əksər hallarda yaxınlıqlardakı çayların əks tərəfində yerləşən kurqanlarda dəfn edirdilər. Sərdabə formalı qəbir kameraları bir qayda olaraq çox dərin qazılır və bir sıra hallarda 3,5 m-ə çatırdı. Ölülər kameraya əsasən böyrü üstə, bükülü vəziyyətdə qoyulurdular. Qəbir avadanlıqları içərisində silahlar (ox və nizə ucluqları, döyüş baltaları), əmək alətləri (bıçaqlar, iynələr, bizlər, oraqlar, sürtkəclər, balıq tutmaq üçün qırmaqlar), bəzək əşyaları (muncuqlar, qolbaqlar, asmalar) və s. geniş yayılmışdı. İnsanla birlikdə at dəfninə də tez-tez rast gəlinir. Atlar qəbrə qaçan vəziyyətdə qoyulardı. Döyüş arabalarının qalıqlarına da sıx-sıx rast gəlinir (Зданович Г.Б., 1996). Hazırda arxeoloqlar Sintaşta və ona qohum olan Petrovsk mədəniyyətlərinə aid 16 kurqanda bu tip araba aşkar etmişlər. Onlar e.ə. II minilliyin əvvəllərinə aiddirlər.

Qəbirlərdə malqara, kiçik buyunuzlu heyvan və it sümüklərinə də rast gəlinir (Зданович Д.Г., 2005).

Hazırda alimlər arasında Sintaşta mədəniyyətinin mənşəyi barədə vahid fikir yoxdur (Происхождение и хронология.., 2010 г). T.Potyomkin, V.Qorbunov, O.Kuzmin, A.Pryaxin onun mənşəyini Abaşevsakaya, N.Malov, V.Filipçenko, A.Yepimaxov. Y.Tkaçov katakomba (Ткачев В.В., Хаванский А.И., 2006 ) mədəniyyətlərinə bağlayırlar. Çuxur mədəniyyəti fərziyyəsini irəli sürənlər də var (Виноградов Н.Б., 2010 ).

Sintaşta mədəniyyətinin köklərini Ön Asiyaya bağlayanlar da var (Григорьев С.А., 2010 ) və fikrimizcə, onlar haqlıdırlar.

Sintaşta mədəniyyəti kurqanlarındakı skeletlərdən götürülmüş DNT nümunələrinin analizləri bu mədəniyyətin daşıyıcılarının R1a (R1a1a1b2a2 –Z2124 və R1a1a1b2a2 –Z2123) Y-xromosomuna (ata xətti) və J1, J2, N1 və U2 mitoxondrial haploqrupuna (ana xətti) sahib olduqlarını, başqa sözlə, qıpçaq-bulqar olduqlarını ortaya qoymuşdur.

Tədqiqatçıların bir çoxu e.ə. II minilliyin birinci yarısına aid edilən, Volqa-Ural bölgəsini əhatə edən Potapovo mədəniyyətini də Sintaşta mədəniyyətinin tərkib hissəsi kimi gözdən keçirirlər. Bu mədəniyyətin daşıyıcıları da ölülərini kurqanlarda dəfn edir, edir onları böyrü üstə, bükülü vəziyyətdə basdırırdılar. Skeletlərin

əksəriyyəti sol böyrü üstə dəfn edilib. Sağ böyrü üstə dəfn edilənlər çox azdır (Васильев И.Б., Кузнецов П.Ф., Семёнова А.П., 1994).

Kurqanlardakı skeletlərdən götürülmüş DNT nümunələrinin analizi onların R1a1a1b Y-xromosomunun və C1, U2e1h və T1a1 mitoxondrial haploqruplarının daşıyıcıları olduğunu göstərmişdir (İain Mathieson, et al., 2015).

Yuxarıda qeyd edildiyi kimi, Sintaşta mədəniyyəti dövrünə aid kurqanlarda insanla birlikdə at dəfninə də tez-tez rast gəlinir. Bənzər hal Avrasiyanın, o cümlədən Qafqazın və Azərbaycanın orta tunc dövrü kurqanları üçün də xarakterikdir.

Məsələn, Azərbaycanın e.ə. II minilliyin ikinci yarısından e.ə. I minilliyin əvvəllərinədək bir sıra kurqanlarda atların əsləhələri ilə birlikdə basdırılması hadisəsi qeydə alınıb. Bu abidələrin öyrənilməsində H. Cəfərov və M. Hüseynovun xüsusi xidmətləri olmuşdur (Quliyev F. E., 2008, s. 5, 9-10).

Bu baxımdan E. Reslerin aşkarlayaraq 1894-1897-ci illərdə tədqiq etdiyi e.ə. XII-XI əsrlərə aid üç kurqandan biri xüsusi diqqət çəkməkdədir. Söhbət 1 №-li Ballıqaya kurqanından gedir. Burada ölü başsız dəfn olunmuş, yanında isə keramika və metal əşyalarla yanaşı, at, öküz və iti sümüklərinə də təsadüf edilmişdir (Cəfərov H. F., 2000, s. 74). E. Reslerin qazıdığı 2 №-li Xocalı kurqanında da başqa heyvanlara aid sümüklərlə yanaşı at sümükləri də tapılmışdır (Cəfərov H. F., 2000, s. 86-87).

Maraq doğuran kurqanlardan biri də Y. Hümmelin qazıdığı 120 №-li kurqandır. Burada kişi və qadın skeleti aşkar edilmiş, qəbrin cənub tərəfində iki ata məxsus sümük qalıqları, eləcə də atların bəzək əşyalarından balıqqulağı, pasta, əqiq muncuqları tapılmışdır (Cəfərov H. F., 2000, s. 90).

Borsunlu kurqanlarından birində isə 10 insana məxsus skelet və 8 at öz nəsnələri və bəzək əşyaları ilə birlikdə basdırılmışdır. Bu nəsnələr içərisində at yüyənləri və 3 ədəd at gəmi xüsusi diqqət çəkir. Gəmlərdən ikisi burada dəfn olunmuş atların ağzında tapılmışdır. Gəmlə yanaşı atın ağzının kənarında bir cüt halqa da tapılmışdır.

Borsunlu kurqanından aşkar edilmiş qantarğalar sümükdən hazırlanmış və onlarda yüyənə birləşdirmək üçün üç yerdə deşik

açılmışdır. Onların üz səthində cızma üsulu ilə aydın cizgili insan sifəti təsvir olunmuşdur.

Kurqandan üzə çıxarılan at skeletlərinin qalıqlarının tədqiqi burad iki tipə aid at basdırıldığını söyləməyə əsas verir (Cəfərov H.F., 2000, s. 103-107).

Sarıçoban kurqanından da hissələrə parçalanmış 4 at skeleti aşkar edilib. Burada diqqəti ən çox çəkən orijinal at qayışları, yüyən və yəhər hissəsinə keçirmək üçün olan müxtəlif tipli pilək-çənbərlərdir.

Kurqanın şimal kamerasının cənub hissəsində bükülü vəziyyətdə olan və üstünə oxra səpələnən insan skeletinin, kameranın şimal-şərq hissəsində isə parçalanmış at skeletinin qalıqları aşkar edilmişdir. At sümüklərinin altında 5 tunc ox ucluğu, qərb divarı tərəfdə isə tunc halqa, pilək çənbərlər və at gəminin bir hissəsi tapılıb (Cəfərov H. F., 2000, s. 103-116).

Sözügedən kurqanın şərq kamerasının şərq künclərində iki bütöv at skeleti tapılmışdır. Atların hər ikisi yüyənləri, qantarğaları və pilək çəmbərləri ilə birlikdə basdırılmışdır (Джафаров Г.Ф., 1993, с. 198-199). Eyni kurqanın cənub kamerasın künclərində də doğranmış dörd at hissələrinə rast gəlinib (Cəfərov H.F., 2000, s. 117).

At dəfninin izlərinə rast gəlinmiş kurqanlarımızdan biri də Bəyimsarov kurqanıdır. Burada altı at skeleti aşkar olunmuş, fəqət onların nəsnələrinə rast gəlinməmişdir (Cəfərov H.F., 2000, s.110).

Bənzər ənənənin izləndiyi kurqanlar içərisində Q.Aslanovun tədqiq etdiyi Mingəçevir kurqanlarını (Асланов Г.М., 1959, с. 93, 96-97, 104-105, 108-109, 114), A.İyessinin araşdırdığı Ağcabədi kurqanlarını (Иессен А.А., 1065а, с. 23-26, 30), E.Reslerin qazıdığı Paşatəpə kurqanlarını (Реслер Э.А., 1904, с. 54, 58; Погребова М.Н., 1977, с. 117) göstərmək olar. 11 №-li Paşatəpə kurqanı daha böyük maraq kəsb edir. E.Reslerin yazdığına görə burada basdırılmış şəxs at belində dəfn edilmişdi (Реслер Э.А., 1904, с. 58).

Eyni ənənəni özündə daşıyan kurqanlar içərisində 1993-cü ildə N. Muxtarov tərəfindən qazılan Daşüz kurqanını da qeyd etmək lazımdır (Muxtarov N. Bədəlova İ., 1994, s. 35). Burada da

at skeletinə rast gəlinmişdir. Skelet qəbrə qoyulmuş qabların üstündə tapılmışdır.

E.ə. II minillikdə Sintaşta mədəniyyətində və Azərbaycanda yaranan bu yenilik sonrakı dövrlərdə ənənə halını almış və öz davamını Avrasiyanın geniş ərazilərinə səpələnmiş skif, sarmat və sak, daha sonrakı dövrlərdə isə qıpçaq kurqanlarında tapmış, XII-XIII əsrlərə qədər davam etmişdir.

Kurqanda insanla birlikdə at dəfni ənənəsinin izlərinə Altay kurqanlarında və ümumiyyətlə skif kurqanlarında da rast gəlinir. P.Daşkovski yazır ki, Altay əhalisinin Pazırık dövründəki mədəniyyətinin ən xarakterik cəhətlərindən biri insanın atla birlikdə eyni qəbir çalasında basdırılması adətidir. Əldə olan materiallar göstərir ki, həmin dövrdə heç də hamını atla birlikdə basdırmırdılar. Belə ki, 107 məzarlıqda aşkar edilmiş 481 kurqandan yalnız 172 (35,8%) – sində qazıntılar zamanı at sümüklərinə rast gəlinmişdir (Дашковский П.К.Погребальный, s, 26). Məsələn, Barburqazı I məzarlığında tədqiq edilmiş 27 kurqandan12 (44,4%)-sində at dəfni adəti halı ortaya çıxmışdır ki, 1 halda at ölmüş kişi ilə, 3 halda qadın ilə, 1 halda kişi və qadınla, 2 halda isə kollektiv şəkildə dəfn edilmiş adamlarla birlikdə basdırılmışdır (Кубарев, 1992).

Eyni ənənə orta əsrlərə qədər oğuz və qıpçaqlar arasında davam etmişdir. Həmin ənənəni öz gözləri ilə müşahidə etmiş İbn Fədlan bununla bağlı belə yazmışdır: «Aralarında biri ölürsə, onun üçün evəbənzər böyük çuxur qazır, sonra paltarını geyindirib, kuşağını bağlayır, yayını taxıb önünə taxta qabda çaxır qoyurlar. Əlinə də kasada çaxır verib onu bu otağa oxşayan çuxura qoyub şəxsi əşyalarını da gətirib bura yığırlar. Çuxurun üstünü tavanla örtüb üzərində çamurdan qübbə yapırlar. Bundan sonra ölənin heyvanlarının sayına görə, birdən yüzə, iki yüzəcən qurban kəsirlər. Ətlərini yeyib, başlarını, ayaqlarını, dərilərini və quyruqlarını ayırır, bunları kəsilmiş ağaclar üzərində qəbrin başına asıb, bunlar ölənin cənnətə gedərkən minəcəyi heyvanlardır – deyirlər» (İbn Fazlan, 1975, s.36).

Elmi ədəbiyyatda skiflər arasında at kultunun geniş yayıldığı fikri özünə geniş yer tapıb və onun formalaşmasında Y. Kuzminanın «Sak və skiflərin dinində və incəsənətində at» adlı

məqaləsinin böyük rolu olub. Bu müəllif də bir çoxları kimi skif və sakları hind-avropa mənşəli, daha dəqiq desək, irandilli hesab etmiş və bu səbəbdən də at kultunun köklərini hind-iran mifologiyasında, əsasən də «Riqveda»da axtarmışdır. Fikrini əsaslandırmaq üçün isə skif kurqanlarında tez-tez rast gəlinən atın insanla birlikdə dəfn edilməsi adətinə istinad etmiş, məqaləsində onlarla belə fakt göstərmişdir (Кузьмина Е.Е., 1977, s. 96-119). Ümumiyyətlə at kultundan söhbət açan alimlərin, demək olar ki, hamısı məhz bu adətə istinad etmişlər (Дашковский П.К., 2003, s. 16-25; Кирюшин Ю.Ф., 1992, s. 156-158; Николаев Р.В., 1987, s. 154-155). Hazırda Avrasiyanın əksər bölgələrini əhatə edən skif kurqanlarından saysız-hesabsız bu tip material məlumdur (Дворниченко В.В., 1997, s. 99-116; Ocir-Goryaeva M., 2005, s. 7). Və bu material kurqan mədəniyyətinin inkişaf prosesində ənənələrin varisliyinə ən gözəl misallardan biridir.

Aparılan araşdırmalar nəticəsində məlum olub ki, saxa-yakutlarda ölünü atla birlikdə dəfn etmək adəti XX əsrə qədər davam etmişdir və onlar bu zaman bütünlüklə öz mifoloji təsəvvürlərindən çıxış etmişlər. Eyni xalqda öküzü dəfn etmə adəti də olmuşdur. Lakin bu xalqın hazırda yaşadığı torpaqlar daim donmuş vəziyyətdə olduğu və həmin ərazidə ilin 9 ayı qış davam etdiyi üçün onlar kurqan adətini tərk edərək asma qəbir sisteminə keçmişlər (Попов В.В., Николаев В.С. Захоранение…). Bu, saxa-yakutların təqribən XV-XVI əsrlərdə Altayadan şimala – Lena çayı sahillərinə köçməsindən sonra baş vermişdir. Bu isə o deməkdir ki, ənənlərdə yeniliklərin səbəblərindən biri də bilavasitə coğrafi, başqa sözlə, paleoekoloji şəraitlin, yəni mühitin dəyişməsi ilə bağlıdır.

Kurqanlarda at dəfni adətində at kultunun izlərini görməmək mümkün deyil.

Məsələn, qədim oğuzlarda və ümumiyyətlə türk xalqlarında bu kult o qədər sakral məna daşımışdır ki, qəhrəmanların adlarının ilk səsi ilə atlarının adındakı ilk səsin alliterasiyası mövcud olmuş və bu yolla poetikliyin gücləndirilməsi baş vermişdir. Bu hal «Kitabi-Dədəd Qorqud»da qabarıq şəkildə görünür, həm də bir sistem təşkil edir:

«Qazan – Qoŋur at (q – q)
Qanturalı – Qazlıq at (q – q)
Dəli Qarçar – Qara ayğır (q – q)
Beyrək – Boz ayğır (b – b)
Tondaz (Dondar) – Təpəlqaşğa ayğır (t – t)
Qaragünə - Gög bədəvi (g – g)

Bu tip alliterasiya digər türk abidələri üçün də səciyyəvidir: «Manas»da – Kökçönün atı Kürönçü (k – k); «Alpamış»da – Alpamış (Alp Bamsı) – Bay çobar (b – b)» (Tanrıverdi Ə., 2012, s. 20).

## İki qardaş mədəniyyət: Kərtmə (R1a1a1b2a2 –Z2124) və Andronovo (R1a1a1b2a2 –Z2123) mədəniyyətləri

Elmi ədəbiyyatda «Kərtmə mədəniyyəti» adı ilə tanınan mədəniyyət son tunc dövrünə, daha dəqiq desək, e.ə. XVIII–XII əsrlərə aid edilir. Bu fikirlə razılaşmayaraq, onun e.ə. XVI-XII əsrləri əhatə etdiyini söyləyənlər də var (Mallory J.P., Adams Q., 1997). Şərq Avropanın çöl və çöl-meşə zonalarında, əsasən Ural və Dnepr çayları arasında ortaya çıxdığı hesab edilən (Срубная культура, 1990) Kərtmə mədəniyyətinin bəzi abidələrinə Şimali Qafqaz və Qərbi Sibirdə də rast gəlinmişdir. Bu mədəniyyəti kəşf və elmi ədəbiyyata daxil edən V. Qorodtsov olmuş (Городцов В.А., 1905, с. 174-341), sonralar onun fikirlərinə N.Merpert və Y. Çernıx tərəfindən bəzi korrektələr edilmişdir (Мерперт Н.Я., 1968; Черных Е.Н., 1970). Sonuncular Kərtmə mədəniyyətin daxilində bir-birindən bəzi xüsusiyyətlərinə görə fərqlənən iki lokal mədəniyyəti – Pokrovsk və Brejnovsk-Mayevsk mədəniyyətlərini ayırmışlar (Отрощенко В. В., 1994, с. 150-153).

Sözügedən mədəniyyəti çox sayda nekropol, emalatxana, filiz mədəni, xəzinə və tək-tək tapıntılar təmsil edir. Evlər əsasən qazma, yarımqazma və yerüstü olub. Nekropollar kurqanlar və torpaq qəbirlərlə zəngindir. Kurqanlarda ölülər yerdə qazılmış çalalarda, əsasən kərtilmiş ağaclardan düzəldilmiş qəbir kameralarında dəfn edilərdilər. Mədəniyyət də öz adını məhz bu kərtilmiş (yonulmuş və çərtilmiş) ağac konstruksiyalardan almaqdadır.

Ölülər kurqanlarda sol yanı üstə (**hamısı qadın? Amazonkalar?**), bükülmüş vəziyyətdə dəfn edilmişlər. Kremasiya hallarına da

rast gəlinmişdir. Qəbir inventarı əsasən keramik qablardan, nadir hallarda isə metal alətlərdən ibarət idi (Срубная культура, 1990).

Kurqan nekropolları əsasən terraslarda və çay qırağındakı yüksəkliklərdə, bəzənsə çay ayrıclarında yerləşirdi. Kurqanlar əsasən bir neçə qatlı örtüklərdən ibarət olurdu. Uzun kurqanlar dəbdə idi (Отрощенко В. В., 2003, с. 68-96).

Belə hesab edilir ki, iqlimin sərtləşməsi Kərtmə mədəniyyətinin daşıyıcılarının sayının azalmasına səbəb olmuşdur (Етнічна історія.., 2000).

Mədəniyyətin mənşəyi barədə fikirlər haçalanır. Bu barədə ilk fikrin müəllifi V.Qorodtsov olmuşdir. O, kəşf etdiyi mədəniyyəti quranların bu ərazilərə Volqaboyundan gələ biləcəklərini ehtimal etmiş (Городцов В.А., 1907, с. 211-285), sonralar onun bu ehtimalından çıxış edən O. Krivtsova-Qrakova Volqaboyu nəzəriyyəsini əsaslandırmağa çalışmışdır (Кривцова-Гракова О.А., 1955). M.Bıçkaryova isə bu nəzəriyyəni bir qədər də genişləndirərək onu Volqa-Ural nəzəriyyəsi kimi təqdim etmişdir (Бочкарёв В.С., 1995, с. 24-27).

Qeyd etmək lazımdır ki, bu mədəniyyətin mənşəyi barədə mövcud olan nəzəriyyələrin heç biri birmənalı qarşılanmamış, sonda hər hansısa bir miqrasiyanın olduğu barədə mövcud fikirlərin hamısı rədd edilmiş, sözügedən mədəniyyətin avtoxton olduğu barədə fikir söylənmişdir. Bu fikri N.Çeredniçenko ortaya atmışdır (Чередниченко Н.Н., 1979, с. 6-8). Lakin bu fikir də şübhə ilə qarşılanmış və nəticədə V.Otroşenko 1990-cı illərdə yeni bir konsepsiya ilə çıxış edərək, Kərtmə mədəniyyətinin Sintaşta, Don və Volqa çayları arasındakı Abaşev və Babin mədəniyyətlərindən qaynaqlandığını irəli sürmüşdür ki, hazırda bu fikrə tərəfdar olanlar az deyil (Отрощенко В.В., 1990, с. 107-112; Евразийская степная.., 2007; Цимиданов В.В., 2006, с. 70-102).

Arxeoloqların vahid fikrə gələ bilməməsinin səbəbi, şübhəsiz ki, etno-mədəni birlikləri araşdırarkən, xüsusən də onların mənşəyi və miqrasiya marşrutları barədə fikir söyləyərkən, əsasən keramikaya əsaslanmalarıdır ki, bu da tamamilə səhv metoddur. Bu gün bu kimi məsələlərə ən düzgün cavabı, əlbəttə ki, ge-

netika elmi verə bilər və verir də. Kərtmə mədəniyyəti kurqanlarındakı skeletlərdən götürülmüş DNT nümunələrinin analizi Kərtmə mədəniyyətini quranlarla «Sintaştlı»ların eyni genləri daşıdığını ortaya qoymuşdur. Belə ki, analizlər «Kərtməli»lərin də eynən «Sintaştlı»lar kimi R1a1a1b2a2a-Z2123 haploqrupunun daşıyıcıları olduğunu üzə çıxarmışdır.

Məlumat üçün bildirək ki, 3900-3200 il bundan əvvəl yaşadıqları radiokarbon üsulu ilə müəyyənləşdirilmiş 6 skeletdən əldə edilmiş DNT nümunələrinin analizləri nəticəsində onların R1a (R1a1, R1a1a, R1a1a1b2, R1a1a1b2a2a-Z2123) Y-xromosomuna sahib olduqları müəyyə edilmişdir. Daha 14 skeletdən alınan nümunələr nəticəsində «Kərtməli»lərin ana xatti ilə U5a1 (2 nəfər), U5a1f2, U5a2a1, K1b2a, I1a1, T1a1, T2b4, J21a2a, H2b, H3g (iki nəfər), H5b, H6a1a mitoxondrial haploqruplarına aid olduqları məlum olub (İain Mathieson et al., 2015).

«Kərtməli»lərin təsərrüfatının əsasını heyvandarlıq və əkinçilik təşkil edirdi. Üstünlük iribuynuzlu heyvanlara, qismən də atlara verilirdi (Археологія України, 2005). Dağ mədənçiliyi və metallurgiya da geniş yayılmışdı. Mis külçələrini əsasən Qarğalı (Karqalı) və Baxmut yataqlarından əldə edirdilər (Черных Е. Н., 1997; Татаринов С. И., 2003). Başqa yataqlar da məlum idi.

Yuxarıda qeyd etdiyimiz kimi, arxeoloqlar Kərtmə mədəniyyətini Pokrovsk və Brejnovsk-Mayevsk lokal mədəniyyətlərinə ayırırlar. Bunlardan e.ə. XVIII-XV əsrlərə aid edilən birincisi daha qədim hesab edilir və Ural çayı ilə Şimali Donets çayları arasındakı ərazini əhatə edir. Onun əsas abidəsi kimi XX əsrin 20-ci illərində P. Rıkov tərəfindən aşkar edilən Pokrovsk (hazırki adı Engels) məzarlığı çıxış edir (Rykov P., 1927, p. 112-142). Bundan başqa, Natalinsk, Boradayevsk (Kalmık dağı), Altundağ (Zolotaya qora), Koçetnoye, Staroyuryevsk, Əski Yablaklı (Staroyablaklinsk), Selezni, Luzanovsk və Novopavlosk məzarlıqlarını misal çəkmək olar. Bu məzarlıqlardakı kurqanların örtükləri bir neçə qatlıdır. Qatların sayı 2 ilə 15 arasında dəyişir. Tək dəfnli kurqanlara və iri nekropollara çox nadir hallarda rast gəlinir. Onlarda əsasən 2-dən 100-ədək adamın dəfn edildiyi məlumdur.

Kurqanlar ilk dövrlərdə memorial komplekslərin (kenotaf, təkrar dəfn) ətrafında qurulardı. Sonralar bu qayda əhəmiyyətini itirmişdir (Отрощенко В. В., 2003, с. 68-96).

Brejnovsk-Mayevsk lokal mədəniyyəti (e.ə. XVII-XII ısrlər) İnqulets və Volqa çayları arasındakı ərazisini əhatə etmişdir. Bu lokal mədəniyyət öz adını Volqa yaxınlığındakı Brejnovsk və Dnepr yaxınlığındakı Mayevsk kurqan məzarlıqlarından almaqdadır. Bunlardan birincisini N. Kaçalova (Качалова Н. К., 1977, с. 23-28), ikincisini isə N. Kovalyova (Ковальова І. Ф., 1976, с. 3-22) elmi ədəbiyyata gətirmişlər.

Beləliklə, DNT analizləri «Kərtməli»lərin də eynən «Sintaştlı»lar kimi R1a1a1b2a2a-Z2123 haploqrupunun daşıyıcıları olduğunu üzə çıxarmışdır. Amma burada bir önəmli məsələyə xüsusi diqqət yetirmək lazımdır. Sintaşt mədəniyyəti kurqanlarından əldə edilmiş nümunələr sadəcə R1a1a1b2a2a-Z2123 Y-xromosomundan ibarət olmayıb. Orada eyni zamanda R1a1a1b2a2 – Z2124 Y-xromosomunun daşıyıcıları da var idi. Bəs, onlar necə oldu?

Onlar, təbii ki, qeyb olmamışlar. Onların izlərinə Sintaşta və Kərtmə mədəniyyətlərinə qohum olan Andonovo mədəniyyətinə aid kurqanlarda rast gəlinib. Bu kurqanlardan əldə edilmiş DNT nümunələrinin analizləri nəticəsində 10 nümunədən 9-da R1a1 (R1a1a1b2a2 –Z2124) haploqrupu, 1-də isə monqoloid xalqlarda rast gəlinən C (Prd M48) haploqrupu aşkar edilmişdir (Keyser Ch., et al., 2009).

Ana xəttinin araşdırılması zamanı isə «Andronovolu»ların U (U2 və U4), Z, T, H, K və HV mitoxondrial haploqruplarının daşıyıcıları olduqları üzə çıxmışdır (Keyser Ch., et al., 2009).

Əldə olan məlumatlara görə Andronovo mədəniyyətini quran əski türk soyunun bir qolu Hindistan yarımadasına qədər gedib çıxmış və öz toxumunu, yəni R1a haploqrupunu indiki Hindistan, Pakistan, eləcə də Əfqanıstan ərazilərinə də yaymışdılar (Козлов С., 2015).

Bu deyilənlərdən çıxan nəticə budur:

1. Kərtmə və Andronovo mədəniyyətini yaradanlar bir atanın iki oğlunun nəsilləridir. Bu nəsillərdən biri (R1a1a1b2a2a-

Z2123) Qərbə hərəkət edərək, Kərtmə mədəniyyətinin, digəri isə (R1a1a1b2a2 –Z2124) Şərqə və Cənub-Şərqə hərəkət edərək Andronovo mədəniyyətini qurmuşlar.

2. Şərqə və Cənub-Şərqə hərəkət edənlər burada monqoloid irqlərin nümayəndələri (C-M48) ilə üzləşmiş və onları assimilyasiya etmişlər.

3. Assimilyasiyaya uğrayaraq türkləşən C-M48 haploqrupu daşıyıcılarının bu günkü nəsilləri qazax türkləri içərisində əksəriyyət (60 %) təşkil edirlər.

4. Qazaxıstan ərazisində C-M48-lilərə öz dini-mifoloji görüşlərini qəbul etdirərək onları türkləşdirməyi bacaran, fəqət qarşılıqlı nigahlar sayəsində onlardan monqoloidliyi qəbul edən türklər Hindistan ərazisində isə yerlilərin dinlərini qəbul edərərk, öz əski dini-mifoloji dünyagörüşlərini tərk etdikləri üçün zamanla hind – urdu dilinə keçmişlər. Sonrakı türk axınları (saklar, kuşanlar, eftalitlər və s.) da onları assimilyasiyaya uğramaqdan xilas edə bilməmişdir. Əfqanıstanda isə onlar zamanla pəştu dilinə keçmiş və pəştulaşmışlar. Hazırda pəştuların təqribən 40, hindlilərin isə 14 %-i R1a haploqrupunun daşıyıcısıdırlar, yəni türk kökənlidirlər.

E.ə. XVII-IX əsrləri əhatə edən Andronovo mədəniyyətinin yayıldığı əsas ərazilər Qazaxıstan, Qərbi Sibir, Cənubi Ural və Orta Asiyanın şərq hissəsi olmuşdur. Mədəniyyət öz adını Açinsk şəhəri yaxınlığındakı Andronovo kəndindən almaqdadır. Məhz bu kənddə 1914-cü ildə A. Tuqarinov həmin mədəniyyətə aid edilən ilk məzarı aşkar etmişdir. Bu mədəniyyətin tədqiqi ilə sonrakı illərdə (1927 və 1948-ci illər) A. Tepluxov və K. Salnikov məşğul olmuşlar və bunlardan ikincisi Andronovo mədəniyyətinin ilk təsnifatını aparmışdır (Андроновская культура, 2005).

Mədəniyyətin yayıldığı bütün ərazilərdə bənzər yaşayış məskənlərinə, kurqan məzarlıqlarına, təsərrüfat və məişət həyatına rast gəlinir. «Andronovolu»lar əsasən köçəri heyvandarlıq və outraq əkinçiliklə məşğul idilər. Heyvandarlığın əsasının iribuynuzlu malqara və at ilxıları təşkil edirdi. Qoyunçuluq da inkişaf etmişdi. Ovçuluq və balıqçılıq əhəmiyyətli rol oynamırdı. Metallurgiya və dağ-mədənçilikgeniş yayılmışdı. Mis əsasən Qazaxıs-

tandan və Altay dağlarından əldə edilirdi. Evlər yarımqazma və yerüstü tipli idi (Кузьмина Е.Е., 1986; Теплоухов С.А., 1929; Киселёв С.В., 1949).

Türklərə xas R1a və R1b haploqruplarının və onların üzə çıxarıldığı kurqanların xronoloji ardıcıllıq əsasında öyrənilməsi Altay nəzəriyyəsinin heç bir ciddi elmi əsasının olmadığını və imperialist dairələr tərəfindən sırf siyasi və geosiyasi məqsədlərlə uydurulduğunu, R1a və R1b Y – xromosomlarının Şərqə doğru «səyahətə» Anadolu və Cənubi Azərbaycandan başladıqlarını, bu haploqrupların daşıyıcılarının Qafqaz və Balkanlar üzərindən keçərək, öncə Qafqazda və Avropada məskunlaşdıqlarını, yalnız bundan sonra üzlərini Şərqə tutaraq, Cənubi Sibir, Monqolustan, Altaylar və Şərqi Türküstana çatdıqlarını söyləməyə tam əsas verir.

Genetik analizlər protooğuz-qıpçaqların (R1b) bu bölgələrdə protoqıpçaq-bulqarlardan (R1a) daha tez məskunlaşdıqlarını və həmin ərazilərdə Afanasyevo mədəniyyətinin əsasını qoyduqlarını göstərir.

Tədqiqatçılar Afanasyevo mədəniyyətini ilk tunc dövrünün sonları-orta tunc dövrünün əvvəllərinə aid edirlər. Mədəniyyət öz adını Xakasiyadakı Bateni kəndi yaxınlığındakı Afanasyevo dağından alır. Bu mədəniyyətə aid ilk kurqan məhz həmin ərazidə 1920-ci ildə aşkar və tədqiq edilmişdir (Теплоухов С. А., 1927).

Sonrakı dövrlərdə bu tip abidələrə Altaylardan və Minusinsk çökəkliyindən (Xakasiya) başqa, Şərqi Qazaxıstan, Qərbi Monqolustan və Şərqi Türküstanda da rast gəlinmişdir.

Afanasyevo mədəniyyətinin daşıyıcılarının əsas məşğuliyyəti kiçik və iri buynuzlu heyvanların çoxaldılması, atçılıq, əkinçilik və metallurgiya olmuşdur (Грязнов М. П., 1999).

«Afanasyevolu»lar da ölülərini kurqanlarda basdırırdılar. Bu kurqanladan götürülmüş DNT nümunələrinin analizləri sözügedən mədəniyyəti yaradanların ana xətti ilə J2a2a, T2c1a2 və U5a1a1 (Morten E. Allentoft et al., 2015) mitoxondrial haploqrupuna sahib olduqlarını ortaya qoymuşdur. Ata xəttinin müəyyənləşdirilməsi zamanı analizə Xakasiya və Monqolustan ərazilərindən götürülmüş

nümunələr cəlb edilmiş və onların R1b (Xakasiya) və Q (Monqolustan) haploqruplarının (Hollard C., 2014) daşıyıcıları olduqları üzə çıxmışdır ki, bu da tədqiqatçılara «Afanasyevolu»ların mənşəyini «Çuxurlu»lara bağlamağa əsas vermişdir.

Beləliklə, R1b-lilər Cənubi Sibir, Monqolustan, Altaylar və Şərqi Türküstanda daha əvvəl məskun olmuşlar. P1a-lılar isə sözügedən bölgələrə sadəcə e.ə. XVIII əsrdə yetişmişdilər. İlk yetişənlər isə Tarım mumiyaları mədəniyyətinin (e.ə. XVIII-II əsrlər) əsasını qoyanlar olmuşlar.

Mədəniyyət adını Tarım çayından və bölgədən tapılmış çoxsaylı mumiyalardan almaqdadır. Bu mumiyalardan ən qədimi e.ə. XVIII əsrə, ən cavanı isə e.ə. II əsrə aiddir. Onlara ən çox Tarım çayı vadisində qurulmuş qədm piramidalarda və kurqanlarda rast gəlinmişdir.

Aparılan antropoloji tədqiqatlar mumiyaların kəllə quruluşunun və digər antropoloji xüsusiyyətlərinin Afanasyevo və Andronovo mədəniyyətinin təmsilçiləri ilə üstü-üstə düşdüyünü göstərmişdir. Genetik tədqiqatlar isə onların «Andronovolu»larla qohum olduqlarını ortaya qoymuşdur. Belə ki, Lobnor gölü yaxınlığındakı 5 №-li məzarlıqdan götürülən, kişi cinsindən olan və radiokarbon analizinin nəticələrinə görə 3980 ± 40 il öncə yaşadıqları müəyyən edilən 7 mumiya üzərində aparılmış DNT analizləri onların hamısının R1a1a Y-xromosomuna sahib olduğunu ortaya qoymuşdur.

Mitoxondrial DNT analizləri isə beş kişi və dörd qadında C4, iki qadında isə H və K mitoxondrial haploqrupunu aşkar etmişdir (Chunxiang Li, et al., 2010; Kozintsev A., 2012).

Tarım mumiyalarını ilk dəfə A. Steyn və S. Gedin XX əsrin əvvəllərində aşkar etmişlər. İndiyə qədər aşkar edilmiş mumiyalardan ən məşhurları Loluan gözəli və Ukok şahzadəsidir.

«Loluan gözəli» adını Loluandakı kurqanlardan birində tapılmış qadın mumiyaya vermişlər. Bu gənc qadın avropoid simaya sahib idi. Boyu 180 sm, saçları sarışın olub. Mumiyanın təqribi yaşı 3800 ildir və o, hazırda Urumçi şəhərinin muzeyində mühafizə edilir. Onunla birlikdə iki hörüyü olan «Çerçen kişisi» mumiyasına və körpə uşaq mumiyasına da rast gəlinib. Uşağın

yanında öküz buynuzundan düzəldilmiş süd qabı və inəyin döşündən düzəldilmiş əmzik tapılmışdır.

Elmi ədəbiyyatda «Ukok şahzadəsi», bəzənsə «Altay şahzadəsi» adı ilə tanınan qadın mumiyanın yatdığı kurqan Altay türkləri arasında çox məşhur olub. Onun haqqında əfsanələr də mövcuddur, əfsanələrdən adının Oçı-bala, ləqəbinin isə Ak-Kadın, Ak-Xatun olduğu bilinməkdədir və yerli türklər onu Altayın himayəçisi hesab ediblər. Təqribən 25 yaşı olub. 1993-cü ildə Ak-Alaxa məzarlığındakı bir kurqanda aşkar edilib.

Altaylalıran inancına görə, o, yeraltı dünyanın qapısında duraraq şər ruhların orta dünyaya, yəni yer üzünə gəlməsinə mane olurmuş (Принцесса Укока).

Bugünə qədər Tarım mumiyalarının sağlıqlarında hansı dildə danışdıqları üzərində mübahisələr edir. Halbuki Ortada Tenir Too yazıları var və bu yazılar həm Tarım mumiyalarının, həm də «Andronovolu»ların nəinki hansı dildə danışdıqlarına, hətta özlərini necə adlandırdıqlarına aydınlıq gətirir.

Yusif Balasaqunlu adına Qırğızıstan Milli Universitetinin dosenti Kubatbek Tabaldiyev və Qırğızıstan Milli Universitetinin muzey laboratoriyasının bərpaçısı Çanırbek Joldoşovun yazdıqlarından belə aydın olur ki, Temir Too abidəsi Son Tunc – Erkən Dəmir dövrünə aid edilir (Yengi M. R., Tuncay B., 2013).

Orta tuncun sonları-son tuncun əvvəllərinə aid edilən, Cənubi Sibir və Şimali Qazaxıstan bölgələrini əhatə edən Karasuk mədəniyyəti türklərin yaratdığı daha bir parlaq mədəniyyətdir. Mədəniyyət öz adını Yenisey çayının qolu olan Karasuk çayından almışdır. Onun ilk nümunələrinə Xakasiya ərazisindəki Bateni kəndində rast gəlinmişdir (Восточно-азиатская металлургическая провинция.., 2006).

Bu mədəniyyətin təsir dairəsi Sayan-Altaydan Aral dənizinə qədər geniş olmuşdur. Onun özünün isə Andronovo mədəniyyəti əsasında formalaşdığı hesab edilir. Belə hesab edilir ki, Karasuk mədəniyyətinin varisi kimi Taqar mədəniyyəti çıxış etməkdədir (Карасукская культура, 2008).

Karasuk mədəniyyəti haqqında ilk dəfə Askiz kəndi yaxınında aşkar edilmiş kurqanlarda qazıntılar aparmış İ. Kuznetsov-Krasnoyarskiy məlumat vermişdir. Onun haqqında məlumatın genişlənməsində Tuba çayı hövzəsində qazıntılar aparmış A. Adrianov (1894), eləcə də Xakas-Minusinsk bölgəsindəki beş məzarlıqda tədqiqatlar aparan S. Tepluxov və Abakanda bir çox kurqanın tədqiqini gerçəkləşdirən S. Kiselyovun (1950) əməyi böyük olmuşdur. Daha sonra bu işlə Krasnoyarsk arxeoloji ekspedisiyasının rəhbəri M. Qraznyov məşğul olmuş, elə o da Karasuk mədəniyyətini ayrıca bir mədəniyyət kimi təsnif etmişdir (Членова Н. Л., 1964; Членова Н. Л., 1967).

Alimlərin bir qismi Karasuk mədəniyyətini yerli mədəniyyət hesab edir və bildirirlər ki, o, Andronovo mədəniyyətinin birbaşa varisidir. Bu fikirdə olanlar içərisində M.Qryaznova, Q.Maksimenki, Z.D.Xoa və başqalarının adını çəkmək olar (Карасукская культура, 2008). S.Kiselyov, Q.Debets və s. sözügedən mədəniyyəti Şərqi Türküstanla, V.Alekseyev isə Orta Asiya ilə əlaqələndirməyə çalışırlar. N.Çelnova isə bu mədəniyyətin daşıyıcılarının Ön Asiyadan gəldiklərini düşünməkdədir (Новгородова Э.А., 1970; Членова Н.Л., 1964; Членова Н.Л., 1967).

«Karasuklu»ların antropoloji tipi barədə də elmi ədəbiyyatda vahid fikir yoxdur. Məsələn, L. Qumilyov onların monqoloid olduğunu iddia etmiş, mədəniyyətin də Şimali Çin ərazisindən gəlmiş monqloid köçərilər tərəfindən yaradıldığını yazmışdır (Гумилев Л. Н., 1966, стр. 62-71). Onun bu fikrinin hansı fakta əsaslandığı məlum deyil. Fakt isə budur ki, sözügedən mədəniyyətin daşıyıcıları pamir-fərqanə tipli avropoidlər olmuşlar. Elə bu səbəbdən də bir sıra alimlər onların ketlərin əcdadları olduğu barədə fikir səsləndirmişlər. G. V. Drim isə onları irandilli buruşasların əcdadı hesab etmişlər (George V.D., 2001). Əksəriyyət isə bu fikirdədir ki, «Karasuklu»lar «andronovolu»larla Mərkəzi Asiyanın şərqindən gələn gəlmələrin qarışığından ibarət olmuşlar (Дремов В. А., 1990, c. 56-62).

Aparılan genetik analizlər yuxarıda səsləndirilən fikirlərin çoxunun heç bir ciddi əsası olmadığını göstərməkdədir. Belə ki,

DNT analizləri üçün dörd müxtəlif yerdən götürülən və e.ə. 1400-800-cü illərlə tarixləndirilən skeletlərdən ikisinin U5a1 və U4 mitoxondrial haploqruplarının və və R1a1 Y-xromosomunun daşıyıcısı olduğu məlum olmuşdur

(Bouakaze C., Keyser C., Amory S., Crubézy E., Ludes B., 2007, pp 493–499; Keyser Ch., 2009). Digər ikisindən biri R1a, ikincisi isə Q1a Y-xromosomuunun daşıyıcısı idi (Morten E. Allentoft, et al., 2015, p. 167-172). Beləliklə, «Karasuklu»ların «Andronovolu»larla qohumluğu heç bir şübhə oyatmır.

R1a haploqrupunun daşıyıcısı olan skeletlərin birindən əldə edilmiş genlərsə sözün əsil mənasında sensasiyaya səbəb olmuşdur. Onun (RISE495 Arban 1 karasuk) R-S23592 (Z2124+ Z2125+ Z2122- Z2123-) haplotipinə aid olduğu məlum olmuş və onda müsbət YP349 aşkar edilmişdir. Məlum olmuşdur ki, qırğız türklərinin təqribən yarısı onun nəslindəndir. Eyni zamanda Karasuk mədəniyyətini qırğız türklərinin ulu babalarının yaratdığı, qırğızların indi yaşadıqları ərazilərə Avropadan, Avropaya isə Ön Asiya və Qafqazdan gəldikləri də beləcə üzə çıxmışdır (Morten E. Allentoft, et al., 2015, p. 167-172).

## Son tunc və erkən dəmir dövrlərində Anadolu və Qafqazda yaşamış türk boyları

Son tunc və erkən dəmir dövrlərində Anadolu və Qafqazda yaşadıqları yazılı mənbələrdən məlum olan türk boyları içərisində kuman, qarqar, myuten-matien və qaşqayların adını ilk sırada çəkmək lazımdır. Bunlardan kumanların adının qədim mənbələrdə (mixi yazılarda) ilk dəfə e.ə. XIlI-XII əsrlərdə "kumen" kimi çəkildiyini diqqətə çatdıran Y.Yusifov yazır ki, bu etnonim «ku» (qu quşu) kökündən və türk dillərində etnik ad düzəldən "-man" (-men) şəkilçi birləşmələrindən əmələ gəlmişdir. Kuman sonrakı türk adı olmaqla "sarımtıl, ağımtıl" mənasını daşıyırdı (Azərbaycan tarixi, 1994, s. 83).

**Kumanlar**. Bu türk boyunun adına Tukulti-Ninurta (e.ə. XIII əsr), I Tiqlatpalasar (e.ə. 1115-1077-ci illər), II Adadnerari (e.ə. 911-990-cı illər) Sinnaxerib (e.ə. 705-681) kimi Assur şah-

larının kitabələrində rast gəlinməkdədir. Bu kitabələrdə əsasən aşşurların kumanlarla apardıqları savaşlardan söhbət açılır. I Tiqlapalsarın (e.ə. 1115-1077) kitabəsində yazılanlardan kumanların hökndara, deməli həm də öz dövlətlərinə sahib olduqları məlum olur: «(V,73)Kumanların ordusu gerçəkdən Musru ölkəsinin köməyinə çıxdı… (V.82) Bu zaman Musru ölkəsinə köməyə çıxmağı qət etmiş kumanların hamısı savaşın baş tutması və mənə qarşı durmaq üçün özlərinin bütün bölgələrini səfərbər etdilər…(Vl.22)…Kumanların mənim güclü döyüş təzyiqimdən qorxuya düşən hökmdarı ayaqlarımı qucaqladı… (38.№10)» (Дьяконов. 1951, №№ 10, 14, 20, 21).

M.Frangipanenin yazdığına görə, Arslantəpə tunc dövrünün sonlarında kumanların paytaxtına çevrilmişdi (Frangipane M., 2014, p. 169-182). Bu o deməkdir ki, kumanlar e.ə. II minilliyin sonlarında Arslantəpəni hetlərdən təmizləmiş və şəhərə hakim olaraq, onu özlərinə paytaxt etmişdilər.

F.Ağasıoğlu bildirir ki, «Kuman» toponimi Assur mənbələrində «Kamannu», Urartu mənbələrində «Qaman», het mənbələrində isə «Kumanni», «Kumaneşmax» kimi qeyd edilmişdir. Alimin sözlərinə görə, bu halda söhbət Türkiyənin Malatya bölgəsindən getməlidir (Ağasıoğlu 2005, s. 45).

Uratu mənbələrində «Kumenu» şəhərindən söz açıldığını dilə gətirən Melikaşvili də təqribən eyni fikri sərgiləyərək, bu şəhəri Van gölü çevrəsində axtarmaq lazım olduğunu yazmışdır (Меликашвили 1960, № 28).

Uratu mənbələrində Göyçə gölü ətrafında yaşayan kumanlardan da söhbət açılmaqdadır (Мещанинов 1978, с. 358, 375).

Maraqlıdır ki, kumanların eranın ilk əsrlərində hələ də Anadoluda yaşadıqlarını Ptolomeyin yazdıqlarından öyrənmiş oluruq. Belə ki, həmin müəllif öz əsərində Kappadokiya ərazisində yaşayan kumanlardan söz açmışdır (Арутюнян 1985, с. 101).

Fikrimizcə, XX əsrin sonlarında Van gölünün şimalında, Əhlat şəhəri yaxınlarındakı Nurəddin kəndində, eləcə də Doğubəyazidin şimal-qərbindəki Sulucemdə aşkar edilmiş kurqanlar bilavasitə kumanların yadigarlarıdırlar.

Arslantəpə və Alacahöyük kurqanları nəzərə alınmazsa, Anadoluda kurqan mədəniyyəti özünü orta tunc dövründən etibarən daha bariz şəkildə göstərməyə başlamışdır. Həmin dövrdən etibarən Cənubi Qafqazla qonşuluqda yerləşən Şərqi Anadoluda yarımadanın digər bölgələrindən, eləcə də bölgənin əvvəlki mədəniyyətlərindən fərqli olaraq, yeni tipli mədəniyyət ortaya çıxır, huri və hetlərin qarətçi hücumları nəticəsində boşalan daimi yaşayış yelərini yarımköçəri həyat tərzi keçirən qəbilələrə xas məskənlər əvəz etməyə başlayır (Özfırat, 2001, s. 1; Köroğlu 2011, s. 17-20).

Daha çox geniş otlaqlarda böyük heyvan sürüləri ilə yaşadıqları anlaşılan qəbilələrin dəfn adətləri diqqət çəkməkdədir. Basdırılan şəxsin önəminə görə ölçüləri dəyişən və içərisinə qoyulan əşyalar artıb-azalan kurqan tipli məzarlar məhz bu həyat tərzinin nəticəsi kimi ortaya çıxmışdır (Lordkipanidze, 1991, s. 54).

Eyni mədəniyyətin e.ə. II minillikdə Şərqi Anadoluda varlığına baxmayaraq, uzun müddət bu barədə heç bir məlumat olmamışdır (Burney, Lang, 1971, s. 86; Yakar J., 1992, p. 513). Türkiyəli tədqiqatçı J.Yakarın yazdığına görə, Van-Urmiya bölgəsi boyalı qablar mədəniyyətinə aid çox sayda qabın tapılmasına və Türkiyənin muzeyləri onlarla dolu olmasına rəğmən, Van və Ərzurum bölgələrinin kurqanları hələ də arxeoloqların onları kəşf etməsini gözləyirdilər. Yalnız Trialeti kurqanları açıldıqdan və onlar haqqındakı məlumatlar elmi ədəbiyyatda nəşr edildikdən sonra sözügedən qabların tapıldığı məzarların kurqan ola biləcəyi barədə fikirlər ortaya çıxdı və Trialeti mədəniyyətinə bənzər qabların aşkar edildiyi yerlərdə - Çıldır gölünün cənubundakı Küçük Çarça (Küçük Pergit) (Djaparidze O.M., 1969, s. 270) kəndində və Pulur Höyükdə (Koşay H.Z., Vary H., 1964, s. 47) tədqiqatlara başlanıldı (Yakar J., 1992, p. 513). Həmin kurqanlardan əldə edilən boyalı qablar Çilingiroğlu tərəfindən (Çilingiroğlu, 1994, s. 1) «Van-Urmiya boyalı qabları» adlandırıldı və onlar Trialeti mədəniyyətinə aid qablarla tutuşdurulclu və onların da eyni qəbildən olduğu təsbit edildi.

Qeyd edək bu mədəniyyətin izlərinə ilk dəfə 1896, 1904 və 1926-cı illərdə Naxçıvanda, Qızılvəng monastrı yaxınlığındakı daş qutu qəbir abidələrində rast gəlinmişdir. İlk dəfə Naxçıvandan üzə

çıxdığı üçün bu mədəniyyəti «Naxçıvan mədəniyyəti» də adlandırırlar. Onu səciyyələndirən əsas saxsı məmulatı həndəsi naxışlarla, insan, heyvan, quş rəsmləri, müxtəlif piktoqrafik işarələrlə bəzədilmiş və yüksək sənətkarlıqla hazırlanmış boyalı qablardır.

Bu mədəniyyət eyni zamanda yalnız erməni arxeoloji ədəbiyyatında bir müddət «Qızılvəng mədəniyyəti» kimi tanınmışdır. Bunun da əsas səbəbi Naxçıvan mədəniyyətinə aid olan ilk əşyaların ilk dəfə Qızılvəng monastırı yaxınlığında aşkarlanması olmuşdur (Əliyev V. H., 1977, s. 5).

Boyalı qablar mədəniyyəti dörd inkişaf mərhələsi keçmişdir (Həbibullayev O. H., 1959):

I mərhələ (e.ə. XX – XVII əsrlər) üçün qırmızı rəngli monoxrom naxışlı (qara rəngli) qulpsuz küpə, çölmək, kasa və xeyrə tipli qablar səciyyəvidir. Qara və boz rəngli, qismən cilalı, cızma, çərtmə, basma və yapmanaxışlı sadə saxsı nümunələrinə də təsadüf edilmişdir. Boyalı qablar dalğalı, sınıq və düz xəttlər, bucaq, üçbucaq, trapesiya, romb və dairələrlə bəzədilmişdir. Bəzi qabların (Nəhəcir və Yaycı yaşayış yerləri) üzərində insan, keçi, maral və quş təsvirləri var.

II mərhələ (e.ə. XVII – XV əsrlər) mürəkkəb həndəsi motivlər, insan, heyvan və quş rəsmləri (II Kültəpə, Şahtaxtı, Qızılvəng) ilə zövqlə naxışlanmış boz və sarı rəngli, polixrom qablar yayılmışdır. Qabların üzəri açıq çəhrayı və sarı rənglə örtülmüş, tünd qırmızı, qəhvəyi, qara və ağ rənglərlə bəzədilmişdir.

III mərhələyə (e.ə. XIV – XI əsrlər) aid olan nisbətən səliqəsiz naxışlanmış çaydan, vaza, qədəh, küpə tipli polixrom boyalı qablar, eləcə də boz və qara rəngli sadə saxsı məmulatı aiddir.

IV mərhələyə (e.ə. X – VII əsrlər) aid qablar əvvəlki mərhələnin materiallarından fərqlənmir, lakin daha kobud və bəsit naxışlanmışdır.

Fikrimizcə, bu mədəniyyətin yaranmasında kumanların da özünəməxsus rolu olmuşdur. Üstəlik də bölgədəki son tunc-erkən dəmir dövrü kurqan tipli qəbir abidələri, ilk növbədə də Plovağ nekropolu bilavasitə kumanların yadigarıdır.

Arxeoloqlar bu kurqanların bir qismini, xüsusən də qurbangahları olan dəfn abidələrini Çalipiraqorebidə aşkar edilmiş analogiyalarına əsasən e.ə. XV-XIV əsrlərə aid edirlər.

Nekropolun daha əvvəl tədqiq edilmiş kurqanlarından biri 18 №-li kurqandır. Ona şimal və şimal-şərq tərəfdən bitişik olan iki kiçik həcmli kurqan da qeydə alınmışdır. Bu kurqanlar xarici görünüşünə və strukturuna görə qurbangahlara bənzəyirlər.

Birinin kromlexi oval, digərininki isə, dairəvi formada olan bu kurqanların hər ikisinin qəbir kamerası eyni istiqamətli idilər. Bunlardan birincisinin kromlexinin diametri 2,2 x 2,6 m, qəbir kamerasının ölçüləri isə 0.50 x 0.75 m idi. Kamera 48-50 sm dərinlikdə qazılmışdı. Burada 4-5 yaşlarında olduğu təxmin edilən uşaq və yaşlı kişi skeletlərinə rast gəlinmişdir. Kurqanda bir neçə gil qab və bəzək əşyasıi aşkar edilib.

İkinci kurqanın kamerasının ölçüləri 0.55 x 0.78 m, dərinliyi isə 0.50-0.55 m olub. Onun da qəbir kamerası qarət olunduğundan orada skelet və avadanlığa rast gəlinməmişdir.

Ərazidə qazıntılar aparmış arxeoloqlar sözügedən kurqanları quruluşuna görə böyük kurqanların miniatür forması hesab edirlər (İbrahimli B.İ., Xəlilov T.F., Qədirzadə T.Q., 2011, s. 119-120).

**Qaşqaylar**. Qədim yazılı mənbələrdə adına rast gəlinən daha bir türk boyu qaşqaylardır. Onların adı mixi yazılarda «kaşka», «kaska», «kaskay», «qa-as-qa» kimi çəkilir. Əldə olan mənbələrdən bu xalqın e.ə. II minillikdə Anadolunun şimal-şərqində, Qara dəniz sahillərində yaşadıqları, ərazilərinin qərbdə Qızıl İrmaq çayına, cənubda isə Fərat çayının mənsəbinə qədər uzandığı məlum olur (Иванов В. В. Каскайские племена; Дьяконов И. М., 1968).

Qədim het (hithit) mənbələrindən belə aydın olur ki, het şahı II Tudhaliyanın hakimiyyəti dövründə (e.ə. 1430-cu illər) qaşqaylar hetlərin müqəddəs saydıqları Nerik şəhərini ələ keçirirlər. II Tudhaliyanın yerinə şah olan I Arnuvanda Nerik şəhərini qaytarmaq üçün Tanrıya dua edir. Duanın mətnindən belə məlum olur ki, həmin dövrdə artıq Kammama və Tsalpuva şəhərləri də qaşqayların əlinə keçmişdi. I Arnavundanın qaşqaylara qarşı apardığı mübarizə heç bir nəticə vermir.

Maşat-Höyük yazılarından isə məlum olur ki, qaşqayların əkin sahələrinə çəyirtkə sürüləri ziyan vurur, elə bu da onları het torpaqlarına hücüma keçməyə təhrik edir. Onlar hetlərin paytaxtı Hattuş şəhərini ələ keçirərək yandırırlar.

Qaşqaylar haqqında qədim Misir yazılarında, daha dəqiq desək, firon III Amenxotepin kitabəsində da məlumat var. Bu məlumatlardan aydın olduğu kimi qaşqaylar het dövlətinə son qoymuş və hetlərə qarşı döyüşdə 800 döyüş arabasından istifadə etmişdilər (Малая Азия и Закавказье..,).

Fikrimizcə, Kür çayının mənsəbinə yaxın ərazilərdəki kurqanlar, eləcə də Çıldır elçəsinə bağlı Kurtkale və Akçakale kəndləri yaxınlığındakı kurqanlar qaşqayların yadigarı kimi gözdən keçirilməlidir. Bu kurqanlar 1995-ci ildə K. Köroğlu tərəfindən aşkar edilərək tədqiq edilmişdir (Köroğlu, 1997, s. 376). Bunlardan Kurtkale kurqanları Kür çayının sol sahilində, Türkiyə-Gürcüstan sərhədinə yaxın yerdə yerləşirlər. K. Köroğlunun yazdığına görə, ətraf ərazilərdə onlarca kurqanın səpələndiyi diqqət çəkməkdədir.

Kurtkale kurqanları tamamən ətraf ərazilərdəki daşlardan qurulmuşlar və bənzər quruluşa sahibdirlər. Onların qəbir kameraları bir qayda olaraq kurqan örtüyünün altında, tam mərkəzdə yerləşiblər. Kameralar şərq-qərb istiqamətlidir və dördkünc formaya malikdirlər, ətrafları kromlexlərlə əhatə olunub. Qəbir kamerasının divarları döşəmədən yuxarı doğru daralan formada inşa edilmiş, üstləri uzun və yastı daşlarla örtülmüşdür. Qəbirlərdən birincisi 1.79 x 3.70 x1. 60 m, ikincisi isə 1.70 x 3.50 x 2 m ölçüsündədir.

Kurtkale kurqanlarının üst örtükləri salamat qalmadığından onların forma və ölçülərini dəqiq müəyyən etmək mümkün olmasa da, 2 və 3 №-li kurqanların bir birinə bitişik, digərlərinin isə bir-birindən çox az məsafədə yerləşdiyi, diametrinin isə 7 ilə 11 m arasında dəyişdiyi müəyyən edilib (Köroğlu K., 2000, s. 4).

Çıldır elçəsindən 17 km cənub-şərqdə, Akçakale kəndinin 1 km cənub-qərbindəki kiçik adada yerləşən Akçakale kurqanlarının da qaşqayların yadigarı olduğunu düşünmək olar. Bunlardan Böyük kurqan talançıların açdıqları bir oyuq vasitəsilə içinə giri-

lərək soyulmuşdurş Onun dağıntıları hazırda adanı sahillə birləşdirən yolun şərq tərəfindədir.

K.Köroğlu yazır ki, bu kurqanın qəbir kamerası da eynən Kurtkale kurqanlarında olduğu kimi şərq-qərb istiqamətli və dördkünc planlıdır. Ətrafı kromlexlə əhatələnmişdir. Kromlexin diametri 24 m-dir. Qəbir kamerası əkin-biçin işləri zamanı dağıntıya məruz qalmış kurqan örtüyünün şimal-şərq hissəsində, yer səthindən təqribən 3 m dərinlikdə qazılmışdır. Onun 3.40 x 6.60 m ölçülü daş örtüyü yastı uzun daşlardan qurulub və örtük ilə döşəmə arasında daş sütun (menhir) yerləşdirilib. Onun vəzifəsi kameranın örtüyünü saxlamaqdır. Kameranın girişi 1.25 m genişliyindədir.

K. Köroğlunun sözlərinə görə, Akçakale kurqanı struktur və üslub baxımından Kurtkale kurqanlarını xatırlatsa da, buradakı giriş qapısı və daşıyıcı sütun rolunu oynayan menhirdən istifadə edilməsi onları bir-birindən fərqləndirir. Başqa bir fərq isə qəbir kamerasının gillə suvanmasıdır.

Alimlər bu kurqanların Borçalı – Axalkələk kurqanları (Trialeti-Mesxeti) ilə eyni tipə aid edirlər (Köroğlu K., 2000, s. 6-7; Biber H., 2016, s. 3503). K. Köroğlu yazır ki, «adanı sahilə bağlayan yolun tam solunda, Böyük kurqanın üst örtüyünü xatırladan bir dairəvi təpənin şərqində və qarbində yerləşən iki nümunə də xüsusi maraq doğurur. Bunlar yan-yana tək və ya iki sıra şəklində düzülən olduqca böyük daşlardan inşa edilmişdir. Qeyri-qanuni yolla sökülərək inşaat işlərində istifadə edilən bu daşların ölçüləri 2 x 3m-ə çatmaqdadır. Tədqiqata cəlb edilən bu qurğulardan şərqdə olanının sahəsi 12,5 x 6 m, qərbdəkininki isə 6,5 x 3,5 m ölçülərindədir. Hər ikisində də daşlarla əhatələnmiş sahəyə daxil olmaq üçün iki tərəfdən açıq yer saxlanılmışdır. Qafqazda bu kimi kromlexlərdən bir və ya birdən artıq qəbir çıxmışdır» (Köroğlu K., 2000, s. 8).

Sözügedən kurqanlardan qaşqayların həmin dövrdəki məişətləri, mədəniyyət və incəsənətləri barədə hər hansı bir məlumat əldə etməyə yardımçı ola biləcək material çıxmasa da, Antalyanın Elmalı elçəsinin Bayandır kəndi yaxınlığında 1987-ci ildə qazılaraq tədqiq edilən, qaşqaylara aid olduğu heç bir şübhə oyatmayan

kurqanlardan maraqlı sənət əsərləri əldə edilmişdir. E.ə. VIII-VI əsrlərə aid edilən bu kurqanları bəziləri hetlərə, digərləri isə ionialılara, lidiyalılara, farslara, frigiyalılara və ya da likiyalılara aid etməyə çalışırlar (Dörtlük K., 1988, p. 171-174; Ozgen I. and E. Ozgen., 1988; Akurgal E., 1992, p. 67-81; Özgen I. and J. Öztürk., 1996; Roller L. E., 1999; İşik F., 2000; Boardman J., 2000; Börker-Klähn J., 2003, p. 69-105). Halbuki adı çəkilən bu xalqlardan heç biri ölülərini kurqanlarda basdırmamışlar. Bu dəfn adəti sədəcə və sadəcə türklərə aiddir. Həmin dövrdə isə keçmişdə het işğalı altında olmuş bu ərazilərin sahibinə qaşqaylar çevrilmişdilər. Kurqanlar da onlardan başqasına, təbii ki, aid ola bilməz.

Qeyd etmək lazımdır ki, Bayandır kəndi yaxınlığındakı çöldə yüzdən artıq irili-xırdalı kurqan qeydə alınmışdır. Onlarda C və D kurqanlarını Kayhan Dörtlük tədqiq etmişdir (Dörtlük K., 1988, p. 171-174). Hər iki kurqan bənzər quruluşa malik olsa da, onlarda fərqli dəfn adətinə rast gəlinmişdir. Belə ki, C kurqanında kremasiya, D kurqanında isə inqumasiya qeydə alınmışdır (Şare T., 2010, p. 54).

Bunlardan birincisinin diametri 36-38 m, hündürlüyü 4.20 m, ikincisinin düametri 40-45 m, hündürlüyü isə 5.10 m idi.

D kurqanının 50 sm dərinlikdə qazılmış qəbir kamerası bütünlüklə ağacdan qurulmuş, döşəməsinə çınqıl döşənmişdi. Örtüyü də ağacdan olan kamera 3.25 x 4.50 m ölçüsünə sahib idi. Kameranın şimal tərəfində qurulmuş və və hündürlüyü 20 sm olan xüsusi taxtın üstündə qadın skeleti vardı. Onun başı şərqə tərəf idi. Belində gümüş kəmər, baş və sinəsi tərəfdə ətrafa səpələnmiş 9 gümüş fibula vardı. Qəbiirdə həmçinin öküz və at qalıqlarına, iki ədəd dəmir at nəsnəsinə, başqa bir gümüş kəmərə və böyük bir qazanın parçalarına rast gəlinmişdir (Dörtlük K., 1988, p. 172-174).

Bayandır kurqanlarından tapılmış əşyalardan ən maraqlıları fil sümüyündən və gümüşdən düzəldilmiş fiqurlardır.

**Qarqarlar**. Adlarına qədim yazılı mənbələrdə rast gəlinən türk boylarından biri də qarqalardır. Qarqar etnoniminə ilk dəfə «Xarxar» formasında e.ə. XII əsrə aid Aşşur mənbəsində rast gəlinib. Həmin mənbədə Cənubi Qafqazda yerləşən hansısa yaşa-

yış məskəni kimi söz açılır (Tahirzadə, 1991, s. 64; Ağasıoğlu, 2005, s. 139).

Sonrakı dövr mənbələri də onları məhz Cənubi Qafqazda yad edir. Strabon (I əsr) onların onları Qafqaz Albaniyası dağlarında, amazonkalarla qonşuluqda yaşadıqlarını bildirir. III əsr müəllifi Yustin Qarqar çölündən və qarqar bəyliyindən söz açaraq onları midiyalı və albaların qonşuları kimi təsvir edir. Bənzər lokasiyaya IV əsr müəllifi Pamfila oğlu Yevseviyin yazısında da müşahidə edilir (Гейбуллаев, 1991, s. 77-78).

Bu və əldə olan çox sayda bu kimi məlumatları təhlil edən Q. Qeybullayev yazır ki, əski müəlliflərin Qarqar çölü adlandırdıqları ərazi Qarabağ ərazisidir (Гейбуллаев, 1991, 79).

Əldə olan bu kimi yazılı məlumatlar bizə Xocalı-Gədəbəy mədəniyyətini, xüsusən də Xocalı qrupu kurqanlarını qarqarlarla bağlı olduğunu düşünməyə əsas verir. H.Cəfərovun yazdığına görə, bu abidələrinin xronoloji çərçivəsinin müəyyənləşdirilməsində buradan tapılmış materiallar əsas rol oynamışdır. Alimlər Xocalı nekropolunun stratiqrafiyası müəyyənləşdirilərkən daş örtüklü kurqanların daha sonrakı dövrə aid olduğunu söyləmişlər (İ.Meşşaninov, İ.Cəfərzadə, T.Passek, B.Latının və b.). «Xarici elementləri ilə müəyyən edilmiş bu dövrləşmə arxeoloji materiallarla dəqiqləşdirilmişdir. Bu işdə 11 saylı Xocalı kurqanı kompleksi (Adadnirari muncuğu, Assuriya mənşəli şirli saxsı qab), habelə Xocalının başqa bu dövr kurqanlarında (11, 14, 18, 20 və b.) tapılmış qızıl əşyaların və s. bəziləri dayaq rolunu oynamışdır. Göstərilən faktlar, xüsusilə üzərində Adadnirarinin adı yazılmış muncuğun təhlili əsasında bu mərhələ abidələri əsasən X-VIII, ən geci IX-VIII əsrlərə aid oluna bilər.

İ.İ.Meşşaninov Assuriyada e.ə. II min. axırı və I min. əvvəllərində Adadnirari adlı dörd çarın hakimiyyətdə olmasını göstərmiş və buna görə də Xocalı muncuğunun hansı çara mənsubiyyətində çətinlik çəkdiyini etiraf etmişdir. İlkin vaxtlar yazılışın paleoqrafik xüsusiyyətinə əsasən IV Adadnirarinin (e.ə. 763-755) adı çəkilsə də sonralar muncuq üzərindəki yazının üçüncü sətirinin axırıncı işarəsinin yazılış tərzinin artıq IV Adadnirari dövründə sıradan çıxdığını nəzərə alaraq İ.Meşşaninov bu fikrindən ya-

yınmışdır. Bunu nəzərə alaraq o, Xocalı muncuğunun I Adadnirariyə (e.ə. 1310-1281) və ya II Adadnirariyə (e.ə. 911-891) məxsus olduğu qənaətinə gəlmişdir» (Cəfərov H., 2000, s.138-139).

Muncuq üzərindəki yazıda üçüncü sətirin axırıncı işarısinin II Adadnirari dövründən sonra sıradan çıxması haqqında İ. Meşşaninovun fikrinə istinad edən H. Cəfərov Assuriya muncuğunun məhz II Adadnirariyə mənsubiyyəti mülahizəsini irəli sürmüşdür (Cəfərov H., 2000, s.139).

Biz də bu fikirdəyik ki, muncuq II Adadnirariyə aiddir. Çünki qarqar boyunun kuman-qıpçaqların bir qolu olduğu (Абромзон, 1960, s. 46; Бартольд, 1968, ll, 1, 541), məhz II Adadnirarinin kitabəsində onun kumanlarla savaşdığının qeyd edildiyi (Дьяконов. 1951) məlumdur. Nəzərə alsaq ki, sözügedən Assur hökmdarı e.ə. 911-891-ci illərdə yaşamışdır, sözügedən muncuğun da, kurqanın da həmin dövrə aid olduğunu tam qətiyyətlə söyləmək olar.

Lakin bu tarixi Xocalı-Gədəbəy mədəniyyətinin bütün abidə və kurqanlarına aid etmək, əlbəttə ki, doğru olmaz. H. Cəfərov haqlı olaraq yazır ki, Xocalı-Gədəbəy mədəniyyətinə mənsub olan qədim etnik–mədəni massivin tarixinin öyrənilməsində Xocalı abidələrinin müstəsna əhəmiyyəti var. «Qafqazda Xocalı kompleksi qədər müxtəlif tip abidələr qrupunun bir yerdə toplusuna təsadüf olunmamışdır. Burada təkcə kurqanların beş tipinin varlığı müəyyənləşdirilmişdir. Bundan başqa Xocalı kompleksi öz tərkibində daş qutularını, menhir, labirinti xatırladan daş hasar (Haca-təpə kurqanı rayonunda) və s. birləşdirir. Maraqlıdır ki, çoxsaylı arxeoloji abidələri yalnız bir tarixi dövrü e.ə. XIV-VIII əsrlərə aid son tunc və ilk dəmir dövrünü əks etdirir…

…Xocalı abidələri içərisində kurqanlar xüsusi yer tutur. Kurqan qruplarına İ. Meşşaninovun adlandırdığı "böyük kurqan çölündə" və Qarqarçayın sol sahilindəki "daşlı çöldə" daha çox təsadüf olunur. "Böyük kurqan çölü" qrupu qərbdə iki böyük menhir və labirintvari daş hasarla qonşuluqda yerləşən möhtəşəm Hacatəpə kurqanı ilə məhdudlaşır. Kiçik kurqanlar qrupu əksər hallarda Xocalı çayının sol sahilində, ona tökülən İlisu çayı sahilində yerləşmişdir. Daş qutulara qeyd olunan sahələrin hər

üçündə, habelə Xocalı kəndindən şimalda, Boz dağın ətəyində təsadüf edilmişdir» (Cəfərov H., 2000, s. 82-83).

Şübhəsiz ki, bu abidələrin hamısını ucdantutma qarqarlara aid etmək doğru olmaz. Yalnız ölünün arxası üstə dəfn olunduğu kurqanları qarqarlarla bağlamaq olar. Çünki dolayısı faktlar bizə qarqarların R1b haploqrupunun daşıyıcısı olduğunu düşünməyə əsas verir. Belə düşünməyimizə əsas səbəb qarqarların Qafqaz Albaniyasının aparıcı boylarından biri və birincisi olması, Alban yazısının məhz onların dili (qıpçaq-qarqar) əsasında yaradılması, onların xristianlıqdan imtina etməyən hissəsinin XIX əsrdən sonra haylaşması (ermənilə̧şməsi), ermənilərin 28 faizinin (Qarabağ və Zəngəzur ermənilərinin isə 40 faizinin) hazırda R1b haploqrupuna sahib olması faktıdır. Bu Y-xromosom ermənilərə qarqarlardan (albanlardan) keçmişdir.

Qeyd edək ki, Xocalıda müxtəlif illərdə üst-üstə 40-dan yuxarı qəbir abidəsi qazılmışdır. Onları dörd tipə ayırmaq olar:

Kiçik ölçülü torpaq kurqanlar;
Böyük ölçülü torpaq kurqanlar;
Böyük ölçülü daş örtüklü kurqanlar;
Daş qutu qəbirlər.

I tipə aid edilən kiçik ölçülü torpaq kurqanlara həm əsas "kurqan çölündə", həm "valun çölündə", həm də İlisu çayının sol sahilində təsadüf edilmişdir. Bunlardan 5 №-li kurqan Xocalı çayının sağ sahilindəki əsas kurqan çölündə, 1 saylı böyük topraq kurqanının yaxınlığında yerləşirdi. Aşağı hissəsində azacıq daş yığını olan torpaq örtüyün diametri 13 m, hündürlüyü 1.2 m olmuşdur. Örtük altında, 1 m dərinlikdə bir ölü qalığına, it sümüklərinə, keramika sınıqlarına və əqiq muncuqlara təsadüf olunmuşdur (Cəfərov H., 2000, s. 84). Skelet həddən artıq çürüdüyündən onun ilkin vəziyyətini müəyyən etmək mümkün olmamışdır.

14 №-li kurqan Qarqarçayın sol sahilində daş örtüklü 11 və 12 saylı kurqanların arasında yerləşmişdir. Örtüyü əsasən torpaq və qumdan, qismən daşlardan qurulmuşdur. Diametri 17 m, hündürlüyü 3.3 m olan kurqan örtüyü altında arxası üstə, uzadılmış vəziyyətdə ölü dəfn olunmuşdur. Heç bir materiala təsadüf olunmamışdır.

Əsas kurqan çölündə, böyük ölçülü kurqanın ətəyində yerləşən 5 №-li kurqanın diametri 10 m, hündürlüyü 1 m idi. Onun ətəyi bir cərgə çay daşı ilə əhatələnmişdir. «Kurqan örtüyü altında, onun şərq hissəsində üzəri iki qat ağac tirlərlə örtülmüş torpaq qəbiri ( 4 x 1.85 x 1.5 m) aşkar olunmuşdur. Qəbir kamerasına dolmuş çay daşlarının ağırlığından insan skeleti qalıqları ilkin quruluşunu dəyişmiş, buna görə də onun ilkin vəziyyətini tutmaq mümkün olmamışdır. Qəbir avadanlığı bərpası mümkün olmuş yeddi saxsı qabdan, tunc sancaqdan, dəvəgözü və çaxmaqdaşından hazırlanmış ox ucluqlarından və əqiq muncuqlardan ibarət olmuşdur. Qəbirdə həmçinin oxra parçaları və şaftalı çiyidi tapılmışdır. Saxsı qablar şar gövdəli, alçaq boğazlı, səthi naxışlı küpələr, qoşa qulplu bərni tipli qab və tək qulp bardaqla təmsil olunmuşdur. Bəzi küpələr şüyrəli naxışları, basma dairələri və göbələkvari çıxıntıları ilə Borsunlu kurqanı keramikasını xatırladır» (Cəfərov H., 2000, s. 84-85).

2 və 4 №-li kurqanlar Xocalı kəndinin (köhnə Xocalı) qərbində, İlisu çayının sol sahillərində yerləşmiş yeddi kurqandan ibarət qrupa daxil olmuşdur. Kurqanlar kiçik ölçülü olub torpaq örtülüdür.

2 №-li kurqanın diametri 10 m, hündürlüyü 0.75 m olmuşdur, bu tip başqa kurqanlarda olduğu kimi əsas torpaq örtük altında kiçik daş topası aşkar edilmişdir. Şərq-qərb istiqamətli kiçik ölçülü torpaq qəbirində (1,3 x 1 m) sağ yanı üstə, bükülü halda dəfn olunmuş insan skeleti qalıqları aşkar olunmuşdur. Qəbirin qərb hissəsində əldə hazırlanmış, kobud formalı üç saxsı qab tapılmışdır (Cəfərov H., 2000, s. 85).

Fikrimizcə, bu tip, yəni ölünün böyrü üstə basdırıldığı kurqanlar R1a1 haploqrupunun daşıyıcısı olan aptallara (eftalitlərə), başqa sözlə ağ hunlara aiddir. Çünki M. Kağankatlı aptalların (eftalitlərin) qarqarlarla yanaşı yaşadıqlarını yazmışdır.

4 №-li kurqan şimal-cənub istiqamətində uzunsov, yastılanmış torpaq örtüyünə malik olmuşdur, hündürlüyü 1.4 m, diametri şimal-cənub istiqamətində 20 m, qərb-şərq oxu boyu 16 m-ə çatmışdır. Örtüyün 60 sm dərinliyində ətrafı bir cərgə daşla əhatələnmiş (kromlex) daş topası altında, materikdə, qərb-şərq isti-

qamətli torpaq qəbiri (2,3 x 1.46 x 1 m) aşkar edilmişdir. Vaxtilə qəbirin üstünü bağlamış ağac tirlər çökmüşdür. Qəbir talan edildiyi üçün qəbir adəti və avadanlığın düzülüş qaydası pozulmuşdur. Burada təsadüf edilmiş insan sümükləri qalıqları və saxsı qab parçaları qəbirə səpələnmiş, dağınıq vəziyyətdə olmuşdur. Qərb divarı önündə salamat qalmış dörd saxsı qab götürülmüşdür. Həmin qablar qoşa qulplu bərnidən, tək qulp camdan və yastı şarvari küpələrdən ibarətdir. Küpələrdən birində qulp əvəzinə göbələkvari çıxıntı var» (Cəfərov H., 2000, s. 85).

Xocalının I tip abidələr qrupu e.ə. XIV-XIII əsrlərə aid edilir.

**Kimmer xanlarının kurqanları**

Kimmerləri e.ə. Vlll əsrin Azərbaycan və Ön Asiya sakinləri kimi göstərən mixi kitabələrdən fərqli olaraq Herodot e.ə. V əsrdə onlardan Qara dənizin quzey sahillərinin sakinləri kimi söz açmaqdadır. Tarixin atası eyni zamanda onların bu əraziyə skiflərin təzyiqi ilə Araz çayı sahillərindən köç etməyə zorlandıqlarını bildirməkdədir. Belə hesab olunur ki, bu etnik qrup guya Güney Qafqaz və Ön Asiyaya Quzey Qafqzdan Daryal keçidini keçərək gəliblərmiş, yəni onlar Azərbaycan və Ön Asiyanın avtoxton əhalisi deyilmiş. Bu fikrin doğru olmadığını irəlidə göstərəcəyik. Hələliksə qeyd edək ki, onların Araz çayını keçərək e.ə. 715-ci ildə Urartu ordusunu darmadağın etdikləri və Urartunu tutduqları dəqiq məlum olan faktdır (Меликашвили Г. А., с. 278-281).

Kimmerləri "qamira" adlandıran aşşur mənbələri onlardan Manna, yəni Azərbaycan sakinləri kimi söz açmaqda və onların hökmdarı Tuqdammenin (Toxtamışın) adını çəkməkdədirlər (Гейбуллаев Г., 1991, s. 327-219). Rus və bəzi Avropa elmi ədəbiyyatında yayğın olan fikrə görə bu xalq irandilli idi (38.239-241). Lakin əldə olan təkzibedilməz dəlillər bunun əksini sübut etməkdə, kimmerlərin türkdilli olduqlarını birmənalı şəkildə ortaya qoymaqdadır. Dünyaya "İlliada" və "Odisseya" kimi iki nəhəng poema bəxş emiş Homer bu xalqdan "at südü sağanlar" kimi bəhs etmişdir (Homer., Xlll,1). At südünü sağanların və ondan kımız hazılayanların isə məhz türk xalqları olduğu bəllidir. İrandillilər içərisində belə hala rast gəlinməmişdir.

Bu baxımdan erkən orta əsrlər tarixçisi Prokopiyanın dedikləri isə əvəzsiz mənbə hesab edilə bilər. O yazır: «...Saqinlərdən sonra ölkədə çoxluq təşkil edən Meotiy bataqlığından Tanais çayının bataqlığa tökülən yerinə qədər çoxlu hun tayfaları yerləşmişlər. Burada yaşayan xalqları qədimdə kimmer, indi isə utiqur adlandırırlar» (Oğuz Y., 2002, s. 20; Гейбуллаев Г., 1991, s. 96-97).

Prokopiyanın verdiyi məlumatdan göründüyü kimi, hun türkləri, o cümlədən hunların bir qolu olan utiqurlar qədimdə kimmer adlanmışlar. Bu isə o deməkdir ki, kimmerlərin türklüyü antik müəlliflərdə heç bir şübhə oyatmamışdır.

Hun soylarından olan utiqur və kutriqurların mənşəyi ilə bağlı bir əfsanə də eyni fikri təsdiqləyir. Bahəddin Ögəl özünün “Türk mifologiyası” kitabının Avropa hunlarının maralla bağlı əfsanələrindən söz açan bölümündə həmin əfsanəni belə təsvir edir:

«Vaxtilə Kimmer kralınn Kutriqur və Utiqur adlı iki oğlu var imiş. Günlrin birində bu iki uşaq ov etmək üçün çölə çıxır. Ov axtardıqları zaman dişi bir marala rast gəlir və maral qovmağa başlayırlar. Maral qaçır, uşaqlar qovurlar və ən nəhayət bir dənizin kəmarına gəlirlər. Uşaqlar maralı dənizə sıxışdırıb vurmaq istəyirlr, lakin maral dənizə atılıb üzməyə başlayır. Uşaqlar da üzə - üzə maralın dalınca gedirlər. Maral qabaqda, uşaqlar da arxasında sahilə çıxırlar. Uşaqlar quruya ayaq basan kimi maral yoxa çıxır» (Ögəl B., 2006, s. 575).

Musa Kağankatlının "Alban tarixi"ndə yazılanlara əsasən, Azərbaycanda xaqanlıq institutunun təsisi və dövlətçilik tarixinin başlanğıcı Nuh tufanından sonraya təsadüf edir və bilavasitə Nuhun adı ilə bağlanır. Azərbaycanın və ümumiyyətlə türklərin ilk xaqanı kimi isə Həzrət Nuhun oğlu, samilərin Yafəs, türklərin isə Olcay adı ilə tanıdıqları şəxsin adı çəkilir: «Qardaşlar Nuhun təkidi ilə bir-birini qarət etməyəcəkləri barədə and içdikdən sonra Nuhun Yafəsə təyin etdiyi sahə şimalda Midiyadan Qadriona qədər uzanıb,Midiyanı Babildən ayıran Dəclə çayının aşağı axarına çatırdı» (Kalankaytuklu M., 1993, s.14).

Musa Kağankatlının yazdığına görə, Yafəsin oğullarından biri Qamər idi və qamərlər, yəni kimmerlər onun soyundandır

(Kalankaytuklu M., 1993, s.14-15). Müəllif eyni zamanda kimmerlərin soy babası olan Qaməri Azərbaycanın (Albaniyanın) Yafəsdən sonrakı ikinci xaqanı kimi təqdim edir. Bu isə o deməkdir ki, kimmerlər çox-çox qədim zamanlarda gerçəkdən də bu ərazilərin sahibləri olmuşdular. Məhz o dövrdə də «kimmer» adı saklara da, - əgər onlar həmin dövrdə eyni ərazidə yaşayırdılarsa, - aid edilməli idi.

Mixi yazılar bu versiyanı da təsdiq edir. Məsələ burasındadır ki, 1933-cü ildə Aşşurbanipalın (e.ə.668-663) Ninəviyyədəki İştar məbədindən tapılmış mərmər lövhə üzərindəki yazısında başqa yazılardan kimmerlərin xaqanı kimi tanınan Tuqdamme (Toxtamış) «Saka ölkəsi»nin və ya sakların hökmdarı kimi təqdim edilir. Mətnin naşiri R.Tompson «saka» (sak) ifadəsindən sonra gələn mixi işarəni özünəməxsus şəkildə şərh edərək, bu halda hansısa fərqli sak boyundan söhbət getdiyi fikrini əsaslandırmaq istəmişdir. Lakin sonralar X. Tadmor iddia etdi ki, ifadəni "Saka və Qutium" (Qutium ölkəsi, kutilər ölkəsi) kimi oxumaq lazımdır. Onun fikrincə, yazıdan belə çıxır ki, kimmelərin öndəri Tuqdamme Aşşur mənbələrindən Manna ilə bağlı olduqları məlum olan sakların üzərində də hökm sahibi imiş (Грантовский Э.,1960, с. 84).

Herodotun yazdıqlarından belə anlaşır ki, kimmerlərin bu bölgədəki hakimiyyətinə hansısa skif tayfası son qoymuş, onları Araz çayını keçərək öncə Qara dənizin cənub sahillərinə, daha sonra isə şimal sahillərinə sıxışdırmışdır. Lakin tarixin atası bu hadisəni iki versiyada nəql etmişdir. İkinci versiyaya görə skiflər Araz çayı sahilində yaşayırdılar. Onlar Araz çayını keçib kimmerlər ölkəsinə gəldilər və onları təqib etməyə başladılar (Гасанов З., 2000, с. 24). Lakin mütəxəssislər həmişə birinci versiyaya üstünlük vermiş və bu skiflərdən gəlmə xalq kimi söhbət açmışlar. Halbuki, arxeoloji faktlar da, ən qədim yazılı mənbələr də skif və sakların ilkin vətəninin məhz Azəbaycan və Ön Asiya olduğunu göstərməkdədir. Bu barədə bir qədər sonra.

Herodot Qara dəniz sahillərində yaşayan skifləri "skolot" adlandırır (Гейбуллаев Г., 1991, s. 276).

Skolotların tədqiqi bu əsərdə qarşıya qoyulan hədəflərin obyektlərindən biri olmasa da, skiflərin dili və ədəbiyyatı barədə müəyyən təsəvvür əldə etmək üçün onlar barədə də bir neçə kəlmə söyləməmiz lazımdır.

Qiyasəddin Qeybullayev "skolot" etnonimi barədə yazır: «Hesab edirik ki, Qara dənizin quzey sahillərində qeydə alınmış "skolot" etnoniminin «iskutay», «iskuday» (işquz) etnoniminə heç bir dəxli yoxdur, çünki, birincisi, bu etnonim (ərəb müəlliflər tərəfindən bulqarların bir qolu kimi qeyd edilən və Orta Asiyanın bir çox türk xalqlarında qorunub saxlanılan ad olan) «eskel», «eşkil», «iskil», «eskil» etnonimindən və qədim türk dilindəki «-ut», «-ot» cəm şəkilçisindən yaranmışdır, ikincisi, «skolot» bütün iskitlərin deyil, yalnız Qara dənizin quzeyində yaşayan iskitlərin adı olmuşdur» (Гейбуллаев Г., 1991, s. 276).

Deməli, alimin də haqlı olaraq qeyd etdiyi kimi, «skolot» adı «eskel» etnonimi və «-ut» cəm şəkilçisindən yaranmış bir etnonimdir. Yəni bu halda vaxtilə ərəb mənbələrində bulqar türklərinin bir qolu kimi qeydə alınmış eskel xalqından söhbət gedir. Maraqlıdır ki, hazırda Macarıstan və Rumıniyada yaşamaqda olan, artıq bütünlüklə macar dilində danışan, fəqət öz türk köklərini unutmayan bir xalq yaşayır. Onlar özlərini «sekel» adlandırırlar. Bu xalqın ən azı XVl əsrə qədər türk-run (Orxon-Yenisey) əlifbasından istifadə etdiyi, bu əlifba ilə yazılmış zəngin ədəbiyyata malik olduğu, dillərinin isə Avropanın geniş əraziləində işləndiyi məlumdur. Bu barədə Murad Aci yazır ki, Münhendən olan həvəskar şərqşünas Frans Babinger Ausburqda Fuqqerlərə mənsub knyaz və qrafların arxivində işlərkən 1553-1555-ci illərin hadisələrindən bəhs edən qədim mətnlərə rast gəlmişdi. «Bu mətnlər əvvəllər, çox güman ki, tövlə olmuş bir binanın divarlarından kopiyalanmışdı və heç kəs onlara heç bir əhəmiyyət vermirdi. Lakin Babinger Tomsenin əsərləri ilə tanış olduğundan bu mətnin hərflərinin qədim türk əlifbasının hərflərini xatırlatdığını dərhal sezdi və onları Kopenhagenə-Vilhelm Tomsenə göndərdi. Mətnləri alan Tomsen çətin vəziyyətə düşdü. Yazının hərfləri türk hərflərini xatırlatsa da, onlardan bir qədər fərqlənirdi. Yalnız xü-

susi tədqiqatlardan sonra hər şey aydın oldu: Alimlərin önünə türk dilinin Avropa dialekti çıxmışdı» (Аджи М., 1998, с. 109-110).

Tapılan mətn macar salnamələrindən məlum olan bir hadisədən söhbət açdığı üçün onun Avropa mənşəliliyinə heç bir şübhə yox idi. Mətnin dilini Tomsen "qədim macar dili" adlandırdı. Sonralar məlum oldu ki, bu sekellərin dilidir. Sekellər artıq çoxdan macarlaşmış olsalar da və türk dilini unutsalar da, özlərinin türk mənşəliliyini unutmamışdılar (Аджи М., 1998, с. 111).

Herodota istinadən skolotların, yəni sekellərin dörd soydan – avxat, katair, traspi və paralat soylarından ibarət olduğunu söyləyən Qiyasəddin Qeybullayev avxatların bu günə qədər qırğız türklərinin etnik qruplarından biri olan avaqatlar (Абрамзон С.М.,1971, с. 298), paralatlların isə Cənubi Rus düzənliyində peçeneq türklərinin içərisində qeydə alınmış borotalmatlar olduğunu bildirir (Гейбуллаев Г., 1991, s. 309).

Bütün bu deyilənlərdən nəticə çıxmamalıdır ki, kimmerləri Azərbaycan və Ön Asiayadan sıxışdıranlar sekellər imiş. Çünki irəlidə görəcəyimiz kimi, bu xalq işquzlar olmuşlar və onların təqibindən yaxa qurtarmağa çalışan kimmerlərin tərkibində sak və utilərin də bir qismi Qara dənizin şərq və şimal sahillərinə köçməli olmuşdular. Elə bu üzdən də Prokopiya keçmişdə «kimmer» adlanan utiqurlardan (utilərdən) və hunlardan söhbət açarkən onlarla qonşuluqda saqinlərin (sakasinlərin), yəni sakların da adını çəkimişdir (Oğuz Y., 2002, s. 20; Гейбуллаев Г., 1991, s. 96-97).

Kimmerlərin bir zamanlar Azərbaycanda yaşadıqlarını çoxsaylı etnotoponimlər də sübut etməkdədir. Artıq qeyd etdiyimiz kimi, Yusif Yusifov kimmerlərin adının assur mənbələrində "qimiraya" (qimirə mənsub) kimi çəkildiyini əldə əsas tutaraq, Zaqatala rayonu ərazisindəki Qımır vı Qımırlı yer adlarının bu xalqdan yadigar qalan etnotoponimlər olduğunu bildirmişdir (Azərbaycan tarixi, 1994, s. 104). Firidun Ağasıoğlunun yazdığına görə, Quzey Azərbaycandakı Qəmərli və Kəmərli, eləcə də Güney Azərbaycandakı Kəmər, Komar, Xomarlu kimi yer adları kimmerlərdən qalma yer adlarıdır (Ağasıoğlu F., 2005, s. 97). Qiyasəddin Qeybullayev Qərbi Aərbaycandakı Gümrü (Гейбуллаев Г., 1991, s.

318), Güney Azərbaycandakı Komar, Kəmər və Kəmərdaran toponimlərinin də kimmerlərlə bağlı olduğunu yazır və həmin kəndlərin azəbaycanlı, yəni türk kəndləri olduğunu vurğulayır (Гейбуллаев Г., 1991, s. 321). Alim eyni zamanda, XlX əsrdə Azərbaycan və Ermənistanda (Qərbi Azərbaycanda) 5 Kəmərlu adlı kəndin qeydə alındığını və onlarda da Azərbaycan türklərinin yaşadıqlarını diqqətə çatdırır, Qazax rayonu ərazisindəki Kəmərqaya və Borçalıdakı Böyük Kəmərli və Kiçik Kəmərli kəndlərinin kimmerlərin adını bu günə qədər yaşatdıqlarını vurğulayır (Гейбуллаев Г., 1991, s. 320), İranın müxtəlif bölgələrində yerləşən Kəmər (2 dənə), Kəmərabad, Qomar, Qəmərabad və s. yaşayış məntəqələrini, eləcə də Türkiyədəki Kemerli kəndini də eyni sıraya daxil edir. Müəllif İranın cənubunda yaşayan qaşqay türklərinin soylarından birinin bugünə qadər "qamər" adlandığını diqqətə çatdırmağı da unutmur (Гейбуллаев Г., 1991, s. 321).

Kimmerlər barədə tarixdə ilk dəfə söz açan ən ilk mənbələr onlardan Azərbaycan, daha dəqiq desək, Manna sakinləri kimi söz açmaqdadır (38.2). Bu et-nik qrupun e.ə Vll əsrdə Kür-Araz ovalığında yaşadıqları barədə də yetərincə məlumat vardır. S.T.Yeremyana görə, iskitlər bura gələnə və onları sıxışdırana qədər kimmerlər Araz düzənliyində yaşamışlar (Еремян С.Т., 1964, c. 52).

Konkret olaraq sak adı ilə tanınan etnik qruplara gəlincə, birmənalı şəkildə deyə bilərik ki, kimmerlər, saklar, işquzlar və s. qədim mixi yazılardan da göründüyü kimi, eyni dildə və ya eyni dilin müxtəlif ləhcə və şivələrində danışan eyni etnosun müxtəlif konkret qrupları olmuşlar. Müxtəlif dövrlərdə onlardan hər hansı biri üstün vəziyyətdə olduğu dövrdə həmin qrupun adı digərləri üçün də ümumiləşdirici ad kimi çıxış etmişdir. Müəyyən bir dövrdə bu qruplar üçün "kuti" və "kimmer" adlarıı ümumi ad idi. Sonrakı dövrdə isə saklar üstün vəziyyətə gəlmiş və digər qohum etnik qruplar da bu ümumiləşdirici adla tanınmışlar. Bu hal fars-Əhəmənilərin hakimiyyətə gəldikləri dövrə qədərki zaman kəsiyində baş verdiyi üçün qədim fars mənbələrində, ilk növbədə də Bisitun kitabəsində bütün bu qruplar eyni ad altında, yəni "sak" (saka) adı altında qeyd edilmişdir.

Hazırda Anadolu ərazisində bir neçə kimmer kurqanının mövcud olduğunu söyləmək mümkündür. Bunlardan üçü – Toptəpə, Əkiztəpə (İkiztepe) və Aktəpə elmi ədəbiyyatda şərti olaraq «Lidiya kurqanları» kimi tanınır və onlardan əldə edilmiş qiymətli əşyalar Avropa ədəbiyyatında Lidiya hökmdarlarından olmuş Krezin adı ilə «Krezin xəzinəsi», Türkiyə ədəbiyyatında isə «Harunun xəzinəsi» adları ilə məşhurdur. Lakin bu adların heç biri tarixi həqiqəti əks etdirmir (Сокровища лидийских курганов).

Gerçək olan isə budur ki, e.ə. 644-cü ildə kimmelər Lidiyanı, o cümlədən onun paytaxtı Sard şəhərini ələ keçirmişdilər. Bu hücumlar nəticəsində Lidiya şahı Giq öldürülmüş və ölkə bütünlüklə kimmerlərin əlinə keçmişdi. Bundan sonra onlar yunanlarla savaşa girmiş və İoniyanı ələ keçirməyi bacarmışdılar (Киммерийцы, 2008). Odur ki, Lidiya ərazisindəki kurqanların bilavasitə kimmerlərə aid olduğu heç bir şübhə oyatmamalıdır. Kimmerlərdən fərqli olaraq, lidiyalıların ölülərini kurqanlarda basdırdıqları barədə heç bir yazılı məlumat yoxdur.

Toptəpə kurqanı 1965-ci kurqanın içinə lağım atmaqla girməyi bacarmış 5 qarətçi tərəfindən qarət edilmiş və əldə edilən sərvət 65000 türk lirəsinə satılmışdır. 1966-cı eyni aqibət eyni bölgədə olan Əkiztəpə kurqanının da başına gəlmiş, bu dəfə qarətdə 11 nəfər iştirak etmiş, qarətçilər kurqandan oğurladıqları 150 qiymətli əşyanı 150000 lirəyə satmışlar.

Bundan iki il sonra, 1968-ci ildə kimmerlərə aid üçüncü kurqan – Aktəpə kurqanı da qarət edildi. Buradan əldə edilən materiallar, o cümlədən divar rəsmləri 40000 lirəyə satıldı.

1985-ci ildə məlum oldu ki, kimmer kurqanlarından qarət edilmiş əşyalar Nyu-Yorkun Metropoliten muzeyinə satılmışdır. Türkiyə hökuməti onların ölkədən qeyri-qanuni yolla çıxarıldığını əsas gətirərək həmin qiymətli materialların ölkəyə qaytarılması üçün lazım olan bütün hüquqi işləri gördü və nəhayət, oğurlanmış sənət əsərləri 1993-cü ildə Türkiyəyə qaytarıldı. Hazırda həmin materiallar Uşak şəhərinin muzeyində saxlanılır. Burada eyni zamanda kimerlərə məxsus daha iki kurqandan – Basmaci və Hart kurqanlarından tapılmış arxeoloji materiallarda nümayiş etdirilir.

Kurqanlar kimmerlərin Lidiyadakı hakimiyyəti dövrünə - e.ə. VII-VI əsrlərə aid edilir (Сокровища лидийских курганов).

Avrasiyanın əksər ərazilərində olduğu kimi, Anadoluda da çox sayda kurqan var və onların bir qismi tədqiq edilsə də, bir çoxu indiyə qədər öz tədqiqatçılarının yolunu gözləyir. Sanki, kimlərsə Anadoludakı Səlcuqlulara qədərki türk izini yox etmək, tədqiqatçıları həqiqətdən yayındırmaq üçün bu kurqanları «Friqiya kurqanları», «Lidiya kurqanları», «Kral Midasın kurqanı», «Kral Qordinin kurqanı» və s. bu kimi saxta və qeyri-elmi adlarla tanıtmaqla məşğuldur.

Məsələn, bu gün tam dəqiq məlumdur ki, friqiyalılar öz ölülərini qayalarda oyulan mağara-məzarlarda dəfn edərdilər. Bu baxımdan Türkiyədəki Aslantaş və Yılantaş adlı friq məzarları məşhurdurlar (Фригийская долина).

Kiçik Asiyanın qərbindəki qədim ərazilərdən biri kimi tarixə düşmüş Friqiya ərazisində güclü bir dövlətin qurulduğu, paytaxtının öncə Kelen, e.ə. X əsrdən etibarən isə Qordion olduğu hesab edilir (Drew-Bear T. and Naour C., 1990, p. 1924-1926).

«Friqiya» adı təqribən e.ə. 1200-ci ildə Balkanlardan Anadolu ərazisinə köçən friqlərin (və ya briqlərin) adı ilə bağlıdır. Zamanla Friqiya, Likaoniya və Qalatiya birləşərək «Böyük Friqiya»nı əmələ gətirmişlər. Dövrümüzədək iki qüdrətli Friqiya şahının adı gəlib çıxmışdır ki, bunlardan biri Qordi, digəri isə onun oğlu Midasdır.

Belə hesab edilir ki, Friqiya şahlığının əsası e.ə. II minilliyin sonlarında qoyulmuş, friqlər het dövlətinin yıxılmasında önəmli rol oynamışdır (Mallory J. P., Douglas Q. Adams., 1997, p.419). Yunan miflərinə əsasən, friqlər yunanlarla müharibə zamanı Troyaya yardım edirdilər.

Yarandığı dövrdən Assurlarla rəqabət aparmağa məcbur olan Friqiya e.ə. VII əsrin 70-ci illərindən etibarən kimmerlərə qarşı da müdafiə olunmaq zərurəti ilə üz-üzə qalmışdı.

E.ə. VI əsrin əvvəllərində Lidiya hökmdarı Qiq (Qiqes) Friqiyanın bir hissəsini, ortalarında isə Krez tamamını ələ keçirərək Li-

diya dövlətinə birləşdirdilər. Daha sonra isə Friqiya Lidiya ilə birlikdə kimmerlərin hakimiyyəti altına keçdi (Brixhe C., 2008, p.72).

Qədim yunan miflərinə görə, Friqiya şahı Qordinin oğlu Midasın şahlığı dövründə Assuriya və kimmerlərlə savaşlara baxmayaraq, Friqiya özünün çiçəklənmə dövrünü yaşamışdır. Onun anası yarı insan-yarı ilahə Kebela idi. O, uşaq ikən qarışqalar onun ağzını buğda ilə doldurmuşdular. Böyüdükdən sonra Ankira (Lövbər) şəhərini salmış, Orfiya ona öz sirrlərini açmışdır. Əfsanəyə görə, o, Zevsin qəzəbinə tuş gəlmiş, Zevs də onun qulaqlarını eşşək qulaqları ilə əvəz etmişdi (Мифы народов мира, с. 149-150; Любкер Ф., 2001, с. 393-395; Гордий, 1890-1907).

Əslində Friqiya şahları Qordi də, oğlu Midas da tarixi şəxsiyyətlərdən daha çox əfsanəvi mifik qəhrəmanlar kimi məlumdurlar. Bununla belə, elmi ədəbiyyatda onlar haqqında real tarixi şəxsiyyətlər kimi söz açılır, e.ə. VII əsrdə yaşadıqları bildirilir.

Maraqlıdır ki, Türkiyə ərazisində aşkar edilən və şübhəsiz ki, kimmerlərə aid olan əzəmətli bir qədim kurqan bu şəxslərin adı ilə əlaqələndirilir. Heç bir sağlam məntiqə sığmayan bu ideyanın müəllifi həmin abidələri qazımış amerikalı alimlərdir.

1857-ci ildə R. Yanqın rəhbərlik etdiyi amerikalı arxeoloqlar qrupu Türkiyədəki ən böyük kurqanlardan birinin qazıntılarına başladılar. Onlar kurqanın qəbir kamerasına girər-girməz, bütün dünyaya kral Midasın məzarını tapdıqlarını car çəkdilər.

Xoşbəxtlikdən kurqan talan edilməmişdi və oradan çox sayda zəngin arxeoloji material əldə edilib. Hazırda bu materiallar Ankaradakı Anadolu Mədəniyyətləri Muzeyində qorunur və nümayiş etdirilirlər. Bu kurqan qədim Friqiyanın paytaxtı Qordiaonun bir vaxtlar yerləşdiyi yer hesab edilən Yassıhöyük adlı yaşayış məskəninin yaxınlığında yerləşir. Burada ümumilikdə 80 civarında kurqan qeydə alınmışdır. Hazırda onlar elmi ədəbiyyatda daha çox «Yassıhöyük kurqanları» və ya «Qordion kurqanları» adı ilə tanınırlar.

Amerikalıların kral Midasa aid olduğunu bəyan etdikləri kurqan MM Anadolunun və ümumiyyətlə dünyanın ən böyük kurqanlarından biridir. Hazırda onun hündürlüyü 50 m olsa da, əvvəllər

60-70 m-ə çatdığı hesab edilir. Diametri isə 300 m kimi qeydə alınmışdır. Aparılmış radiokarbon analizlərinin nəticələrinə görə, kurqan e.ə. 750-740-cı illərə aiddir (Курганы Годриона, 2013).

Ətrafdakı digər kurqanlar kimi bu dəfn abidəsinin də kimmerlərə aid olduğu şübhə oyatmır. Çünki kimmerlərin artıq e.ə. VII əsrin 70-ci illərindən etibarən bu ərazilərdə at oynatmağa başladıqları məlumdur.

Kurqan MM-in qəbir kamerasına uzunluğu 100 m olan yol aparırdı. Onun dromosu yox idi. Qəbir kamerasının içi skif kurqanlarında olduğu kimi, ağac tirlərdən qurulmuşdu.

Qəbir kamerasında kimmer xanlarından birinin skeletinə rast gəlinmişdir. Bu skelet əsasında onun heykəl-maketi düzəldilmişdir və hazırda bu heykəl, daha doğrusu, büst kral Midasın büstü kimi məşhurdur.

İşin ən maraqlı tərəfi isə budur ki, kurqanda qazıntı aparan və onu dünyaya kral Midasın qəbri kimi tanıdan Pensilvaniya Universitetinin arxeoloqları Friqiya əhalisinin öz şahlarını qayalarda oyduqları mağaralarda basdırdıqlarını bilsələr də, öz fikirlərini əsalandırmaq üçün bu faktı gözardı etməyə üstünlük vermişlər. Məntiqləri isə ona əsaslanırdı ki, kurqanlar Qordion yaxınlığında yerləşdiyi üçün Friqiya şahlarına aid olmalıdır. Midas ən tanınmış hökmdar olduğu üçün ən böyük kurqan da onundur.

Lakin radiokarbon analizlərinin nəticələri kurqan MM-in Midasın şahlığından öncəki illərə aid olduğunu üzə çıxardı. Bu, amerikalı alimləri qətiyyən ruhdan salmadı və onlar yazdılar ki, deməli, kurqan Midasın yox, atası Qordinin məzarıdır (Курганы Годриона, 2013).

Yassıhöyük kurqanlarından ən qədim e.ə. 800-cü ilə aid edilir. Elmi ədəbiyyatda adı «kurqan W» kimi çəkilən həmin kurqan ortaya bir çox sualların çıxmasına səbəb olub. Məsələ burasındadır ki, onun yaşı kimmerlərin bölgəyə gəlişindən söz açan mənbələrin göstərdiyi tarixdən daha qədimdir. Lakin bu məsələyə də aydınlıq gətirmək çətin deyil. Məsələ burasındadır ki, alimlər kimmerlərin Qordionu yandırdıqlarını və bunun e.ə. 700-cü ildə baş verdiyini yazırlar. Lakin son tədqiqatlar şəhərin

e.ə. 800-cü ildə yandırıldığını üzə çıxarmışdır ki, bu da sözügedən kurqanın yaşı ilə üst-üstə düşür (Курганы Годриона, 2013).

Artıq qetd etdiyimiz kimi, saklardan fərqli olaraq kimmerlərin adına aşşur mənbələrində e.ə. Vlll əsrdən etibarən rast gəlinməkdədir. Bu mənbələr onları Assur sərhədlərində qeydə almışlar (Дьяконов И. М., 1968, s. 169-175; Пиатровский Б. Б.,1959, s. 232). Onların ardınca Ön Asiyada işquzlar peyda olurlar. Assurlar onları bir-birindən fərqləndirərək, onlardan birini "qimirri", digərini isə "işkuz" adlandırırdılar (Дьяконов И.М.,1956, s. 242). Assurlara ayrıca saklar da məlum idi (Тадмор Х.,1949, s. 241). Babil mənbələində isə Əhəmənilərin tarix səhnəsinə çıxışına qədər işquz və sakların adı ümumiyyətlə heç işlənməmiş, onların əvəzinə hər yerdə "qimirri" (kimmer) yazılmışdır. M.Dandamayev və V.Lukoninin fikrincə, bu hal ondan qaynaqlanırdı ki, birincisi, Babil ədəbiyyatında arxaikləşdirməyə meyl güclü idi, ikincisi, Ön Asiyaya yürüşlər təşkil edən ilk Şərq xalqı məhz kimmerlər olmuşlar. (Дандамаев М.А., Луконин В.Г.,1980, с. 75).

Herodotun yazdığına görə, farslar kimmerləri və bütün skifləri "sak" adlandırırdılar (Дандамаев М.А., Луконин В.Г.,1980, с. 75). Onun haqlı olduğunu Bisitun kitabəsinin farsdilli yazıları bütünlüklə təsdiq edir. Burada saklarla qohum olan bütün etnik qruplar ümumiləşdirici "saka" adı ilə adlandırılır. Yunanlar isə bütün bu xalqları "skif" hesab edirdilər. Bu üzdən də bir çox çağdaş müəlliflər özlərini çətinə salmamaq üçün "skif-saklar", digərləri isə "kimmer-skif-saklar" terminindən istifadə etmişlər. Mixi yazılarda isə bütün bu xalqların, o cümlədən onlarla etnik və dil baxımından qohum olan madayların (midiyalıların) "umman manda" (Manda ordusu) adlandırılması halı ilə də üzləşmək mümkündür (Azərbaycan tarixi, 1994, s. 69). Məsələn, Nabopallasarın "Xronika"sında Midiya hökmdarı Kiaksar "umman manda" hökmdarı kimi qələmə verilir. Halbuki, eyni yazıda o, sadəcə "madayya" (midiyalı) adlandırılır. Nabonidin kitabələrindən birində isə "manda hökmdarı" ünvanı başqa bir Midiya hökmdarına - Astiaqa aid edilir. Fars hökmdarı Kirin Midiyanın işğalından bəhs

edən silindirik möhürdə isə "umman manda"lıların məğlub edildiyi göstərilir (Дандамаев М.А., Луконин В.Г.,1980, с. 80).

Ayrı-ayrı assur kitabələrində kimmerlərin və sakların hökmdarı kimi qələmə verilən Tuqdamme (Toxtamış) bir yerdə "Umman manda hökmdarı" adlandırılır. İ.Dyakonova görə, buradakı "umman manda" adı kimmerlərə verilən addır. Onun fikrincə, "Umman manda" və "Maday" Midiyanın fərqli adları olmuşdur (Дандамаев М.А., Луконин В.Г.,1980, с. 75, 80). Kameron isə hesab edirdi ki, "umman manda"lılar skiflər idilər və Kiaksar e.ə. 612-ci ildə skifləri özünə tabe etdikdən sonra bu ad Midiya hökmdarlarına da şamil edilməyə başlanmışdır (Cameron G.G.,1936, p. 216).

"Manda" kəlməsini "kim bilir" kimi tərcümə edən B.Landsberqer və T.Bauer bildirirlər ki, bu adla bir çox xalqların koalisiyası ifadə edilmişdir (Landsberger B., Bauer Th., 1927, p. 88). B.Piatrovski və İ.Əliyevin fikrincə "umman manda" adıyla midiyalılar və şimal köçəriləri adlanmışlar (Дандамаев М.А., Луконин В.Г.,1980, с. 80).

Şübhəsiz ki, bütün bu eyniləşdirmələrin yalnız və yalnız bir səbəbi olmuşdur: bütün bu xalqlar, yəni həm kutilər, həm kimmerlər, həm saklar, həm işquzlar, həm də madaylar (midiyalılar) eyni etnosun ayrı-ayrı qrupları, başqa sözlə, soy və boyları idilər. Əslində bu məsələdə alimlər arasında heç bir fikir ayrılığı yoxdur. Fikir ayrılığı onların hansı etnosun qrupları olduqları və hansı dildə danışdıqları barədədir. Bəziləri onları irandilli hesab etməkdə, digərləri isə türkdilli olduqlarında israr etməkdədirlər. Birinci versiyanın tərəfdarları əsasən tarixçilər, ikinci versiyanın tərəfdarları isə əsasən dilçilərdir. Birincilərin arqumentləri o qədər əsassız və məntiqsizdir ki, həmin versiya üzərində durmaq belə mənasızdır. İkincilərin arqumentləri isə təkzibedilməz faktlara söykəndiyi üçün tədqiqatımız baxımdan böyük önəm daşımaqdadır.

## Şimal-Qərbi İran yaylası və kimmerlər

Ümumi sahəsi 2 600 000 kv km olan İran yaylası ən qədim türk məskənlərindən biri olub. Qərbi Asiyada yerləşən bu coğrafi məkan qərbdə Dəclə və Fərat çaylarından şərqdə Hind və Palmirə, şimalda Xəzər dənizi və Turan səhrəsaından cənubda Fars körfəzi

və Hind okeanına qədər uzanır. Həmin ərazidə indiyə qədər son tunc və erkən dəmir dövrlərinə aid onlarla arxeoloji abidə aşkar edilib ki, onların da önəmli bir qismi əski türk boyları ilə bağlıdır. Lakin ərazidə arxeoloji qazıntılar aparmış tədqiqatçıların əksəriyyəti bu abidələrdə bir qayda olaraq, «ari» və ya hindavropalı izi axtardıqları üçün heş də həmişə obyektiv ola bilməmiş, üstəlik də qazıntı işlərini aparanların çoxunun qeyri-peşəkarlığı səbəbindən bir çox abidələrin sadəcə ötəri təsvirinin verilməsilə yetinilmişdir.

İran yaylasının şimal-qərbində tədqiqata cəlb edilmiş bu tip abidələr sırasında Cənubi Azərbaycandakı Göytəpə abidəsini xüsusi qeyd etmək lazımdır. Onun tədqiqi ilə 1948-ci ildə Berton və Braun adlı arxeoloqlar məşğul olmuşlar.

Bu abidənin D təbəqəsində eynən Həsənluda olduğu kimi böyük dağıntı və yanğınların izinə rast gəlinib ki, bu da assur və urartuluların fəaliyyətləri ilə əlaqələndirilir. Burada e.ə. II minilliyin sonlarına və I minilliyin əvvəllərinə aid çox sayda dağıdılmış və yandırılmış bina qalıqları tapılıb. Həmin binalardan əldə edilmiş skeletlərin kəllə quruluşu əsasında onların Cənubi Qafqaz əhalisi ilə, yəni Şimali Azərbaycanın əhalisi ilə eyni antropoloji özəlliklərə sahib tayfaların nümayəndələri olduğu müəyyən edilib.

Daha sonra isə bölgəyə yarımköçərilərin yeni axını müşahidə edilir. Onların gəlişi ilə bir canlanma və abadlaşma başlayır. Onları Cənubi Qafqazdan gələn ilk «ari» dalğasının nümayəndələri hesab edirlər (Гиршман Р., 1970, с. 68; Ванденберг Л., 1966, с. 116). Təbii ki, bu halda söhbət «ari»lərdən yox, qədim fars mənbələrində «sak» kimi yad edilən və kurqanda dəfn adətinə sahib olan türk boylarından, daha dəqiq desək, kimmerlərdən getməlidir.

Həsənlu, Ziviyə, Klar və Mərlikdən tapılan və yüksək bədii əhəmiyyət daşıyan qızıl və gümüş əşyalar, eləcə də keramika nümunələri sübut edir ki, e.ə. II minilliyin sonları və I minilliyin əvvəllərində İran yaylasının şimal-qərb hissəsində, əsasən də Cənubi Azərbaycan, Kürdüstan, Gilan və Mazandaran bölgələrində çox yüksək bir mədəniyyət mövcud olmuşdur. Bu halda söhbət, təbii ki, skif və Midiya incəsənətinə başlanğıc vermiş Manna incəsənətindən gedir. Bu mədəniyyətin yaranmasında yerli yarımköçəri

maldar tayfaların müstəsna xidməti olmuşdur. Belə düşünmək üçün bizə həmin sənət əsərlərinin böyük bir qisminin məhz həmin tayfaların kurqan tipli qəbir abidələrindən və həmin abidələrə yaxı qədim yaşayış yerlərindən əldə edilmiş olması əsas verir.

R.Daysonun yazdığına görə, e.ə 1250-ci illərdən etibarən Urmiya gölü ətrafında yarımköçəri tayfalar məskun idilər. Alim onları Cənub-Şərqi Qafqaz (Şimali Azərbaycan), Şimali Qara dəniz və Orta Asiyanın eyni dövr yarımköçəri tayfaları ilə eyni mənşəli hesab edir və güman edir ki, həmin tayfalar Urmiya sahillərinə adı çəkilən bölgələrdən köç etmişdilər. R.Qrişman Təpə-Sialk B məzarlığını da həmin tayfalara aid edir (Момени А.М., 2014, с. 25).

Şübhəsiz ki, bu halda söhbət adlarına Assur və Urartu mənbələrində «turuk» və «turixi» kimi çəkilən türklərdən, «kumen» və ya «kamannu» kimi yad edilən kumanlardan, «xarxar» adlandırılan qarqarlardan, eləcə də kimmerlərdən (qamira, qimirri) getməlidir. Çünki skiflərin (işquzların) bölgədə aktivləşməsi e.ə. VII əsrin ortalarından başlayır. Onlara qədər isə mənbələrdə (e.ə. VIII əsr) sadəcə kimmerlərdən bəhs edilir və onlar Manna sakinləri kimi yad edilirlər.

R.Dayson Maqli-Tik, Əmləş-Gilan və Mərlik abidələrindən tapılmış qabların üzərindəki at, araba və s. şəkillər, eləcə də dəmir xəncərlər əsasında sözügedən abidələri e.ə. IX-VIII əsrlərə (Момени А.М., 2014, с. 25-26), yəni turuk, kuman, qarqar və kimmerlərin ən aktiv olduqları dövrlərə aid etmişdir. Alimin haqlarında söhbət açdığı həmin tayfalarından birinin də məhz kimmer tayfaları olduğunu bir də o fakt sübut edir ki, Mərlikdən tapılan iki tunc əşyadan birinin üzərində mixi işarələrlə Urartu çarı Menuanın (e.ə. 800-781), digərində isə çar Arqiştinin (e.ə.781-760) adları yazılmışdı (Моени А.М., 2014, с. 26). Məlum olduğu kimi, Uratunun hakimiyyətinə və ümumiyyətlə Urartu dövlətinin özünə məhz kimmerlər son qoymuşdular və görünür, həmin əşyalar da o zaman qarət edilmiş əşyalardan olub.

Sözügedən abidələrdən Manna incəsənəti ilə yanaşı Urartu incəsənətinə aid əsərlərin də tapılması faktından çıxış edən R. Qrişman onların Gilan ərazisinə Urmiya gölü ətrafından gətirildiyini

düşünməkdədir. O yazır ki, Həsənlu, Ziviyə, Mərlik, Təpə-Sialk və s. yerlərdən tapılmış mədəniyyətin analogiyalarına Buxara yaxınlığındakı Zaman Baba məskənində də rast gəlinmişdir ki, bu da sözügedən tayfaların bir qisminin Türkmənistan üzərindən Özbəkistana köç etdiklərini sübut edir (Момени А. М., 2014, c. 26).

Kimmerlərin İran yaylasındakı izini yaşadan əsas abidələr təbii ki, kurqanlar və kurqan tipli abidələrdir. Lakin onların çoxu dəfinə axtaranlar tərəfindən darmadağın edildiyindən strukturları və dəfn adətləri barədə bir o qədər də çox məlumata sahib deyilik. Qeyd edək ki, bu tip abidələrə Xəzərin cənub-qərbindəki Gürgandan (Turanq-təpə məzarlığı) tutmuş Gilan, Mazandaran, Tehran və Quma qədər çox geniş ərazidə rast gəlinir ki, bunların içərisində Təpə-Sialk B və Mərlik abidələrinin özünəməxsus yeri var.

1931-1932-ci illərdə Pensilvaniya Universitetindən kiçik bir elmi qrup Gürgandan 19 km şərqdə yerləşən Turanq-təpə məzarlığındakı kurqan tipli abidələrin qazıntısı ilə məşğul olmuşdur. Vivelsinin başçılıq etdiyi qrupu qəbir abidələrinin strukturundan və dəfn adətlərindən daha çox qəbirlərdəki arxeoloji materiallar maraqlantırırdı. Odur ki, onsuz da dəfinə axtaranlar tərəfindən dağıdılan və tanınmaz hala gətirilən həmin kurqanlar barədə onlardan əldə edilmiş maddi mədəniyyət nümunələrindən başqa heç nə məlum deyil. Məlum olan odur ki, erkən dəmir dövrünə aid olan məzarlıqda aşkar edilmiş arxeoloji material eynən Təpə-Qissarın yanğın nəticəsində məhv olmuş III C təbəqəsinin materialı ilə eyni idi. Buradan da oradakına bənzər boz və qırmızı rəngli keramika aşkar edilib (Камбахш Фард., 1991, c. 4-6; Медведская И., 2004, c. 28).

Bütün bu məlumatları təhlil edən A. Mömini köçərilərin at və arabalarla Urmiya sahillərindən şərqə tərəf hərəkət etdiklərini və əldə edilən maddi mədəniyyət nümunələrinin onlardan yadigar qaldığını yazır. Onun sözlərinə görə, bu tayfalar əvvəllər guya Balkanlarda yaşamış, sonra Bosfor körfəzindən keçərək Kiçik Asiyaya yayılmış və orada guya Ey-Tyan adlı qəbilə ittifaqı yaratmışdılar. Onlar cəsur döyüşçülər idilər və onların sonrakı marşrutu Zaqros dağları olmuş, bir qismi orada qalmış, digər qismi isə Hindistana tərəf hərəkət etmişdi (Момени А. М., 2014, s. 26).

Şübhəsiz ki, bu Avropa alimlərinin «arilər» barədə uydurduqları çoxsaylı fərziyyələrdən biridir və qədim mixi yazıların kimmer, skif və saklar barədə verdikləri məlumatlarla ziddiyyət təşkil edir.

«Arilər» barədə digər fərziyyəyə görə isə, bu xalq ilk əvvəl Cənubi Rusiya düzənliyində, Ural dağlarının cənubunda yaşamış, oradan İran yaylası və Hindistana yayılmışlar (Камбахш Фард., 1991, с. 6).

Şübhəsiz ki, eyni coğrafi məkanda aşkar edilmiş son tuncerkən dəmir dövrü kurqan abidələri İran yaylasının qədim aborigen əhalisinin, yəni bu gün də həmin ərazilərdə yaşayan türk əhalinin yadigarlarıdırlar. Onların e.ə. IX-VIII əsrlərə aid olanları bilavasitə kimmerlərə aiddir.

Aborigen əhalidən qalma mədəniyyətin izlərinin qorunduğu ən maraqlı abidələrdən biri də Təpə-Sialk B məzarlığındakı kurqanlardır. İranın Kaşan vilayətində yerləşən Təpə-Sialk abidəsinin tədqiqi ilə 1931-ci ildə R. Qirşman məşğul olmuşdur (Камбахш Фард., 1991, с. 5; Тилаи Х., 1994, с. 27). Aparılan qazıntılar nəticəsində Manna və Midiya (Ванденберг Л., 1966, s. 135), eləcə də daha qədim dövrlərə aid zəngin mədəniyyət nümunələri tapılmışdır (Фазели Х., 2001, с. 213).

Nəzərə alsaq ki, mənbələr kutilərlə yanaşı kimmerləri də birmənalı şəkildə Manna əhalisi kimi təqdim edir, o zaman bizi təkcə həmin dövrün kurqanlarından deyil, yaşayış məskənlərindən çıxan maddi mədəniyyət nümunələri də maraqlandırmalıdır. İranda qazıntılar aparmış bütün qrupları da ilk növbədə elə bu maraqlandırmışdır.

Kimmer və skiflərə aid mədəniyyət abidələrinin aşkar edilməsində Şteyin rolu da xüsusi qeyd edilməlidir. O, İran yaylasının şimal-qərbində tədqiqatlar aparan ilk arxeoloqlardan olub. 1935-1936-cı illərdə Loristan və Cənubi Azərbaycanda qazıntılar aparmış Ştey Həsənlu və Dinxa-Təpə abidələrinin tədqiqinin əsasını qoymuş, Loristandakı məzarlardan çox sayda «skif incəsənəti» nümunəsi aşkar etmişdir (Момени А. М., 2014, s. 27).

30-cu illərdən sonra tədqiqatlarda bir səngimə müşahidə edilir və II Dünya Savaşı bitdikdən sonra araşdırmalara yenidən start

verilir. 1948-ci ildə B. Braun Azərbaycandakı Göytəpədən, 1960-ci ildə isə Hakimi və Rod Xurvindəki Gənc-Təpə kurqanının dəmir dövrünə aid asma qəbirlərindən çox sayda maraqlı material əldə edirlər. Məlumat üçün bildirək ki, Gənc-Təpə ərazisində ilk qazıntıları hələ 1914-cü ildə L.Vanderberq apamış, orada qazıdığı 14 qəbirdən I dəmir dövrünə aid çox sayda qara-boz keramika nümunəsi aşkar etmişdi (Момени А.М., 2014, s. 29).

Bu sırada 1957-ci ildə Həsənluda R. Daysonun apardığı qazıntıları da qeyd etmək lazımdır. Onun əsas məqsədi bölgənin midiyalı və farslara qədərki tarixinə aydınlıq gətirmək idi (Медведская И., 2004, с. 30).

Lorestan və Kürdüstan abidələrinin öyrənilməsində T. Yanqın rolu çox böyük olub. O, Həsənlu layihəsi çərçivəsində 1961 – ci ildə ərazidə apardığı qazıntılar zamanı bir çox maraqlı material əldə etmişdir (Янг Т.К., 1994). Qeyd edək ki, bu layihə 1956-1974-cü illəri əhatə etmişdir. Elə həmin il, yəni 1961-ci ildə İ. Negahban Mərlik kurqanında, 1969-1971-ci illərdə isə S. Kəmbəxş Fərd Qəyətriyyə məzarlığında qazıntılar aparmışlar (Медведская И., 2004, с. 37).

İ.Negahbanın Mərlik məzarlığında apardığı işi 8 il sonra digər arxeoloqlar davam etdirmiş və I, II dəmir dövrlərinə aid 350 qəbir aşkar etmişlər. T.Yanqın yazdığına görə, buradan tapılan keramika Urmiya ətrafından tapılan keramikanın bənzəridir. Eyni sözləri Xurvin və Çindar məzarlıqlarından tapılmış materiallar barədə də söyləmək olar (Янг Т. К., 1994, с. 239). Eyni nəticə Məhəmməd Yusif Kəyaninin Gümbəti-Kabus şəhəri yaxınlığındakı məzarlığını tədqiq edərkən aşkar etdiyi keramika barədə də söyləmək olar. Buradan e.ə. I minilliyə aid çox sayda boz keramika tapılmışdır (Каяани М. Ю., 1975, с. 147-156).

1980-ci ildə alman arxeoloqlar qrupu tərəfindən Kərəc və Həştgərddə kəşfiyyat işləri aparılmışdır. Arxeoloqlar Rey hövzəsi və Vəramin yaxınlığındakı məzarlıqlarda ilkin qazıntı işləri aparmış, Pişva şəhəri yaxınlığındakı kurqanın asma qəbirlərdən bir neçəsini açmışlar. Buradakı qəbirlər vahid formaya malik deyildilər. Bəzi qəbirlərin oval, digərlərinin düzbucaqlı, başqa birilərininkinin

isə girdə formalı olduğu üzə çıxarılıb. Alimlərin fikrincə, həmin kurqan 4 təbəqəlidir və orada 4 müxtəlif dövrdə dəfnlər icra edilmişdir. Tədqiq edilən asma qəbirlərdən erkən dəmir dövrünə aid keramika aşkar edilib (Техрани Мукаддам А., 1997, с. 54).

Vəramin yaxınlığındakı Pişva məzarlığında almanların başladığı işi davam etdirən Əhməd Tehrani Müqəddəm (1984-1985-ci illər) burada e.ə. II minilliyin sonlarına və I minilliyin əvvəllərinə aid çox sayda kurqan tipli qəbir aşkar etmiş və onları köçəri maldarlara aid etmişdir (Камбахш Фард., 1991, с. 22).

1985-ci ildə S. Kəmbəxşin Behişti-Zəhra məzarlığı yaxınlığındakı Kəhrizək təpəsində apardığı qazıntılar zamanı e.ə. 1200-900-cü illərə aid kürə sobası, eləcə də çox sayda qırmızı və böz keramika nümunəsi tapılmışdır. Məzarlıqdakı qazıntılar barədə isə məlumat verilmir.

Mövzumuz baxımından ən önəmli abidələrdən biri, şübhəsiz ki, Təpə-Sialk, daha doğrusu ondan 250 m cənubda yerləşən Təpə-Sialk B məzarlağıdır.

Sözügedən abidə Mərkəzi İran yaylasının dəmir dövrünə aid əsas abidələrindən biridir. Kaşan şəhərinin 3 km cənub-qərbində yerləşir. Bu ərazidə ilk qazıntıları Parisin Luvr muzeyi təşkil etmişdi. Tədqiqatlar 1933-1934 və 1937-ci illərdə R. Qirşmanın başçılığı altında aparılmışdır (Тилаи Х., 1994, с. 67).

Burada bir-birindən 600 m məsafədə yerləşən şimal və cənub təpələri yerləşir. Tədqiqatlar öncə şimal təpələrdə aparılmışdır. Burada iki mədəni təbəqə (Sialk I və II) aşkar edilmişdir. Eyni sözləri cənubdakı təpələr barədə də söyləmək mümkündür. Burada da iki mədəni təbəqə aşkar edilərək öyrənilib – Sialk III və IV.

Sialk IV təbəqəsinin tədqiqindən sonra məlum olmuşdur ki, bu ərazidə e.ə. III minillikdən II minilliyin əvvəllərinə qədər yaşayış olmamışdır. Bu lal təbəqədən sonra ərazidə məskunlaşanlar sələflərindən fərqli olaraq, ölülərini evlərinin döşəmələrinin altında basdırmırdılar. Bunun üçün təpədən 150 m cənubda yerləşən A məzarlığından istifadə edilirdi (Нигахбан И., 1999, с. 131).

B məzarlığı isə təpənin 250 m cənubunda yerləşirdi. Bizi maraqlandıran da məhz bu məzardır. Çünki burada A məzarlı-

ğından fərqli olaraq, ölülər çox da hündür olmayan kurqanlarda basdırılırdılar. Kurqan örtükləri daşlardan qurulurdu. Ölülər qəbrə bükülü vəziyyətdə qoyulurdu. Onların istiqaməti şimal-cənub və ya şərq-qərb istiqamətli idi. Ölülərin yanına müxtəlif əşyalar qoyulurdu. Qəbirlərdən çıxan keramika bozumtul, qaramtıl və qırmızı rəngdə idi. Onların bir qismi naxışlanmışdır. Bənzər keramika nümunələrinə IC Gilan, Xurvin, Həsənlu, Quyi-Təpə, Lorestan və Şuşda, eləcə də Təxti-Cəmşidin yaxınlarında da rast gəlinmişdir (Малекзаде М., 2005, с. 123).

Təpə-Sialk B məzarlığının kimmerlərə aid olma ehtimalı azdır. Çünki onların kurqanları əzəmətli olurdu. Bu kurqanlar isə, çox güman ki, madaylara, başqa sözlə midiyalılara aiddir. Belə düşünməyə bizə Təpə-Sialkdan tapılan keramika nümunələri də əsas verir. Elmi ədəbiyyatda bu tip keramika midiyalılara aid edilir.

Manna və Midiya tarixi və mədəniyyətindən söz açan bütün müəlliflər mütləq Təpə-Sialkdan da söz açmış, onun II dəmir dövrünə aid təbəqələrindən tapılmış keramika nümunələrini Midiya dövrü keramikası kimi təqdim etmişlər (Дандамаев М.А., Луконин В.Г., 1980, с. 36-37). Eyni sözləri Xurvin və Mərlikdən tapılan sənət nümunələri barədə də söyləmək olar (Qaşqay S., 1993, s. 8). Həmin müəlliflər bu abidələrin təkcə yaşayış məskəni deyil, həm də məzarlıqlardan ibarət olduğunu xatırlatmağı da unutmamış, lakin məzarlıqlardakı kurqanların üstündən sükutla keçmişlər. Madam ki, həmin abidələr Manna və Midiya ilə birbaşa bağlıdır, deməli, sözügedən kurqanlar da bilavasitə mannalılara və midiyalılara aiddir. Yəni midiyalılar da digər türk xalqları – kimmerlər, skiflər, saklar, sarmatlar və s. kimi ölülərini kurqanlarda dəfn etmişlər.

Təpə-Sialk IV-dən tapılmış keramika qalıqları 4 qrupa bölünür: tipik, qara, qırmızı və üzəri təsvirli qablar. Tipik qablar aşkar edilmiş keramika nümunələrinin 19 %-ini təşkil edir və V dövr qablarına çox bənzəyirlər. Qara rəngli keramika 24 %, qırmızı rəngli keramika 17 %, tipik qırmızı 6 %, naxışlı keramika isə 34 % təşkil edir.

Alimlər arasında Təpə-Sialk A və B-nin hansı dövrə aid olduğu uzun müddət müzakirə obyekti olmuşdur. A. Qrişmanın

fikrincə, A məzarlığı e.ə. XII-XI əsrlərə, B məzarlığı isə e.ə. X-VIII əsrlərə aiddir. İ. Medvedskaya da onun fikri ilə razılaşır B məzarlığını bu ərazilərə Qafqazdan köçdüyünü və irandilli olduqlarını hesab etdiyi kimmerlər və skiflər ilə əlaqələndirir (Медведская И., 2004, с. 29).

Mövzumuz baxımından Tehranın şimalında, Əlbürz dağ silsiləsi bölgəsində 1969-1970-ci illərdə aparılan tikinti işləri zamanı aşkar edilmiş Qeytəriyyə məzarlığı da mühüm əhəmiyyət kəsb edir. Bu məzarlıqda qazıntıları S. Kəmbəxş Fərd aparmışdır. O burada, təqribən 500 kv m-lik ərazidə üst örtükləri tikinti texnikası tərəfindən tamamilə, qəbir kameraları ya tamamilə, ya da qismən dağıdılmış 350 kurqan tipli qəbir aşkar etmişdir. Onlar I və II dəmir dövrlərinə, başqa sözlə, e.ə. XIII-X və X-VIII əsrlərə aid edilmişlər (Камбахш Фард, 1991, с. 4). Arxeoloqun təsvirinə görə, oval formalı bu qəbirlərdə ölülər sol böyrü üstündə, üzləri şərqə tərəf basdırılmışdılar. Qəbirlər xüsusi memarlıq quruluşuna sahib deyildilər (Камбахш Фард, 1991, с. 12).

Burada da ölülər müxtəlif əşyalarla birlikdə dəfn edilmişlər. Qəbirlərdən üst-üstə 2500 arxeoloji material çıxmışdır. Ərazidə eyni zamanda e.ə. XII-X əsrlərə aid yaşayış məskənin qalıqları da aşkar edilmişdir (Камбахш Фард, 1991, с. 12).

Qeytəriyyədən tapılmış keramika nümunələrini 13 qrupa bölürlər:

1. Lüləsiz boğazlı kiçik qablar;
2. Çaydan formalı, silindrik lüləli qablar;
3. Sadə gövdəli, qulplu və qulpsuz qablar;
4. Ayaqlı, kürəşəkilli, sadə vazalar;
5. Geniş boğazlı, ayaqlı, kürə formalı kasalar;
6. Ayaqlı qablar;
7. Küp və küpələr;
8. Tək qulplu küplər;
9. Ayaqlı kasalar;
10. Qısa ayaqlı, kənara meyilli ağızlı, geniş qablar;
11. Uzun ayaqlı qoşa qablar;
12. Qulplu kasalar;

13. Məcməyi və boşqablar (Дандамаев М.А., Луконин В.Г., 1980, с. 37). Kurqan tipli qəbirlərin aşkar edildiyi daha bir məzarlıq Tehranın 80 km şimal-qərbində yerləşən Xurvin məzarlığıdır. Burada qazıntılar 1950-ci ildə Hakimi və Rodun başçılıq etdikləri İran arxeoloji ekspedisiyası tərəfindən aparılmışdır. Arxeoloqlar çoxtəbəqəli Xurvin kurqanına şərq tərəfdən üç lağım atmış və burada 6 qəbir aşkar etmişdilər (Тилаи Х., 1994, с. 68). Onlardan sonra eyni abidəni tədqiq etmiş L. Vanderbeq də eyni yolla getmiş abidənin mərkəzinə doğru üç lazım atmış və daha 14 qəbir aşkar etmişdir. Qəbirlərdən çıxan əşyalar əvvəlcə e.ə. 1300-900-cu illərə aid edilsə də, sonradan e.ə. IX əsrin üzərində durmaq qərara alınmışdır (Медведская И., 2004, с. 30).

Təpə-Sialk B-də aşkar edilmiş kurqan tipli qəbirlərin bənzərinə Qum şəhərinin yaxınlığında yerləşən, son tunc-erkən dəmir dövrünə aid edilən Səram məzarlığında da rast gəlinmişdir . Buradakı qəbirlər, onların memarlıq özəllikləri, ölülərin vəziyyəti, dəfn adətləri, eləcə də qəbirlərdən çıxan metal və keramik əşyalar daha yaxşı təsvir edilmişdir (Бухранипур Х., 2005, с. 18).

Mərkəızi İran yaylasının şimal-qərb çöllük hissəsinin arxeoloji kompleksləri içərisində Qəzvin düzənliyinin Zage yüksəkliyində yerləşən Saqzabadın da özünəməxsus yeri var. Ərazidə qazıntı işlərinin əsası 1969-cu ildə qoyulub. Tədqiqatları İ. Nigahbanın başçılıq etdiyi Tehran Universitetinin arxeoloji qrupu aparıb. Araşdırmaların gedişi zamanı (1970-1971) burada e.ə. II minillikdən Əhəməni dövrünə qədər (e.ə. 2500-500) bir çox mədəni təbəqə aşkar edilmişdir (Нигахбан И., 1972, с. 1-11; Тилаи Х., 1994, с. 54). Lakin Nigahbanın yazdığı hesabatdan ərazidəki məzarlar, onların strukturu və dəfn adətləri barədə müfəssəl məlumat əldə etmək mümkün deyildir.

Kurqan tipli dəfn abidələrinə Şimali Əlburz bölgəsindəki Asbsara, Marian və Tüle-Gilan məzarlıqlarında da rast gəlinib. Lakin məlumatlar qəti fikir söyləmək üçün kifayət deyil. Bilinən odur ki, buradakı kurqan tipli qəbirlərdə kollektiv dəfn adətinin izlərinə rast gəlinib (Халъатбари М., 2004, с. 138-139).

Maraqlıdır ki, bütün bu abidələr barədə hesabatlarda həmin abidələrin aid olduğu xalq bölgəyə Qafqazdan köçən köçəri maldar tayfa kimi qeyd edilir və təbii ki, «ari» adlandırılır (Хальатбари М., 2004, с. 185-187).

Mövzumuz baxımından çoxtəbəqəli Mərlik kurqanının daha böyük əhəmiyyəti var. Kurqanda qazıntı aparan və deyəsən, qazıdığının kurqan olduğunu heç başa da düşməyən İ. Nigahbanın yazdığına görə, buradakı qəbirlərdən ən böyüklərinin ölçüləri 5 x 10 m və 5 x 3,5 m olub. Burada qadın və kişilər dəfn edilib. Arxeoloq onları şah qəbirləri adlandırır. Böyük qəbirlərin paralel iki divarının bütöv sal qaya parçalarından, onları birləşdirən digər divarlarının isə kiçik daşlardan qurulduğunu bildirir. Bütün qəbirlərin şərq tərəfdə yerləşdiyini bildirir. Onun sözlərinə görə, qəbir kameralarının qurulmasında istifadə edilmiş daşlar 15 km kənardan gətirilmişdir (Нигахбан И., 1999, с. 29, 34 64).

Bütün kurqanlarda və kurqan tipli dəfn abidələrində olduğu kimi, Mərlikdə də «ölülər, sağlıqlarında istifadə etdikləri hər şeylə - içərisinə yemək və su qoyulmuş adi mətbəx avadanlığından tutmuş gözəl ayin qabları və bəzək şeylərinədək, ovçular və döyüşçülər isə hətta silahla təchiz olunmuşlar. Bundan əlavə, Mərlik qəbiristanının bir xüsusiyyəti də atların hər cür əsləhə ilə birlikdə, ayrıca basdırılmasıdır. Görünür, at Mərlikin qədim sakinlərinin həyatında mühüm rol oynamışdır. Mərlikdən aşkar edilən zərgərlik və keramika məmulatı o dövr sənətkarlarının zövq və məharətləri, yüksək sənətkarlıq texnikası haqqında çox şey deyir. Çoxlu zərif və zəhmət tələb edən bədii işləri özü ilə basdırmağa razı olan bu yerli əyanların lazımınca varlı olduqlarını qeyd etməliyik. Ə. O. Negahban bu qəbirləri e. ə. IX əsrə aid edir; lakin, belə hesab edir ki, onlardan tapılan bəzi əşyalar daha əvvəllər hazırlanmışdır» (Qaşqay S. Manna dövləti. B.: Azərnəşr, 1993, s. 8).

Şimal-Qərbi İran yaylasının kurqan tipli abidələrinə Cənubi Azərbaycandakı Qəzvin əyalətində, Ələmut yaxınlığında yerləşən Nizam-Bağ və Novbənd məzarlıqlarını da xüsusi qeyd etmək lazımdır. Buradakı məzarların bir çoxunun üzərində İran alimlərinin «daş topası» və ya «daşlardan qurulmuş təpəcik» adlandırdığı və

mahiyyətini baça düşmədikləri və təbii ki, əhəmiyyət vermədikləri kiçik kurqan örtükləri olub ki, onlar barədə A. Mömini özünün tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün yazdığı dissertasiyasında ətraflı məlumat vermişdir (Момени А. М., 2014).

## Kimmer və işquzlara (İç oğuzlara) aid Bintəpə (Min təpə) kurqanları

Avrasiyanın geniş düzənliklərindən-Şərqi Avropadan, Qara dənizin qərb və şimal sahillərindən tutmuş Çin səddinə qədər, Güney Azərbaycandan Skandinaviyaya, Skandinaviyadan Sakit okean sahllərinə qədər geniş bir ərazidə yunanların "skif", farsların isə "sak" adlandırdıqları qohum türk xalqlarına aid yüzlərlə kurqan tapılmış və tədqiq edilmişdir. Həmin kurqanlardan tapılan zəngin mədəniyyət nümunələri bütün bu böyük regionda ağlasığmaz mədəni eyniliyin və vahid standartların mövcudluğunu göstərmişdir. Məhz bu eyniliyi əsas götürən mütəxəssislər sözügedən nəhəng ərazidə eyni etnosa aid etnik qrupların yaşadığını söyləmişlər. Onların incəsənəti isə müxtəlif heyvan motivlərinin çoxluq təşkil etməsi səbəbindən "heyvani üslub" adlandırılmışdır.

Məsələn, bütün bu etnik qrupları "sak" adlandıran və onları irandilli hesab edən İ. Oranski onların iki min il ərzində Qara dəniz sahillərindən Çin səddinə qədər uzanan geniş bir ərazidə yaşadıqlarını yazmışdır (Орансий И. М., 1963, с. 90).

Eynən Oranski kimi skifləri və sakları irandilli hesab edən R. Fray yazır ki, bu tayfalar «təkcə Güney Rusiyanın və Quzey Qafqazın deyil, eyni zamanda Sibir, Altay, eləcə də Şərqi və Qərbi Türküstanın geniş ərazilərində məskun idilər...Altay və hətta Çin səddindən tutmuş Transilvaniyaya qədər uzanan geniş ərazilərdə ən azı min il boyunca, yəni yeni eranın ilk əsirlərində baş vermiş hun hücumlarına qədərki dövrdə müəyyən bir eynilik müşahidə olunmaqdadır» (Фрай Р., 1972, с. 221-222).

B.Qafurov skif və sakların yayıldığı ərazilərdən söz açaraq bildirir ki, bu areal Quzey Qara dənizdən Şərqi Türküstana qədər uzanırdı. İran xalqlarının ümumi vətəni də bu sərhədlər içərisində mövcud olmuşdur» (Гафуров Б.Г.,1971, с.13).

E.Qrantovskinin yazdığına görə, e.ə. l minillikdə skiflər Çin sərhəddindən Dunay çayına qədər geniş ərazilərində məskun idilər (Грантовский Э.А., 1974, c. 3).

Bu müəlliflərin hamısı sözügedən etnik qrupları irandilli hesab etməklə yanaşı, onların qohum olduqlarını və Avrasiyanın geniş ərazilərində məskun olduqlarını təsdiq etmişlər. Bizim üçün önəmli olan da elə budur. O ki, qaldı həmin xalqların irandilliliyinə bunun belə olmadığını, söhbətin bilavasitə türk etnosundan getdiyini genetika elmi birmənalı şəkildə sübut etmişdir və bu kimi məsələlər artıq heç bir əhəmiyyət kəsb etmir.

Avrasiyanın geniş ərazilərinin skif və saklarının məskəni olduğunu digər müəlliflər də təsdiqləmişlər. Beləlırindən biri də V.Abayev (Абаев В. И.,1979, c. 121) idi. Bütün bu müəliflər artıq yuxarıda qeyd edildiyi kimi, skif və saklara aid edilən "heyvani üslub"un bütün bu ərazilərə səpələnmiş kurqanlardan tapılan zəngin maddi mədəniyyət nümunələrinə xas olması faktından, eləcə də, Herodot da daxil olmaqla, bütün antik müəlliflərin həmin mədəniyyətin daşıyıcılarını ümumiləşdirici "skif" adı ilə adlandırması faktından çıxış etmişlər. Fəqət həmin müəlliflər həmin kurqanların xronoloji ardıcıllığını, yəni hansı kurqanların nisbətən daha qədim olması faktını nəzərə almadan, bu etnik qrupların Şərqdən Qərbə doğru yayıldıqlarını söyləmişlər. Onların belə düşünmələrinə isə Herodotun və Siciliyalı Diadorun (Ağasıoğlu F., 2005, s. 85) iskitlərin ilkin vətəni kimi Araz çayı sahillərinin adını çəkməsi və Araz çayının yanlış olaraq bəzi hallarda Volqa, bəzi hallarda isə Amu Dərya çayı ilə eyniləşdirmələri səbəb olmuşdur (Гейбуллаев Г.А.,1991, c. 277). Halbuki bu halda söhbət həmişə Azərbaycandakı Araz çayından getmişdir. Bu barədə irəlidə söhbət açılacaqdır.

A.Smirnov iskit kurqanlarından tapılan maddi mədəniyyət nümunələrini Asiya mənşəli hesab edərək (Смирнов П.,1966, c. 43), yazı ki, Qazaxıstan, Orta Asiya və Altayda ümumi etnomədəni dəyərlərə sahib olan qəbilələr məskun idilər. Məhz bu ərazilər skiflərin qaynağı və Ata yurdu olmuşdur, məhz buradan onlar Şərqi Avropaya gəlmişdilər (Смирнов П.,1966, c. 88).

A.Terenojkin isə gercəyə daha yaxın bir fikir söyləyərək bidirmişdir ki, skifərin bir qismi Ön Asiyadan Orta Asiya və Sibirə getmişlər. «Skiflər, görünür, Qara dənizin quzeyində və Quzey Qafqazda peyda olmamışdan öncə Ön və Kiçik Asiyada yaşamışlar (Тереножкин А.И.,1971, c.17-18).

Skif və sakların Azərbaycana gəlmə olduqları barədə fikirlərin heç bir elmi və məntiqi əsası yoxdur.

Birincisi. Ona görə ki, həm Herodot, həm də Siciliyalı Diador skiflərin ata yurdu kimi Araz çayı sahillərinə işarə edirlər Bu çayın isə Azərbaycandakı Araz çayı olduğunu (Гейбуллаев Г.А., 1991, c. 124) Herodotun öz yazdıqları sübut edir. O bildirir ki, Araz çayı isə öz başlanğıcını Matien dağlarından (Şərqi Anadolu) götürür... O, tək bir axarla şərqə doğru axaraq Xəzər dənizinə tökülür... «(Farslardan, midiyalılardan, saspirlərdən...) şimalda Xəzər dənizi və şərqə tərəf axan Araz çayı yerləşir...» (Алиев К., Б.,1987, c.14).

İkincisi. Ona görə ki, skif-sak dairəsinə daxil olan xalqların – kimmerlərin, sakların və işquzların adlarına ilk dəfə məhz mixi yazılarda rast gəlinir və bu yazı-larda onlardan məhz Azərbaycan (Manna) və Anadolu sakinləri kimi söz açılır. Üstəlik də Herodotun söylədiklərindən onların Araz çayı sahilinə haradansa kənardan gəlmələri barədə bircə kəlmə belə söz deyilmir. Skif və sakların Azərbaycan ərazisinə guya kənardan gəlmələri barədə yanlış versiyanı Araz çayını Volqa və ya Amu Dərya ilə eyniləşdirənlər uydurmuşlar və sonrakı müəlliflər də ağına-bozuna baxmadan onları təkrar etmişlər. Herodot isə belə yazmışdır: «Midiya və Lidiya şahlıqlarının sərhəddi Ərmən dağ silsiləsindən başlayaraq Kilikiyanın içi ilə axan Qalis çayıdır. Sonra isə o, sağdan matienləin, soldan isə friqiyalıların torpaqlarının arasından axır...

(Böyük Midiyanın çarı assurlara qalib gəlib, Nin şəhərini mühasirəyə aldığı zaman), onun dövlətinin ərazilərinə Prototiyin oğlu çar Madisin başçılığı altında çoxsaylı skif orduları daxil oldular. Kimmerləri Avropadan sıxışdıran skiflər onları Asiyada (Anadolu) da təqib etdilər və indi də Midiya torpaqlarına soxuldular.

(Midiya və Kolxida arasında) saspir adlanan bir xalq yaşayır. Onlardan yan keçməklə Midiyaya çatmaq mümkündür. Skiflər isə

Midiyaya, hər halda, bu yolla girmədilər, düz yoldan dönüb yuxarı, daha uzun yolla, Qafqaz dağlarını sağ tərəfdə qoyaraq getdilər. Elə buradaca midiyalılarla skiflər arasında döyüş oldu. Midiyalılar məğlub oldular, onların qüdrəti itdi. Skiflər isə bütün Asiya üzərində öz hakimiyyətlərini bərqərar etdilər» (Алиев К., Б.,1987, с.13-14)

Bu sözlərdən belə aydın olur ki, skiflər sağlarında hər zaman Qafqaz dağları olmaq şərti ilə irəliləyərək Midiya torpağına daxil olmuşlar. Midiya ilə Lidiya arasındakı sərhəddin yerini nəzərə alsaq, yəni Şərqi Anadolunun Midiya dövlətinə daxil olduğunu göz önündə tutsaq, belə çıxır ki, onlar Araz çayını onun şimaldan cənuba axdığı yerdən (Qərbi Azərbaycan, yəni bugnkü Ermənistanla və Naxçıvanla Bugünkü Türkiyə arasında Araz çayı şimaldan cənuba axır, sonra istiqamətini şərqə çevirir) keçərək Anadolu ərazisinə daxil olmuşlar. Bunu Herodotun aşağıdakı sözləri də təsdiq edir: «Köçəri iskit tayfaları Asiyada yaşayırdılar. Massagetlər onları oradan sıxışdırdıqda onlar böyük hərbi qüvvə ilə Araz çayının keçib kimmerlər ölkəsinə gəldilər» (Гейбуллаев Г.А.,1991, с. 277).

Bu məlumatdan isə belə aydın olur ki, skifləri Araz çayını keçməyə massagetlər məcbur etmişdilər. Massagetlərin isə ən azı e.ə Vll əsrdən Azərbaycan sakinləri olduqlarını bütün mənbələr birmənalı şəkildə təsdiqləyir (İsmayıl M., B.,1955, s. 10; Гейбуллаев Г.А., 1991, с. 124). Yəni skiflər Azərbaycana kənardan gəlməmişdilər, əksinə ilk vətənləri olan Azərbaycandan qovulmuşdular. Onların kimmer torpaqlarına daxil olmaları isə onu göstərir ki, onlar Araz çayını keçib Van sahilləri və Ağrı dağı istiqamətinə üz tutmuşlar. Çünki kimmerlərin onlardan öncə ələ keçirdikləri və məskunlaşdıqları yer Urartu ərazisi idi və bu ərazi Ağrı dağı, Van gölü və ətrafını əhatə edirdi. Eyni zamanda o da məlumdur ki, kimmerlərin əlində olan torpaqlar arasında Kappadokiya, Lidiya və Friqiya da var idi (Гейбуллаев Г.А.,1991, с. 106).

Üçüncüsü, skif və saklara xas mədəniyyətin ən qədim nümunələri Azərbaycan ərazisindən (Qədim Manna ərazisi) tapılmışdır. Söhbət Güney Azərbaycanın Ziviyə adlı yaşayış məntəqəsindən tapılan, sensasiyaya səbəb olan, fəqət çox hissəsi oğurlanan xəzinədən gedir. Həmin xəzinə 1947-ci ildə Sakkız şəhə-

rindən 40 kilometr şərqdə, Həsənlu yaxınlığından tapılmışdır. Maraqlıdır ki, R. Qrişman Sakkız şəhərinin adının saklarla bağlı olduğunu söyləməkdədir (Excavations in Kaluraz, 1973). M. Dandamayev və V. Lukoninin yazdıqlarına görə, həmin dövrdə Güney Azərbaycandakı siyasi olaylar İranın mərkəzi rayonları ilə normal əlaqələr üçün münasib deyildi. «Bu üzdən də bir çox əşyalar, ilk növbə-də də qiymətli metallardan olan əşyalar ya əridilmiş, ya da bölüşdürmə zamanı kəsilmiş, az qiymətli əşyalarsa yerə atılmış və sınmışdı. Əntiq əşya satıcılarının fəallığı sayəsində xəzinə ayrı-ayrı şəxsi kolleksiyalara və ABŞ, Fransa, Kanada, İngiltərə və Yaponiyanın çeşidli muzeylərinə yol tapdı. Hazırda onun əsas hissəsi Tehrandakı Arxeologiya muzeyində saxlanılır» (Дандамаев М. А., Луконин В. Г.,1980, с. 90-91).

Sözügedən xəzinəyə aid 341 əşyanın (43-ü qızıldan, 71-i gümüşdən, 103-ü fil sümüyündən) tam siyahısını, hazırlanma materiallarını və ölçülərini ilk dəfə R. Qrişman dərc etdirmişdir (Ghrishman R.A. 1973, p. 445-452). Bir vaxtlar İranın Arxeolyi Xidmətinin baş inspektoru olmuş Andre Qodar 1950-ci ildə bu əşyaların sadəcə bir hissəsinin siyahısını dərc etdirə bilmişdi və elə həmin dövrdə də onların böyük əksəriyyətinin e.ə. lX əsrə aid olduğu fikrini ifadə etmişdi. «Heyvani üslub» terminini də ilk dəfə məhz o, işlətmişdir. Məhz Qodar ilk dəfə bu üslubda aşşur incəsənətinə xas elementlərin olduğunu ifadə etmişdir. Məhz onun sayəsində bu əşyaları çoxu Tehrana, muzeyə göndərilmiş və qoruna bilmişdir.

Andre Qodar digər böyük alim E. Hersfeldin ardınca bu incəsənətin skif incəsənətinə başlanğıc verdiyini söyləmiş, sözügedən incəsənətin «Manna incəsənəti» olduğunu bildirmişdir (Godard A., 1950). Elə bu böyük alim də xəzinənin tapıldığı Ziviyə yaşayış məntəqəsinin adının qədim mixi yazılarda, daha dəqiq desək, II Sarqonun kitabəsində (Luckenbill D., 1927. II c., s. 5) "Zubie qalası" kimi yad edilən qədim yaşayış məskəninin dövrümüzədək yaşayan adı olduğunu söyləyərək göstərmişdir ki, Ziviyə xəzinəsindən tapılan əşyaların bənzərlərinə bu məntəqədən bir neçə kilometr kənarda yerləşən Qaplantudan əldə edilən tapıntılar içərisində də rast gəlinmişdir. O, Qaplantuda üzə çıxarılan qədim şəhərin qalıq-

larının bir vaxt Mannanın paytaxtı olmuş İzirtu olduğunu da sözlərinə əlavə etmişdir (Дандамаев М. А., Луконин В. Г.,1980, с. 91).

R.Bernett tapılan bütün bu əşyaların Quzey Qafqaz, Quzey Qara dəniz, Güney Rus düzənliyi, Orta Asiya, Altay, Sibir və Şərqi Türküstandan, skif kurqanlarından tapılan və sonrakı əsrlərə aid olan incəsənətin ilk və daha qədim nümunələri olduğunu qeyd etməklə yanaşı, bu misilsiz incəsənətin Aşşur və Urartu incəsənətlərinin təsiri ilə yarandığını iddia etmişdir (Barnett R., 1962, p. 77-95).

Qədim Manna ərazisində iskit incəsənətinin qaynaqlarının tapılması skif və sakları Azərbaycan və Ön Asiyaya gəlmə hesab edən alimləri çaşbaş salsa da, onların hamısı skif-sak incəsənətinin Ön Asiya mənşəli olduğunu etiraf etməyə məcbur qalmışlar. Belələrindən biri də Y. Kuzminadır (Кузьмина Е. Е., 1987, с. 3). O, bu incəsənətin Ön Asiyadan Avrasiya çöllərinə və Altaya qədər yayıldığını bildirmişdir (Кузьмина Е. Е., 1987, с. 8).

İskit və saklara aid edilən "heyvani üslub" barədə bir çox alimlər fikir söylə-mişlər. Bu baxımdan A.Alfoldi, D.Karter, E.Farkaş, V.Abayev, K.Şefold, İ.Yat-senko, Q.Fyodorov-Davıdov, A.Xazanov, A.Şkurko, M.Rostovtsev, İ.Braginski, K.Trever, S.Tolstov, Q.Puqaçenkova, S.Rudenko, B.Litvinski, V.Lukonin, D.Ra-yevski, Q.Bonqard-Levin, A.Akişev, B.Mazolevski, V.Qolmsten, A.Qraç, L.Dyula (Кузьмина Е.Е., 1987, с.4), Q.Qeybullayev (Гейбуллаев Г.А.,1991, с. 283) və s. kimi elm adamlarını göstərmək olar. Və bütün bu alimlər iskit incəsənətinin qaynaqlarının Manna ərazisi ilə bağlı olduğunu, Aşşur və Urartu mədəniyyətlərinin təsiri ilə formalaşdığını qeyd etmişlər.

Məsələn, A. Xazanov iskit incəsənətinin On Asiyanın mədəni ölkələrinin təsiri ilə formalaşdığını söyləməkdə (Рыбаков Б.А., 1979, с. 225), B. Texov isə iskit mədəniyyətinin Kiçik və Ön Asiyadan yayıldığını qeyd etməkdədir: «Həqiqətən, Orta Asiya və Sibirdə iskit abidələrinin yaşı cavandır, hər halda, orada iskit mədəniyyəti ilə bağlı ortaya çıxan material, əsasən e.ə.Vll-Vl əsrlərə aiddir. Beləliklə aydın olur ki, Ön Asiya iskitləri Midiya üzərindən orta Asiya və Sibirə keçmişlər, onların da bir hissəsi Güney Qafqaz üzərindən, əsasən, Qara dəniz sahilləri

ilə quzeyə getmişlər. Burada isə ortaya çıxan iskit triadası (yaraqlar, at nəsnələri və heyvani üslub)adətən, Amu-Dərya və Volqa tərəfdən gələn iskitlərlə əlaqələndirilir, halbu ki, həmin tarixdən öncə Sibir və Orta Asiyada bu mədəniyyətin izini sübut edən faktlar müəyyən olunmayıb» (Техов Б. В.,1980, с. 17-18).

Beləliklə, tarixi mənbələr kimmerlərin, ardınca isə sakların, daha dəqiq desək, işquzların Anadolunun geniş ərazilərinə, o cümlədən Lidiya və Friqiya ərazilərinə sahib olduğunu birmənalı şəkildə təsdiqləyir. Bu isə bizə tarixi Lidiya və Friqiya ərazilərində qeydə alınmış çoxsaylı kurqanların kimmer və işquzlara aid olduğunu çəkinmədən söyləməyə əsas verir.

Sözügedən kurqanların bir qismi qədim Lidiyanın paytaxtı Sardın 12-15 km şimalında yerləşən Bintəpə ərazisində qeydə alınıb. Onların sayı həddən artıq çoxdur. Bu kurqanlar e.ə. VII-VI əsrlərə aid edilirlər. Onların bəzsis olduqca böyükdür və dünyanın ən böyük kurqanları cərgəsinə daxildir. Çox təəssüflər olsun ki, bu kurqanlar dünyaya «Lidiya kurqanları», onlardan ən böyüyü isə «Lidiya şahı Aliattın məzarı» kimi saxta adlarla tanıdılmaqdadırlar (Древняя традиция).

Aliatt haqqında nə bilirik?

Tarixdə bu adda bir neçə Lidiya hökmdarı olub. Bu halda söhbət Lidiyanın axırdan əvvəlki şahından gedir. Bintəpədəki ən böyük kurqanın onun məzarı olduğu iddia edilir (Древняя традиция).

Əldə olan mənbələrdən belə məlum olur ki, Aliatta (e.ə. 617-560) işquzların yardımı ilə kimmerlərin Lidiya üzərindəki hakimiyyətinə son qoymuşdu. Midiya şahı Kiaksar Midiyadan qaçaraq Aliatta sığınan işquz xanlarının qaytarılmasını tələb etmiş, o isə buna etiraz etdiyi üçün Lidiya ilə Midiya arsında savaş başlamışdı. Tərəflərdən heç birinin qalib gələ bilmədiyi bu savaş günəş tutulması səbəbindən dayandırılmış, Aliatta qızını Kiaksarın oğlu Astiaqa ərə verməklə iki ölkə arasında sülhə nail olmuşdu (Алиатт, 1973-1982). İşquz xanlarının bir qismi Lidiyada qalmış, digər qismi isə kimmerləri təqib edərək Qara dənizin şimal sahillərinə getmişdilər. Herodot onları «skif» adlandırır.

Bu məlumatı əldə əsas tutaraq, Bintəpədəki e.ə. VII əsrə aid kurqanları kimmerlərə, e.ə. VI əsrə aid kurqanları isə işquzlara, başqa sözlə skiflərə aid edə bilərik. Onlardan ən böyüyünün isə guya Aliatta aid olması hər daşın altında hindavropalıların izini axtaran avroplaı alimlərin uydurmasından başqa bir şey deyildir.

Aliattaya aid edilən kimmer kurqanı dünyanın ən böyük kurqanıdır. Onun hündürlüyünün 70 m çatdığı məlumdur. Digər kimmer kurqanlarında olduğu kimi, burada da tək dəfn etmə adətinin icra edildiyi düşünülür. Çünki kimmer kurqanlarında kollektiv dəfnin izlərinə, demək olar ki, rast gəlinməmişdir. Bu kurqanların, demək olar ki, hamısı, o cümlədən Aliatta aid olduğu iddia edilən kurqan hələ qədim zamanlarada talan edilmişdir. Bu kurqandan nəinki hər hansı bir arxeoloji material, skelet belə tapılmamışdır.

Fikrimizcə, bu kurqan kimmer xaqanı Tuqdammeyə (Toxtamışa) aid olmalıdır və Aliatta hec cür aid ola bilməz. Çünki Herodotun təsvirinə görə Aliattın məzarı daş plitələrdən qurulmuşdu və o, açıqda idi, yəni gözlə görünürdü (Древняя традиция). Kurqanların qəbir kameraları da daş pilitələrdən qurulur. Amma onlar torpaq altında qaldığından görünmür. Bir də Aliattın məzarının yaxınlığında suyu heç vaxt qurumayan göl olub (Древняя традиция). Bintəpədə isə heç bir göl yoxdur. Bu halda söhbət Bozdağdakı Gölcükdən, və ya bir vaxtlar Manisanın Sarıgöl elçəsinin yerində mövcud olmuş eyniadlı göldən gedə bilər. Həmin elçənin Sarıgölün qurudulmasından sonra qurulduğu məlumdur. O da məlumdur ki, həmin ərazi Lidiya dövlətinin ərazisinə daxil idi. Əldə olan məlumata görə, Saiyra (İzmir) Magnesia (Manisa), Sardes (Sard), Filedelfia (Alaşehir) ve Hiyerapolisə (Pamukkale) ulaşan quru yolu Sarıgöldən keçməktə ve Sarıgöl bu yol üzerinde üçüncü qonaqlama yeri olaraq istifadə edilməkdəydi. (Sarıgöl). Odur ki, Lidiya krallarının məzarlarını, o cümlədən Aliattın məzarını oralarda axtarmaq daha doğru olar.

Bu arada Mərmərə gölünü də unutmamaq lazımdır. Vaxtilə haqqında Evliya Çələbinin də məlumat verdiyi bu göl hazırda su anbarına çevrilmişdir və qonşuluqdakı Gölmərmərə elçəsində yerləşir. Lakin həmin gölün quraqlıq bölgədə yerləşməsi səbə-

bindən yayda suyunun önəmli dərəcədə quruduğu məlumdur (Gölmarmara). Bu isə Herodotun «suyu heç vaxt qurumayan göl» kimi tərif etdiyi göl ola bilməz.

Bintəpə kurqanlarının lidiyalılrala heç bir əlaqəsinin olmadığını bir də o fakt təsdiq edir ki, 1910-1914-cü illərdə Sart (qədim Paktola) çayının qərbindəki qədim məzarlıqda Lidiya şahlarına aid qədim sərdabələr tapılmışdır və məlum olmuşdur ki, onların dəfn adətləri kimmer və skiflərinkindən fərqli olmuş və bu adətlər fars hakimiyyəti dövrünə qədər dəyişmədən davam etmişdir (Кембриджская история мира, 2011; Сарды и Лидия…). Yəni onlar ölülərini kurqanlarda dəfn etməmişlər.

Qeyd etdiyimiz kimi, Bintəpədəki e.ə. VI əsrə aid kurqanlar işquzlara (skiflərə) aiddir. Bunu Herodotun bir məlumatı təsdiq edir. O yazır ki, Gerr çayı xan iskitləri ilə köçəri iskitlər arasında sərhəd təşkil edir. Eyni zamanda, xan iskitlərinin kurqanları bu çayın sahilində yerləşir (Матвеев О., 2017). Nəzərə alsaq ki, keçmişdə Germ adlanan Gediz çayı (Kıymaz S., 2006) Bintəpənin lap yanından axır (Кембриджская история мира, 2011; Сарды и Лидия…), o zaman Herodotun «Gerr» adlandırdığı çayın Krımda deyil, Anadoluda olduğunu və bu halda söhbətin Gedizdən getdiyini düşünə bilərik.

Məlumat üçün bildirək ki, Tuqdamme haqqında ilk məlumatlarda onun Kiçik Asiyanın qərb sahillərindəki yunan şəhərlərini ələ keçirməsindən bəhs edilir. Bundan sonra o, Assuriyaya üzərinə hücuma keçmiş, assurları tabe etmişdir (e.ə. 653-cü il). Assur mənbələri ondan «sakların və qutilərin hökmdarı», «kimmerlərin şahı», «Umman-Manda şahı» və «dünyanın hökmdarı kimi» bəhs etmişdir.

Daha sonra üsyan edən Lidiya üzərinə hücuma keçən Tuqdamme onun paytaxtı Sard şəhərini ələ keçirmiş, Artemida mədəni yandırmış və Lidiya şahı Qiqi məhv etmişdir (e.ə. 644). Elə həmin dövrdə də İoniya və Efesdə kimmer hakimiyyətini bərqərar etmişdir. Ondan sonra kimmerlərin taxt-tacına oğlu Sandakşatra yiyələnmişdir (Rea Cam., 2008, pp. 127-144).

Tuqdamme özündən əvvəlki kimmer hökmdarları Teuşpa və İşpakayın fəthlərini davam etdirmiş, Anadolunun qərb sahil-

lərinədək gəlib çıxa bilmişdi. Onun və Sandakşatranın hakimiyyəti dövründə, demək olar ki, Anadolunun tamamı kimmerlərin əlinə keçmişdi. Tarixi mənbələrdən bunlardan sonuncusunun VII əsrin sonlarında yaşadığı bilinməkdədir (Rea Cam., 2008, pp. 140, 144). Çox güman ki, Bintəpədəki kurqanlardan biri Sandakşatraya aiddir. Görünür, məhz onun hakimiyyəti dövründə Aliatt işquzların (skiflərin) köməyi ilə kimmerlərin hakimiyyətinə son qoya bilmişdir.

Burada işquzlar və saklar mövzusuna da ayrıca toxunmaq lazımdır.

Saklar barədə Yeni Türk Ensiklopediyasında yazılmışdır: «Saklar (e.ə. VII-III əsrlər) türklərin tarix öncəsinin, Teoman və Metedən öncəki türk tarixinin ən mühüm siyasi quruluşudur, sakların qurduğu dövlətdir... Yunanların "ska" dediyi qövmdür. Xanədan və hakim ünsür türkdür... Sakların ən böyük hökmdarı iranlıların Əfrasiyab dedikləri Alp Ər Tonqadır. Türkləin yetişdirdiyi ilk böyük tarixi şəxsiyyətdir» (Yeni Türk Ansiklopedisi, 1985, XI, s. 4363).

Artıq qeyd edildiyi kimi, Herodot yunanların "skif" çağırdıqları xalqlara farsların "sak" dediklərini yazmışdır. Bunun gerçəkdən də belə olduğunu fars-Əhəməni şahı Daranın Nəqşi-Rüstəmdəki kitabəsi də sübut etməkdədir. Bu kitabədə üç növ saklardan söhbət açılmaqdadır: xaumvarqa sakları (şərab bişirən saklar), tiqraxauda sakları (oxpapaq və ya şişpapaq saklar) və taradrava sakları (dənizin arxasında yaşayan saklar) (Гасанов З., 2000, s. 54).

Daha qədim mənbələrdə, yəni e.ə.Vlll-Vll əsrlərə aid mənbələrdə isə əsasən iki sak xalqından söhbət açılır. Onlardan biri kimmerlərlə eyniləşdirilir (Грантовский Э. А.,1960, c. 84), digəri isə həm də "işquz" adı altında yad edilir. Birincilərdən Manna sakinləri kimi söhbət açılır: «Manna ölkəsində oturan...Mana ölkəsindən çıxıb Urartuya hücum edən... Aşşur (Assuriya) sınırlarını aşıb yağmalar edən» (Ağasıoğlu F., 2005, s. 106).

Bunlar kimmerlərdir, çünki eyni xalqdan ll Sarqonun kitabəsində "qamir" (kimmer) kimi söz açılır: «Qameraa (kimmelər) mannalıların ölkəsindən çıxıb Uratuya daxil oldu... bütün Urartu qorxu içindədir» (Ağasıoğlu F., 2005, s. 107).

Maraqlıdır ki, Assur mənbələri onlardan qəsbkar, yağmalar törədənlər kimi söz açır. Bisitun kitabəsinin farsdilli hissəsində də saklardan qəsbkar kimi söz edilir və məhz həmin saklar eyni kitabənin akkad variantında "kimmer" adlandırılır: «Saklar qəsbkar idilər və Ahura Məzdaya hörmət etmirdilər.Mən Ahura Məzdaya hörmət edirdim. Ahura Məzdanın mərhəmətilə mən onlarla öz istəyimə uyğun rəftar etdim» (Oğuz Y., 2002, s.105).

Artıq qeyd etdiyimiz kimi, bu sakların kimmerlərlə eyniləşdirilməsi keçmişin ənənələri ilə bağlı olmuşdur. Yəni bir zamanlar bu saklar kimmerlərin hakimiyyəti altında yaşamış olduqları üçün uzun müddət xüsusi "sak" (şakı) adı ilə yanaşı ümumiləşdirici "kimmer" adını da daşımışlar. Bu saklar utilərin, yəni paytaxtı Bərdə (Partav) şəhəri olan Uti vilayətinin qonşuluğunda yaşayan saklar idi ki, b.e. VII əsrinə qədər Kür və Araz çayları arasında yaşamaqda davam edirdlər və həmin ərazidəki Sakasena (Şakaşen) ölkəsinin sakinləri idilər. Lakin belə olan halda, həmin sakların Mannaya heç bir dəxli olmur. Çünki belə hesab edilir ki, Manna Cənubi Azərbaycanda, Urmiya gölünün cənubunu və şərqini əhatə edən bir ölkə idi (Azərbaycan tarixi, 1994, s. 86; Qaşqay S., 1993, s. 48) və Quzey Azərbaycan ərazisi onun sınırlarına daxil deyildi. Əgər bu fikir doğrudursa, o zaman birmənalı şəkildə söyləmək olar ki, iki müxtəlif (biri quzeydə, biri isə güneydə) Sakasena olduğunu iddia edən Qiyasəddin Qeybullayev (Гейбуллаев Г.А., 1991, с. 321) haqlıdır və sözügedən Sakasenanın Manna ərazisindəki Sakasenaya, birinci Sakasenada yaşayan sakların isə "Manna sakları"na heç bir aidiyyatı yoxdur.

Lakin Solmaz Qaşqay arxeoloji materiallara istinadən, haqlı olaraq göstərir ki, müəyyən dövrlərdə Mannanın sərhədləri Araz çayından şimala uzanmış və Manna dövləti özünün gücləndiyi dövrlərdə geniş bir ərazini əhatə etmişdir (Qaşqay S., 1993, s. 69). İlkin mənbələrin diqqətlə incələnməsi bu müddəanın tam doğru olduğunu, Manna ərazisinin düşünüldüyündən çox-çox böyük olduğunu, təkcə Güney və Quzey Azərbaycanı deyil, eyni zamanda bugünki Dağıstan və Çeçenistanı da içinə aldığını göstərir. Bu məsələyə keçməmişdən öncə qeyd edək ki, mütəxəssislərin, de-

mək olar ki, hamısı (V.Struve, İ.Dyakonov, K.Trever, İ.Əliyev, V.Minorski, A.Novoseltsev) tək bir Sakasenadan söhbət açmış və onun Gəncə ilə Urmiya gölü arasında uzandığını, yəni həm Quzey, həm də Güney Azərbaycanı əhatə etdiyini qeyd etmişlər (Гейбуллаев Г.А., 1991, с. 321). Məsələn, İ.Dyakonova görə, skiflərin məskənini Manna torpaqlarının şimal sərhəddində, Araz çayı və ondan şimaldakı torpaqlarda lokalizə etmək lazımdır (Дьяконов И.М., 1956, с. 250). İ.Əliyev isə qeyd edir ki, skiflərin məskəni Azərbaycanın həm cənubunu, həm də şimalını əhatə etmişdir (Алиев И., 1960, с. 230, qeyd 5). M.İsmayıl da eyni fikirdə olmuşdur (İsmayıl M., 1955, s. 11). Arxeoloji tədqiqatlar nəticəsində isə məlum olmuşdur ki, sakların yaşayış arealına bugünkü Gürcüstan ərazisi də daxil idi (Пирцхалава М.С., 1975).

Məlum olduğu kimi, "Sakasena" adına antik müəlliflərin, "Şakaşen" adına isə erməni müəlliflərinin əsərlərində rast gəlinmişdir. Saklardan gen-bol söz açan assur mənbələrində isə bu toponimə rast gəlmirik. Əvəzində isə assur və Urartu mənbələrində paytaxtı Parda (Bərdə) olan Saqarta (Zikertu) toponimi ilə rastlaşırıq və bu toponim mənbələrdə Mannanın əyalətlərindən biri kimi qeyd edilir (Qaşqay S., 1993, s. 63).

Doğrudur, həmin ölkənin Cənubi Azərbaycanda Miyanə və Ərdəbil arasında yerləşdiyi hesab edilir (Qaşqay S., 1993, s. 63), lakin faktlar bu ehtimalı nəinki təsdiqləmir, əksinə söhbətin məhz Bərdə ətrafındakı ərazilərdən getdiyini sübut edir. Məsələ burasındadır ki, saqartalılardan söhbət açan Herodot onları utilərlə birlikdə yad edir (Гейбуллаев Г. А., 1991, с. 147), utilərin isə Araz çayı yaxınlarında yaşadıqlarını göstərir (Гейбуллаев Г. А., 1991, с. 143). Və məsələ təkcə bu faktla bitmir.

Məlum olduğu kimi, Mannanın əyalətlərindən biri də Andiya idi. Bu əyalətin adına ilk dəfə lll Salmanasarın, daha sonra isə lll Adadnerarinin kitabələrində rast gəlinir (Qaşqay S., 1993, s. 64). Mütəxəssislər lll Adnerarinin kitabəsində söylənilənlərə istinadən, Andiyanın Xəzər sahillərində yerləşdiyi fikrində yekdil olmuşlar (Меликашвили Г.А., s. 75 сн 2; 132.165).

Q. Melikaşvili Saqartanın (Zikkertunun) paytaxtı Parda şəhəri ilə Azərbaycandakı Bərdə, eləcə də Andiyanın adının Dağıstandakı Andi toponimi ilə eynilik təşkil etdiyinə diqqət çəkmiş, fəqət bunu mannalıların guya qafqazdilli olduqlarını "sübut" etmək üçün etmişdir (Меликашвили Г.А., s. 60). Bu alim Andiya və Andi toponimləri arasındakı eyniliyi göstərməklə, əslində bizə Andiyanın harada olduğunu göstərmişdir. Biz də bu fikirdəyik ki, Andiya əyaləti Xəzər dənizi sahilində yerləşən bugünkü Dağıstan ərazisini əhatə etmişdir və qafqazdilli andi (andiyalı) xalqının adı ilə bağlı olmuşdur. Məlimat üçün bildirək ki, andilər (andiyalılar) Dağıstan xalqlarından biridir və bu gün də varlıqlarını sürdürməkdədirlər. Fəqət sovet dövründə onların milli kimlikləri inkar edilmiş və avarların bir qolu olduqları iddia edilmişdir (Брук С.И.,1986, c. 166). Hazırda Dağıstanda mövcud olan iki Göysu çayından biri avarların adı ilə "Avarskoye Koysu", digəri isə andilərin adı ilə "Andiyskoe Koysu" adlanmaqdadır.

Maraqlıdır ki, II Sarqonun müttəfiqi kimi çıxış edən Manna hökmdarına qarşı Urartu çarının təhriki ilə üsyan edən Saqarta (Zikkertu) və Andiya əhalisini cəzalandırmaq üçün bu ölkələrə hücuma keçən II Sarqon öncə saqartalı, daha sonra isə andiyalı üsyançıları məhv etmişdir. Yəni o, öncə Saqartaya (Zikkertuya) gəlmiş, daha sonra isə Saqartadan keçərək Andiyaya daxil olmuşdu (Azərbaycan tarixi, 1994, s. 98-99). Bu da təbiidir, çünki Dağıstana getmək üçün mütləq Quzey Azərbaycandan keçmək lazımdır.

Mannanın digər bir əyalətinin də "Durdukka" olduğu və burada eyniadlı şəhərin bulunduğu məlumdur (Azərbaycan tarixi, 1994, s.96). Q.Melikaşvili haqlı olaraq göstərmişdir ki, Durdukka çeçenlərin əski adı olan "durdzuk" (Dağıstanda bu gün də çeçenlərə "durdzuk" deyirlər) etnonimi ilə bağlıdır (Меликашвили Г. А., s. 60). Eyni etnonimə Xl əsr gürcü tarixçisi Leonti Mrovellidə də rast gəlmək mümkündür (169. 85). O, eyni zamanda durdzuklarla yanaşı, andilərin, daha doğrusu, andiyalıların bir qolu olan didoyların da (Брук С. И.,1986, c. 166) adını çəkmişdir (Ковалевская В. Б.,1984, c. 85).

Bütün bu faktlar sübut edir ki, Manna gücləndiyi vaxtlarda Quzey Azərbaycan ərazisi ilə yanaşı, Dağıstan və Çeçenistanı da öz sərhədləri içərisinə daxil edə bilmişdi. Saqarta da Mannanın bir parçası idi. Onun mərkəzi Bərdə olsa da, ərazisi Azərbaycanın həm quzey, həm də güney ərazilərini əhatə edirdi. Mənbələrdən belə aydın olur ki, həmin dövrdə "sak" adı Azərbaycan əhalisinin mühüm bir hissəsinin ümumiləşdirici adı kimi çıxış edirmiş (Azərbaycan tarixi, 1994, s. 127-128). Məsələn, Aşşur mənbələrində Bərdənin Uti vilayətinin deyil, Saqartanın (Zikkertunun) mərkəzi kimi göstərilməsi o deməkdir ki, həmin dövrdə utilər (udulular) üçün də "sak" adı ümumiləşdirici ad idi. Yəni utilər də sak ittifaqına daxil idilər.

Mənbələrdən belə aydın olur ki, Azərbaycanın şimal-qərbində, Xəzər sahillərində yaşamış massagetlər də bir vaxtlar bu ümumiləşdirici ad altında çıxış etmişlər (İsmayıl M., 1955, s. 11-12). Sonrakı dövr mənbələrində "maskutlar" adlandırılan bu xalqın bəzi mütəxəssislərin fikrincə, Dərbəndlə Beşbarmaq dağı arasında (Еремян С.Т., 1958, с. 304), digər mütəxəssislərin fikrincə isə, Kür çayına qədər olan ərazilərdə və Muğanda (Ашурбейли С.Б., 1985, с. 19) yaşadıqları bildirilimişdir. Antik müəlliflərin massaget kimi söz açdıqları həmin xalqın adı ilk dəfə Sasani şahının Paykulidəki yazısında, daha sonra isə isə erməni müəlliflərinin əsərlərində "maskut" kimi çəkilməkdədir (Касумова С.Ю., 1985, с. 53). Ammian Marselinin yazdığına görə, massagetlər alanların əcdadları olmuşlar, Valeriy Flak isə massagetləri midiyalılarla birlikdə yad etmişdir (Гейбуллаев Г.А., 1991, с.174-175).

Herodot massaget tayfaları barədə yazırdı ki, «bu xalq qədərsiz və cəsur hesab edilir, şərqdə Araz çayının o tərəfində issidonlarla üzbəüz yaşayır. Bəzilərinin ikrincə, bu skif xalqıdır» (Azərbaycan tarixi, 1994, s. 124). Dion Kassi Arazdan şimalda yaşayan albanları massaget mənşəli hesab edirdi. Strabon qeyd etmişdir ki, skiflərin böyük bir hissəsi massaget və sak adını daşıyırdılar (Azərbaycan tarixi, 1994, s. 124) və Araz çayı sahilində yaşayırdılar (Алиев К., 1987, с. 25). Əhəməni şahlarının yazılarında ayrıca "massaget" adına rast gəlinmir və onlar da ümumiləşdirici "sak" adı

altında tanınırdı. Və maraqlıdır ki, Prokopiy, Musa Kağankatlı, Dionisiy Perieqet və erməni mənbələri massagetləri hunlarla eyniləşdirmişlər (Azərbaycan tarixi, 1994, s. 118; 66. I, XIV fəsil; Гейбуллаев Г.А., 1991, с. 177; Пигулевская Н. В.,1939, с. 114).

Yuxarıda qeyd edildiyi kimi, Əhəməni şahı Daranın Nəqşi-Rüstəmdəki kitabəsində üç növ saklardan söhbət açılmaqdadır: xaumvarqa sakları (şərab bişirən saklar), tiqraxauda sakları (oxpapaq və ya şişpapaq saklar) və taradrava sakları (dənizin arxasında yaşayan saklar) (Гасанов З., 2000, s. 54).

Daha qədim dövrə aid aşşur mənbələrindən belə aydın olur ki, bunlardan biri kimmerlərlə eyniləşdirilən saklar idi. Həmin mənbələr sayəsində bu sakların hökmdarlarının adı da dövrümüzədək ulaşmışdır. Bunlar Teuşpa, İşpakay, Tuqdamme və onun oğlu Sandakşatradır. Aşşur hökmdarları Teuşpa ilə e.ə. 678-ci, Mannalıların köməyinə gələn İşpakayla e.ə. 670-ci ildə döyüşmüş və onlara qalib gəlmişdilər (Ağasıoğlu F., 2005, s. 107).

Asarhaddonun kitabəsindən belə məlum olur ki, aşşurlar saklardan çəkinirmişlər: «Müəyyən edilmiş bu müddət ərzində Manna vilayətində yaşayan və Manna ölkəsinin hüdudlarına gəlmiş sak ordusu bir qəsd hazırlayırmı? Bir şey fikirləşirmi? Hubuşkiya şəhərinin keçidini... keçəcəklərmi, gələcəklərmi, Aşşur sərhəddindən böyük qənimət, əsirlər aparacaqlarmı?» (Azərbaycan tarixi, 1994, s. 105).

Eyni kitabədən belə aydın olur ki, döyüşdə saklar məğlub olurlar və bu Manna dövlətinin süqutu ilə nəticələnir: «Mən Manna ölkəsinin sakinlərini, dinc oturmayan kutiləri darmadağın etdim, onu xilas edə bilməyən müttəfiqini - sak İşpakayın ordusunu əzdim» (Azərbaycan tarixi, 1994, s. 105).

Mannanın süqutu kutiləin Cənubi Azərbaycanda hakimiyyətinin süqutu anlamına gəlməkdəydi və bu üzdən də adı mixi yazılarda Tuqdamme kimi çəkilən sak hökmdarı mənbələrdə "Saka və Qutium hökmdarı" kimi yad edilir. Bu isə o anlama gəlir ki, kutilər artıq həmin dövrdən saklara tabe olmuşlar. Yəni saklar (kimmerlər) Mannanın hakiminə çevrilmişlər (Azərbaycan tarixi, 1994, s. 105).

Təqribən eyni dövrdə Mannanın siyasi arenasında daha iki qüvvə hakimiyyət uğrunda mübarizəyə atılır. Bu, madaylar (midiyalılar) və bir müddət saklardan asılı vəziyyətdə yaşadıqları üçün ümumiləşdirici "sak" adı ilə yanaşı özlərinin əsl adı ilə də yad edilən işquzlar idilər. Mənbələrdə Partatua (Prototiy) və oğlu Madiy işquzların hökmdarı kimi təqdim olunurlar. Bunlar psevdo, yəni yalançı saklar idilər. Beləcə, Azərbaycanın üç qədim türk boyu arasında Mannanın və kutilərin mirası, yəni taxt-tac uğrunda amansız, qanlı mübarizə başlayır.

Madaylar (midiyalılar) ilk öncə Mannanın tərkibində, Cənubi Azərbaycanın Zəncan, Qəzvin və Həmədan şəhərləri ilə bugünkü Tehran arasında yerləşən ərazidə məskun idilər (Гейбуллаев Г. А., 1991, c. 250). Assur mixi kitabələrində onlar haqqında ilk məlumat e.ə. 835-ci ilə aiddir (Дьяконов И. М., 1951, c. 34-35). Həmin mənbədə və sonrakı mənbələrdə onlar "maday" (amaday, matay) olkələri də "Maday" adları ilə yad edilirlər. Antik müəlliflərin əsərlərində isə "Midiya" və "midiyalı" adları keçərlidir. Azərbaycan elmi ədəbiyyatında da bu adlar daha çox işlənir. Hərçənd ki, assur mənbələrindəki ad daha doğrudur.

Əslində mübarizənin əsas hissəsi midiyalılarla işquzlar arasında getmişdir. Çünki saklar (kimmerlər) bu mübarizədə tez bir zamanda məğlub olaraq Qara dəniz sahillərinə qaçmağa məcbur olmuşlar. Hadisələr isə belə cərəyan etmişdir.

Manna uzun müddət Assurla ittifaqa sadiq qalsa da, güclənməkdə olan kimmer-iskit-sak qəbilələrinin təhriki ilə bu ittifaqı pozmalı oldu. Bu Manna hökmdarı Ahşerinin dövründə (e.ə.675-650) baş verdi. Aşşur hökmdarı Aşşurbanipal Mannaya qarşı müharibəyə başladı və qələbə çaldı (Azərbaycan tarixi, 1994, s. 101).

Əslində həmin dövrdə Assurların vəziyyəti də yaxşı deyildi. Beləki, bu hadisədən çox-çox öncə, daha dəqiq desək, e.ə.VIII əsrin ikinci yarısından etibarən güclənməyə başlayan babillilər Assura qarşı üsyan etmiş və elamlılarla birləşmişdilər.

E.ə. 720-ci ildə Der qalası yaxınlığında elamlılarla assurlar arasında qanlı müharibə baş verdi və assurlar məğlub oldular. E.ə. 716-cı ildə Urartu kökmdarı Rusa assurların zəifləməsindən

istifadə edərək, onların müttəfiqi Mannaya hücuma keçdi və 22 Manna şəhər-qalasını işğal etdi, e.ə.715-ci ildə isə Manna hökmdarı Dayukku əsir alındı (Дандамаев М. А., 1980, s. 73). Həmin döyüşdə Mannadan müstəqilliyə can atan Saqarta (Zikkertu) və Andiya əhalisi, yəni saklar (kimerlər) və andiyalılar urartulularla eyni mövqedən çıxış edirdilər.

Belə bir vəziyyətdə Manna ilə ittifaqa sadiq qalan Assur hökmdarı II Sarqon Saqarta və Andiyaya hücum edərək üsyançıları darmadağın etdi. II Sarqon Urartu ordusunu da məğlub edərək, itirilmiş 22 şəhər-qalanı mannalılara geri qaytardı. Üstəlik də 55 Urartu istehkamı və 11 Urartu qalası Mannanın tərkibinə keçdi. Bu döyüşdə Dayukku əsirlikdən azad edidi, əvəzində isə Uratu hökmdarı I Rusa əsir edildi (Azərbaycan tarixi, 1994, s. 98-99). Həmin döyüşdə psevdosaklar da (işquz - iç oğuzlar) Manna tərəfdən Uratuya qarşı çıxış edirdilər və Rusanın məğlub edilməsində böyük rol oynamışdılar. Qələbədən sonra Kappadokiya və Uratunun böyük bir hissəsi sakların (kimmerlərin) hakimiyyəti altına keçdi. Saklar arasında heç bir fərq qoymayan Strabon bu barədə belə yazır: «Saklar da kimmer və trerlər kimi bəzən uzaq, bəzən də yaxın məsafəli yü-rüşlər təşkil edirdilər. Beləcə. onlar Baktriananı (indiki Əfqanıstanın şimalı) və Ərməniyyənin (Uratu, yəni Van gölü ətrafı nəzərdə tutulur) torpaqlarının önəmli bir hissəsini tutaraq oranı öz adları ilə Sakasena (qədim Saqarta) adlandırdılar. Onlar Kappadokiyaya... qədər çatdılar» (Алиев К., 1987, с. 24).

E.ə. 710-ci ildə II Sarqon Elama hücum etdi, Elam hökmdarı Şutruk-Naxxunte dağlara qaçdı. Onun müttəfiqi, Babil hökmdarı Marduk apla-iddina isə cənuba qaçmaq məcburiyyətində qaldı. E.ə. 709-cu ildə kimmer-saklardan qoruna bilmək üçün Friqiya şahı Midas ll Sarqona kömək üçün müraciət etdi (Дандамаев М. А., 1980, s. 76). Fəqət kimmer-saklar o qədər güclənmişdilər ki, Assurun özü də onlardan çəkinirdi.

E.ə. 705-ci ildə, ll Sarqonun ölümündən sonra Babil hökmdarı Marduk-aplaiddina Aşşurun bütün düşmənləri ilə ittifaq yaratdı. Bu koolisiyaya Elam, Yəhuda və Tir, Arad və Askalon ki-

mi Finikiya şəhərləri daxil idilər. Fəqət bu dəfə də aşşurlar qalib gəldilər. E.ə. 700-cü ildən sonra müharibələr yenidən qızışdı və e.ə. 693-cü ildə, Aşşur hökmdarı Sinaxxeribin dövründə müttəfiqlər növbəti dəfə məğlub oldular (Дандамаев М. А., 1980, s. 74). Məhz həmin dövrdən etibarən Manna, Urartu ilə yanaşı müstəqil və güclü Sak dövlətinin mövcud olduğunu söyləmək olar. Artıq qeyd etdiyimiz kimi, mənbələrdən sakların İşpakay, Tuqdamme və Sandakşatra kimi hökmdarlarının adı məlumdur.

Bir sözlə, bütün Ön Asiya böyük müharibələr meydanına çevrilmişdi. Və bu müharibələrdə midiyalılar da, saklar da, yəni həm kimmer-saklar (şakılar), həm də işquzlar tədricən əsas tərəflərə çevrilirdilər. Sakların Midiya ilə İttifaqda Assur və Urartuya qarşı eyni cəbhədə yer aldıqları, işquzların hökmdarı, Assur şahı Asarhaddonun kürəkəni Partatuanın isə assurların müttəfiqi kimi çıxış etdiyi məlumdur (Azərbaycan tarixi, 1994, s. 105).

Alimləin bir çoxu haqlı olaraq, Assur mənbələrindəki işquzları "Kitabi Dədə Qorqud"dakı İç Oğuzla, başqa sözlə, oğuzlarla eyniləşdirmişlər (Süleymenov O., 1993, s. 224; Azərbaycan tarixi, 1994, s. 118; Гасанов З., 2000, s. 122-124). Məhəmməd Hatəmi Tantəkin assur, yunan və qədim fars mənbələrini tutuşduraraq təkzibedilməz şəkildə sübut etmişdir ki, adına Assur mənbələrində "Partatua", Herodotda "Prototiy", Avestada "Tranqrasyan", Firdovsinin "Şahnamə"sində "Əfrasiyab" kimi rast gəldiyimiz işquz (İç oğuz) xaqanı, böyük Turan hökmdarı Alp Ər Tonqadır. Onu öldürmüş şəxs isə Firdovsinin İran şahı kimi qələmə verdiyi və Keyxosrov adlandırdığı Midiya hökmdarı Kiaksardır (Tantəkin M. H., 2002).

Bəzi mütəxəssislər qədim mənbələrdə işquzların həm də "sak" adlandırılması faktından çıxış edərək Alp Ər Tonqanı sak hökmdarı, onun xaqanı olduğu Turan dövlətini isə skif-sak dövləti saymışlar (Гейбуллаев Г. А., 1991, c. 326-329; Əlibəyzadə E., 1998, s. 241; Anadol C., 1991). Eyni fikrə Yeni Türk Ensiklopediyasında da rast gəlirik (Yeni Türk Ansiklopedisi, 1985, Xl, s. 4363). Camal Anadol yanlış olaraq, Alp Ər Tonqanı Partatuanın oğlu Madiy ilə eyniləşdirmişdir (Anadol C., 1991). Eyni səhvi Məhəmməd Tağı Zöhtabi və Elməddin Əlizadə də təkrarlamışlar (Əlibəyzadə E.,

1998, s. 241). Gerçək isə budur ki, Alp Ər Tonqanın mixi yazılardakı adı Partatuadır və bu ad böyük türk qəhrəmanı və hökmdarının adının assur dilindəki cüzi təhrifi ilə ortaya çıxmışdır.

## Antropoloji tədqiqatların nəticələri skiflərin mənşəyi barədə nə deyir?

Skif kurqanlarından çıxan skeletlərin antropoloji tipinin yaxınlığı, qenetik cəhətdən eyni haploqruplara aidliyi mütəxəssislər arasında Şimali Qara dəniz skiflərinin mənşəyi, genetik kökləri, Qara dəniz sahillərində peyda olma tarixi barədə yeni-yeni sualların doğmasına səbəb olmuşdur (Яблонский, 2000; Козинцев, 2000; Круц, 2004). S. Yefremov və L. Yablonski kimi mütəxəssislər onların Şərqi Avropanın avtoxton xalqı olduğu və antropoloji cəhətdən özündən əvvəlki mədəniyyətlərin mənsubları ilə eyni tipdən olduqlarını önə sürərkən, digər müəlliflər onların şərqdəki sarmat, sak və s. qədim xalqlarla (Круц, 2004), eləcə də çağdaş Orta Asiya xalqları ilə qohumluğundan bəhs edirlər (Козинцев, 2000; Козинцев А. Г., 2007 с. 143).

Belə hesab edilir ki, çöl skifləri ilə meşə-çöl skifləri arasında müəyyən fərqlər var. Bu isə Qara dəniz skiflərinin ayrı-ayrı qrupları arasında yenidən müqayisələrin aparılması məsələsini aktuallaşdırır və bu istiqamətdə artıq tədqiqatlara başlanmışdır (Ефимова, 2000; Круц, 2004).

2000-ci illərin əvvəllərindən başlayan tədqiqatlar skiflərin paleoantropologiyası sahəsində maraqlı nəticələrin əldə edilməsinə gətirib çıxarmışdır. Tədqiqatlar üçün Şimali Avrasiya ərazisindən 17-si çöl, 5-i isə meşə-çöl zonasından olmaqla, ümumilikdə 22 skif və 98 qeyri-skif kəllə nümunəsinin kranoloji analizi aparılmış və əldə edilən nəticələr müqayisə edilmişdir.

Tədqiatlara aşağıdakı skif qruplarından nümunələr cəlb edilmişdir:

**A.**

1. Frontovoye I (Круц, 2004);
2. Aktaş (Покас, Назарова, Дяченко, 1988);
3. Kerç (Жиляева-Круц, 1970). Sol sahil Ukraynası;
4. Sivaş sahilləri (Козинцев А. Г., 2007);

5. Qaymanova çölü (Козинцев А. Г., 2007);
6. Nosaki (Козинцев А. Г., 2007);
7. Zlatopol (Qızıl çöl) (Козинцев А. Г., 2007);
8. Mamay-Qora (Mamaytəpə) (Литвинова, 1999, 2001);
9. Kaxovka (Круц, 1997);
10. Şirikoye (Круц, 1997);
11. Mixaylovka, Kut, Kalinovka (Кондукторова, 1972; Konduktorova, 1974; Ефимова, 2000);
12. Aleksandropol (Luqovaya Moqila) (Фирштейн, 1966; Кондукторова, 1972; Konduktorova, 1974; Ефимова, 2000);
13. Nikopol (Дебец, 1948; Зиневич, 1967);
14. Verxne-Tarasovka (Козинцев А. Г., 2007);
15. İnqulets qrupu (Козинцев А. Г., 2007);
16. Şimal-Qərbi Qara dəniz sahilləri (Литвинова, 1999, 2001);
17. Nikolayevka-Dnestr (Великанова, 1975);

**B.**

18. Seyminsk qrupu (Ефимова, 2000);
19. Posulsk qrupu (Ефимова, 2000);
20. Vorsklin və Borispol qrupu (Кондукторова, 1972; Konduktorova, 1974; Круц, 1997; Ефимова, 2000);
21. Medvin (Зiневич, 1985; Круц, 1997);
22. Sağ sahil Ukraynasının meşə-çöl zonası, Dnestr-Buq çayarası (Дебец, 1948; Кондукторова, 1972; Konduktorova, 1974; Ефимова, 2000).

Nümunələr götürülmüş kurqanların böyük əksəriyyəti e.ə. V əsrlə e.ə. III əsrin əvvəllərini əhatə edirdi. Buradakı abidələrin çoxu çöllük ərazidə cəmlənmişdir. Tədqiqatlara meşə-çöl zonalarından, demək olar ki, çox az nümunə daxil edilmişdir. Belə ki, çöl zonasından 17-yə qarşı meşə-çöl zonasından cəmi 5 kəllə üzərində tədqiqat aparılmışdır. Bunlardan ən erkəni Medvinadan idi və e.ə. VI-V əsrlərə aid idi (Козинцев А. Г., 2007 с. 143).

Skif kəllələri ilə müqayisə üçün tədqiqata cəlb edilmiş 46 qeyri-skif kəlləsindən (Козинцев, 2000) başqa, Şərqi Avropadan eneolit-tunc dövrlərinə aid 51 və Orta Asiyadan bir kəllə də müqayisələr zamanı istifadə edilmişdir.

Aşağıda həmin qrupların siyahısı və hansı mədəniyyətlərə aid olduğu göstərilir:

1. Krımdakı Kemi-Ob mədəniyyəti (Жиляєва-Круц, 1972);
2. Volqa sahilləri, Xvalınsk mədəniyyəti (Хохлов, 1998);
3. Volqa-Ural bölgəsi, çuxur mədəniyyəti (Хохлов, 1998);
4. Volqa-Ural bölgəsi, çuxur-Polatavkino mədəniyyəti (Хохлов, 1998);
5. Volqaboyu, Polatavkino mədəniyyəti (Шевченко, 1986);
6. Uralboyu Potapov tipli mədəniyyət (Хохлов, 1998);
7. Ukarayna, çuxur mədəniyyəti (Кондукторова, 1973; Круц, 1984);
8. Çerkassk vilayəti, Başteçki. Çuxur mədəniyyəti (Козинцев, 2007);
9. Cənubi Buq və İnqulets çayarası. Çuxur mədəniyyəti (Козинцев, 2007);
10. Yuxarı İnqulets-Krivorojye. Çuxur mədəniyyəti (Козинцев, 2007);
11. Aşağı Dneprin sağ sahli. Çuxur mədəniyyəti (Козинцев, 2007);
12. Aşağı Dneprin sol sahli. Çuxur mədəniyyəti (Козинцев, 2007);
13. Xerson vilayəti. Çuxur mədəniyyəti (Козинцев, 2007);
14. Həştərxan vilayəti, Aşağı Volqanın sağ sahili (Krivaya Luka). Çuxur mədəniyyəti (Шевченко, 1986);
15. Kalmıkiya. Çuxur mədəniyyəti (Шевченко, 1986);
16. Kalmıkiya. Çuxur-katakomba mədəniyyəti (Шевченко, 1986);
17. Kalmıkiya. Katakomba mədəniyyəti (Шевченко, 1986);
18. Volqaboyu, katakomba mədəniyyəti (Шевченко, 1986);
19. Don sahilləri, katakomba mədəniyyəti (Шевченко, 1986);
20. Ukrayna, katakomba mədəniyyəti (Шевченко, 1986);
21. Aşağı Dneprin sağ sahili. Katakomba mədəniyyəti (Козинцев, 2007);
22. Aşağı Dneprin sol sahili. Katakomba mədəniyyəti (Козинцев, 2007);

23. Moloçnaya çayı vadisinin erkən dövr katakomba mədəniyyəti (Козинцев, 2007);

24. Ukraynanın erkən dövr katakomba mədəniyyəti (Козинцев, 2000);

25. Cənubi Buq-İnqulets çayarası, son dövr katakomba mədəniyyəti (Козинцев, 2007);

26. Yuxarı İnqulets, son katakomba mədəniyyəti (Козинцев, 2007);

27. Aşağı Dneprin sağ sahili. Gec katakomba mədəniyyəti (Козинцев, 2007);

28. Aşağı Dneprin sol sahili. Gec katakomba mədəniyyəti (Козинцев, 2007);

29. Zaparojye, gec katakomba mədəniyyəti (Козинцев, 2007);

30. Xerson, gec katakomba mədəniyyəti (Козинцев, 2007);

31. Samara və Oreli çayarası, gec katakomba mədəniyyəti (Мельник, 1982);

32. Krımın çöl hissəsinin gec katakomba mədəniyyəti (Дяченко, Покас, 1986);

33. Ukraynanın gec dövr katakomba mədəniyyəti (Козинцев, 2000);

34. Ukrayna. Çoxyastıqlı keramika mədəniyyəti (Круц, 1984);

35. Moldova. Çoxyastıqlı keramika mədəniyyəti (Великанова, 1975);

36. Ukrayna. Kərtmə mədəniyyəti (Круц, 1984);

37. Sol sahil Ukraynası. Kərtmə mədəniyyəti (Шевченко, 1986);

38. Sağ sahil Ukraynası. Kərtmə mədəniyyəti (Шевченко, 1986);

39. Ukrayna. Kərtmə mədəniyyəti, torpaq qəbirlər (Кондукторова, 1969);

40. Rostov vilayəti, Yasırev xutoru. Kərtmə mədəniyyəti (Шевченко, 1986);

41. Volqa sahilləri, Luzanovka. Kərtmə mədəniyyəti (Шевченко, 1986);

42. Volqa sahilləri, Xryaşevka. Kərtmə mədəniyyəti (Шевченко, 1986);

43. Volqaboyunun meşə-çöl zonası. Kərtmə mədəniyyəti (Шевченко, 1986);

44. Saratov vilayəti. Kərtmə mədəniyyəti (Шевченко, 1986);

45. Volqoqrad və Həştərxan vilayətləri. Kərtmə mədəniyyəti (Шевченко, 1986);

46. Həştərxan vilayəti (Krivaya Luka). Kərtmə mədəniyyəti (Хохлов, 1998);

47. Volqa-Ural bölgəsi. Kərtmə mədəniyyəti, erkən dövrlər (Хохлов, 1998);

48. Volqa-Ural bölgəsi. Kərtmə mədəniyyəti, son dövrlər (Хохлов, 1998);

49. Ukrayna, Ağgöl (Beloozerskaya) mədəniyyəti (Зіневич, Круц, 1968; Круц, 1984);

50. Ukrayna, Ağgöl (Beloozerskaya) mədəniyyəti. Ümumiləşdirmə (Круц, 1984);

51. Ukrayna Qaragöl (Çernoozerskaya) mədəniyyəti (Круц, 2002).

52. Baktriya-Margiana mədəniyyəti. Cənubi Özbəkistanın arxeoloji kompleksi (Бабаков и др., 2001).

Antropoloji tədqiqatlar 13 ölçü əlaməti əsasında aparılmışdır ki, bura kəllə qutusunun üç əsas diametral göstəricisi, alnın eni, sifətin, burun və göz çuxurlarının eni və uzunluğu, üz profilinin iki horizontal bucağı, burunun somotik indeksi və çıxış bucağı daxil idi. Bütün bu göstəricilər kanonik analizdən keçirilmişdir. 120 qrupun hamısı say göstəriciləri nəzərə alınmaqla (1/n1 + 1/n2) (Rightmire, 1969) Maxalanobis məsafəsi (D2) əsasında cüt-cüt tutuşdurulmuşdur. Müqayisə öncə skif qruplarının öz arasında, daha sonra isə skif qrupları ilə digər mədəniyyətlərə aid qruplar arasında aparılmış, öncə skif qrupları arasındakı yaxınlıq məsafəsi, bundan sonra isə onlarla digər qruplar arasındakı məsafə təyin edilmişdir.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, bütün 22 skif qrupları arasındakı məsafə 6,30, 17 çöl skif qrupunun öz arasındakı məsafə 5,25, 5 meşə-çöl zolağı skifləri arasında 5, 88, çöl skifləri

ilə meşə-çöl zolağı skifləri arasında isə 8,4 - ə bərabərdir. Beləliklə, məsafələrin heç də az olmadığı üzə çıxmışdır. Eyni zamanda məlum olmuşdur ki, bəzi qeyri-skif mədəniyyətlərinin təmsilçiləri ilə ayrı-ayrı skif qrupları arasındakı məsafə skif qrupları arasındakı məsafədən daha azdır. Bu isə o deməkdir ki, Şərqi Avropa skifləri antropoloji cəhətdən yekcins olmamışlar. Deməli, skiflər arasında ekzoqamiya geniş yayılmışdı və onlar başqa qəbilə və tayfalardan qız almağa heç bir məhdudiyyət qoymurdular. Yəni bu qeyri-yekcinsliyin səbəbi başqa xalqlarla evlənmələrdir. Əks təqdirdə eyni mənzərə genetika sahəsində də özünü göstərərdi. Genetik tədqiqatlar isə skiflərin Karpatlardan Altaylara qədər yekcins olduğunu, R1a1a haplotipini daşıdıqlarını göstərmişdir (Joachim Burger, 2017). Eyni zamanda mütəxəssisər müxtəlif qruplar arasındakı genetik məsafəni (Fst) hesablayaraq belə nəticəyə gəlmişlər ki, Qara dəniz skifləri öz mənşəyinə görə, çuxur və kərtmə mədəniyyətləri ilə bağlıdırlar (Anna Juras and so on., 2017).

Bəs, antropoloji tədqiqatlar nə göstərir? Qara dəniz skifləri ilə çuxur və kərtmə mədəniyyətləri qrupları arasında antropoloji məsafə nə qədərdir?

Antropoloqların nəticələri, təbii ki, genetiklərin nəticələri ilə həmişə eyni olmaya bilər. Çünki genetiklər daha çox atadan-oğula keçən Y-xromosomlarının tədqiqi əsasında fikir söyləyirlər. Amma insanın fiziki tipinin formalaşmasında təkcə Y-xromosomlar, yəni atanın xromosomları deyil, həm də X-xromosomlar, yəni ananın xromosomları da fəal iştirak edir. Y-xromosom atadan oğula keçdiyi üçün nəslin genetik yapısının dəyişməz qalmasını təmin etsə də, antropoloji tipin sabitliyini təmin edə bilmir. Antropoloji tipin formalaşmasında X-xromosomlar da önəmli rol oynayır.

Qara dəniz skifləri üzərində aparılmış antropoloji tədqiqatlar onlarla digər qruplar arasındakı məsafəni aşağıdakı kimi təsbit etmişdir:

1. Tuvanın Okunev mədəniyyəti (Aymırlıq XIII və Aymırlıq – karyer) – 3,07;
2. Ukraynanın kərtmə mədəniyyəti (torpaq qəbirlər) - 3,20;
3. Ukraynanın çuxur mədəniyyəti (Yuxarı İnqulets) – 3,22;

4. Ukraynanın katakomba mədəniyyəti (Moloçnaya çayı vadisi) – 3,50;

5. Saratov vilayətinin kərtmə mədəniyyəti - 3,73;

6. Krımın gec dövr katakomba mədəniyyəti – 3,76;

7. Taqar mədəniyyəti – 4,27;

8. Ukraynanın katakomba mədəniyyəti (Kaxovka, gec dövr) – 4,52;

9. Volqaboyunun kərtmə mədəniyyəti (Luzanovka) – 4,63;

10. Qərbi Tuvanın skif dövrü – 4,67 (Козинцев, 2007).

Beləliklə, Qara dəniz skiflərinə 3 kərtmə mədəniyyəti qrupunun, 3 katakomba mədəniyyəti qrupunun və 3 Mərkəzi Asiya və Cənubi Sibir qrupunun daha yaxın olduğunu görürük. Əlbəttə, bu nəticələr tam obyektiv qərar verə bilmək üçün kifayət deyil. Çünki müqayisəyə cəlb edilmiş qruplardan Şərqi Avropanın tunc dövrü qruplarının sayı 53 olduğu halda, Tuvanın tunc və dəmir dövrü qruplarının sayı sadəcə 6 olmuşdur. Bununla belə, Tuva qrupundan ikisi ən yaxın məsafələr siyahısında ilk onluğa düşə bilmişdir. Və onlardan biri skif qrupları ilə qeyri-skif qruplarının müqayisəsində birinci yerə yüksəlmişdir.

Bütün bu deyilənlərdən çıxan nəticə odur ki, Qara dəniz skiflərinin yerli mədəniyyətlərlə bağlılığı Şərqi Avrasiya ilə bağlılığından daha qədim dövrlərə aiddir və bu da onları Şərqi Avropanın avtoxton əhalisi hesab etməyə imkan verir.

Yuxarıdakı müqayisə skifləri çöl və meşə-çöl massivi skiflərinə ayırmadan aparılmışdır. Çöl skifləri ilə meşə-çöl zolağı skiflərinin müqayisəyə cəlb edilmiş digər qruplarla tutuşdurulması da mövzumuz baxımından böyük maraq kəsb edir. Öncə çöl skiflərinin qeyri-skif qrupları ilə müqayisəsinin nəticələrini gözdən keçirək:

1. Tuvanın Okunev mədəniyyəti - 2.29;

2. Ukraynanın çuxur mədəniyyəti (yuxarı İnqulets) – 2, 77;

3. Saratov vilayətinin kərtmə mədəniyyəti - 2,99;

4. Krımın katakomba mədəniyyəti (gec dövr) – 3,25;

5. Ukraynanın katakomba mədəniyyəti (Moloçnaya çayı vadisi, erkən dövr) – 3,51;

6. Ukraynanın kərtmə mədəniyyəti (torpaq qəbirlər) - 3,54;

7. Taqar mədəniyyəti – 3,68;

8. Qərbi Tuvanın skif dövrü – 3,76;

9. Ukraynanın katakomba mədəniyyəti (Kaxovka, gec dövr) – 3,79;

10. Volqaboyunun kərtmə mədəniyyəti (Luzanovka) – 4,34 (Козинцев, 2007).

Öncəki siyahı ilə bu siyahını müqayisə etsək, yaxınlıq dərəcəsinə görə ilk onluqda yer alan qrupların dəyişmədiyini, dəyişən tək şeyin onların ardıcıllığının olduğunu görə bilərik. Yuxarıdakı siyahıda olduğu kimi bu siyahıda da ilk yerin sahibinin Tuvanın Okunev mədəniyyəti olduğunu görürük. Bu isə o deməkdir ki, skiflərin Avropadakı əcdadları artıq tunc dövründə Tuvaya qədər yayılmışdılar. Hərçənd ki, bəzi antropoloqlar bu faktı skiflərin əcdadlarının avropalı deyil, asiyalı olduğunu sübut etmək üçün istifadə edirlər (Козинцев, 2007). Amma nəzərə almırlar ki, tunc dövrünün Tuva sakinləri Eneolit dövrünün Avropa əhalisinin əcdadı ola bilməz. Təsadüfi deyil ki, onların bu absurd iddiası genetika elminin gəldiyi nəticələrlə də təsdiqlənmir. Genetika elmi skiflərin əcdadlarının, yəni R1a haploqrupu daşıyıcılarının hələ eneolit dövründə Yaxın Şərqdən (Şərqi Anadolu və Cənubi Azərbaycan) Avropaya köçdüklərini, köçün Qafqaz üzərindən gerçəkləşdiyini, yalnız tunc dövründə Avrasiyanın Şərqinə miqrasiya etdiklərini göstərir ki, bu da antropoloji tədqiqatların nəticələri ilə tam üst-üstə düşür. Lakin unutmayaq ki, yuxarıdakı nəticələr çöl skifləri, yəni daha çox maldarlıq və atçılıqla məşğul olan skiflər ilə müqayisəni əks etdirən nəticələrdir.

Maraqlıdır ki, daha çox əkinçiliklə məşğul olan və oturaq həyat tərzi keçirən meşə-çöl zolağı skif qrupları ilə digər qrupların müqayisəsi nəzərəçarpacaq dərəcədə fərqli nəticələrə gətirib çıxarmışdır:

1. Ukraynanın kərtmə mədəniyyəti (torpaq qəbirlər) – 2,05;

2. Ukraynanın katakomba mədəniyyəti (Moloçnaya çayı vadisi, erkən dövr) – 3,51;

3. Ukraynanın katakomba mədəniyyəti (Kaxovka, gec dövr) – 3,64;

4. Aşağı Dnestrin sol sahilinin çuxur mədəniyyəti (Kaxovka) – 4,34;

5. Rostov vilayətinin kərtmə mədəniyyəti (Yasırev xutoru) -4,47;

6. Cənubi Özbəkistanın Baktriya-Margiana kompleksi (Carkutan) – 4,51;

7. Xerson vilayətinin çuxur mədəniyyəti – 4, 60;

8. Yuxarı İnquletsin çuxur mədəniyyəti – 4, 72;

9. Ukraynanın kərtmə mədəniyyəti – 4, 84:

10. Aşağı Dnestrin sağ sahilinin katakomba mədəniyyəti - 4,85 (Козинцев, 2007).

Maraqlıdır ki, bu siyahıda Tuvanın Okunov mədəniyyəti qrupunun heç ilk 10-luğa belə düşmədiyini müşahidə edirik. Məlumat üçün bildirək, onlar meşə-çöl skiflərinə yaxınlıq dərəcəsinə görə 21-ci yerdədirlər (Козинцев, 2007).

Bu müqayisələrdən gəldiyimiz nəticə budur:

1. Qara dəniz skiflərinin əcdadları çuxur və kərtmə mədəniyyətinin təmsilçiləridir. Bunu həm antropoloji, həm də genetik tədqiqatların nəticələri təsdiqləyir.

2. Qara dəniz skiflərinin əcdadları eneolit dövründə Şərqi Avropaya, Qafqazdan keçməklə, Yaxın Şərqdən (Şərqi Anadolu və İran Azərbaycanı) gəlmişlər. Burada oturaq həyat tərzi keçirən R1a-lar əski antroploloji tipini qoruyub saxlamaqla, yerli mədəniyyətlərin qızları ilə evlənmiş, bir qismi onların tipini qəbul etmişdir.

3. Maldarlıq və atçılıqla məşğul olan skiflər tədricən Şərqə doğru yayılaraq yeni-yeni antropoloji özəlliklər əldə etmişlər və oturaq skiflərdən fərqlənməyə başlamışlar.

4. Əski dini-ideoloji görüşlərinə, yəni əski törələrə bağlılıq onların kurqanda dəfn adətini, mədəniyyətini və dillərini minillər boyu mühafizə edə bilmələrini təmin etmişdir.

5. Artıq e.ə. III minilliyin sonları – II minilliyin əvvəllərində Karpat dağlarından Altaylara qədər yekcins türk etno-mədəni arealı formalaşmış və skiflər də məhz həmin arealda ortaya çıxmışlar. Onlar arsında bəzi antropoloji fərqlər olsa da, genetik baxımdan tam yekcins idilər.

6. Skiflərin dövründə farslar sözügedən etno-mədəni arealı «Turan» (Turyana, türklər ölkəsi) adlandırmağa başlamışlar ki, bu da artıq ən azı 3000 il əvvəl vahid Türk ölkəsinin və dövlətinin varlığından xəbər verir.

Məlum olduğu kimi, fars mənbələri «Əfrasiyab» adlandırdıqları Alp Ər Tonqanı Turanın ilk qüdrətli hökmdarı kimi vəsf etmişlər.

«Avesta» Alp Ər Tonqanın bol duzlu Çiçəstə gölü sahilində qətlə yetirildiyi bildirilir. «Bundaxşinin kitabı»nda söylənilənlərdən isə belə məlum olur ki, Çiçəstə gölü Aturpatakanda, yəni Azərbaycanda yerləşir (Касумова С. Ю.,1985, s. 20).

Bu məlumatlardan göründüyü kimi, Alp Ər Tonqa Cənubi Azərbaycanda yerləşən bol duzlu Urmiya gölü sahilində qətlə yetirilmişdir. Onun Azərbaycanda öldürüldüyünü Yeni Türk Ensiklopediyası da təsdiqləməkdədir: «Alp Ər Tonqa iranlılarla çox uzun bir mücadiləyə girmiş..., Altaylara qədər təqib edilmiş, yenə həmlə etmiş, nəhayət, Azərbaycanda... öldürülmüşdür (m.ö.624)» (Yeni Türk Ansiklopedisi, 1985, Xl,4363).

Bu isə o deməkdir ki, bu böyük türk-işquz (skif, İç Oğuz) xaqanının qəbri Cənubi Azərbaycandakı bol duzlu Urmiya gölünə yaxın bir yerdə olmalıdır. Nəzərə alsaq ki, o, e.ə. 624-cü ildə qətlə yetirilmişdir (Yeni Türk Ansiklopedisi, 1985, Xl,4363), bu halda söhbət Urmiya yaxınlığında yerləşməsi mühtəməl olan, e.ə. VII əsrə aid edilən hansısa bir kurqandan getməlidir. Özü də bu kurqan adi kurqan yox, xaqana məxsus olduğu üçün çox zəngin bir kurqan olmalıdır. Və belə kurqan da var, daha doğrusu olub. Söhbət Ziviyə kurqanından gedir (Зивие , Уикипедия).

Urmiya gölü yaxınlarında yerləşən Ziviyə kurqanı 1947-ci ildə eyni adlı kəndin sakinləri tərəfindən tapılaraq qarət edilsə də, qarət edilmiş qızıl və gümüş, eləcə də digər əşyaların əsas hissəsini xilas etmək mümkün olub. R. Girşman Ziviyə kəndinin adını II Sarqon və Aşşurbanipalın kitabələrində Zibia-İzzibia-Uzbia kimi qeyd edilən Manna qalasının adı ilə müqayisə edir (Ghirshman R., 1950, p. 201). Ərazidə tədqiqat aparmış R. Daysonun təsvirinə görə, Zibia, şəhər yox, istehkam məntəqəsi, yəni ordunun yerləşdiyi qala olmuşdur (Dyson R. H., 1963, p. 32-37).

Arxeoloqlar Ziviyə kurqanından tapılmış əşyaları e. ə. IX-VII əsrlərə aid edrlər (Dyson R. H., 1963, p. 32-37). Onları Kubanboyu və Şimali Qara dəniz sahilləri skif kurqanlarının sənət abidələri ilə müqayisə edən B. Piotrovski isə həmin əşyaları e. ə. VII əsrin sonuna və VI əsrin əvvəllərinə aid edir (Пиотровский Б. Б., 1959, s. 255). R. Barnet Ziviyə kurqanının dəfinəsini müxtəlif dövrlərdə və ayrı-ayrı üslublarda hazırlanmış əşyalarla birgə dəfn sayır. Bütün bu əşyaların tapıldığı sərdabəni, yəni qəbir kamerasını təsvirlərinə və formasına görə o, e. ə. VII əsrin sonlarına aid edir (Barnett R. D., 1956, p. 111-115).

Kurqan qarətçilər tərəfindən darmadağın edildiyindən onun örtüyünün ölçülərini, qəbir kamerasındakı skeletlərin dəqiq sayını və vəziyyətini müəyyən etmək mümkün olmayıb. Qarətçilərin sözlərinə görə, kurqandan çıxan qızıl və gümüş əşyaların hamısı qəbirdəki bir adamın üzərindən tapılıb (Ильинская В. А., Тереножкин А. И., 1983).

Beləliklə, Ziviyə kurqanı skiflərə aid mədəniyyət nümunələrinin tapıldığı ən qədim kurqandır, yəni elmə məlum skif kurqanlarından birincisidir. Eyniylə assur mənbələrinə görə, Alp Ər Tonqa da (Partatua da) yazılı mənbələrdə adına rast gəlinən və İşquz (skif) hökmdarı adlandırılan ilk şəxsdir. Onun varisləri İşpakay (Işbara) və Madisin də eyni bölgədə fəaliyyət göstərdikləri məlumdur. Lakin onlardan heç birinin Urmiya yaxınlığında öldürüldüyü və ya öldüyü barədə heç bir məlumat yoxdur. Belə məlumat yalnız və yalnız Alp Ər Tonqa barədədir.

Ziviyə kurqanından tapılmış əşyalar sübut edir ki, skif incəsənəti Manna incəsənəti əsasında formalaşmış (Dyson R.H., 1963, p.32-37) və skiflərin hakimiyyəti dövründə Karpat dağlarından Altaylara qədər yayılmışdır. A.Qodar da bildirir ki, skiflər mannalıların incəsənətini qəbul etmiş və sonralar Ön Asiya və Orta Rusiyada yayılmış «skif heyvani üslubu»nu yaratmışlar (Godard A., 1962) .

Ziviyə əşyaları ilə Altay və Şimali Qara dəniz kurqanlarından tapılmış əşyalarda ümumi əlamətlərdən söz açan S. Rudenko (Руденко С.И., 1961) qeyd edir ki, Ön Asiya incəsənəti ünsürləri, xüsusilə də «skif heyvani üslubu» vaxt ötdükcə, Qara dəniz skif-

lərinin Ön Asiya ilə əlaqələrinin zəifləməsilə tənəzzülə uğramış və sadələşmişdir. E. ə. V əsrdə Qara dənizyanı skiflərinin incəsənətinə yunan incəsənəti öz təsirini göstərir (Qaşqay S., 1993, s. 10).

Skif incəsənətinin Ön Asiya incəsənətinin təsiri altında yaranması fikrini M.İ.Artamonov da müdafiə edir (Артамонов М.И., 1968, s. 28-29).

Maraqlıdır ki, təkcə skiflər deyil, həm də midiyalılar Manna mədəniyyətinin və incəsənətinin varisləri kimi çıxış etmişlər. Sonralar isə bu mədəniyyət midiyalılardan fars-Əhəminilərə də keçmişdir.

Urmiya yaxınlığında aşkar edilmiş Se Girdan kurqanları (e.ə. III minillik) və eyni gölə yaxın yerdə mövcud olmuş Ziviyə kurqanı (e.ə. VII əsr) Cənubi Azərbaycanda ən azı e.ə. III minillikdən, yəni Kür-Araz mədəniyyəti dövründən etibarən ən azı dəmir dövrünədək, yəni skiflər dövrünədək kurqanda dəfn adətinin aralıqsız olaraq davam etdiyini söyləməyə əsas verir. Bu isə o deməkdir ki, əgər Qara dəniz sahilləri skifləri (skolotlar) özündən əvvəlki Çuxur və Kərtmə mədəniyyətlərinin birbaşa varisləri və davamçıları idilərsə, Azərbaycanda yaşayam skiflər (işquzlar) də bilavasitə Kür-Araz mədəniyyətinin varisləri və davamçıları olmuşlar.

Bunu həmin ərazinin qədim yaşayış məskənlərindəki davamlı oturaq mədəniyyətin izləri də təsdiq edir. Məsələ burasındadır ki, R. Daysonun rəhbərlik etdiyi arxeoloji qrupun Ziviyə kurqanının da daxil olduğu Həsənlu bölgəsində apardığı tədqiqatlar burada e. ə. VI minilliyə qədər uzanan davamlı bir mədəniyyətin mövcud olduğununu göstərmişdir. Eneolit dövrünə qədər uzanan həmin mədəniyyətin ardıcıl stratiqrafiyasını verən Həsənlu təpəsi 27,5 metr dərinliyədək qazılmışdır. Bu stratiqrafiya tarixi məlum olan abidələrlə paralel keramika qalıqlarının, həmçinin radio-karbon təhlilinin nəticələrindən istifadə vasitəsilə müəyyənləşdirilmişdir (Qaşqay S., 1993, s. 10-11).

S.Qaşqayın yazdığına görə, R.Dayson Həsənluda qazılmış materialları on dövrə ayırır. «X-VI dövr materialları Həsənlu təpəsi yaxınlığında yerləşən təpələrdə də təmsil edilmişdir. Daha çox zənginliyi və müxtəlifliyi ilə seçilən V və IV dövrlərdir. Keramika məmulatı dibinin formasına görə «Button Base Phase» adlanan V

dövr e. ə. 1200-1000-ci illərə aid edilir. Bu dövrdən başlayaraq Həsənlu təpəsi kiçik binalarla abadlaşdırılır. E. ə. 1100-800-cü illərə aid IV dövr «Grey Ware Phase» əvvəlki dövrlərdə təsadüf edilməyən xarakterik cizgili, əsasən şüyrələnmiş boz-qara keramika ilə səciyyələnir. Təpənin mərkəzindəki iri tikintilər və kvadrat qülləli qala divarları həmin dövrə aiddir. Bu dövr öz növbəsində tikinti qalıqları ilə izlənilən üç mərhələyə bölünür. Dağıntıdan və ya yanğından sonra binalar qalmış daş və ağac hissələrindən istifadə edilərək yeni memarlıq detalları və əsas plana əlavə tikililər artırmaqla bərpa olunmuşdur» (Qaşqay S., 1993, s. 11).

Həmin təbəqə sözügedən ərazinin assur və urartuluların hücumlarına və dağıntılarına məruz qaldığı dövrü əhatə edir. «Bu dövrün binalarından bir neçə yazılı əşyalar aşkar edilmişdir. Daş fraqment üzərində «Kadaşman-Enlil»in (Dyson R.N., 1977, p. 551) adı, zədələnmiş toppuz başı üzərində «Aşşuruballitin sarayı» və daş qab üzərində «Uşişi günəş allahına (həsr edilmiş) İdi ölkəsi (hökmdarının) Bauri sarayı» yazılmışdır. Sonuncu kitabənin axırının tərcüməsi şübhə doğursa (Muscarella O.W., 1971a, p. 264) da, kitabənin özü e. ə. VIII əsrdən sonra yazıla bilməzdi (Dyson R.H., 1965, p. 202). R.Daysonun fikrincə IV dövr mədəniyyətinə urartulular tərəfindən qalanın dağıdılması və onun əhali tərəfindən tərk edilməsi ilə son qoyulmuşdur (Qaşqay S., 1993, s. 11).

Skiflərin və midiyalıların tarix səhnəsinə çıxdığı «III dövr «Triangle Ware Phase» xarabalıqların toxunulmaz halda qaldığı vaxtdan bir müddət keçdikdən sonra meydana gəlmişdir. Bu dövr iki - erkən III B (e. ə. 750-600-cü illər) və son III A (e. ə. 600-400-cü illər) kəsimə bölünür. Yeni məskunlar təpədəki tikililərdən qismən onları bərpa edərək istifadə etmişlər. Onlar asma üçbucaqlar formasında həndəsi şəkilli səciyyəvi keramika (IIIB dövrü) və açıq sarı rəngli keramika (IIIA dövrü) hazırlamışlar» (Qaşqay S., 1993, s. 11-12).

Bu, skiflərin və midiyalıların Urartu və Assur hakimiyyətinə son qoyduqları dövrdür. Beləliklə, arxeoloji qazıntıların nəticələri yazılı mənbələrin verdiyi məlumatlarla tam üst-üstə düşür və onların doğruluğunu tam təsdiq edir.

Ziviyədən (Zeyvədən) tapılan və Manna dövrünə aid edilən (e.ə. lX-Vll əsrlər) bir gümüş boşqab çox böyük maraq doğurmaqdadır. Onu maraqlı edən üzərindəki yazıdır. İ.M.Dyakonov həmin yazını öz kitabına daxil etmişdir (Rəhbəri M., 26 noyabr 2001).

Bu yazı, cüzi fərqlər nəzərə alınmazsa, Orta Asiyadan tapılmış çoxsaylı epiqrafik abidələrin işarələri ilə, ilk növbədə də Yenisey işarələri ilə tam bir eyniyyət göstərir.

Boşqab üzərində əslində iki xətt növü vardır ki, bunlardan birincisi mənşəyi və mahiyyəti məlum olmayan heroqliflərlərdən ibarətdir və onların hansı məqsədlə çızıldığımı müəyyən etmək çox çətindir. Aşağıdakı xətt isə birmənalı olaraq, fonetik yazı nümunəsidir ki, onu ilk dəfə oxumağa cəhd edən şəxs əslən Güney Azərbaycandan olan tədqiqatçı M. Rəhbəri olmuşdur (Rəhbəri M., 26 noyabr 2001; Rəhbəri M., 29 noyabr 2001).

Yazının oxunuşu belə deməyə əsas verir ki, gümüş boşqab əyələrə qurbanların verilməsi üçün nəzərdə tutulmuşdur və onun üzərində bu cümlə yazılmışdır : **Ama** (aba // ana) - **şam ekiş** (eqiş // ağac) **iyezi** (əyəsi, hami ruhu, tanrıçası)**, su iyezi** (əyəsi, hami ruhu) **Nana** (Nənə) **doydu.**

## Şimali Qafqazın skif öncəsi və erkən skif dövrü kurqanlarının tarixinə dair. Madisin məzarı haradadır?

Ən qədim yazılı mənbələr skiflərdən Azərbaycan və Ön Asiya sakinləri kimi söz açsa da sonrakı dövrlərə aid mənbələrdə onlardan Şərqi Avropadan Hindistan və Çinə qədər geniş ərazidə yaşayan xalq kimi söz açılmaqdadır. Bu məlumatın doğruluğunu Karpatlardan Altaylara qədər uzanan geniş ərazinin hər tərəfində rast gəlinən saysız-hesabsız skif kurqanları da sübut etməkdədir. Onlardan ən qədiminin – Ziviya kurqanının Cənubi Azərbaycan ərazisində olması isə Herodot və Siciliyalı Diadorun sözlərini təsdiq edir.

Diador belə yazır: «İndi də (hindlilərlə) qonşu olan skiflərə keçək. Onlar əvvəllər o qədər də böyük olmayan bölgədə yaşayırdı, lakin sonralar tədricən özlərinin artan qoçaqlığı, hərbi gücü sayəsində böyük ərazilər zəbt edib öz boylarını böyük şöhrət və iqtidar sahibi etdilər. Əvvəllər onlar azsaylı idi və Araz qırağında yaşayırdılar, onda şöhrətsiz olduqları üçün onlara həqarətlə baxı-

lırdı. Lakin hələ qədim vaxtlardan strateji bacarığı ilə seçilən başçılarının rəhbərliyi altında onlar Qafqaza qədər dağlarda , okean və Meotiy (Azov) dənizi sahillərindəki düzlərdə və sair bölgələrdə özlərinə ölkə əldə etdilər... Xeyli vaxt keçəndən sonra Tanais çayından o tərəfdə Trakiyaya qədər əraziləri də özlərinə tabe edib, yürüşlərini başqa istiqamətə yönəltdilər. Nil çayına qədər özlərinin hökmranlığını yaydılar» (Ağasıoğlu F., s. 2005, s.101).

Yuxarıdakı sitatdan da göründüyü kimi, sonrakı dövrlərdə skiflərin, yəni işquzların (İç Oğuzluların) hakim olduqları ərazilər Nil çayının şərq və Qara dənizin qərb sahillərindən Hindistana qədər uzanırmış. Onların hökmlərini Asiyanın ən uzaq nöqtələrinə qədər yaydıqları barədə məlumata Pomponiy Melada (l əsr) rast gəlirik: «Asiya şərqə doğru geniş sahil boyu uzanır. Onun şərqinə qədər olan məsafə Afrikanın ən cənub nöqtəsindən Avropanın ən şimal nöqtəsinə qədər olan və üstəgəl Ağ dənizin eninə bərabər məsafə qədər böyükdür...

Burada şərqdən başlayaraq ilk insanlar, görəcəyimiz kimi, hindlilər, serlər və skiflərdir. Serlər Eoy dənizinin şərq sahillərinin tam ortasında, hindlilər və skiflər isə onların ətrafında yaşayırlar. Sonunci iki xalq cöx geniş ərazilərdə yaşayırllar və onların əraziləri təkcə Eoy dənizinin sahilləri ilə yuyulmur. Hindlilərin ərazisi oradan cənuba, istidən yaşamağın mümkün olmadığı yerlərə və Hind dənizinə qədər uzanır. Skiflərin torpaqları isə şimala Skif dənizinə qədər uzanır və soyuqdan yaşamağın mümkün olmadığı ərazilərdən başqa, Xəzər sahillərinədək əraziləri əhatə edir...

Buradan (yerin şimal sahillərindən) yol Eoy dənizinə, yəni yerin şərqinə tərəf dönür. Bu yol Skif burnundan Kolida burnuna qədərdir. Amma ora öncə dözülməz soyuqlara, sonra isə oralarda yaşayanlarıın vəhşiliyi üzündən keçilməzdir. Daha sonra skiflər: androfaqlar və saklar yaşayır. Onları vəhşi heyvanların yaşadığı ərazi ayırır və həmin ərazdə elə bu səbəbdən də yaşayış yoxdur» (Pomponil Melae.., 1871, s.176-237).

Yola Azərbaycandan çıxan skiflərin ilk öncə Tanais (Don) çayına qədər bütün Qafqazları hakimiyyəti altına aldıqları, daha sonra Tarkiyaya qədər Qara dənizin şimalında və qərbində möh-

kəmləndikləri, bundan sonra isə Hindistan və Çinə qədər bütün ərazilərin hakiminə çevrildikləri bildirilir. Bu prosesin hansı əsrləri əhatə etdiyini isə skif kurqanlarının tarixini dəqiqləşdirməklə öyrənmək mümkündür. Bu məsələ mövzumuz baxımından o qədər önəmlidir ki, onun üzərində bir qədər müfəssəl dayanmağa ehtiyac var. Nəzərə alsaq ki, skiflərin nüfuz dairəsinə daxil olan ilk ərazi Qafqaz dağlarından Don çayına qədər olan ərazi olub, ilk öncə Şimali Qafqazın erkən klassik dövr skif kurqanlarından başlamamız lazımdır.

Skif öncəsi və erkən skif dövrü abidələri içərisində ən önəmlilərindən biri 1980-ci illərdə A. Leskov tərəfindən tədqiq edilmiş Uaşxitu kurqanı hesab edilir. Qafqaz dağlarının şimal-qərbində yerləşən bu kurqanın əsas özəlliklərindən biri odur ki, o, tiploji baxımdan skif arxeoloji mədəniyyətinə deyil, özündən əvvəlki kimmerlər dövrünün son «Novoçerkassk» mədəniyyətinə aiddir, amma xronoloji baxımdan erkən skif kurqanları dövrünün abidəsidir. V.Erlix kurqandan tapılan bəzi əşyalara, o cümlədən at üzəngilərinə əsasən onu e.ə. VIII əsrin sonları – VII əsrin əvvəllərinə aid etmişdir (Эрлих, 1994). Lakin sonrakı dövrdə abidənin ağac konstruksiyasından götürülmüş nümunələrin radiokarbon analizi nəticəsində iki tarix müəyyən edilmişdir: 2510±50 BP, 2570±50 BP. Bu isə aşağıdakı tarixi intervallara uyğun gəlir: 800–750, 690–660, 640–590, 580–550 (1 σ); 810–740, 730–520 (2 σ).

Beləliklə, arxeoloji təqvim kalibrlənmiş intervalların son hissəsinə uyğun gəlir, lakin onun tam qətiyyətlə dəqiqləşdirilməsi mümkün deyil. Bu intervallardan biri – 1 σ (e.ə. 690-660) intervalı V.Erlixin təklif etdiyi dövrə çox yaxındır. Amma onun doğru olma ehtimalı digər intervallarla (e.ə. 800-750 və ya e.ə. 640-590) müqayisədə çox azdır. 2 σ -yə geniş interval (e.ə. 730-520) uyğundur və bu, həqiqətə daha yaxındır, e.ə. 810-740 intervalının haqiqət olma ehtimalı da az deyil və təqribən 30%-dir.

Şimali Qafqazın erkən skif kurqanları Kelermes məzarlığında qeydə alınmışdır. Bu məzarlıq Adıgeydə, Kuban çayı vadisində, Ayrum çayının sağ sahilindədir. O, ilk dəfə 1903-1904-cü illərdə D.Şults və N.Veselovski tərəfindən tədqiq edilmişdir.

Onların başladığı işi 1981-1995-ci illərdə Ermitajın Kelermes ekspedisiyası davam etdirmişdir (Галанина, 1997). Ekspedisiyaya L.Qalanina və A.Alekseyev başçılıq edirdi. 1989-1990-cı illərdə qazıntı işlərində bu ekspedisiya ilə yanaşı T.Kuznetsovanın başçılıq etdiyi Rusiya EA Arxeologiya İnstitutunun Qiaqin ekspedisiyası da yaxından iştirak etmişdir.

Geniş əraziyə sahib kurqan məzarlığının şimal hissəsində tunc-erkən dəmir dövrünə aid 33 kurqan qeydə alınıb. Onlardan 4 erkən skif kurqanı qazılaraq tədqiq edilmişdir. 31 №-li kurqanın N. Vesilovskinin 2 №-li kurqan kimi qeyd etdiyi abidə olduğu artıq dəqiqləşdirilmişdir. Arxeoloji material və topoqrafiyasına görə bu Kelermes qrupu kurqanlarının ən qədimidir.

Mütəxəssislər 24 №-li kurqanı Şultsun 3 və ya 4 №-li kurqanları ilə eyniləşdirirlər. Onların fikrincə, bu, qrupun ən cavan abidəsidir. 31 və 24 №-li, eləcə də digər skif kurqanlarında aşkar edilmiş arxeoloji materialı müqayisə edən arxeoloqlar 31 №-li kurqanın təqribən e.ə. 660-640-cı, 24№-li də daxil olmaqla digər kurqanların isə 640-600-cı illərə aid olduğunu ehtimal etmişlər (Алексеев 1992; 2003). Lakin bu fikirlə razılaşmayan və başqa tarix söyləyən alimlər də var. Məsələn, İ. Medvedskayanın fikrincə, Kelermes kurqanları e.ə. 700-650-ci (Медведская, 1992), T.Kuznetsova və V.Korenyakonun fikrincə isə, e.ə. VI əsrin əvvəllərinə aiddirlər (Кузнецова Т.М., 1998; Кореняко В.А., 1981; 1990; 2001).

Kelermes məzarlığından götürülmüş nümunələrin radiokarbaon tarixləri əsasən 2689-2380 BP arasında müəyyən edilmişdir ki, bu da e.ə. IX-VI əsrlər deməkdir. Məsələn məzarlığın ən qədim kurqanı olan 31№-li kurqandan (Алексеев, Кузнецова 2001; Алексеев 2003) götürülmüş 5 nümunə (ağac, sümük və s.) əsasında əldə edilmiş orta nəticə 2557±25 BP-dir. Bu nəticə e.ə. 800-760, e.ə. 680-660, e.ə. 610-600 Cal BC (1σ; terminus ante quem - e.ə. 600), e.ə. 810-750, e.ə. 690-660, e.ə. 640-540 Cal BC (2σ) təqvimi tarixlərə uyğun gəlir. Bu halda kombinə edilmiş təqvim tapılmış arxeoloji materiallar içində daha çox yaşa malik olan heyvan sümükləri əsasında hesablanıb və ortada gözəgəlimli

fərq çıxmayıb. Bu isə e.ə. 810-750 və e.ə. 700-540 Cal BC tarixlərinin üzərində durmağın daha doğru olacağını göstərir.

Məzarlıqdakı dəfn abidələri içərisində ən cavanı olan (Галанина, Алексеев 1990; Алексеев 2003, с 107) 24 №-li kurqan üçün kombinə edilmiş tarix 2400±41 BP-dir ki, bu da çox geniş intervala sahib olan e.ə. 760−680, e.ə. 670−630, e.ə. 600−570, e.ə. 560−390 Cal BC (2σ) təqvimi tarixlərinə uyğun gəlir. Bu nəticələr bu və ya digər abidənin dəqiq yaşını müəyyən etməyə imkan vermir. Onların əsasında sadəcə bunu demək mükündür ki, 31 №-li kurqan 24 №-li kurqandan daha qədimdir (Алексеев А.Ю. и др., 2005, с. 148).

Şimali Qafqazdakı erkən skif dövrü kurqanlarının qeydə alındığı məzarlıqlardan biri də Novozavedennoye-2 məzarlığıdır. Bu abidələr kompleksi Şimali Qafqazın mərkəzi hissəsində, Kuma çayının orta axarının sol sahilində yerləşir.

Məzarlıq 1985-ci ildə Rusiya EA Tarix İnstitutunun Krasnoznamennaya əkspedisiyası tərəfindən tədqiq edilmişdir. Ekspedisiyaya V. Petrenki başçılıq edirdi. Aparılan tədqiqatla nəticəsində burada 22 kurqan örtüyü müəyyən edilmişdir (Медникова, 2000, şək. 1). V. Petrnko və V. Maslovun yazdığına görə, məzarlıqda əvvəlcə hündürlükləri 2.5-8 m olan 16 və örtükləri əkin-biçin işləri zamanı bütünlüklə dağıdılmış daha 2 kurqan müəyyən edilmişdi (Маслов, Петренко 1998).

Məzarlıqdakı dəfn abidələrindən mərkəzi hissədə yerləşən 7, 12, 13, 14 və 16 №-li kurqanların strukturu, dəfn adətləri və materialı (Маслов, Петренко 1998; Петренко, Маслов, Канторович 2000; Петренко, Маслов, Канторович 2004), eləcə də 2 və 5№-li kurqanlardan tapılmış ox ucluqları (Петренко, 1990, şək. 1−3 Л, 2−3 Л) daha ətraflı təsvir edilmişdir. Eyni zamanda 17 №-li kurqan barədə də qısa qeydlər dərc edilmişdir (Петренко, Маслов, Канторович 2004).

Sözügedən kurqanların hərtərəfli analizindən (Петренко, Маслов, Канторович 2000) belə aydın olur ki, onlar tarix baxımından bir-birilərinə çox yaxındırlar və e.ə. VII əsrin son onilliklərinə və VI əsrin əvvəllərinə aiddirlər. 16 №-li kurqanın tarixi isə

oradan tapılan və e.ə. VII əsrin sonları-VI əsrin əvvəllərinə aid olan Şimali İoniya mənşəli qabın fraqmentləri sayəsində çox düzgün müəyyən edilmiş və kurqan e.ə. VI əsrin əvvəllərinə aid edilmişdir.

13 və 14 №-li kurqanlar, ola bilsin ki, bir qədər daha qədimdir və e.ə. VII əsrin sonlarına aid edilə bilər. Maraqlıdır ki, kurqanlar bir xətt üzərində düzülüblər. A.Alekseyevin və digər həmmüəlliflərin yazdığına görə, əgər bu topoqrafik xüsusiyyət kurqanların ucaldılma zamanlarına uyğundursa, o zaman həmin kurqanların bu ardıcıllıqla qurulduğunu ehtimal etmək olar: № 14, № 12, № 13, № 16 (Алексеев А.Ю. и др., 2005, с. 149). Bu sxemə e.ə. VI əsrin əvvəllərinə aid edilən (Петренко, Маслов, Канторович 2004) 17 №-li kurqan da tam uyğun gəlir. 2 və 5 №-li kurqanlara gəlincə, onlar məzarlığın müqabil olaraq, cənub və şimal hissələrində yerləşir.

Kelermes kurqanlarında olduğu kimi Novozavedennoye-2 məzarlığındakı kurqanların da radiokarbon analizi çox geniş Cal BC tarixi interval ortaya qoymuşdur ki, bu da ±200 və ±140 il qədər səhv deməkdir. Bununla belə hər iki məzarlığın kurqanlarının müqayisəsi ilkin nəticələrə gəlməyə imkan verir. Şimali Qafqazın erkən kurqanları e.ə. VII əsrin sonları - VI əsrin əvvəllərinə aiddirlər və Ziviyə kurqanından daha cavandırlar. Bu nəticə Diadorun məlumatını tam təsdiq edir.

Kelermes kurqanlarından tapılan maddi mədəniyyət nümunələri skif incəsənətinin, eləcə də skiflərin özlərinin Ön Asiya ilə bağlı olduğunu birmənalı şəkildə sübut edir.

Bu baxımdan hökmdar taxtının qızıldan çox ustalıqla düzəldilmiş qoşa aslan başlı dekorativ elementi diqqət çəkir. Bu tip elementlər Ön Asiya, o cümlədən Assur, Babil, Manna və Midiya hökmdarlarının taxtları üçün xarakterik olub.

Şübhəsiz ki, taxt kimi mebellərlə köçəri həyat tərzi üst-üstə düşən məsələlər deyil və bu fakt skiflərin köçəriliyi barədə söylənilənlərin həddən artıq şişirtmə olduğunu sübut edir.

Skiflərin güclü dövlətçilik ənənələrinə sahib olduğunu sübut edən əsas elementlərdən biri də Kelermes kurqanlarının birindən tapılan skipeterdir. Onun sadəcə qızılla işlənmiş qızıl ucluğu qorunub saxlanmışdır.

Şübhəsiz ki, ən maraqlı tapıntılardan biri qızıl tacdır. Onun alın hissəsində qrifonun təsvir edilməsi, eyni mifoloji varlığın Böyük Tatarıstanın (Turanın) dövlət bayrağında da təsvir edilməsi qrifonun ən axı e.ə. VII-VI əsrlərdən b.e. XVIII əsrinə qədər Turanın ali hakimiyyət rəmzi olmasından xəbər verir

Bütün bu əşyaların Alp Ər Tonqadan sonra onun taxtına sahib olmuş oğlu, ikinci böyük işquz (İç oğuz, skif) xaqnı, Herodotun Madis adlandırdığı (Batı ?) hökmdara aid olma ehtimalı çox böyükdür. Fikrimizcə, Madisin qəbrini Kelermesdə axtarmaq lazımdır və o, çox güman ki, 2 №-li kurqanda dəfn edilmişdir.

Qeyd edək ki, çoxu hələ qədim zamanlarda qarət edilən Kelermes kurqanlarının qəbir kameraları düzbucaqlı formada idi və çadır formasında qurulmuş ağac konstruksiya ilə örtülmüşdü. Kelermesdə arabalarda dəfn adətinin və at dəfnin izlərinə də rast gəlinmişdir. Burada 24 atın basdırıldığı məlumdur.

## Şimali Qara dəniz bölgəsinin skif öncəsi və klassik skif dövrü kurqanları. Turan xaqanlarının məzarları

Siciliyalı Diadorun sözlərinə görə, skiflər öncə «Qafqaza qədər dağlarda , okean və Meotiy (Azov) dənizi sahillərindəki düzlərə», yalnız bundan bir müddət sonra «Tanais çayından o tərəfdə Trakiyaya qədər ərazilərə», yəni Qara dənizin şimal və qərb sahillərinə (Ağasıoğlu F., s. 2005, s.101) sahib olmuşdular. Onun bu sözlərinin həqiqəti əks etdirdiyini Şimali Qara dəniz sahillərində aşkar edilərək tədqiq edilmiş çox sayda skif kurqanı və onların yaşı sübut etməkdədir. Lakin skiflər bu ərazilərdə məskunlaşan ilk türk xalqı deyildilər və həmin ərazilər ən azı eneolit dövründən etibarən türklərlə, yəni ölülərini kurqanda basdıran «kurqan etnosu» ilə məskun idi.

Hazırki məqamda bizi Şimali Qara dəniz bölgəsinin bütün kurqanları deyil, yalnız skif öncəsi və klassik skif dövrü kurqanları və onların tarixi maraqlandırır.

Ərazinin ən maraqlı skif öncəsi kurqanlarından biri yerli türk-tatar əhalinin «**Uzun-Oba**», rusların isə «**Vısokaya Moqila**» adlandırdıqları dəfn abidəsidir. Bu abidə elmi ədəbiyyata məhz

rusların adlandırdıqları şəklidə, yəni «Vısokaya Moqila» adı altında düşmüşdür. Biz isə ondan həqiqi adı ilə bəhs edəcəyik.

Uzun-Oba kurqanı Aşağı Dnepin sol sahilində, Ukraynanın Zaparojye vilayətinin Balki kəndi ərazisində yerləşirdi. 1971-ci ildə E.Yakovenko və V.Bidziley tərəfindən qazılan kurqanda iki məzar aşkar edilmişdir. Bunalardan birincisi kimmerlərə aid edilən son Çernoqorovsk, ikincisi isə yenə kimmerlərə aid edilən Novoçerkassk mədəniyyətlərinə aid edilir (Тереножкин, 1976, c. 28-34).

Sözügedən kurqanın yaşı barədə arxeoloqlar arasında vahid fikir yoxdur. Məsələn, A.Terenojkin hələ 41 il öncə kurqandakı qəbirləri e.ə. VIII əsrin ortalarına aid olduğunu yazmışdır. S. Skorıy isə bir çox digər arxeoloqlar kimi kurqandakı 2 №-li qəbrin tarixini e.ə. VIII əsrin sonları-VII əsrin əvvəllərinə çəkmişdir (Скорый, 1999, c. 62). B. Erlixin fikrincə isə, kurqan e.ə. IX əsrin sonu-VIII əsrin əvvəllərinə aiddir. Arxroloqların çoxu e.ə. VIII əsrin əvvəllərini daha inandərəcə tarix kimi qəbul edirlər (Эрлих, 2005).

Radiokarbon analizlərinin nəticələrinə görə, 1 №-li qəbrin tarixi 2765±50 BP kimi müəyyən edilmişdir ki, bu isə onu e.ə. 980-950, 940-830 (1σ); e.ə. 1020-800-ci illər (2σ) kimi geniş intervala sahib taqrixə aid etməyə imkan verir. 2 №-li qəbir üçün isə bu göstərici 2740±50 BP kimi müəyyən edilmişdir. Bu da müqabil olaraq, e.ə. 920-820 (1σ) və e.ə. 1000-800-ci illərə (2σ) uyğun gəlir. Bu nəticələri təhlil edən A. Alekseyev Uzun-Oba kurqanının hər iki qəbrinin yaşının e.ə. VIII əsrdən cavan olmadığını bildirməkdədir (Алексеев А. Ю., 2005, c. 126).

Bölgənin skif dövrünə aid edilən və yaşının müəyyən edilməsi üçün radiokarbon analizləri keçirilmiş olan kurqanı **Steblev məzarlığı**nda (Dneprin sağ meşə-çöl sahili) aşkar edilmiş 15 №-li kurqandır. 1983-cü ildə məzarlıqda qazıntılar aparmış V. Kloçko burada 11 skif məzarını tədqiq etmişdir, bunlardan birini birinci xronoloji, digərlərini isə üçüncü xronoloji dövrlərə aid etmişdir. Onun təsbitinə görə, 15 №-li kurqan Şərqi Avropanın ən qədim skif dairəsi kurqanlarından biridir. Tədqiqatçıların bir qismi onu erkən skif dövrü kimi xarakterizə edilən e.ə. VIII əsrə aid edirlər (Клочко, Скорий, 1993). Bu fikirlə A. İvançik də ra-

zıdır. O da e.ə. VIII əsrin erkən skif dövrü olduğunu hesab edir (Иванчик, 2001, с. 117, 118).

Bu fikirdə olan alimlər skiflərin bu bölgəyə Orta Asiya-Qazaxıstan bölgəsindən gəldiklərini hesab edirlər. Amma onların bu fikri ilə heç də bütün skifşünaslar razı deyil. Məsələn, B. Erlix dəmir zirehlərin Şimali Qara dəniz sahillərində ilk dəfə peyda olması tarixi kimi e.ə. VIII əsri götürməyin mümkün olmasını inkar etməsə də, dəmir üzəngiləri həmin dövrə aid etməyin doğru olmayacağını bildirir (Эрлих, 1994; Алексеев, 2003, с. 59-60). İ. Bruyakonun fikrincə isə, sözügedən kurqan e.ə. VII əsrin ikinci yarısından daha qədim ola bilməz.

Mübahisələrə radiokarbon analizlərinin nəticələri də bir çözüm gətirə bilməmişdir. Əldə edilən 2660±50 BP (920–760 Cal BC) nəticəsi e.ə. IX əsrdən VI əsrin əvvəllərinə qədər uzanan geniş zaman intervalını əhatə edir.

Alekseyev kombinə edilmiş 2577±25 BP tarixini orta tarix kimi götürərək, 15 №-li kurqanın yaşının e.ə. 690-660-cı illərdən daha qədim olma ehtimalının çox az olduğunu bildirir (Алексеев А.Ю., 2005, с. 127). Biz isə yazılı mənbələrdən çıxış edərək sözügedən kurqanın ən yaxşı halda Şimali Qafqazın erkən skif kurqanları ilə yaşıd ola biləcəyi fikrindəyik. Rusiayalı alimlərin hər vəchlə skiflərin ilkin ata yurdunun Ön Asiya və Cənubi Qafqaz (Araz çayı sahilləri) deyil, Şərqi Avropa ərazisi olduğunu «sübut» etmək üçün bölgənin abidələrini süni surətdə qədimləşdirmək cəhdi isə, fikrimizcə, elmə yox, geosiyasi və siyasi maraqlara xidmət edir. Həqiqət isə budur ki, Şimali Qara dəniz bölgəsinin skif kurqanlarının yaşı Şimali Qafqazdakı skif kurqanlarının yaşından daha cavandır və onların demək olar ki, hamısı skif kurqanları üçün müəyyən edilmiş üçüncü xronoloji dövrə, yəni e.ə. V-IV əsrlərə aiddir. Eyni sözlər Steblev məzarlığındakı digər 10 skif kurqanı üçün də keçərlidir.

Steblev məzarlığındakı kurqanların üçüncü xronoloji dövrə, başqa sözlə, klassik skif dövrünə aid olduğu arxeoloqlar arsında heç bir şübhə oyatmır və onların, demək olar ki, hamısı S. Skorının göstərdiyi e.ə. V-IV əsrlər tarixi ilə razıdırlar. Qeyd edək ki,

S.Skorı bu kurqanlardan çıxan sırf skif və yunan mənşəli inventara əsasən onların tarixini e.ə. 500-350-ci illər kimi müəyyən etmişdir (Скорый, 1997).

Alimin gəldiyi bu nəticəni radiokarbon analizlərinin nəticələri də qismən təsdiq etməkdədir. Belə ki, həmin nəticələrə əsasən Steblev məzarlığındakı ən cavan kurqanların yaşı e.ə. 400-390-cı illərə təsadüf edir. Belə ki, 1 №-li Steblev kurqanının yaşı e.ə. 410-400-cü illər, 2 №-li Steblev kurqanının yaşı isə e.ə. 400-390-cı illər kimi təsbit qəbul edilə bilər (Алексеев А.Ю., 2005, c. 191).

S.Skorıy tərəfindən müəyyən edilmiş xronoloji cədvələ əsasən, 3 №-li Steblev kurqanı sözügedən 10 kurqanın ən erkəni hesab edilir və e.ə V əsrin birinci yarısına aid edilir. A.Alekseyev də həmin kurqandan tapılan arxeoloji material əsasında onun e.ə. 480-475-ci illərdən daha əvvələ aid olmadığını yazmışdır (Алексеев, 2003).

C.Monaxov kurqandan əldə edilmiş amforanın təhlili əsasında kurqanın e.ə. 440-cı ilə aid olduğu fikrini irəli sürmüşdür (Монахов, 1999, c. 120-121). Sümük və ağac qalıqlarının radiokarbon analizinin kombinə edilmiş nəticəsi e.ə. V əsr tarixini inkar etməsə də, əldə edilən zaman intervalının e.ə. IV əsrin ortaların qədər uzandığını da qeyd etmək lazımdır (Алексеев А.Ю., 2005, c. 192).

7 №-li kurqan S. Skorıy tərəfindən e.ə. V əsrin II yarısına aid edilməkdədir. Radiokarban analizlərinin nəticələri isə bu tarixi e.ə. V əsrin I yarısna çəkməyə imkan verir.

11 №-li kurqan e.ə. V əsrin sonu – IV əsrin I yarısına aid edilir. Analizlər terminus post quem «əminliyi» ilə bu tarixi e.ə. 400-cü il kimi göstərir.

12 №-li kurqan yazı müəllifi tərəfindən e.ə. V əsrin II yarısı ilə tarixləndirilmişdir (Скорый, 1997). Belə düşünmək üçün alimə tunc ox ucluları və biri «Samom dairəsi»nə daxil olan iki yunan amforası əsas vermişdir. S. Monaxov həmin amforaların tarixinin daha erkən olduğunu və e.ə. 480-470-ci illərə aid olduğunu bildirir (Монахов 1999, s. 99-101).

Kurqandan götürülən və radiokarbon analizinə cəlb edilən yeganə nümunədən isə gözlənilmədən fərqli nəticə alınmışdır. Məlum olmuşdur ki, abidənin yaşı e.ə. 390-cı ildən daha qədim deyil.

Maraqlıdır ki, S. Skorıy əsasən e.ə. IV əsrə aid olan ox ucluqları üzərində durmuşdur, hərçənd ki, eyni ox ucluqlarına, nadir hallarda da olsa, V əsr abidələrində də rast gəlinmişdir. Beləliklə, ortada iki bir-birini inkar edən tarix var, onlar arasındakı məsafə isə təqribən 50 ildir. Fikrimizcə, onlardan ikincisinə üstünlük vermək lazımdır.

Beləliklə, Stebelev kurqanları, bir kurqan istisna edilməklə, skiflərin həmin ərazidə e.ə. V əsrdən tez peyda olmadıqlarını göstərir.

Aşağı Dneprin sol sahilində yerləşən **Kiçik Tsimbalka** (Malaya Tsimbalka) kurqanı 1868-ci ildə İ. Zabelin tərəfindən tədqiq edilmişdir. Burada müxtəlif dövrlərə uyğun gələn bir neçə qəbrə rast gəlinmişdir ki, onlardan biri skif öncəsi, başqa biri isə klassik skif dövrünə (e.ə. V əsr) uyğun gəlir. İkinci qəbirdə dəmir nizə və tunc ox ucluqlarına, taxta qabın üzərini bəzəyən qızıl bəzək elementlərinə, dəmir və tunc at nəsnələrinə, tunc qazana, «taxta çələyə», qızıl qrivnaya rast gəlinmişdir (Алексеев А., 1995).

Aşkar edilmiş bu əşyaların, ilk növbədə də at üzəngilərinin və tunc ox ucluqlarının xüsusiyyətlərinə görə bu qəbir xronoloji baxımdan 4 №-li **Yeddi qardaş (Semibratnıye) kurqanı** (e.ə. V əsr) ilə Solox kurqanı (e.ə. V-IV əsrlər) arasında yer alır.

Kurqandan radiokarbon analizi üçün götürülmüş təyinatı naməlum ağac parçasının anlizi nəticəsində qəbrin e.ə. 400-390-cı illərə aid olduğu müəyyən edilmişdir (Алексеев А.Ю., 2005, с. 195).

1890-cı ildə N. Veselovski tərəfindən Mərkəzi Krımda, Simferopol yaxınlığında tədqiq edilmiş **Altun kurqan** (kurqan Zolotoy) dəmir zirehdə dəfn edilmiş döyüşçüyə aid idi. Döyüşçünün belində qızıl qrivenli yığma kəmər vardı. Kəmərə qını qızılla bəzədilmiş qılınc bərkidilmişdi. A.Alekseyev kurqanı e.ə. 475-ci ilə (Алексеев А.Ю., 2003, с. 296), Artomonov isə e.ə. V əsrin II rübünə aid etmişlər (Артомонов, 1966, с. 30). Radiokarbon analizlərinin nəticəsi çox geniş bir zaman intervalı göstərdiyi üçün dəqiq fikir söyləmək mümkün olmayəb. Odur ki, kombinə edilmiş tarix kimi e.ə. 480-ci ilin üzərində durmaq qərarına gəlinib.

Aşağı Dneprin sol sahilində yerləşən **Solox kurqanı** skiflərə aid ən möhtəşəm kurqanlardan biridir. Bu abidə 1912-1913-

cü illərdə N. Veselovski tərəfindən qismən öyrənilmiş, kurqan örtüyünün altında növbəli dəfndən xəbər verən iki qəbrə rast gəlinmişdir. Mərkəzi (ilk) qəbir, çox güman ki, qədim zamanlarda qarət edilmişdir. Əldə edilmiş materiallar içərisində dəqiq tarixi müəyyənləşdirməyə yardımçı ola biləcək material çox azdır. Müəyyən fikrə gəlmək üçün sadəcə qızıl suyuna çəkilmiş kilikə, üzəngi detallarına və əl formalı tunc lövhəciklərə istinad etmək lazım gəlmişdir. Arxeoloqlar bu kimi əşyalara e.ə. V əsrin II yarısına aid abidələrdə rast gəlmişlər. Bununla belə, daha çox analogiya təşkil edə biləcək əşyalar e.ə. 400-380-ci illərə aid materiallar içərisindən tapılmışdır. Odur ki, mütəxəssislər daha çox bu tarix üzərində dururlar (Монахов 1999, с. 243).

Maraqlıdır ki, bu tarix radiokarbon analizlərinin nəticələri ilə də təsdiq edilir. Belə ki, analizlər mərkəzi məzar üçüm kombinə edilmiş 2333±28 BP tarixini ortaya qoymuşdur ki, bu da e.ə. 404-385-ci illərə uyğun gəlir. Yan qəbir üçün isə bu göstəricilər müqabil olaraq 2325±18 BP və e.ə. 400-389-cu illərdir (Алексеев А. Ю., 2003, с. 198).

Xronoloji baxımdan Solox kurqanına ən yaxın kurqan Şimali Azov sahillərində yerləşən **Berdyansk kurqanı**dır. E.ə. IV əsrə aid edilən bu dəfn abidəsi 1970-ci illərin sonunda tədqiq edilmişdir (Фиалко 1987, с. 75-77; Чередниченко, Фиалко, 1988; Болтрик, Фиалко, Чередниченко, 1994, 140 сл.; Мурзін, Фіалко, 1998; Монахов 1999, с. 284-289; Полін, Ковальов, Чередніченко, 2000).

Kurqada eyni dövrə aid üç məzar aşkar edilib. Onlardan birindən tapılan əşyalar Solox kurqanının materialları ilə ya birbaşa analogiya təşkil edir, ya da onlarla çox bənzərdir (Алексеев 1992, с.148; Болтрик, Фиалко, Чередниченко, 1994, с.154-155).

Buradan analizlər üçün əldə edilmiş yeganə ağac parçasının radiokarbon üsulu ilə analizi e.ə. 350-ci ilə (1 σ) işarə etməkdədir.

Mərkəzi Krımda yerləşən və 1891-ci ildə N. Veselovski tərəfindən tədqiq edilən **Talayevsk kurqanı** silahları ilə birlikdə dəfn edilmiş skif döyüşçüsünə aid idi. Kurqanda aşkar edilmiş qızıl və gümüş bəzəkli silahları, su buynuzunu və müxtəlif qab-

ları təhlil edən A. Manseviç abidəni e.ə. IV əsrin II rübünə aid etmişdir (Манцевич 1957, с. 167). S. Monaxova görə isə, kurqan e.ə. 360-cı illərə aiddir (Монахов 1999, с. 401).

Radiokarbon analizinin nəticələri geniş interval göstərdiyi üçün alimlər Manseviçin verdiyi tarix üzərində durmağı daha doğru hesab edirlər.

N.Vesilovskinin Şimali Qara dəniz bölgəsində qazıdığı kurqanlardan biri də **Dörd-Oba (Pastaka) kurqanı**dır. 1892-ci ildə tədqiq edilmiş bu dəfn abidəsi də Mərkəzi Krımda, Simferopol yaxınlığında olub. Kurqanda kişi döyüşçü dəfn edilmişdir. Buradan da çox sayda qızıl əşya tapılmışdır (Мартынов, 1991, с. 33-36).

Dörd-Oba kurqanı arxeoloqlar tərəfindən e.ə. 390-cı illərin sonu-380-ci illərin əvvəllərinə aid edilmişdir (Монахов 1999, с. 209-210). Radiokarbon analizinin nəticələri isə kurqanın tarixini e.ə. 350-ci il kimi göstərməkdədir.

Mövzumuz baxımında maraq çəkən dəfn abidələrindən bir də **1 №-li Mastyuqino kurqanı**dır. Orta Donda, Voronejdən cənubda aşkar edilmiş bu kurqan 1905-ci ildə yerli kəndlilər tərəfindən qarət edilmişdir. Kurqanda qazıntı aparan A. Spitsın kurqan örtüyünün altında iki qəbirdən ibarət taxta konstruksiyalı qəbir kamerası və qızıldan bir neçə bəzək əşyası, şüşə muncuqlar, eləcə də tunc və dəmir ox ucluqları aşkar etmişdir (Манцевич, 1973). Həmin əşyaları təhlil edən A. Mantseviç kurqanı e.ə. IV əsrin I yarısına aid etmişdir (Манцевич 1973, с. 12–16).

Kurqandan əldə edilmiş ağac və parça nümunələri əsasında aparılan radiokarbon analizi 2440±35 BP (GrA-27900) tarixini ortaya qoymuşdur ki, bu da çox böyük intervallı zaman kəsiyinə uyğun gəlir (e.ə. 770-400 cü illər) ki, bu da qəti söz deməyə imkan vermir. Odur ki, alimlər e.ə. IV əsrin I yarısını daha optimal tarix hesab edirlər.

Klassik skif dövrünə aid edilən kurqan abidələrindən biri də örtüyünün altında iki məzara rast gəlinmiş **Tolstaya Moqila kurqanı**dır (Мозолевський, 1979). Bu abidənin mərkəzi kamerasında xaqan, yan qəbrində isə xaqanın xanımı və oğlu, eləcə də onların qulluqçuları dəfn edilmişdilərr. Xaqanın qəbrindən, qə-

dimdə qarət edilməsinə rəğmən, qızıl sinəbənd və üç qulplu amfora, eləcə də toxunulmamış qalan uşaq və qadının qəbrindən şüşə fiala əldə edilmişdir. Bu əşyaların analoqlarına L. Qalanina-nın e.ə. 325-300-cü illərə aid etdiyi **Kurcip kurqanı**nda və e.ə. IV əsrin sonlarına aid edilən 4 №-li Böyük Bliznitsa sərdabəsində də rast gəlinmişdir. Qəbir kamerasının memarlıq xüsusiyyətləri və at nəsnələri isə Böyük Tsimbalka kurqanındakılara yaxın idi. Geyim əşyalarına tikmə aplikasiya kimi nəzərdə tutulmuş qızıl lövhələrdən bəzisi – üzərində uzanmış dana, maralı parçalayan aslan və iki lotos təsvirləri olan qızıl lövhələr Solox kurqanının yan qəbrindən tapılmış analoji əşyalara çox yaxındır.

Bütün bu analogiyalar Tolstaya Moqila kurqanını e.ə. 350-320-ci illərə aid etməyə imkan verir. Maraqlıdır ki, radiokarbon analizləri də eyni tarixi göstərməkdədir (Алексеев А. Ю., 2005, с. 204).

Əldə olan radixronometrik məlumatlara görə, Tolstaya Moqila kurqanı Solox və Berdyansk kurqanlarından sonra, Çertomluk kurqanından daha əvvəl ucaldılmışdır.

**Çertomluk kurqanı** Oğuz kurqanı ilə birlikdə ən monumental skif məzarlarından biri hesab edilir. Bu abidə Aşağı Dneprin sağ sahilində yerləşir. Onun tədqiqi ilə 1862-1863-cü illərdə İ. Zabelin, 1970-1980-ci illərdə isə B. Mozolevskiy, V. Murzin və R. Rollenin başçılıq etdikləri Ukrayna-Almaniya birgə arxeoloji ekspedisiyası məşğul olmuşdur (Алексеев, Мурзин, Ролле 1991).

Hündürlüyü 21 m olan kurqan örtüyünün altında mərkəzdə və şimal tərəfdə olmaqla, iki qəbir kamerasına rast gəlinmişdir.

İ.Zabelnıy kurqan örtüyünün altında, tam mərkəzdə mürəkkəb yeraltı dəfn tikilisi aşkar etmişdir. Burada 11 m dərinliyində quyu və ondan dörd tərəfə ayrılan dörd kamera üzə çıxmışdı. Bunlardan birində xaqanın ya arvadı, ya da kənizi olduğu ehtimal edilən çox zəngin bir qadın öz qulluqçusu ilə birlikdə dəfn edilmişdi. Kameradan gümüşdən kult xarakterli qab-qacaq, o cümlədən çömçəsi və boşqabı olan gümüş amfora və yunan mənşəli olduğu hesab edilən saxsı amforalar tapılmışdır. Qonşu kameralardan birində bər-bəzəkli və müxtəlif silahlı iki döyüşçü dəfn edilmiş, digərində isə divardan dəbdəbəli baş geyimləri

asılmış və yunan amforaları, tunc qazan və müxtəlif qablar düzülmüşdü. Dördüncü kamera isə xaqana məxsus idi və təəssüf ki, o hələ qədim zamanlarda qarət edilmişdi. Qaətçilər kameraya uzun bir lağım atmaqla girə bilmişdilər.

Bununla belə, bu kamerada da bəzi qızıl əşyalar qalmışdı. Bunlar əsasən xəncər və qılınclardan ibarət idi.

Mərkəzi qəbrin yanında atlar üçün daha üç kamera inşa edilmişdi. Onların ümumi sayı 11 idi. Kameraların ikisində 4, birində isə 3 at dəfn edilmişdi. Onların bütün nəsnələri qızıl və gümüşdən idi.

Kurqanın perefiriyasında yerləşən şimal kamerası da talan edilmişdi. Oradan sadəcə naxışlı tunc qazan, iki gümüş qab, saxsı amfora və tunc ox ucluqları qalmışdı (Алексеев А. Ю., 2005, c. 205).

Bu kurqanın tarixləndirilməsi e.ə. IV əsrə aid skif abidələrinin xronologiyasının düzgün təyin edilməsi baxımından çox böyük önəm daşıyır. Qeyd edək ki, Çertomluk kurqanının yaşının müəyyənləşdirilməsinin meyarı kimi Attika istehsalı olan qara qablar (e.ə. 350-320-ci illər), amforalar və üzərində Ksanfın (ən son əsərləri e.ə. 315-310), Boriyanın (e.ə. 350-325) və başqa məşhur ustaların damğaları olan saxsı qablar çıxış edir (Монахов 2003, s. 94, qeyd. 46).

Y.Boltrik və Y.Fialko kurqanın əsas qəbrinin e.ə. 329-cu ilə və skif (Turan) xaqanı Ateyə, A.Alekseyev isə e.ə. 329-328-ci illərə və haqqında Arrianın bəhs etdiyi adı məlum olmayan skif (Turan) xaqanına aid olduğunu ehtimal etmişlər (Алексеев 2003).

Kurqanın hər iki kamerasından, eləcə də örtüyündən götürülmüş üzvi materialların radikarbon analizləri bir-birinə çox yaxın vaxtlar göstərir: 2217±20 BP, 2217±42 BP, 2228±26 BP (Алексеев А. Ю., 2005, c. 206).

Çox təəssüflər olsun ki, radikarbon analizlərinin hazırki səviyyəsi arxeoloji abidələrin yaşını tam dəqiqliklə müəyyən etməyə imkan vermir. Bu səbəbdən adları Herodotun «Tarix»indən məlum olan və bir qisminin nə zaman yaşadıqları tarixçilər tərfindən dəqiqləşdirilmiş olan ilk skif (Turan) xaqanlarının məhz hansı kurqanlarda basdırıldığını 100 faizlik dəqiqliklə müəyyən etmək

olmur. Hərçənd ki, xaqan kurqanlarının çoxu dövrümüədək gəlib çatmışdır. Onların əsas özəlliklərindən biri xaqanların sarkofaqlarda basdırılmasıdır. Məhz bu özəllik bizə Alp Ər Tonqanın məhz Ziviyə kurqanında dəfn edildiyini əminliklə söyləməyə əsas verir.

Alp Ər Tonqanın oğlu Madisin də Kelermes kurqanlarından birində (ehtimal ki, 2 №-li kurqanda) yatdığı şübhə oyatmır.

Heradotun və digər antik müəlliflərin əsərlərindən adlarını və təqribi hakimiyyət illərini bildiyimiz skif (Turan) xaqanları bunlardır:

1. Adı assur mənbələrində Partatua, Herodotda isə Prototiy kimi çəkilən Alp Ət Tonqa – e.ə. 624-cü ildə öldürülmüşdür.

2. Madis və ya Madiy – Alp Ər Tonqadan sonra hakimiyyətdə olub. Midiya şahı Kiaksarın Alp Ər Tonqanı öldürməsindən və skiflərin (işquzların) Asiya üzərində 28 illik hakimiyyətinə son qoyulmasından sonra, çox güman ki, Qafqaz dağlarından şimala çəkilməli olmuşdu.

3. Savli (Çavlı). Anaxarsisin qardaşı olduğu və e.ə. 589-cu ildə hakimiyyətdə olduğu məlumdur. Fikrimizcə, onun da məzarını Kelermes kurqanları içərisində axtarmaq lazımdır.

4. İdantirs – e.ə. 516-cı ildə Daraya qarşı savaşmışdır. Onun da kurqanı Kelermesdə olmalıdır.

5. Atey. Bu xaqana gəldikdə onun e.ə. 330-larda hökm sürdüyü və e.ə. 329-cu ildə öldüyü hesab edilir. Onun dəfn edildiyi kurqan ya Y.Boltrik və Y.Fialkonun ehtimal etdikləri kimi, Çertomluk kurqanı, ya da xronoloji cəhətdən ondan bir qədər daha qədimə aid edilən Tolstaya Moqila kurqanı ola bilər. Bunu dəqiq müəyyən etmək mümkün olsa, ondan öncəki xaqanların da, yəni İdantirslə onun arasındakı dövrdə hökm sürmüş xaqanların da basdırıldıqları kurqanların hansılar olduğunu müəyyən etmək çətin olmaz.

E.ə. IV əsrin II yarısında Turanın (skiflər ölkəsinin) Avropa hissəsində yüksək mənsəb sahibi olan türklərə (skiflərə) məxsus onlarla kurqan ucaldılmışdır. Onlardan çıxu elmi ədəbiyyata «Xaqan kurqanları» (Çar kurqanları) adı altında daxil olmuşdur. Şübhəsiz ki, bunlardan bir qismi yerli xanlara məxsus da ola bilər. Təəssüf ki, radiokarbon üsulu ilə belə onların dəqiq tarixləri-

ni müəyyənləşdirmək mümkün olmayıb. Əldə olan məlumatlar bu məsələ və ümumiyyətlə e.ə. IV-II əsrlərə aid kurqanların dəqiq xronologiyası barədə birmənalı söz deməyə yetəcək səviyyədə deyil. Bununla belə, təqribi hesablamalar həqiqətdən çox da uzaq görünmür. Bu baxımdan Aşağı Dneprdə B. Mozolevski tərəfindən 1974-1975-ci illərdə tədqiq edilmiş üç kurqanı misal çəkmək olar. Onlardan birinin – **Sarı-Taş (Jeltokamenka) kurqanı**nın (Мозолевский, 1982) yaşı Fassos amforalarına əsasən e.ə. 340-320-ci illər kimi təsbit edilmişdir (Алексеев, 1987, c. 37; 1987a). S. Monaxov onun yaşını e.ə. 330-cu il kimi yazmışdır (Монахов, 1999, c. 405). Əldə olan radiokarbon analizlərinin nəticələri isə e.ə. 360-cı illərə işarə edir.

Sarı-Taş (Jeltokamenka) kurqanına xronoloji baxımdan yaxın olan digər kurqan **Oğuz kurqanı**dır. Xaqan kurqanları kateqoriyasına daxil olan bu abidənin tədqiqinə hələ 1890-cı illərdə N.Veselovski başlamış,1970-1980-cı illərdə onun başladığı işi A. Leskov və Y. Boltrik davam etdirmişlər. Hündürlüyü 21 m olan kurqan örtüyünün götürülməsindən sonra daş sərdabə formalı qəbir kamerası və bir neçə yan qəbir aşkar edilmişdir. Həmin dövrdə bu tip abidələrin hamısı e.ə. IV əsrin sonlarına aid edilmişlər (Алексеев, 1982, б). Y. Fialkonun tədqiqatları da bu nəticəni təsdiq edir (Фіалко, 1993, c. 15).

Kurqanın şimal tərəfindəki qadın qəbri mərkəzi qəbrin tarixindən fərqlənir və oradan tapılmış amforalara əsasən e.ə. IV əsrin III rübünə aid edilir. S. Monaxov həmin qablara əsasən qəbrin yaşının e.ə. 330-320-ci illər olduğunu yazmışdır (Монахов, 1999, c. 406).

Y.Fialkonun tədqiqatları nəticəsində Oğuz kurqanının Çertomlukdan daha cavan, başqa bir xaqan kurqanı olan Aleksandropol kurqanından daha qədim olduğu məlum olmuşdur (Фіалко, 1993, c. 16). Bu fakt bizə Ateydən sonrakı xaqanların təqribi də olsa, ölüm tarixlərini müəyyən etməyə imkan verə bilər. Bununla belə qeyd etmək lazımdır ki, Oğuz və Çertomluk kurqanlarının yaş nisbətinin dəqiqləşdirilməyə ehtiyacı var. Belə ki, bu iki abidənin mərkəzi qəbirlərinin tarixləri arasındakı məsafə o qədər kiçikdir ki, hətta Oğuzun Çertomlukdan daha qədim olması da mümkündür.

Hündürlüyü 17-20 m olan **Aleksandropol kurqan**ı 1851-1856-cı illərdə qazılmışdır. Onun örtüyünün altında iki və ya, ola bilsin, üç qəbir olub. Onların növbəli və ya eynivaxtlı olmaları məlum deyil. Kurqanın iki deyil, üç məzarın olduğu və dəfn edilənlərin eyni vaxtda dəfn edildikləri fikri Y.Boltrikə aiddir (Болтрик, 1997).

Belə hesab edilir ki, bu kurqan Çertomluk və Oğuz kurqanlarından bir qədər cavandır. Bunu dəfn abidəsindən tapılmış amforaların yaşı sübut edir (Алексеев, 1986, c. 35). V. Pruqlonun fikrincə isə, bu kurqan e.ə. IV əsrin 20-ci illərindən daha cavan ola bilməz. S. Monaxov da buna yaxın vaxt söyləmişir və abidəni e.ə. IV əsrin 30-cu illərinə aid etmişdir (Монахов, 1993; Monahov 1995/1996, c. 48). Doğrudur, sonradan o bu fikrinə düzəliş etmiş və kurqanın e.ə. IV əsrin sonlarına aid olduğunu yazmışdır (Монахов, 1999, c. 438).

Mərkəzi məzarın giriş quyusunda və yan kameralarda AΨOΓ(O) damğalı Herakley amforaları aşkar edilib ki, onların da yaşı e.ə. IV əsrin sonlarına aiddir (Алексеев, 1986, c. 35-36). Radiokarbon analizlərinin kombinə edilmiş nəticəsi (2150±51 BP) deyilənlərlə ziddiyyət təşkil etmir.

Turanın (skiflər ölkəsinin) Avropa hissəsindən tapılmış ən gənc Xaqan kurqanlarından biri **Böyük Rıjanov kurqanı**dır. O, qismən XIX əsrin sonlarında, tam olaraq isə 1995-1997-ci illərdə S.Skorıy və Y.Xoxoxrovskinin başçılıq etdikləri Ukrayna-Polşa birgə ekspedisiyası tərəfindən tədqiq edilmişdir (Бобринский, 1894; Самоквасов, 1908; Ossowsky, 1888; Chohorowski, Grigor’ev, Skoryj, 1996; Chohorowski, Skoryi, 1997; Chochorowski, Skoryj, Grigor'ev, Rydzewski 1997; Скорый, 1998). Bu abidənin əsas (kişi) və asma (qadın) qəbirlərində zəngin metal və saxsı məmulatı, o cümlədən amforalar, silahlar, qazanlar və bəzək əşyaları tapılmışdır. Bu materiallar hər iki məzarı e.ə. IV əsrin sonlarına (Алексеев, 2003) və ya e.ə. III əsrin əvvəllərinə (Chohorowski, Skoryi, 1997, c. 39; Chochorowski, Skoryj, Grigor'ev, Rydzewski, 1997, c. 90; Chohorowski, Kovaljuch, Skripkin, 1998; Chohorowski, Kovaljuch, Skripkin, 1999; Скорый, 1998) aid etməyə imkan verir.

Radiokarbon analizlərinin nəticələri isə e.ə. 260-250 və e.ə. 235-175-ci illərə işarə edir. Odur ki, hazırda alimlər çox geniş in-

tervalla sahib tarix (e.ə. 360-270-ci illər) üzərində durmaq qərarına gəliblər (Kovaliukh, Skripkin, Khokhorovsky, Skory, 2003).

Skif xaqanlarının kurqanlarından danışarkən Krımda, Kerç şəhəri yaxınlığında yerləşən, e.ə. IV əsrə aid edilən Kül-Oba kurqanından da söz açmağa ehtiyac var. 1830-cu ildə aşkar edilərək tədqiq edilmiş bu kurqanın örtüyünün altında bütünlüklə ağacdan qurulmuş sərdabə tipli qəbir kamerasına rast gəlinmişdir. Burada dəfn edilən şəxs ağacdan hazırlanmış sarkofaqda, geyimli-keçimli basdırılmışdı. Önun bütün geyimi, o cümlədən papağı tikmə qızıl lövhələrlə bəzədilmişdi. Boynunda atlı skiflərin əks olunduğu qızıl sinəbənd, qollarında qızıl bilərziklər, eləcə də yanında çox sayda silah vardı.

Əsas kameradan kənardakı yan kamerada xaqanın arvadı dəfn edilmişdi. Qadının bütün geyimi və bəzəkləri, eləcə də yanındakı qab qızıldan idi. Qabın üzərində skif döyüşçülər təsvir edilmişdi. Sərdabənin cənub divarının yanında isə nökər dəfn edilmişdi.

Kurqandan çox sayda qızıl və gümüş qab tapılmışdır. Bu abidə öz strukturuna və dəfn adətinə görə e.ə. IV-III əsrlərə aid Aşağı Don kurqanlarını xatırladır.

P.Dübriksin hələ XIX əsrdə səsləndirdiyi bir fikir – kurqanda skif xaqanının dəfn edildiyi fikri bu gün hamı tərəfindən qəbul edilir və heç bir şübhə oyatmır.

## Cənubi Ural və Cənubi Sibirin skif öncəsi kurqanları. Taqar mədəniyyəti

Cənubi Ural bölgəsində skif öncəsini daha yaxşı xarakterizə edən abidə 1980-ci ildə B. İsmaqilov tərəfindən tədqiq edilmiş **3 №-li Böyük Qumarovo kurqanı** hesab edilir (Исмагилов, 1988). Bu abidə Rusiyanın Orenburq vilayətinin Kuvandınsk rayonunun Qumarovo kəndi yaxınlığında aşkar edilmişdir. Onun dəfn inventarına ayrı-ayrı taxta, dəri və keçə fraqmentlərindən ibarət sallanma dəsti, 89 tunc ox ucluğu, maral formalı 5 qızıl lövhə daxil idi. Bundan başqa, kurqan örtüyündə üzərində maral rəsmləri olan və Şimali Qafqaz arealının maral daşlarını xatırladan daş menhir aşkar edilmişdir. B. İsmaqilovun fikrincə, bütün bu tapıntılar, xüsusən də skif öncəsi və erkən skif dövrü kurqan-

larından tapılan ox ucluqları ilə bənzərlik təşkil edən tunc ox ucluqları kurqanı e.ə. VIII-VII əsrlərə aid etməyə imkan verir. Eyni sözləri qəbir kamerasının quruluşu barədə də söyləmək mümkündür (Исмагилов Р. Б., 1984; 1986; 1987; 1988, c. 44).

Kurqanın yaşını dəqiqləşdirmək üçün götürülmüş ağac və dəri nümunələrinin radiokarbon analizi ortaya kombinə edilmiş 2564±26 BP tarixini qoymuşdur. Bu isə aşağıdakı təqvimi tarixlərə uyğun gəlir: e.ə. 800-760, e.ə. 680-670 (1 σ), e.ə. 810-750, e.ə. 690-660, e.ə. 640-550 (2 σ). Bu nəticə, təbii ki, dəqiq bir tarix söyləməyə imkan vermir, çünki alınan zaman intervalı həddən artıq böyükdür. Bununla belə, daha iki laboratoriyalarda əldə edilmiş digər iki nəticə - 2750±75 BP (e.ə. XI-IX əsrlər) və 2623±44 BP (e.ə. IX-VIII əsrlər) müəyyən fikrə gəlməyə imkan yaradır. Bütün bu nəticələri ümumiləşdirən alimlər e.ə. VII əsrin sonlar-VI əsrin əvvəllərini ən optimal tarix hesab edirlər (Алексеев А.Ю., 2005, c. 121).

Cənubi Sibirin skif öncəsi kurqanlarına gəlincə, bu abidələr içərisində Xakasiyanın cənub-qərbində yerləşən **Ançil çon məzarlığı**ndakı abidələrdən söz açmaq lazım gəlir. Askiz çayının sol sahilində, Kazanovka kəndinin 4 km cənub-şərqində, artıq xəritədən silinmiş Ançil çon kəndinin 100 m şimal-qərbdə aşkar edilmiş bu məzarlıqda son tunc dövrünə aid 70-dən artıq dəfn kompleksi müəyyən edilib. Bu komplekslərdən Karasuk mədəniyyətinə (e.ə. XIII-XI əsrlər) aid edilən **1 №-li Ançil çon kurqanı** 1996-cı ildə N.Bokovenko tərəfindən tədqiq edilmişdir (Боковенко, 1997).

1 №-li Ançil çon kurqanı mürəkkəb quruluşa sahibdir. Burada mərkəzdə yerə şaquli şəkildə basdırılmış daş pilitələridən qurulmuş 7.5 m diametrli çitdən digər daş çitlərin divarı rolunu oynayan 8 «şüa»nın ayrıldığı müşühidə edilib.

Mərkəzdə boyük daş pilitələrdən düzəldilmiş daş qəbir kamerası aşkar edilmişdir. Digər meyitlərdən öz yüksək statusuna görə fərqlənən meyit məhz bu kamerada dəfn edilmişdi. Əsas kameradan ayrılan və şaquli basdırılmış daşlardan ibarət olan «şüa»ların aralarında daha 7 məzar vardı. Burada yaşlı adamların və uşaqların skeletlərinə rast gəlinmişdir. Onlar da böyük daş pilitələrdən qurulmuş qutu formalı daş qəbirlərdə dəfn edilmişdilər.

Bu mürəkkəb konstruksiyanın cənub-qərb tərəfində daha 3 düzbucaqlı çitə rast gəlinmişdir. Onlar da analoji konstruksiya əsasında inşa edilmişdi və bu çitlərdə uşaqlar dəfn edilmişdi. Beləliklə, kurqanda dəfn edilmiş insan sayı 11 nəfər idi.

Böyüklərin istiqaməti qərb – cənub-qərb yönlü idi. Uşaqların istiqamətini müəyyən etmək mümkün olmamışdır. Qəbirlərin hamısı hələ qədim zamanlarda qarət edilmişdi. Bununla belə, onların hər birində naxışlanmış saxsı qablara və tunc əşyalara rast gəlinmişdir ki, aşkar edilmiş bu arxeoloji material əsasında kurqan Karasuk mədəniyyətinin erkən dövrlərinə aid edilmişdir. Arxeoloqların gəldikləri bu nəticəni radiokarbon analizlərinin nəticələri də təsdiq etməkdədir.

Qeyd edək ki, bu cür mürəkkəb konstruksiyalı kurqanın tam analogiyasına rast gəlinməsə də, girdə formalı çitlər Yeniseyin Karasuk mədəniyyəti kurqanlarında da aşkar edilmişdir (Грязнов, Максименков, Пяткин, 1968; Комарова, 1975; Зяблин, 1977).

Bənzər girdə konstruksiyalı kurqanlr Malıye Kopenı-3 məzarlığında da qeydə alınıb. Onlar da Karasuk mədəniyyətinə aid edilirlər. Buradakı kurqanların konstruksiyaları da şaquli basdırılmış daşlardan qurulmuş dairəvi çitlərdən və ona bitişik düzbucaqlı çitlərdən ibarətdir.

Sadə formalı dairəvi çitlər eyni mədəniyyətə aid edilən Quru Göl -2 (Suxoye Ozero – 2) və Kürgener – 1 məzarlığındakı bir sıra kurqanlarda da müşahidə edilməkdədir. Bu tip konstruksiya Andronovo mədəniyyəti üçün də xarakterik olub, lakin çitlərin şaquli basdırılmış daş pilitələrdən qurulması sonrakı mərhələ, yəni Karasuk mədəniyyəti mərhələsi üçün xarakterikdir.

1998-ci ildə abidəni Almaniya Arxeologiya İnstitutunun (Berlin) Avrasiya şöbəsinin dəstəyi ilə N. Bokovenko və S. Leqarna yenidən tədqiq etmişdilər. Əsas diqqət 2-8 çitlərinə yönəlmişdi və paralel olaraq digər kurqanların qazıntısı da aprılırdı (Bokovenko, Legrand, 2000).

**2 №-li Ançil çon kurqanı** biribirinə bitişik iki daş çitdən ibarət idi. Burada çitləri əhatə edən daş pilitələr yerə şaquli basdırılmışdılar. Çitlərdən birində böyük, digərində isə uşaq dəfn

edilmişdi. Böyük adamın məzarında Karasuk tipli sırğa, uşağın qəbrində isə naxışlanmış saxsı qab aşkar edilmişdir. 2 №-li kurqan da 1 №-li Ançil çon kurqanının ucaldıldığı vaxta aid idi. Lakin onun daş qutuları daha geniş idi və səliqə ilə düzəldilmişdi. Meyitlər sol böyrü üstə, cənub-qərb istiqamətində dəfn edilmişdilər. Kurqandan tapılan keramika nümunəsi Andronovo tipli idi (Bokovenko, Legrand, 2000).

Ançil çon kurqanlarının yaşını müəyyən etmək üçün skeletlərdən götürülmüş nümunələrin radiokarbon analizlərinin nəticələri onalrın Karasuk mədəniyyəti üçün müəyyən edilmiş vaxtla üst-üstə düşdüyünü göstərsə də, iki nümunənin analizləri e.ə. III minilliyin ən sonlarına – II minilliyin əvvəllərinə işarə etməkdə idi. Əldə edilmiş bu nəticə Karasuk mədəniyyəti üçün son dərəcə nadir göstəricidir. Radiokarbon analizlərinin digər nəticələri XV-XI əsrlərə işarə etməkdədir ki, bu da Karasuk mədəniyyətinin yaşı ilə ziddiyyət təşkil etmir (Алексеев А.Ю., 2005, c.106).

Bölgənin skif öncəsi abidələrindən olan **Karasuk-4 məzarlığı** Karasuk çayının sağ sahilində, Saraqaş (Xakasiya) kəndindən 10 km şimalda yerləşir. Burada 50-yə yaxın çit qeydə alınmışdır ki, onlardan 44-nü 1961-1963-cü illərdə M. Qryaznova və M.Komarova qazımışlar. Buradakı çitlər bir qayda olaraq böyük deyillər (2 x 2 m). Bununla belə, böyüklərinə də rast gəlinir. Qəbirlər əsasən qutu formasındadır. Dəfn edilənlər üçün qəbrə sol böyrü üstə və şimal-qərb istiqamətində qoyulmaları xarakterikdir. Arxası üstə basdırılmışlara da rast gəlinir.

Buradakı məzarlarda aşkar edilmiş qablar (35 ədəd), tunc bıçaqlar, bizlər və bəzək əşyaları Karasuk mədəniyyətinin uzadılmış daşlar mərhələsi (e.ə. X-IX əsrlər) üçün səciyyəvidir. Hərçənd ki, qəbirlərin konstruksiyası qonşuluqda yerləşən və daha öncəki klassik mərhələyə aid edilən Karasuk – məzarlığının kurqanlarında olduğu kimidir.

Çitlərin birindən, daha dəqiq desək, 19 №-li çitdən götürülmüş ağac parçasının radiokarbon analizi 2710±75 BP (Ле-577) nəticəsini vermişdir ki, bu da e.ə. XI-VIII əsrlərə uyğun gəlir. 10 №-li çitdən (Ле-695) alınmış kömürün analizi isə e.ə. XIV-X əsrlərə

işarə edir. İki nəticənin ortalama göstəricisi əsasında kurqanların yaşı e.ə. XI-X əsrlər hesab edilir (Алексеев А. Ю., 2005, с. 107).

Cənubi Sibirin skif öncəsi abidələri içərisində maraq çəkən abidələrdən biri də **Dörd-Oba (Tert-Aba) məzarlığı**dır. Yes çayının sol sahilində, Abramovo (Xakasiya) kəndinin 3 km şimal-şərqində yerləşən məzarlıqda 94 kurqan qeydə alınmışdır və onlarda qazıntılar aparmış arxeoloqun fikrincə, Karasuk mədəniyyətinin uzadılmış daşlar mərhələsinə və Taqar mədəniyyəti dövrünə aiddir.

Buradakı müxtəlif tip yerüstü tikililər (dairəvi və düzbucaqlı çitlər), ölülərin qərb və şərq istiqamətində dəfn edilməsi, keramikanın müxtəlif formada və naxışda olması, dəfn edilənlərin antropoloji tipindəki müəyyən fərqlər ərazidə yaşamış əhalinin qarışıq tərkibli olduğundan xəbər verir.

Dörd-Oba məzarlığı Ançil çon məzarlığına yaxındır və buradan çıxan keramika oradakı ilə bənzərlik təşkil edir. Bu da məzarlığın bəzi kurqanlarının e.ə. X əsrdən daha cavan ola bilməyəcəyini göstərir (Алексеев А. Ю., 2005, с. 108).

21b №-li çitdən (Ле-5396) götürülmüş sümük nümunələrinin analizinin məzarlıqdan tapılmış arxeoloji materialla tutuşdurulması buradakı kurqanları e.ə. XIII-IX əsrlərə aid etməyə imkan verir (Алексеев А. Ю., 2005, с. 109).

Askiz-Birikçul avtomobil yolunun 46-cı kilometrliyində, Askiz çayının sol sahilində yerləşən **Xıstıqlar məzarlığı**nda 4 kurqan qeydə alınmışdır. Bunlardan **1 №-li kurqan** 1996-cı ildə A.Bokovenko tərəfindən tədqiq edilmişdir.

Növbəli dəfnin icra edildiyi kurqan mürəkkəb quruluşa malik idi və iki çitdən ibarət idi. Bunlardan çaya yaxın olan A çiti cənub, B çiti isə şimalda yerləşirdi. Çitlərin daxilindəki sahə bütünlüklə müxtəlif ölçülü daşlardan ibarət daş düzümü ilə örtülmüşdü və düzümlərin altlarında torpaq qəbirləri və onların ağac tirlərdən qurulmuş örtükləri yerləşirdi.

Buradakı ən qədim məzar A çitindəki 1-ci qəbirdə dəfn edilmiş 20-25 yaşlarında bir qadına (skelet A) məxsusdur. Bundan bir qədər sonra B çiti quraşdırılmış və onun mərkəzində 1-ci qəbir yerləşmişdir. Orada da 25-30 yaşlarında başqa bir qadın

dəfn edilmişdir. Bu qəbirlərdəki keramika eyni gildən hazırlanmışdır. Onlarda aşkar edilmiş bıçaqlar da eyni tipə aiddirlər. A. Qromovun yazdığına görə, həmin qadınların antropoloji tipi də eynidir və onlar bu baxımdan digər qəbirlərdə dəfn edilmişlərdən müəyyən qədər fərqlənirlər.

Belə hesab edilir ki, kurqan erkən Taqar dövründə qurulmuş, sonrakı dövrlərdə A çitində növbəli dəfnlər icra edilmişdir. Məzara öncə 4-5 yaşlarında uşaq (skelet Д), sonra yaşı 55-dən artıq olan qadın, daha sonra isə yaşlı bir kişi qoyulmuşdur. Bundan sonra isə qəbrdə eyni vaxtda 25-45 yaşında bir qadın (skelet Б) və 20-25 yaşlarında bir kişi (skelet B) dəfn edilmişlər.

A çitinin 4 cü qəbri (35-45 yaşlarında kişi) üst qatda, kameranın hələ çürüməmiş və ayaqda qalan ağac örtüyünün üstsndə idi.

Mütəxəssislər 1 №-li Xıstıqlar kurqanını Taqar mədəniyyətinin Bainov mərhələsinnə aid edirlər. Belə ki, A çitinin 1-ci qəbrindən götürülmüş ağac nümunəsinin radiokarbon üsulu ilə analizi (Ле-5256, 2950±70; Ле-5255, 2710±70) və B çitinin 1-ci qəbrindən götürülmüş nümunənin analizi (Ле-5254, 2950±30; Ле-5257, 2840±30) bu abidəni 95 % dəqiqliklə e.ə. XIV-X və e.ə. XI-VIII əsrlərə aid etməyə imkan verir. Belə hesab edilir ki, A çitinin 1-ci qəbrinin kombinə edilmiş tarixi e.ə. XI-X (2838±26 BP), B çitininki isə e.ə. 1015-965-ci illər və ya e.ə. 960–925-ci illər kimi tarixləndirilə bilər (Алексеев А. Ю., 2005, с. 109-110).

Mövzumuz baxımından Xakasiyadakı **Şaman Dağı (Şaman Qora) məzarlığı** da böyük maraq kəsb edir. Dağlar arasında kiçik bir hövzədə, Ak İyus (Belıy İyus) çayının sağ sahilində aşkar edilən bu məzarlıqda 46 məzar qeydə alınıb. Onlar qədim dövrlərdən orta əsrlərə qədər geniş bir zaman kəsiyini əhatə edir.

Buradakı kurqabların çoxu Taqar mədəniyyətinə (e.ə. I minillik) aiddir. Onlardan 3-ü 1989-cu ildə N. Bokovenko tərəfindən tədqiq edilmişdir (Боковенко, Кузьмин, Лазаретов, 1993, с. 25-28; Боковенко, Смирнов, 1998).

**1 №-li Şaman Dağı kurqanı** iki çitdən və içi ağacdan qurulmuş, üstü daş pilitə və ağac tirlərlə örtülmüş iki torpaq qəbir-

dən ibarət idi. Buradakı qəbirlərdə erkən Taqar mədəniyyəti dövrünə aid qablar, əyri bıçaqlar, böyük güzgülər tapılmışdır.

Arxeoloqlar 1-3 №-li kurqanları qəbir kameralarının konstruksiyası və dəfn adətinə görə Taqar mədəniyyətinin Podqornı mərhələsinə aid etmişlər. Amma 1 №-li kurqanın 3-cü qəbrində sonrakı dövrdə təkrar dəfn icra edilmişdi (Боковенко, Кузьмин, Лазаретов, 1993; Боковенко 1995a).

Şaman Dağı kurqanları ilə analogiya təşkil edən kurqanlara Tepsey-8 və 9 (Грязнов 1979, şək. 28), erkən Taqar dövrünə aid Знаменск (Podol'ski, 1996) məzarlıqlarında, eləcə də Kazanovka-2 tipli digər məzarlıqlarda (Кузьмин, 1979; Bokovenko 1995a; Боковенко 1995a; 1995b) rast gəlinmişdir.

1 №-li Şaman Dağı kurqanının 2-ci qəbrindən (Ле-5192, 2700±30 BP) götürülmüş ağac nümunəsinin analizi bu kurqanı 96 % dəqiqliklə e.ə. IX əsrə aid etməyə imkan verməkdədir (Алексеев А. Ю., 2005, c. 112).

**Böyük Erba-1 (Bolşaya Erba-1) məzarlığı** Xakasiyadakı eyni adlı kəndin 300 m cənub-şərqində yerləşir. Burada Taqar dövrünə aid 5 kurqan qeydə alınmışdır. Onlardan **2, 3 və 4 №-li kurqanlar** N. Bokovenko tərəfindən 1993-cü ildə tədqiq edilmişlər. Bu kurqanlar şaquli şəkildə yerə basdırılmış daşlardan qurulmuş kvadrat formalı çitlərdən ibarət idilər. Çitlərin mərkəzlərində torpaq qəbirlər yerləşirdi. Onların örtüyü daş pilitə və ağac tirlərindən qurulmuşdu. Burada kişilər tək, qadınlarsa, hər qəbirdə 2-3 nəfər olmaqla, kollektiv dəfn edilmişdilər. Onların yanına qoyulmuş əşyalar – tunc bıçaqlar, baltalar, arxaik formalı xəncərlər, yarımsferik tikmə lövhələr, müxtəlif muncuqlar və keramik qablar Taqar mədəniyyəti üçün xarakterik özəlliklərə sahib idilər.

4 №-li kurqanın 2-ci qəbrindən götürülmüş ağac nümunələrinin radiokarbon analizi (Ле-5133, 2840±35 BP; Ле-5135a, 2780±40 BP; Ле-5135в, 2730±25 BP) bu abidəni e.ə. XII-IX əsrlərə aid etməyə imkan verir. Bununla belə, daha inandırcı tarix e.ə. IX əsrdir (Алексеев А. Ю., 2005, c. 112).

1999-cu ildə M. Podolskinin tədqiq etdiyi **Tiqir Taycen məzarlığı** Kuybışev kəndi (Xakasiya) yaxınlığında yerləşir. Mə-

zarlıqdakı **1 №-li kurqan** öyrənilərkən burada sonrakı dəfnlə təxrib edilmiş kişi qəbri aşkar edilmişdir. Qəbir təxrib edilsə də, içindəki avadanlıq salamat qalmışdı. Bunlar böyük ölçülü xəncər, bıçaq, müxtəlif qablar və s. əşyalardan ibarət idi. Onların hamısı Taqar mədəniyyətinə aid edilmişdir.

1994-cü ildə N.Bokovenko tərəfindən Xakasiyanın Askiz rayonu ərazisində yerləşən **Kazanovka-2 məzarlığı**nda müxtəlif dövrlərə aid olan 17 çit (23 qəbir) öyrənmişdir. Çitlər digər çitlərlə bir-birilərinə bitişik halda idi və birlikdə mürəkkəb kompleks yaradırdılar. Bunlardan daha əskiləri tunc dövrü Karasuk mədəniyyətinin ənənələrini davam etdirdiyi halda, digərləri skif öncəsi və skif dövrü Taqar mədəniyyətini təmsil etməkdə idi (Боковенко 1995b).

Məzarlıqdakı **1 №-li kurqan** 9 müxtəlif çitdən ibarət idi. Bu çitlərdən E çiti öz konstruksiyasına və dəfn adətinə görə, çox güman ki, hələ Karasuk mədəniyyəti dövründə qurulmuşdu. A və З çitləri uzadılmış daşlar mərhələsinə aid idi. Daha sonra onlara В, Г və Б çitləri, bundan da sonra Ж, Д və И çitləri əlavə edilmişdir. Erkən Taqar dövründə əvvəlki uzadılmış daşlar mərhələsinə aid bütün qəbirlər qarət edilmiş və onlar bir qədər sonra Yeni Taqar məzarları ilə əvəz olunmuşdu. Onlarda tək dəfn etmə adəti icra edilmişdi. Bu qəbirlərdə aşkar edilmiş arxeoloji materialın xarakteri onları erkən Taqar mədəniyyətinə aid etməyə imkan verir. Д və Ж qəbirlərindən götürülmüş ağac və sümük parçalarının (Ле-5388, Ле-5390) radiokarbon analizi e.ə. XI-VI əsrlərə işarə etməkdədir.

Kurqanda yaşlı adam basdırılmışdı. Onun dəfn edildiyi qəbir kamerası 0.4 m dərinlikdə qazılmışdı, 1.85 x 0.6-0.8 ölçüsündə idi və daşdan qurulmuş tarapesiya formalı qutu şəklində idi. Başı şimal-qərb istiqamətinə yönəlik olan meyit arxası üstə, ayaqları dizdən bükülü vəziyyətdə basdırılmışdı. Onun baş tərfinə içində sulu, ayaq tərəfində isə ət yeməkləri olan küplər qoyulmuşdu. Bel hissəsində iri tunc güzgü vardı. Arxeoloqlar bu abidəni e.ə. IX əsrə aid edirlər (Алексеев А.Ю., 2005, c.114-115).

**Kazanovka-3 məzarlığı** Askiz kəndindən 39 km aralıda, Kazanovka kəndindən 1.75 km şimal-qərbdə aşkar edilmişdir. Burada daş örtükləri yer səthindən zorla seçilən 17 kurqan qeydə

alınmışdır. Onlar zəncirvari şəkildə, 2-3 sıra formasında cənub-şərq – şimal qərb xətti üzrərində yerləşmişdilər. Bunlardan 3-ü Taqar mədənəiyyətinin Podqornı mərhələsinə aiddir. Onları 1994-cü ildə N. Bokovenko tədqiq etmişdir.

Məzarlıqdakı çitlər kifayət qədər böyükdürlər (6 × 8 m, 4,5 × 5,6 m və i. a.) və onların hər birində bir və ya iki qəbir bulunmaqdadır. Qəbir kameraları, o cümlədən tək dəfn adətinin icra edildiyi kameralar 1 m dərinlikdə qazılmışlar və çox genişdirlər (3 × 2 m, 1,8 × 2,3 m). Burada böyüklərin və uşaqların birlikdə dəfn edildikləri qəbirlərə də rast gəlinmişdir. Meyitlərin istiqaməti azacıq şimala meyilli olmaqla qərb yönlüdür.

Belə hesab edilir ki, hər çitdə eyni ailənin üzvləri dəfn ediliblər. Qəbirlərdən çıxan arxeoloji material çox zəngin və müxtəlifdir. Burada müxtəlif və zəngin silah kompleksi ilə - xəncər və bıçaqları ilə, eləcə də güzgü, biz, daraq, keramika nümunələri və s. kimi inventarlarla təmin olunmuş kişi qəbirləri xüsusi diqqət çəkir.

Əldə edilmiş radiokarbon analizlərinin nəticələri Kazanovka – 3 məzarlığının dəfn komplekslərini (Ле-5391- çit A, курган № 2; Ле-5393 qəbir 2, çit Г, курган № 2) müqabil olaraq, e.ə. IX əsrin sonları – VIII əsrin ortaları və e.ə. XIII/XII-IX əsrlər kimi tarixləndirməyə imkan verir.

Qəbirlərdən tapılan arxeoloji material Taqar mədəniyyətinin Podqornı mərhələsi üçün xarakterik olsa da, Kaznaovka-3 kurqanları Kazanovka-4 və Xıstıqlar məzarlığının kurqanlarından daha cavandır və çox güman ki, e.ə. IX-VIII əsrlərə aiddir (Алексеев А.Ю., 2005, с.114-115).

Xakasiyanın Orcenikidze rayonundakı **Çeremişino məzarlığı** Kopyevo kəndindən 26 km qərbdə, Çeremşan dağının ətəklərində aşkar edilmişdir. Burada Taqar dövrünə aid 30-a yaxın kurqan qeydə alınmışdır. Onlar şimal-cənub oxu üzrə 2.5 km məsafə boyu sıralanmışdır. Xarici əlamətlərinə görə şimal tərəfdə yerləşən kurqanlar (20 kurqan) erkən Taqar dövrünə aiddirlər. Cənub tərfdəki 8 kurqanın örtülklərinin hündürlüyü təqribən 2 m, diametrləri 40-50 m-dir. Onlar Taqar mədəniyyətinin Saraqaşen dövrünə aid edilirlər.

1999-cu ildə N. Bokovenko bu kurqanlardan ən böyüyü olan **1№-li kurqan**ı tədqiq etmişdir. Onun hündürlüyü 2.5 m, diametri isə 40 m idi. Arxeoloq kurqan örtüyünün altında 27 x 27 m ölçüsündə böyük çitə rast gəlmişdir. Çitin tərəfləri 4 coğrafi cəhət istiqamətinə yöbəlmişdi. Çitin daş çəpərində şaquli şəkildə basdırılan və digər daşlardan böyüklüyü ilə fəralənən 12 menhir diqqət çəkirdi. Onlar künclərdə və divarlarda yer alırdılar.

Çitin mərkəzi hissəsində 3 qəbir kamerasına rast gəlinmişdir. Bunlardan birinci qəbir həm mərkəzi idi, həm də daha qədim dövrə aid idi. Daş çit məhz onun ətrafında quraşdırılmışdı. 2-ci qəbir cənub, 3-cü qəbir isə şimal tərəfdə yerləşirdi. Hər üç qəbir yaxın zamanlarda həyata keçmiş qarətin izlərini saxlayırdı. Hər üç qəbir kamerasının girişinə əhəngdaşından iri «qapı» qoyulmuşdu.

Kurqanın konstruksiyasına və qəbirdən tapılan arxeoloji materialın (Taqar keramikası, maral formalı lövhələr, qızılla bəzədilmiş tunc qazan, bıçaqlar və s.) xarakterinə görə bu abidəni Taqar mədəniyyətinin Saraqaş mərhələsinə aid edirlər.

Radiakarbon analizi üçün 1-ci qəbrin yaxşı mühafizə olunmuş ağac örtüyündən nümunə götürülmüş və onun e.ə. 723±20 (Cal BC) tarixinə aid olduğu müəyyən edilmişdir (Alekseev, Bokovenko et al. 2001; 2002). Bu da abidəni e.ə. VIII əsrin II yarısı və ya sonlarına aid etməyə imkan verir. Bu nəticənin doğruluğunu Saraqaş tipli digər kurqanların, məsələn, 5 №-li Köbək məzarlığındakı kurqanların radiokarbon analizlərinin nəticələri də təsdiq edir.

Yenisey çayının sol sahilində, Letnik kəndinin şərqində, Sayanoqorsk şəhərinin (Xakasiya) 3 km cənub-şərqində aşkar edilmiş **Letnik-6 məzarlığı** 1972-ci ildə Y. Trifonon (10 çit) və 1978-ci ildə M. Pşenitsina (8 çit) tərəfindən tədqiq edilmişdir. Buradakı kurqanlar Taqar mədəniyyətinin Bainov və Saraqaş mərhələlərinə uyğun gəlir. İri daşlardan qurulmuş kurqanlarda yan quraşdırmalı bir və ya bir neçə əsas qəbir kamerasına rast gəlinmişdir. Onlar 1.5-2 m dərinlikdə qazılmış və ağac tirlərlə örtülmüşdü. Ölülər əsasən bükülü vəziyyətdə və şimal istiqamətində dəfn edilmişdilər. Qəbirlərdən çıxan keramika əsasən kəsmə və ya ştamplanmış naxışlı idi. Tunc əşyalar içərisində

müxtəlif bıçaqlar, güzgülər, lövhələr çoxluq təşkil edirdi (Пшеницына, Поляков, Подольский, Савинов, Кузьмин 1979).

Radiokarbon analizləri üçün 9, 10, 12 və 38 №-li kurqanlardan ağac nümunələri götürülmüşdü. Bunlardan birincisi üçün (Ле-2095, 2380±40 BP) nəticəsi əldə edilmişdir ki, bu da 9 №-li kurqanı 95% əminlikə (2 σ) e.ə. VIII-IV əsrlərə aid etməyə imkan verir. 10 №-li kurqan üçün əldə edilən nəticə 2430±40 BP (Ле-2096) olub ki, bu təqvimi tarixlə e.ə. VIII-V əsrlərə uyğun gəlir. 12 №-li kurqandan iki nümunə götürülmüşdü (Ле-2113, 2630±40 BP; Ле-2114, 2610±40 BP) ki, bu da e.ə. IX əsrin sonları-VIII əsrin əvvəlləri deməkdir (Алексеев А.Ю., 2005, с. 120).

Beləliklə, yuxarıda deyilənlərdən də göründüyü kimi, Cənubi Sibirin skif öncəsi kurqanları əsasən Taqar mədəniyyəti kurqanları ilə təmsil olunmuşdur. Son tunc və erkən dəmir dövrlərinə aid edilən bu mədəniyyətlə skif mədəniyyəti arasında Taştık mədəniyyəti qeydə alınmışdır.

Taqar mədəniyyətini ilk dəfə XX əsrin 20-ci illərində kəşf edərək, tədqiq edən və dünyaya tanıdan S.Teplouxov olub (Теплоухов С.А., 1929). Onun üzə çıxardığı abidələri sistemləşdirən S.Kiselyov bu mədəniyyəti ilk dəfə «Taqar mədəniyyəti» adlandırıb və bu ad o vaxtdan elmi ədəbiyyatda möhkəmlənib (Киселев С. В., 1951).

Taqar mədəniyyəti kurqanları içərisində ən məşhuru Böyük Salbık kurqanıdır. Bu kurqanı aşkar edildiyi gündən tədqiqatçıların diqqət mərkəzindədir. Onun tarixinin dəqiqləşdirlməsi bölgədəki tarixi prosseslərə və miqrasiyalara önəmli ölçüdə aydınlıq gətirə bilər.

Böyük Salbık kurqanı 1733-1743-cü illər ekspedisiyası zamanı, daha dəqiq desək, 1738-ci ildə dövrün tanınmış alim və səyyahı H. Miller aşkar edərək qeydə alıb.

Sözügedən kurqan Abakan şəhərindən 60 km şimal-qərbdə, Xakasiyanın Üst Abakan rayonunda, «Xaqanlar vadisi» adlandırılan yerdə yerləşir. Abidənin tədqiqi ilə ilk dəfə S. Kiselyovun başçılıq etdiyi arxeoloji ekspedisiya məşğul olub (1954-1956). Ekspedisiya Xakasiyanın Dil, Ədəbiyyat və Tarix Elmi-Tədqiqat İnstitutu tərəfindən təşkil edilmişdi (Киселёв С. В., 1956; Киселёв С. В. Отчет о раскопках в 1954 г. ).

1992, 1994, 1996, 1998, 2008 və 2010-cu illərdə kurqanda qazıntıları L. Marsadolovun başçılıq etdiyi Dövlət Ermitajının Sayan-Altay ekspedisiyası davam etdirmişdir. Həmin dövrlərdə qazıntılar təkcə Böyük Salbık kurqanını deyil, eyni zamanda digər Salbık kurqanlarını, eləcə də Xaqanlar vadisindəki başqa bənzər abidələri də əhatə edirdi (Марсадолов Л. С., 2010).

Böyük Salbık kurqanının qazıntı dövründəki hündürlüyü 11.5 m kimi qeydə alınsa da, onun hündürlüyünün əvvəllər 21 m olduğu bildirilir. Daş çitin divarlarının uzunluğu 71 m-ə çatırdı. Tədqiqatlar nəticəsində kurqanın XVIII əsrdə qarət edildiyi məlum olmuşdur.

Qazıntılara qədər kurqanın citinin divarları kurqan örtüyünün altında olduğundan görünməz idi, yalnız künc və yan menhirlər gözə dəyirdi. Örtük götürüldükdən sonra mərkəzlə qərb divarı arasında ağac tirlərdən və daşdan piramida formasında qurulmuş tikili aşkar edildi. Onun hümdürlüyü 2.5 m, kvadrat formalı alt sahəsi 18 x18 m, üst meydanması 8 x 8 m ölçüsündə idi. Bu piramida onun səthini örtən səliqələ ilə yonulmuş ağac qabıqlarının rəngində, yəni ağappaq idi. Onun ətəklərini 15 qat ağac örtürdü. Piramidanın səthinin ən üst qatını örtən ağaclar qabıqlara bürünmüşdü.

Piramidanın altında 1.8 m dərinlikdə qazılmış 5 x 5 ölçülü qəbir kamerası aşkar edilmişdir. Kameranın döşəməsinin 4 x 4 m sahəlik hissəsi hündürlüyü 2 m-ə çatan ağac düzümündən qurulmuşdu. Sərdabə formalı qəbir kamerasının örtüyü xaçvari formada birbirinə geydirilmiş 6 qat ağac tirdən ibarət idi. Onların araları və üstü su geçirməyən gillə doldurulmuş və suvanmışdı.

Sərdabədə 7 kişi və qadın skeletinə rast gəlinmişdir. Ortada qoca döyüşçünün meyidi yerləşdirilmişdi. Onun ayaqlarında və qabırğalarında zədə izləri qeydə alınmışdır.

Dromosa giriş qərb divarının ortadakı daşından başlayırdı və tirlərdən quraşdırılmış piramidanın ətəyinə qədər uzanırdı. Orada sərdabəyə daxil olmaq üçün dar keçid vardı.

Dromosun cənub divarının yanında iki kişi dəfn edilmişdi. Onlar ağac qabıqlarından düzəldilmiş döşəmədə uzanmışdılar və eyni cür qabıqlarla örtülmüşdülər. Onların başları şərq istiqamətinə tərəf yönəlmişdi. Cənubdakı skelet Taqar mədəniyyətinə

xas şəkildə, arxası üstə, əlləri yanlarına uzadılmış vəziyyətdə dəfn edilmişdi. Onun bel tərəfində tunc bıçaq aşkar edilib. O biri meyit üzü aşağı olmaqla, qarnı üstə dəfn edilmişdi. Onun yanında vəhşi heyvan, ehtimal ki, tülkü kəlləsi tapılıb.

1996-cı ildə kurqanın cənub-qərb tərəfində uzanmış pələng heykəli aşkar edilib. Bənzər formalı pələng təsvirlərinə Taqar mədəniyyətinə aid tunc bəzək lövhələrində də rast gəlinməkdədir.

Böyük Salbık kurqanının divarlarındakı menhirlərinin üzərində qayaüstü təsvirlər qeydə alınıb. Bunlar əsasən antropomorf fiqurlardır. Qeyd edilməlidir ki, bu tip rəsmlərə Taqar mədəniyyəti abidələrində tez-tez rast gəlinir.

Radikarbon analizlərinin nəticələrinə əsasən Böyük Salbık kurqanının e.ə. V əsrə aid olduğu müəyyən edilib (Марсадолов Л. С., 2010).

Salbık çölündə 5 km radiusda ümumilikdə 56 kurqan qeydə alınıb ki, onlardan 5-i Böyük Salbık kurqanından azacıq kiçikdir. Bu kurqanları digərlərindən fərqləndirən əsas xüsusiyyət onların piramida formasında inşa edilmələridir.

Arxeoloqlar bu abidələrə müxtəlif tarixlər vermişlər. Əksəriyyət onu e.ə. V-IV və ya e.ə. IV-III əsrlərə, bəzi hallarda isə hətta e.ə. I-b.e. I əsrlərə aid etmişlər. Lakin son dövrlər alimlər daha çox e.ə. VII-VI əsrlərin üzərində dururlar.

Hazırda hakim olan tendensiyaya görə, əgər bu və ya digər abidə daha qədim mərhələlərə aiddirsə, arxeoloqlar onu daha da qədimləşdirməyə (E.Pauls, A.Акulov), nisbətən yeni mərhələlərə aiddirsə, cavanlaşdırmağa (E.Vadetskaya, N.Kuzmin) meyl edirlər. Hərçənd ki, son dövrlərdə Taqar mədəniyyətinin Podqornı və Saraqaş mərhələlərini daha qədim dövrlərə aid etmək tendensiyasının (Грязнов, 1980; Евразия, 2005; Лазаретов, 2007; Савинов, 2012) şahidiyik.

S.Kiselyovun başçılıq etdiyi ekspedisiya Böyük Salbık kurqanının ağac konstruksiyasında küpə formalı böyük saxsı qab fraqmentləri, qəbir kamerasının döşəməsində, qərb divarının dibində kiçik tunc bıçaq aşkar etmişdir. Kameranın cənub divarının orta hissəsində, bilavasitə daş pilitələrin yanında qalanmış

ocaq yerinin düz yanında içərisində tunc bizlər, sümük sancaqlar, tunc və sümük iynələr olan ağac qabığından hazırlanmış kiçik çantaya rast gəlinmişdir.

Arxeoloqlar şərq divarının şimal tərəfindəki daş düzümünün arasında trapesiya formalı dəstəyi olan əyri bıçaq da tapmışlar. Dromosda dəfn edilmiş skeletin bel tərəfində də iki tunc bıçaq aşkar edilmişdir (Марсадолов, 2010).

S.Kiselyovun başçılıq etdiyi ekspedisiya Salbık çölündə qazıdığı 4 kiçik kurqanı Karasuk və Taqar mədəniyyətləri arasındakı keçid dövrünə aid etmiş, bu kurqanların e.ə. VIII-VII və ya VIII-IV əsrlərə aid ola biləcəklərini qeyd etmişlər. Onların bu geniş intervallı tarixləndirməsi Böyük və kiçik Salbık kurqanlarının xronoloji ardıcıllığına aydınlıq gətirilməsini xeyli çətinləşdirir.

Maraqlıdır ki, hələ XVIII əsrdə H. Miller eyni əsrdə bu kurqanlardan qarət edilmiş əşyaların əsasən misdən hazırlandığını və onların içində dəmir əşyalara rast gəlinmədiyini əsas tutaraq, bu kurqanlarda dəfn edilmiş insanların dəmirlə hələ tanış olmadıqlarını və bu üzdən də sözügedən abidələrin daha qədim ola biləcəyini önə sürmüşdü (Миллер, 1937, с. 522).

Qeyd edək ki, Taqar mədəniyyətinə aid müxtəlif kurqanlarında qazıntılar 1840-cı ildən 1810-cu ilə qədər M.Kastren, V.Radlov, D.Klements, İ.Kuznetsov-Krasnoyarskiy, A.Adrianov, T.Savenkov və başqaları tərəfindən aparılmışdır. Özündən əvvəlki tədqiqatçıların həm Xakasiyada, həm də Sibirin digər bölgələrində əldə etdikləri nəticələri özünün gəldiyi nəticələrlə birləşdirən V. Radlov 1880-ci ildə həmin dövrə qədər öyrənilmiş abidələri dörd «mədəni epoxa»ya bölmüşdü (Радлов, 1896):

1. Mis və ya tunc dövrü;
2. Erkən dəmir dövrü;
3. Yeni dəmir dövrü;
4. Gec dəmir dövrü (Марсадолов, 1996; Тишкин, 2007).

Bu tip təsnifatlar XVIII-XIX əsrlərdə geniş yayılmışdı və o dövr üçün mütərəqqi hesab edilirdi. Lakin XIX əsrin sonları XX əsrin əvvəllərində Avropa alimləri «arxeoloji mədəniyyətlər»

üzrə təsnifata üstünlük verməyə başladılar (O.Montelius, P.Reynike, J.Deşellet, V.Qorodtsov, A.Spitsin və c.) (Клейн, 2014).

1920-1950-ci illərdə Taqar kurqanlarının tədqiqi ilə S. Teplouxov, S. Rudenko, M. Qryaznov, Q. Sosnovski, S. Кiselyov, L.Yevtuxova, V.Кartsev, M.Девlet, S.Zotova, Y.Qrişin və başqa arxeoloqlar məşğul olmuşlar (Членова, 1967; Вадецкая, 1986).

1920-ci illərdə S. Teplouxov yeni metoloji yanaşma tətbiq edərək, Bateni kəndi yaxınlığında müxtəlif xronoloji periodlara aid abidələri ayıraraq onlarda qazıntı apardı və tədqiqatlarının nəticəsi kimi «Minusinsk vilayətinin metal mədəniyyətlərinin təsnifat»ını ortaya qoydu. Bu təsnifat 14 xronoloji qrupu, o cümlədən 4 mərhələli kurqan qrupunu əhatə edirdi. (Теплоухов, 1929).

1928-ci ildə S. Kiselyov bu mədəniyyət üçün yeni ad – Yenisey çayındakı Taqar adasının adını təklif etdi – «Taqar mədəniyyəti». Çünki mədəniyyətin öyrənilməsində böyük xidmətləri olan A.Adrianov tədqiqatlarına məhz bu adada başlamışdı. Odur ki, bu ad etiraz doğurmadı və hər kəs tərəfindən qəbul edildi.

1949-cu ildə o, özünün ümumiləşdirici «Cənubi Sibirin qədim tarixi» monoqrafiyasında Taqar mədəniyyətinin 3 mərhələsinin dövrlərinə aydınlıq gətirdi (Киселев, 1951):

I mərhələ (e.ə. VII-V əsrlər);

II mərhələ (e.ə. V-III əsrlər)

III keçid mərhələsi (e.ə. II-I əsrlər).

1950-1960-cı illərdə M. Qryaznov Taqar mədəniyyətini ən xırda incəliklərinə qədər ayıraraq, bu mədəniyyəti 4 mərhələyə böldü və onların hər birinəi S. Teplouxovun müəyyənləşdirdiyi müqabil abidələrin adı ilə adlandırdı (Грязнов, 1968):

1. Bainov (e.ə. VII əsr);
2. Podqrnı (e.ə. VI-V əsrlər);
3. Saraqaş (e.ə. IV-III əsrlər);
4. Tesin (e.ə. II-I) əsrlər.

Bu təsnifat bu gün də öz keçərliliyini qorumaqdadır.

Antropoloji tədqiqatların nəticələrinə əsasən Taqar mədəniyyətin daşıyıcıları avropoid irqinin mənsubları olmuşlar və öz antropoloji özəlliklərinə görə «Andronovolu»lara yaxındırlar (Алек-

сеев В.П., 1989). Bu mədəniyyətinin nümayəndələrinin dili məsələsi uzun müddət alimlər arasında mübahisə mövzusu olmuşdur. Bir çoxları onları hindavropalı, daha dəqiq desək irandilli hesab etmişlər (Алексеев В.П., 1989). Lakin çinşünas alim V.Tiskin Çin mənbələrinin təhlili əsasında «Taqarlı»ların türk olduqlarını və türkcə danışdıqlarını şübhə götürməyəcək şəkildə sübut edə bilmişdir (Тискин В.С., 1968, с.136, прим. 111).

Taqar mədəniyyətinə aid bir neçə kurqandan götürülmüş sümük nümunələrinin DNT analizi «Taqarlı»ların R1a haploqrupunun daşıyıcısı olduğunu ortaya qoymuşdur (Christine Keyser, Caroline Boukaze, and et al., 2009).

## Tıvanın skif öncəsi və skif dövrü kurqanları və onların tarixinə dair: Aldı-Bel və Uyuq mədəniyyətləri

Cənubi Sibirin erkən skif abidələrinin xronologiyasının dəqiqləşdirilməsi baxımından Tıva, Altay və Xakasiyada aşkar edilmiş skif öncəsi və erkən skif dövrü abidələrinin böyük önəmi var. Belə ki, bu bizə skiflərin Cənubi Sibirdə ilk dəfə nə zaman peyda olduqları və bölgəyə hansı marşrutlarla gəldiklərini anlamağa kömək edə bilər.

Haqqında söhbət açmaq istədiyimiz ilk abidə Şərqi Tıvanın dağlıq və dağətəyi bölgəsində üzə çıxarılmış Aldı-Bel mədəniyyətinə aid edilən **Kopto məzarlığı**ndakı kurqanlardır (Чугунов К.В., 2005). Burada ard-ard düzülən və özündən əvvəlki nisbətən daha qədim kurqanların təxrib edilməsinə yol açan 3 kurqan (№ 2-4) tədqiq edilmişdir. Bunlarda 2 №-li kurqan digərlərinə nisbətən daha qədimdir. Onu o biri kurqanlardan fərqləndirən ən əsas xüsusiyyət onun bünövrəsində çınqıldan tökülmüş «meydança»ya rast gəlinməsidir.

2 №-li Kopto kurqanında müxtəlif vaxtlarda icra edilmiş 5 dəfn, yəni qəbir aşkar edilmişdir. Arxeoloqların fikrincə, onlardan 1-ci qəbir 2-cidən, 4-cü isə 5-cidən daha əvvələ aiddir (Čugunov, 1998, c.273-308).

Əsasən Tıva ərazisində yayılmış Aldı-Bel mədəniyyətini bölgənin erkən skif dövrü mədəniyyəti hesab edirlər. Bu mədə-

niyyətə daxil olan kurqanların örtükləri daşlardan qurulmuşdur. Burada ölülər bəzən yerdə, bəzənsə materikdə qazılmış çuxurlarda, daş qutularda dəfn edilmişlər. Bəzi tədqiqatçılar məşhur Arjan kurqanını da bu mədəniyyətə aid edirlər.

Kopto kurqanları Mərkəzi Asiya ekspedisiyasının 1996-cı ildə Tıva ərazisində apardığı araşdırmalar zamanı aşkar edilmişdir. Aparılan arxeoloji kəşviyyat nəticəsində məlum olmuşdur ki, bu dəfn abidələri dağlara digər abidələrə nisbətən daha yaxın yerləşir. Elə bu da arxeoloqların marağına səbəb olmuşdu.

1995-ci ildə həmin ərazidə kiçik ölçülü **1 №-li kurqan** tədqiq edildi və məlum oldu ki, o, orta əsrlərə aiddir. Elə həmin il arxeoloqlar **2 №-li Kopto kurqanı**nın qazıntılarına başladılar. Bu kurqan çaya daha yaxın idi. Onun qaya parçalarından ibarət olan çiti və çınqıldan tökülmüş xüsusi «meydança»sı vardı. «Meydançanın üstündə çuxur qazıntısından sonra kənara atılmış torpağa və suvaq qalıqlarına rast gəlinmişdir.

Burada aşkar edilmiş beş qəbirdən birincisi düzbucaqlı formaya sahib idi və şimal-qərb - cənub-şərq istiqamətli idi. Onun dərinliyi 1.75 m, digər ölçüləri isə 2.15 x 1.50 m kimi qeydə alınmışdır. Qəbir üçün qazılmış çalanın dibində qəbir kamerasının vaxtilə ağac tirlərdən düzəldilmiş divarlarının və örtüyünün qalıqları aşkar edilmişdir. Burada 25-30 yaşlarında kişi (?) sümüklərinə, boyundan asmaq üçün nəzərdə tutulan və ipə keçirilmək üçün xüsusi deşikləri olan üç maral dişinə, tunc çubuq fraqmentlərinə və yastı başlıqlı sümük sancağa rast gəlinmişdir.

Sümük qalıqlarına əsasən ölünün şimal-qərb istiqamətində, sol böyrü üstə, bükülmüş vəziyyətdə dəfn edildiyi müəyyənləşdirilmişdir (Чугунов К.В., 2005). Qəbrin sol tərəfdəki ağac qalağının içində oval başlıqlı daha bir sancağa, tuncdan düzəldilmiş iki halqavari yaxalığa və nazik çubuğa rast gəlinib.

2-ci qəbir oval formalı çuxurdan ibarət idi və şimal-qərb – cənub-şərq istiqamətli idi. 0.50 m dərinlikdə qazılmış qəbrin ölçüləri 1.90 x 1.30 kimi qeyd edilmişdir. İçi ağac, torpaq və daşla dolmuş qəbrin dibində kül və kömür qalıqları aşkar edilmişdir. Burada 18-20 yaşlarında, sol böyrü üstə, bükülü vəziyyətdə dəfn

edilmiş qadın skeletinə rast gəlinib. Onun sağ əli dirsəkdən bükülü idi. Sol əli isə dizinə doğru uzadılmışdı. Onun dirsəyinə yaxın yerdə kalsitdən hazırlanmış üçoluklu düymə (stiffeninq), kəlləsinin arxa tərəfində firuzədən hazırlanmış iki silindrik formalı muncuq, ombasının sol tərfində 2 diskvari tunc güzgü, qoşa qartal başlı dəstəyi olan tunc bıçaq və iki tunc halqavari asma , sağ tərfində isə iki disk şəkilli tunc güzgü və qaşov tapılmışdır. Qaşovun sümükdən olan hissələrinə naxış vurulmuşdu.

3-cü qəbir də oval formalı idi, fəqət qərb-şərq istiqamətinə yönəlmişdi. 1.45 x 0.88 m ölçülü qəbir 0.72 m dərinlikdə qazılmışdı. Orada ağac, kül, kömür və insan sümükləri qalıqları aşkar edilib (Čugunov, 1998, c.273-308).

4-cü qəbir də 2 və 3-cü qəbirlər kimi olub. 0.40 m dərinlikdə qazılmış bu qəbir şimal-qərb – cənub-şərq istiqamətli idi və 1.95 x 1.30 m ölçüyə sahib idi. Burada gəmiricilər tərəfindən pis hala salınmış, başı şimal-qərb tərəfə olan, sol böyrü üstə, bükülü vəziyyətdə dəfn edilən uşaq skeleti aşkar edilmişdir. Onun sinə hissəsində tunc sinəbəndə, sümükdən hazılanmış və naxışlanmış böyunbağı fraqmentlərinə, bel tərəfində isə deşilmiş maral dişinə və sümükdən hazırlanmış iki zınqırov şəkilli, naxışlı asmaya rast gəlinmişdir.

Qəbirdə gəmiricilər tərəfindən təxrib edilmiş daha bir neçə sümük əşya da tapılmışdır.

5-ci qəbir də oval formalı idi. Şimal-qərb və cənub-qərb istiqamətli qəbrin ölçüləri 1.30 x 0.85 m, dərinliyi 0.45 m kimi qeyd edilib. Qəbir daş və torpaqdan təmizləndikdən sonra orada xəncər formalı, 56 sm uzunluğu və 6 cm eni olan yonulmuş daş aşkar edilmişdir. Burada gəmiricilər tərəfindən təxrib edilmiş körpə skeletinə də rast gəlinib. Onun başı qərb-şimal-qərb istiqamətində idi, sağ böyrü üstə, bükülü vəziyyətdə dəfn edilmişdi (Чугунов К.В., 2005).

**3 №-li Kopto kurqanı** kompleksin mərkəzində yerləşirdi. Onun çitinin kənar daşları şimal-şərq tərəfdən 2 №-li Kopto kurqanına tam bitişik idi. Onun bu hissəsi daha çox dağıntıya məruz qalmışdı. Cənub-qərb tərəfi isə 4 №-li kurqanın qurulması zama-

nı zədə görmüşdü. Tədqiqatlar nəticəsində diametrinin təqribən 8 m olduğu müəyyən edilən bu abidədə 4 qəbir aşkar edilmişdir.

1-ci qəbir daş və torpaqdan təmizlənərkən daşların arasından boz gildən hazırlanmış küpə fraqmentləri çıxmışdır. 1.20 m dərinlikdə qazılmış qəbrin 1.95 x 1.35 m ölçülərində olduğu müəyyən edilmişdir. Döşəmədə, onun bütün perimetri boyu ağac konstruksiyanın qalıqlarına və kül izlərinə rast gəlinib.

Burada 35-40 yaşlarında qadınla 10-11 yaşlarında uşaq skeletləri aşkar edilib. Skeletlər çox dağıldığından və çürüdüyündən onların vəziyyətini müəyyən etmək mümkün olmasa da, qadının daban sümüklərinə əsasən onun sol böyrü üstə, bükülü vəziyyətdə dəfn edildiyi qənaətinə gəlinib.

İki dəfə qarət edilən qəbirdə sadəcə iki sümük sancaq fraqmenti nazik qızıl təbəqəsindən hazırlanmış üzük, qalaydan düzəldilmiş fiqurlu tikmə bəzək, boğaz və baş hissəsi xüsusi işlənmiş dördtilli tunc biz, nazik tunc çubuqdan düzəldilmiş sinəbənd fraqmentləri aşkar edilib.

Düzbucaqlı çala formasında qazılmış 1.65 x. 1.08 ölçülü 2-ci qəbir qərbə meyilli cənub-qərb və şərqə meyilli şimal-şərq istiqamətli idi. O birinci qəbirdən şimalda, iki kurqanın bitişmə yerində aşkar edilmişdir. İçi daş-kəsəklə dolu qəbrin 0.70 m dərinliyində ağac çərçivədə icra edilmiş dəfnin izlərinə rast gəlinib. Buradakı 55-60 yaşlı kişi (?) skeletinin başı qərb - cənub-qərb tərəfə idi. O, sol böyrü üstündə, bükülü vəziyyətdə dəfn edilmişdi. Onun sağ əli dirsəkdən bükülü idi, sol əli isə dizinə tərəf uzanırdı.

Skeletin körpücük sümüyü və boyun hissəsi tərəfdə, ənsə sümüyünün arxasında füruzədən düzəldilmiş iri muncuğa rast gəlinib. Sol obması tərəfdə eyni dəri qılafda tunc bıcaq və sümük dəstəkli tunc biz, sol biləyinin yanıda isə tuncdan altı halqavari tutacaq, müşk keyiginin dişindən hazılanmış asma və naxışlanmış sümük lövhə fraqmentləti aşkar edilmişdir. Bütün bunlardan başqa, qəbirdə gəmiricilər tərəfindən gəmirilmiş maral dişli asma və armudvari formalı dəmir başlıqlı tunc sancaq da tapılmışdır.

0.40 m dərinlikdə qazılmış oval formalı, qərb-şərq istiqamətli, 1.45 x 0.90 m ölçülü 3-cü qəbir 4 №-li kurqanın çitinin kənar

daşlarının altında aşkar edilib. Qəbir içinə dolmuş daş-kəsəkdən təmizləndikdən sonra orada sol böyrü üstə, bükülü vəziyyətdə, qərb istiqamətdə dəfn edilmiş uşaq skeletinə rast gəlinmişdir.

Qəbrin şimal divarı boyu 1 m uzunluğunda yanmış kötük parçası vardı. Uşağın boyun sümüyü və döş qəfəsi tərəfdə bir neçə muncuq aşkar edilib. Onlardan biri firuzədən düzəldilmişdi və yastı formada idi. Dörd muncuq sarı şüşədən düzəldilmişdi, assemmetrik bikonik formalı idi. 30 muncuq isə ağ və mavi pastadan hazırlanmışdı. Onlardan bəziləri parçalanmışdı.

4-cü qəbir də oval formaya sahib idi. Şimal-qərbə meyill qərb və cənub-şərqə meyilli şərq istiqamətli bu qəbrin ölçüləri 1.30 x 0.80 m idi. O birinci qəbirdən cənub-şərq tərəfdə yerləşirdi və üzərində 4 №-li kurqandakı qonşu qəbirin içindən çıxarılmış torpaq qalağı vardı. Həmin kurqanın kromlexi qəbrin şimal-qərb tərəfinin üstündən keçirdi.

Qəbirdəki sümüklərin çoxu gəmiricilər tərəfindən ətrafa dağıdılmışdı. Bu səbəbdən burada dəfn edilmiş uşağın ilkin vəziyyətini müəyyən etmək mümkün olmayıb. Ehtimal ki, o, qərb – şimal-qərb istiqamətdə dəfn edilmişdi. Meyidin döş qəfəsi tərəfdə çox sayda muncuq tapılmışdır. Bunlardan 60-ı mavi rəngli şüşə pastadan hazırlanmışdı. Digər iki muncuqdan biri əqiqdən idi və kürə formasına malik idi. Silindrik formalı daha bir aşkar edilmiş muncuqsa firuzədən düzəldilmişdi (Čugunov, 1998, c.273-308).

Kopto məzarlığında tədqiq edilmiş kurqanlardan ən cavanı **4 №-li kurqan** olub. Onun oval formalı çitini bir neçə cərgə daş əhatə edirdi. Yerüstü tikilinin diametri şimal-cənub istiqamətdə 11.30 m-ə, qərb-şərq istiqamətində 8 m-ə çatırdı. Çifti əhatə edən daş düzümünün şərq tərəfində küpə formalı keramik qab fraqmentlərinə rast gəlinmişdir. Şimal-qərb tərəfdə isə iri və kiçik buynuzlu heyvan sümüklərinin qalıqları aşkar edilmişdir.

Çiti əhatə edən daş düzümünün şimal tərəfində yerə şaquli şəkildə basdırılan, hündürlüyünə görə digər daşlardan fərqlənən və yer səthindən 0.65 m hündür olan iri daş parçası diqqət çəkirdi.

Kurqanın mərkəzi oxu üzrə dörd qəbir aşkar edilmişdir. Onların yanlarında çalalar qazılarkən çıxarılan torpaqların izləri gö-

rünürdü. Mərkəzdəki 1-ci qəbirdən cənub-şərq tərəfdə daha bir qəbir qeydə alınmışdır.

Digər qəbirlərdən xronoloji baxımdan daha qədim olan 2.0 x 1.50 m ölçülü 1-ci qəbir oval formaya, şimaı-şərq - şərq və cənub-qərb – qərb istiqmətinə sahib idi. Onun içinə bir vaxtlar üstünü örtən ağac tirlərin qalıqları və daş-kəsək dolmuşdu. Ağacların bəzisi yanmışdı. Çox-çox əvvəllər qərət edilmiş 1.15 m dərinlikli bu qəbirdə ətrafa səpələnmiş 9 insan skeletinə rast gəlinmişdir.

İki uşağın dəfn edildiyi 2-ci qəbir oval formalı və şimal-qərb – cənub-şərq istiqamətli idi. 1.10 x 0.60 m ölçülü qəbirin içindəki uşaqlardan biri (11-13 yaş) sol böyrü üstə, qərb istiqamətində dəfn edilmişdi. İkinci uşaqsa sağ böyrü üstündə uzadılmışdı. Onun da istiqməti qərb tərəfə idi.

3-cü qəbir də oval formalı olub. O, qərb-şərq istiqamətli idi və 1-ci qəbirdəndən cənub-qərb – cənub tərfdə yerləşirdi. 1.75 x 1.35 m ölçülü bu qəbrin bir vaxt ağac örtüyə sahib olduğu içindəki qalıqlardan bilinirdi. Burada üç adamın səpələnmiş sümüklərinə rast gəlinmişdir. Onlardan biri 35-40 yaşlı kişiyə, ikincisi 35-40 yaşlarında qadına, digəri isə 11-13 yaşlı qız uşağına aid idi.

Qəbrin döşəməsində, şimal-şərq divarının yanında, kişinin əli tərəfdə dəri oxqabının qalıqları və tunc ox ucluqları, bel tərəfində toqqa qalıqları, tunc çubuq fraqmentləri və s. aşkar edilmişdir.

Düz olmayan oval formalı 4-cü qəbir 2.40 x 1.80 m ölçülü və şimal-cənub istiqamətli idi. O, mərkəzdəki qəbirdən şimal-şərq tərəfdə yerləşirdi. Qəbrin qərb divarının yanında uzunluğu 1 m-ə çatan yanmış ağac oduncağının qalığına rast gəlinmişdir. Qəbirdə 6 nəfər dəfn edilmişdi. Onların sümükləri səpələnmiş və bir-birinə qarışmış vəziyyətdə idi. Sümüklər çox çürümüşdülər. Təbii ki, gəmiricilər də öz işini görmüşdü. Sümüklər əsasında dəfn edilənlərin 8-9 və 4-5 yaşlarında iki uşaq, 18-20 yaşlarında kişi və 25-30, 18-20 və 16-18 yaşlarında üç qadın olduğu müəyyən edilmişdir. Burada dəmir bıçağa və firuzədən hazırlanmış muncuğa rast gəlinib.

Şimal-qərb – cənub-şərq istiqamətli, 1.35 x 1.0 m ölçülü 5-ci qəbir 3-cü qəbirdən cənubda yerləşirdi və kurqanın çitini əhatə edən daşlara bitişik idi. Burada üç nəfərin – 35-40 və 16-18 yaş-

larında iki qadının və bir uşağın dəfn edildiyi məlum olub. Onların skeletləri qəbrin içinə dolmuş daş-kəsəkdən və ağac qalıqlarından təxrib olunmuş vəziyyətdə idi. Qəbirdə sadəcə firuzədən düzəldilmiş bir silindrik muncuğa rast gəlinib (Чугунов К. В., 2005).

Kopto məzarlığının tədqiq edilmiş kurqanları komplekslərin xronoloji ardıcıllığı ilə diqqət çəkir. Buradakı kurqanlardakı 14 qəbrin düz yarısı qarət edilsə də, yarısı toxunulmamış qalmışdı. Hətta qarət edilmiş qəbirlərdə də, - 2 №-li kurqanın üçüncü qəbrindən başqa, - az da olsa arxeoloji material aşkar etmək mümkün olmuşdur. Nəticədə müəyyən fikrə gəlmək üçün yetərincə informasiya əldə edilmişdir.

İlk öncə qeyd edək ki, 2 və ya 3 kurqanın bir-birinə bitişik şəkildə qruplar təşkil etməsi Aldı-Bel mədəniyyəti üçün xarakterikdir (Грач, 1980, s. 24). Bununla belə, V. Semyonovun Sarıq-Bulun məzarlığında apardığı qazıntılar (Семенов, Килуновская, 1990, s. 36, şək. 1), eləcə də həmin məzarlığın Kopto məzarlığındakı kurqanlarla müqayisəsi göstərir ki, bu halda sohbət kurqanların bitişik olmasından daha çox, bir-birinin üstünə çıxmasından gedə bilər. Bu ehtimalın doğru olduğunu Xemçik-Bom III və V (Грач, 1980, s. 242, şək.104), Aldı-Bel, Kuyluq-Xem məzarlıqlarının planları da sübut etməkdədir.

2-ci qəbirdən Aldı-Bel mədəniyyətinin «klassik» abidələri üçün xarakterik olan bıçaq, güzgü və daraq tapılmışdır (Грач 1980, с. 128).

Qəbirdə aşkar edilən, üzləri əks istiqamətlərə yönəlmiş qoşa qartal başı formasında hazırlanmış dəstəyi olan bıçağın analoqlarına Minusinsk hövzəsi abidələrində də rast gəlinib. Onlardan bu tapıntıya ən yaxını V. Radlovun kolleksiyasındakı bıçaqdır. Bu tip bıçaqlar haqqında M. Zavituxina öz məqalələrinin birində geniş məlumat verməkdədir (Завитухина, 1983, с.86, кат. 258).

Maraqlı tapıntılardan biri də qaşovdur ki, onun sümükdən hazırlanmış hissələri Sarı-Bulun məzarlığındakı 1 №-li kurqanda aşkar edilmiş qaşovun detalları ilə eynidir. Onlara vurulmuş naxışlar da, demək olar ki, eyni idi və ya çox bənzəyirdi.

Qeyd edək ki, 1 №-li Sarı-Bulun kurqanından çıxan qaşov da güzgü ilə birlikdə tapılmışdır. Oradakı güzgü isə bir qədər fərqli idi. Onun dəstəyi ayaq üstə duran qoç formasında düzəldilmişdi (Семенов, Килуновская, 1990, с. 38, şək. 2, 2). Bu tip qoç dəstəkli güzgülər son tunc dövrünə aid Orta Yenisey abidələrindən də məlumdur. Onlara Taqar mədəniyyəti abidələrində də rast gəlinmişdir. Arjan-2 kurqanında aşkar edilmiş materialdan isə belə məlum olur ki, hər iki güzgü növü Aldı-Bel mədəniyyətində yan-yana mövcud olub (Чугунов, Парцингер, Наглер, 2002).

Kompleksin qədimliyini buradan tapılmış üçqatlı kalsit toqqa da sübut edir ki, bunun bənzərinə Arjan-1 kurqanında da rast gəlinib. 2 №-li Kopto kurqanının 2-ci qəbrindəki uşağın yanında aşkar edilmiş naxışlı sümük əşyalar, o cümlədən zınqrovu xatırladan üç asma amulet daha sonrakı dövrlərə aid Uyuq-Saqlın mədəniyyətin üçün də xarakterikdir. Lakin onlara bəznər amuletlər Sayan-Altayın tunc dövrü kurqanlarından da əldə edilib və daha qədim mənşəyə malikdir (Мачинский, Чугунов, 1998, с. 183–188). İşin ən maraqlı tərəfi isə odur ki, bənzər əşyalara bir çox hallarda yaşlı qadınların qəbirlərində də rast gəlinir. Boş-Dağ yaxınlığındakı 4 №-li kurqandakı uşaq qəbrindən bənzər əşya tapılıb. Bu kurqan da Kopto kurqanları kimi Aldı-Bel mədəniyyətinə aid edilir (Савинов, 2002, s. 86). Eyni hal xeksur-kurqanlarda da qeydə alınıb.

2000-2004-cü illərdə Rusiya Almaniya birgə ekspedisiyası tərəfindən tədqiq edilmiş Arjan-2 kurqan kompleksi də Aldı-Bel mədəniyyətinə aid edilir və orada həmin mədəniyyətinin daşıyıcılarının elitar hissəsinin dəfn edildiyi hesab edilir (Čugunov, Parzinger, Nagler, 2003; Чугунов, 2004).

Arjan kurqanlarını e.ə. IX-III əsrlərə aid Uyuq mədəniyyətinə aid edənlər də var. Bu mədəniyyət öz adını A. Adrianovun 1916-cı və S. Teplouxovun 1920-ci illərdə həmin mədəniyyətə aid edilən ilk nümunələrini tədqiq etdikləri Uyuq çayının (Tıvanın Piy-Xem bölgəsi) adından almışdır. Onu ilk dəfə təsvir edən və digər mədəniyyətlərdən fərqləndirən L. Kızlasov olub (Мачинский Д. А., 2009, с. 463).

Uyuq mədəniyyətinin yayıldığı areala Turan-Uyuq hövzəsindən başqa, Şərqi Altay və Şimal-Qərbi Monqolustan əraziləri də daxildir.

Orta tunc-erkən dəmir dövründən etibarən qədim Türk mədəniyyətinin əsas mərkəzlərindən biri də Yenisey ətrafı bölgə hesab edilir. Çox sayda çöllük hövzənin ərazisindən axan Yenisey çayı mənbəyini Tıva hövzədən alır və bu ərazini Turan-Uyuq hövzəsindən ayıran Uyuq silsiləsi böyu axaraq Turan-Uyuq hövzəsinin qərb tərəfindən kəsir, Sayan dağlarının arasından keçir və Böyük Minusinsk hövzəsinə çıxır. Bundan sonra Kosin silsiləsindən keçən çay Sıdo-Erbin hövzəsinə daxil olur, ardınca da Batani girişindən keçib Çulım-Yenisey hövzəsinə, oradan da Şərqi Sayana axır.

Çayın keçdiyi bütün hövzələrdən ən yüksəyi və ən soyuğu Turan-Uyuqdur. O, dəniz səviyyəsindən 1000 m yüksəklikdə yerləşir. Bölgənin ən gözəl otlaqları da məhz burada, Arjan qəsəbəsi ətrafında cəmləşib. Məşhur Arjan kurqanları da məhz orada aşkar edilib (Грязнов М. П., 1980, с. 3).

Arjan-2 öz ölçülərinə görə Tıvanın ən böyük kurqanıdır. Burada müxtəlif zamanlarda icazəsiz qazıntılar aparmış yerli sakinlərin, eləcə də ona baxış keçirmiş V. Derpqolts və L. Kızlasovun bildirdiklərinə görə, onun üst örtüyü bütünlüklə daşdan qurulmuşdu. Üst səthi boşqabı xatırladan kurqanın yan tərəflərdəki hündürlüyü 3-4 m-ə çatırdı. Yastı olan üstünün mərkəzi bir qədər alçaq, daha doğrusu basıq idi. Buradakı çaladan bulaq fışqırırdı. Bulağın suyu təmizliyi ilə seçilirdi. Tıvalılar onu müqəddəs sayırdılar. Ora bir növ pir idi.

Arxeoloji tədqiqatlara başlanıldığı 1971-ci ildə kurqan artıq hər tərəfi qazılmış və üst örtüyü buldozerlərlə darmadağın edilmişdi. O dövrdək hündürlüyü 1-1.5 m idi. Ətrafa buldozerlərin qopardığı ağac tirlərin qalıqları səpələnmişdi. Daşların altından görünən və hələ nisbətən salamat qalan ağac konstruksiyanın içəri daxil ola bilmək məqsədi ilə kimlər tərəfindənsə dağıdılmağa və yandırılmağa cəhd edildiyi açıq-aydın görünürdü. Lakin xoşbəxtlikdən ağac konstruksiya çox möhkəm qurulmuşdu və qarətçilərin içəri daxil olması mümkün olmamışdı. Kurqanın

mərkəzi hissəsi isə bütünlüklə dağıdılmış və oradan artıq yenicə salınmış Arjan-Tarlık şosse yolu keçirdi.

Arjan-2 kurqanının örtüyü əsasəm 25-50 kq ağırlığında daşlardan qurulmuşdu. Amma burada daha ağır daşlara da rast gəlinirdi. Örtüyün altında indiyə qədər başqa kurqanlarda rast gəlinməyən çox mürəkkəb və möhkəm ağac konstruksiya aşkar edilmişdir. Bu könstruksiya həm ağır örtüyü saxlayır, həm qəbirləri əhatələyirdi. Onun diametri 60 m-ə, hündürlüyü isə 2.5-3 m-ə çatırdı.

Kurqanda yerli xanın və arvadının, 15 əyanın qəbirlərinə, eləcə də atların kütlıvi şəkildə dəfn edildikləri 7 qəbrə rast gəlinmişdir. Bundan başqa, xarici ölkə hökmdarlarının xana hədiyyə kimi göndərdikləri atların dəfn edildiyi 6 qəbir də aşkar edilmişdir. Beləliklə, Arjan-2 eyni gündə üst-üstə 29 dəfnin gerçəkləşdirildiyi mürəkkəb bir kompleks kimi gözdən keçirilməlidir.

Kurqan skif öncəsi dövrdən erkən skif dövrünə keçid mərhələsinin əsas abidəsi hesab edilir. Onu Tıvanın erkən skif dövrü abidəsi kimi gözdən keçirmək qəbul olunub. Buna səbəb oradan halqa şəkilli bəbir fiqurunun çıxmasıdır ki, bu tip fiqurlar skif incəsənəti üçün xarakterikdir və onun analoquna e.ə. VII əsrdən daha qədim dövrə aid kurqanların heç birində rast gəlinməyib. Bu tip fiqurlar ilk dəfə Cənubi Azərbaycan və Loristan abidələrində qeydə alınıb. Elə bu da «Arjanlı skiflərin» bu bölgəyə Ön Asiya və ya Qafqazdan gəldiklərini sübut edir. Arjan-2 kurqanının yerləşdiyi ərazi Tıvanın «Xaqanlar vadisi» kimi məşhurdur. Burada çox sayda böyük ölçülü kurqan silsiləsi cəmləşmişdir. Bunlar əsasən ayrı-ayrı yerli xanların, eləcə də onların qohumlarının məzarlarıdır. Zəncir şəklində uzanan bu kurqan silsilələrinin hər birinin müxtəlif nəsillərə aid olduğu ehtimal edilir. Belə silsilələrdən biri Arjan qəsəbəsinin qərbində yerləşir. Amma onlara şərq tərəfdə də rast gəlinir. Alimlər onları məntəqələr üzrə bölmüşlər. Məsələn, 4-cü məntəqə qəsəbənin 1 km qərbində qeydə alınıb. Buradakı zəncirvari silsilə 6 kurqandan ibarətdir. Bunlardan çox da böyük olmayan üçü digər kiçik ölçülü, daş örtüklü kurqanlarla yarımhalqa şəklində əhatə edilib. Onlar əsas kurqanlardan 20-70 m aralıda yerləşirlər. Əsas kurqanların ör-

tükləri torpaqdandır. Onlar 1.5-3 m hündürlüyə, 40-50 m diametrə sahibdirlər.

5-ci məntəqə Arjan qəsəbəsinin 4 km qərbində qeydə alınıb. Buradakı zəncirvari silsiləyə 11 böyük və kiçik torpaq örtüklü kurqan daxildir. Onlardan nisbətən daha böyük olan 7-sinin diametri 30-50 m-ə çatır.

6-cı məntəqə qəsəbədən 6 km qərbdə yerləşir və üç böyük kurqanı əhatə edir. Bu kurqanlar da digər kurqan silsilələri kimi qərbdən şərqə tərəf uzanan zəncirvari qaydada düzülmüşlər. Onların torpaq örtüklərində daş konstruksiyaların çölə çıxan hissələrini asanlıqla sezmək mümkündür. Bu dəfn abidələrinin cənub tərəfində onları yarımhalqa şəklində əhatə edən daş düzümləri qeydə alınıb. Kurqanların hündürlükləri 2-6.5 m, diametrləri isə 50-75 m-dir.

7-ci məntəqə Çkalovka kəndi yaxınlığında qeydə alınmış iki paralel kurqan zəncirindən ibarətdir. Torpaq örtüklü bu kurqanların 13-ü bir, 12-si isə digər silsiləni təşkil edir. Kurqan zəncirlərinin ümumi uzunluğu 3 km-ə yaxındır. Bunlardan ən böyüyü 1916-cı ildə A. Adrianov tərəfindən qazılmışdır. Onun hündürlüyü 8 m-ə çatırdı (Грязнов М. П., 1980, с. 3-5).

Bunlardan üçü xüsusi diqqət çəkir. Sohbət Arjan-1, Arjan-2 və Arjan-8 kurqanlarından gedir.

Arjan-1 kurqanı Uyuq çayının sol sahilində, Arjan qəsəbəsindən 9 km şərqdə yerləşir. Hündürlüyü 1.5 m, diametri 80 m olub. Yastı formalı idi və örtüyü daşlardan qurulmuşdu. Onun da örtüyünün altında Arjan-2 kurqanının mürəkkəb konstruksiyasına bənzər ağacdan qurulmuş mürəkkəb konstruksiya olub. Bu kurqan da digəri kimi buldozerlərlə qismən dağıdılmışdı.

Eyni sözləri Arjan-8 kurqanı barədə də söyləmək olar. O, diametri 120 m-ə çatan Arjan-2 kurqanına nisbətən bir qədər kiçik, Arjan-1 kurqanından isə daha böyük idi. Belə ki, bu dəfn abidəsinin diametri 105 m olub. Uyuq çayının sağ sahilində, Çkalivka qəsəbəsinin 3.5 km cənub şərqində yerləşən Arjan-8 kurqanının dağılmış örtüyünün hündürlüyü arxeoloji qazıntılar dövründə 1 m kimi qeydə alınıb (Грязнов М. П., 1980, с. 3-5).

Radiokarbon analizlərinin nəticələrinə əsasən Arjan-2 kurqanının e.ə. VII əsrin ortalarına aid olduğu müəyyən edilib. Bu göstərici Qazaxıstan, eləcə də Altayın onunla sərhəddə yerləşən hissəsindəki erkən skif dövrü kurqanlarının yaşı ilə eynidir (Шульга 2002, s. 187, şək. 2). Arjan-1 kurqanını isə bəzi alimlər e.ə.IX-VIII əsrlərə aid edirlər. Hərçənd ki, radiokarbon analizlərinin nəticələri çox böyük zaman intervalına, yəni e.ə. 892-552-ci illərə işarə edir (Евразия в скифскую эпоху, 2005, s. 102). Bu cür qeyri-ciddi və qeyri-elmi yanaşma Avrasiyanın şərqindəki skif kurqanlarının tarixini süni surətdə qədimləşdirərək, skiflərin Ön Asiyadan Altaylar istiqamətində deyil, Altaylardan Ön Asiya istiqamətinə hərəkət etdiklərini «sübut» etmək üçün edilir.

Tıvada Aldı-Bel mədəniyyətinin son mərhələsində fən adətlərində müəyyən dəyişikliklərin baş verdiyi müşahidə edilir. Bu dəyişiklik özünü Kopto kurqanlarında açıq-aydın göstərir. Bununla belə, Arjan-1 və Arjan-2 kurqanları Tıvanın ilk və ən erkən skif kurqanları hesab edilir. Bölgənin digər skif kurqanları e.ə. VI əsrdən daha qədim deyillər (Евразия в скифскую эпоху, 2005, s.137).

Mövzumuz baxımından Teplaya məzarlığının da böyük önəmi var. Tıva Respublikası ilə tam sərhəddə, Us çayının sol sahilində, Us dağlararası hövzəsində (Kracnoyarsk vilayəti, Yermak rayonu) aşkar edilmiş bu məzarlıq Arjan-1 və Arjan-2 kurqanlarından 30 km şimalda yerləşir. Məzarlıq bir-birinə yaxın dövrlərdə qurulmuş üç kurqandan ibarətdir. Bunlardan ikisi 1993-1994-cü illərdə A. Bokovenko tərəfindən tədqiq edilmişdir (Bokovenko 1994a; 1994b). Bu kurqanlar talan edilsələr də, əldə edilən əşyalar onlarda dəfn edilən şəxslərin yüksək statusundan xəbər verir. Əldə edilən əşyalarsa, papaq və geyimə bərkidilən qızıl əşyalardan, tunc güzgüdən, ox ucluqlarından, dəmir akinakdan, keramika nümunələrindən və s. ibarət olub. Bu materialları təhlil edən A.Bokovenko həmin abidələri ilkin olaraq e.ə. 500-300-cü illərə aid etmişdi (Bokovenko1994a).

Buradakı materialların analogiyalarına Tıvanın erkən Uyuq-Saqlı mədəniyyətinə aid edilən Turan-4 (126 №-li kurqan) (Маннай-оол, 1970, şək. 22), Kuyluq-Xem 1 və Saqlı-Baji-

2,3,4 (Грач, 1980, şək. 6, 32, 49, 86), eləcə də e.ə. VI-III əsrlərə aid edilən Aymırlıq (Мандельштам, 1983, şək. 2), Suqluq-Xem-1 və 2, Koş-Pey (Семенов, 2003, тabl. 25, 34, 55) və Kop-to (Чугунов, 2000a, şək. 2) abidələrində də rast gəlinmişdir.

Teplaya məzarlığından əldə edilmiş ox ucluqları buradakı kurqanların e.ə.VI-IV əsrlərə aid olduğunu ehtimal etməyə imkan verir (Bokovenko 1994a; Bokovenko 1994b; Чугунов 2000a; 2000б). Radiokarbon analizləri üçün 1 və 2 №-li kurqanlardan götürülmüş kömür nümunələri əsasında müəyyən edilmiş tarix (2490±60 BP, Ле-5132), başqa sözlə 1σ üzrə e.ə. 770-510-ci illər, 2σ üzrə isə e.ə. 790-410-cu illər olmuşdur. Kombinə edilmiş tarix təqvim tarixi ilə çox böyük interval göstərir: e.ə. 810-540. Bu isə e.ə. VI-V əsrlər deməkdir.

Bütün bu nəticələri təhlil edən A. Bokovenko hazırda 2 №-li kurqanı e.ə. VII əsrin sonlarına aid etməyi daha doğru sayır.

Tıvanın erkən skif dövrü kurqanları Turan dövlətinin sərhədlərinin artıq e.ə. VII əsrdə Qafqazlardan Altaylara qədər uzandığını sübut edir. Eyni zamanda belə məlum olur ki, Skif dairəsi xalqlarından bölgədə ilk məskunlaşanlar işquzlar yox, saklar olmuşlar. Yəni Tıvanın erkən skif kurqanları saklara aiddir (Bokovenko 1994a).

### Saklara aid İssık kurqanı və İssık yazısı

Qədim Çin mənbələrində saklardan e.ə.V əsrdən etibarən söz açılmaqdadır. Çin arxeoloqlarının Cunqariyada üzə çıxardıqları və tədqiq etdikləri sak qəbirləri də e.ə. V-lV əsrlərə aid edilir. İssık, İsıkkul və Altay (Pazırıq) kurqanları, eləcə də Urumçi yaxınlığından tapılan kurqanlar da sak kurqanları hesab edilir və həmin dövrü əhatə edir (Восточный Туркестан..,1988, с. 229).

Bu kurqanlardan birindən, daha dəqiq desək, Qazaxıstan ərazisindəki İssık kurqanından tapılan türkcə yazılar sakların zəngin yazı və ədəbiyyat ənənələrinə sahib olduqlarını söyləməyə əsas verir. Oljas Süleymenov yazır ki, 1970-ci ilin yazında Alma-Atanın həndəvərində, İssık gölünün yaxınlığında Altay tipli kurqan-qəbir aşkar edildi; ilkin araşdırmaya görə, yeni tapıntı Pazırık kurqanı dövrünə (e.ə.Vl-V əsrlər) aid edildi. «İssık

sərdabəsində üzərində horizontal yazı olan qab tapılmışdı: 26 hərfdən ibarət olan bu əlifba Orxon-Yenisey yazısını xatırladır» (Süleymenov O.,1993, s.178).

E.ə. VIII-IV əsrlərdə sakların artıq Cənubi Sibir, Qazaxıstan və Orta Asiyada məskunlaşdığını təsdiq edən yüzlərlə kurqan məlumdur. Arxeoloji ədəbiyyatda onların bu ərazilərdə nə vaxtdan məskunlaşması və bölgəyə haradan gəlmələri barədə çox sayda ehtimallar yer almaqdadır.

Haqqında söz açdığımız kurqanların önəmli bir hissəsi Qazaxıstanın cənub-şərqini və Qırğızıstanın şimalını əhatə edən Jeti-Su (Yeddi su // Yeddi çay) bölgəsində və Dağlıq Altay ərazisində qərar tapıb. Bu ərazilər olduqca böyük önəm daşıyan iri ölçülü daş və torpaq örtüklü kurqanların cəmləşdiyi ən əhəmiyyətli məkanlardan biri hesab edilir. Bu məkanı önəminə gərə yalnız skif dövrü Şimali Qara dəniz bölgəsi ilə müqayisə etmək mümkündür. Sözügedən bölgənin ən önəmli dəfn abidələri içərisində, şübhəsiz ki, Pazırık və İssık məzarlıqlarının müstəsna yeri var.

Elm aləmində «İssık kurqanı» adı ilə tanınan məşhur kurqanın da daxil olduğu İssık məzarlığı Esik (İssık) dağ çayının sol sahilində, Almatıdan 50 km şərqdəki Esik (İssık) şəhərinin yaxınlığında aşkar edilmişdir. Burada diametrləri 30-90 m, hündürlükləri isə 4-15 m arasında dəyişən 45 xaqan və ya xan kurqanı qeydə alınmışdır. Konkret olaraq İssık kurqanına gəlincə, onun diametri 60 m, hündürlüyü isə 6 m olub.

1969-1970-ci illərdə K. Akişevin başçılıq etdiyi ekspedisiya tərəfindən tədqiq edilən İssık kurqanının üst örtüyü götürüldükdən sonra qədim horizintdan 1.2 m dərinlikdə iki məzara – mərkəzi və yan məzarlara rast gəlinmişdir. Xaqanın dəfn edildiyi mərkəzi qəbir bir neçə dəfə talana məruz qalsa da, ondan 15 m aralıda yerləşən və xaqanın arvadına məxsus olan yan qəbir toxunulmamış qalmışdı. Buradakı qəbir kamerası Tyan-Şanda bitən yaxşı yonulmuş şam ağaclarından qurulmuşdu. Onun şimal hissəsində qadın skeleti aşkar edilmişdi. Lakin nədənsə elmi ədəbiyyatda ondan daha çox kişi, daha dəqiq desək, təkin və ya döyüşçü (Seyidov M., 1984; İsmayıl M.,1955, s. 14) kimi söz açılmışdır. Buna səbəb

onun yanında silahın tapılması səbəb olub. K.Akişev isə ondan «Qızıl adam» kimi bəhs etmişdir (Акишев К., 1978). Bu qarışıqlığa səbəb antropoloji tədqiqatlar üçün göndərilən skeletin yolda müəmmalı şəkildə yoxa çıxması olub (Фазылова Г., 2011).

Qəbirdən 4000-dən artıq qızıl əşya, dəmir xəncər və qılınc, gümüş güzgülər, eləcə də tunc, gümüş, keramika və ağacdan hazırlanmış qablar tapılmışdır. Metal qabların bəzisinin üzəri qızılla işlənmişdi.

İssık kurqanının önəmi oradan əldə edilmiş zəngin arxeoloji materialla ölçülür. Çünki İssık məzarlığındakı qazılmış digər kurqanların hamısının qarət edilmiş olduğu məlum olmuş və onlarda çox az sayda materiala rast gəlinmişdir.

İssık abidəsinin qazıntılarına başçılıq etmiş K. Akişevin yazdığına görə, kurqandan əldə edilmiş materialın verdiyi zəngin informasiya sakların qədim tarixini, maddi və mənəvi mədəniyyətini, eləcə də dilini və yazı mədəniyyətini tədqiq etmək baxımından əvəzedilməz xəzinədir. Bu əşyaların içində üzərində sak yazısı olan gümüş boşqabın önəmini isə heç nə ilə müqayisə etmək mümkün deyildir (Акишев К., 1978, s. 8).

Sözügedən boşqabın üzərindəki yazı tapıldığı andan mütəxəssislərin diqqətini özünə cəlb etmişdir. Qazax alimi A. Amonjolov boşqab «üzərindəki yazını oxumuş və belə qənaətə gəlmişdir ki, bu qəbrin sahibi türkdilli sak olmuşdur» (İsmayıl M.,1955, s. 14). Onun dediyinə görə, «Alma-Ata yaxınlığında sak qəbrindən tapılmış runabənər yazı, nəticə etibarilə, Yeddisu köçərilərinin danışdıqları qədim türk dilidir» (Амонжолов А.С., 1971, c. 66).

Tədqiqatçıların bir qismi alimin dedikləri ilə tam razılaşır. Onlar bu fikirdədirlər ki, arxeoloq K. Akişevin İssık kurqanından tapdığı qabın «eynən kurqanın özü kimi, 2500 il yaşı var», bu yazı iskit və sakların ilk yazılı abidəsi»dir və «bu abidə onların dili barədə məlumat verməkdədir» (Аджи М., 1998, s.114).

İssık yazısının hərflərinin Orxon-Yenisey əlifbasının daha qədim və xüsusi bir variantı olduğunu və onlar arasındakı genetik bağlılığı inandırıcı şəkildə açıb göstərən E. Əlibəyzadə (Əlibəyzadə E., 1998, qeyd 2) yazır ki, «İssık yazısı nəsr dili nümunəsidir. Öz

yığcamlığı ilə diqqəti cəlb edir. İkicə cümlədə hər şey aydın olur. Bu dil, təxminən 2500-3000 il bundan əvvəl danışdığımız ümumtürk dili və onun yazıda ifadəsidir» (Əlibəyzadə E.,1982, s. 290).

İssık kurqandan tapılan və Orxon-Yenisey yazılarından daha qədim olan yazının əlifbası, yuxarıda qeyd edildiyi kimi, türk-run əlifbasının variantlarından biridir, lakin boşqabın üzərindəki yazı həmin əlfba ilə yazılmış yeganə epiqrafik abidə deyildir. Murad Acinin yazdığına görə, Termez yaxınlığındakı Kara-Təpədə aparılan arxeoloji tədqiqatlar zamanı II-IV əsrlərə aid qədim bir buddist məbədi tapılmışdır. Həmin məbəddən tapılan qabların üzərində də eyni əlifba ilə qələmə alınmış yazılar aşkarlanmışdır. Eyni yazı növünə Əfqanıstan ərazisində fransız geoloqları da rastlamışdılar (Аджи М., 1998, s.115).

Murad Acinin söylədiklərini İ. Dyakonov (Фридрих И., 1979, c.224) və B. Livşits də (Лившиц В.А., 1976, s.165-166, qeyd 14; История Казахской ССР, 1977, c.220) təsdiqləməkdədir. Fəqət bütün əsərlərində skif və sakları irandilli kimi təqdim etməyə çalışan bu alimlər fakt qarşısında qaldıqlarından, yazıların dilinin türk dili olduğuna göz yummuş və onu sadəcə "İssık yazısı" adlandırmışlar. Məsələn İ.Dyakonov yazır ki, Orta Asiyada və Əfqanıstanda ilk tapıldığı yerin - Almatıdan 50 km aralıdan tapılmış kurqanın adı ilə şərti olaraq "İssık" adlandırılan heca və ya hərf yazısı tapılmışdır. Eyni yazıya Mərkəzi Əfqanıstandan tapılan e.ə. I əsrə aid trilinqvada da, kxaroştxi əlifbası ilə hind-prakrite dialektində və yunan əlifbasının bir növü ilə baktriya dilində qələmə alınmış yazılarla birlikdə rastlanmışdır. «Eləcə də Cənubi Özbəkistan, Cənubi Tacikistan və Şimali Əfqanıstandan tapılan və I-VI əsrlərə aid edilən (?) qab qırıqları üzərində də eyni yazı nümunələri ilə rastlaşırıq. Bu yazının yaranma yeri, ehtimal ki, sovet Özbəkistanı və Tacikistanının cənub-şərq hissəsi və Əfqanıstan olmuş və çox güman ki, oradan köçəri saklar tərəfindən gətirilmişdir» (Фридрих И., 1979, c.224).

Bir sözlə, İ. Dyakonov təkzibedilməz fakt qarşısında qalmasına baxmayaraq, həmin yazının guya sakların kənardan əxz etdiklərini, yəni onların öz kəşfi olmadığını söyləyir, fəqət nədən həmin

yazının ən qədim nümunəsinə məhz saklara aid kurqanda rast gəlindiyini izah etmir. Və bu onun yeganə ziddiyyətli fikri deyil. O bir yandan yazır ki, həmin yazı təqribən 1000 il işlənmişdir, bir qədər sonra isə onun guya birdəfəlik istifadə üçün kəşf edildiyini iddia edir. Daha sonra isə "İssık" yazısının başqa yazı növləri ilə, o cümlədən kxroştxi və brahmi əlifbaları ilə əlaqəsinin olmadığını söyləyir, o biri yandan isə onun qədim hind yazıları kxroştxi və ya brahmidən törəmiş ola biləcəyini iddia edir və dolayısı ilə həmin əlifbalar arasında müəyyən oxşarlığın olduğunu etiraf edir (Фридрих И., 1979, с. 224), amma nədən "İssık" yazısını həmin yazılardan daha qədim dövrə aid olduğunu izah etmir.

Fakt isə budur ki, Orxon-Yenisey əlifbası ilə genetik cəhətdən qohum olan (Əlibəyzadə E., 1998, qeyd 2) İssık yazısı adı çəkilən iki hind yazısının qədim variantları ilə bəzi oxşar cəhətlərə malikdir. Brahmi əlifbalarının bəzi işarələrinin bəzi türk tamğaları ilə eyniliyinə hələ vaxtilə Ə. Hüseyni və C. Cəfərov diqqət çəkmişdilər. Məsələn, Cəfər Cəfərov göstərmişdir ki, qaranoqayların as və ya az soyunun tamğası Sofu Novruz pirində tapılmış işarə ilə eyni olmaqla yanaşı, həmin işarəyə eramızdan əvvəl 3-cü əsrdə Hindistanda formalaşdığı ehtimal edilən brahmi əlifbasının “ça” və “ba” hecalarının qrafik təsvirində də rast gəlinir (Cəfərov C.,1987, s. 29-36).

Həmin əlifbada “tha” hecasını bildirən qrafem də ağnoqayların türkmən soyunun tamğası ilə eynidir və bu işarənin ən qədim nümunəsi gəmiqayadan tapıl-mışdır. Brahmi əlifbasındakı “dha” hecasının işarəsi isə qaranoğayların konqes və ya kəngər soyunun tamğası ilə üst-üstə düşür və eyni işarəyə Sofu Novruz pirində də rast gəlinməkdədir (Cəfərov C.,1987, s. 29-36).

### Saklara aid 1 və 2 №-li Pazırık kurqanları

Rusiya Muzeyinin Sayan-Altay ekspedisiyası tərəfindən 1924-cü ildə aşkar edilən, tədqiqinə 4 il sonra, yəni 1929-cu ildə M.Qryaznovun rəhbərliyi ilə başlanılan Pazırık kurqanlarının qədim Türk mədəniyyətinin tarixindəki yerini sözlə ifadə etmək belə çətindir. Buradakı saklara aid «Xaqan kurqanları»ndan birincisi (1 №-li kurqan) elə həmin il qazılmış və aparılan qazıntılar nəticə-

sində son dərəcə zəngin bir mədəniyyətin izinə rast gəlinmişdir. Elə bu səbəbdən də Pazırık məzarlığında tədqiqatları davam etdirməyə qərar verilmiş, lakin bunu yalnız II Dünya müharibəsindən sonra gerçəkləşdirmək mümkün olmuşdu. Beləcə M.Qryaznovun başladığı iş 1947-1952-ci illərdə S. Rudenko tərəfindən davam etdirilmişdir. Buradan tapılan maddi mədəniyyət nümunələri Ermitaja göndərilərək qorunma altına alınmış və abidə 1950-1952-ci illərdə konsevasiya edilmişdir (Гук Д. Ю., 2012, с. 454).

Qeyd etmək lazımdır ki, Dağlıq Altayda indiyə qədər erkən maldarlara aid çox sayda kurqan tədqiq edilib. Onların bir qismi hələ Çar Rusiyası dövründə qazılıb. Sovet dövründə də bu istiqamətdə az iş görülməyib. Tədqiq edilmiş kurqanların heç birindən Pazırıqdan əldə edilmiş qədər çox və zəngin material tapılmayıb. Ərazinin buzlaq olması təkcə qarətçilərin bu kurqanlarda apardıqları qarətə önəmli ölçüdə mane olmamış, onların çirkin niyyətlərini sona qədər həyata keçirmələrinə imkan verməmiş, həm də burada dəfn edilən mumiyalanmış meyitlərin çürümədən dövrümüzədək qala bilməsini təmin etmişdir (Грязнов М. П., 1956, с. 11).

**1 №-li Pazırık kurqanı**. 1929-cu ildə qazılmış bu kurqan e.ə. V-IV əsrlərə aid edilir. Bu kurqanın qəbir kamerası qarət edildiyindən orada qəbrin şimal hissəsində dəfn edilmiş atlardan başqa heç nə aşkar edilməmişdir. Atların dəfn edildiyi yer kameranın əsas hissəsindən qalın ağac divarla ayrıldığından qarətçilər ora daxil ola bilməmişdilər.

Buzlaq şəraitində yaxşı qorunmuş atların sayı on idi və onların hamısı qızıl rənginə çalan kürən atlar olub. Bunlardan bir neçəsi türkmən atları, arxeoloqların dili ilə desək, «türkmən atlarının əcdadları» idilər. Mütəxəssislər bu atların Altaya Orta Asiyadan gətirildiklərini hesab edirlər. Digərləri isə Orta Asiya atları ilə yerli, hazırda Qazaxıstan və Monqolustanda yayğın olan kiçik boylu, böyük başlı atların qarışığından törəmiş xüsusi cinsə aid idilər. Kurqanda dəfn edilmiş hansısa sak xaqanına məxsus olan bu heyvanların hamısı alınlarının ortasına tunc kəkanla vurulan zərbə ilə öldürülmüşdülər.

Qəbir kamerası büsbütün talan edilmişdi. Burada yalnız üzəri dəridən kəsilmiş və üstü qalay təbəqəsi ilə örtülmüş xoruz təsvirləri ilə bəzədilmiş sarkofaq qalmışdı. Tabut 250 illik ağcaqayın ağacından düzəldilmişdi. Yerdə aplikasiya texnikası ilə hazırlanmış nazik keçə xalçanın parçalanmış hissələri aşkar edilmişdir. Onun üzərində pələng başları təsvir edilmişdi. M. Qryaznovun yazdığına görə, bu xalça kameranın divarını örtürdü və divara mis mismarlarla bərkidilmişdi. Qarətçiləri xalça yox, onu divara bərkidən mis mismarlar və ümumiyyətlə yalnız metaldan - qızıl, gümüş, mis, tunc və qalaydan hazırlanmış əşyalar maraqlandırmışdır. Xalça isə onların diqqətini çəkməmişdi və bu üzdən də mismarları qopararkən onu cırıb bir kənara atmışdılar. Onlar meyidin qızıl və gümüş bəzəklərlə bəzədilmiş geyim əşyalarını soyunduraraq özləri ilə yuxarıya aprmış, burada metal bəzəkləri söküb çıxartdıqdan sonra elə oradaca atıb getmişdilər (Грязнов М. П., 1956, с. 15).

Kamerada tabut və xalçadan başqa ağacdan hazırlanmış balta saplağına da rast gəlinib. Görünür, qarətçilər içəri daxil ola bilmək üçün qəbir kamerasının divarlarını onunla sökmüş, balta iş prosesində sınmış və bu səbəbdən də onlar atların dəfn edildiyi hissəyə keçə bilməmişdilər. Nəticədə kameranın o hissəsi toxunulmamış qalmışdır. Burada atlarla yanaşı onların yəhər və üzəngilərinə də rast gəlinmişdir.

1 №-li Pazırık kurqanında aşkar edilmiş yəhərlər hələlik elmə məlum olan ən qədim yəhərlərdir və öz sadəliyinə görə müasir yəhərlərdən çox fərqlənirlər. İçi şimal maralının yunuyla doldurulmuş iki qat dəri yastıq formasında olan bu yəhərlərin qayış və ağac bönövrələri yox idi.

Xüsusi törənlə keçirilən dəfn üçün nəzərdə tutulduqlarından üzəngi və yəhərlər çox dəbdəbə ilə hazırlanmışdı. 10 №-li atın bəzəkləri öz gözəlliyi və əsrarəngizliyi ilə xüsusi fərlənirdi. Belə ki, yəhərin yanlarından al qırmızı keçədən tikilimi pələng formalı qotazlar sallanırdı. Atın boynuna keçədən hazırlanmış boyunluq, üzünə isə onun alın və burun hissələrini örtən pələng şəkilli yaşıl üzlük taxılmışdı. Boyunluğun üzəri xoruz rəsmləri ilə bəzədilmişdi. Atın quyruğuna dar, naxışlı qapaq geydirilmişdi.

5 №-li atın bəzəkləri də boyunluq, quyruq qapağı və üzlükdən ibarət idi. Bunlardan ən maraqlısı üzlük idi. O, qrifonla pələngin savaşını əks etdirirdi. Yuxarıda qrifon təsvir edilmişdi. Onun başı və qanadları atın başı üzərində yüksəlir, bədəni isə heyvanın yanaqlarını örtürdü. O, qabaq pəncələri ilə pələngi tuturdu. Pələng isə onun sinəsini dişləyən və pəncələrini onun kürəylərinə qoymuş vəziyyətdə təsvir edilmişdi.

Digər atların bəzəkləri də 10 və 5 №-li atların bəzəklərindən geri qalmırdı. Onların hamısı al-əlvan rəngdə idilər və çox yüksək ustalıqla hazırlanmışdılar (Грязнов М. П., 1956, с. 16).

**2 №-li Pazırıq kurqanı**. 1947-1948-ci illərdə tədqiq edilmiş bu kurqan sakların məişətini və həyat tərzini daha yaxşı əks etdirir. Belə ki, bu abidənin qəbir kamerası ağzına qədər buzla dolduğundan içindəki əşyalar və onların ilkin vəziyyəti dövrümüzədək, qismən də olsa, dəyişmədən yetişə bilmişdir. Xaqanın və arvadının mumiyalanmış cəsədləri də qarətçilər tərəfindən kənara çıxarılmalarına, doğranmalarına və eybəcər hala salınmalarına rəğmən yaxşı qalmışdılar.

Qarətçilər üstlərindəki bahalı bəzək əşyalarını çıxara bilmək üçün onların başlarını, əllərini və ayaqlarını kəsməli olmuşdular. Görünür, hər ikisinin böynunda sinəbənd və boyunbağı, qollarında qolbağ, ayaqlarında isə xüsusi halqalar olmuşdur.

Cəsədlərin hər ikisinin dərisi təbii rəngini saxlayırdı. Xaqanın bədəninə həkk edilmiş döymələr də aydın seçilirdi. Bunlar əsasən mifoloji varlıqların, pələng, maral və qartal kimi ayrı-ayrı heyvanların müxtəlif hissələrindən sintez edilmiş varlıqların təsvirlərindən oluşan mürəkkəb kompazisiyadan ibarət idi. Kompozisiya onun sinəsini və kürəyini, qollarını və ayaqlarını əhatə edirdi (Грязнов М. П., 1956, с. 19).

Qəbrə meyitlərin əyinlərindəkindən əlavə dəyişik geyimlər də qoyulmuşdu. Bunlar əsasən kişi üçün nəzərdə tutlan iki köynək, üzərinə maral başı həkk edilmiş dəri qaftan, keçə corablar və baş geyimindən, eləcə də qadın üçün incə bəzəkli dəri çiyinlik, keçə corab, tikməli baş geyimi, biri bəbir dərisindən, digəri isə adi dəridən iki cüt uzunboğaz çəkmədən ibarət idi. Sonuncular müxtəlif

materiallardan hazırlanmış muncuqlarla bəzədilmişdi. Çəkmələr o qədər yumşaq idilər ki, sanki, xalça üzərində gəzmək üçün nəzərdə tutulmuşdular. Saklarda, görünür, bardaş quraraq oturmaq adət imiş, elə bu səbəbdən çəkmələrin altları da xüsusi zövqlə bəzədilmişdi.

Saklar xaqan və ya xan arvadlarının məzarlarına evdə işlədilən və əmək tələb edən məişət əşyaları qoymurdular. Bu ondan xəbər verir ki, bu qadınlar ev işlərindən azad idilər. Əvəzində isə yüksək rütbəli qadınlara məxsus məzarlarda müxtəlif musiqi alətlərinə, əsasən də dörd simli çəng (arfa) və öküz buyunuzundan hazırlanmış tamburaya rast gəlinir. Bu musiqi alətləri Ön Asiya mənşəli hesab edilirlər.

Buradan əldə edilmiş ən maraqlı tapıntılardan biri də açılıb-yığılan ayaqlı masa-qabdır. Bu tip əşyalar, bir qayda olaraq, pələng formasında düzəldilərdi. Digər kurqanlarda olduğu kimi, 2 №-li Pazırık kurqanında da dəri çanta, su qabı və kisələrə, taxta qab-qacağa, uzun boğazlı keramik qablara rast gəlinib. Bu baxımdan başları birbirinə dəri qaytanla bərkidilmiş «altıayaq»lar da istisna deyillər. M. Qryaznovun fikrincə, onlar dəri çadırla örtülər və çətənə tüstüsündən keflənmə üçün istifadə edilərdilər. Bu barədə Herodot məlumat verməkdədir.

Digər Pazırık kurqanlarında, o cümlədən 1№-li Pazırık kurqanında olduğu kimi 2 №-li Pazırık kurqanında da ölü ilə birlikdə onun atlarının da dəfn edilməsi adətinin şahidi oluruq. Burada da atlar kameranın ikinci, şimal hissəsində aşkar edilib. Amma onlar qəbrin dibində deyil, onun üst hissəsində dəfn edilmişdilər. Burada atların sayı yeddi idi və onların biri daha zəngin bəzəklərə sahib idi. Onun yanında boyunluq, kəhər və üzəngi ilə yanaşı, çox ustalıqla hazırlanmış üzlük də tapılmışdır (Грязнов М. П., 1956, c. 20-21).

### 3, 4 və 5 №-li Pazırık və 2 №-li Başadar kurqanları

**3 №-li Pazırık kurqanı**. 1948-ci ildə qazılmış bu dəfn abidəsi e.ə. III-II əsrlərə aid edilir. Onu digər kurqanlardan fərqləndirən əsas cəhət buradakı qəbir kamerasının aşınmış qaya parçaları və ağaclarla, divarlarının isə huş ağacı qabığından ibarət löv-

hələrlə örtülmüş olması idi. Sərdabə formalı kameranın əsas hissədən ağac arakəsmə ilə ayrılan şimal tərəfində üzəngi və yəhərləri ilə birlikdə 14 at dəfn edilmişdi. Onların qayışları ağac və buynuzdan hazırlanmış lövhəciklərlə bəzədilmişdi. Lövhəciklərin üzərində müxtəlif naxış və heyvan təsvirləri əks olunmuşdu.

Kurqandan tapılan ən maraqlı tapıntılar sırasında kişi üçün nəzərdə tutulmuş qaftan və şiş ucluqlu baş geyimi diqqət çəkməkdədir. Kurqan hələ qədim zamanlarda qarət edilmişdi (Грязнов М. П., 1956, с. 20-21).

**4 №-li Pazırık kurqanı**. Bu kurqan 3 №-li kurqanı xatırlatmaqdadır. O da 1948-ci ildə qazılmışdır və e.ə. III-II əsrlərə aid edilir. Burada da 14 atın dəfn edildiyi məlum olub. Onlar da üzəngi və yəhərləri ilə birlikdə basdırılmış və buradakı qayışlar da eyni qaydada bəzədilmişdi. Qədim zamanlarda soyğunçular tərəfindən soyulmuş qəbir kamerasından masa-qab və «altıayaq», eləcə də kurqanın inşaatçılarından qalan bir nərdivan tapılmışdır (Грязнов М. П., 1956, с.21).

**5 №-li Pazırık kurqanı** 1949-cu ildə tədqiq edilmişdir. Arxeoloqlar bu dəfn abidəsini e.ə. V-IV əsrlərə aid edirlər. Örtüyü daşlardan qurulmuş kurqanın sahəsi 55 kv m-ə çatan böyük qəbir kamerasının dərinliyi 4 m idi. Kamera ikiqat ağac divarlara və tavana sahib idi və kamera içində kamera formasında inşa edilmişdi. Ağaclar bir-birinə uc tərələrində açılmış xüsusi kəsiklər vasitəsi ilə geydirilmişdi. Divarlar huş ağacı qabığından səliqə ilə hazırlanmış iri və qalın lövhələrlə üzlənmişdi. Belə hesab edilir ki, bu, qəbri soyğunçulardan qorumaq məqsədilə edilmişdi. Lakin bu da qarətçilərə mane ola bilməmiş və kurqan hazır olduqdan bir müddət sonra soyğuna məruz qalmışdı. Qarətçilər kiçik balta ilə kameranın divarında kiçik oyuq açaraq içəri girmiş və qiymətli hesab etdikləri hər şeyi qarət etmişdilər. Bununla belə, kameraya dolmuş buz burada elm üçün son dərəcə böyük əhəmiyyətə malik bir sıra materialların qorunub saxlanmasını təmin etmişdir.

Qəbir kamerasında uzunluğu 6 m-ə çatan sarkofaq tapılmışdır. Onun içərisində xaqan və arvadının mumiyalanmış meyitləri sağ-salamat dururdu. Skiflərin, o cümlədən sakların öz xaqanla-

rını mumiyaladıqları barədə hələ e.ə. V əsrdə Herodot məlumat vermişdir və Pazırık kurqanları, eləcə də Tarım mumiyaları onun bu sözünün həqiqət olduğunu təsdiq etməkdədir.

Qarətçilər xaqan və arvadının qızıl bəzəklərlə bəzədilmiş paltarlarını soyunduraraq özləri ilə aparmışdılar. Yalnız xaqanın arvadının başında ağacdan hazırlanmış qoşa buynuzu xatırladan şiş ucları və keçədən düzəldilmiş lentləri olan baş geyimi qalırdı. Lentlər qadının çənəsini əhatə etdiyindən soyğunçular onu çıxartmaqda çətinlik çəkmişdilər (Грязнов М. П., 1956, с. 12-13).

Burada taxta masaların parçalarına, ağac altlıqlı, üstü yastıqlı oturacağa, tambura musiqi alətinə, eləcə də bir çox taxtadan əşya fraqmentlərinə rast gəlinib. Eyni zamanda kameranın divarını bəzəyən, üzərində mifoloji səhnələr yer alan aplikasiyalı keçə örtük aşkar edilib.

5 №-li Pazırık kurqanının da, eynən digər kurqanlarda olduğu kimi, divarla ayrılan şimal hissəsi toxunulmamış qalıb. Burada üzəngi və yəhərləri ilə birlikdə 5 at dəfn edilmişdi. Bundan başqa, həmin yerdə arabaya qoşulmuş daha dörd at, müxtəlif araba fraqmentləri, sahəsi 30 kv m olan, əlvan bəzəkli keçə çadır və türkbaf (türk-gördes) üsulu ilə yundan toxunmuş (Kırzıoğlu N.G., 1995) nəfis bir türkmən xalçası (Bekmıradov A., 1987) aşkar edilmişdir.

Qeyd etmək lazımdır ki, Pazırık kurqanlarından, çox sayda iri-li-xırdalı xalı-xalça nümunəsi tapılmışdır. Onlardan biri də divardan asılmaq üçün nəzərdə tutulan 4,5 x 6,5 m ölçülü, rəngli keçədən aplikasiya üsulu ilə hazırlanmış sənət əsəridir. Tədqiqatçıların fikrincə, bu xalça kurqandan tapılmış çadırın bir hissəsi olub. Onun üzərində ornamental fiqurlar və bir neçə dəfə təkrarlanan kompozisiya əks olunmuşdur. Kompozisiyada taxtda oturmuş və bir əlində çiçəklənmiş sıx budaqlar tutmuş, digər əlini qaldırmış, başında dilikli papaq, uzun libaslı ilahə və onun qarşısında dayanmış atlı təsvir edilib. Təsvir olunan ilahə, ehtimal ki, Ağ ana və ya Umay anadır. Onun əlində tutduğu budaqlar belə düşünməyə əsasverir.

Prof. F.Cəlilov bir qədər fərqli fikirdədir. O, güman edir ki, buradakı qadın obrazı «qarşısındakı bəyə uğur diləyən ulu qam katun» obrazıdır (Cəlilov F., 2006).

Kurqandan tapılan və elm aləmində «Pazırık xalçası» adı ilə tanınan və hələlik eləmə məlum olan ən qədim xalça hesab edilən əsrarəngiz toxuculuq nümunəsinin mənşəyi məsələsi bu gün də mütəxəssislər arasında qızğın diskussiyalar mövzusudur (Tekçe E. F., 1993).

Düzbucaqlı formalı, 1,89 x 2 m ölçülü xovlu «Pazırıkxalçası»sının kompozisiyası ara sahədən və onu əhatə edən ikisi enli, üçü ensiz olmaqla, beş haşiyədən ibarətdir. Ara sahənin üzərində rapportlarla təkrarlanan kvadrat çərçivə içərisində, bir növ, dörd ünsürü xatırladan işarə və üçbucaqvari ləçəklərdən ibarət simvollar (qədim türk damğası) təsvir olunmuşdur. Ara sahəni əhatə edən birinci haşiyədə başı arxaya doğru yönəlmiş, təkrarlanan qrifon (qartal başlı, aslan bədənli mifik heyvan) təsvirləri verilib. İkinci haşiyə birinci haşiyəyə nisbətən enlidir, üzərində dilikli buynuzları olan, otlayan maral təsvirləri verilib.

Üçüncü haşiyədə eynilə ara sahədəki simvollar əks olunub, lakin o, çərçivəsiz toxunub. Dördüncü – ən böyük haşiyədə təkrarlanan atlı və atların yanında gedən piyadad öyüşçülər təsvir olunmuşdur. Burada döyüşçü təsvirlərinin büstü və ayaqları sxematik təsvir olunduğu halda, atlar daha möhtəşəm və təmtəraqlı verilmişdir. Atlar boyunları aşağıya doğru bükülmüş vəziyyətdə, başlarında kəkil, yüyənlər ipiləklə bəzədilmiş, bellərində yəhəri əvəz edən, saçaqlı və naxışlı xalça ilə təsvir edilmişdir.Beşinci haşiyə birinci haşiyəni təkrarlayır. Hər kvadratsantimetrində 36 ilmə sıxlığı ilə toxunan və incə toxunuşu ilə seçilən Pazırık xalçası hazırda Ermitaj muzeyinin bəzəyidir («Azərbaycanxalçaları» jurnalı, 2011, s. 110).

Pazırık kurqanlarından tapılan və bərpaya ehtiyacı olan əşyaların A.İessen tərəfindən 29 iyul 1952-ci il tarixində tərtib edilmiş siyahısında bir çox qiymətli sənət əsərləri ilə yanaşı 5 №-li kurqanda aşkar edilmiş arabanın da adı yer almaqda idi. Çox sayda müxtəlif hissələrdən ibarət olan 3 x 3 x 2.6 m ölçülü bu araba tapılarkən, eynən Qaracəmirli kurqanında olduğu kimi, parçalanmış və detalları ardıcıllıqla bir yerdə cəmlənmiş vəziyyətdə idi. Onun bərpası ilə Y. Rumyantsev və M. Qryaznov məşğul olmuş, çatışmayan hissələrin bərpası işi isə bilavasitə Y.

Rumyantsevin rəhbərliyi altında həyata keçirilmişdi (Грязнов М. П., 1955, с. 31; Гук Д. Ю., 2012, с. 454).

Bərpa işi tamamlandıqdan sonra sakların e.ə. V-IV əsrlərdə istifadə etdikləri yük arabaları haqqında təsəvvürlər tamamlandı və bu barədə ilk olaraq S. Rudenko özünün «Dağlıq Altayın skif dövrü əhalisinin mədəniyyəti» adlı fundamental əsərində ətraflı məlumat verdi (Руденко С. И., 1953, 232-235). Onun yazdıqlarından belə aydın olurdu ki, «Pazırık arabası» çox hündür olub və hissələrinin çoxu ağcaqayın ağacından, üst çərçivəsinin döşəməsini örtən örtük söyüd çubuqlarından, təkər spikerləri isə ağtikan ağacından hazırlanıb. Alimin yazdığına görə, təkərlərin kənarları ucları üst-üstə qoyularaq ağac birləşdirici vasitəsilə birləşdirilən iki yarım halqadan ibarət olmuş və dəri ilə örtülmüşdü (Руденко С. И., 1953, 232; Грязнов М. П., 1955, с. 31).

S. Rudenko yazır ki, saklar arabadan dəfn törəni zamanı istifadə etmişlər, yəni araba ilə dəfn bu törənin mühüm atributlarından biri olub. Onun bu fikrinə şərik çıxan Q. Kuroçkin Herodotun verdiyi məlumata istinadən skiflərin öz ölmüş xaqanlarını sədn etməmişdən öncə xüsusi hazırlanmış arabada xalqın onunla vudalaşa bilməsi üçün oba-oba gəzdirmələri adətinin Pazırıkda da tətbiq edildiyini önə sürmüşdür (Курочкин Г.Н., 1994, с.64).

Alimin bu fikri ilə razılaşmayan bir sıra tədqiqatçılar meyidin, arabanın və çadırın ölçülərinin uyğun gəlmədiyini, eləcə də kurqanda tapılan arabanın Altayın dağlıq ərazilərində səyahət üçün namünasib olduğunu əsas gətirərək, onun sadəcə ölünü qəbrədək daşımaq və dəfn törənində istifadə etmək üçün nəzərdə tutulduğunu yazmışlar (Баркова Л.Л., Гохман И.И., 2001; Гук Д.Ю, Николаев Н.Н., 2011).

Saklara aid kurqanlar içərisində **2 №-li Başadar kurqanı**nın da özünəməxsus yeri var. 1950-ci ildə qazılmış bu dəfn abidəsi Mərkəzi Altayda, Karakol çayı sahilində aşkar edilmişdir. E.ə. V-IV əsrlərə aid edilən kurqan qəbir kamerasının nisbətən kiçik ölçüləri (26 kv m) ilə fərqlənirdi. Onun da kamerası əksər skif və sak abidələrində olduğu kimi ağacdan qurulmuşdu, döşəməsi də, divarları da, tavanı da ağacdan idi. Burada iki taxta tabuta rast

gəlinmişdir. Onlardan yalnız biri yaxşı vəziyyətdə idi. Onun bir tərəfində dörd ədəd gəzişməkdə olan pələng, qapağında isə eyni vəziyyətdə daha dörd pələng, iki geyik, üç arxar və iki qaban təsvir edilmişdi. Tabutlar yerli xan və ya bəylərdən birinə və onun arvadına məxsus idi. Onların hər ikisi mumiyalanmışdı.

2 №-li Başadar kurqanı da qarətə məruz qaldığından oradan az şey əldə edilmişdir. Bunlar, geyim və parça fraqmentlərindən, cəng (arfa) musiqi alətinin sındırılmış hissələrindən və bir neçə xırda-para bəzək əşyasından ibarət idi. Geyim əşyalarından ən yaxşı vəziyyətdə olanı yumşaq kişi uzunboğazı (çəkməsi) idi. Onun qabaq hissəsi müxtəlif rəngli dərilərlə şahmat lövhəsi formasında bəzədilmişdi.

Kameranın ağac arakəsmə ilə ayrılmış şimal hissəsində üzəngi və kəhərləri ilə birlikdə 14 at basdırılmışdı. Fəqət buradakı əşyalar buzlaq şəraitində ilkin vəziyyətində qalan Pazırıq kurqanlarından fərqli olaraq, çürüntüyə məruz qalmışdılar. Yalnız qayışlara bərkidilmiş qızıl işləməli tunc bəzək lövhələri tam salamat vəziyyətdə idi (Грязнов М. П., 1956, с. 13-14).

**Sakların genetik yapısı nədən və kimlərdən xəbər verir?**

Pazırıkdan, eləcə də Taqar mədəniyyətinə aid kurqanlardan əldə edilmiş sümük qalıqlarının genetik analizlərinin nəticələrinə görə, həm saklar (Ricaut F. et al., 2004), həm də sak-dinlinlərə aid olduğu bildirilən Taqar mədəniyyətinin daşıyıcıları (Keyser C. and et al., 2009) eyni haploqrupa – R1a haploqrupuna sahib olmuşlar. Eyni zamanda məlum olmuşdur ki, Çin mənbələrində «xunnu» kimi qeyd edilən, Şərq hunları hesab edilən Tarım mədəniyyətinin daşıyıcıları da eyni haploqrupdan idilər (Kim K. and et al., 2010). Lakin təssüflər olsun ki, nə «Pazırıklı»ların, nə «Taqarlı»ların, nə də «Tarımlı»ların genetik yapısnın incəlikləri, haplotipləri və snipləri haqqında ətraflı məlumata sahib deyilik, bu üzdən də onların bilavasitə hansı türk nəslinə aid olduqlarını tam dəqiqliklə söyləyə bilmirik (*Муратов Б.А., Суюнов Р.Р., 2014*).

Lakin əlimizdə Anderhill və digər alimlərin birlikdə gerçəkləşdirdikləri, 2014-cü ildə nüfuzlu «Europian Journal Human Genetics» dərgisində dərc etdirdikləri geniş tədqiqatların nəticələri var

və bu nəticələr Ural, Sibir və Orta Asiya əhalisinin Y-xromosomlarının qədim DNT nümunələri ilə müqayisəli şəkildə öyrənilməsini əhatə edir (Проект R1a на FTDNA). Maraqkıdır ki, 2012-2014-cü illərdə həyata keçirilən və müxtəlif türk xalqları arsında mövcud olan qıpçaq boylarının etnogenezini öyrənməyə həsr edilmiş «Suyun» etnoqenomika tarixi tədqiqatları layihəsi çərçivəsində gerçəkləşdirilmiş DNT testləri başqırdların kıpsak (qıpçaq) və teleu boylarının R1a–Z2123 subkladının daşıyıcıları olduğunu müəyyənləşdirmiş və onlar FTDNA-da sak-dinlinlərin şərqi aors klasterinə aid edilmişlər. Bundan başqa, qaraçaylıların Botaşevlər, Akbayevlər, tatarların Sabitovlar, Mirasovlar kimi soyları, eləcə də başqırdların elan (alan) boyundun olan soylarının bir qismi də eyni qrupda yer almaqdadır (Муратов Б.А., Суюнов Р.Р., 2014a).

Antik müəlliflərin skif , bəzənsə sarmat boyu kimi qələmə verdikləri aorsların sak-dinlinlərin bir qolu olduğunu və onların genetik varislərinə bu gün də tatar, başqırd və qaraçay türkləri içərisində həyatlarını sürdüklərini görürük. Sak-dinlinlərin soyundan olan bu aorslar kimdir və onlar haqqında daha nə bilirik?

Çin mənbələrində «yantsay» // « antsay» (Вернадский Г. В., 1996; Сулимирский Т., 2008) adlandırılan aorsların şərqi sarmatların bir qolu olduğu, Aral sahillərində (Керефов Б.М., с.130-131), Cənubi Uralda (Скрипкин А.С., 1990, 299 с. 193, 198-199, 211-212, 219-220) və Aşağı Volqa sahillərində (Смирнов К.Ф., 1977) yaşadıqları, iki böyük nəslin – avarların və sakların // sayların birləşməsindən törədikləri (Аорсы, 1964) hesab edilir. Mütəxəssislərin fikrincə, aorsların bir qismi sonrakı dövrlərdə alanların tərkibinə daxil olmuş, digər qismi isə Almaniya və Prussiyaya mühacirət edərək, öz toxumlarını orada səpmişlər. Elə bu səbəbdən də almanlar içərisində çox sayda R1a-Z2123 geninin daşıyıcısı var (Муратов Б.А., Суюнов Р.Р., 2014). Eyni zamanda, tarixi mənbələrdən Prussiya zadəganlarının kumıs içdikləri və onu çox sevdikləri məlumdur (Очерки истории Восточной Пруссии, 2002).

Yenə tarixi mənbələrdən məlum olduğu kimi, aorsların üçüncü hissəsi e.ə. I minillikdə Cunqariyaya köçmüş (Клёсов А.А.,

Муратов Б.А., Суюнов Р.Р., 2013), burada «kun» adı altında teles soybirləşməsinə daxil olmuşlar (Евстигнеев Ю.А., 2012). Belə hesab edilir ki, başqırdların kıpsak (qıpçaq) və teleu boyları bilavasitə onların nəslindəndirlər və R1a-Z2123 Y-xromosomunu onlardan miras almışlar. Aorsların bu hissəsi Çin mənbələrində «aba» (abar // avar) adlanır (Муратов Б.А., Суюнов Р. Р., 2014a).

Aorsların Aral sahillərində qalan və avar-sak ittivaqına daxil olan dördüncü hissəsi VI əsrə qədər həmin ərazidə yaşamış, sonradan Aşina soyundan olan türklərin təzyiqi ilə Dunay sahillərinə köç etmiş və orada Avar Xaqanlığını qurmuşdular (Гумилёв Л. Н., 1991).

A.Klyosovun yazdığına görə, sak və hunların daşıyıcıları olduqları R1a-Z2123 geninin uzaq əcdadı olan R1a-Z93 subkladının daşıyıcıları Rusiyanın cənubunda təqribən 5000 il öncə peyda olmuşlar. Burada onlardan Z94, Z2124 və L657 nəsilləri, Z2124-dən isə Z2123 nəsli budaqlanmışdır. Bu nəsilin (saklar və hunlar) bir qismi sonradan L657 nəslinin nümayəndələri ilə birlikdə Hindistana, Z2124 nəsli isə Bəlxə (Baktriya) köçmüşdülər. Z2123 nəslinin köçməyən, Rusiyanın cənubunda qalan hissəsinin (skiflər) davamçılarına bu gün də qaraçaylı, balkar, tatar və başqırdlar arasında sıx-sıx rast gəlinir (Клесов А.А., 2016a, c. 62).

Genetik tədqiqatlar nəticəsində gəlinən bu nəticə tarixi mənbələrin dediklərini bütünlüklə təsdiq edir. Belə ki, həmin mənbələrdən sakların bir qisminin Hindistana köç etdikləri məlumdur. Bu barədə C. Nehru belə yazır: «Bizim eradan öncə, iki yüz il boyunca Hindistana bir neçə belə axın olmuşdur. Lakin sən belə düşünmə ki, köçlərin məqsədi buraları tutmaq və yağmalamaq idi. Bu xalqlara yeni ərazilərdə məskunlaşmaq zəruri idi, çünki Məkəzi Asiyada köçəri boylarının əksəriyyəti çoxalıb artdıqca. yaşadığı ərazilər onların dolanışığı üçün çatmırdı. Və onlar da yeni torpaqlara köçüb yurd salmağa məcbur idilər. Belə böyük yerdəyişmələrə bir çox hallarda başqa boyların təzyiqləri də səbəb olurdu... Sonra sak axınları başlandı. Onlar çox idilər və Hindistanın şimal və qərb ərazilərinə yayıldılar. Saklar türklərin böyük köçəri boylarından idilər. Onları da öz yerlərindən

başqa böyük bir boy olan kuşanlar çıxarmışdı. Bütün Baktriya və parfiyanı bürüyən saklar tədricən Pəncab, Racputan və Katxivarda yurd saldılar» (Неру Дж., 1981, c. 129).

Mütəxəssislər buddizmin yaradıcısı hesab edilən Buddanın (e.ə 557-447) sak əsilli Hindistan şahzadədəsi olduğu fikrində yekdildirlər. Onun sak əsilli olmasını hinddilli sutralarda adının "Şakya Muni" yəni "sak Muni" kimi çəkilməsi də təsdiqləyir. Şərqdəki saklar barədə ilk məlumat verən tarixçilərdən olan Van Qunun məşhur "Xanşu" əsərinə şərhlər yazan Yan Şiqu qədim Çin mənbələrində "se" kimi işlənən, "sək" kimi oxunan və sak anlamına gələn işarənin ifadə etdiyi xalq, yəni saklar haqqında yazır ki, bu, «Qərb tərəfdə dövlət adıdır, budda sutralarında "Şakya" adlanır» (Восточный Туркестан.., 1988, c. 229).

Maraqlıdır ki, hinddilli buddist mətnlərdə "Şakya Muni" kimi çəkilən ad türkdilli mətnlərdə "Şakı Muni" kimi çəkilir (Древнетюркский словарь, 1969, c. 520) ki, buradakı "şakı" ifadəsi sakların özlərinin özlərini adlandırma şəklidir. Qədim Türk lüğətində türkdilli buddist mətnlərində rast gəlinən "şakı" termininin etnonim olduğu və həmin etnonimin Buddanın mənsub olduğu xalqın adını ifadə etdiyi bildirilir (Древнетюркский словарь, 1969, c. 520). Buddanın öz dinini ilk olaraq, saklar (şakyalar) arasında yaydığı da məlumdur (Дяконова И. В., 1984, c. 98).

Sakların guya irandilli olduqlarını hər vəchlə sübut etməyə çalışan bəzi alimlər Buddanın sak olması və brahmi əlifbasının məhz Hindistanın sak hakimiyyəti altında olduğu dövrdə ortaya çıxdığını əldə əsas tutaraq brahmi əlifbası ilə qeydə alınmış, hindavropa mənşəli ölü bir dildə yazılmış mətnləri "sak dili" elan etmişlər. Məsələn, İ.Oranski bir yandan yazır ki, «Orta Asiya və Çin Türküstanının qədim sak dialektlərinə gəlincə, onlar haqqında, qədim fars yazılarında və qədim yunan müəlliflərinin əsərlərində qorunub saxlanmış bir neçə şəxs və yer adından başqa, heç bir şey məlum deyildir», digər tərəfdən isə iddia edir ki, «XX əsrdə təşkil edilmiş ekspedisiyalar zamanı Xotəndən və Çin Türküstanının digər yerlərindən tapılmış, hind brahmi əlifbası ilə

yazılmış irandilli mətnlərin (V-X əsrlər) dili hazırdai sak dili hesab edilir» (Орансий И. М., 1963, с. 90-91).

Şübhəsiz ki, bu fikirləri ciddiyə almaq mümkün deyildir. Çünki müəllif öncə sak dili barədə bir neçə antrponim və toponimdən başqa heç nə məlum olmadığını yazır, o biri tərəfdən də mənşəyi məlum olmayan hansısa ölü dili sak dili elan edir. Halbuki İssık yazıları sak dilinin əslində türk dili olduğunu birmənalı və təkzibedilməz şəkildə ortaya qoymuşdur. Bununla belə, nə qədər qəribə olsa da, sakların dilini "xotən" və ya "xotən-sak" dili adlandıran alimlər (Орансий И.М., 1963, с.91; Фрай Р., 1972, с.223), bu dili İran dillərinə aid etmələrinə rəğmən, haqlıdırlar.

Qeyd edək ki, Xotəndən eyni zamanda eyni əlifba ilə yazılmış buddist məzmunlu, türkdilli mətnlər də tapılmışdır. Həmin mətnlərin Çin Türküstanından tapılması təbiidir. Çünki bir vaxtlar sakları sıxışdıraraq Hindistana köçə zorlamış başqa bir türk boyu kuşanlar (Неру Дж., 1981, с. 129) e.ə. ll əsrdən etibarən hunların təzyiqi ilə güneyə hərəkət etmək zorunda qalmış, sakları Hindistandan da sıxışdıraraq, onları Türküstana, əsasən də Şərqi Türküstana (Çin Türküstanı, Uyğurustan) köç etməyə məcbur etmiş, özləri isə onların taxt-tacına sahib olaraq böyük bir imperiya qurmuşdular.

Türkdilli buddist mətnlərin böyük əksəriyyəti dövrümüzədək uyğur əlifbasına çevrilmiş vəziyyətdə gəlib çatmışdır. Çox güman ki, dili uyğur dili olan bu mətnlərin heç də hamısı brahmi əlifbasından uyğur əlifbasına çevrilmiş qədim sak mətnləri deyildir. Bunların içərisində sonrakı dövrlərdə buddist kuşanlar tərəfindən yazılan əsərlər də ola bilər və təbii ki, var.

Konkret olaraq buddist məzmunlu və türk dilli ədəbiyyatın yaradıcıları olan saklara gəlincə, onlar uzun müddət Hindistanda yaşadıqları və hind mədəniyyətinin təsiri altında olduqları üçün dillərinə çox sayda hind mənşəli söz və ifadə keçmişdir. Elə bu üzdən də sak ədəbiyyatı hind kəlmələri ilə doludur. Mahmud Kaşğarlı həmin dili «xotən dili» adlandırır və xotənləri digər türklərdən (uyğurlardan) fərqləndirərək onların ayrı dili (ləhcəsi) və yazısı (brahmi?) olduğunu, dillərinin də hind dilinin təsirinə məruz qaldığını qeyd edir və daha sonra yazır: «Xotənlər və kəncəklər sözün

əvvəlindəki əlifləri "h" hərfi ilə əvəzləyirlər… Məsələn, onlar ataya "hata", anaya "hana" deyirlər» (Əskər R., 2008, s. 324). Kaşğarlı eyni zamanda bildirir ki, şəhərdə yaşayan türklər ikidillidirlər və o bu türklərə xotən və kəncəkləri misal çəkir. Görünür, Xotəndən tapılmış, brahmi əlifbası ilə yazılmış buddist mətnlərinin iki dildə, türk və ölü bir İran dilində olması məhz bununla bağlıdır.

Məlumat üçün bildirək ki, xotənlərin böyük əksəriyyəti sonrakı əsrlərdə İslamı qəbul etmiş və uyğurların içində ərimişdir. Buddizmdən dönməyənlər isə qədim ləhcələrini saxlamaqda və xotən adı altında Monqolustanda yaşamaqdadır. S. Brukun yazdığna görə, XX əsrin 80-ci illərinin başında bu türkdilli xalqın sayı cəmi 3000 nəfər idi və hazırda monqol dilinə keçmişlər (Брук С. И.,1986, с. 398-399).

Maraqlıdır ki, xotənlər də eynən saklar kimi R1a haploqrupunun daşıyıcısıdırlar və onlar bu baxımdan 80%-lik göstərici ilə bütün türk xalqlarını geridə qoyurlar.

Hindistanda R1a-Z2123 geninin yaylmasında saklarla yanaşı, onları bu ölkədən sıxışdıran hunların, daha dəqiq desək, ağ hunların (eftalitlərin) da az rolu olmamışdır. Söhbət ağ hunların bir qolu olan (Konukçu E., 1973), başçıları eynən oğuzlarda olduğu kimi "yabqu" titulu daşıyan (Гейбуллаев Г.А.,1991, с. 287; Konukçu E., 1973; Фрай Р., 1972, с. 275; Glauson G., 1960, c. 15) kuşanlardan gedir. Ət-Təbəri bu xalqın hökmdarlarını "türklərin xaqanı" adlandırmışdır. V əsr erməni tarixçisi Yeqişedə isə belə bir ifadə var: «Kuşan adlandırılan hunlar ölkəsi» (Гейбуллаев Г.А.,1991, с. 287).

Hazırda Hindistan əhalisinin 14 faizində R1a haploqrupu aşkar edilmişdir. Nəzərə alsaq ki, bu haploqrupun daşıyıcısı olan türklər – saklar (şakyalar) və ağ hunlar (kuşanlar) uzun müddət bu ölkədə hakimiyyət sürmüşlər, hinduizmi qəbul etdikdən sonra onların Hindistanın yüksək kastalarında yer almaları və bu kasta mənsublarının böyük hissəsində türk genlərinə rast gəlinməsi təbiidir. Əldə olan məlumatlara görə, Hindistanın Qərbi Benqaliya və Uttar-Pradeş ştatlarında yaşayan brahmanlar içərisində R1a haploqrupuna sahib olanlar müqabil olaraq 72% və 67% təşkil edirlər (The Autochthonous.., 2007).

## Sak və hun ədəbiyyatı. Saklarda və ümumilikdə qədim türklərdə Gün Tenqri və Ay Tenqri inancı və bu inancın kurqanların quruluş və yerləşiminə təsiri

Qədim türklərin, o cümlədən skif və sakların əski inancları haqqında məlumatları özündə əks etdirən qaynaqlar az deyil, fəqət bu qaynaqlar içərisində dövrümüzədək yetişən, saklardan və ağ hunlardan (kuşan // eftalit) yadigar qalan zəngin türkdilli ədəbiyyat nümunələri xüsusi önəm kəsb edir. Doğrudur, bu ədəbi nümunələrin əsas hissəsi buddist və manixeist dünyagörüşünün daşıyıcısıdır. Lakin bu dinlərin hər ikisinin yaradaıcısı saklar olduğundan onlara əski türk inanclarını da qatmışlar.

Türkdilli buddist mətnlərin böyük əksəriyyəti dövrümüzədək uyğur əlifbasına çevrilmiş vəziyyətdə gəlib çatmışdır. Şübhəsiz ki, dili uyğur dilinə yaxın olan bu mətnlərin heç də hamısı brahmi əlifbasından uyğur əlifbasına çevrilmiş qədim sak mətnləri deyildir. Bunların içərisində sonrakı dövrlərdə buddist kuşanlar (ağ hunlar // eftalitlər) tərəfindən yazılan əsərlər də var.

Dövrümüzədək uyğur əlifbası ilə çatan buddist məzmunlu mətnlər bunlardır:

1. Beşbalıqdan (Şərqi Türküstan) tapılan, çinli rahib Hüen Tzanqın Vll əsrə aid edilən tərcümeyi-haının Sinqqü Seli Tutunq tərəfindən çincədən türkcəyə X əsrdə tərcümə edildiyi ehtimal edilən 722 sətirlik mətn (Gabian A.,von., 1935, p. 151-180; 193.371-415);

2. Hazırda Paris Milli Kitabxanasında qorunan, hər biri 8 sətir olan 80 səhifədən ibarət olan, X əsrdə qələmə alındığı ehtimal edilən şahzadələr Kalyanamkara və Papamkara haqqında əfsanənin türk versiyası (Pelliot P.,1914, p. 225-272);

3.Buddist "Saddharmapundarika" sutrasının 25-ci, bodisatv Kuan-şi-im Pusar haqqında hissəsinin Şin versiyasının çincədən türkcəyə tərcüməsi. 224 sətirlik nüsxəsi Sankt-Peterburqda, 60 sətirlik nüsxəsi Berlində, 61 və 11 sətirlik nüsxələri Maynsda qorunur (Tekin Ş., 1960);

4. "Altun Yaruq" (Qızıl şüa) sutrasının 96 sətirlik 3-cü kitabı (Bang W. und A. von Gabian., 1930, p. 193-207);

5. 54 səhifəlik buddist məzmunlu mətn (Bang W. und A. von Gabian., 1930, p. 208-210);

6. "Altun Yaruq". S.Malov tərəfindən Çinin şimal-qərbindən Suçjoudan 1910-cu ildə əldə edilib. X əsrdə Sinqqü Tutunq tərəfindən çincədən türkcəyə tərcümə edildiyi iddia edilir (Cəfərov N., 2004, s. 297-315; Suvarnaprabhasa, 1913-1917);

7. Tişastvustiksutranın türk versiyası. Sankt Peterburqda qorunur. Tərcümə olduğu iddia edilir, fəqət hansı dildən tərcümə olduğu deyilmir (Radloff W., 1910);

8. Buddist tövbə duasının iki ayrı nüsxəsinin fraqmentləri (Bang W. und A. von Gabian., 1930a, p. 432-450);

9. Berlin kolleksiyasında qorunan 133 və 129 sətirlik 2 fərqli buddist mətn (Bang W. und A. von Gabian., 1931, p. 323-356);

10. "Sekiz yükmək" sutrasının 466 və 26 səhifəlik iki fraqmenti (Bang W. und A. von Gabian., 1934, p. 92-192);

11. İblis Atavaka haqqında əfsanə. 12 səhifə, 566 sətir (Gabian A.,von., 1958);

12. Buddist məzmunlu yaı fraqmenti (Müller F.W.K., 1910);

13. Səkkiz buddist əfsanəsinin fraqmentləri (Müller F. W. K., 1922);

14. Dörd buddist əfsanəsi. 719 sətir (Müller F. W. K., 1931, p. 675-727).

Bu siyahıya Nizami Cəfərovun toplayaraq, Azərbaycan türkcəsinə tərcümələri ilə birlikdə dərc etdirdiyi bir neçə buddist məzmunlu şeri də əlavə etmək lazımdır (Cəfərov N., 2004, s. 163-238). Syahıdakı 2, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13 və 14-cü sıralarda duran əsərlərin orijinal sak əsərləri olduğunu və sonradan brahmi əlifbasından uyğur əlifbasına çevrildiyini ehtimal edirik. Fəqət həmin mətnləri geniş tədqiq etmək və bu ehtimalı təkzibedilməz şəkildə sübut etmək imkanına sahib deyilik. Odur ki, bu məsələnin üzərində durmayacağıq və onu gələcək tədqiqatçıların öhdəsinə buraxırıq.

Eyni zamanda "Altun Yaruq" əsərinin də guya çincədən türkcəyə tərcümə edildiyi fikrini sübut edilməmiş, əsassız iddia kimi qəbul edirik. Çünki qədim Çin tarix kitablarında buddizmin Çinə Türküstandan ixrac edildiyi və çinlilərin öz dillərinə tərcümələr

etdiyi və bu məqsədlə Türküstandan və hətta Parfiyadan tərcüməçilər dəvət edildiyi göstərilməkdədir (Ögəl B., 1992, ll, s. 325-327).

Bu məsələ mövzumuz baxımından o qədər vacibdir ki, onun üzərində bir qədər ətraflı dumağı lazım bilirik. Bahəddin Ögəl özünün "Böyük hun impeiyası" kitabının ll cildində yazır ki, III-IV yüzilliklər Orta Asiyanın Çini mədəniyyət təzyiqi altına aldığı bir dövrdür. «Türküstana gələn Çin orduları Orta Asiyalı musiqiçi, alim və tərcüməç-iləri böyük qruplar halında yığıb Çinə aparırdılar. Bir əfsanə də olsa, Orta Asiyaya edilən 383-cü il axını Qaraşarda yaşayan böyük Budda mətnlərinin ustadı Kumarayivanı alıb Çinə aparmaq üçün nizamlanmışdı» (Ögəl B., 1992, ll, s. 325).

Qədim Çin mənbələrinə istinadən söylənilən bu sitatdan da göründüyü kimi, Budda mətnlərinin ustadı Çində yox, Türküstanda, bir türk şəhəri olan Qaraşarda yaşayırdı. Məhz çinlilər onu və onun kimi digər alimləri Çinə aparmaq üçün çalışır və məhz çinlilər Türküstanda yaranan əsərləri öz dillərinə tərcümə etmək üçün tərcüməçilərə ehtiyac duyurdular. Türklər yox!!!

Alim daha sonra yazır: «Fuxsun da haqlı olaraq yazdığı kimi, Orta Asiya Budda dini ilə bağlı biliklərin qalası kimi idi. Hərçənd Budda dini İsadan əvvəlki çağlarda da çox yayılmışdı, lakin m. s. II yüzillikdən sonra Budda dininə maraq sürətlə kükrəyib-daşdı və nəzərlər Çin sərhəddinin o tərəfinə dikildi. Buddizm qərbdən şərqə gedir, Hindistan və Türkistan verir, Çin də alırdı» (Ögəl B., 1992, ll, s. 325).

Burada «Hindistan və Türküstan verirdi» ifadəsi, oxucuları çaşdırmamalıdır. Buddizmin Çinə ixracatçısı kimi Türküstanla yanaşı, Hindistanın da adının çəkilməsi heç də o anlama gəlməməlidir ki, bu mədəni alış-verişdə türklərlə (saklarla) yanaşı etnik hindlilər də iştirak edirdilər. Əsla. Etnik hindlilər buddist yox, əvvələr də, bu gün də olduğu kimi, hinduist idilər. Hindistanın sahibi isə sakların hakimiyyətinə son qoyan başqa bir türk qövmü-kuşanlar idilər (Ögəl B., 1992, II, s. 228). Buddizmin ixracatçısı kimi də onlar çıxış edirdilər. Hunların, daha dəqiq desək, ağ hunların (eftalitlərin) bir qolu olan (Konukçu E., 1973), başçıları eynən oğuzlarda olduğu kimi "yabqu" titulu daşıyan (Гейбуллаев Г.А.,

1991, c. 287; Konukçu E., 1973) hökmdarları ət-Təbəri tərəfindən «türklərin xaqanı» adlandırılan (Гейбуллаев Г.А., 1991, c. 287), ölkələri erməni tarixçisi Yeqişe tərəfindən «hunlar ölkəsi» (Гейбуллаев Г.А., 1991, c. 287) kimi vəsf edilən kuşanlar qədim Çin mənbələrində «yueci» adlandırılır. Həmin mənbələrindən göründüyü kimi, çinlilər bu xalqı çox yaxşı tanımış və onlarla sıx siyasi, iqtisadi və mədəni əlaqələrdə olmuşlar.

Bahəddin Ögəl qeyd edir ki, «Budda dinli kitabların Çin dilinə sürətlə tərcümə edilməsi tələb olunurdu. 209-cı ildə 27 Budda din alimi Çinə gəldi. Bu tərcüməçilərin arasında Hindistandan, hətta İrandakı Parfiya dövlətindən gələnlər belə var idi. Çox vaxt bu alimlər Kuçi və Qaraşar kimi elm mərkəzlərində toplanılır, oradan da Çinə gətirilirdi».

Bu sitatdan göründüyü kimi, tərcüməçilər hətta Parfiyadan belə gəlirdilər. Sual doğur: Nə üçün Parfiyadan? Sualın cavabı çox sadədir. Çümki parfiyalılar da iskit, yəni türk idilər. Bu barədə Pompey Troq yazmışdır (Алиев К., 1987, c. 83).

Bahəddin Ögəl daha sonra yazır ki, «Buddizm-ticarət-siyasət. Bu üç şey yanaşı gedirdi. 382-ci ildə Çinə gələn Turfan və Şanşan bəyliklərinin elçiləri Çində böyük bir maraq hiss etmişdilər. Çünki bu elçilər Çin dilinə tərcümə edilmiş buddizmin iki əsas kitabını da özləri ilə gətirmişdilər. Bundan da anlaşılır ki, "buddist kitablar öncə Turfanda çincəyə çevrilirdi».

Bizcə, arıq şərhə ehtiyac yoxdur. Odur ki, həm türkcə, həm də çincə variantlarına rast gəlinən, hindcə isə variantları olmayan əsərlərin böyük əksəriyyəti, o cümlədən «Şahzadələr Kalyanamkara və Papamkara haqqında əfsanə», «Altun Yaruq» və s. kimi türk və dünya ədəbiyyatının şah əsərləri çincədən türkcəyə deyil, türkcədən çin dilinə çevrilmiş əsərlərdir. Tərcüməçi kimi qələmə verilən Sinqqü Seli Tutunq isə tərcüməçi yox bir çox sutraların gerçək müəllifi olmuşdur. Hər iki əsərdə, eləcə də digər buddist məzmunlu türkdilli ədəbi nümunələrdə çox sayda hind mənşəli antroponim, toponim və dini terminlərin olması onların məhz Hindistanda yarandığını sübut edir. Fəqət həmin əsələrin hansının bilavasitə saklara, hansının isə bilavasitə kuşanlılara aid olduğunu müəyyən etmək çox çətindir.

Sözügedən əsərlərin tərcümə deyil, orijinal əsərlər olduğunu həm də o fakt sübut edir ki, dövrümüzədək türk dilində bir neçə buddist məzmunlu orijinal şer nümunəsi də ulaşmıdır. Onlardan bəzilərinin müəlliflərinin adları (Çisuya Tutinq, Pratyaya Şiri, Astanq Kalam Keysi və Kiki) belə məlumdur (Cəfərov N., 2004, s.163-238).

Bu şerlər içərisində Atsanq Kalam Keysinin iki şeri də var ki, onların məhz saklara aid olduğu və Şakı Muninin (Buddanın) dövrünə çox yaxın bir dövrdə yazıldığı heç bir şübhə oyatmır və onların məhz sak dili və ədəbiyyatı nümunəsi olduğunu sübut etmək heç bir çətinlik törətmir. Bu işdə bizə Buddanın türk mətnlərində rast gəlinən gerçək adı olan Burxan adı yardımçı olur və məhz bu antroponim bizə bir çox gizli gerçəkləri anlamağa imkan yaradır.

Qədim Türk lüğətində "Burxan" antroponimi haqqında yazılıb: «Şəxs adı. Budda-buddist təlimin yaradıcısı» (Древнетюркский словарь, 1969, с. 127).

Maraqlıdır ki, eyni terminə türk-şaman mifoloji sistemində də rastlanır və o, Tanrı anlamında işlənir. Məsələn N.F.Katanovun yazdığına görə, tuvalılar inanmışlar ki, ən yuxarı dünyada Burxan (Tanrı) yaşayır. İnsanların sahib olduqları hər şeyi, o cümlədən övladları o verir. Burxan insanlara pislik edən şər ruhları məhv etmək üçün orta dünyaya ildırım və şimşəklər göndərməklə müdaxilə edir (Катанов Н.Ф., с. 47). Türkdilli buddist ədəbiyyatının şah əsərlərindən biri olan «Altun Yaruq»da da Burxan eyni səviyyədə tutulur və «tanrılar tanrısı» adlandırılır: «Anta ötrü tenqri tenqrisi Burkan inça tipyarlıkadı Ananta...», yəni «Ondan ötrü tanrılar tanrısı Burxan Ananda belə söylədi...» (Cəfərov N., 2004, s. 297).

Eyni zamanda buddist və manixeist mətnlərdə rast gəlinən "burxanlıq" termini də olmuşdur ki, birinci halda «Buddaya məxsus», ikinci halda isə «müqəddəs» anlamlarında işlənmişdir (Древнетюркский словарь, 1969, с. 127). Şübhəsiz ki, bu faktlar, eləcə də tərcümənin türkcədən çincəyə olduğunu sübut edən yuxarıdakı digər faktlar kəlmənin türkcədən çin dilinə keçdiyini sübut edir. Eyni termin Buddanın adı kimi türk dilindən buddizmin şimal qoluna-lamaizmə sitayiş edən xalqların, yəni tibet və monqol xalqlarının da dilinə keçmişdir və bu xalqlar da Buddaya Burxan deyirlər.

Yeri gəlmişkən qeyd edək ki, Budda buddizmin əsasını qoymuş şəxsin gerçək adı deyil, ona verilmiş ləqəbdir. Belə hesab edilir ki, onun əsil adı Qautana olmuşdur. (Yeni Türk Ansiklopedisi, 1985, I, 444). Türk mətinlərində isə onun gerçək adı Burxandır. Astanq Kalam Keysinin şerlərindən isə onun oğlunun adını öyrənirik:

«Burkan oğlu Tolpı Tüzün Uğan arşınınq
Bulunçus yiq ödqilərin üğmiş şlokda
Burk-şark kılıp on edqüsin mən-Astanq özüm
Buyan küsüş özə köşmüş taksut başladı»

(Cəfərov N., 2004, s. 210).

Tərcüməsi:

«Burxan oğlu Tolpı Tüzün Uğan zahidin
Əldüşməz müqəddəs yaxşılıqlarını öyən şerdən
Burk-şark (?) edib onun on yaxşılığını mən-Astanq özüm
Savab qazanmaq üçün qoşduğum hissə başladı»

(Cəfərov N., 2004, s. 214).

Budda özünü peyğəmbər elan edəndə onun 29 yaşı var idi. Təbii ki, o, həmin dövrə qədər evlənməmiş və övlad sahibi olmamış ola bilməzdi, çünki o şahzadə idi və şah nəslini davam etdirməklə mükəlləf idi. Fəqət buddist ədəbiyyatda onun ailəsindən və övladlarından söz açılmır. Lakin onun gerçəkdən də Tolpı Tüzün adında oğlunun olduğunu dolayısı ilə təsdiqləyən çox maraqlı bir fakt var.

Məlum olduğu kmi, Budda (Burxan) öz dinini yaradarkən, hinduizmdən çox şeyi o cümlədən ölülərin yndırılması adətini qəbul etmişdi. Buddizmdə də hinduizmdə olduğu kimi, kişinin meyidinə od vuran onun böyük oğlu olmalı idi. Buddist əfsanələrdə Buddanı yandıran adamın adı Drona (Дяконова И. В., 1984, с. 98) kimi çəkilir və bizcə, bu ad "Tüzün" antroponiminin zamanla və yad dillərin təsiri ilə dövrümüzə-dək çatan təhrif edilmiş formasıdır.

Buddanın oğlunun varlığına və gerçək adına gəlincə, səhv etmiriksə, Astanq Kalam Keysinin ona həsr etdiyi iki şeri bu baxımdan istisnadır:

«...Alka üç ödki utmışlarnınq yorığları
Arış, arığ kut kolunçuğ tolun bütkərip

Ayağuluğ Tolpı Tüzün yolı özə
Adruk, uluğ tuyunmakığ tuyunayın»

(Cəfərov N., 2004, s. 202).

Tərcüməsi:

«Hər üç zaman qaliblərinin hərəkətlərini,
Saf, təmiz niyazı bütünlüklə yerinə yetirib
Hörmətli Tolpı Tüzün yoluyla
Müqəddəs, böyük idrakı dərk edək»

(Cəfərov N., 2004, s. 206).

Sözügedən şairin öyərək göylərə qaldırdığı və ilahiləşdirdiyi bu şəxsin adına digər ədəbi nümunələrdə rast gəlinmir. Bu da təbiidir. digər dinlərdə olduğu kimi, buddizmdə də peyğəmbərin övladı olmaq həmin şəxsə başqaları qarşısında heç bir üstünlük vermir. İnsanların üstünlük dərəcələri onların imanının səviyyəsi ilə ölçülür. Elə bu üzdən də Burxan oğlu Tolpı Tüzün Uğan barədə mədhiyyələr yazmağa heç bir ehtiyac olmamışdır və üstəlik də bu, Budda dininin vacibiyyətləri sırasına daxil deyildir.

Şerlərin məzmunundan göründüyü kimi, Burxanın oğlu buddizm dininin böyük din adamlarından biri kimi tanınmışdır. Fəqət hər dövrdə belələrinin sayı o qədər çox olmuşdur ki, onların hər birini yalnız öz müasirləri və ardıcılları mədh etmişlər. Hər dövrdə mədh edilən yalnız Buddanın (Burxanın) özü idi. Odur ki, Tolpı Tüzün Uğanı tərifləyərək göylərə qaldıran Atsanq Kalam Keysi, şübhəsiz ki, onun müasiri olmalıydı.

Deməli, Astanq Kalam Keysi Buddanın (Burxanın) oğlunun müasiri olmuşdur, yəni e.ə. V əsrdə yaşamışdır və onun şerləri də e.ə. V əsr sak dilinin və ədəbiyyatının nümunəsidir. Hər halda, o, şerini yazanda artıq Burxan (Budda) həyatda yox idi. (O, səksən yaşında ölmüşdür). Bu, aşağıdakı misralardan məlum olur:

«Sarvaartasıdı tiqin ad önqdünlüq
Səkiz on yaş yaşamışın körkitmiş erür.
Sartavahı yolçu yirçi aşiça yimə
Sanı yüz minq koldınayut yıl, ay yaşayur»

(Cəfərov N., 2004, s. 211).

Tərcüməsi:

«Sarvarthasiddha öncədən şahzadə adı ilə
Səksən yaş yaşayacağını göstərmişdi.
Və ya sartavahı yolçusu, yolçubaşı adı ilə
Yüz min kotu nayuta ili, ayı yaşamışdır»

(Cəfərov N., 2004, s. 215).

Hər iki şerdən gətirdiyimiz misallardan da göründüyü kimi, bu şerlərdə misraların sonları öz aralarında qafiyələnmir. Yəni bu şerlər sonuyumlu yox, önuyumludur. Eyni halı Pratyaya Şiri və Kiki kimi digər buddist şairlərin də əsərlərində müşahidə etmək mümkündür.

Pratyaya Şiridən bir nümunə:

«Utmışlarnınq vısayı Buda Avatansana
Uluğ kölünqü sundurta uz tiripnomlamış,
Uğanlarnınğ on kut kolunç yozığı bu nomuğ
Una ani iyin kəziqçə okıdı sözlərim»

(Cəfərov N., 2004, s. 193).

Tərcüməsi:

«Qaliblərin vişayası Budda Avatnısaka
Böyük taşıt sutrasında yaxşıca düzülüb yorulmuş,
İlahilərin on səadət arzusunun yozumu olan bu qanuna.
Odur ki, bunun üçün sıra ilə oxuyub izah edək»

(Cəfərov N., 2004, s. 195).

Kikidən bir nümunə:

«Etüzlərinqə yaraşı
Erdiniliq idiq tüməkin
Enqəyü yoz yoçan yarudur
Esrinqü yaruklar önmişin...» (Cəfərov N., 2004, s. 219).

Tərcüməsi:

«Vücudlarına yaraşan
Cövhərlərdən hər cür bəzəklərdə
Enqəyü (?) yüzlərcə yojana işıqlandıran
Rəngarəng işıq çıxdığını...»

(Cəfərov N., 2004, s. 229).

Çısuya Tutunqun şerlərinə isə yuxarıdakı şairlərdən fərqli olaraq, həm ön uyumluluq, həm də sonuyumluluq xasdır. Elə bu

xüsusiyyətinə görə də Çısuya Tutunqun şerləri Atsanq Kalam Keysi, Pratyaya Şiri və Kikinin şerlərindən fərqlənir:

«Önq başlap, adkanğularka biliqlər kaçar,
Öküş kara, ayığ yolluğ uruğuğ saçar.
Öqlüq kişi istimtutçı yaşmaksız baçar,
Öşəliksiz yiq nirvanınğ kapığın açar.
Burkan kənti könqül erür, könqül ok burkan,
Bulamı mat bölsər bolur sansarta turğan,
Brdulmasar ikiqükə bulup ol nırvan,
Bu bir sözni setirək boldı bakışta sorqan»

(Cəfərov N., 2004, s. 187).

Tərcüməsi:

«Öncə (ondan) başlayaq (ki), biliklər xassələrə yönələr,
Bir çox qara, pis yolların oxumunu əkər,
Ağıllı insan heç zaman yanılmadan diqqət çəkər,
İstisnasız nüfuzlu nirvananın qapısını açar.
Burxanın özü ruhdur, ruh da burxan,
Bunları bu cür bölsən, samsarada durarsan,
Hər ikisinə bulaşmayanlar nirvananı tapır,
Bu sözü baxşıdan soruşan çox nadir oldu»

(Cəfərov N., 2004, s. 190).

Çışuya Tutunqun şerini digərlərindən fərqləndirən başqa bir cəhət isə şivə fərqidir. Məsələn, təqdim olunan nümunənin ikinci beytinin ikinci sözü "özü" mənasında işlənən "kənti" (kəndi) kəlməsidir. Halbuki, Atsanq Kalam Keysidə "özüm" termini işlənməkdədir:

«Burk-şark kılıp on edqüsin mən-Astanq **özüm**
Buyan küsüş özə köşmüş taksut başladı»

(Cəfərov N., 2004, s. 210).

Ortada açıq-aydın bir forma və çox çüzi bir şivə fərqi var. Bu isə Atsanq Kalam Keysi, Pratyaya Şiri və Kikinin şerlərini «Sak ədəbiyyatı» (e.ə.Vl-ll əsrlər) kateqoriyasına, Çışuya Tutunqun şeirlərini isə bir neçə əsr sonrakı dövrün məhsulu olan «Kuşan ədəbiyyatı» (e.ə. II-b.e. IV əsrlər) kateqoriyasına aid etməmizə imkan verir.

Daha sonrakı əsrlərin (V-X) yadigarı olan manixeist (maniçi) məzmunlu uyğur şerində də Kuşan şer formasına bənzər forma ilə, həm ön, həm də son uyumluluq halı ilə üzləşirik. Bu baxımdan Arpınçur Təkinin dövümüzədək ulaşmış bir şerini misal göstərmək olar:

«Kün Tenqri yarukun teq köküzlüqüm, bilqəm,
Kün Tenqri yarukun teq köküzlüqüm, bilqəm.
Körtlə, tüzün Tenqrim, külüqüm, küünsüm!
Körtlə tüzün Tenqrim, külüqüm, buluncsuzum!»

(Cəfərov N., 2004, s. 159).

Mövzumuz baxımından bu şerin böyük əhəmiyyəti var. Çünki burada Gün Tenqrinin (Kün Tenqri) adı ilə rastlaşırıq. Bənzər hal digər manixeist məzmunlu şerlərdə də müşahidə edilir. Həmin şerlərdən birində Gün Tenqri ilə birlikdə Ay Tenqri inancının izini də görürük.

Qeyd etmək lazımdır ki, istər buddist, istər manixeist, istərsə də dünyəvi məzmunlu qədim türk ədəbi nümunələrinin böyük əksəriyyəti dövrümüzədək məhz uyğurların sayəsində gəlib çıxmışdır. Məhz onlar özlərindən əvvəlki türk ədəbiyyatını uyğur əlifbasına çevirərək dövrümüzədək yaşamasına imkan yaratmışlar. Əsəri sayəsində yüzlərcə qədim türk folklor və yazılı ədəbiyyat nümunələri dövrümüzədək ulaşan Kaşğarlı Mahmud da bir uyğur türkü idi.

Yeni Türk Ensiklopediyasında yazılanlara görə, kağızı kəşf edərək, onu uzun müddət öz monopoliyasında saxlayan uyğurlar ilk mətbəələri də kəşf edən və onlardan istifadə edən xalq olmuşlar (Yeni Türk Ansiklopedisi, 1985, Xll, s. 4482-4483). Hazırda Uyğurustan (Şərqi Türküstan) Çinin tərkibində olduğu üçün türklərin bir çox kəşfləri kimi barıt, kağız , mətbəə və kitabın kəşfi də çinlilərin adına çıxılır. Fakt isə budur ki, elmə məlum ən qədim kağız kitablar,eləcə də mətbəədə basılmış kitablar türkcədir. Uyğurustanın (Şərqi Türküstanın) xarabalıqlarından indiyə qədər yüzlərlə kitab tapılmışdır və bu gün də tapılmaqda davam edir (Yeni Türk Ansiklopedisi, 1985, Xll, s. 4483).

İstər buddist, istərsə də manixeist mətnlərin dili kimi uyğur dili də xaqaniyyə türkcəsidir. Bu üzdən də onlardan öncəki ədə-

biyyat uyğur ədəbiyyatı nümunələri, bu nümunələrin dili də uyğur dili hesab edilir (Zeynalov F.,1981, s. 269). Halbuki uyğurlar Şərqi Türküstana V-Vl əsrlərdə gəlmişlər və burada dövlət də (Vlll-lX əsrlər) qura bimişlər (Zeynalov F.,1981, s. 268). Bundan öncə onlar Şərqi Avropa və Qafqazda yaşamışlar. Odur ki, yuxarıda haqqında söz açılan ədəbiyyat uyğurlaraqədərki türk soy və boylarına - saklara, kuşanlılara və hunlara aiddir.

Təsadüfi deyil ki, Mahmud Kaşğarlı sakların dilini "xotən" (xotan) dili adlandırır və onların ləhcəsini uyğur ləhcəsindən fərqləndirir (Əskər R., 2008, s. 324).

Həmin dildə yazıb-yaradanlar isə özlərini "şakı", yəni «sak» adlandırmışlar və onların dili uyğur dilindən çoxsaylı hind mənşəli sözlərə sahib olması və "a" saiti ilə başlayan sözlərin önündə "h" səsinin tələffüz edilməsi ilə fərqlənmişdir. Başqa fərq olmamışdır. Odur ki, bu dili uyğur dilinin fərqli bir variantı saymaq olar. Hər halda, brahmi əlifbası ilə türkcə yazılmış mətnlər, eləcə də digər buddist məzmunlu mətnlər türkoloqlar tərəfindən uyğur dili abidələri kimi qəbul edilir. Məsələn, görkəmli türkoloq Fərhad Zeynalov yazır ki, «Şərqi Türküstandan qədim uyğur dilini səciyyələndirən irili-xırdalı 4000-ə qədər əlyazması, fraqmentlər, ksiloqraflar toplanmışdır...Bu abidələr içərisində buddizmlə əlaqədar olanları üstünlük təşkil edir» (Zeynalov F.,1981, s. 269).

Fərhad Zeynalovun yazdıqlarından belə anlaşılır ki, uyğurlar haqqında ilk məlumatlarda onlar "oqur", "saraoqur", "kotriqurlar", "onoqur" və s. adlarla qeyd edilmişlər (Zeynalov F., 1981, s.268). İrəlidə görəcəyimiz kimi, onları bu adlarla məhz erkən orta əsrlər Avropa tarixçiləri Qafqaz və Şərqi Avropada yşayan hunların tərkibində yad etmişlər. Qədim Çin mənbələrində hunlardan son dərəcə çox danışılsa da və bir çox türk soy və boylarının, o cümlədən se (sak) və yuecilərin (kuşanlıların) adları yad edilsə də uyğurlar haqqında bircə kəlmə belə danışılmır. Yalnız sonrakı mənbələrdə onlardan "vey-ho", "hun-ho" və veyvu-rh" adı ilə bəhs edilir. Bu isə o deməkdir ki, uyğurlar Qərbdən Şərqə saklardan və digər türk xalqlarından daha gec köç etmişlər (Rəcəbov Ə., Məmmədov Y., 1993, s. 390).

Uyğur türkləri hazırda əsasən Çinin Sintzyan-Uyğur Muxtar Vilayətində, qismən də Qazaxıstan və Özbəkistanda yaşayırlar. Rəsmi statistikaya görə, sayları 15 milyon civarındadır. Qeyri-rəsmi məlumatlara əsasən isə, sayları 30 milyonla 100 milyon arasında göstərilir. Uyğurlaın tarixdə qurduqları ilk dövlətin Vlll əsrdə qurulan Onuyğur-Doqquzoğuz xaqanlığı olduğu hesab edilir. Bu dövlətin ərazisi Monqolustan, Sibir və İndiki Uyğurustan ərazilərini əhatə etmişdir. Dövlətin qurulmasında doqquzoğuzlarla onuyğurlar fəal rol oynamışlar (Zeynalov F.,1981, s. 268-269). On uyğur soyunun birləşməsi ilə ortaya çıxan onuyğurların adına Orxon-Yenisey abidələrində sıx-sıx rast gəlinməkdədir. Məsələn; «Su... orada qalmış xalq onuyğur, doqquzoğuz xalqlarının üzərində yüz il oturub... Orxon çayı...» ( Moyunçur abidəsi, 3-cü sətir) (Rəcəbov Ə., Məmmədov Y., 1993, s. 149).

Onuyğurların adının əks olunduğu Moyunçur abidəsi bəzən "Selenqa daşı" da adlanır. Monqolustan ərazisindən, Selenqa çayı sahilləri yaxınlığından tapılmış bu abidə 744-759-cu illər arasında qoyulmuşdur (Rəcəbov Ə., Məmmədov Y., 1993, s. 134-135).

Onuyğurların adına daha əvvəlki dövrlərə aid Qərb mənbələrində də rast gəlinməkdədir. Bu isə uyğurların, eləcə də onuyğurların Şərqə köçməmişdən öncə Qafqazda, o cümlədən Azərbaycan ərazisində yaşamış olduqlarından xəbər verməkdədir. İstər qədim erməni abidələrində, istər Musa Kağankatlının "Alban tarixi"ndə, istərsə də bir çox başqa mənbədə onların adı Albaniyada baş verən hadisələrlə əlaqədar çəkilir. Bu mənbələrdə onların adı "honoğur", "onoqur" kimi qeyd edilmişdir (Əliyarov S., 1991, s. 139; Джафаров Ю.Р., Б., 1985, с. 41-68). Yeri gəlmişkən qeyd edək ki, Xəzər xaqanı İosifin məktubunda uyğurlar Azərbaycanın (Qafqaz Albaniyasının) 4-cü şahı Toqarmanın 10 oğlundan biri olan Uyğurun soyu kimi təqdim edilməkdədir (Ağasıoğlu F., 2005, s. 29).

Tarixi mənbələrdən onuyğurların III əsrin böyük Azərbaycan şairi və filosofu Maninin qurmuş olduğu maniçilik, başqa sözlə, manixeizm dininə sitayiş etdikləri və bu dini öz dövlətlərinin rəsmi dini elan etdikləri məlumdur (Гумилев Л., 2002, с. 472-473). Görünür, öncələr Albaniyada yaşamış onuyğurların

bu ölkəni tərk edib Şərqə köçmələrinə də elə bu din səbəb olmuşdur. Çünki V əsrdə Albaniya hökmdarı Vaçaqanın dövründə xristianlığın rəsmi dövlət dini elan edilməsindən sonra bütün qeyri din və məzhəb nümayəndələrinə qarşı, o cümlədən maniçilərə qarşı dəhşətli təqib və təzyiqlər başlamışdı (Kalankaytuklu M., 1993, s. 53-55). Bu üzdən də başqa din və təriqətlərin nümayəndələri ölkəni tərk etmək məcburiyyətində qalmışdılar.

Nizami Xudiyevin yazdığına görə, «IX-XII əsrlərdə ümumi türk dilinin inkişafında maniçi türk ədəbiyyatı müəyyən rol oynamışdır. Bu ədəbiyyatın dili qədim türk dilidir. Bununla belə, həmin dil artıq başqa mədəniyyət tipologiyasına xidmət edir. Ümumiyyətlə, IX-XII əsrlərdə türklər qədim türk Tanrı dininin yerinə islam, buddizm, maniçilik, xristianlıq kimi dinləri qəbul edirlər və qədim türk dilinin əsas lüğət fondu, hətta ümumən leksikası dəyişmir. Eləcə də bir çox maniçi mətnlərdə yeni dinin xüsusi terminologiyasına xas elementlərə rast gəlinmir. Yəni maniçilik türk ədəbiyyaında əksər hallarda öz terminologiyası ilə təmsil olunmuşdur» (Xudiyev N., 1997, s. 55).

Nizami Cəfərov isə yazır ki, «Maninin təlimində qədim türk mifologiyası, xüsusilə dünyanın yaranması haqqındakı təsəvvürlərlə səsləşən məqamlar kifayət qədərdir. Tanrının qaranlığın, şərin, bədənin deyil, məhz işığın, xeyrn, ruhun yaradıcısı olması; insanın mahiyyətinin bədəndə yox, ruhda təzahürü, dünyanın xaos, mükəmməl insanın kosmos səciyyəsi daşıması qənaətinə gələn Mani, görünür, yalnız müqəddəs kitabları öyrənməklə kifayətlənməmiş. öz təlimini yaradarkən qədim təsəvvürlərdən, miflərdən də istifadə etmişdir (Cəfərov N., 2004, s. 16).

Maniçilik və ya manixeizm Onuyğur-Doqquzoğuz dövlətində və Sibir-Yenisey Xaqanlığında rəsmi din səviyyəsində tutulsa da bundan çox-çox öncələr o, Azərbaycan, İran, Orta Asiya və Avropada yayılmışdı.Təbii ki o dövrdə və o məkanda da manixey ədəbiyyatı nümunələri yaranmamış deyildi.Ən azı bu dinin əsasını qoymuş Maninin şer yazdığı və öz dini-fəlsəfi görüşlərini qələmə almış olduğu məlumdur.Lakin çox təssüflər olsun ki, məsələnin bu tərəfi tədqiqatçıları düşündürməmiş və bu üzdən

də "Manici türk ədəbiyyatı " adı altında məlum olan bütün əsərlər ucdantutma Vlll əsrdən sonra Şərqdə yaradılan və ya başqa dillərdən tərcümə edilən əsərlər kimi qəbul edilmişdir.

Musa Kağankatlının verdiyi məlumatdan aydın olur ki, Qafqaz Albaniyasında, yəni Azərbaycanın Araz çayından şimalda yerləşən ərazilərində xristianlığı möhkəmləndirən Vaçaqan cadugər, sehirbaz və büpərəstlərə qarşı mübarizə aparmış, onların kitablarını yandırmış, övladları üçün isə xristian məkəbləri açmışdı. Müəllif həmin dövrdə Albaniya və Ermənistanda Nestorla bərabər Maninin də lənətləndiyni bildirməkdədir (Kalankaytuklu M., 1993, s. 53-55, 79).

Madam ki, Qafqaz Albaniyasında digər din, məzhəb və təriqətlər kimi Maninin tərəfdarlarına qarşı da təqiblər başlanmışdı və onların kitabları yandırılırdı, təbii ki, bu dinin mənsubları canlarını və kitablarını xilas etmək üçün mühacirət etməyə məcbur idilər. Belələrindən biri də onuyğurlar idilər.

Albaniyada təqib və təzyiqlərə məruz qalan icmalardan biri də monofizit xristianlar, yəni nestorianlar idilər. Maraqlıdır ki,bu təzyiqlər nəticəsində Azərbaycanı tərk edərək Şərqə üz tutan uyğurların bir qismi də nestorian idilər və onlar da maniçilər, yəni manixeistlər kimi öz kitablarını da özləri ilə aparmışdılar.

Uyğurların bir qismi əski dinlərinə - Göy Tenqri dininə sitayiş edir və Orxon-Yenisey əlifbasından istifadə edirdilər. Xristianlığın nestorian qoluna mənsub olan uyğurlar soğd və onun əsasında tərtib edilmiş uyğur əlifbalarından istifadə edirdilər.

Soğd əlifbası İran mənşəli əlifbalardan biridir və bu əlifbanın yaradıcıları Orta Asiyada yaşayan irandilli söğdlar idilər. Xristian uyğurlar bir müddət bu əlifbadan istifadə etdikdən sonra onun əsasında özlərinə yeni bir əlifba yaratdılar ki, bu da elm aləmində "uyğur əlifbası" adı ilə məşhur olan əlifbadır.

Uyğur əlifbasının soğd əlifbası əsasında tərtib edildiyini yazı tarixinin gözəl bilicisi İohannes Fridrix də təsdiqləyir. O bu barədə yazır: «Soğd yazısı...soldan sağa yazılır və o, Suriya əlifbası ilə qohumdur.Lakin bu qohumluğun xarakteri belədir ki, həm Suriya, həm soğd yazısı arami yazısının qədim və hələ məlum olmayan

formasından qaynaqlanır və bir-birindən müstəqil, lakin paralel inkişaf etmişlər... İndi uyğur yazısının soğd əlifbası əsasında yaradıldığı ehimalı daha ağlabatan görünür, belə ki, uyğurlar da digər türk xalqları kimi "p" səsini "b" səsindən və "k" səsini "q" səsindən ayırsa da, uyğur əlifbasında eynən soğd əlifbası kimi bu səslər eyni işarələrlə - "p" və "k" hərfləri ilə yazılırdı... Çünki soğd dilində "b" və "q" səsləri yox idi.Bundan başqa soğd dilində "l" səsi də olmamışdır. Odur ki, onlar xarici sözlərdəki "l" səsini ifadə emək üçün "r" hərfinin dəyişik formasından istifadə edirdilər... Uyğur yazısında da..."l" səsini ifadə etmək üçün "r" hərfinin dəyişik formasından istifadə edilmişdir» (Фридрих И., 1979, с. 167).

Maninin dinini qəbul emiş türklər isə elm aləmində "manixey əlifbası" adı ilə tanınan və Maninin özü tərəfindən tərtib edilmiş olan əlifbadan istifadə edirdilər və uyğurlar bu əlifbanı özləri ilə birlikdə Azərbaycandan gətirmişdilər. Soğd və uyğur əlifbalarından fərqli olaraq, bu əlifbada "p" və "b" səsləri, eləcə də "k" və "q" səsləri ayrı-ayrı hərflərlə ifadə olunurdu. Bu əlifbada digər türk əlifbalarında olduğu kimi, "l" səsi üçün də ayrıca işarə var idi.

İohannes Fridrixin yazır ki, «Şərqi Türküstandan İran və şərqi türk dilləində, arami mənşəli ayrı-ayrı əlifbalarla yazılmış maniçi mətnlər tapılmışdır. Onlardan biri manixey əlifbası adlanır. Ona Babilistanın Nippur şəhərində üzə çıxarılan maqik gil fincanların üzərində də rast gəlinmişdir ki, bu da onun mənşəyi məsələsi baxımından çox önəmlidir. M. Lindzbarski göstərmişdir ki, sağdan sola yazılan bu yazı arami kursiv yazısından qaynaqlanır və dekorativ Palmir yazısı ilə qohumdur...Bu yazıda bütün saitləri ifadə edən işarələr var» (Фридрих И., 1979, с. 167).

Qeyd emək lazımdır ki, bu əlifba ilə yazılmış bütün mətnlər türkcədir. Bu fakt sözügedən əlifbanın məhz türk dili materialı üçün yaradıldığını, yəni Maninin ana dilinin türk dili olduğunu sübut edir. Lakin bu, həmin fikri sübut edən yeganə fakt deyildir. Manixey əlifbasında "l" səsini ifadə edən ayrıca hərfin olması faktı da deyilənlərə ən gözəl sübutdur. Məsələ burasındadır ki, qədim soğd dilində "l" səsi olmayıb (Фридрих И., 1979, с. 167). Eyni sözləri digər İran dilləri barədə də söyləmək olar. Məsələn,

fars dili üzrə tanınmış mütəxəssis V. Abayevin yazdığına görə, bu dildə əskidən "l" səsi olmamış və bu səs sözügedən dilə X əsrdə daxil olmuşdur (Kasım A. C., 2001, s. 14).

Nəzərə alsaq ki, Mani gəncliyini Babildə keçirmiş və orada təhsil almışdı, onun yaratdığı əlifbanın arami mənşəli olmasında təəccüblü bir şey yoxdur. Maraqlıdır ki, mənbələrdə Maninin öz əsələrini məhz bu əlifba ilə qələmə aldığı birmənalı şəkildə vurğulanır. Bu isə o deməkdir ki, o, əsərlərini türkcə qələmə almışdır. Çünki soğd və toxar dillərində yazılmış maniçi ədəbiyyat nünunələrinə də rast gəlinməsinə baxmayaraq, onlar soğd və toxar əlifbaları ilə yazılmışdır. Manixey əlifbası ilə qələmə alınmış mətnlərin isə hamısı istisnasız olaraq türkcədir.

Soğd və toxar dillərində olan mətnlərin hamısının türkcə qarşılığı var. Yəni həmin mətnlər türk dilindən tərcümədən başqa bir şey deyildir. Lakin Avropa və rus alimləri türk abidələrinin tərcümə olduğunu israr edirlər. Halbuki türk mətnlərinin bir çoxunun müəllifləri bəllidir və onlar türkdürlər. Bunlardan biri Alpınçur Təkindir və onun iki şeri dövrümüzədək yetişmişdir. Onlardan biri belədir:

«...Barayın tisər, bac anrakım,
Baru yimə uma mən,
Bağırsakım!
Kirəyim tisər, kiçiqkiyəm,
Kirü yimə umaz mən,
Kin, yıpar yıldığım...»

Tərcüməsi:

«...Gedim desəm də,gözəl sevgilim,
Gedə bilmərəm,
Mərhəmətlim,
Gəlim desəm də, kiçiciyim,
Gələ bilmərəm,
Ənbər, müşk qoxulum...» (Cəfərov N., 2004, s. 159-160).

Şübhəsiz ki, bu şerin dili Vlll-X əsrlər uyğur dili nümunəsidir. Eyni sözü müəllifi bilinən başqa manixey mətni - nəsr formasında qələmə alınan "Xuastuanift", yəni "Maniçilərin tövbə

duası" barədə də söyləmək olar. Bu duada da qədim Gün Tenqri və Ay Tenqri obrazlarına rast gəlirik:

«...Tenqrim, suyda baru bilmətin kün ay tenqrikə, iki yaruk ordu içrə oluruğma tenqrilərkə neçə yazınımız ersər, yemə kirtü erklik küçlüq tenqri tipənkirtkimədimiz ersər,neçə öküş yavlak, çulvu sav sözlədimiz ersər... yemə kün ay ölür tidimiz ersər,.. kentü özümüü küntə,ayda önqi biz tidimiz ersər... bu ikinti bitmətin yazınmış yazukuq boşunu önütür biz: manastar ğırza!» (Cəfərov N., 2004, s. 285).

Tərcüməsi:

«Tanrım, günah ediyimizi bilmədən gün, ay tanrılara - iki işıqlı sarayda əyləşən tanrılara qarşı nə qədər günah işləsək də, əsl qüvvəli, qüdrətli Tanrı deyib iman gəirməsək də, nə qədər çoxlu pis, rüsvayçı sözlər söyləsək də... həmçinin gün, ay tanrılar ölür desək də... hünərsizliyindən doğub-batır, hünəri varsa doğmasın desək də... özümüzü öyüb biz gündən, aydan yüksəyik desək də... bu ikisi qarşısında etdiyimiz günahları bilmədən yalvarırıq: günahlarımızı bağışla» (Cəfərov N., 2004, s. 291).

Bu nəsr əsərinin də dili VIII-X əsrlərin uyğur dilidir və şübhəsiz ki, köçdən sonra Şərqdə ərsəyə gətirilmişdir. Onu ərsəyə gətirən Bötürmüş Tərxan əsərin sonunda adını yazmağı da unutmamışdır:

«...Suçdan, günahlardan indi azad olaraq işıq tanrılarına, din səadətinə, pak dindarlara yalvarırıq: günahlarımızı bağışla! Bötürmüş Tərxan niğosakların günahları, suçları haqqındakı duaları - Xuastuanifti bitirdi» (Cəfərov N., 2004, s. 296).

Əsərin müəllifi adını açıq-aydın yazsa da bəzi rus və Avropa alimləri onun tərcümə olduğunu iddia etmişlər. Bəziləri bu əsərin suryani dilindən, bəziləri isə guya soğd dilindən tərcümə edildiyini irəli sürmüşlər (Гумилев Л., 2002, с. 426-427), lakin onun nə soğd dilində, nə də suryani dilində variantlarını göstərə bilməmişlər. Göstərə də bilməzdilər, çünki belə variantlar yoxdur və heç vaxt olmayıb da. Əsər orijinaldır və müəllifi onu türkcə qələmə alıb. Əgər söhbət Tenqridən gedirsə, qədim türk mifologiyasından qaynaqlanan Gün Tenqri, Ay Tenqri, Yer-Sub obrazlarına rast gəlinirsə, əsəri tərcümə hesab etmək və ümu-

miyyətlə maniçiliyin yaranmasını türk mühitindən ayrı təsəvvür etmək, əlbəttə ki, yanlışdır.

Elmi ədəbiyyatda səhvən iranlı kimi qələmə verilən Mani 215-ci ildə Cənubi Azərbaycanın Həmədan şəhərində doğulmuşdur. O, məşhur Arsaklar sülaləsindən idi. Bu sülalənin əsasını qoymuş Arsak isə sakların parn (baran, baranlu) qəbiləsindən idi (Azərbaycan Sovet Ensiklopediyası, I, s. 423, Arşakilər), yəni Arsaklar sak mənşəli idilər.

İlk fars-Sasani şahı Ərdəşir türk-Arsaklar sülaləsindən sonuncu Part. yəni Parfiya hökmdarı Ərdabanı məğlub etdikdən sonra Arsakların Ön Asiya, Güney Qafqaz və Mərkəzi Asiya üzərində 500 ildən artıq sürən hakimiyyətlərinə (e.ə. 250-b.e. 224) son qoyuldu və farslar böyük türk imperatorluğunun bütün torpaqlarının sahibinə çevrildilər. Arsakların əlində sadəcə Ermənistan (62-428) və Albaniya (I əsrin ortaları-510) qalmışdı (Azərbaycan Sovet Ensiklopediyası, I, s. 423, Arşakilər).

Məğlub sülalənin əksər üzvləri o dövrdə Arsakların paytaxtı olmuş Həmədan şəhərində yaşayırdılar. Farslar onların xalqı üsyana təhrik edə bilmə ehtimallarını göz önündə tutaraq sülalənin bütün üzvlərini öz imperiyalarının paytaxtına sürgen etdilər. Sürgün edilən ailələr içərisində Maninin atası Pətiyin ailəsi də vardı. Mani- dünyagörüşü də bu şəhərdə, yəhudi, xristian və zərdüşti filosoflarının mübahisələrinin qızğın keçdiyi Mədain şəhərində formalaşdı.

Mani farsların gücünün onların dinlərində, yəni zərdüştilikdə olduğunu çox tez başa düşdü. Odur ki, bu ideoloji sistemə qarşı onu çürüdə biləcək, eləcə də tükləri fars hakimiyyətinə qarşı mübarizəyə səfərbər edə biləcək alternativ dini-ideoloji bir sistem qurmaq qərarına gəldi.

Maninin dininin əsil mahiyyətini başa düşməyə bizə Bötürmüş Tərxanın qələminə mənsub "Xuastuanift" əsəri kömək edir:

«Hörmüz tanrı beş tanrı ilə bütün tanrıların gücünü toplayıb şeytanlara qarşı vuruşmağa enib, gəldi. Bəd əməllər şeytanı Şimnu beş cür şeytana qarşı vuruşdu. Tanrı, şeytan işıq o vaxt bir-birinə qarışdı. Hörmüz tanrı əsgərləri, beş tanrı bizim ruhu-

muz günah şeytanları ilə vuruşub başlarından yaralandılar» (Cəfərov N., 2004, s. 290).

"Xuastuanift" məhz bu cümlələrlə başlayır. Əsərdə zərdüştiliyin baş tanrısı Hörmüzün adı çəkilir və o, əsərin, eləcə də maniçilik fəlsəfəsinin əsas personajlarından biri kimi çıxış edir. Elə bu fakt da bir çox tədqiqatçıları maniçiliyi zərdüştiliyin bir təriqəti və bu dinin törəməsi hesab etməyə sövq etmişdir. Məsələ də elə bundadır. Yəni bütün səhf mülahizələr elə buradan qaynaqlanmaqdadır. Lakin tədqiqatçıların gözdən qaçıtdıqları və ya böyük əhəmiyyət vermədikləri bir detala xüsusi diqqət yetirmək kifayədir ki, məsələnin tamam başqa cür olduğunu anlayasan.

Məsələ burasındadır ki, maniçilikdə "Avesta"dakı Əhrimən obrazının yerinə türk mifologiyasının ən məşhur mənfi qəhrəmanlarından biri olan, ayrı-ayrı türk əfsanə və nağıllarında bəzən Şimnu, bəzən Şimnus və ya Şulbus, bəzən də Çulbus, Kəlləgöz və ya Təpəgöz adları ilə adlandırılan obraz daxil edilmişdir (Cəfərov N., 2004, s. 290). Maniçilikdə bu obrazın "Şimnu" adından istifadə edilmişdir. Görəsən, Əhrimən obrazını Təpəgözlə, yəni Şimnu ilə əvəzləmək Maninin nəyinə lazım idi?

Məlumat üçün bildirək ki, "Avestada" iblis, şeytan, şər qüvvələrin başçısı kimi təqdim edilən Əhrimən bu varlığın yeni fars dilindəki adıdır. Zərdüştilərin müqəddəs kitabında, yəni Avestada bu qüvvənin adı Anqra Manyudur. "Anqra Manyu" adı isə türk Tenqrisinin farsca bir qədər təhrif edilmiş adıdır.

| Qədim türkcə | Yakut türkcəsində | Avestada |
|---|---|---|
| Tenqri Menqu | Tanqra Menqu | Anqra Manyu |

Qədim türklər sitayiş etdikləri tək Tanrıya çox vaxt "Tenqri Menqü" də deyirdilər. "Menqü" qədim türk dilində əbədi deməkdir (Древнетюркский словарь, 1969, c. 342). Odur ki, bu halda söhbət əbədi olan Tanrıdan gedir. Bəzi türk ləhcə və şivələrində "Tanrı","Tenqri" əvəzinə "Tanqara" forması işlədilməkdə, "Tenqri Menqü" ifadəsi də "Tanqara Menqü" kimi səslənməkdədir (Алексеев Н.А., 1984, c. 35).

Qatı bir fars milliyətçisi olan və əsərindən də göründüyü kimi, türklərə dərin nifrət bəsləyən Zərdüşt öz saxta dinində Tanqra Menqunu "Anqra Manyu" adı altında iblis elan etmiş, ona qarşı Babil-Aşşur mifologiyasından götürdüyü Ahura Məzdanı, yəni Hörmüzü, eləcə də Arti, Anahid, Mitra, Vritraqan və sairə fars tanrılarını qoymuş, Hörmüzü və fars tanrılarını xeyrin, işığın rəmzi kim qələmə vermişdi. Avestada turanlılar, yəni türklər şərin və qaranlığın, iranlılar, yəni farslar isə xeyrin və işığın əsgərləri kimi qələmə verilir, turanlıların Anqra Manyuya sitayiş etdikləri qeyd edilir.

Maninin öz dinində Əhrimənin, yəni Anqra Manyunun yerinə Şimnunu, yəni təpəgözü iblis elan etməsinin əsil səbəbi türk Tanrısını Zərdüştün ona biçdiyi iblis obrazından xilas etmək idi. Türk Mani bununla da yetinməmiş, Tenqrini Hörmüzdən də, digər fars tanrılarından da yuxarı qaldırmış, ikinci yerə türk mifologiyasından götürdüyü Gün, Ay tanrılarını və Yer-Suyu yerləşdirmiş, Hörmüzü və onun beş tanrısını, yəni fars tanrılarını isə onlardan aşağı tutmuşdur:

«...Gün, Ay tanrılara, iki işıqlı sarayda əyləşən tanrılara, bütün bürhanların müqəddəs adının, ləyaqətli ruhların, Yer-Su nurunun əsası Tanrı məkanına gedəndə ilk qapı Gün, Ay tanrısının olacaqdır. Beş tanrını qurtarmaq, işığı-zülməi ayırmaq üçün işıq göydə dolanır» (Cəfərov N., 2004, s. 291).

Bənzər ierarxik sistem türk şamanizmində müşahidə edilməkdədir (Алексеев Н.А., 1984, с. 43). Maninin təliminə görə, beş tanrı Şimnu ilə, yəni təpəgözlə və onun beş şeytanı ilə döyüşdə yaralandıqları və murdarlandıqları üçün onların qurtarılmağa, təmizlənməyə ehtiyacları var. Yalnız bundan sonra onlar Gün, Ay qapılarından keçib Tanrı dərgahına qalxa bilərlər. Gördüyümüz kimi, maniçilikdə Əhrimənin yerini Şimnu tutduğu kimi, Hörmüzün də yerini işıq tanrısı, yəni türk Tenqrisi tutur. O, Tanq Tenqri, yəni dan tanrısı adlandırılır.

Manixey əlifbası ilə, türkcə yazılmış mətnlərin heç də hamısı sırf uyğur türkcəsində deyildir. Bəzi mətnlər var ki, onların dili oğuz türkcəsinə daha yaxındır və oğuz türkcəsi ilə uyğur türkcəsinin bir-birindən hələ tam ayrılmadığı vəziyyəti əks et-

dirir. Şübhəsiz ki, onlar daha arxaikdirlər. Burada sa Ay Tenqri və Gün Tenqri obrazları diqqət çəkir:

«Tanq Tenqri kəlti, Tanq tenqri özi kəlti!
Tanq Tenqri kəlti, Tanq Tenqri özi kəlti!
Turunqlar, kamağ bəglər, kadaşlar,
Tanq Tenqriq ögəlim!
Körünüqmə Kün Tenqri, siz bizi küzədinq!
Körünüqmə Ay Tenqri, siz bizi kurtarınq!..."
Tərcüməsi:
«Dan Tanrı gəldi, Dan Tanrı özü gəldi!
Dan Tanrı gəldi, Dan Tanrı özü gəldi!
Şəhərlər, bütün bəylər, qardaşlar,
Dan Tanrını öyəlim!
Parlaq Gün Tanrı, siz bizə nəzər salın!
Parlaq Ay Tanrı, siz bizi qurtarın!..."
(Cəfərov N., 2004, s. 122-123).

Bu şerin dili Alpınçur Təkinin şerlərinin və Bötürmüş Tərxanın "Xuastu- anift"inin dilindən daha sadə və daha anlaşıqlıdır və şübhəsiz ki, III-V əsrlərdə Azərbaycanda qələmə alınmışdır. Fəqət onun Maninin qələminə məxsus olub-olmadığını tam qətiyyətlə söyləmək mümkün deyildir. Lakin əldə olan və dili bu şerin dilindən fərqlənməyən daha bir şer var ki, onun Maninin qələminə məxsusluğu heç bir şübhə oyatmır:

«Tüzün bilgə kişilər, üriləlim,
Tenqrinin bitiqin biz işidəlim.
Törən iliq tenqrilərkə tapınalım,
Tört uluq emgəkdə kurtulalım.
Tört iliq tenqrilərdə tanıqmalar,
Tenqri nomun todaqmalar.
Tünerliq yeklərkə tapunuqmalar,
Tümənliq irincü kılıqmalar
Tüpüntə olunma ölməki bar,
Tünərliq tamuğa tüşməki bar.
Tümərlq yeklər gəlir tiyür,
Tumanlıq yeklər ayar tiyür».

Tərcüməsi:

«Düzülun bilikli kişilər,nəfəs dərəlim,
Tanrının kitabını biz eşidəlim.
Təntənə ilə tanrılara tapınalım,
Dörd ulu əzabdan qurtulalım.
Dörd ...tanrını tanımayanlar,
Tanrı qaydasına uymazlar.
Dörd zülm iblisinə tapınanlar,
On min günaha baş vurarlar.
Dibində olumun ölməyi də var,
Qaranlıq cəhənnəmə düşməyi də var.
Zülmət iblisləri gəlir deyir,
Duman iblisləri iş görür deyir»

(Cəfərov N., 2004, s. 125-127).

Bu şerdə "Tenqri bitiyini", yəni Tanrı kitabını eşitməyə dəvət olduğu üçün onun maniçiliyin müqəddəs kitabından, yəni Maninin öz qələminə məxsus kitabdan bir parça olduğuna heç bir şübhə yoxdur. Şerin leksik bazası da Şərqdə yaranan və içi soğd və soğd dili vasitəsi ilə alınan arami sösləri ilə dolu olan maniçi ədəbiyyatın dilindən fərqli olaraq, bütünlüklə türk kəlmələrindən ibarətdir. Yalnız qayda mənasını verən və maniçiliyin əsas dini kitabının adı olan "Nom" kəlməsi istisnalıq təşkil edir ki, bu söz də fars-Pəhləvi dilindən götürülmüşdür (Ön və Orta Asiya.., 2003, s. 424). Bu dil Sasanilər dövlətinin rəsmi dili idi və mətndə bu dildən alınan bir kəlmənin olması təbiidir.

Nəzərə alsaq ki, buddizmin də əsas sutraları "Nom Bitik" (Древнетюркский словарь, 1969, c. 360) adlanırdı, Maninin bu kəlməni buddizmdən əxz etdiyini də düşünmək olar. Mətndə "Tenqri nomu" və "Tenqri bitiyi" terminlərinin işlənməsi bir daha sübut edir ki, təqdim edilən şer parçası manixeylərin dini kitabı "Nom"dan bir parçadır və Maninin öz qələminə məxsusdur. Mətnin dilinin saflığı onun məhz Mani tərəfindən yaradıldığını təsdiq edir. Çünki uyğurlar müəyyən qədər soğd mədəniyyətinin təsiri altında idilər, əlifbalarını soğdlardan əxz etdikləri kimi, dillərinə də bu dildən çox sayda söz keçmişdi. Əlbəttə, uyğurlar

yalnız şərqdə yaşamırdılar, Avropa və Qafqazda da çox sayda uyğur yaşamaqda idi. Məsələn, Prisk və Menandr onlardan "oqur" adı altında bəhs etmişlər. Bu müəlliflərin əsərlərində hazırda Şərqi Türküstanda yaşamaqda olan sarı uyğurların adına da "saroqur" formasında rast gəlinir (Джафаров Ю. Р., Б., 1985, с. 30). Manixeizmi şərqə aparanlar da məhz onlar olmuşlar. Hərçənd ki, Albaniya və Sasanilər imperiyasındakı təqib və təzyiqlər dövründə Arsakların da bir qismi Şərqi Türküstana köç etmiş, uyğurların içində, özlərinin adı ilə adlanan Arsaq vilayətində yaşamışlar. Mahmud İsmayıl bu barədə yazır:

«Bu yaxınlarda professor T. Hacıyevin respublika mətbuatında ("Ədəbiyyat və incəsənət" qəzeti) Arsaq barəsində X əsrdə qələmə alınmış "Uyğur səyahətnaməsi"nə əsaslanaraq verdiyi məlumat maraq doğurmaya bilməz. Bu məlumatdan aydın olur ki, Arsaq əyaləti və onun baş şəhəri Arsaq indiki Turfanın (Tulu-fan) qərbindədir. Bu Çindəki Tyan-Şan dağlarının qərbində yerləşir. Burada türkdilli arsaqlar və uyğurlar yaşayırlar» (İsmayıl M., 1955, s.18).

Ola bilsin ki, Maninin dinini Şərqi Tüküstana məhz həmin bu arsaqlar aparmışlar. Arsaqların qonşu və qohum xalqlar, başqa sözlə Parfiya əhalisi arasında çox böyük nüfuz sahibi olduqları məlumdur. Strabonun yazdığına görə, parfiyalılar Arsaklara çox sədaqətli idilər (Алиев К., 1987, с. 35).

Beləliklə, maniçi ədəbiyyatda Gün Tenqri və Ay Tenqri mərkəzi yerlərdən birini tutur və bu ənənə öz kökünü, şübhəsiz ki, qədim Türk inanc sistemindən alır. Sak ədəbiyyatından əldə etdiyimiz bu önəmli məlumat əski qaynaqlardakı məlumatlarla da təsdiqlənir. Məsələn, qədim Çin mənbələrindən belə aydın olur ki, hun xaqanı səhər tezdən düşərgədən çıxıb günəşə, axşam isə aya təzim edirmiş. Fəaliyyətini də ay və günəşin, eləcə də səma cisimlərinin göydəki vəziyyətinə əsasən tənzimləyirmiş. Belə ki, dolunay zamanı hərbi yürüşlərə çıxmaq, ay bütövlüyünü itirməyə başlayanda isə geri çəkilmək adəti varmış (Бичурин, 1950, с. 50).

Hunlar xaqanın ruhunun Yerlə Göyün izdivacından doğulduğuna, hakimiyyətin isə ona Ay və Günəş tenqrilər tərəfindən verildiyinə inanırdılar (Бичурин, 1950, с. 58).

Ay və günəş kultlarına inam özünü dəfn adətlərində, xüsusən də kurqanların yerinin və quruluş formasının seçilməsində də göstərməkdədir. Bu baxımdan Sayan-Altaydakı kurqanlar da istisna deyil. Göy cisimlərinə inam kultunun izlərinə 1 №-li Arjan, Böyük Salbık, 1 №-li Tuekte, 2 №-li Başadar, eləcə də Pazırık kurqanlarında və s. rast gəlinməkdədir (Марсадолов Л.С., 2007).

L.Marsadalovun yazdığına görə, kurqanların yerinin və istiqamətinin müəyyənləşdirilməsi üçün «astronom» və «memar» (bu funksiyaları şaman icra edirdi) dəvət edilirdi. Dəfndən öncə günəş və ayın göydəki hərəkət fazaları əsas götürülürdü. Məsələn, Arjandakı şimal-şərq və cənub qərb istiqamətli dairəvi kurqanların qurulmasında günəşin yaydakı ən yüksək və qışdakı ən alçaq batış istiqamətləri əsas götürülmüşdü. Xakasiyadakı Salbık kurqan-piramidaları isə şimal-qərb – cənub şərq istiqamətli idi və onlar ayın doğuş və batış istiqamətləri yönündə qurulmuşdular (Марсадалов Л. С., 2011, c. 131). Pazırık mədəniyyətini xarakterizə edən kurqanlar isə şimal-cənub xətti, yəni günəşin doğuş və batış nöqtələrini birləşdirən xətt üzrə zəncir şəklində düzülmüşdülər ki, burada da fərqli bir qanunauyğunluğun şahidi oluruq (Марсадолов 2004).

Ən azı erkən tunc dövründən başlayaraq skif dövrünə qədər dəyişmədən davam edən bu qayda bilavasitə günəş kultu ilə bağlı olmuş və bu kult da ay kultu ilə yanaşı, digər kultlar kimi kurqan idyasının əsasını təşkil edən dini-mifoloji baxışlar sisteminin ayrılmaz tərkib hissəsi olmuşdur. Məsələn, tunc dövründə, e. ə. lll-ll minilliklərdə Azərbaycanda günəş kultunun geniş yayıldığını, bu səbəbdən də günəş tanrısının “funksiyasında” yeni elementlərin ortaya çıxdığını bildirən N. Rzayev qeyd edir ki, bu elementlərdən biri günəş tanrısının əcdadlara və bununla əlaqədar olaraq ölülərə himayəkarlıq göstərməsi idi. «Bunun nəticəsində cəmiyyətdə “atalar kultu” və “ölülər kultu” kimi yeni ideoloji tendensiya yaranırdı. Bununla əlaqədar olaraq qəbir daşları günəş rəngli oxra ilə boyadılırdı ki, qəbir isti, işıqlı olsun, axirət evinə dirilik bəxş edilsin və ölüləri kurqanlarda dəfn etməyə başlayırdılar. Kurqan qəbirlərinin yerləşdirilməsində vahid bir

sistemə, “şüa sistemi”nə riayət edilirdi. Kurqanların daxilində də kromlexlər tikilirdi. Görkəmli arxeoloq Hümmel Xanlar rayonunun kurqanlarını tədqiq edərkən, onların səpələnmiş halda deyil, müəyyən ərazidə toplanmasına diqqət yetirmişdir. O, qərara gəlmişdir ki, bütün qəbirlər bir nöqə ətrafında – günəş şüasının çevrə boyu yayılması istiqamətində tikilmişdir. Onun kəşf etdiyi bu qanunauyğunluq “şüa sistemi” adlanır. Alimlər bu sistemin Orta Asiya kurqanlarına da aid olduğu fikrini irəli sürmüşlər» (Rzayev, 1984, s. 98-100).

Arxeoloqlar, minillər keçməsinə rəğmən, eyni ənənənin skif kurqanlarında da davam etdiyini təsbit etmişlər. Üstəlik də onları, o cümlədən Altaydakı Pzırık kurqanlarının (e.ə. IV-II əsrlər) araşdırarkən elə bir maraqlı metodologiya işləyib hazırlamışlar ki, həmin metologiya Cənubi Qafqazda mövcud olan son eneolit və erkən tunc dövrü kurqanlarına da tətbiq edilə bilər, çünki hər iki halda eyni ənənələr hakim olub və bu ənənələr minillər boyu dəyişmədən davam edib.

Pazırık kurqanlarından söz açan P. Daşkovski bildirir ki, ölmüş adamların orientasiya və vəziyyəti istənilən dəfn adətinin önəmli əlamətlərindən hesab edilir. Dəfn edilmiş adamın istiqamətini kompas vasitəsilə müəyyənləşdirmək qətiyyən çətinlik törətmir. Amma problem bundadır ki, arxeoloji qazıntılar zamanı eyni tipli qəbirlərdə dəfn edilmiş adamların istiqaməti bəzən nəinki üst-üstə düşmür, hətta bir-birindən əsaslı surətdə fərqlənir (Дашковский П. К. Погребальный.., с. 22). Y. Şilovun fikrincə, bu hal bir çox konkret obyektlərlə, ilk növbədə də dağ, çay, göl və s. kimi təbii obyektlərlə bağlı ola bilərdi (Шилов, 1995). Lakin aparılan arxeoloji tədqiqatlar dəfn zamanı ölünün istiqamətinin seçilməsində ətrafdakı təbii obyektlərin heç bir rolunun olmadığını üzə çıxarmışdır. Əksinə, məlum olmuşdur ki, bu zaman ölmüş insanları coğrafi cəhətlərə görə istiqamətləndirirmişlər (Тишкин, 1996, с. 52).

Dəfn edilənlərin istiqamətindəki qanunauyğunluğun üzə çıxarılmasında V.V və V.F. Heninqlərin xüsusi xidməti olmuşdur. Onlar istiqamətin seçilməsində istiqamət obyekti kimi günəşin seçildiyini dəqiqləşdirmiş və bu məqsədlə günəşən çıxma və batma

nöqtələrini üfüq üzərə xəyali xətlə birləşdirməyi təklif etmişlər (Генинг В.В., Генинг В.Ф., 1985, с. 136-152). Əslində isə vaxtilə Hümmelin kəşf etdiyi qanunauyğunluğu yenidən kəşf etmişlər.

Məlum olduğu kimi, günəşin çıxma və batma nöqtələrinin koordinatları ilin fəsillərinə görə dəyişir. Bunu nəzərə almaqla, hansı ölünün ilin hansı fəslində və hətta hansı ayda basdırıldığını asanlıqla müəyyən etmək mümkündür. Çünki qəbir kamerası qazılarkən həmin dövrdə günəşin harada olması nəzərə alınmışdır (Кубарев,1992).

Əslində kurqanlarda dəfn edilənlərin istiqamətlərindəki bu qanunauyğunluq özünü eneolit dövrü kurqanlarında da göstərir. Bəzi arxeoloqlar enrolit dövrünə aid erkən kurqanlarındakı istiqamət fərqlərini anlaya bilməmiş, bunu dini inanc sisteminin hələ tam kamil şəkildə formalaşmaması ilə bağlamışlar. Məsələn, məlum olduğu kimi, erkən kurqanlarda qəbir kameralarının əksəriyyətinin istiqaməti şimal-qərb və cənub-şərq yöndə olsa da, bəzi kurqanların istiqaməti şimal-şərq – cənub-qərb yönlüdür. Bu isə, həmin alimlərin fikrincə, ondan xəbər verir ki, guya yeni dünyagörüşü və onun gətirdiyi yeni dəfn adətinin kanonları tam təsbit edilmədiyindən ondan müəyyən sapmalar olmuşdur. Yəni, Y.Antonovanın sözləri ilə desək, «ənənələrə söykənən mədəniyyətlərdə dəfn mərasimini idarə edən adamlar üçün incəliklərinə qədər işlənmiş xüsusi tövsiyyə və təlimatlar olmayıb» və bu səbəbdən də guya müəyyən səhvlərə yol verilmişdir (Антонова, 1999, s.19-20).

L.Qumilyov qədim Çin mənbələrinə və Göytürk istinadən yazır ki, Göytürklərin dini inanclarında əcdadlar kultu, göy kultu və dağ kultu ilə yanaşı Günəş kultu da önəmli yerə sahib olub. «Hətta xaqanın iqamətgahının girişi də Şərqə, gündoğana istiqamətlənmişdi. Göytürklər və onlarla eyni adət-ənənəyə malik digər türk xalqları ildə iki dəfə "Günəş işığına" qurban kəsirdilər (Гумилев Л.Н., 2002 s.789). Günəş şüaları bitkilərin ruhunu göylə əlaqələndirən vasitə hesab edilirdi. Həm baş allah hesab edilən Tənqrinin, həm də əcdadların şərəfinə keçirilən qurbankəsmə mərasimləri 24 yanvarda, 22 martda, 24 sentyabrda və 22 iyunda keçirilirdi (Bayat F., 2005, s.87). Bu tarixlərdən aydın görünür ki,

bayram günləri günəşin hərəkətinə əsasən hesablanan, yazda və payızda baş verən gecə-gündüz bərabərliyinə və 22 iyunda və 24 yanvarda baş verən gündönümü hadisəsinə təsadüf edirdi. Başqa sözlə, onların keçirilmə vaxtı da Günəşlə, işıqla bağlıdır. L.N.Qumilyov belə nəticəyə gəlir ki, VII əsrdə Altay türklərində animist təsəvvürlərə əsaslanan səma, işıq kultu ilə yanaşı həm də onların totemik təsəvvürləri ilə bağlı olan əcdadlar kultu mövcud olmuşdur. Birinci daha çox sadə xalq arasında, ikinci isə əyanlar arasında geniş yayılmışdı (Qasımova F., 2012).

Mövzumuz baxımından M. Mannay-oola və M. Qryaznovun başçılıq etdikləri arxeoloji ekspedisiyanın 1971-1974-cü illərdə tədqiq etdikləri 1 №-li Arjan kurqanı da böyük maraq kəsb edir. M. Qryaznovun e.ə. VIII əsrə aid etdiyi (Грязнов 1980) bu kurqanın diametri 120 m, hündürlüyü isə 4 m-ə çatırdı. Burada xaqan və arvadı, eləcə də daha 8 nəfər dəfn edilmişdilər. Xaqan və arvadının və dəfn edildikləri qəbir kameralarının küncləri günəş və ayın doğuş istiqamətlərinə istiqamətlənmişdi. O biri qəbirlər üçün isə yayda günəşin ən yüksək doğuş nöqtəsi, yəni şimal-şərq istiqaməti, eləcə də qışdakı ən alçaq batış nöqtəsi, yəni cənub-qərb istiqaməti əsas götürülmüşdü.

Digər kurqanlarda olduğu kimi üçqatlı dünya modelini ideal şəkildə əks etdirən

1 №-li Arjan kurqanında da çox sayda at dəfninə rast gəlinmişdir. Onlar kurqanın şərq tərəfində dəfn edilmişdilər və sayları 30 + 30 + 15 + 3 + 12 = 90 (3 ay) idi. Ümumilikdə isə Arjanda 180 dəfn edilmiş ata rast gəlinmişdir (Марсадалов Л.С., 2011, с. 132).

Maraqlıdır ki, skif-sak qəbilələrindən biri hesab edilən massagetlərdən söhbət açan Herodotun yazdığına görə, «massagetlər çörək yemirlər və Araz çayından balıq ovlayaraq qidalanırlar. Onlar süd içirlər. Bu tayfanın yeganə allahı Günəşdir. Onlar yeganə tanrıları olan Günəş allahına atı qurban kəsirdilər ki, dünyanın ən tez allahına dünyanın ən tez insanı qurban verməlidir» (Herodot, I, s. 2016).

## Skif, sak, hun və Göytürk kurqanlarının memarlıq özəllikləri

Qədim türklərin dəfn adətləri, əski inancları və memarlıq təxəyyülünün məhsulu olan kurqanların quruluşunun və tipologiyasının öyrənilməsi elmi ədəbiyyatda «kurqan memarlığı» adlandırılan yeni bir elmi istiqamətin doğmasına səbəb olmuşdur. Bu istiqamətin baniləri içərisində C.Vud və C.Hokins, M.Qryaznov, M.Çernopitskiy, Y.Şilov və s. alimlərin adını xüsusi qeyd etmək lazımdır.

Kurqan memarlığının öyrənilməsi prosesində mütəxəssislər təkcə onların texniki-konstruktiv parametrləri və funksional mahiyyəti kimi amillərini deyil, həm də estetik amillərini dəyərləndirməyə çalışır (Погосова, 1996) və bu zaman onların xronologiyası və abidələrin aid edildiyi dövrdə mövcud olmuş iqlim şəraiti və iqtisadi vəziyyət kimi faktorlar da nəzərdən kənarda qalmır. Bu baxımda eneolit dövründən erkən dəmir dövrünə qədərki zaman kəsiyi də, yəni skiföncəsi dövr də istisna deyildir.

Əldə olan məlumatlar göstərir ki, hansı dövrə aid olmasından asılı olmayaraq skif öncəsi kurqan abidələrinin yayılma arealı ilə skif dövrü kurqanlarının yayılma arealı əsasən üst-üstə düşür və onlar arasında həm struktur, həm tipologiya, həm də genetik baxımından bir varislik əlaqəsi, başqa sözlə, sələf-xələf münasibətləri müşahidə edilir (Акишев К., 1963, с. 121-136).

Məlum olduğu kimi, skif dövrü kurqanlarına e.ə. VIII-e.ə. III əsrlərə aid dəfn abidələri, hun-türk dövrü abidələrinə isə e.ə. III-b.e VI əsrlərinə aid kurqanlar aid edilir. Bu ənənə VI əsrdən sonra da qırılmadan davam edir və XIII-XIV əsrlərdə, elmi ədəbiyyatda yanlış olaraq «monqol-tatar» adlandırılan qara tatarların dövründə sona çatır. Bu tarixdən etibarən Böyük Tatar (Turan) dövləti bütünlüklə İslama keçir və bundan sonra kurqanda dəfn adəti yerini islami qaydada dəfn adətinə verir.

Yerləşdiyi bölgədən və ucaldıldığı zamandan asılı olmayaraq, bütün kurqanlar üçün ortaq komponentlər və arxetip əlamətlər xarakterikdir. Bunlara dəfn yeri, başqa sözlə yerüstü və ya yeraltı konstruksiyalar – qəbir kameraları və sərdabələr, qurbangahlar, daş çitlər, xəndəklər, giriş yerləri, ocaq yerləri, kamera və ya sərdabə

örtükləri, kurqan örtükləri, kromlelxlər, balbalların quraşdırılması üçün yer və s. daxildir. Kurqanları bir-birindən fərqləndirən əsas cəhət isə bu elementlərin və bir-biri ilə kompozision əlaqələrinin xarakterində və ayrı-ayrı kurqanlarda bu elementlərdən bəzilərinin olub-olmamasındadır. Ümumilikdə isə eneolit dövründən başlayaraq XIV əsrə qədər xüsusi diqqət çəkən önəmli bir fərqə rast gəlinmir və bu da minillər ərzində kurqan ideyasının əsasında duran dini-ideoloji baxışlar sisteminin əhəmiyyətli dəyişikliyə məruz qalmaması ilə bağlıdır (Насираддинова А. М).

Tunc dövrü kurqanlarının ən xarakterik xüsusiyyətlərindən biri onların qəbir kameralarının yaşayış evlərini xatırlatmasıdır və bu qayda, demək olar ki, bütün Avrasiya ərazisində qeydə alınmışdır. Bu halda söhbət yaşayış evlərində tətbiq edilən memarlıq xüsusiyyətlərinin, o cümlədən onlar üçün xarakterik olan elementlərin qəbir kameralarının və sərdabələrin inşasında da eynən təkrarlanmasından gedir (Маргулан, 1956, с.9-95). Deyilənlərə Qazaxıstanın Karaqanda vilayətindəki bəzi kurqanları, məsələn, e.ə. XII-XI əsrlərə aid edilən Aksu-Ayulu kurqanını misal çəkmək olar. Onun qəbir kamerasının ağac tirlərdən qurulmuş örtüyü həmin dövrün evlərinin piramida formalı damlarını xatırladır. Bənzər örtüklər Qazaxıstandakı Beqazı, Canquır, Beqasar, Dandıbay kurqanlarında da qeydə alınmışdır (Маргулан, 1956, с.9 -95). Bütün bu tikililər üçün payandalar, bəzək rekvizitləri, giriş qalereyaları və s. kimi memarlıq elementləri xarakterikdir və onlara orta əsr kurqanlarında da rast gəlmək mümkündür.

Tunc dövründə kurqan mədəniyyətinin Qazaxıstan, Yenisy və Altaydakı inkişafı arasında sıx bağlılıq olmuş və onlar eyni memarlıq üslubları əsasında inşa edilmişlər. E.ə. II minillikdə, belə demək mümkünsə, «kurqan-meydanlar» ortaya çıxdı. Bu tip kurqanların xüsusi hazırlanmış meydançalarında qu quşu, bağa, ilan kimi soy totemlərinin təsvirləri əks olunurdu. Həmin kurqanlarda bəzən təsvir edilən heyvanlar da dəfn edilərdi. Belə abidələr və onların əsasında duran mifoloji baxışlar sistemi Y. Şilovun əsərlərində ətraflı şəkildə nəzərdən keçirilir (Шилов, 1995; 1990). Bənzər abidələrə Ukrayna, Hindistan və Cənubi Amerikada da rast gəlinib.

Skif öncəsi və skif dövrü kurqanlarının daha bir ortaq xüsusiyyəti onların örtüklərinin müxtəlif torpaq və daşlardan istifadə edilməklə, bir neçə təbəqə şəklində qurulmuş olmasıdır. Adətən belə təbəqələrin sayı 10-12-yə qədər olur. Belə hesab edilir ki, bu metod örtüyün davamlılığını təmin etməyə xidmət edirmiş. Çox təbəqəli örtüyə malik kurqanlara Balaban kəndi yazınlığındakı 13 №-li və Krasnoye kəndi yaxınlığındakı 9 №-li kurqanları misal çəkmək olar (Ольховский, 1991). Eyni hal Ukraynadakı Verbovka kurqanının örtüyündə də müşahidə edilir. Təbəqələr arasında xüsusi üzlüklərdən və daş düzümülərindən istifadə edilmiş bu kurqanın örtüyünün altında dairə üzrə düzülmüş və böyrü üstə qoyulmuş 29 əhəng daşı aşkar edilmişdir. Bu daşların kənarları oyma üsulu ilə həkk edilmiş romb, üçbucaq, xaç və s. formalı naxışlarla bəzədilmişdi. Daşların birində isə insan təsvirlərinə rast gəlinib. Alimlər bu abidəni e.ə. III minilliyə aid edirlər (Насираддинова А. М).

A.Nəsirəddinovanın yazdığına görə, həmin abidənin rekonstruksiyası zamanı məlum olmuşdur ki, bir zamanlar hündürlüyü 2 m-ə çatan bu bəzəkli kromlexin üzərində qalın ağaclardan çadır inşa edilmiş, yalnız bundan sonra özünün xüsusi çiti, xəndəyi, şaftı, yerə basdırılmış kiçik daşlardan ibarət menhiri və balbalı olan torpaq örtüyünün ucaldılmasına başlanılmış, bu zaman həmin örtüyün böyük hissəsi ağac çadırın altında qalmışdır. Bu konstruksiya özünün yeraltı keçidlərinə daş sərdabələrinə, eləcə də meqalitik tikililərinə - menhirlərə, dolmenlərə, şistlərə malik idi. Bu tip konstruksiyaya dünyanın bir çox ölkəsində, o cümlədən Avropada, Cənub-Şərqi Sibirdə, Qazaxıstanda, Koreyada və s. rast gəlinib.

Avrasiyanın müxtəlif bölgələrində tədqiq edilən kimmer-skif-sak kurqanlarını fərqləndirən əsas cəhət onların örtüklərinin böyük ölçülərə sahib olmasıdır. Məsələn, son araşdırmalara görə, Sibirdəki Böyük Salbık kurqanının ilkin diametri 500 m-ə, Çinin türk (sak və ya hun) mənşəli ilk imperatorunun Sian şəhəri yaxınlığındakı kurqanının (e.ə. III) diametri isə 5000 m-ə çatırdı (Мейсон, 1997, c. 71). Onların hündürlükləri də inanılmaz ölçülərdə idi. Belə ki, hesablamalara görə, Böyük Salbık kurqanının ilkin hündürlüyü 22-27 m, Çin imperatorununki isə 100 m olub (Насираддинова А.

M). Şübhəsiz ki, bu hal kimmer-skif-sak dövründə əski türklərin möhtəşəm qüdrət sahibi olmalarından xəbər verir.

Sözügedən dövrdə kurqan örtükləri torpaqdan, daşdan və ya torpaq və daş qarışığından ibarət olardı. Bunlardan sırf daş örtüklü I tipə Qırğızıstandakı San-Taş kurqanını misal çəkmək olar. Mütəxəssislər torpaq örtüyə sahib olan kurqan tipini iki yarımtipə bölürlər.

I yarımtip daha çox yayılmış kurqan örtüyü növlərindəndir. Bu növ örtüklərin dayanıqlığını artırmaq və dağıntıya məruz qalmasını önləmək üçün üzərinə şist və ya xüsusi hazırlanmış kəsmə, yəni yikim çəkilərdi. Bu metoddan ən qədim zamanlardan istifadə edilmişdir. Deyilənlərə İngiltərədəki astronomik funksiyalı Nyu-Qrenc kurqanını (e.ə. III minillik) misal çəkə bilərik. Maraqlıdır ki, bu tip meqalitik tikililər nəyə görəsə şist və torpaq qarışığı ilə örtülərdi. Həmin ənənənin kökləri neolit dövrü tikilisi və dünyanın ilk kurqan tipli abidəsi hesab edilən Göbəkli-Təpəyə qədər uzanır.

II yarımtipə torpaq örtüyünün üzəri daş örtüklə üzlənmiş kurqanlar aid edilir. Bu kurqanların torpaq örtüyünü örtən daş örtüklər bəzən bir, bəzənsə iki qatlı olur və bir növ «zireh» rolunu oynayır. 3-4 qatlı «zireh»ə sahib kurqanlara da rast gəlinməkdədir. Bu baxımdan Ketmen Tübe kurqanları deyilənlərə ən gözəl misladır.

III yarımtipə üzəri qismən daşla örtülmüş torpaq örtüklü kurqanlar aid edilir. Bu kurqanların örtüyünün üzlənməsində daşdan başqa, şist və kəsmədən, (yikimdən) istifadə olunur. Bu yarımtipdən olan kurqan örtüklərinə daha çox Şimali Qara dəniz kurqanlarında rast gəlinir. Onların təpəsində bəzən kiçik meydançalar yaradılır və bu meydançalar da kəsmə ilə bərkidilirdi. Bu cür kurqanlar adətən başı kəsilmiş konus və ya piramida formasında olur. Konus formalı örtüklərin ətəkləri bir sıra hallarda piramidalara bənzəyən şəkildə sığallanmış olur. Belə kurqanların başında, bir qayda olaraq, ya daşbaba (balbal), ya daş dirək, ya da qurbangah yerləşir. Sözügedən formalı kurqanlar Qazaxıstan ərazisində də geniş yayılıb və onlara əsasən Jetisu vadisində rast gəlinir (Акишев, 1963). Eyni sözləri Qırğızıstanın Aleksandrobka kəndi yaxınlığında qeyd alınmış iki kurqan haqqında da

söyləmək mümkündür. Bu dəfn abidələri Qırğızıstan ərazisində qeydə alınmış ən böyük kurqanlar hesab edilir. Onların diametri 120 m, hündürlükləri isə 11 və 15 m-dir.

Skif-sak dövrü kurqanlarının daha bir fərqli cəhəti onlarda, xüsusən də böyük kurqanlarda çitlətin olmasıdır. Bu ənənə skif öncəsi dövrdən etbarən geniş yayılmış və həmin dövrdən başlayaraq örtüklərin ətrafında düzbucaq, kvadrat və ya dairəvi formalı çitlərin qurulması mütəmadi hal almağa başlamışdır. Çitlərin 2-3 cərgə şəklində qurulması və öz aralarında «keçid dəhlizləri» oluşdurması hallarına da tez-tez rast gəlinir. Bu keçidlərin sakral bölgə rolunu oynadığı hesab edilir (Ольховский, 1991, с. 130), Belə hesab edilir ki, ölünü qəbir evinə yola salma ritualı bu keçidlərdən keçməklə icra edilirmiş. Maraqlıdır ki, bənzər çitlərə skif (Мелюкова, 1989, с. 356; Высотская, 1989, с. 9) və sakların (Маргулан, 1956, с. 9-55) şəhərlərinin ətrafılarında da rast gəlinmişdir.

Skif kurqanlarının memarlığı üçün aşağıdakı element və atributlar xarakterik idi:

1. Üzərində balbal və ya onu əvəz edən şaqili daş (menhir), və ya da ucuna at quyruğu və dərisi, eləcə də ağac budaqları bərkidilmiş dirək – Bay Terek olan kurqan örtükləri. Balballar və ya onu əvəz edən menhirlər bir qayda olaraq ya kurqan örtüyünün təpəsində, ya yamacında, ya da dabanında qurulardı və əsasən üzü şərq tərəfə olardı. Bu tip kurqanlara Yustıda (Кубарев, 1991, с. 12) və Ulandırık (Кубарев, 1987, с. 21) kurqanlarını və s. misal çəkmək olar. İlk tunc dövründə yaranan bu ənənəni skif öncəsi kurqanlarından miras alan skiflər onu saklara, saklar isə öz növbəsində hunlara və Göytürklərə ötürmüşlər. Bəzi alimlər Kül Təkin abidəsini də eyni ənənənin davamı hesab edirlər (Насираддинова А. М).

2. Yerüstü və yerestü-yeraltı konstruksiyalı, girişli və ya girişi olmayan kurqan örtükləri. Onların inşasında daşdan və ağacdan istifadə edilərdi. Eynən köçəri çadırlarında olduğu qaydada ağacdan qurulmuş çadır formalı bu tip örtüklərə Tıvadakı Arjan, Qazaxıstandakı Besşatır kurqanlarında, eləcə də Qara dəniz sahillərindəki Mederovo, Podqornoye, Pokazovoye və s. kimi skif kurqanlarında rast gəlinməkdədir. Alimlər bu konstruksiyalar-

dan «taxta qəbirlər» kimi söz açmaqdadırlar (Ольховский, 1991, c. 65). Bu tip tikililərin çoxu dövrümüzədək qarətçilər tərəfindən ya qismən, ya da tamamilə yandırılmış şəkildə gəlib çıxmışdır. Buradakı ağac konstruksiyalar, bir qayda olaraq, xaricdən daş çitlərlə möhkəmləndirilərdilər. Bu qaydanın davamını Yeniseydəki Tecninsk dövrü (e.ə. II əsr-b.e. I əsrləri) kurqanlarında da müşahidə etmək mümkündür. Bu kurqanlarda qəbir kameraları örtüyün altında kvadrat formalı çalalarda qurular, sonra kamera ikinci daha böyük kamera ilə əhatə edilərdi. Onların üzəri 5-6 təbəqədən ibarət ağac tirlərlə örtülərrdi. Bəzən kameranın daşdan hörülmüş divarını şaquli şəkildə yerə basdırılmış daş pilitələr əvəz edirdi (Насираддинова А. М).

3. Yeraltı konstruksiyalı örtüklər. Bu tip kurqanlarda qəbir kamerası çox dərində yerləşdirilərdi. Bu baxımdan Altaydakı Pazırık kurqanlarını misal çəkə bilərik. Onların yeraltı konstruksiyaları əksər hallarda 20 m dərinlikdə yerləşirdi. Maraqlıdır ki, skif öncəsi kurqanlarından fərqli olaraq, hətta bu qədər dərin qazılmış skif kurqanlarda belə çala qazma nəticəsində yerdən çıxarılmış torpağın kənara atılması izlərinə rast gəlinmir. Bu torpaq da kənardan gətirən torpaqla birlikdə kurqan örtüyünün qurulmasında istifadə edilərdi və bu üzdən də skif kurqanları ətrafdakı təbii və süni təpələrdən öz tutqun tünd rənginə görə fərqlənir (Насираддинова А. М).

4. Fiqurlu siluetə malik örtüklər. Bəzi kurqanların xaricdən görünüşü müəyyən fiqurları xatırladır. Bunu bir çox mütəxəssislər, hətta orta əsr səyyahları da qeyd etmişlər. Bəziləri bu halı iqlim şəraitinin, əsasən də yağış və küləklərin təsiri ilə əlaqələndirirlər (Шилов, 1995, c. 441). Əldə olan məlumatlar bunun iqlimlə əlaqəli olmadığını göstərir. Belə məlum olur ki, dəfn abidələrini quran «memarların» özləri onları bu şəkildə qurmuşlar. Məsələn, Qırğızıstandakı «xaqan kurqanı» tipli kurqanlar şimal-cənub xəttini göstərən siluet xəttə sahibdirlər. Bu baxımdan İssık-Kul, Çuy və Talas vadilərindəki kurqanları misal çəkmək olar. Eyni hala Rusiya, Ukrayna və Qazaxıstandakı bəzi kurqanlarda da rast gəlinir. Ümumiyyətlə kurqan örtükləri içərisində dairəvi, düzbucaqlı, kvadrat formalı, eləcə də dairə içində dairə

şəklində qurulmuş kurqan örtüklərinin olduğu məlumdur və bu həndəsi formaları külək və yağışın təsiri kimi qələmə vermək, əlbəttə ki, doğru olmaz (Насираддинова А. М).

5. Meydançası (platforması) olan örtüklər. XX əsrin 60-80-ci illərinə qədər belə bir fikir hakim idi ki, kurqanlar sadəcə dəfn abidələridir. Lakin M. Qryaznovanın (Грязнов М. П., 1961) eləcə də onun tələbəsi M. Çernopitskinin (Чернопицкий М. П., 1980, с. 160) tədqiqatları nəticəsində məlum oldu ki, onlar həm də bir növ məbəd rolunu oynamışlar. Bəzi alimlər isə daha ehtiyatlı mövqe tutaraq, onlar barədə «Təpəyəbənzər tikililər» ifadəsindən istifadə etməyə üstünlük verirlər (Насираддинова А.М). Sözügedən tipə aid edilən kurqanlardan Adıgeydəki Ul kurqanlarını misal çəkmək olar. Onların maksimal yerüstü hündürlüyü 3 m-ə çatan örtüklərində xüsusi qurulmuş meydançalar və onalara aparan panduslar (rampalar) aşkar edilmişdir. Bu meydançalarda (hündürlüyü 1 m) qədimdə mövcud olmuş çox mürəkkəb ritualın izlərinə rast gəlinib. Panduslar (rampalar) atlar üçün nəzərdə tutulmuşdu. Çünki onları yuxarı yalnız belə, yəni daha çox mailliyi olan sahə ilə aparmaq mümkün idi. Meydançalarda atları bağlamaq üçün xüsusi dirəklər olurdu. Atlar bu dirəklərin ətrafında yerləşdirilirdi. 1 №-li Ul kurqanında 410 atın dəfn edildiyi müəyyən edilmişdir. Onlardan 360-ı bilavasitə meydançada, qalanları isə örtük qatının meydançadan 5,35 m yuxarıda olan ikinci üst təbəqəsində basdırılmışdı (Балонов, 1987, s. 38).

6. «Dəfn yolu»na sahib olan örtüklər. Şimali Qara dəniz skiflərinə aid kurqanlarda bəzən paz şəklində olan və üzəri örtülməyən xüsusi «dəfn yolları» saxlanılardı. Arxeoloqlar bu tip memarlıq elementinə bir sıra kurqanlarda rast gəlmişlər (Ольховский, 1991).

Mövzumuz baxımından hun kurqanları da xüsusi maraq doğurur. Hunlara aid kurqanlar hələ kifayət qədər yaxşı öyrənilməsə də, tədqiq edilmiş kurqanların örtükləri ümumi mənzərə barədə müəyyən təsəvvür yaradır. Əldə olan məlumatlara əsasən aşağıdakı örtük tiplərini qeyd etmək mümkündür:

1. Yrealtı sərdabəli daş örtüklər. Bu tip hun kurqanlarının trapesiya formalı olduğu, onun qısa tərəfinə arxeoloqların «quy-

ruq» adlandırdıqları daha bir kiçik trapesiyanın birləşdiyi məlumdur. Bu kimi örtüklər ya bütünlüklə daşdan, ya da torpaqdan tökülər, üzəri daşla üzlənərdi, həndəsi fiqurların mərkəzi hissəsi isə bütünlüklə torpaqdan olardı. Bəzi kurqanlarda, məsələn, Monqolustandakı Noin-Ula kurqanlarında örtük, demək olar ki, yox dərəcəsindədir. Lakin onlar dərin yeraltı sərdabələrə malikdirlər. Bu sərdabələr başı aşağı şəkildə qurulmuş piramida formalı, kobud pilləkanlı çalalardan ibarəd olur (Руденко, 1962, с. 77).

2. Yeraltı konstruksiyaya malik olan girdə sferik formalı daş, torpaq və daş-torpaq qarışıqlı örtüklər.

3. Daş düzümlü, oyuqlu (yəni içi boş), möhkəm konstruksiyalı, sferik formalı örtüklər. Bura kəmər, giriş tağı, örtüyü saxlayan sütun və divarlar da daxildir. Bu tip örtüklü kurqanlara I-X əsrlərə aid Fərqanə (Qırğızıstan və Özbəkistan) və Badəxşan (Tacikistan) kurqanlarını misal çəkmək olar (Всеобщая история архитектуры, т.1, 1970, с. 30-34, 251, 255, 364, 441-448).

4. Çoxkünclü yeraltı örtük. Bu tipə Baykal gölü sahillərindəki hun kurqanlarında rast gəlinib (Коновалов, 1976).

Ənənələrin varisliyi və müxtəlif zaman kəsiklərində ortaya çıxan bəzi yenilikləri əyani şəkildə müqayisə edə bilmək üçün Göytürk və qıpçaq-tatar dövrü kurqanlarının memarlıq özəlliklərinə də nəzər salmağa ehtiyac var. Bu dövr VI əsrdən XIII əsrə qədər davam edir:

1. Bir və ya bir neçə balbal və ya menhirli örtüklər. Orta əsr səyyahların yazdığına görə bu cür heykəllər bir xətt üzrə kurqanın şərq tərəfində düzülərdi. Bəzi məlumatlara görə, onların sayı 500-ə, hətta 1000-ə çata bilirmiş (Насираддинова А. М).

2. Daş çitli örtüklər. Göytürklər dövründə iri kurqanların ucaldılması, o cümlədən iri çitlərin qurulması son bulmuşdur. O dövrün kurqanları üçün kiçik daş örtüklər və onları əhatələyən, böyük daşlardan qurulan spiralvari çitlər xarakterik idi. Bu baxımdan Qırğızısdanda, İssık-Kuldakı Dolinki II məzarlığında qeydə alınmış kurqanları misal çəkmək olar (Зяблин, 1959, с. 150). Göytürk dövrü kurqanları üçün düzbucaqlı formalı örtüklər və onların künclərində yerləşdirilən daşlar xarakterik olub.

3. Torpak örtüklər. Göytürk dövrü kurqanlarında adi torpaq örtüklərdən başqa, sferik və içi oyuqlu, yəni boş şəkildə çiy kərpicdən inşa edilən örtüklərə də rast gəlinir. Bu tip qəbir adələri cəmiyyətdə daha üstün mövqe tutan adamlar üçün ucaldılır, çox sayda balbal, sarkofaq və heyvan fiqurlarına sahib olur və bir növ məbəd rolunu oynayırdı. Bu kimi abidələrə Monqolustanda, Tole çayı sahillərində yerləşən Unqet və Tıvadakı Sarıq Bulun komplekslərini, eləcə də yenə də Monqolustanda yerləşən Kültəkin abidə-kompleksini misal çəkmək olar. Örtükləri üzük kimi əhatə edən xəndəklər də həmin kurqanların əsas atributlarından biri idi və Avrasiyanın geniş ərazilərində müşahidə edilən çox qədim bir ritual xarakterli ənənəni davam etdirirdi. Bu ənənə də minillər ərzində dəyişməyən qədim türk dini-mifoloji görüşlər sistemindən qaynaqlanırdı. Xəndəklər həm örtük qurulmamışdan öncə, həm də ondan sonra qazılırdı. Bu xəndəklərdə və ya şaftda dəfn prosesinin ayrılmaz tərkib hissəsi olan ziyafət məclislərinin izlərinə rast gəlinib (Ольховский В.С., 1991, c.130).

Əgər xəndək və şaftın qurulması örtükdən əvvəl icra edilirdisə, onlar düzgün formaya, sonra icra edilirdisə düz olmayan formaya sahib olurdu. Onlar həm də bəzən kurqan örtüyünün xarici parametrlərini nəzərə çatdıran işarə kimi çıxış edirdilər.

Beləliklə, xəndək, şaft və kromlexlər erkən tunc dövründən etibarən kurqanların əsas elementlərindən biri rolunu oynayıb. Skif və skif sonrası dövrlərdə isə onlardan daha çox və əsaslı şəkildə istifadə edilib (Насираддинова А. М).

Skif-sak dövrünə qədərki çitlər xəndək, şaft, menhir və ya daş bərkidicilər şəklində inşa edilərdi. Bunlardan bir çoxu qədim kurqanlarda, o cümlədən tunc dövrü kurqanlarında təkrar dəfn icra edən skiflər tərəfindən yenidən qurulmuşdur. Bilavasitə xəndək, şaft və menhirlərə gəlincə, onlar Qafqaz və Avropada meydana çıxmış, sonrakı dövrlərdə Mərkəzi Asiyada, eləcə də Sibirdə də yayılmışdır. Sibirdə qeydə alınmış kurqanların çitləri (xəndək, şaft, ocaq yeri, qurbangah və s. elementlər) adətən dairəvi, kvadrat, düzbucaqlı və düzgün olmayan yarımqapalı formalara sahib olurdu. Kvadrat və düzbucaqlı çitlərin tərəfləri və

ya küncləri dörd cörafi cəhət istiqamətinə istiqamətlənirdi. A. Nəsirəddinova özünün «Köçəri dünyasının kurqan tikililərinin memari-tipoloji təsnifatı» adlı kitabında yazır ki, bir, iki və hətta üç cərgə şəklində yerə basdırılan, qapalı və ya yarımqapalı sahə təşkil edən, daş pilitələrdən, bloklardan, qaya parçalarından qurulan daş çitlərin girişi ola da, olmaya da bilər. Aradakı sahə törən yürüşü, qurbanlıq hədiyyələr və ölünü yad etmək məqsədilə həyata keçirilən digər adətlərin icrası üçün nəzərdə tutulurdu. Alim onları aşağıdakı tiplərə bölür (Насираддинова А. М):

1. Hündürlüyü 1 m-ə çatan iri blok və ya pilitələrdən qurulmuş daş çitlər. Bu tip çitlərə Başadar, Salbık, Altın-Oba, Çertomlık və s. kurqanlarda rast gəlinib.

2. Günəşi simvolizə edən şəkildə və ya müxtəlif həndəsi fikurlar şəklində qurulmuş çitlər. Onlar günəşi (Azərbaycandakı Küdürlü kurqanı – B. T.), günəş şüalarını, təkəri (Tıvadakı Uluq Xorum kurqanı), labirinti və ya spiralı (Çon-Döbö kurqanı və Qırğızıstandakı Dolinki II məzarlığının kurqanları) xatırlada bilər.

3. Qurbangahlardan ibarət «çitlər». Onlar kurqanın ətrafında müəyyən qayda üzrə və ya xaotik qaydada qurula bilər. Bu tip çitlər qapalı və ya yarımqapalı struktura sahib olurlar. Giriş ola da bilər, olmaya da. Talas (Qazaxıstan) kurqanlarının birinin çiti üç cərgə təşkil edən girdə və eyni formalı qurbangahlardan ibarətdir (Бернштам, 1997, s.44). Bu cür çitlər keçid formalı girişlərə sahib olur və onlar şimal-cənub istiqamətli olur. Bənzər struktura Arjan kurqanında da rast gəlinib. Buradakı qurbangahlar üç cərgədir və yarımhalqa təşkil edirlər (Грязнов, 1980, c.10).

4. Şaft və xəndəkli çitlər. Bu tip kurqanlar dairəvi şaftları örtüyün ətrafında və xəndəklərin kənar tərəfində qurulması ilə diqqət çəkir. Onlara Slonovsk, Qermesovo, Baş Əkizlər (Qlavnıye Bliznetsı), Oğuz və Aleksandropol kurqanlarını misal çəkmək olar. Baş Slonovsk (Qlavnaya Slonovskaya), Əkizlər (Bliznetsı) kurqanlarında şaftların hündürlüyü və eni müqabil olaraq 0,7 və 7 m kimi qeydə alınıb (Ольховский, 1991, c. 13).

5. Jumperli (atlamalı) şaft və xəndək formalı çitlər. Onların keçid şəklində girişləri olur. Girişlər bir, iki, üç və ya dörd tərəf-

dən ola bilər. Bəzi çitlər yerə dikinə basdırılmış menhirlərlə əhatə olunur.

6. Daş silsiləli çitlər. Bu tip çitlərə Qazaxıstandakı Tasmola mədəniyyətinə aid kurqanlarda rast gəlinir və «bığ» formasında olurlar (Грач, 1980). Onların sxematik strukturu çox maraqlıdır. Mərkəzidə birində adam basdırılan böyük və onun atı dəfn edilən kiçik kurqan yerləşirdi. Onlar girişləri olan dairəvi çitlə əhatə olunurdular. Buradakı girşlərdən kənara doğru iki istiqamətdə bığı xatırladan daş silsiləsi uzanır və silsilələrin sonunda daş topası olurdu. Qazaxıstanda qeydə alınmış bu tip abidələrin bənzərləri Tıvada, Talasda (Qırğızıstan) qeydə alınıb. Tıvadakı Saqlın vadisində və Saqlı-Bajı I məzarlığında müşahidə edilən ikinci tip bənzər kurqan çitləri şimal-şərq tərəfdən girişi olan üçbucaqlı formaya sahibdirlər (Грач, 1980) və onların içində üç kurqan olur.

Beləliklə, skif öncəsi, skif dövrü, eləcə də sonrakı hun və Göytürk dövrü kurqanlarının müqayisəsi onların bir çox ortaq memarlıq xüsusiyyətlərinə sahib olduğunu söyləməyə əsas verir.

## Orta əsrlərə aid oğuz kurqanları

Skif öncəsi, skif dövrü, eləcə də sonrakı hun və Göytürk dövrü kurqanlarının IX-XI əsrlərə aid oğuz kurqanları ilə müqayisəsi kökü eneolit dövrünə qədər uzanan kurqan mədəniyyətinin əsas elementlərinin oğuz kurqanları üçün də xarakterik olduğunu göstərməkdədir. Bu baxımdan 2011-ci ildə tədqiqata cəlb edilmiş bir oğuz kurqanı deyilənlərə ən gözəl misaldır. Söhbət Rusiyanın Orenburq vilayətinin Novoserqiyevsk rayonunun Boqolyubovka kəndi yaxınlığında qeydə alınmış kurqanlardın birindən gedir (Матюшко И. В., 2014).

Qeyd edilən ildə Orenburq Dövlət Pedoqoji Universitetinin Arxologiya Laboratoriyasının təşkil etdiyi və N. L. Morqunovanın başçılıq etdiyi ekspedisiya sözügedən ərazidə son tunc dövrü kurqanlarını araşdırarkən oğz kurqanı kimi təsbit etdiyi bir kurqanda da qazıntılar aparmış və həmin abidədə qadın və uşaq skeletləri və çox sayda məişət əşyası, eləcə də tuncdan hazırlanmış bəzək əşyasına rast gəlinmişdir. Qazıntı aparıldığı dövrdə hündürlüyü 0.98 m, diametri 26 m kimi qeydə alınan bu kurqanın

örtüyünün altında 0.36 m dərinlikdə qazılmış, 1.25 x 0.39 m ölçülü qəbir kamerası aşkar edilmişdir. Kamera qərb-şərq istiqamətli idi. Onun üzəri ağac oduncaqları və budaqları ilə örtülmüşdü (Моргунова Н. Л., 2011).

A.Xoxlova tərəfindən aparılan antropoloji tədqiqatlar nəticəsində məlum olmuşdur ki, buradakı uşaq sümükləri yenicə doğulmuş körpəyə məxsusdur. Onun sümükləri anasının qarın nayihəsində idi. Qadının aşağı sol ətrafının diz sümüyü yerində deyildi (Моргунова Н.Л., Гольева А.А., Евгеньев А.А., Крюкова Е.А., Купцова Л.В., Рослякова Н.В., Салугина Н.П., Турецкий М.А., Хохлов А.А., Хохлова О.С., 2014, c.123). Onun yanında, ayağına yaxın yerdə dəri və parçadan hazırlanmış və tunc bəzəklərlə bəzədilmiş uzunboğaz çəkmə fraqmenti, asma zınqrovun bir hissəsi və keramika qırığı, sinəsi tərəfdə daha bir asma zınqırov və məişət əşyaları aşkar edilmişdir. Dəmir qayçı və sümük daraqdan ibarət olan bu əşyalar ondan bir qədər sağ tərəfdə idi (Моргунова Н. Л., 2011).

İ. Matyuşko bu qəbri E. Kruqlovun Şimali Xəzər sahillərində aşkar etdiyi və IX əsrin II - XI əsrin I yarısına aid abidələr kimi təqdim etdiyi oğuz kurqanlarındakı qəbirlərlə (Круглов Е. П., 2000, c. 399) müqayisə edərək, oradakı qəbirlərdə də ana və uşaq qəbirlərinə rast gəldiyini xatırladır, həmin qəbirlərdən bəzisində, əsasən də kişi qəbirlərində insanlarla birlikdə atın da dəfn edildiyini (Круглов Е. П., 2000, c. 403) yazır və Boqolyubovka kurqanında bu hala rast gəlinmədiyinə diqqət çəkir (Матюшко И.В., 2014, c. 620).

Görünür, bu hal daha çox kişi qəbirləri üçün xarakterik olub. Maraqlıdır ki, öz «Səyahətnamə»sində oğuzların həyat və məişətinə də xeyli yer ayıran İbn Fədlanın yazdığına görə, oğuz kişiləri dəfn edilərkən mütləq atı ilə birlikdə dəfn edilməli idi (Путешествие Ибн Фадлана.., 1996, c. 25). Bununla belə, Şimali Xəzər dənizi kurqanlarındakı ana və uşaq qəbirlərinin bəzisində at dəfni də müşahidə edilib. Belə ki, orada aşkar edilmiş 56 bu tip qəbirdən 26-sında insanlarla birlikdə at dəfnin də gerçəkləşdiyi məlumdur (Круглов Е. П., 2000, c. 401).

A.Bisembayev oğuzlara aid bəzi qadın və uşaq qəbirlərində insanlarla birlikdə atın da dəfn edilməsini, digər bənzər qəbirlərdə isə bu hala rast gəlinməməsini oğuz cəmiyyətindəki sinfi təbəqələşmə kimi izah edir (Бисембаев А., 2010, с. 91). Bənzər fikir V.İvanov və N. Krılasov tərəfindən də dilə gətirilmişdir (Иванов В. А., Крыласова Н. Б., 2006, с.104-105).

Maraqlıdır ki, Orenburq vilayətinin Uvak kəndi yaxınlığındakı oğuz kurqanında atla birlikdə dəfn edilmiş yaşlı qadın qəbrinə rast gəlinmişdir. Onun yanında da yüksək zövqlə hazırlanmış ayaqqabı və parça qalıqları, eləcə də gümüş bəzək əşyaları aşkar edilib (Федорова&Давыдова Э. А., 1989).

Boqolyubovka kurqanından əldə edilmiş arxeoloji materiallar içərisində dəmirdən hazırlanmış qayçı və sümük daraq xüsusi diqqət çəkir. Qayçının ümumi uzunluğu 12.1 sm, halqalarının diametri isə 3.0 sm idi. Sümük darağın isə uzunluğu 8.0 sm, eni 4.2 sm, qalınlığı 0.2 sm olub. Onun yan dişləri 0.2 sm, orta dişləri isə 0.1 sm qalınlığına sahib idi.

Kurqandan tapılan yeganə keramika fraqmentinin uzunluğunun 4.7 sm, eninin 2.1 sm, qalınlığının isə 0.7 sm olduğu, yaxşı hamarlandığı, həddən artıq çox birşirildiyi üçün üzərində hiss izinin qaldığı bildirilir.

Kurqandan 5 ədəd asma tunc zınqrov da tapılıb ki, onların hamısı armudvari formada idil. Onların yuxarı hissədə ip keçirmək üçün nəzərdə tutlmuş kiçik qulaqcıqları vardı. Qulaqcıqların diametri 0.2 sm, zınqrovların öz diametrləri isə orta hissədə 1.0 sm idi. Uzunluqları 1.61,7 sm olan bu zınqrovlar iki yarımhissədən ibarət olmaqla hazırlanmışdılar.

Yalnız dəri və parçadan ibarət fraqmentləri dövrümüzədək salamat çatan uzunboğaz çəkməni bəzəyən tunc 10 bəzək elementlərinin 3-ü dairəvi formalı və müxtəlif ölçülü (diametrləri 1.0 sm, 0.7 sm. və 0.8 sm), 3-ü də yonca formalı lövhə şəklində idilər. Sonuncular 2.0 x 2.3 sm ölçüyə sahib olublar. Daha 4 tunc bəzək elementindən ikisinin diametri 0.8 sm, digər ikisininki isə 0.1 sm idi. Onlar yarımkürə formasında hazırlanmışdılar. Onların üzərinə iki yarım dairə ilə əhatə olunmuş kvadrat şəklində naxış vurulmuşdu.

Bu əşyalar onları əks tərəfdən ayaqqabıya bərkidilə bilmək üçün xüsusi tunc pinə sahib idilər (Матюшко И. В., 2014, c. 621-623).

Alimlər bu əşyalardan çıxış edərək kurqanı IX-X əsrlərə aid etmişlər (Федоров-Давыдов Г. А., 1966, c. 53).

Mövzumuz baxımından Qazaxıstanın Ak-Tübe, Qərbi Qazaxıstan, Atır və Manqistau vilayətlərini birləşdirən geniş ərazidə qeydə alınmış oğuz-beçenek dövrü kurqanları da böyük maraq doğurur. Burada ümumilikdə 35 dəfn abidəsi aşkar edilib (Бисембаев А.А., 2009). Bu kurqanları fərqləndirən əsas cəhət onlarda yalnız bir nəfərin dəfn edilməsi və onlara bir-birindən uzaq məsafələrdə rast gəlinməsidir. Yalnız 10 kurqan eyni ərazidə topa şəklində qeydə alınmışdır ki, onların hamısı Karasu I məzarlığında yerləşir (Кокебаева Г.К., 1980, c. 96-99). Kalmak Çaban I, Mamay və Svistun-qora (Fit dağı) məzarlıqlarının hər birində isə iki kurqan qeydə alınıb. Bütün bu dəfn abidələri bir-birindən bəzilərinin örtüklü, digərlərinin isə örtüksüz olması ilə fərqlənirlər.

Müəyyən edilmiş oğuz qəbirlərinin 43.8 %-i daha qədim dövrlərə aid kurqanlarda təkrar dəfnin icra edilməsi ilə müşaiyət olunan asma qəbirlərdir.

Qazaxıstanın oğuz-beçenek dövrü kurqanları əsasən İlek, Ural, Böyük və Kiçik Üzen çaylarının sahillərində aşkar edilib. Onların da təqribən yarısı (46.9 %) Böyük və Kiçik Üzen çaylarının sahillərində qeydə aklnlblar. Ural çayı hövzəsi ikinci yerdədir. Burada 9 kurqan üzə çıxarılıb. Bu abidələr birlikdə Qərb qrupunu təşkil edirlər. Buradakı kurqanların çoxu kurqan örtüyünə sahibdir. İlek, İrgiz, Uil və Emba çaylarına yaxın ərazilərdəki Şərq qrupunu təşkil edən dəfn abidələri kurqan örtüklərinin sayına görə Qərb qrupundan geri qalırlar. Üstəlik də burada asma qəbirlər üstünlük təşkil edir (Бисембаев А. А., 2009).

Haqqında söhbət açdığımız kurqanların sayı bir o qədər çox olmasa da, onların çoxu fərqli tipoloji özəlliklərə sahibdirlər. Belə ki, bu abidələrdə icra edilmiş dəfn adətlərinin analizi onları bir neçə tipə bölməyə imkan verir. Bu zaman kurqan örtüklərinin ölçüləri və konstruksiyası, insanla birlikdə atının da dəfn

edilib-edilməməsi, qəbir kameralarının dərinliyi və forması, ölülərin istiqaməti və s. nəzərə alınır.

Qeyd edək ki, sözügedən oğuz qəbirlərinin, demək olar ki, yarısının öz örtüyü olmayıb və ölülər daha qədim kurqanlarda asma qəbirlərin inşası yolu ilə dəfn ediliblər. Yəni bu halda söhbət təkrar dəfndən gedir. Diametri 4-8 m olan kiçik kurqanların sayı cəmi 12.5 % təşkil edir. Kurqanların əksəriyyətinin diametri 8-15 m arasında dəyişir. Onların, iki dəfn abidəsi istisna olmaqla, hamısı torpaq örtüklüdür. Yalnız iki kurqanın örtüyü torpaq və daşdandır. Bunlar Lebedevka VI məzarlığındakı 11 №-li və Şalkar III məzarlığındakı 12 №-li kurqanlardır. Lakin bu abidələrin örtüklərinin ucaldılmasında istifadə edilmiş daşlar fərqlidir. Belə ki, 11 №-li Lebedevka kurqanında torpağın tərkibinə qatılmış xırda çınqıldan istifadə edildiyi və bu halda heç bir daş konstruksiyadan söhbət getmədiyi halda, 12 №-li Şalkar kurqanında torpaq qatının altında qəbir kamerasını örtən daş yığımına rast gəlinmişdir. Jolutken (Kepir I) məzarlığındakı 4 №-li kurqanın torpaq örtüyünün altında isə daş halqaya təsadüf edilib (Бисембаев А. А., 2009).

Oğuz kurqanlarında rast gəlinən bütöv at skeletlərindən, eləcə də onun ayrı-ayrı hissələrindən (ayaq və ya kəllə) başqa, digər heyvanların sümük qalıqlarına da rast gəlinib. Onlar bəzən örtükdən, bəzənsə qəbir kamerasının içindən tapılıb və bu sümüklər, çox güman ki, dəfn zamanı gerçəkləşdirilən ziyafətdə kəsilən heyvanların sümükləridir.

Ölünü qəbir evinə yola salarkən təşkil edilən ziyafətlərdə kiçik buynuzlu heyvanlarla birlikdə at da kəsilərdi. Bu halda həmin heyvanların sümüklərinə parçalanmış vəziyyətdə rast gəlinir. Belə ziyafətlərin kurqan örtüklərindəki izinə sadəcə 7 kurqanda rast gəlinib ki, bu da haqqında söz açdığımız oğuz kurqanlarının 20 %-i deməkdir. Eyni sayda kurqanda isə parçalanmış heyvan sümükləri qəbir kamerasında aşkar edilib.

Ziyafət zamanı kəsilən heyvanları bişirmək üçün ocaq qalanırdı ki, həmin ocaqların izlərinə sözügedən kurqanların örtüklərindəki kömür və kül izləri şəklində rast gəlinir (Бисембаев А.А., 2009).

Bütöv at skeleti yalnız bir halda – «Turbaza» məzarlığındakı 1 №-li kurqanda aşkar edilib (Кушаев Г.А., 1993). Skeletin ayrı-ayrı hissələrinin anatomik qaydada ardıcıllıqla düzüldüyü at «müqəvva-sı»na qəbirlərin 46.9 %-də rast gəlinib. Kurqanların 15.6 %-i qarət-çilər tərəfindən təxrib olunduğundan və sümüklərin yeri dəyişdi-yindən onların ilkin vəziyyətini müəyyən etmək mümkün olmayıb.

Qəbir kameralarının formalarına gəlincə, burada daha çox düz-bucaqlı formalı kameralar üstünlük təşkil edir (62.5 %). Divarı boyu uzanan xüsusi çıxıntısı olan kameralar onların 18.8 %-ində və ya nəzərdən keçirməkdə olduğumuz bütün kurqanların 12.5 %-ində müşahidə edilib. İki kurqanda isə ümumiyyətlə qəbir çalasına rast gəlinməyib. Dərinliyi yarım metrdən artıq olmayan kameralar oğuz-beçenek dövrü kurqanlarının 21.9 %-ində, 1 m-ə qədər olan orta dərinlikli kameralar isə 25 %-ində qeydə alınıb. 1.5-2.5 m dərinliyi olan kameralar isə 49.2 % təşkil edir (Бисембаев А. А., 2009).

Oğuz-beçenek dövrü abidələrində ölülərin qərb istiqamətində basdırıldığı hala daha çox rast gəlinir – 37.5 %. Şərq, şimal-qərb, şimal şərq istiqamətində dəfnə eyni nisbətdə - hər birinə iki halda rast gəlinib. Şimal istiqaməti 12.5 %, cənub-qərb istiqaməti isə 18.8 % təşkil edir. Cənub istiqamətdə basdırılmış adam skeletinə isə sadəcə Şalkar III məzarlığındakı 12 №-li kurqanda təsadüf edilib. Cənub-şərq istiqamətli dəfnə isə təsadüf edilməyib.

Kurqam örtüyünün altında ağac konstruksiyaların olması halı dəfn abidələrinin 28.1 %-ində qeydə alınıb. Kurqanların 6.2 %-ində girişin daş pilitə ilə qapandığı müşahidə edilib. Skeletlərin altına xüsusi döşəmə döşənməsinə iki halda rast gəlinib. Bunlardan biri-nin qeydə alındığı Bolqarka I kurqanının qəbir kamerasında ağca-qayın ağacıbdan inşa edilmiş, üzərində yarpaqları da olan budaqlar-la döşənmiş, üzərinə kül və kömür qarışıqlı yanmış qara torpaq tö-külmüş xüsusi konstruksiya üzərində dəfn edilmiş at «müqəvva»sı aşkar edilmişdir. Kamerada bundan başqa taxta tabutun qalıqlarına da rast gəlinib (Бисембаев А. А., Гуцалов С. Ю., 1996).

Şübhəsiz ki, Qərbi Qazaxıstanın oğuz kurqanları zəngin dəfn abidələri hesab edilə bilməz. Eyni sözləri bu kurqanlarla eyni dövrə aid olan Volqa və Ural çayları boyu düzülmüş oğuz

kurqanları barədə də söyləmək mümkündür. Bu abidələrin hamısı Şimali Qafqazda, Don çayı sahillərində qeydə alınmış həmdövr abidələrlə bənzərlik təşkil edir (Кригер В., 1986, с. 125). Yalnız Cənubi Başqırdıstanda aşkar edilmiş kurqanlar bir qədər fərqlidir. Onlar həm klassik kurqan modelinin tələblərinə daha yaxşı cavab verir, həm də onlardan daha zəngin arxeoloji material əldə edilmişdir (Мажитов Н. А., 1981).

İşin ən pis tərəfi isə budur ki, Qərbi Qazaxıstanın oğuz-beçenek dövrü kurqanlarının çoxu qarətçilər tərəfindən təxrib edilmişdir. Bu isə kurqanların dəqiq yaşını müəyyən etməyə mane olur. Bununla belə, arxeoloji ədəbiyyatda oğuz kurqanlarının tipoloji xronologiyası işlənib hazırlanmışdır (Плетнева С.Д., 1958; Федоров-Давыдов Г.А., 1966) ki, bu da həmin dəfn abidələrininin əksəriyyətini I xronoloji dövrə aid etməyə imkan verir.

Qeyd etmək lazımdır ki, oğuz kurqanlarının xronologiyasının müəyyənləşdirilməsi metodunun əsasında qəbirlərdə at sümüyünün olub-olmaması, qəbir çalalarının formaları və meyitlərin istiqaməti kimi amillər durur. Lakin məsələnin həllinə qəbirlərin forması daha çox töhfə verə bilər. Çünki heç bir skeletə rast gəlinməyən qəbirlər də az deyil.

Oğuz kurqanları üçün müəyyən edilmiş tipoloji təsnifata görə I tipə at sümüklərinə rast gəlinən məzarlar aid edilir. Bu tip ən çox rast gəlinən tiplərdəndir və onların sayı 21-ə çatır. Belə ki, tədqiq edilmiş 15 kurqanda at sümükləri fraqmentlərinə, 1 kurqanda isə onun bütöv skeletinə rast gəlinmişdir. At sümüklərinə rast gəlinən daha 5 məzarda qəbirlər dağıldığından sümüklərin ilkin vəziyyətini müəyyən etmək mümkün olmayıb.

9 qəbirdə at skeleti insan skeletinin yanında, onunla eyni qəbir kamerasında aşkar edilmişdir. Bu hal I tipə aid edilən kurqanların 42.9 %-i üçün xarakterikdir. Atların qəbirdə düzəldilmiş xüsusi pilləyəbənzər cıxıntının üzərinə qoyulması halına 6, atın qəbir kamerasının örtüyünün üstündə dəfn edilməsi halına isə 3 kurqanda təsadüf edilmişdir. Qərb istiqamətində dəfn edilmiş adamla birlikdə at sümüklərinə rast gəlinməsi halı 7 dəfə,

cənub-qərb istiqamətli meyitlə birlikdə at sümüyünə təsadüf edilməsi halı isə 5 dəfə (14.3 %) qeydə alınmışdır.

Şalkar III məzarlığındakı 12 №-li kurqanda, eləcə də Karasu I məzarlığındakı 11 №-li kurqanın ikinci qəbir kamerasında «müqavva» insan skeleti ilə eyni istiqamətə yönəlik idi. Karasu I məzarlığındakı 10 və 20 №-li kurqanlarda isə fərqli mənzərə mövcud olub. Bu kurqanların qəbir kameralarında düzəldilmiş xüsusi çıxıntının üzərində dəfn edilmiş atların istiqaməti qəbirlərdəki insanların istiqamətinin tam əksi idi. Fərq yalnız onda idi ki, 10 №-li kurqanda dəfn edilən insaını yönü şərq, 20 №-li kurqandakının yönü isə qərb tərəfə olub. Onlarla birlikdə basdırılmış at «müqəvvaları»nın gəm və yəhərləri də üstlərində idi (Кокебаева Г. К., 1980, с. 96-99).

Sümüklərin başqa variantlarada istiqamətlənməsinə və düzümünə rast gəlinmiş kurqanlar da qeydə alınıb. Bunlar Karasu I məzarlığındakı 8 və 18, Kos-Obadakı 11 və Şalkar II məzarlığındakı 8 №-li kurqanlardır. Buradakı bütün insan skeletləri qərb tərəfə istiqamətlənmişdi. Onlardan yalnız ikisində azacıq cənuba meyillilik vardı. Bu qrup dəfn abidələrini digərlənrindən fərqləndirən əsas cəhət burada atın ayaq və dərnaqlarına rast gəlinməsi, kəllənin isə olmamasıdır. Qəbirlərdə 1, 2, 3 at ayağına rast gəlinib. 4 ayağın 4-ünün də eyni qəbirdə olması halı isə qeydə alınmayıb. 8 №-li Şalkar II kurqanında at skeletinin fraqmentləri qəbirdəki xüsusi çıxıntının üzərinə qoyulmuşdu.

I xronoloji dövrə və II tipə aid edilən digər 8 məzarda at sümüklərinə rast gəlinməyib. Bu kurqanlar I dövrə aid edilən kurqanların 25 %-ni təşkil edir. Bu qrupa «Qartal yuvası» (Orlinoye qnezdo), Atpa II, Rubejka məzarlığındakı kurqanlar, eləcə də Mamay məzarlığındakı 3 və 6, Liman (Solyanka I) məzarlığındakı 1 №-li kurqanlar və Emba məzarı daxildir.

Bu kurqanlarda dəfn edilmiş meyitlərdən altısının yönü azacıq şimala və ya cənuba meyilli olmaqla qərb istiqamətli, birininki şimal, başqa birininki isə şərq istiqamətli idi. Bütün bu abidələrin qəbir kameraları sadə quruluşa sahib idilər. 5 məzarda ata məxsus üzəngi, yəhər və digər nəsnələrə rast gəlinib. Bu hal

yalnız «Qartal yuvası» (Orlinoyr qnezdo), 6 №-li Mamay və 1№-li Liman (Solyanka I) kurqanlarında qeydə alınmayıb.

Belə hesab edilir ki, bəzi kurqanlara atın özünün və ya fraqmentlərinin deyil, onun əvəzinə at nəsnələrinin qoyulması atın simvolik dəfni anlamına gəlir.

Kalmak Çaban I məzarlığındakı üç məzarda, o cümlədən 8 və 9 №-li kurqanlarda, eləcə də 4 №-li Jolutken (Kepir I) kurqanında insan skeletinə rast gəlinməyib. Bu kurqanlar III tipə aid edilir və onlardan 8 №-li Kalmak Çaban I kurqanında qəbir çalasında düzəldilmiş xüsusi çıxıntıda at «müqəvva»sı aşkar edilib. Digər iki məzarda isə heç çala da olmayıb. 4 №-li Julutken kurqanının torpaq örtüyündə, yer səthi səviyyəsində anatomik ardıcıllıqla düzülmüş at kəlləsi və ayaqları aşkar edilmişdir. Bu sümüklərin yanında gəm və ox ucluqları da var idi. Maraqlıdır ki, Kalmak Çaban I məzarlığındakı 9 №-li kurqandan tapılmış yeganə tapıntı – bir ədəd kəmər lövhəsi eyni səviyyədən, yəni örtüyün altında, yer səthindən əldə edilmişdir (Бисембаев А.А., 2009).

Beləliklə, I xronoloji dövrə aid olan oğuz kurqanlarının 3 tipdə olduğunu görürürük: atla birgə dəfn, atsız dəfn və kenotaf, yəni insansız məzarlar.

Yuxarıda haqqında söhbət açdığımız kurqanların oğuz-beçenek dövrünə aid olması onların yüzdə yüz oğuzlara aid olması anlamına gəlməyə də bilər. Çünki əksər kurqanların dəqiq vaxtını müəyyənləşdirmək çox çətindir. Alimlər bu kurqanlaın xronologiyasını onlardan çıxan əşyaları dövrü məlum olan digər kurqanlardan əldə edilmiş əşyalarla tutuşdurmaqla müəyyənləşdirməyə çalışır, sonrasa yazılı məlumatlar əsasında bu dəfn abidələrinin məhz hansı türk soy və boyuna məxsus olduğu barədə qərar verirlər. Bu məsələ hələ də aktuallığını qorumaqdadır (Мец Н. Д., 1948).

S. Pletnyova və Q. Fyodorov-Davıdov problemin həllinə bir qədər fərqli rakurslardan yanaşaraq, fərqli yol izləmişlər. Bununla belə, onların gəldikləri nəticələrin bir çox məsələdə üst-üstə düşdüyünü görməkdəyik. Məsələn, Q. Fyodorov-Davıdov kurqanlardan tapılmış əşyaların tipoloji təhlili əsasında onların X-XI əsrlərə aid olduğu qənaətinə gəlmişdir (Федоров-Давыдов Г. А., 1966).

S.Pletnyova isə diqqətini daha çox beçeneqlərə aid dəfn adətləri üzərində cəmləyərək, bu kurqanlara dərin olmayan çalalı kurqanları aid edir və onların xarakterik xüsusiyyəti kimi burada anatomik ardıcıllıqla düzülmüş at kəlləsi və ayaqlarının insan skeletindən sol tərəfində yerləşdirilməsini və aşağıdakı arxeoloji materialların olmasını göstərir: qısa, düz formalı xəncərlər, xüsusi halqalı dəmir üzəngi, orta hissəsi ağır örtüklü ox ucluqları, gözəl bəzənmiş coşmaqlar, stilizə edilmiş quş şəkilli asmalar, kəmərə bərkidilən oraq şəkilli lövhələr, bəzəkli qablar.

S.Pletnyovanın yazdığına görə, beçeneq kurqanlarında qadın məzarlarına rast gəlinmir. Əvəzində isə bəzi hallarda at «müqəvva»sının insansız olaraq dəfni (kenotaf) və istisna hallarda isə qəbrə inək və ya öküz sümüklərinin qoyulması qeydə alınıb. Bilavasitə oğuzlara aid edilən kurqanlar oğuz-beçenek kurqanlarından fərqlənir. Bu kurqanlarda qadın məzarlarına da təsadüf edilir. Kenotaf (insansız) qəbirlərə rast gəlinmir. Çalalar dərin qazılır. Atın kəllə və ayaqları mərhumun yanına qoyulmur, kurqan örtüyündə, orta dərinlikdə basdırılır. Əgər insan atsız dəfn edilmişsə, kameradakı çıxıntılar örtüyə dəstək kimi inşa edilir (Плетнева С. Д., 1973, с. 22-23; Плетнева С. Д., 1981, с. 218).

Oğuz kurqanları barədə Q. Kuşayevin də yazdıqları çox maraqlıdır. O özünün «Ural boyu çöllərinin qədim tarixi barədə etüdlər» adlı kitabında IX əsrin II yarısı-XI əsrin əvvəllərinə aid etdiyi oğuz-beçeneq dəfn abidələrinə toxunaraq onlara xas əsas xüsusiyyətlər kimi bunları diqqətə çatdırıb: kurqan örtüklərinin torpaqdan olması, qəbirlərin qərb, nadir hallarda isə cənub istiqamətli olması, adamla birlikdə atının və ya onun ayrı-ayrı hissələrinin də mütləq dəfn edilməsi, uclarında halqalar olan gəmlərin tapılması.

Alim sırf oğuz qəbirlərinin daha mürəkkəb xarakteristikaya sahib olduğunu və da xüsusi qeyd edib (Кушаев Г.А., 1993, с. 102-103).

Cənubi Ural və Volqaboyu oğuz kurqanlarını araşdıran V. Kriqer isə bu abidələr üçün xarakterik olan xüsusiyyətlər içərisində bunları qeyd etmişdir: Qəbir kameralarının düzbucaqlı ol-

ması. Kameranın örtüyünün ağacdan olması. At kəlləsi və ayaqlarının kameranın örtüyünün üstündə dəfn edilməsi.

Alim bu fikirlərini oğuzların dəfn adətini təsvir etmiş İbn Fədlanın verdiyi məlumatlarla əsaslandırır və o da oğuz qəbirlərinin xarakterik xüsusiyyətləri içərisində qəbirlərdən quşabənzər fiqurların tapılmasını xüsusi qeyd edir. Bildirir ki, quş fiqurlarının tapıldığı kurqanlar oğuzların məskun olduqları məhdud ərazini əhatə edir. O həmin fiqurların oğuzlar arasında yayğın olan quş onqonları (totemləri) ilə bağlayır (Кригер В., 1986, с. 126; Кригер В. А., 1993, с. 137-144).

Məlumat üçün bildirək ki, onqon-quş motivi oğuzlar arasında çox yayğın olmuşdur. Hər bir oğuz soy və boyunun ayrıca quş onqonu olduğunu həm Fəzlullah Rəşidəddin (Rəşidəddin, 2003, s. 54-60), həm də Əbülqazi (Əbülqazi Bahadır xan, 2002, s. 70-72) göstərmişlər. Onlara istinad edən Bahəddin Ögəl həmin onqonları oğuz soyları üzrə aşağıdakı kimi sıralamşdır:

**Bozuqlar: Sağ qol.**
**Gün Xan**: simvolu Ağ Şahin,
**Ay Xan**: simvolu Qartal,
**Ulduz Xan**: simvolu Tauşancıl
Qayı - Ağ Şahin / Şunqar (Şunqar)
Bayat - Ağ Şahin / Bayquş (Üği)
Alkaravlı – Ağ Şahin / Siçantutan qırğı (Köykenek)
Qara-uyli – Ağ Şahin / Çalağan (Göbek-sarı)
Yazır – Qartal / Bildirçin çalan qırğı (Torumtay)
Dökər – Qartal / Çalağan (Köçken)
Dodurğa – Qartal / Qırmızı qırğı (Kızıl-qarçağay)
Yaparlı - Qartal / Qırğı (Kirğu)
Avşar – Dovşancıl / Ağ şahin (cere-laçin)
Qızıq – Dovşancıl / Sar (Sarıca)
Bekdili – Dovşancıl / Laçın (Bihri)
Qırqın - Dovşancıl / Su berkutu (Su bürkütü)
**Uçuqlar: Sol qol.**
**Gök Xan**: simvolu Şunqar
**Dağ Xan**: simvolu Üği

**Dəniz Xan**: simvolu Çakır
Bayındır – Şunqar / Şahin (Şahin)
Beçenə - Şunqar / Ala şahin (Ala-toğanaq)
Çavuldur – Şunqar / Qartal (Buğdaynık)
Çəbni - Şunqar / Humay (Humay)
Salur – Üği / Berkut (Bürküt)
Eymir – Üği / Ançarı
Alayuntlı – Üği / Gərgincək (Yağılbay)
Ürəgir – Üği / Qırğı (Bayqu)
İqdır - Gərgincək / Qırğı (Karçiğay)
Bükdüz - Gərgincək / Ütəlgi (İtalgu)
Yıva - Gərgincək / Ağ şahin (Toyğun)
Qınıq - Gərgincək / Qırğı (Cere-qarğay) (Ögel, 1989, s. 355-360).

Beləliklə, alimlərin yuxarıda söylədikləri fikirləri diqqətlə təhlil etdikdən sonra onların oğuz və ya oğuz-beçenek kurqanları üçün müəyyənləşdirdikləri kriteriyaların bir-birindən müəyyən dərəcədə fərqləndiyini görürürük. Fikrimizcə, deyilən fikirlər içərisində ən inandırıcısı V. Kriqerə məxsusdur. Lakun onun fikirləri konkret ərazidə və konkret zaman kəsiyində (IX-XI əsrlər) ucaldılmış kurqanları əhatə edir. Oğuz kurqanlarının sayı, təbii ki, bundan daha çoxdur. Onların geniş siyahısını V. İvanov və Q.Qarustoviçdən öyrənmiş oluruq. Bu alimlərin yazdığına görə, Dnepr çöllərindən Yuxarı Urala qədər uzanan geniş ərazidə 308 oğuz kurqanı müəyyən edilmişdir (İvanov V. A., Garastovich G. N., 1994, p. 573-582).

## Qıpçaq və Qızıl Orda dövrü kurqanları: Genetik analizlər Qızıl Orda əhalisinin genetik yapısı barədə nə deyir?

Çox da böyük olmayan ərazilərdə yerləşən və bir çox hallarda zəngin material verməyən orta əsr türk kurqanlarının bilavasitə hansı boy və ya soya məxsus olduğunu çox vaxt müəyyən etmək çətin olur. Əldə olan yazılı mənbələrin bu barədə yalnız ötəri məlumat verməsi işi daha da çətinləşdirir. Bununla belə, arxeoloqlar IX-XII əsrlərə aid oğuz kurqanlarını, eləcə də bilavasitə oğuz beçeneklərə aid kurqanları ayırmağı bacardıqları kimi, XII-

XIII əsrlərə aid qıpçaq dəfn abidələrinin də xarakterik xüsusiyyətlərini müəyyən etməyi, onları oğuz və oğuz-beçenek kurqanlarından fərqləndirməyi bacarmışlar. Lakin qıpçaq kurqanlarını XIII-XIV əsrlərə aid tatar kurqanlarından seçmək bir o qədər də asan deyil. Çünki onlar arasında fərq, demək olar ki, yoxdur.

Qıpçaq kurqanlarının ən çox cəmləşdiyi ərazilərdən biri də Cənubi Ural bölgəsidir. Bu ərazidə erkən tunc dövründən hun dövrünə qədər çox sayda kurqan aşkar edilmişdir. Ərazi oğuz, qıpçaq və tatar kurqanları ilə də zəngindir. Minillər boyu Avrasiyanın müxtəlif Türk boy və soylarının əsas məskunlaşma və miqrasiya zonalarından biri olmuş bu geniş ərazi, xüsusən də şərqdə Yuxarı Toboldan qərbdə Aşağı Urala, cənubda isə Emba çayından şimalda Kama və Ak (Belaya) çaylarına qədər uzanan düzənlik və dağətəyi bölgələr türklərin Avropadan Asiyaya və əksinə əsas miqrasiya düzəngahlarından biri kimi məşhurdur. Köçlər orta əsrlərdə də davam etmişdir və nəticədə bölgədə ayrı-ayrı Türk boy və soylarından yüzlərlə kurqan yadigar qalmışdır. Həmin abidələrin öyrənilməsində V. İvanov, V. Kriger, A. Yaminov kimi rus alimlərinin xidmətləri əvəzsidir.

Volqa-Ural bölgəsinin orta əsrlər tarixinə dair ən əski qaynaq 922-ci ildə Bulqar xanı Almuşun xahişi ilə İslam xəlifəsi Müqtədirin İslam inancını izah və təbliğ etmək üçün Volqa Bulqar dövlətinə göndərdiyi heyətin başçısı İbn Fədlanın verdiyi məlumatlar hesab edilir (Путешествие Ибн Фадлана, 1996).

Burada üzləşdiyi xalqların məişəti, adət ənənələri barədə geniş məlumat verən İbn Fədlan oğuzların dəfn adətini də təsvir etmişdir. Bölgədəki oğuz kurqanlarının müəyyənləşdirilməsində həmin məlumatlar arxeoloqlara çox kömək edir. Oğuz çöllərini gəzə-cəzə İbn Fədlan Şalkar gölü sahillərinə, əsasn beçeneklərin məskun olduğu Cənubi Urala gəlmiş, lakin burada uzun müddət qala bilmədiyi üçün beçeneklər barədə ötəri məlumat verməklə, daha dəqiq desək, onların tünd saçlı olduqlarını və üzlərini tər-təmiz qırxdıqlarını, digər oğuzlardan fərqli olaraq kasıb yaşadıqlarını bildirməklə yetinmişdir. Bununla belə, alimlərin əlində Bizans imperatoru Konstantin Baqryanoqodnı və ərəb coğrafiyaşü-

nası Əl-Məsudinin verdiyi məlumatlar da var və bu məlumatlar sayəsində arxeoloqlar beçenek şəhər və kurqanlarını müəyyən və digər oğuz şəhər və kurqanlarından çətinlik çəkmədən ayırd edə bilirlər (Иванов В. А., 1994).

Qeyd edək ki, qıpçaq ərazilərinin və kurqanlarının müəyyən edilməsində də yazılı mənbələrin rolu az olmayıb. Rus mənbələrində «poloves» adlandırılan qıpçaqlar barədə məlumat verən «Ötən illərin salnaməsi»ndə qıpçaqların (poloveslərin) Kiyev Rus dövlətinə 1055-ci ildə düzənlədikləri hərbi yürüşlər barədə məlumat verməkdədir. Başqa bir əski rus salnamələrinin birində isə deyilir ki, «6569-cu (1061-ci) ilin yayında poloveslər Rus torpaqlaına» hücuma keçdilər.

Cənubi Uralda orta əsrlərə aid Türk kurqanlarının, o cümlədən qıpçaq abidələrinin öyrənilməsinə XIX əsrin 80-ci illərindən başlanmışdır. Lakin ilk tədqiqatlar təsadüfi tapıntılar və plansız qazıntılar şəklində aparılıb. Bu işin əsası F. Nefedorovun 1887-1888-ci illərdə Başqırdıstan və Orenburqda apardığı araşdırmalarla qoyulub və həmin illərdə Ural və İlek çayları arasında, daha dəqiq desək, Ölü Duzlar (Mertvıe Soli), Xan məzarı, Mertevetsovo və s. yerlərdə bir neçə kurqan aşkar edilərək qazılmışdır.

F.Nefedorovun başladığı bu işi davam etdirən B. Qrakov 1926-cı ildə Ural çayının sol sahilində, Xuday-Bergen aulu yaxınlığında XIII-XIV əsrlərə aid daha iki kurqanı qazımışdır. 1927-ci ildə sarmat kurqanlarının tədqiqi ilə məşğul olan B. Qrakov həmin il daha 5 orta əsr kurqanı aşkar etmişdir.

Bənzər hadisə 1958-1962, 1971-1973 və 1070-cu illərdə də təkrarlanmışdır. Bu dəfə yenə də sarmat dövrü kurqanlarının araşdırılması zamanı alimlər XIII-XIV əsrlərə aid daha 30 kurqan üzə çıxarmışlar. Onların elm aləminə tanıdılması M. Moqikova, K.Smirnov və V.Krigerin adları ilə bağlıdır (Иванов В.А., Кригер В.А.,1988).

Orta əsr kurqanlarının sistemli şəkildə öyrənilməsinə XX əsrin 70-ci illərindən start verilmiş və bu işdə Çermasan çayı sahilindəki Cıntaştamak məzarlığında geniş qazıntı işləri aparmış S.Vasyutinin, eləcə də 1973-1974-cü illərdə Orta Ural hövzəsin-

də XII-XIV əsrlərə aid çox sayda kurqan aşkar edərək tədqiq etmiş N.Məcitovun xidmətləri əvəzsizdir. (Мажитов Н.А., 1981).

1979-cu ildə A. Pniçuk İvanovsk IV məzarlığında aşkar edilmiş XII-XIV əsərlərə aid 2, V. Zasedateleva isə Orsk şəhəri yaxınlığında 1 kurqanda qazıntı aparmışlar. Elə həmin il arxeoloqlar, tədqiqatlarına hələ 1958-1962-ci illərdə başlamış daha 6 kurqanda araşdırmaları davam etdirmişlər.

1980-ci ildə SSRİ Elmlər Akademiyasının Başqırdıstan filialının Tarix, Dil və Ədəbiyyat İnstitutunun V. İvanovanın başçılığı altında təşkil ediyi ekspedisiya uzun müddətli araşdırmalardan sonra Sakmar çayının sağ sahilində, Kuvandık şəhərindən 5 km qərb tərəfdə, Tiyavqulov kəndi yaxınlığında əla vəziyyətdə olan qıpçaq kurqanı aşkar etdi (İvanov V. A., Garastovich G. N., 1994, p. 573-589) və həmin dövrdən bu günə qədər sözügedən ərazidə onlarla qıpçaq kurqanı öyrənilmişdir.

XII-XIV əsrlərə aid qıpçaq kurqanları öz yekcinsliyi ilə fərqlənir və oğuz-beçenek dövrü kurqanlarında müşahidə edilən müxtəliflik bu kurqanlar üçün xarakterik deyil. Burada əvvəlki dövrə aid quş fiqurları kimi xüsusi diqqət çəkən etnoqrafik əlamətlər də müşahidə edilmir.

V.İvanov və V.Kriger sözügedən dövrə aid edilən qıpçaq kurqanlarını xarakterizə adən aşağıdakı əlamətləri diqqətə çatdırmışlar:

1. Gəm, qayış, yəhər kimi at nəsnələrinə və ya onların fraqmentlərinə təsadüf edilməsi;

2. Qəbirdə müxtəlif silahların (ox ucluqları, qılınclar, ox qabı, və onun bəzəkləri, xəncərlər, nizə və zirehlər) olması;

3. Skeletlə birlikdə bəzək əşyalarının (sırğa, üzük, muncuq, güzgü və s.) tapılması;

4. Qəbir kamerasında kreslo, bıçaq, qayçı, daraq, qab-qacaq və s. bu kimi əşyalara təsadüf edilməsi;

5. İy ucları, kosmetik əşyalar, dəri çanta qalıqları, tunc zınqırovlar və s. bu kimi əşyaların üzə çıxması (Иванов В. А., Кригер В. А.,1988).

Orta əsr qıpçaq kurqanlarının əsas elementlərindən biri də balballardır. Qıpçaq balballarıı hazırlanma texnologiyası baxı-

mından yekcinsdirlər və onlar üçün sifətin, əllərin, eləcə də bel səviyyəsində təsvir edilən əllərdən birində tutulmuş əşyaların qabardılması xarakterikdir. Kişi heykəllərində bığ, qadın heykəllərində isə döşlər xüsusi nəzərə çarpdırılır. Qadın heykəllərinin əlində, bir qayda olaraq, su qabı olur. Bu heykəllər S.Pletnyovanın «Daş poloves heykəlləri» adlı əsərində təsvir etdiyi balbal və ya daşbabaların eynisidir (Плетнева С.Д., 1974).

Cənubi Uraldan aşkar edilmiş qıpçaq kurqanlarının daha bir xarakterik xüsusiyyəti onların inşasında istifadə edilmiş kərpiclərdə damğalara təsadüf edilməsir. Məsələn Karaul-Tübe I məzarlığında tədqiq edilmiş məzarların çoxunun girişi bu tip düzbucaqlı formalı damğalı kərpiclərdən hörülmüşdür(Иванов В.А., Кригер В.А.,1988).

Q. Fedorov-Davıdov qıpçaq kurqanlarından tapılan əşyaların statistik analizini vermiş (Федоров-Давыдов Г. А., 1966), onun bu analizini əsas götürən V. İvanov və V. Kriger qıpçaq məzarlarını 3 xronoloji dövrə bölmüşlər:

1. Tatarlara (onlar «monqol yazmışlar) qədərki dövr (XII əsr və XIII əsrin əvvəlləri);
2. Qızıl Orda dövrü kurqanları (XIII əsrdən XIV əsrin ilk rübünə qədər davam edən zaman kəsiyi);
3. Qızıl Orda dövrü müsəlman məzarları.

Eyni müəlliflər qıpçaq kurqanlarının 4 qrupa ayırmışlar:

1. Volqaboyu Bıkovsk qrupu;
2. Volqa boyu Tsarevsk qrupu;
3. Cənub Qərbi Ural qrupu;
4. Cənub-Şərqi Ural qrupu (Иванов В.А., Кригер В.А.,1988).

Alimlərin yazdığına görə, bu qruplar qıpçaq cəmiyyətindəki soy fərqlərinin etnoqrafik özəlliklərini əks etdirir. Məsələn, Cənub-Şərqi Ural qrupu üçün kurqan örtüklərinin daşdan, Cənub Qərbi Ural qrupu üçünsə torpaqdan qurulması xarakterikdir. Volqaboyu Bıkovsk qrupu ilə Volqa boyu Tsarevsk qrupu arsındakı fərq isə atın fərqli formalarda dəfni ilə əlaqədardır (Иванов В.А., Кригер В.А.,1988). Lakin A. Yaminov özünün «Cənubi Uralın Qızıl Orda dövrü əhalisi içərisində oğuz-beçenek izləri» kitabında daş və

torpaq tökməli kurqan örtüklərinin ayrı-ayrı qıpçaq soylarının fərqləndirici xüsusiyyəti kimi göstərilməsinə qarşı çıxaraq, bu halda eyni dövrə aid oğuz-beçenek kurqanlarının qıpçaq kurqanları kimi qələmə verildiyini bildirir (Руденко С.И., 1998).

Mövzumuz baxımından Çingiz xan və Qızıl Orda dövrünə aid kurqanlar daha böyük maraq doğurur. Həmin dövrə aid çox sayda kurqan aşkar və tədqiq edilmişdir. Hazırda onlara Avrasiyanın, demək olar ki, hər tərəfində rast gəlinir. Lakin bu abidələrin içərisində, bircə dənə də olsun, «monqol məzarı» adlandıra biləcəyimiz məzara rast gəlinməyib. Tapılan dəfn abidələrinin hamısı əvvəki dövrlərə aid oğuz və qıpçaq kurqanlarından heç nə ilə fərqlənməyən Türk kurqanlarıdır.

Bu mövzuya həsr edilmiş çox sayda elmi-tədqiqat əsəri yazılıb. Bu baxımdan R. Kuzeyev (Кузеев, 1992, 1994), N.Məcitov (Мажитов, 1993; Мажитов, Султанова, 1994), R.Faxrutdinov (Фахрутдинов, 1993), A.Xalikov (Халиков, 1992, 1994), V.İvanov (Иванов В., 1994), İ.İzmaylov (Измайлов, 1993, 1996), E.Kulpin (Кульпин, 1995) və V. Pantin (Пантин, 1995) kimi alimlərin əsərlərini xüsusi qeyd etmək lazımdır. Onları digər tədqiqatçılardan fərqləndirən əsas cəhət bölgədəki etnik proseslərin öyrənilməsinə sırf arxeoloji faktların işığında yanaşmaları və məsələni bu aspektdən dəyərləndirməyə çalışmalarıdır.

Bu sırada Qızıl Orda dövrü abidələrinin sistemləşdirilməsi və müəyyənləşdirilməsi istiqamətində ilk cığırı atanlardan biri olmuş Q. Fyodorov-Davıdovun (Федоров-Давыдов, 1966) adını ilk yerdə çəkmək lazımdır.

Məhz bu alimlərin səyi nəticəsində Qızıl Orda dövrünün kurqan abidələri arxeoloji baxımdan çox yüksək səviyyədə sənədləşdirilmişdir. Məlum olmuşdur ki, orta əsrlərə aid kurqan abidələrinin təqribən 80 faizi məhz həmin dövrə aiddir (Иванов В.А., 1993, с. 95). V.İvanov və A.Yaminovun hesablamalarına görə, təkcə Volqa-Ural bölgəsində Qızıl Orda dövrə aid edilən 227 kurqan və onlardakı 246 məzar aşkar edilərək qazılmışdır (Иванов, Яминов, 1993, с. 155). Bununla belə, hələ də Qızıl Orda əhalisinin etnik tərkibi haqqında mübahisələr səngimək

bilmir. Bunun da əsas səbəbi tədqiq edilmiş məzarlar içərisində «monqol məzarları»nın olmamasıdır.

Avrasiya ərazisində «monqollar»ın arxeoloji izinə rast gəlinməməsi ərazidə, nəyin bahasına olsursa-olsun, «monqol izi» axtaran alimləri çıxılmaz vəziyyətə salmış və nəticədə müxtəlif fərziyyələr ortaya atılmışdır. Bu tip fərziyyələrdən biri K. Salnikova məxsusdur. O 1952-ci ildə Cənubi Uralda apardığı geniş tədqiqatlardan sonra yazmışdır: «…Köçəri tatar-monqollar çox qısa bir zamanda qıpçaqlarla qarışaraq öz dillərini qeyb etmişlər. Qıpçaqların danışmaqda olduqları Türk dili Qızıl Orda əhalisinin böyük əksəriyyətinin dilinə çevrildi. Qızıl Orda dövrünün sıravi vətəndaşları Cənubi Uralda özlərindən sonra daşdan qurulmuş 2.5 m uzunluğunda və 1.5 m enində məzar-meydança formalı tarixi abidələr qoyub getmişlər. Bu tip abidələr Orta Uralda, Orsk və Maqnitoqorsk arasındakı bir neçə məntəqədə tədqiq edilmişdir… Qızıl Orda dövrünə aid sıravi qəbirlərdən tapılmış əşyalar qıpçaq dövrü məzarlarından tapılmış əşyalarla, demək olar ki, tam eynidir. Deməli, arxeoloji materialların da təsdiq etdiyi kimi, Qızıl Orda dövründə Cənubi Ural çöllərinin əhalisi bu bölgəyə tatar-monqol işğalçıları gəlməmişdən öncə orada köçəri həyat tərzi sürmüş eyni tayfalardan ibarət olub».

V.Moqilnikov da Qızıl Orda dövründə tədqiq edilən ərazilərin əhalisinin etnik tərkibində və onların dəfn adətlərində heç bir əhəmiyyətli dəyişikliyin baş vermədiyini etiraf edərək yazır ki, həmin dövrün abidələri əvvəlki dövrün abidələrindən heç nə ilə fərqlənmir. O da həmkarı kimi bu halı guya «monqollar»ın çox qısa bir zamanda «türkləşməsi» ilə əlaqələndirir (Могильников, 1981, с.193).

XX əsrin 80-ci illərində Qızıl Orda dövrü dəfn abidələrinin etnik mənsubiyyəti məsələsi N. Məcitov, R. Kuzeyev, V. İvanov və V.Kriqer arsında ciddi diskussiyalar mövzusuna çevrilmişdi. Həmin illərdə tədqiqatçılara həmin dövrə aid sadəcə 56 kurqan məlum idi. Onlardan 44-nün qıpçaq abidəsi olduğu barədə alimlər arasında qətiyyən fikir ayrılığı yox idi. Mübahisələr yerdə qalan 12 abidə ətrafında aparılırdı. N. Məcitov bu abidələri Türk

soylarından başqırd-berkutlara aid edirdi. V. İvanov və V. Kriqer isə bu abidələrdən daha 9-nun sırf qıpçaq abidəsi olduğu fikrində idilər (Иванов В. А., Кригер В. А.,1988). Tərəflərdən heç biri bu abidələri «monqollar»a aid etmirdi. Söhbət onların sadəcə hansı Türk boy və ya soyuna aidliyi barədə aparılırdı.

Əgər K. Salnikov və V. Moqilnikov haqlıdırlarsa və gerçəkdədn də «monqollar» çox qısa bir zamanda «türkləşmiş» və ölülərini türklər kimi kurqanlarda və ya kurqan tipli abidələrdə dəfn etməyə başlamışdılarsa, o zaman eləmə məlum 227 kurqanın 246 məzarından əldə edilmiş skeletlərin, heç olmasa, birində «monqol» geni tapılmalıdı idi. Həmin abidələrdən əldə edilmiş skeletlərdən heç olmasa bircəciyi monqoloid irqə mənsub olmalı idi. Lakin genetik analizlərin və antropoloji tədqiqatların nəticəsi tədqiq edilmiş sümüklərin hamısının birmənalı və istisnasız şəkildə türklərə, daha dəqiq desək, tatarlara aid olduğunu sübut edir (Думин С.В., Волков В.Г., Сабитов Ж.М., 2016, с.309-325; Панкратов В.С., Кушнеревич Е.И., Давыденко О.Г., 2014, с.94-100; Pankratov V., Litvinov S., Kassian A., Shulhin D., Tchebotarev L., Yunusbayev B., Möls M., Sahakyan H., Yepiskoposyan L., Rootsi S., Metspalu E., Golubenko M., Ekomasova N., Akhatova F., Khusnutdinova E., Heyer E., Endicott P., Derenko M., Malyarchuk B., Metspalu M., Davydenko O., Villems R., Kushniarevich A., 2016; Тюрин А.М., 2010; Sabitov Zh., Baimukhanov N., 2014).

Hazırda əldə olan bir sıra genetik nəticələr tarixə yenidən baxmaq lazım olduğunu sübut edir.

Bu baxımdan Cənubi Koreyadan olan bir qrup genetika mütəxəssisinin 2016-cı ildə «PLOSone» jurnalında dərc etdikləri bir məqalə (Gavaachimed Lkhagvasuren, Heejin Shin, Si Eun Lee, Dashtseveg Tumen, Jae-Hyun Kim, Kyung-Yong Kim, Kijeong Kim, Ae Ja Park, Ho Woon Lee, Mi Jin Kim, Jaesung Choi, Jee-Hye Choi, Na Young Min, Kwang-Ho Lee., 2016) dünyada sözün əsil mənasında sensasiyaya səbəb olmuşdur. Belə ki, koreyalı mütəxəssilər Monqolustandan olan həmkarları ilə birlikdə Çingiz xanla eyni soydan olduğu dəqiq bilinən «monqol» (qara tatar) hökmdarlarının Monqolustanda yerləşən «Tavan-Tolqoy» məzarlı-

ğındakı qəbirlərini açmış, orada uyuyan beş skeletdən DNT nümunələri götürərək tədqiq etmişlər (Чингисхан был.., 2016).

Tədqiqatçılar Çingiz xanla qohumluğu sənədlərlə tam sübut edilən beş nəfərin həm Y-xromosomunu, həm mitoxondrial DNT-sini, həm də autosomlarını təknukleotidli polimorfizm (SNP) və mikrosatellitlər (STR) üzrə təhlil edərək, onlardan dördünün ana xətti ilə qohum olduqlarını, D4 mitoxondrial haploqrupunu daşıdıqlarını üzə çıxarmışlar. Beşinci şəxs isə ana xətti ilə onlardan ayrı olmuş və CZ haploqrupunu daşımıdır. Qeyd etmək lazımdır ki, həm D4, həm də CZ mitoxondrial haloqruplar Şərqi Asiya üçün xarakterikdir. Bu isə deməkdir ki, onların anaları mənşəcə yerli qızlar olmuşlar (Чингисхан был.., 2016).

Alimlərin araşdırmaları sonucu məlum olmuşdur ki, tədqiqata cəlb edilən beş nəfərin beşi də həm SNP, həm də STR profilləri üzrə eyni etnosun nümayəndəsidirlər və R1b haploqrupuna sahibdirlər. Onlardan ikisində R1b-M343, birində isə və R1b-M17 haploqrupu aşkar edilib. Bu haploqruplar Qərbi Avrasiya üçün xarakterikdir. Görünür, elə bu səbəbdəndir ki, tədqiq edilən skeletlərdə həm avropoid (ata), həm də monqoloid (ana) irqinin əlamətlərinə rast gəlinib. Koreyalı və Monqolustanlı genetiklərin əldə etdikləri nəticə Çingiz xanın guya C3c-M48 haploqrupuna sahib olduğu barədə Çin alimlərinin faktiki materiala əsaslanmayan ehtimalını təsdiq etməmişdir (Чингисхан был.., 2016; Сабитов Ж., 2016).

Maraqlıdır ki, dövrümüzədək Çingiz xanın nəslindən olan onlarla xanın Avropa rəssamları tərəfindən çəkilmiş şəkli yetişmişdir. Bu şəkillərdə onların hamısı avropoid görünüşlüdür.

Deməli, Çingiz xanın babaları indiki Monqolustan ərazisinə Qərbdən gəlmişlər. Konkret olaraq haradan gəldiklərini isə müxtəlif türk xalqlarının Çingiz xanın mənşəyi ilə bağlı çoxsaylı rəvayətlərindən öyrənmiş oluruq. Maraqlıdır ki, «Çingiznamə»də Çingiz xanın soykökü ilə bağlı hun əfsanələri ilə bütünlüklə üst-üstə düşən son dərəcə maraqlı bir süjet yer almaqdadır. N.Y.Biçurinin «Uyğurların mənşəyi» adlandırdığı həmin hun əfsanəsi Çin mənbələrində qeydə alınmışdır. Onun məzmunu belədir:

«Belə deyirlər ki, hun şanyuyunun (xaqanının) iki çox gözəl qızı dünyaya gəlir. Saray adamları onları tanrıça hesab edirlər. Şanyuy deyir:

- Mən bu qızları insan oğluna ərə verə bilmərərm. Mən onları Tanrıya verəcəyəm.

O, paytaxtında qəsr tikdirib, qızlarını ora yerləşdirir. Üç il sonra anaları qızları oradan götürmək istəsə də, şanyuyu etiraz edir, hələ vaxtı çatmadığını söyləyir. Bir il sonra isə qoca bir qurd qəsrin divarlarını gecə-gündüz demədən oymağa başlayır. Orada özünə yuva salır. Kiçik qız deyir:

- Atamız istəyir ki, bizi Tanrıya versin, indisə bir qurd gəlib. Ola bilsin ki, bu, xoşbəxtlik əlamətidir.

Qız elə o andaca qurdun yanına getmək istəyir. Böyük bacı qorxuya düşərək deyir:

- Bu ki, heyvandır, valideynlərimizi biabır etmə.

Kiçik qız qulaq asmır, qurdun yanına gedir, onynla yaşayır və ondan bir oğlan doğur. Onun nəsli çoxalır və dövlət qururlar. Elə buna görə də hunlar uzun-uzadı oxumağı sevir və qurd kimi ulayırlar» (Бичурин, 1950-1953, 1, s. 214-215).

«Çingiznamə»dəki əfsanədə isə deyilir:

«Qədim zamanlarda Ağ dəniz sahillərində Malta şəhəri vardı. Bu şəhəri Altın xan idarə edirdi. Xanın arvadının adı Kurlevuç idi. Onların bir qızı oldu, adını Ulemlik qoydular. Qızı günəşdən və aydan gizlətmək üçün daş saray tikib onu orada saxladılar. Qız beləcə böyüdü. O, çox gözəl idi, güləndə qurumuş ağaclar göyərər, otsuz çöllər otla örtülərdi. Bir gün o, dayısından soruşdu: "Bu saraydan başqa dünya varmı?" Dayısı cavab verdi: "Dünya bu sarayın çölündədir, orada dünyanı işıqlandıran ay və gün var." Qız pəncərəni açıb günəşə baxdı və huşunu itirdi. O, günəş şüasından hamilə qəldı. Altın xanla arvadı bundan xəcalət çəkərək qızı qayığa qoyub onu Tün dənizə buraxdılar...» (İnan, 1934, s. 195)

Bu əfsanədə Ağ (Aralıq) və Tün (Qara) dənizlərinin adının çəkilməsi diqqəti çəkir. Gördüyümüz kimi, Çingiz xanın soyu ilə bağlı əfsanələr oun kökünü Ön Asiya ilə bağlı təqdim edir.

Maraqlıdır ki, bu əfsanənin başqa bir variantı Bakının Türkan kəndindən də toplanmışdır:

«Babam babasından, o da öz babasından, o da öz babasından eşidib, nəsildən nəslə ötürüblər ki, Qız qalasını Bakının birinci xanı özünün gözəl-göyçək qızını yad gözlərdən qorumaq üçün tikdirib. Deyilənə görə, qız o qədər göyçəkmiş ki, aya deyirmiş sən çıxma, mən çıxım, günə deyirmiş sən çıxma, mən çıxım. Qızı görən onun gözəlliyinə tab gətirməyib qəşş edərmiş. Odur ki, xalq arasında gözəlliyinə görə ona Maral deyərmişlər.

Maral böyüyüb, həddi-büluğa çatanda xan onu qisməti çıxana qədər naməhrəm gözündən uzaq tutmağa qərar verib və qalanı da bu məqsədlə tikdirib. Fikri qızı Rum şahının oğluna verməkmiş. Qız darıxmasın deyə, Bakı kəndlərindən abırlı-həyalı qırx incəbel qız seçib onun xidmətinə verirlər. Amma Maral qızlara deyir ki, tək qalıb zikr və dua etmək istəyir. Beləcə, hücrələrdən birinə çəkilib zikr etməyə başlayır. Allaha onu bu məhbəsdən qurtarması üçün gecə-gündüz dua edir. Günlərin birində, gecə vaxtı qalanın pəncərəsindən içəri bir işıq düşür. İşıq böyük bir canavara çevrilir. Qız bərk qorxur. Canavar dil açıb qıza deyir:

- Qorxma, sən o qədər zikr və dua etdin ki, Allahın sənə rəhmi gəldi və məni göndərdi ki, səni bu məhbəsdən xilas edim. Min belimə, səni uzaq ellərə aparacağam.

Maral Allaha şükr edir və canavarın belinə minir. Canavar deyir:

- Boynumu bərk-bərk qucaqla ki, yıxılmayasan.

Qız o deyən kimi edir, onun boynunu bərk-bərk qucaqlayır. Qurd qızla birlikdə özünü dənizə atır və üzüb o biri sahilə keçir. Bundan sonra qızı görən olmur.

Qurdun Maralı qaçırdığını görən xidmətçi qızlar xanın qorxusundan Allaha dua edirlər ki, onları daşa döndərsin. Amma Allah onları daşa yox, qu quşlarına döndərir. Buyurur ki, Maralın dalınca uçsunlar və ona yenə də əvvəlki kimi xidmət etsinlər» (Tuncay B, 2013, c. 141-142).

Qoa-Maral (Alan-Qoa) ilə bağlı süjetdəki möcüzəli hamiləlik motivi türk əfsanələrində çox geniş yayılmış motivlərdəndir.

Məsələn, eyni əfasənənin başqırd variantında hadisə Ağ dəniz (Aralıq dənizi) sahillərində yerləşən Makin (?) şəhərində, xanın gözəl qızı Kuləməlik-Kurklık ilə (qazaxlarda bu şahzadə Almalıkdır) baş verir, qız günəş şüalarından hamilə qalır. Əsəbiləşən xan onu günüş qayığa mindirərək Ağ dənizə buraxır.

Bu süjetə bənzər süjet qazaxlarda da var və həmin süjet arqun boyunun mənşəyi ilə bağlıdır. Analoji süjeti V. Radlov qırğızlarda da qeydə almışdır. O, Çingiz xanın doğulmasına həsr olunmuşdur. Qırğız variantında söhbət Altın bəyin yeraltı zindanda saxladığı gözəl qızı ilə bağlıdır. Xan zindandan qaçaraq gün üzünə çıxan qızına acıqlanır və onu öldürmək qərarına gəlir. Lakin xanın arvadı qızıl sandıq düzəltməyi əmr edir, qızı sandığa qoyub dənizə buraxır. Sandığı tapan bahadır Toktoqul-Mergen qızla evlənir və qız ona Şinqis (Çingiz) adlı oğul doğur.

Əfsanənin macar variantı da maraqlıdır. Burada söhbət İstanbul (Konstantinopol) imperatorunun qızından gedir. Onun adı qazax variantındakı ada (Almalık) bənzəyir – Allemali. Günəşin şüası onun otağına pəncərədən daxil olur və o, hamilə qalır. Bundan xəbər tutan atası qızını qulluqçuları ilə bir gəmiyə yığıb açıq dənizə buraxır. Külək gəmini macarların yaşadıqları Qafqaz dağlarına tərəf sürükləyir.

Bənzər süjet Sibir türklərində də qeydə alınmışdır.

Maraqlıdır ki, rəvayətlərdə Çingiz xanın ulu əcdadlarından olan Börteçinonun (Bor Toğanın // Boz Toğanın) dənizi (Xəzəri) aşaraq bugünkü Monqolustan ərazisinə gəldiyi və burada məskunlaşdığı açıq şəkildə ifadə edilməkdədir. Burada o Qao Maral (Maral Qova) adlı qızla evlənmişdir (Jean-Paul, 2005, s. 310). Eyni rəvayətin başqa variantında isə Börteçinonun Qoa Maralla dənizin o biri tayında evləndikləri və dənizi birlikdə keçdikləri bildirilir.

Çingiz xan qıyat boyuna daxil olan Boz Toğan (boz şahin) soyunun bəy ailəsindən idi. Soy öz adını soyun onqonu olan boz doğandan (boz şahin quşundan) almaqda idi. Bu səbəbdən də Çingiz xanın, eləcə də mənsub olduğu soyun bayrağında boz doğan (boz şahin) rəsmi çəkilmişdi (Хара-Дабан, 1996, s. 127).

Qıyat boyuna gəlincə, "Xannamə"yə görə bu boy öz adını Kimeri xanın nəslindən, yəni kimmerlərdən olan Qıyat xanın adından almışdır. Məlumat üçün bildirək ki, bu boy bütün tarixi mənbələrdə türk boylarından biri kimi qeyd edilib. Qıyat xanın tarixçəsi dastanda belə anladılır:

«Kimerinin soylarından Qıyat xan adlı bir xan da var idi. O da Bənən şəhərindən idi. Ozqan xanın nəslindən olan digər böyük öz bək xanlarının zamanında bu şəhərdə gizlənmiş və səsini çıxarmamışdı. Aşbara xanın oğullarının vəziyyətini öyrənib, özünün də Kil xanın nəslindən olduğunu söyləyərək Turan üzərində haqq iddia etməyə başlamışdı. Bir ordu toplayaraq Toxmaş şəhəri üzərinə yürümüş və Aşbara xanın oğlu Arslan xanla qarşılaşmışdı.

Arslan ilə Qıyat xan arasında baş verən bu qarşıdurmada Arslan xan öldürülür. Qıyat xan Toxmaş şəhərini ələ keçirib, Turan hökmdarı qismində taxta oturur. Aşbara xanın ikinci oğlu yaratdığı qarışıqlıqlardan və etdiyi haqsızlıqlardan peşiman olaraq, Kerü Kırım (Xəzər) dənizinin sahilinə gələrək burada bir şəhər salır və yaşamağa başlayır. Bu səbəbdən də həmin şəhərə Əjdər xan (Həştərxan) deyirlər» (Tuncay, 2013, c. 145).

Qazaxıstanlı genetik J. Sabitov R1b-M343 haploqrupunu nəşr olunmuş bəzi gen bazaları ilə tutuşduraraq Çingiz xanın kötükcələrinin hazırda hansı bölgələrdə yaşadıqlarını və onların hansı millətə və ya millətlərə aid olduqlarını müəyyənləşdirməyə çalışmış və Çingiz xanın genlərini daşıyan 7 nəfəri müəyyən edə bilmişdir. Bunlardan biri hazırda Çukurovada yaşayan bir Anadolu türkü, ikisi özbək, biri dunsyan (Çinin Qansu vilayətində yaşayan monqollaşmış əski türk boyu), biri İvanovoda, biri isə Severdlovskda yaşayan iki nəfər rus və biri də Cənubi Uralda yaşayan bir nəfər çuvaş türkü çıxmışdır.

Alim daha çox gen bazasını gözdən keçirdikdən sonra onun başqa kötükcələrini də üzə çıxarmışdır. Onların hamısı türk xalqlarının nümayəndələridir (Сабитов Ж., 2016):

| Kit | Nation | Hg | 393 | 390 | 19 | 391 | 385 | 439 | 389i | 392 | 389 ii | 458 | 437 | 448 | Y-GATA-H4 | 56 | 38 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 370477 | Bash-qort? | R1b-M73 | 13 | 22 | 14 | 11 | 13-17 | 13 | 13 | 13 | 30 | | | | | | |
| 342871 | Bash-qort | R1b-M73 | 13 | 22 | 14 | 11 | 13-17 | 13 | 13 | 13 | 30 | 15 | 15 | 20 | 10 | 6 | 0 |
| 279702 | Ka-zakh | R1b-M73 | 13 | 22 | 14 | 11 | 13-17 | 13 | 13 | 13 | 30 | | | | | | |
| 370250 | Ka-zakh | R1b-M73 | 13 | 22 | 14 | 11 | 13-17 | 13 | 13 | 13 | 30 | 15 | 15 | 20 | 10 | 5 | 0 |
| 313054 | Tatar | R1b-M73 | 13 | 22 | 14 | 11 | 13-17 | 13 | 13 | 13 | 30 | 15 | 15 | 20 | 10 | 5 | 0 |
| 90127 | Uzbek | R1b-M73 | 13 | 22 | 14 | 11 | 13-17 | 13 | 13 | 13 | 30 | 15 | 15 | 20 | | | |
| 90126 | Uzbek | R1b-M73 | 13 | 22 | 14 | 11 | 13-17 | 13 | 13 | 13 | 30 | 15 | 15 | 20 | 10 | 5 | 0 |
| K1818 | Ka-zakh | R1b-M73 | 13 | 22 | 14 | 10 | 13-17 | 13 | 13 | 14 | 30 | | | | | | |
| 279134 | Bash-qort | R1b-M73 | 13 | 22 | 14 | 11 | 13-17 | 13 | 13 | 13 | 30 | | | | | | |
| K2181 | Ka-zakh | R1b-M73 | 13 | 22 | 14 | 11 | 13-17 | 12 | 13 | 13 | 30 | | | | | | |
| 90124 | Uzbek | R1b-M73 | 13 | 22 | 14 | 11 | 13-17 | 12 | 13 | 13 | 30 | 15 | 15 | 20 | 10 | 5 | 0 |
| 90125 | Uzbek | R1b-M73 | 13 | 22 | 14 | 11 | 13-17 | 12 | 13 | 13 | 30 | 15 | 15 | 20 | | | |
| MN0104 | | R1b-M343 | 13 | 22 | 14 | 11 | 13-17 | 12 | 13 | 13 | 30 | 15 | 15 | 20 | 10 | 5 | 0 |

**J.Sabitovun təsbitinə görə, Çingiz xanın birbaşa kötükcəsi adlanmağa qazaxların kiçik jüzündən olan bir nəfər qazax və hazırda Tacikistanda yaşayan iki nəfər özbək ən yaxşı namizədlərdir. Özbəklərdən birinin genləri Çingiz xanın genləri ilə 17 STR markerinin hər biri üzrə tam üst-üstə düşür (Сабитов Ж., 2016).**

# NƏTİCƏ

İrsiyyətin müəyyən edilməsinin əsasını təşkil edən Y-xromosomu atadan oğula keçdiyi və minillər ərzində dəyişmədiyi üçün təkcə ayrı-ayrı fərdlərin deyil, həm də ayrı-ayrı xalqların nəsil ağacının izlənməsinə imkan yaradır. Y-xromosomların tədqiqi əsasında kurqan mədəniyyətini yaradan və arxeoloqlar arasında «kurqan etnosu» kimi tanınan etnosun kimliyini və bu «etnos»un hazırki xalqlar arasındakı varislərini müəyyənləşdirmək istiqamətində aparılan tədqiqatlar son dərəcə maraqlı nəticələrin əldə edilməsinə səbəb olmuşdur. Həmin nəticələr bunlardır:

1. Genetiklərin əldə etdikləri nəticə iranşünaslarla türkoloqlar arasında skiflərin mənşəyi ilə bağlı iki əsrə yaxındır ki, davam edən mübahisəyə son qoymuş və sözügedən xalqların türk olduqlarını birmənalı şəkildə təsdiq etmişdir. Belə ki, Qara dəniz sahillərindən Altaya qədər uzanan geniş ərazidəki fərqli skif kurqanlarından tapılmış 96 skeletdən götürülmüş nümunələrinin tam genomlu SNP markerləri üzrə PCA analizləri aparılmış, bu zaman 8 skif genomunu, eləcə də 167 daha qədim və 777 müasir genomu əsas götürmüş və məlum olmuşdur ki, e.ə. I minillikdə Uralda, Qazaxıstanda və Qara dəniz sahillərində yaşamış skiflər öz aralarında genetik bağlarla sıx bağlı olmaqla yanaşı, bu gün həmin ərazilərdə yaşayan türk xalqlarının ulu babalarıdırlar, özləri isə həmin ərazilərin son tunc dövrü əhalisinin, onlar vasitəsilə isə Mərkəzi Avropanın eneolit və tunc dövrləri qəbilələrinin, o cümlədən çuxur və kərtmə mədəniyyətlərini, eləcə də Samara mədəniyyətini yaratmış qəbilələrin birbaşa varisləridirlər.

2. Mərkəzi Asiyadan Şərqi Türküstan və Balkanlara, Volqadan Hindiquşa qədər uzanan geniş ərazilərdə yaşayan xalqların böyük əksəriyyəti bu gün türk dilinin müxtəlif ləhcə və şivələrində danışırlar. Bu ərazi tunc dövründə kərtmə və Andronovo mədəniyyətlərinin, dəmir dövründə isə iskit, sak, sarmat və hunların yaşadıqları ərazi ilə üst-üstə düşür və həmin xalqlar da eynən sözügedən mədəniyyətlərin daşıyıcıları kimi R1a1 və müəyyən qədər R1b haploqrupuna sahibdirlər.

3. Sibirin türk xalqlarının genetik yapısının O. A. Balaqanskaya və digər tanınmış genetiklər tərəfindən hərtərəfli araşdırması sonucunda gəlinən qənaətə görə, Qərbi Avrasiya substratının (R1a1a) 4000 il öncə Sibirdə peyda olmasından sonra keçən dövr ərzində onun tədricən yerli substratlar - Q, eləcə də N1c1 və N1(xN1c1) tərəfindən sıxışdırılması müşahidə edilməkdədir. Hazırda Q substratı Sibirdə orta hesabla 32%, Altay və xakas türklərində isə 18 % təşkil edir. N1c1 və N1(xN1c1) substratı isə bölgənin müxtəlif xalqlarında 2-89 % arasında dəyişir. Türk xalqlarında onun göstəricisi keçən 4000 il ərzində 17-18 faizə çatıb. Nəticədə bu xalqlarda monqoloidlik əlamətləri artmağa başlayıb.

4. Həm skif və sakların, həm də sarmat və alanların R1a haploqrupuna sahib olduqları elm tərəfindən artıq təsbit edilmişdir. Elni ədəbiyyatda bir əsrə yaxındır ki, həmin xalqların birbaşa varisi kimi təqdim edilən osetinlərdə - nə diqorlarda, nə də ironlarda R1a haploqrupuna, demək olar ki, rast gəlinməyib. Onların genlərində G2a haploqrupu dominantlıq təşkil edir. Diqorlarda bu göstərici 2/3, ironlarda isə 3/4-dür. Yəni osetinlərin diqor boyunun hər üç nəfərindən ikisi, iron boyunun hər dörd nəfərindən üçü sözügedən haploqrupun daşıyıcısıdır. Odur ki, osetinləri alanların, demək həm də skif, sak və sarmatların varisləri hesab etmək səhvdir.

5. Alan qəbirlərindən çıxan skeletlərin DNT analizləri sübut edir ki, onlar da skif, sak və sarmatlar kimi R1a haploqrupunun daşıyıcıları olublar. Osetinlər içərisində bu haploqrupun təmsilçiləri 0,5-0,8 % təşkil edir. Həmin haploqrup inquşlarda 7, İnquşetiyada yaşayan çeçenlərdə isə 8 % təşkil edir. Qaraçaylı və balkarlarda isə bu göstərici 36 faizə çatır. Bu isə o deməkdir ki, alanların, deməli, həm də iskit, sak və sarmatların Şimali Qafqazdakı əsas kötükcələri qaraçay və balkar türkləridir.

6. Rusiya ərazisində aparılan tədqiqatlar tatar və başqırdların da eynən qaraçay və balkarlar kimi skiflərin nəsilləri olduğunu göstərməkdədir. Tatarlarda eynən xəzərlərdə olduğu kimi R1a-Z93 və R1a-Z280 haploqrupları dominantlıq təşkil edir və

bu fakt sözügedən türk xalqının köklərinin Qərbi Avrasiya ilə bağlılığına işarə edir. Tatarlar, eləcə də çuvaş türkləri üçün xeyli miqdarda fin-uqor xalqları üçün xarakterik olan N2 və N3 haploqrupları da xarakterikdir ki, bu da keçmişdə regionda baş vermiş qarşılıqlı nigahların nəticəsidir. Elə bu səbəbdəndir ki, mari, mordva, komi və udmurtlar kimi fin-uqor xalqlarında da çox sayda R1a daşıyıcısı müəyyən edilmişdir.

7. Tatar və başqırdlarda kifayət qədər R1b3 haploqrupu da müşahidə edilib. Tatarlarda bu 15, başqırdlarda isə 43 % təşkil edir. R1b haploqrupunun da eynən qohum R1a haploqrupu kimi Yaxın Şərqdə formalaşdığı, oradan Avropaya və daha sonra Avrasiyanın geniş ərazilərinə yayıldığı hesab edilir. R1a ruslar üçün də xarakterik olan haploqruplardandır ki, bu da ruslar içərisində xristianlığı qəbul etmiş və slavyanlaşmış türk mənşəlilərin həddən artıq çox olduğundan xəbər verir.

8. Genetik tədqiqatlar xəzərlərin etnogenetik nəsil zəncirində skiflərlə müasir türk xalqları, xüsusən də qaraçaylılar və balkarlar, eləcə də tatarlar və başqırdlar arasında birləşdirici halqa olduğunu göstərir. Üzərlərində genetik analizlər aparılmış xəzərlərə aid sümük nümunələrinin analizi onların R1a–Z93 haploqrupunun daşıyıcısı olduğunu üzə çıxarmışdır. Ümumilikdə isə aparılan tədqiqatlar nəticəsində xəzərlərin ümumi əcdaddan gələn iki nəsldən ibarət olduqları məlum olub ki, sözügedən haploqrupu onlardan sadəcə biri daşımışdır. Bu haploqrup genetik sıralamada 1251 indeksi altında qeyd edilir. Digər nəsil isə 1986 indeksi ilə qeyd edilmiş R1a–Z280 haploqrupunun daşıyıcısı olub. Genetiklərin apardıqları hesablamalara görə, bu iki soyun ümumi əcdadı 2750-3590 il əvvəl, başqa sözlə, e. ə. II-I minilliklərdə yaşamışdır. Belə hesab edilir ki, R1a–Z93 kök nəsil olmuş, R1a–Z280 isə ondan ayrılmışdır, yəni onun fərqli bir qolu olmuşdur. Çünki R1a–Z93 daha qədimdir və kərtmə mədəniyyətini yaradan xalq da onun daşıyısı olmuşdur. Bu nəslin ən azı 5000 il yaşı olduğu, onun təqribən 8075 il öncə tarix səhnəsinə çıxan daha qədim nəsildən ayrıldığı hesab edilir. Bu haploqrupa

Potapov, Sintaşta, Andronovo, Karasuk mədəniyyətlərinin yaradıcılarının genlərində də rast gəlinib.

9. Çatal-Höyükün neolit və eneolit dövrünə aid mədəni təbəqələrindən tapılan 800-ə yaxın skeletdən götürülmüş DNT nümunələrinin analizi nəticəsində məlum olub ki, həmin şəhərin əhalisinin daşıdıqları genomlar içərisində R1b və R1a haploqrupları dominantlıq təşəkil edirdi. Şəhər əhalisinin 24 faizi R1b, 14 faizi isə R1a haploqrupunun daşıyıcısı olub. Bu fakt «Neolit inqilabı»nın müəlliflərinin R1b və R1a haploqrupunun daşıyıcıları olan türklərin ulu babalarının olduqlarını söyləməyə əsas verir.

10. Altay, Sayan, Tyan-Şan və Pamirin türkdilli əhalisinin Y-xromosomunun polimorfizmi Qərbi və Şərqi Avrasiyanın genofondlarının qarşılıqlı əlaqəsi kontekstində öyrənilməsi istiqamətində apılan tədqiqatların nəticəsinə görə, R1a1a haploqrupu tədqiqata cəlb edilmiş bütün populyasiyalarda, yəni əhali qruplarında 4-61 % arasında müşahidə edilməkdədir. Bu hal, çox güman ki, sözügedən ərazidə iskit-sarmat dövründə və daha öncəki dövrlərdə üstünlük təşkil etmiş paleoavropa substratını markerləşdirir. R1b1b2(269) variantı isə bunun əksinə olaraq öyrənilən populyasiyalarda çox nadir hallarda rast gəlinir (1%) və orta hesabla polimorfizm həddinə çatmır.

11. Altay, Sayan, Tyan-Şan və Pamirin türkdilli əhaləsində (toplam 1101 nəfər) üç əsas gen axını istiqaməti aşkar edilmişdir: (R1a1a haploqrupu ilə markerləşən) Qərbi Avrasiya, Şərqi Avrasiya (C, D, O haploqrupları) və Şimali Avrasiya (N1b, N1c1 və Q) genləri.

12. Tədqiqata cəlb edilmiş türkdilli əhali qruplarının genofondunun formalaşmasında əsas tendensiya özünü Qərbi Avrasiya (paleoyevropoid) komponentinin Şərqi Avrasiya (monqoloid) komponenti ilə əvəz olunması şəkilində göstərir. Monqoloid təsir özünü baryer rolunu oynayan dağlıq zonalara nisbətən çöl və çöllə həmsərhədd zonalarda daha çox büruzə verir. Onların genlərində protoural və paleoasiya komponentlərinin izləri də qorunub saxlanılmışdır.

13. Öyrənilən türkdilli populyasiyalar genetik sahədə üç klasterdə birləşir: Altay-Sayan, çöl və bu ikisi arasında keçid olan Pamir – Tyan-Şan. Y-xrosomun hər iki (SNP və STR) markeləri üzrə xakaslarla qırğızların daha sıx etnogenetik bağlarının olduğu, şorların Qərbi Avrasiya, qazaxların isə Şərqi Avrasiya komponentinə daha yaxın olduğu müəyyən edilib.

14. Nisbətən tez-tez müşahidə edilən haploqruplar (N1b, N1c1, P1a1a, R1b1b1, Q, D) STR-haplotiplərin klasterləri müəyyənləşdirilib. Onlar əsasında Cənubi Sibir və Orta Asiya xalqlarının genofondunun nisbətən cavan (təqribən 4000 il) olduğu aşkar edilib.

15. Genetika elmi ilk türklərin Altay, Sayan, Pamir və Tyan-Şana 4000 il bundan əvvəl qərbdən, daha dəqiq desək, Qərbi Avrasiyadan gəldiklərini bildirir. Bu isə o deməkdir ki, türklərin Altay mənşəli olduqları və bu ərazidən bütün Avrasiya ərazilərinə yayıldıqları fikri öz təsdiqini tapmır. Genetiklərin Avrasiya ərazisinə yayılmış və müxtəlif minilliklərə aid çoxsaylı kurqanlardan aşkar edilmiş skeletlərdən götürdükləri DNT nümunələri əsasında onların, demək olar ki, hamısının R1a və R1b haploqruplarının daşıyıcısı olduğu və həmin genlərin Qərbi Avrasiyanın eneolit dövrü qədim əhalisi ilə bağlı olduğu üzə çıxmışdır.

16. Dünyanın 33 aparıcı genetikinin birlikdə apardıqları tədqiqatların nəticələri göstərir ki, fileocoğrafi məlumatlara əsasən, R1a-M420 haloqrupunun ilkin diverfikasiya epizodları təqribən 5800 il öncə İranın bilavasitə yaxınlığında, Qərbi Azərbaycan vilayətində və Şərq Anadoluda baş verib. Tədqiqata cəlb edilmiş R1a-M420 (xSRY10831.2) xromosom barədə məlumatların 18-i İranın Qərbi Azərbaycan vilayətindən, 3-ü isə Şərqi Anadoludan əldə edilmişdir. Müşahidə edilən R1a1-SRY10831.2 (xM417 / Page7) altı xromosomdan beşi də analoji olaraq məhz İran Azərbaycanında üzə çıxarılıb.

17. P. Anderhill və digərlərinin tədqiqatlarına əsasən deyə bilərik ki, təqribən 6000-5500 il əvvəl R1a (M420)>(M198), (M417) > (SRY10831.2) haploqrupunun daşıyıcıları olan qədim

türklərin bir qismi yeni otlaq yerləri axtararaq, Qafqazdan keçməklə Avrasiya düzənliklərinə hərəkət etmişlər – R1a (SRY10831.2) > (Z93). Qədim türklərin başqa bir hissəsi isə (çağdaş cənubi azərbaycanlılar) əski yurd yerlərində qalıblar və onların nəsilləri bu gün də həmin ərazilərdə yaşayırlar.

18. Arxeoloqlar, bir qayda olaraq, eneolit mədəniyyətinin Avropa və Qafqaza ayaq açmasını Anadoludan və ona həmsərhəd olan Güney Azərbaycandan köçüb gələn miqrantlarla bağlayırlar. Genetiklərin tədqiqatları sayəsində həmin köçmənlərin R1a və R1b Y-xromosomlarının daşıyıcıları olduqları, bir müddət sonra kurqanda dəfn ənənəsinin də məhz onların içərisində yarandığı məlum olmuşdur.

19. Tədqiqatlar nəticəsində eneolit mədəniyyətininin kurqanaqədərki və ondan sonrakı sərhəddinə aydınlıq gətirməyi bacaran alimlərin səyləri nəticəsində bu yeniliyin ilk dəfə harada yarandığı və Avrasiyanın geniş çöllərinə haradan, hansı marşrutlar üzrə və nə zaman yayıldığını müəyyən etmək, qismən də olsa, mümkün olmuşdur. Məlum olmuşdur ki, R1b və R1a Y-xromosomlarının daşıyıcılarının eneolit dövründə Avropada qurduqları ilk mədəniyyət kimi hələlik e.ə. V-IV minilliklərə aid Xavalınsk mədəniyyətini gözdən keçirmək daha doğru olar. Xvalınsk kurqanlarından çıxan skeletlərdən götürülən DNT nümunələrinin analizləri nəticəsində burada da eynən Çatal-Höyükdə olduğu kimi R1b və R1a Y-xromosomlarının dominantlıq təşkil etdiyi məlum olmuşdur.

20. Azərbaycan Respublikasında sistemli və əsaslı genetik analizlər aparılmadığından bizim genetik yapımız haqqında məlumatları Rusiya alimlərinin Dağıstan (Dərbənd) azərbaycanlıları üzərində apardıqları tədqiqatlardan öyrənmiş oluruq. Həmin tədqiqatlardan belə məlum olur ki, bu gün də Azərbaycan türklərinin genetik yapısında, Kür-Araz mədəniyyəti və «Kür-Araz eneoliti» dövründə olduğu kimi, R1b Y-xromosomu aparıcı yer tutur. Tədqiqatlar göstərir ki, Azərbaycan türklərində dominant olan R1b haploqrupunun R1b1a2a-L23 və R1b1a2-M269 vari-

antları (haplotipləri) Ön Asiya (Şərqi Anadolu və Cənubi Qafqaz) mənşəlidir.

21. E.ə. IV minillikdə Azərbaycan ərazisində peya olan və radiokarbon analizləri nəticəsində bölgənin ən qədim kurqanları kimi qəbul edilən dəfn abidələri 11 №-li (2005) Soyuqbulaq kurqanı (e.ə. 3930-3760-cı illər), Üçtəpə kurqanı (e.ə. 3932-3363-ci illər), 8 №-li (2005) Soyuqbulaq kurqanı (e.ə. 3790-3710-cı illər), eləcə də 14 (2005, e.ə. 3700-3640-cı illər) və 9 №-li Soyuqbulaq (2005, e.ə. 3650-3639-cu illər) kurqanlarıdır. Digər Soyuqbulaq kurqanları e.ə. IV minilliyin ortalarına aiddir.

22. Qərbi Azərbaycanda (Ermənistan) tədqiq edilən və radiokarbon analizlərinin nəticələrinə görə e.ə. 3700-cü illərə (e.ə. IV minillik) aid edilən 5 və 6 №-li Sərdarabad (Aknaliç), eləcə də e.ə. 2619-2465-ci illərə, yəni e.ə. III minilliyə aid olduğu radiokarbon analizləri ilə təsbit edilən Alagöz (Talin) və Əmirxeyir (1991-ci ildə adı dəyişilərək Kalavan qoyulub) kurqanlarından tapılmış sümük qalıqlarının DNT analizi onların R1b və R1a haploqrupunun daşıyıcısı, yəni türk olduqlarını ortaya qoymuşdur.

23. Türkiyədəki qədim Arslantəpə ərazisində aparılan qazıntılar nəticəsində məlum olub ki, Arslantəpəyə təqribən e.ə. 3400-cü illərdə Güney Qafqazdan gələn Kür-Araz mədəniyyəti (R1b) daşıyıcıları hakim olmuş, təqribən e.ə. 3300-cü ildə burada dövlət qurulmuş və hökmdar sarayı mövcud olmuşdur. Sarayda oturan hökmdarlar kurqanlarda dəfn edilərdi və dövrümüzədək e.ə. 2900-cu illərə aid belə kurqanlardan, yəni hökmdar kurqanlarından biri gəlib çıxmışdır. Bu isə o deməkdir ki, artıq ən azı e.ə. 3300-3200-ci illərdə burada bir prototürk dövləti mövcud idi. Daha doğrusu bu şəhər bütün «Kür-Arazlı»ların bir növ paytaxtı, mədəni və siyasi mərkəzi idi.

24. E.ə. III minilliyə aid edilən, İranın şimal-qərbində yerləşən Timərə (Teymərə) qayalıqlarında rast gəlinən oğuz boylarına (kayı, bayat, salğur və s.) məxsus damğalar protooğuzların bu ərazilərin ən qədim avtoxton sahibləri olduğunun, buralarda ən azı Erkən Tunc dövründən məskun olduqlarının və dünya si-

vilizasiyasında önəmli mərhələlərdən biri olan Kür-Araz mədəniyyətinin yaradıcıları qismində çıxış etdiklərinin təkzibedilmz sübutudur.

25. Kür-Araz mədəniyyətinin və ilk dövlətimizin qurulmasında iştirak etmiş digər prototürk soy və boylarının adlarını e.ə. III-II minilliklərə aid mixi kitabələrdən öyrənə bilərik. Bunlar suvar // subar, turuk // türk, su // so, ku // kumen boylarıdır.

26. Türklərin R1b Y-xromosomlarının daşıyıcısı olan hissəsinin, yəni protooğuzların Avropada qurduqları daha bir möhtəşəm mədəniyyət e.ə. 3600-2300-cü illəri əhatə edən, başqa sözlə, son eneolit – ilk tunc dövrlərinə aid olan Çuxur mədəniyyətidir. Bu mədəniyyəti Xavalınsk mədəniyyətininin davamı və birbaşa varisi hesab edirlər. Belə hesab etmək üçün ən əsas arqument hər iki mədəniyyətin eyni coğrafi ərazidə (Cənubi Uraldan Dnesyr çayına və şimali Qafqaza qədər uzanan ərazilərdə) peyda olması, ölülərin kurqanlarda arxası üstə basdırılması, onların üzərinə oxra səpilməsi və R1b haploqrupunun dominant olmasıdır. Çuxur mədəniyyətinin daşıyıcılarının DNT analizləri də onların Şimala Cənubdan, Ön Asiyadan köçdüklərini söyləməyə əsas verir. Son illərdə aparılmış tədqiqatlar nəticəsində onlarda H, H15b1, U5, T2, T1, T1a1, U4, K, W, N1a, J, U2, X, R0a1 mitoxondrial (ana xətti) haploqruplarını üzə çıxarmışdır. Lakin bizi maraqlandıran təkcə ata xətti, yəni mitoxondrial haploqruplar yox, həm də ata xətti, başqa sözlə qadınlarda olmayan, atadan oğula keçən Y-xromosomlardır. Rostov vilayətindəki Ulan IV məzarlığından tapılmış 11 skeletin DNT analizləri onların hamısında R1a haploqrupunu aşkar etmişdir. Onlardan 8-inin R1a12a2, 1-inin R1ba2 M269, bir nəfərinin R1b1a2a-L23 və bir nəfərinin də R1b1a-P297 haplotipinə sahib olduğu məlum olmuşdur. Bu isə o deməkdir Çuxur mədəniyyətini yaradanlar əsasən Kür-Araz mədəniyyətinin daşıyıcıları olan gəlmələrlə daha öncəki Xvalınsk mədəniyyətinin daşıyıcısı olan yerlilərdən törəmişlər. Bu fikri antropoloqlar da təsdiq edirlər. Onların yazdığına görə, «Cuxurlu»ların önəmli hissəsi eynən «Kür-Arazlı»lar və «Maykoplu»lar kimi dolixokran kəllə quruluşuna sahib idilər.

27. Türklərin Avropada əsasını qoyduqları daha bir mədəniyyət eneolit dövrünün sonları - tunc dövrünün əvvəllərini əhatə edir və elmi ədəbiyyatda «Döyüş baltaları mədəniyyəti» və ya «Qaytan keramikası mədəniyyəti» adı ilə tanınır. Y-xromosomların müəyyənləşdirilməsi istiqamətində aparılmış DNT analizləri nəticəsində bu mədəniyyətin yayıldığı ərazilərin əksər hissəsində yaşayan qədim əhalinin böyük qisminin R1a1 haploqrupunun daşıyıcısı olduğu müəyyən edilmişdir. Bu nəticəyə Esperştedtdən tapılmış 1 (Esperstedt, № I0104) və Eylaudan (Eulau) üzə çıxmış 2 skeletdən götürülmüş DNT nümunələrinin analizi sonucunda gəlinmişdir. Polşadakı Leki Male yaxınlığındakı məzardan götürülmüş nümunənin analizi də eyni nəticəni vermişdir. Həmin ərazidə, e.ə. 2286-2048-ci illər arasında yaşamış insanın skeleti üzərində aparılmış tədqiqatlar onun da R1a (R1a1a1-M417) haploqrupuna sahib olduğunu ortaya qoymuşdur. Əldə edilən bu nəticələr Güney Qafqaz ərazisindəki orta eneolit və tunc mədəniyyətlərinin eyni xalq tərəfindən yarandığını və bölgədə qırılmayan, davamlı vahid bir etnik mədəniyyətin mövcud olduğunu sübut edir. Lakin çox təəssüflər olsun ki, bənzər araşdırmalar Azərbaycanda aparılmayıb və biz qədim kurqanlarımızda dəfn edilmiş meyitlərin etnik mənsubiyyətini, daha doğrusu, protoqıpçaq-bulqar (R1a) və ya protooğuz (R1b) olduğunu onun qəbirə qoyulma vəziyyətinə əsasən müəyyən etmək məcburiyyətindəyik. Meyit arxası üstə oturmuş vəziyyətdə, yəni dizləri bükülmüş vəziyyətdə uzadılıbsa o, protooğuz (və ya protooğuz-qıpçaq), böyrü üstə uzadılıbsa, protoqıpçaq-bulqar mənşəlidir. Sol böyrü üstədirsə qadın, sağ böyrü üstədirsə kişidir. Eyni sözlər, təbii ki, Soyuqbulaq kurqanları üçün də keçərlidir.

28. Cənubi və Cənub-Şərqi Ural ərazilərini əahatə edən, e.ə. III-II minilliklərə aid edilən və adını Tobol çayının sol qolu olan Sintaşta çayı sahilindəki eyniadlı yaşayış məntəqəsindən alan Sintaşta mədəniyyətinə aid kurqanlarındakı skeletlərdən götürülmüş DNT nümunələrinin analizləri bu mədəniyyətin daşıyıcılarının R1a (R1a1a1b2a2-Z2124 və R1a1a1b2a2-Z2123) Y-xromosomuna (ata xətti) və J1, J2, N1 və U2 mitoxondrial haploq-

rupuna (ana xətti) sahib olduqlarını, başqa sözlə, qıpçaq-bulqar olduqlarını ortaya qoymuşdur. E.ə. XVIII-XII əsrlərə aid edilən Kərtmə mədəniyyəti daşıyıcılarının da eynən «Sintaştlı»lar kimi R1a1a1b2a2a-Z2123 haploqrupunun daşıyıcıları olduğunu üzə çıxmışdır. Belə ki, 3900-3200 il bundan əvvəl yaşadıqları radiokarbon üsulu ilə müəyyənləşdirilmiş 6 skeletdən əldə edilmiş DNT nümunələrinin analizləri nəticəsində onların R1a (R1a1, R1a1a, R1a1a1b2, R1a1a1b2a2a-Z2123) Y-xromosomuna sahib olduqları müəyyə edilmişdir. Daha 14 skeletdən alınan nümunələr nəticəsində «Kərtməli»lərin ana xatti ilə U5a1 (2 nəfər), U5a1f2, U5a2a1, K1b2a, I1a1, T1a1, T2b4, J21a2a, H2b, H3g (iki nəfər), H5b, H6a1a mitoxondrial haploqruplarına aid olduqları məlum olub. Sintaşt mədəniyyəti kurqanlarından əldə edilmiş R1a1a1b2a2-Z2124 Y-xromosomunun izlərinə isə Andonovo mədəniyyətinə aid kurqanlarda rast gəlinib. Bu kurqanlardan əldə edilmiş DNT nümunələrinin analizləri nəticəsində 10 nümunədən 9-da R1a1 (R1a1a1b2a2-Z2124) haploqrupu, 1-də isə monqoloid xalqlarda rast gəlinən C (Prd M48) haploqrupu aşkar edilmişdir. Bu isə o deməkdir ki, Kərtmə və Andronovo mədəniyyətini yaradanlar bir atanın iki oğlunun nəsilləridir. Bu nəsillərdən biri (R1a1a1b2a2a-Z2123) Qərbə hərəkət edərək, Kərtmə mədəniyyətinin, digəri isə (R1a1a1b2a2-Z2124) Şərqə və Cənub-Şərqə hərəkət edərək Andronovo mədəniyyətini qurmuşlar.

29. Andronovo mədəniyyətini quran əski türk soyunun bir qolu Hindistan yarımadasına qədər gedib çıxmış və öz toxumunu, yəni R1a haploqrupunu indiki Hindistan, Pakistan, eləcə də Əfqanıstan ərazilərinə də yaymışdılar. Şərqə və Cənub-Şərqə hərəkət edənlər burada monqoloid irqlərin nümayəndələri (C-M48) ilə üzləşmiş və onları assimilyasiya etmişlər. Assimilyasiyaya uğrayaraq türkləşən C-M48 haploqrupu daşıyıcılarının bu günkü nəsilləri qazax türkləri içərisində əksəriyyət (60 %) təşkil edirlər.

30. Qazaxıstan ərazisində C-M48-lilərə öz dini-mifoloji görüşlərini qəbul etdirərək onları türkləşdirməyi bacaran, fəqət qarşılıqlı nigahlar sayəsində onlardan monqoloidliyi qəbul edən türklər Hindistan ərazisində isə yerlilərin dinlərini qəbul edərək,

öz əski dini-mifoloji dünyagörüşlərini tərk etdikləri üçün zamanla hind – urdu dilinə keçmişlər. Sonrakı türk axınları (saklar, kuşanlar, eftalitlər və s.) da onları assimilyasiyaya uğramaqdan xilas edə bilməmişdir. Əfqanıstanda isə onlar zamanla pəştu dilinə keçmiş və pəştulaşmışlar. Hazırda pəştuların təqribən 40, hindlilərin isə 14 %-i R1a haploqrupunun daşıyıcısıdırlar, yəni türk kökənlidirlər.

31. Türklərə xas R1a və R1b haploqruplarının və onların üzə çıxarıldığı kurqanların xronoloji ardıcıllıq əsasında öyrənilməsi Altay nəzəriyyəsinin heç bir ciddi elmi əsasının olmadığını və imperialist dairələr tərəfindən sırf siyasi və geosiyasi məqsədlərlə uydurulduğunu, R1a və R1b Y – xromosomlarının Şərqə doğru «səyahətə» Anadolu və Cənubi Azərbaycandan başladıqlarını, bu haploqrupların daşıyıcılarının Qafqaz və Balkanlar üzərindən keçərək, öncə Qafqazda və Avropada məskunlaşdıqlarını, yalnız bundan sonra üzlərini Şərqə tutaraq, Cənubi Sibir, Monqolustan, Altaylar və Şərqi Türküstana çatdıqlarını söyləməyə tam əsas verir. Genetik analizlər protooğuz-qıpçaqların (R1b) bu bölgələrdə protoqıpçaq-bulqarlardan (R1a) daha tez məskunlaşdıqlarını və həmin ərazilərdə Afanasyevo mədəniyyətinin əsasını qoyduqlarını göstərir.

